AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

# "Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda ikinci Qarabağ Vətən müharibəsi: Dövlət, Xalq, Ordu birliyi. Uğurlar və perspektivlər" adlı Beynəlxalq elmi konfransı

Məruzələrin tezisləri

Bakı, 29-30 oktyabr 2021- ci il

Bakı -2022

“Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda ikinci Qarabağ Vətən müharibəsi: Dövlət, Xalq, Ordu birliyi. Uğurlar və perspektivlər” adlı Beynəlxalq Elmi Konfransı
Məruzələrin tezisləri, Bakı, 29-30 oktyabr 2021-ci il
Bakı, 2022, 572 səh.

Qorxmaz Mustafayev Xankişi oğlu
Azərbaycan Dillər Universiteti

**Şanlı qələbəmiz və vandalizmə məruz qalmış abidələrimiz.**

Açar sözlər: Vətən müharibəsi, abidələr, vandalizm.

Ключевые слова: Отечественная война, памятники, вандализм.

Key words: Patriotic War, Monuments, Vandalism.

SSRİ-nin süqutu prosesində Azərbaycan xalqı həm müstəqillik uğrunda, həm də Ermənistanın işğalçılıq siyasətinə qarşı vuruşurdu. Azərbaycan Respublikası 1991-ci ildə müstəqillik əldə edəndən sonra Qarabağ uğrunda ölüm-dirim savaşı başladı. Ancaq müstəqilliyimizin elə ilk illərində Ermənistan havadarlarının dəstəyi ilə torpaqlarımızı işğal etdi.

İşğal edilmiş yaşayış məskənlərində azərbaycanlıların soyqırımından (Xocalı, Qaradağlı, Ağdaban, Ballıqaya və s.)  sonra, adi yaşayış tikililəri daxil olmaqla tarixi abidələr “soyqırım”a məruz qaldı. 1992-ci il Şuşa və Laçının işğalından, 2020-ci il Vətən müharibəsi nəticəsində torpaqlarımızın azad edilməsinə qədər keçən dövrdə demək olar ki, erməni vəhşiliyinin, vandalizminin sərhəddi olmamışdır. İşğala məruz qalmış Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilanın şəhər və kəndləri  tamamilə yer üzündən silinmiş, Xankəndi daxil olmaqla Şuşa, Xocavənd, Xocalı rayonları ərazisindəki tarixi əhəmiyyətli abidələr ya məhv edilmiş, ya da erməniləşdirilmişdir. Ermənistan işğalı altında olan yaşayış məskənləri və abidələr Minsk Qrupu həmsədrləri olan dövlətlərin, YUNESCO-nun gözü qarşısında məhv edilir və çox təəssüf ki,

dünyada güc sahibi olan dövlət və tarixi abidələrə cavabdeh olan beynəlxalq təşkilatlar ermənilərin vandalizm aktlarını susqunluqla müşahidə edirdilər.

Şuşa şəhərində 18-19-cu əsrlərdə tikilmiş Pənahəli xana aid "Qarabağ xan sarayı", "Yuxarı Gövhərağa məscidi", "Aşağı Gövhərağa məscidi", "Saatlı məscidi", Ulu öndər Heydər Əliyev tərəfindən tikdirilmiş "Vaqif türbəsi" daxil bütün tarixi abidələrimiz və o cümlədən, işğal edilmiş digər ərazilərimizdə minlərlə tarixi əhəmiyyətli abidələrimiz dağıdılmışdır.

Şuşa şəhərində əvvəllər heç bir tikili olmamışdır. 1752-ci ildə çəghərin bünövrəsi qoyulmuş və 1756/57-ci illərdə tamamlanmışdır. Yəni buradakı ən qədim tikilinin tarixi 1752-ci ildən öncəyə gedə bilməz. Arxeoloji qazıntılar zamanı tapılan qədim yaşayış məskənlərinin olması Şuşa şəhərinin hansısa bir yaşayış məntəqəsinin bünövrəsi üzərində tikilməsi kimi başa düşülməməlidir. Çünki şəhərin bünövrəsi qoyulanda yeni bir qala-şəhər kimi nəzərdə tutulub. Şəhərdə olan ilk tikililər Pənah xanın dövründə və İbrahim xanın dövründə tikilib. Şuşa şəhəri Azərbaycan şəhərsalma mədəniyyətində xüsusi yer tutur. Bu qala şəhəri müsəlman ölkələrində olan şəhərsalma üslubunun bütün elementlərini özündə birləşdirir. Pənahabad qalasının, sonralar Şuşa adlandırılan şəhərin bünövrəsini qoyan Pənah xan şəhəri "qədim Azərbaycan memarlıq abidələri ənənələri əsasında tikmək üçün adamlar göndərib Təbriz, Ərdəbil və başqa şəhərlərdən ustalar gətirmişdi" [1,83].

Şuşa şəhərindəki tarixi abidələrdən sayılan məscidlərin kimlərin təşəbbüsü ilə tikilməsi haqqında mənbələr məlumatları maraqlıdır. "Qarabağnamə"lərə əsaslanaraq "Şuşa şəhərinin tarixi"ni yazan Həsən İxfa Əlizadə qeyd edir ki, "Bayat və Şahbulaq qalalarında olduğu kimi Şuşa qalasında da ilk tikililər sırasında hamam və məscid var idi"[1,83]. [1] Pənah xan zamanında şəhər meydanında tikilmiş, xalq arasında "Yuxarı məscid" adlanan məscidi İbrahim xan "1768-ci ildə" yenidən tikdirmişdi [1,113]. Bu məscid

sonralar İbrahim xanın qızı Gövhər Ağa tərəfindən sökülüb yenidən tikildiyi üçün "Yuxar Gövhərağa" məscidi adlandırılmışdır [1,83]. "Yuxarı Gövhərağa məscidi" tikiləndən qısa müddət sonra "Aşağı Gövhərağa məscidi" də tikilmişdir. Bu məscidlərdən əlavə Şuşada məhəllə məscidləri də mövcud idi.

Azərbaycan xalqı torpaqlarımızın işğalı ilə barışmır, daim torpaqları azad etmək üçün Azərbaycan Respublikası Prezidentinin əmrini gözləyirdi. İşğal edilmiş torpaqlarımızda toplanmış erməni hərbi birləşmələrinə və havadarlarına arxalanan terrorçu Ermənistanın cinayətkar hakimiyyəti isə yeni torpaqlar işğal etmək xülyasında idilər. 2020-ci il "Tovuz döyüşləri"ndə hücumlarının qarşısı rəşadətli ordumuz tərəfindən alındı. Ancaq qana susamış Ermənistan hakimiyyəti öz təxribatlarından əl çəkmirdi. 2020-ci il sentyabrın son günləri Qarabağda bütün cəbhə boyu başlayan erməni hücumu cavabsız qalmadı. Sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyevin əmri ilə ordumuz əks-hücuma keçdi. Azərbaycan ordusunun zərbələri altında duruş gətirə bilməyən Ermənistan ordusu 44 gün içərisində məhv edildi. Müzəffər Ali Baş Komandan 2020-ci il noyabrın 8-də Şuşanın azad edildiyini, 9-dan 10-a keçən gecə düşmənin "kapitulyasiya aktı"na imza atdığını elan etdi. Müzəffər Azərbaycan Ordusu 30 ilə qədər müddətdə Ermənistanın işğalında qalmış torpaqlarımızı azad edərək sovet dövründə olan Azərbaycan-Ermənistan sərhəddinə çıxdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin verdiyi ayrı-ayrı sərəncam və qərarlarla erməni vandalları tərəfindən xarabazarlığa çevrilmiş şəhər və kəndlərimizin bərpasına başlanıldı. İlk olaraq Şuşa şəhərinin bərpasından başlanıldı. Məscidlər, karvansaralar, ev muzeylərinin bərpası sürətləndi. İlk bərpa olunan məscidlərlə bərabər, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş "Vaqif türbəsi" bərpa edildi.

Prezident İlham Əliyevin 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhəri ölkənin mədəniyyət paytaxtı elan edildi, "Vaqif poeziya günləri" və 1989-cu ildən keçirilən "Xarıbülbül" festivalının keçirilməsi bərpa olundu. Şuşa yeni həyatına qovuşdu, Azərbaycan

Prezidentinin rəhbərliyi ilə 2021-ci il mayın 12-13-də Şuşada "Xarıbülbül festivalı" keçirildi. Avqust ayının 29-da isə erməni vandallar tərəfindən dağıdılan böyük şair və siyasi xadim Molla Pənah Vaqifin türbəsinin bərpasından sonra Prezident İlham Əliyev tərəfindən açılışı oldu.

Azərbaycanın işğaldan azad edilmiş bütün əraziləri ermənilər tərəfindən xarabalığa çevrilmişdir. Azərbaycan dövləti azad edilmiş şəhər və kəndlərimizin yenidən tikilməsi, köçkün-qaçqın əhalinin öz doğma yurdlarına qaytarılması istiqamətində mümkün olan bütün tədbirləri həyata keçirməkdədir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi və quruculuq-bərpa istiqamətində görülən işlər tarixə qızıl hərflərlə yazılacaq.

Ədəbiyyat siyahısı:

1. Qarabağnamələr. Üçüncü kitab. Bakı: Şərq-Qərb, 2006, 248 s. s.83

Bağırova Aysel Möhübbət qızı
Azərbaycan Dillər Universiteti

**44 günlük müharibədən sonra Cənubi Qafqazda yeni geosiyasi konfiqurasiya: regionun tarazlıq kəmərindən (*shatterbelt*) keçid bölgəyə (*gateway*) transformasiyası**

Açar sözlər: Cənubi Qafqaz, geosiyasət, tarazlıq kəməri, keçid bölgə

Ключевые слова: Южный Кавказ, геополитика, расколотый пояс, переходный регион

Key words: South Caucasus, geopolitics, shatterbelt, gateway region

Soyuq müharibədən sonra beynəlxalq münasibətlərdə coğrafi şəraitin həlledici olmadığını irəli sürən konstruktivist düşüncəli tənqidi geosiyasətçilərlə yanaşı əksini iddia edərək ikiqütblü sistemin bitməsini geosiyasətin sonu hesab etməyən və N.Spaykmenin dövlətin mövcud olduğu fiziki reallığının – coğrafi şəraitinin həlledici olduğuna dair fikirlərinin davamçıları olan müasir, neoklassik geosiyasətçilər də mövcuddur [1, s.5]. Geosiyasətə konseptual töhfələr verən tədqiqatçılardan biri ABŞ-da Reyqan administrasiyasının xarici siyasət məsləhətçisi olmuş K.Qrey ölkənin siyasi fəaliyyətinin o ölkənin tarixini əks etdirdiyini və ölkənin tarixinin əsasən (əlbəttə ki, tamamilə olmasa da) onun coğrafi quruluşunun məhsulu olduğunu yazır [1, s.16].

Geosiyasətin müasir nümayəndələrindən biri olan S.Kohen regionun yaxud dövlətin ekümən, effektiv ərazi və boş əraziləri arasında fərqləri müəyyənləşdirərək nümunə olaraq göstərir ki, ABŞ-ın XIX əsrin əvvəllərində Karib bölgəsinə genişlənə bilməməsinin səbəbi Floridada əhalinin seyrək yerləşməsi və onun bataqlıqlarının ABŞ üçün təbii maneə olması idi [1, s.17, 22]. Həmçinin, dünyanın fiziki-coğrafi xəritəsinə diqqət etsək, ərazilərin bu xüsusiyyətlərinin dünya siyasətində aparıcı aktorların maraq dairəsində olduğunu müşahidə edirik. Əhalinin və iqtisadi fəaliyyətin mərkəzlərindən

ibarət, əlverişli coğrafi mövqeyə malik, təbii ehtiyatlarla zəngin olan ərazilər əhəmiyyətli dərəcədə inkişaf üçün potensial ərazilərdir. Lakin, belə ərazilərdən geosiyasi konseptdə keçid ərazi (*gateway*) və ya tarazlıq kəməri (*shatterbelt*) statusunda istifadə edilməsi regionun inkişafına müxtəlif cür təsir göstərir. Keçid ərazilər insanların, malların və ideyaların mübadiləsini asanlaşdıraraq dünyanın müxtəlif bölgələrini birləşdirməkdə yeni bir rol oynayırlar [2, s.54]. Keçid bölgələrin meydana gəlməsi tarazlıq kəmərləri regionlarında maneə sərhədlərinin uyğunlaşma sərhədlərinə çevrilməsi, xüsusilə də, böyük dövlətlərin konfrontasiya kursunun əməkdaşlıqla əvəzlənməsi hesabına baş verir.

Qərbdən Qara dəniz, şərqdən Xəzər dənizi arasında yerləşən, zəngin təbii sərvətlərə, əsasən münbit torpaqlara, su və karbohidrogen ehtiyatlarına malik olan Cənubi Qafqaz Asiya və Avropanı, Rusiya ilə Yaxın Şərqi birləşdirən yollar üzərində yerləşir və Avrasiyanın enerji ehtiyatlarının nəqlində, həmçinin, qərbin Orta Asiyaya girişi üçün aparıcı strateji dayaq nöqtəsidir. Cənubi Qafqazın geosiyasi taleyi bölgədə maraqları uğrunda fəal şəkildə mübarizə aparan əsas dövlətlər olan Rusiya, Amerika Birləşmiş Ştatları, Aİ, Çin kimi qlobal, Türkiyə və İran kimi regional aktorların bölgə siyasətləri kontekstində formalaşır. Rusiya, İran və Türkiyənin maraqları daha çox öz təhlükəsizliklərini təmin etmək və qonşuluq faktorundan, Amerika Birləşmiş Ştatları, Aİ və Çin kimi dövlətlərin maraqları isə qlobal geosiyasi güc iddialarından, iqtisadi maraqlarından irəli gəlir.

ABŞ-da hakimiyyətdə respublikaçıların olduğu bir dönəmdə Cənubi Qafqaz uğrunda ABŞ – Rusiya rəqabətində Rusiya ABŞ-ı xeyli dərəcədə sıxışdırmışdı. Cənubi Qafqazda sülh və təhlükəsizliyə can atan Türkiyədən ABŞ və Rusiyanın bir-birinə qarşı bir vasitə kimi istifadə etməyə çalışdığı bir vaxtda, Türkiyə yaranmış əlverişli şəraitdən istifadə edərək Qafqazda gücünü bərqərar etdi və Rusiyanı onunla hesablaşmağa vadar etdi.

Cənubi Qafqaz dövlətləri içərisində əlverişli coğrafi mövqeyi ilə seçilən və təbii ehtiyatlarla zəngin olan Azərbaycan qlobal və regional aktorlarla balanslaşdırılmış xarici siyasət həyata keçirən yeganə dövlətdir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və

Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən daxili siyasət və çoxvektorlu xarici siyasət sayəsində Azərbaycan torpaqlarını işğaldan azad edərək regionu münaqişə və qarşıdurma bölgəsindən əməkdaşlığa çevirməklə tarixə imza atdı. 44 günlük müharibə regionda böyük dövlətlərin müharibəyə imkan verməməklə geosiyasi konfrontasiyanı davam etdirmək siyasətinin qarşısını alaraq beynəlxalq əməkdaşlıq və inkişaf üçün zəmin yaratdı. 44 günlük müharibənin sona çatmasına dair əldə edilmiş üçtərəfli bəyanatın iqtisadi və nəqliyyat-kommunikasiya əlaqələrinin bərpa edilməsi və yeni xətlərin inşa edilməsinə dair IX maddəsi [3] regional təhlükəsizliyə töhfə vermək və beynəlxalq əməkdaşlıq üçün yeni imkanlar yaratmaqla bərabər Azərbaycanın regional lider rolunu gücləndirir.

Ədəbiyyat siyahısı

1. Scholvin S. Geopolitics. An overview of concepts and empirical examples form international relations. The Finnish Institute of International Affairs. ISBN: 978-951-769-484-1 ISSN: 2242-0444. April 2016 / https://www.files.ethz.ch/isn/196701/wp91-Geopolitics.pdf
2. Cohen S.B. Geopolitics. The Geography of International Relations. Third Edition. Rowman & Littlefield, 2015, 504 p.
3. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı 10 noyabr 2020 04:45 // https://president.az/articles/45923

Nigar Əsgərova Nizami qızı
Azərbaycan Kooperasiya Universiteti

## ABŞ-nin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində iştirakı: dəyişən mövqe və dəyişməyən reallıqlar

Açar sözlər: Azərbaycan, ABŞ, Qarabağ, münaqişə
Key words: Azerbaijan, the USA, Karabakh, conflict
Ключевые слова: Азербайджан, США, Карабах, конфликт

1988-1994-cü illər öncə Ermənistan SSR, daha sonra isə Ermənistan Respublikasının təcavüzünə söykənən birinci və 2020-ci il 27 sentyabr 8 noyabr tarixi ərzində davam etmiş ikinci Dağlıq Qarabağ münaqişəsi regionun ən dağıdıcı münaqişəsi olmaqla yanaşı, yalnız münaqişə tərəfləri olan Azərbaycan və Ermənistan üçün deyil, həm də regional və qeyri-regional aktorlar üçün problemə çevrilmişdir. Qeyri-regional aktorlardan biri olan ABŞ də münaqişənin həllində ATƏT-in Minsk qrupu çərçivəsində birbaşa iştirak etmişdir. ABŞ-nin münaqişənin ilk illərindən başlayaraq, onun həllində ədalətli yanaşmamasını şərtləndirən yerli siyasət və güclü erməni lobbisi amili var idi. Bu amillər ABŞ-nin supergüc olaraq qlobal rolu və maraqları baxımından Dağlıq Qarabağ münaqişəsinə az maraq göstərməsi ilə ziddiyət təşkil edirdi. Digər tərəfdən isə Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarına sahib olması və malik olduğu mühüm geo-siyasi mövqeyi ABŞ-nin öz maraqlarına uyğun olaraq, ölkənin ərazi bütövlüyünü tanımağı və burada sabitliyi qorumağı tələb edirdi. Maraqlı və eləcə də, önəmli məsələlərdən biri ABŞ-ın I və II Qarabağ müharibəsində göstərdiyi mövqedə olan fərqdir. Təqdim edilən tezisin əsas məqsədi məhz bu müqayisəli təhlili aparmaqdır.

ABŞ 1992-ci ildən bəri münaqişənin həllində fəal şəkildə iştirak etməyə çalışmışdır. Eyni ildə təsis edilmiş və əsas məqsədi Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə yönəlmiş ATƏT-in Minsk qrupunun həmsədri olan ABŞ-nin o zamanki Dövlət katibi Ceyms Beyker onun adı ilə adlandırılan qaydalar toplusunu təklif

etdi. Beyker toplusunda Azərbaycan və Ermənistanı münaqişədə əsas tərəf, Qarabağda mövcud olan erməni və azərbaycanlı icmalarını isə maraqlı tərəf kimi müəyyən edirdi [3, səh. 78-80].

Əsasən, Rusiya və yeni yaranmış Avrasiya ölkələrində demokratiyanın inkişafı və açıq bazara dəstək aktı kimi tanınan 1992 –ci ildə ABŞ Konqresi tərəfindən qəbul edilmiş Azadlığa dəstək aktının 907-ci düzəlişi ABŞ-ın Azərbaycan hökumətinə birbaşa yardımı qadağan edirdi. Bu yardımlar özündə qlobal sülh, təhlükəsizlik və iqtisadi inkişaf səylərinə dəstək, eləcə də, fövqəladə hallarda humanitar yardımı özündə ehtiva edirdi. Bu o deməkdir ki, Azərbaycan ABŞ-nin post-Sovet ölkələrində iqtisadi inkişafı və siyasi sabitliyə göstərdiyi hökumət dəstəyindən başqa digər yardımlardan məhrum edilmişdir. Bu düzəliş Konqres tərəfindən ABŞ-da mövcud erməni lobbisinin təzyiqi ilə qəbul edilmişdir. Dünyaca məhşur “Vaşinqton post” nəşrinin 1999-cu ildə apardığı araşdırmaya əsasən qəbul edilən 907-ci düzəliş “Corc Buş (ata), hazırda isə Klinton adminstrasiyasının buna qarşı olmasına baxmayaraq, qanun layihəsi qəbul olunmuşdur” fikri çox böyük maraq doğurur [2, s. 243] Nəticə etibarı ilə, Corc Uoker Buş adminstrasiyası da öz sələfləri kimi 907-ci düzəlişə qarşı çıxmış və bunu ABŞ-ın regionda tərəfsiz siyasətinə, eləcə də ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin həllində iştirakına maneə kimi görürdü.

Bildiyimiz kimi, ABŞ-nin də üzvü olduğu BMT Təhlükəsizlik Şurası 1993-cü il Aprel-Noyabr ayları ərzində Ermənistanın təcavüzünü sübut edən 822,853,874, 884 saylı qətnamələri qəbul etmişdir. BMT Nizamnaməsi və TŞ qətnamələri beynəlxalq hüquqi statusuna malik çox mühüm sənədlərdir. BMT nizamnaməsinə əsasən dövlətlərin suverenliyi xalqların öz müqəddəratını təyin etməsindən daha vacibdir. Bu kontekstdən yanaşsaq, BMT Nizamnaməsi həm Azərbaycanın ərazi bütövlüyü, həm də Dağlıq Qarabağ münaqişəsinə şamil edilə bilər [7].

Qeyd etmək lazımdır ki, bu qətnamələrdə Rusiyanın təzyiqi ilə BMT Nizamnaməsinin VII fəsli daxil edilməmişdir. Belə ki, bu fəsil BMT TŞ-na müəyyən regionda sülhü qorumaq, sülhə hər hansı bir

təhdidi araşdırmaq, sülhü pozmaq və ya təcavüzkar fəaliyyətin mövcudluğunu müəyyən etmə səlahiyyətini verir. Bunları nəzərə alaraq, “ beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək üçün” BMT TŞ-na hərbi və qeyri-hərbi tədbirlər reallaşdırmağa imkan verilir. Bu fəsil qətnamələrə daxil edilmədiyi üçün, biz 30 il ərzində qətnamələrin implementasiyasının reallaşmadığının və tövsiyyə xaraketli olduğunun şahidi olmuşuq. [4]

ABŞ-nin ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin həlli istiqamətində fəal iştirakı 1995-ci ildən başlanmasına baxmayaraq, Fransa və Rusiya kimi həmsədr ölkə olaraq, ABŞ də münaqişənin bitməsi üçün effektiv səy göstərməmişdir. Yalnız 2001-ci il 11 sentyabr hadisələrdən sonra 2002-ci il Konqresin qəbul etdiyi qərara əsasən ölkə prezidentə 907-ci düzəlişi dayandırmaq hüququ qazandı. Azərbaycan ABŞ-nin Yaxın Şərqdə terrora qarşı mübarizəsində ən yaxın tərəfdaşı kimi çıxış edərək, İraq və Əfqanıstana sülhmərmalı missiyalarda yüksək səviyyədə iştirak etmişdir. ABŞ Azərbaycana qarşı yalnış mövqeyini qəbul edərək, 2002-ci il Corc Buş, daha sonra isə Barak Obama tərəfindən də 907-ci düzəlişin qüvvəyə minməsi dayandırılmışdır.

Bu illər ərzində ABŞ-Azərbaycan əlaqələrinin fərqli sahələrdə artan dinamikasının şahidi olmuşuq. Lakin Dağlıq Qarabağ münaqişəsində ATƏT-nin Minsk qrupunun həmsədr ölkəsi olan ABŞ-dən təsirli həll mexanizmini 27 sentyabr 2020-ci il Azərbaycan ordusunun əks-hücum əməliyyatlara başlayana kimi görmədik. Bu münaqişə zamanı ABŞ mövqeyini sadəcə Dövlət Departamenti tərəfindən verilən bəyanatlarla məhdudlaşdırdı. Təmas xəttində zorakılığın artmasından narahatlıq hissi, ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin həllinə nail olmaq, mülki əhaliyə qarşı zorakılığı dayandırmaq, təcili humanitar atəşkəsə çağırış və s. bəyənnamənin əsasını təşkil edirdi [5].

28 Aprel 2021-ci ildə ABŞ Dövlət Katibi Antoni Blinkenin Azərbaycan Respublikasının prezidenti İlham Əliyevla telefon danışığı zamanı Dağlıq Qarabağ münaqişəsinin ATƏT-nin Minsk qrupu çərçivəsində region xalqlarının mənafeyi naminə davam etdirilməsinin tərəfdarı olduğunu bildirmişdir [3]. Azərbaycan

tərəfinin verdiyi məlumata əsasən Bayden adminstraiyası 907-ci düzəlişin bu il də müvəqqəti olaraq dayandırılmasına qərar verib [1].

Lakin ölkə başçısı, Ali baş komandan İlham Əliyev dəfələrlə ATƏT-in Minsk qrupunun səmərəsiz fəaliyyətindən rəsmi şəkildə dünya mediasına bəhs etmişdir. Önəmli fakt ondadır ki, Azərbaycan beynəlxalq hüququnun heç bir normalarını pozmamışdır və məhz sülhə vadar etmə mövqeyi və “Dəmir yumruq” əməliyyatı ilə 44 gün ərzində xalq-dövlət birliyinin təcəssümü altında müzəffər Azərbaycan ordusu 30 il haqları pozulmuş, haqsızlığa düçar olmuş tərəf kimi öz haqqını bütün dünyadan tələb etməyi bacardı və öz torplaqlarını azad etməyə müvəffəq oldu. Qarabağ, Azərbaycandır!

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Blinken-Əliyev telefon danışığı: "907-ci düzəliş bu il də dayandırılıb”. https://www.bbc.com/azeri/azerbaijan-56896695
2. Aras, Bülent and George Foster. (1999). Turkey: looking for the light at the end of the Caspian Pipeline. Greenwood Publishing Group. səh. 229-248.
3. Maresca John J. The Conflict over Nagorno Karabakh. Opportunities missed, opportunities seized: preventive diplomacy in the post-Cold War world. səh. 78-80
4. Resolutions adopted by the Security Council in 1993 https://www.un.org/securitycouncil/content/resolutions-adopted-security-council-1993
5. U.S. Statement on the Situation Regarding Nagorno-Karabakh. As delivered by Ambassador James S. Gilmore III to the Permanent Council, Vienna. October 8, 2020. https://osce.usmission.gov/u-s-statement-on-the-situation-regarding-nagorno-karabakh/
6. US Secretary of State Antony Blinken calls Azerbaijani President Ilham Aliyev. https://www.state.gov/secretary-blinkens-call-with-azerbaijani-president-aliyev/.

7. Why are UNSC resoultions on Nagorno Karabakh not implemented? https://www.hurriyetdailynews.com/why-are-unsc-resolutions-on-nagorno-karabakh-not-implemented-108833

Abbasov Rafiq İldırım oğlu
Azərbaycan Dillər Universiteti

# Геополитическое положение Азербайджана: современные реалии

Ключевые слова: политико-географическое положение, границы, экологический фактор, Великий Шелковый путь, «центры силы»

Политико-географическое положение Азербайджанской Республики, занимающее первое место в Закавказье по площади и численности населения, располагающая значительным и разнообразным природно-ресурсным потенциалом, современной промышленностью и разветвленной сетью транспортных коммуникаций однозначно отличается уникальными характеристиками, во многом обусловленными как историко-географическими факторами, так и динамичным изменением роли Азербайджана в мировой геополитике. Политико-географическое положение Азербайджанской Республики отличается категориальной уникальностью также и в первую очередь в связи с тем, что позволяет предметно выявить и подчеркнуть индивидуальные черты и особые свойства территории страны в контексте места страны в системе географического разделения труда, чему безусловно способствует нефтяной фактор и как следствие специфика внешней политики с акцентом на энергетическое сотрудничество, оптимизацию нефтяной политики.

Концептуальный анализ политико-географического положения Азербайджанской Республики, испытывающем на себе влияние «сопутствующих» видов географического положения, историко - и экономико-географического, во многом связан и с уникальностью политического территориального взаимодействия и политического и

экономического взаимовлияния со странами Евроазиатского региона. Так, трудно переоценить значимость для политико-географического положения Азербайджана, расположение страны к таким социально- экономически значимым природным объектам как то, широкий выход к Каспийскому морю, превратившемуся в последние десятилетия в особую политико-географическую категорию, как объект, где сходятся политические, военные, энергетические, экологические интересы ведущих региональных и мировых игроков мировой политики. С другой стороны наличие общей границы с Ираном, соседей второго и третьего порядка в виде арабских стран - ведущих производителей углеводородного сырья, с их неоднозначной, зачастую претерпевающей серьезные изменения стратегией внешней политики, безусловно отражаются и на формировании внешнеполитического курса Азербайджана. В связи с вышесказанным, уникальность политико-географического положения Азербайджанской Республики однозначно подчеркивается целым рядом географических «положений»: транспортно-, энерго-, ресурсно-, промышленно-географическим и т.д. Одновременно надо признать сложность и неоднозначность расположения Азербайджана в контексте территориального разреза расстановки политических сил как в регионе, так на и мировой арене, включая центры международных политических сил (мировые супердержавы, региональные державы - Россия и Иран, международные военно-политические – НАТО, ОДКБ, экономические СНГ, ГУАМ и т.п. союзами. Важной составной частью политико-географического положения Азербайджанской Республики является военно-географические положение, характеризующееся в первую очередь расположением республики в непосредственной близости относительно таких «центров силы» и экономической и военной мощи, как Россия и Иран, на условной границе мусульманского и христианского мира.

Необходимо также особо отметить устойчивость геополитического положения Азербайджанской Республики и в первую очередь в силу глубинной сущности его географических корней, что во многом определяется расположением на Великом Шелковом пути, но одновременно подвержено и динамичным изменениям, ярким примером которых является цикличность нефтяных бумов существенно изменивших в лучшую сторону характеристики политико-географического положения Азербайджана, вследствие расширения возможностей активизации и диверсификации внешнеэкономических связей, видоизменения стратегических позиций, что во многом определяется в настоящее время геологическими прогнозами о наличии в азербайджанском секторе Каспия крупнейших подводных месторождений нефти. Особый контекст в политико-географическом положении Азербайджана приобретает и экологический фактор, во многом связанным с непосредственной близостью страны к региональным эколого-значимым объектам и странам, существенно влияющим, а зачастую и определяющим экологическую ситуацию, как то проблемы функционирования устаревшей атомной электростанции Армении, специфика развития атомной промышленности Ирана, загрязнение высокотоксичными промышленными отходами металлургических предприятий Грузии и Армении важнейших рек Закавказья, политико- экологический аспект загрязнения Каспия в связи с расширением морской добычей углеводородов и строительства Транскаспийского трубопровода, проблема сохранения осетровых рыб Каспия.

Особо необходимо отметить такой специфический стратегический аспект политико-географического положения Азербайджана, как и расположение территории страны между Черным и Каспийским морями воедино связываемых стратегическими нитками трубопроводов и транснациональной железной дорогой Баку- Тбилиси- Карс, которая в свою очередь

выгодно подчеркивает такой атрибут политико-транспортного положения как потенциальность, являясь одновременно предпосылкой и следствием развития как многосторонних межгосударственных связей, так и социально-экономического развития самой территории. Наглядный примером этому служит превращение одних районов Азербайджана и Грузии в ведущие в экономическом отношении, т.е. существенно изменивших свое политико - и экономико-географическое положение в результате реализации международных инфраструктурных проектов, расширивших и упрочивших хозяйственные связи.

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ ADU Docendo discimus Öyrədərək öyrənirəm AZERBAIJAN UNIVERSITY OF LANGUAGES АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

Abbasova Hökumə Fərzux qızı
Azərbaycan Dillər Universiteti

## Qarabağın turizm potensialı və onun bərpası imkanları

Açar sözlər: Qarabağ, Azərbaycan turizimi, müharibə, inkişaf
Ключевые слова: Карабах, азербайджанский туризм, война, развитие.
Keywords: Karabakh, Azerbaijani tourism, war, development

Azərbaycanın son illər artan iqtisadi inkişafı turizim sektorunun da inkişafına təkan vermişdir. Ölkəmizin müxtəlif bölgələri zəngin turizim potensialına malikdir. Bu gözəl guşələrimizdən biri də 30 ilə yaxın düşmən əsarətində qalmış və 44 günlük Vətən müharibəsi nəticəsində şanlı ordumuzun azad etdiyi doğma Qarabağdır.

Qarabağda turizmin əsası XX əsrin 30-cu illərində qoyulmuş, 80-ci illərdə isə turizm potensialı inkişaf etdirilmişdir. Belə ki, bölgədə ilk dəfə olaraq 1936-ci ildə Şuşa şəhərində istirahət evi fəaliyyətə başlamışdır [2]. İşğaldan öncə Şuşa Sanatoriya Kurort birliyi, “Şəfa” turist bazası, Ağdam rayonunun Gülablı, Şelli, Şahbulaq kəndlərində istirahət mərkəzləri fəaliyyət göstərirdi [1].
XX əsrin ortalarında öncə Qarabağın zəngin florası və faunasını qorumaq məqsədlə bir sıra qoruq və yasaqlıqlar salınmışdı. Bunlara misal olaraq, nadir təbii çinar meşəliyini qorumaq məqsədilə Zəngilanda Bəsitçay Dövlət Qoruğu, qırmızı palıddan və vələs ağaclarından ibarət Qubadlı Qoruğu, Laçın rayonunda yaradılmış Qaragöl Dövlət Qoruğu və Laçın Dövlət Qoruğu, Topxana meşəsi, Kirs dağının ərazisi, Cıdır düzü, Xocalı rayonunun qala divarlarının daxil olduğu Daşaltı Qoruğunu qeyd etmək olar [4].

İşğaldan öncə Xankəndi, Ağdam, Kəlbəcər ərazilərindəki rekreasiya məkanları, ümumilikdə bölgənin turizm potensialı onu

beynəlxalq səviyyədə tanıdıb, respublikamıza gələn yüz minlərlə turistin mühüm bir hissəsi məhz Qarabağın payına düşüb. Təkcə il ərzində "İstisu"ya müalicə və istirahət üçün 50 mindən çox insan istirahətə gəlirdi [1].

Azərbaycan Ordusunun şücaəti, şəhidlərimizin qanı bahasına azad edilmiş Qarabağda turizm infrastrukturunun qurulması bir qədər vaxt tələb edəcəkdir. 30 illik əsarət ərzində Qarabağın təbiəti, infrastrukturu düşmən tərəfindən dağıdılıb və tamamilə məhv eduilmişdir.

Qarabağın zəngin təbiəti, flora və faunası, uca dağları, iti axan çayları, suyu buz kimi soyuq bulaqları, nadir ağacları ilə dolu sıx meşələri, qədim tarixi, mədəni və dini abidələri və s. burada yay turizmi, qış turizmi, dağ turizmi, sağlamlıq turizmi və digər növ turizm sahələrinin yaradılmasına imkan verir. Regionda turizm infrastrukturu fəaliyyət göstərəndən sonra yeni avtobus marşrutlarının, dəmir yolu xətlərin açılması, aeroportların işə salınması bölgənin turizm sektorunun əhəmiyyətli inkişafına təkan verəcək.

Artıq nəqliyyat sisteminin qurulması istiqamətində addımlar atılmış, uzunluğu 101,5 km olan yeni Zəfər yolu, Suqovuşan kəndinə, artıq 29 km uzunluqda avtomobil yolu çəkilmışdır. Horadizdən Zəngilana, oradan Qubadlıya və sonra da Laçına qədər yol çəkilməsi planlaşdırılır. Qarabağda polad magistrallar da şaxələnəcək. Belə ki, Horadiz-Füzuli və ondan sonra Füzuli-Şuşa dəmir yolunun çəkilməsi nəzərdə tutulur. Füzuli, Zəngilan və Laçın rayonlarında beynəlxalq hava limanlarının tikintisi turizmin inkişafına da müsbət təsir göstərəcək [3].

Hələ işğaldan öncə Qarabağda inkişaf etmiş turizim sahəsi məhz sağlamlıq turizmi idi. Kəlbəcərin "İstisu" sanatoriyası, termal sularla zəngin Zəngilan rayonu, Şuşanın Turşsu, Şırlan mineral su bulaqları, müalicəvi şəfa ocaqları 30 ilə yaxın düşmən əsarətində olub. Geniş rekreasiya imkanlarına malik olan Şuşada, Kəlbəcərdə, Laçında, Zəngilanda, Ağdamda çoxsaylı termal qaynaqlar var ki, bunların hərəsi bir dərdin dərmanıdır. Bu bulaqların araşdırılması və

orada müxəlif sanatoriyaların salınması ölkə turizminə böyük töhfə verə bilər.

Qarabağda inkişaf perspektivi olan turizim sahələrindən biri də qış turizmidir. Qışın çox hissəsi başı qarlı olan Kiçik Qafqazda və Qarabağ yaylasında qış turizminin bir çox sahələri inkişaf etdirilə bilər. Xüsusən Kəlbəcər rayonu qış turizmi üçün ideal məkandır. Həm Qəbələdə, həm də Qusarda qış turizmində formalaşmış təcrübədən bəhrələnib yeni turizm bazası yaratmaq mümkündür.

Dağ turizmi, hikinglər, zirvələrin fəthi Azərbaycanda son zamanlar xüsusən gənclər arasında yayılmaqdadır. Qarabağda da bu sahədə çox saylı yeni marşrutlar formalaşdırmaq mümkündür. Bu yollar nəinki yerli, hətta xarici turistlərin diqqətini çəkəcəkdir. Bu ərazidəki çoxsaylı çaylar, şəlalələr, göllər, hündür zirvələrə yeni marşrut yolları hazırlanmalıdır.

Qarabağ regionu həm də Azıx mağarası da daxil olmaqla bir çox tarixi abidələr, qalalar və muzeylərlə zəngin olmuş, burada tariximizin göstəricisi olan 30-dan çox muzey, 125 mindən çox eksponant, çoxlu sayda məscid və kilsə mövcud olmuşdur. Xudafərin körpüsünün yaxınlığında eyni adda turizm mərkəzləri yaratmaq olar [5].

Ağdam şəhəri tarixən Qarabağın ən iri şəhərlərindən biri olmuş, burada xeyli sayda memarlıq abidələri -Şahbulaq qalası, XVIII əsrə aid karvansara, XVII əsr məscidi, XVII əsr Xanoğlan məqbərəsi, Qafqaz Albaniya xristian dövrünə aid məbədlər, Pənahəli xanın saray və məqbərəsi, Ağdam Çörək Muzeyi və s. mövcud olmuş, onların çoxu tamamilə dağıdılmışdır. Dünyanın bir çox yerində bu tip “ruhlar şəhəri” turistik məqsədlə istifadə edilir. Ağdamın da minalardan təmizlənib böyük hissəsinin olduğu kimi saxlanılması bura yerli və xarici turistlərin diqqətini cəlb edə bilər.

Hələ işğaldan öncə Ağdamın Gülablı və Şahbulaq turist bazasında Qarabağ atları ilə gəzinti təklif olunurdu. Bu ənənəni bərpa etmək və turistlərin maraqlarını artirmaq ücün həmin ərazilərdə at yarışlarını, at oyunlarını və s. müntəzəm olaraq təşkil etmək lazəmdır.

Qarabağın gözəl təbiəti burda müxtəlif kanat yollarının salınmasına, fərqli ekstrim idman növlərinin inkişaf etdirilməsinə imkan yaradır. 1980-ci illərin xronikasına nəzər saldıqda görürük ki, hələ Sovetlər dönəmində Şuşanın bolneoloji kurortlarının təkmilləşdirilməsi, kanat yollarının çəkilməsi ilə bağlı fikirlər öz əksini tapmışdır. Burada Qafqazda ən uzun ziplain xəttini, bunge jumping yerləri düzəltmək olar. Bundan başqa Həkəri çayında Azərbaycanda ilk rafting məkanı təşkil etmək mümkündür.

Aydındır ki, Qarabağ regionunun bərpası üçün müəyyən müddət lazım olacaq, buranın öncə minalardan təmizlənməsi, infrastrukturun qurulması lazımdır. Yaxın illərdə Qarabağ, ölkəmizin və regionunun ən önəmli turistik bölgəsinə çevriləcəkdir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Cabbarov Ə. İşğal sonrası Qarabağ iqtisadiyyatı və turizmin inkişafı/“Şərq Qapısı” qəzeti, 2020-ci il 10 dekabr.
2. Nuriyev Ə. Qarabağın bərpa və inkişaf layihələri regionun tarixi ənənələrinə və gələcək tələbatına əsaslanmalıdır/ “Xalq qəzeti”, 2021-ci il 10 fevral.
3. Sadıqlı F. Qonaqlarımız Qarabağa həm də təyyarə ilə gələcəklər. 26.01.2021 https://www. azerbaijan-news.az/posts/detail/qonaqlarimiz-qarabaga-hem-de-teyyare-ile-gelecekler
4. Qarabağın turizm imkanları; region qoruqlarla, mineral su ehtiyatları ilə zəngindir, https://sfera.az/qarabagin-turizm-imkanlari-region-qoruqlarla-mineral-su-ehtiyatlari-ile-zengindir/
5. Zeid A. Kassouha, Post-conflict tourist landscapes: between the heritage of conflict and the hybridization of tourism activity, https://doi.org/10.4000/viatourism.3984

А.М.Абдиева, Ш.Б.Джабарова.
Азербайджанский Университет Языков

# СУДЬБА АЗЕРБАЙДЖАНСКИХ ПАМЯТНИКОВ КУЛЬТУРЫ В ПЕРИОД ОККУПАЦИИ КАРАБАХА

**Ключевые слова:** война, культурное наследие, Карабах, вандализм
**Açar sözlər:** müharibə, mənəvi varislik, Garabağ, vandallıq

Азербайджан пережил исторические дни восстановления своей территориальной целостности эта славная победа была достигнута благодаря мудрой и дальновидной политике Президента Азербайджанской Республики Ильхама Алиева, неиссякаемой силе Азербайджанской армии и нерушимому единству азербайджанского народа. Это победа всего Тюркского мира, в тот сложный период рядом с Азербайджаном находилась братская Турция. Выражение общенационального лидера Гейдара Алиева «Одна нация, два государства» доказало всему миру свою состоятельность не только на словах, но и на деле.

Война это самое худшее, что может произойти с тем или иным народом. Это миллионы разрушенных судеб, покалеченных душ, разбитые мечты на будущее. Но даже самые жестокие войны, происходящие в последние 100 лет на нашей планете, не сопровождались такими варварскими последствиями, которые мы наблюдаем после 30 лет незаконной оккупации территории Азербайджана армянскими бандформированиями.

В войнах прошлого была тактика, называемая «Выжженная земля». Когда оккупантская армия была вынуждена отступать, она разрушала и грабила все, что могла, а что не могла увезти с собой, сжигала. Это делалось также для того, чтобы местное население - истинные владельцы земли -

больше не могли поселиться в этих местах. Армяне в XXI веке, на глазах у всего цивилизованного мира используют эту тактику, характерную для варварских, темных веков. Как верно отметил глава государства, кажется, что по этим местам прошло дикое племя. Видеозаписи наших освобожденных от оккупации городов и деревень представляют душераздирающее зрелище. Потерявший человеческий облик враг не оставил камня на камне, превратив все вокруг в руины. Леса были вырублены и выжжены, а земли приведены в абсолютную непригодность. Физули, Джабраил, Зангилан, Губадлы напоминают пустыню. Агдам напоминает город призраков. Жертвами армянского фашизма стали больше сотни мирных жителей – дети, женщины, старики, были разрушены тысячи зданий, жилых домов, объектов инфраструктуры.

Карабах всегда был колыбелью культуры Азербайджана. Будучи неотъемлемой составляющей частью древних азербайджанских государств с подавляющим большинством азербайджанского населения, Карабах подарил культуре, архитектуре, искусству Азербайджана бесценные шедевры, которые всегда будут сопровождать жизнь азербайджанского народа. Все эти жемчужины являются теперь достоянием не только азербайджанского народа, но и всего человечества. В период 30 летней незаконной оккупации наших земель пострадали все культурные ценности, расположенные в Карабахе. Это огромное количество исторических артефактов, хранящихся в музеях, это исторические памятники архитектуры, дома-музеи великих азербайджанских деятелей и много другое историческое наследие Азербайджанского народа. Хотелось бы отметить некоторые из этих исторических памятников, которые составляют важную часть культуры Азербайджана:

1. Ходжалинская гробница.Памятник относится к XIV веку, построен на участке ходжалинских курганов из граненных белых камней. Из-за разрушения каменного покрытия Ходжалинской гробницы, она имеет необычный внешний вид.

2. Аскеранская крепость. Крепость была построена в XVIII веке по указанию правителя Карабаха Панахали хана. Ее строительство было связано с периодом подъема Карабахского ханства. В 1992 году после оккупации города Ходжалы вооруженными силами Армении крепость была разрушена.Спустя несколько лет Армения начала осуществлять «реставрацию» Аскеранской крепости, в результате чего облик памятника полностью изменился. Это было сделано с целью присвоения себе Аскеранской крепости.
3. Азыхская пещера. Она находится на левом берегу реки Куручай на высоте 1400 метров над уровнем моря. Здесь был обнаружен фрагмент нижней челюсти первобытного человека, названного впоследствии азыхантропом. Данная находка, оказавшаяся четвертой подобной находкой в мире, подтвердила мысль о том, что территория современного Азербайджана в древности входила в ареал формирования и обитания первых людей.
   В ходе Первой Карабахской войны, когда наемники и другие страны выполняли для армян грязную задачу по захвату для них Карабаха, Азыхская пещера перешла под контроль армянских террористов. В пещере преступным временным режимом проводились незаконные работы. В 2020 году территория, на которой располагается пещера, в ходе боевых действий перешла под контроль ВС Азербайджана.
4. Пещера Таглар в **Ходжавенд**ском районе Азербайджана, где люди жили в эпоху Мустье.Кроме того, в поселке Зар Кельбеджарского района имеется одноименная пещера, являвшаяся местом обитания первобытных людей в эпоху Палеолита. В целом в Карабахе и прилегающих к нему районах достаточно пещер и древних мест обитания первобытных людей.

Одним из самых ярких показателей того, что Азербайджан является древним местом обитания людей является **Ходжалы**-Гедабекская культура. Эта древняя культура берет свое начало в районе 14 века до н.э. В ходе археологических раскопок, которые проводились здесь до того, как сюда пришли армяне, на территориях распространения культуры были обнаружены многочисленные вещественные и материальные предметы и украшения, которыми пользовались первобытные люди.

5. Из 67 мечетей, которые существовали в Карабахе и 7 прилегающих к нему районов, армянами после оккупации на протяжении 30 лет целенаправленно, намеренно было разрушено 63 мечети.
6. Древние Худаферинские мосты.
К 9 веку происходит повсеместное ослабление Арабского халифата. На местах образуются новые государства. На территории Азербайджана в период ослабления арабской власти в 9 веке возникнут аж 5 государств, одним из которых было государство Шеддадидов.
В период правления одного из представителей этой династии Фазла ибн Мухаммада в 1027 году с целью борьбы с Раввадидами на реке Араз было построено два моста. По названию местности в Иране они получили название Худаферинских. В Азербайджане мосты находятся на территориии Джебраильского района, освобожденного от оккупации 4 октября 2020 года.
7. Руины Дворца карабахских ханов - резиденции азербайджанских правителей - построенного в 18 веке. После оккупации Шуши армяне намеренно подвергли дворец разрушению, чтобы уничтожить следы азербайджанского присутствия.
Карабахский край Азербайджана настолько богат как историей, архитектурой, искусством, музыкой,

памятниками, природой, что ни одна попытка предоставить исчерпывающую информацию о его богатстве никогда не увенчается успехом. Всю красоту Карабаха нужно увидеть своими глазами и нужно своими руками осязать древние памятники родного Карабаха.

Использованная литература:


1. Президент Азербайджана Ильхам Алиев. Интервью телеканалу «Реал-ТВ» 12 февраля2019 г.)[1].
2. Алиева М. "The true face of Aggression: Through injustice and bloodshed", Б, 2021
3. .Балаев А. Рождение Азербайджанской Республики: национальное движение 1917-1918, Баку, 2019
4. Велимамедов Ь. Очерки о Карабахской войне, Баку, 2020

Abdulla Bəyim Nadir qızı;Səfərova Günay Rəşad qızı
Azərbaycan Dillər Universiteti

## VƏTƏN MÜHARİBƏSİ DÖNƏMİNDƏ AZƏRBAYCAN-İSRAİL ƏLAQƏLƏRİ

Açar sözlər: Azərbaycan, İsrail, 44 günlük müharibə, ikitərəfli tərəfdaşlıq
Keywords: Azerbaijan, Israel, 44 Day War, bilateral partnership
Ключевые слова: Азербайджан, Израиль, 44 Дня Войны, двустороннее партнерство

1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan siyasi, iqtisadi, mədəni sahələrdə islahatlar aparmaqla beynəlxalq aləmə inteqrasiya etmiş, bir sıra dövlətlər ilə, eləcə də İsrail dilə münasibət qurmuşdur. İsrail Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 25-də tanımış və iki ölkə arasında diplomatik münasibətlər 1992-ci ilin aprelində qurulmuşdur [4, s.114]. Yəhudilərin əksəriyyətinin yaşadığı Quba rayonunda yerləşən Qırmızı Qəsəbə İsrail və ABŞ-dan sonra yəhudilərin ən sıx məskunlaşdığı bölgədir. Azərbaycanda yaşayan dağ yəhudiləri ölkəmizdə onlara göstərilən tolerant münasibətdən razı olduqlarını hər zaman etiraf edirlər [5].

Bu gün danılmaz faktdır ki, Avrasiya ərazisində heç bir ölkənin İsrail ilə münasibətləri Azərbaycan Respublikasının İsrail ilə münasibətləri qədər sıx və səmimi deyil. Hətta bu münasibətlər İsrailin müsəlman ölkəsi ilə əməkdaşlıq münasibətlərinin modeli ola bilər. Burada yəhudilərlə azərbaycanlılar əsrlər boyu doğma qardaş kimi yaşayır, onları ortaq tale və ortaq tarix birləşdirir. Azərbaycan həqiqi mənada sivilizasiyalararası dialoqun əsl nümunəsidir. Azərbaycan yəhudiləri ölkədən kənara getsələr də heç vaxt Azərbaycanla əlaqələrini kəsmir, daima Vətənə sədaqətlərini nümayiş etdirirlər. Məsələn, 2020-ci il iyul ayında baş vermiş Tovuz döyüşləri zamanı da yəhudilər Azərbaycanı dəstəklədi. Onların arasında siyasi xadim, biznesmen, musiqiçi, sənətşünas, elm xadimləri var idi. Yəhudi əsilli biznesmen Qod Nisanov, Zorak İliev, Aras Ağalarov erməni şirkətləri ilə əməkdaşlığı dayandıraraq erməni məhsullarını boykot etdilər.

İsrail ilə Azərbaycan arasında mövcud olan dostluq münasibətlərinin həm 44 günlük müharibə ərəfəsində, həm də müharibədən sonrakı dönəmdə şahidi olduq. Hətta müharibə dönəmində İsrailin Azərbaycana hərbi sahədə dəstəyindən narahat olan Ermənistan tərəfi 10 oktyabr 2020-ci il tarixində İsraildəki səfirini geri çağırdı.

Qeyd edək ki, Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən ardıcıl olaraq 2020-ci il oktyabrın 27-i və 28-də müharibə zonasından tamamilə kənarda yerləşən Bərdəyə, eləcə də noyabrın 11-i və 17-də Gəncəyə olan raket hücumlarına və nəticədə onlarla günahsız mülki əhalinin vəhşicəsinə öldürülməsinə cavab olaraq Azərbaycana qarşı bu cür erməni aqressiyanın dayandırılması istiqamətində 2020-ci ilin oktyabrın 15-də İsrailin Petax-Tikva şəhərində, həmin ilin noyabr ayında isə İsrailin Qüds şəhərinin yaxınlığındakı Prezident Meşəsinin “Xocalı 613” bağında həmvətənlərimiz tərəfindən Azərbaycana dəstək nümayiş aksiyası keçirilmişdir [1].

İsrailin Azərbaycana dəstəyinin səfirlik səviyyəsində də şahidi oluruq. Belə ki, 11 və 17 oktyabr 2020-ci il tarixində Ermənistan Silahlı Qüvvələri tərəfindən Gəncəyə atılan raketlər nəticəsində həlak olan onlarla mülki qurbanların xatirəsini yad etmək və bu hücumdan zərər çəkənlərə tibbi yardım da daxil olmaqla humanitar yardım göstərmək məqsədilə İsrailin Azərbaycandakı hazırki səfiri Corc Dik həmin il oktyabrın 22-də Gəncəyə səfər etmiş və dağılan ərazilərə baş çəkmişdir. Səfər çərcivəsində yerli sakinlər ilə görüşən və həmin ərəfədə Ermənistan silahlı qüvvələrinin Gəncəyə raket zərbələri nəticəsində yaralanan Rusiya Federasiyası vətəndaşı 2007-ci il təvəllüdlü Mayakov Artur Vladimiroviçə kömək edəcəyi barədə onun kiçik dostuna söz verən səfir Corc sonradan həlak olan həmin bu uşaq haqqında özünün rəsmi “Tvitter” hesabında paylaşım edərək bildirib: “İsrailin Azərbaycandakı səfiriyəm. 12 ildir diplomatam. Mən adətən verdiyim vədləri yerinə yetirənəm, ancaq bu sözümü tuta bilmədim. Bir-iki həftə əvvəl raket zərbəsinə məruz qalan Gəncə şəhərinə ziyarət etdim. Yaşayış yerlərinə dəyən ziyana baxmaq üçün getmişdim. Bir çox yerli sakin qorxunç hekayələrini paylaşmaq üçün mənimlə danışmağa gəlmişdi. Sonra təxminən 12 yaşında gənc bir oğlan mənə yaxınlaşdı. O, dedi ki, İsrailin yaxşı həkimlərinin olduğunu eşidib. O,

xəstəxanada olan dostunu İsrailin xilas edə bilib-bilməyəcəyini soruşdu. Xalası mənə şəkilləri göstərdi. Gözləri yaşla dolu idi: "O, bombardman nəticəsində yaralanıb, xəstəxanada komadadır. O, yaxşı uşaqdır. Xahiş edirəm ona yardım edin", - dedi. Bu mənə dərindən toxundu. Kömək edəcəyimə söz verdim. Oğlanın adını götürdük. Bu, Artur Mayakov idi. Artıq həmin axşam nə edə biləcəyimizə baxmağa başladıq. Lakin vədimi yerinə yetirə bilmədim. İki gün sonra Artur aldığı yaralardan həlak oldu. 13 yaşında idi. Qəlbim qırıldı. Bir neçə gün öncə Bakıdakı Rus Pravoslav kilsəsinə baş çəkdim. Artur üçün dua etdim və şam yandırdım. Verdiyim sözə əməl etmədiyim üçün bağışlanmağımı dilədim. Ruhun şad olsun, Artur. Qoy bu bölgənin uşaqlarının gələcəyi daha çox sülh dolu olsun" [2].

44 günlük müharibədən sonra Qarabağda gedən quruculuq prosesində bir sıra ölkələr ilə yanaşı, İsrail də yaxından iştirak edir. Bu məqsədlə ölkəyə ziyarət edən İsrailin keçmiş rabitə, peyk rabitəsi və kiber-informasiya naziri vəzifələrini icra etmiş, milliyətcə druz olan Ayoub Kara Qarabağ müharibəsini Livan müharibəsi ilə müqayisə etmişdir [6]. O, Azərbaycanın Qarabağın bərpasında İsrailin vaxtilə istifadə etdiyi "Kibbutizm" üsulundan yararlanmasını təklif etmişdi [3]. 2021-ci ilin iyun ayında Zəngilanda səfərdə olan İsrail səfiri Corc Dik isə çıxışı zamanı tezliklə buranın azərbaycanlılar, israillilər və italyanlar arasında beynəlxalq əməkdaşlıq mərkəzi olacağını vurğulamışdır.

44 günlük müharibədə yaralanan qazilərimizin müalicəsində də israilli həkimlərin rolu danılmazdır. Belə ki, 2021-ci ilin mart ayında "YAŞAT" Fondunun təşəbbüsü, İsrailin Azərbaycandakı səfirliyinin və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin təşkilati dəstəyi ilə İsraildən Azərbaycana tibbi-humanitar yardım məqsədilə oftalmoloqlardan ibarət nümayəndə heyəti gəlmiş və 8 gün ərzində qazilərə 58 protez göz taxılmış, 150-dən çox qaziyə müalicə olunmuşdur. Yuxarıda deyilənləri ümumiləşdirsək, belə qanaətə gəlmək olar ki, Vətən müharibəsi dönəmində Azərbaycanı təkcə sadə yəhudilər deyil, dövlət tərəfindən də Azərbaycanı dəstəkləmişdir. Əbəs yerə deyil ki, İsrail müharibə bitdikdən sonra da erməni vandalları tərəfindən bütün infrasturkturu dağıdılmış Qarabağda quruculuq işlərinin görülməsində yaxından iştirak edir. Araşdırmadan da belə nəticəyə gəlmək olur ki, İsrail Azərbaycanın təkcə xoş günlərinin deyil, çətin  günlərinin də dostudur.

Ədəbiyyat

1. AzIzNews.ru - информационно- аналитический портал международной ассоциации Израиль-Азербайджан "АзИз". http://aziznews.ru/news/aziz/6631-v-podderzhku-azerbaydzhana.html
2. https://www.indyturk.com/node/364466/t%C3%BCrki%CC%87yeden-sesler/polemiklerin-g%C3%B6lgesinde-azerbaycan-i%CC%87srail-ili%C5%9Fkileri
3. İsrail səfiri Corc Dikin tviti.@GeorgeDeek https://twitter.com/GeorgeDeek?s=09
4. Qarabağı bu üsulla bərpa edin – İsrailin keçmiş naziri. https://axar.az/news/gundem/572415.html
5. Qasımlı M., Abdullayev M. Beynəlxalq münasibətlər tarixi (XX əsr. II hissə. 1946-1999). Bakı. 1999
6. Polemiklerin gölgesinde Azerbaycan-İsrail ilişkileri.
7. Terrorçular Livanı necə dağıdıblarsa, ermənilər də Qarabağı elə dağıdıb - İsrailli diplomat https://publika.az/news/nida_xeber/362424.html. 11 iyul 2021

*Abdullayeva Şəfəq Hüseyn qızı*
*Azərbaycan Dillər Universiteti*

## QARABAĞIN TURİZM POTENSİALI

Açar sözlər: turizm, turist, təşkilati-iqtisadi aspekt, turizm fəaliyyəti, beynəlxalq turizm.
Ключевые слова: туризм, турист, организационно-экономический аспект, туристическая деятельность, международный туризм.
Key words: tourism, tourist, organizational and economic aspect, tourism activities, international tourism.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, turizm iqtisadi inkişafa təsir edən güclü bir qüvvədir. Dövlət büdcəsinin formalaşmasında, ticarət balansının sabitləşməsində mühüm rol oynayır. Ümumiyyətlə, turizm xalqların yaxınlaşmasında, iqtisadi və mədəni əlaqələrin qurulmasında, həmçinin, qarşılıqlı anlaşmada əvəzsiz rol oynayır. Buna görə də turizmin inteqrasiya amili kimi inkişafı dövrümüzün vacib məsələlərindən biridir [1].

Son illər Azərbaycanda həyata keçirilən islahatlar iqtisadiyyatın inkişafına təkan vermişdir. Bu nailiyyətlərin əldə edilməsində turizm sənayesinin də müəyyən payı vardır. Bu günkü gündə Azərbaycanın zəngin mədəniyyəti və təbiət gözəlliklərinin dünyada təbliğ edilməsi üçün geniş işlər görülmüşdür.

Qarabağ tarixən böyük turizm potensialına malik olmuşdur. Keçmiş SSRİ dövründə bu bölgə daxili və xarici turistlər tərəfindən ən çox ziyarət edilən yerlərdən biri idi. Ötən əsrin 70-ci illəri, Azərbaycanda yeni inkişaf mərhələsi başlanan illərdə Qarabağda yaradılmış turizm mərkəzləri və rekreasiya müəssisələrinin xidmətlərindən yüz minlərlə turist istifadə edirdi.

1988-ci ildə Ermənistanın Qarabağa və ona bitişik rayonları əhatə edən geniş əraziyə hərbi təcavüzü insanların həyatını alt-üst etmişdir. Bir milyon qaçqın və köçkün ölkənin müxtəlif rayonlarında çətin şəraitdə

yaşamağa məcbur olmuşdur. Onların xeyli hissəsi Azərbaycanın kurort-sanatoriya müəssisələrində yerləşdirilmişdir ki, bu da turizm infrastrukturuna ciddi zərbə vurmuşdur.

İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, təmiz havası, şəfalı suları, tarixi abidələri ilə dillərdə dastan olan və otuz ilə yaxın müddətdə erməni tapdağı altında qalan bu diyar ölkə başçısı İlham Əliyevin uzaqgörən siyasəti və qətiyyəti nəticəsində artıq işğaldan azad edilmişdir. Məmnunluq doğuran hal odur ki, işğaldan azad olunmuş Qarabağ bölgəsində turizmin inkişafına ölkədə xüsusi diqqət yetirilir [2].

Dövlət başçımız ötən ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş videokonfransda demişdir: “Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır. Ona görə indidən turizm marşrutları işlənib hazırlanmalıdır ki, artıq həyat bu bölgəyə qayıdandan sonra vaxt itirmədən turizm sektoru da inkişaf etsin. İndidən beynəlxalq turizm sərgilərində - pandemiyadan sonra bu sərgilər bərpa ediləcək. Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələri göstərilməlidir ki, biz bu bölgəni, doğrudan da, dünya üçün çox cəlbedici bölgə kimi təqdim edək. Nəzərə alsaq ki, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonasının birinə çevriləcək” [2].

Azərbaycanın bu qədim bölgəsi olan Qarabağ demək olar ki, əsil turizm mərkəzidir. Füsunkar təbiəti, əzəmətli dağları, nadir bitkilərlə zəngin meşələri, dupduru bulaqları, tarixi memarlıq abidələri, qədim qalaları, körpüləri, ləziz mətbəxi və s. Qarabağı yaxın gələcəkdə regionun turizm bölgəsinə çevirəcəkdir. Burada turizmin bir çox növlərini inkişaf etdirmək üçün böyük imkan və perspektivlər vardır.

Qarabağın ecazkar təbiəti, tarixi və dini abidələrin mövcudluğu bu ərazilərdə ekoturizmin inkişafına, zəngin flora və faunaya malik olması isə ov turizminin yaradılmasına səbəb ola bilər. Həmçinin, bu ərazilər dağlıq olduğuna görə dağ və alpinizm turizmini inkişaf etdirmək mümkündür. Çoxlu sayda termal su mənbələrinin mövcudluğu balneoloji turizmin yaranmasına təkan verəcəkdir. Aqroturizmin inkişafı üçün isə bölgədə münbit şərait vardır. Bu turizm növünün yaradılması və inkişafı bölgədə yaşayacaq əhalinin sosial rifahını artıracaqdır.

Eyni zamanda bu ərazilərdə velosiped turları, atçılıq, çaylarda qayıq sürmə marşurutlarını təşkil etmək olar. Azərbaycanın Mədəniyyət Paytaxtı olan Şuşa və işğaldan azad edilmiş digər bölgələrdə mədəni tədbirlərin, festivalların, beynəlxalq sərgilərin təşkili; mədəni-kütləvi görüşlərin keçirilməsi turist axınının çoxalmasına səbəb olacaqdır.

Dövlət başçısı İlham Əliyev ölkədə qeyri-neft sektorundan əlavə digər iqtisadi sahələrin inkişafına xüsusi önəm vermişdir. Hal-hazırda da Qarabağda turizmi iqtisadiyyatın yüksək gəlirli sahəsinə çevirmək, sosial və ekoloji tələblərə cavab verəcək səmərəli, rəqabət qabiliyyətli müasir turizm kompleksləri yaratmaq, bu sahədə yeni iş yerlərinin açılmasını təmin etmək əsas hədəflərdəndir.

Bu ərazilərdə müasir standartlara cavab verən istirahət obyektləri, sanatoriyalar, düşərgələr, otel və restoranlar, ticarət mərkəzləri tikilib istifadəyə verilməlidir. Qarabağda UNESCO-nun ümumdünya irs siyahısına düşəcək abidələrimiz var və o siyahıya düşməsi üçün bütün tədbirlər görülməlidir.

Qarabağda turizmin inkişafı üçün bir sıra kadrların əməyini cəlb etmək lazımdır. Dövlətin, özəl sektorun və elm adamlarının birgə səyləri sayəsində Qarabağın turizm potensialı sıfırdan inkişaf etdirilməlidir. Qarabağın həm təbii, həm də antropogen turizm resursları nəzərə alınmalıdır.

Qarabağın şəhər və kəndlərinin bərpasına dost ölkələrdən olan şirkətlər cəlb olunmalıdır. Onlarla birgə bir çox layihələr həyata keçirilməli və bununla da həmrəylik nümayiş etdirilməlidir.

Dost ölkələrlə yaradılan həmrəylik nəticəsində biz Qarabağı dirçəldib, onu dünyanın ən inkişaf etmiş regionlarından birinə çevirəcəyik.

Təəssüf ki, torpaqlarımızın işğalı zamanı erməni qəsbkarları Qarabağın dağlıq hissəsi və ona bitişik ərazilərin çoxunda maddi və mədəniyyət abidələrimizi, tarixi yerlərimizi dağıtdı; bölgənin ekosisteminə böyük zərbə vurdu və bütün infrastrukturları məhv etdi. Bununla da öz yırtıcı, barbar xarakterlərini nümayiş etdirdilər.

Lakin xalqımıza xas olan tikib-yaratmaq eşqi bu yerlərə yenidən həyat verəcək və əzəli torpaqlarımızı canlandıracaqdır. Yaxın gələcəkdə Qarabağ Azərbaycanın əsas turizm bölgəsinə çevriləcəkdir. Bu da ölkəmizin mədəni və iqtisadi həyatında mühüm rol oynayacaqdır.

Sonda bunu qeyd edim ki, 30 ilə yaxın müddətdə yalnız arzu və istəklərdə qalan xəyallarımızın gerçəkləşməsi zamanıdır, çünki artıq Qarabağ bizdədir, Qarabağ Azərbaycandır!

Ədəbiyyat siyahısı:

1. https://xalqqazeti.com/az/news/7357
2. http://atesh.az/qarabag/7448-qarabagi-qafqazin-en-boyuk-turizm-mekanina-chevirmek-olar-arashdirma.html
3. https://sia.az/az/news/tourism/844259.html
4. В Карабахе будут развивать «черный туризм» //zerkalo.az/v-karabahe-budut-razvivat-chernyj-turizm/https://zerkalo.az/karabahe-budut-razvivat-chernyj-turizm
5. https://www.azerbaijan-news.az/posts/detail/qarabagin-dunyani-heyran-edecek-zengin-turizm-potensiali-var

Docendo discimus
Öyrədərək öyrənirəm
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
ADU

Ağakişiyeva Günəş Rafiq qızı
Azərbaycan Dillər Universiteti

**Qarabağda turizmin inkişaf imkanları**

Açar sözlər: speleoturizm, mədəni-tarixi turizm, müalicə-sağlamlıq turizmi, hadisə turizmi, ekoturizm

Keywords: speleotourism, cultural and historical tourism, health tourism, event tourism, ecotourism

Ключевые слова: спелеотуризм, культурно-исторический туризм, лечебно-оздоровительный туризм, событийный туризм, экотуризм

Turizm sosial-iqtisadi struktur kimi cəmiyyətin həm iqtisadi, həm də sosial mühitinin tərkib hissəsinə daxildir. Bununla əlaqədar olaraq, əksər dövlətlər turizmin milli iqtisadiyyata müsbət təsirlərini qiymətləndirərək, siyasi, iqtisadi və sosial məsələlərin həllində daxili və beynəlxalq turizmin inkişafını şərtləndirən xüsusi tədbirlər həyata keçirirlər. Xüsusi xidmət sferası olan turizmin spesifik xüsusiyyətlərindən biri də onun iqtisadiyyatın digər sahələrinin inkişafına təsiridir. Belə ki, turizm nəqliyyat, ticarət, rabitə, məişət xidməti, istehlak malları istehsalı, kənd təsərrüfatı və digər sahələrin inkişafını şərtləndirir. Bu baxımdan Qarabağın perspektiv sosial-iqtisadi inkişafı turizm sahəsi ilə sıx bağlıdır. Qarabağda inkişaf imkanları geniş olan turizm növlərinə - speleoturizm, mədəni-tarixi, müalicə-sağlamlıq, hadisə və ekoturizm aiddir.

Mədəni-tarixi amillərə müxtəlif tarixi və arxitektur abidələr, əhalinin milli tərkibinin rəngarəngliyi, qədim adət-ənənələr aiddir [5]. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli qərarı ilə təsdiq edilmiş dünya və ölkə əhəmiyyətli memarlıq və arxeoloji abidələrin siyahısında Yuxarı Qarabağda dünya əhəmiyyətli 12, ölkə əhəmiyyətli 93, Kəlbəcər-Laçında dünya əhəmiyyətli 2, ölkə əhəmiyyətli 54 abidə fərqlənir. Dünya əhəmiyyətli memarlıq abidələrində Yuxarı Qarabağda 11 tağlı Xudafərin körpüsü, 15 tağlı Xudafərin körpüsü (Cəbrayıl), Şuşa Tarix-Memarlıq Qoruğu

(Şuşa), Qulu Musa oğlu türbəsi (Ağdam), Kəlbəcər-Laçında Gəncəsər monastırı, Xudavəng monastırı (Kəlbəcər), dünya əhəmiyyətli arxeoloji abidələrdə Yuxarı Qarabağda Azıx mağara düşərgəsi, Tağlar mağara düşərgəsi (Füzuli), Çalağantəpə yaşayış yeri (Ağdam), ölkə əhəmiyyətli memarlıq abidələrində Yuxarı Qarabağda Türbə, Karvansaray (Füzuli), Alban məbədi, Kilsə (Xocavənd), Kəlbəcər-Laçında Lex qalası, Alban məbədi, Qala (Kəlbəcər), Məlikəjdər türbəsi (Laçın), ölkə əhəmiyyətli arxeoloji abidələrdə Yuxarı Qarabağda Kurqan, Gültəpə yaşayış yeri (Ağdam), İmanqazan təpələri, Şıxlar mağarası (Cəbrayıl), Kəlbəcər-Laçında Zar mağara düşərgəsi (Kəlbəcər), Xırman yeri yaşayış yeri (Qubadlı), Mağara məbədi (Laçın) seçilir.

Speleoturizmin əsas xüsusiyyətlərinə mağaraların müxtəlif relyef formaları ilə şərtlənən yeraltı marşrutun çətinliyi, həmçinin aşağı temperaturda havanın yüksək nisbi rütubətli (100%-ə qədər) aiddir. Speleoturizm turistdən fiziki güc, dözümlük, çeviklik, yerin altında təhlükəsizlik üçün bütün mümkün vasitə və sığorta imkanlarından istifadə bacarığı, həmçinin üzmək və qayayadırmanma qabiliyyəti tələb edir. Speleoturun marşrutu üst qat və yeraltı olmaqla, 2 hissədən ibarətdir. Speleotura çıxmamışdan əvvəl maraqlı və münasib ekskursiya əraziləri göstərilən marşrutlar hazırlanır [2, s. 578].

Şuşa mağarası Şuşa yaylasında, Xəlifəliçayın sahilində, Şuşa şəhəri yaxınlığında, şosse yolundan 0,5 km məsafədə yerləşir. Morfologiyası (uzunluğu 40 m, eni 5 m, hündürlüyü 2 m), meteoroloji (temperatur 15,0$^0$C, rütubət 93%) və hidroloji rejiminə (quru) görə mağaranın turizm baxımından istifadə dairəsi müəyyən edilmişdir. Azıx mağarası Tuğ çökəkliyində, Quruçay sahilində, Azıx kəndi yaxınlığında yerləşir. Morfologiyası (uzunluğu 600 m, eni 25 m, hündürlüyü 15 m), meteoroloji (temperatur 15,1$^0$C, rütubət 100%) və hidroloji rejiminə (quru) görə bu mağaranın da turizm baxımından istifadə dairəsi müəyyən edilmişdir [3, s. 125].

Müalicə turizmi sağlamlığın bərpası məqsədilə reallaşır və kurort-sanatoriya müəssisələrində yerləşməyi təqdim edir. Sağlamlıq turizmi sağlamlıq və istirahət məqsədi daşıyır, səyahətin uzunmüddətli davamlılığı, az sayda şəhərləri görmək və eyni məkanda qalmaq ilə səciyyələnir [4, s. 8]. Yuxarı Qarabağ bölgəsinin məlum olan 17 mineral suyunun ən məşhurlarına Keçəldağ və Şırlan (Şuşa rayonu), Tumi (Hadrud yaxınlığında), Zardanaşen (Xocalı rayonu) aiddir. Laçın-Kəlbəcər bölgəsinin 63 bulağı İstisu (Kəlbəcər rayonu) və İlıqsu (Laçın rayonu) növlərə ayrılır. İstisu növlü sular 3 qrupla təmsil olunur: Yuxarı İstisu, Aşağı İstisu və Bağırsaq. 1948-ci ildə İstisu ərazisində içməli-balneoloji kurort yaradılmışdır. İlıqsu bulaqları Laçın rayonunda 1600 m hündürlükdə, Minkənd və Əhmədli ərazilərində yerləşir. Bu sular hidrokarbonat-xlorid-natrium-kalsium xassəli olub, $28^{0}$C temperaturlu ilıq Narzandır. Həmçinin, ərazidə Narzan tipli soyuq mineral sulara da rast gəlinir.

Turizm sənayesinin ən dinamik inkişaf edən növlərindən biri də ekoloji turizmdir. Belə ki, ekoloji turizmin illik artımı 10-20%-dən 30%-ə qədər qiymətləndirilməklə, beynəlxalq turizmin gəlirlərində 10-15% paya malikdir [6, s. 34]. ÜTT-nin qiymətləndirilməsinə görə dünya turizm bazarında ekoloji turizmin payı 7-10%-dir [2, s. 525]. Yuxarı Qarabağda 1 Dövlət Təbiət yasaqlığı (Daşaltı), Kəlbəcər-Laçında 2 Dövlət Təbiət qoruğu (Qaragöl, Bəsitçay), 3 Dövlət Təbiət yasaqlığı (Laçın, Qubadlı, Arazboyu) yerləşir.

Hadisə turizmi – mədəni turizmin mühüm əhəmiyyət kəsb edən hissəsi olub, müəyyən bir zamanda cəmiyyətin həyatındakı hər hansı hadisə ilə əlaqədar səyahəti əhatə edir [1, s. 362]. Vaqif poeziya günləri, “Xarıbülbül” festivalı və 2022-ci ildə Türk Şurasının Şuşada keçirəcəyi 20-yə yaxın mədəni tədbir Qarabağda hadisə turizminin inkişaf perspektivlərini yüksək qiymətləndirir.

“Xarıbülbül” musiqi festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar Qarabağda 1989-cu ildən etibarən (1991-ci ilə qədər) hər il may ayında Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya,

Avstriya, Əfqanıstan, SSRİ ölkələrinin iştirakı ilə keçirilməyə başlayıb və dünyada ən vacib mədəniyyət tədbirlərindən biri hesab olunub. Torpaqlarımız işğaldan azad olunandan sonra Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ölkənin mədəniyyət paytaxtı Şuşa şəhərinin Cıdır düzündə 2021-ci il 12 və 13 may tarixlərində “Xarıbülbül” festivalı keçirilmiş, Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi kollektivlərinin çıxışı, xalq və klassik musiqidən ibarət proqram təqdim olunmuşdur.

Turizmin inkişafında nəqliyyatın rolu olduqca böyükdür. Belə ki, nəqliyyat ölkənin rayonları arasında müxtəlif əlaqələr yaratmağa kömək etməklə, turizm-rekreasiya infrastrukturu şəbəkəsinin yerləşməsi və inkişafına təsir göstərir. Ərazinin turizm-rekreasiya potensialının qiymətləndirilməsi zamanı rayonun nəqliyyat baxımından mənimsənilməsi göstəricisi xüsusən nəzərə alınır [7, s. 51]. Nəqliyyatın turizmin inkişafındakı rolunu nəzərə alaraq, Qarabağ ərazisində avtomobil və dəmir yollarının tikintisi və mövcud olanlarının bərpası vacibdir. Tikilən avtomobil yollarına Füzuli-Şuşa, Kəlbəcər-İstisu və Kəlbəcər-Laçın, İsa bulağına qədər yol, Hadrut-Cəbrayıl-Şükürbəyli, Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı, bərpa olunan avtomobil yollarına – Horadiz-Cəbrayıl-Zəngilan-Qubadlı, Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinə gedən yol, tikilən dəmir yollarına isə Horadiz-Zəngilan-Ağbənd xətləri aiddir.

Beləliklə, büdcənin gəlir hissəsinin artımı, iqtisadiyyatın digər sahələrinə təsir, regional və ümumölkə səviyyəsində iqtisadi inkişaf kimi iqtisadi və əhalinin istirahəti və müalicəsi, yeni iş yerlərinin yaradılması və işsizlik probleminin həlli, sosial-iqtisadi və siyasi sabitlik kimi sosial funksiya daşıyan turizmin Qarabağ ərazisində inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb edir.

**Ədəbiyyat**

1. Биржаков М.Б. Введение в туризм. М., 2006, 512 с.

2. География туризма. Под редак. А.Ю.Александрова М., 2010, 592 с.
3. Гергедова Б.А. Подземные ландшафты: На примере карстовых пещер Кавказа. Тбилиси, 1983, 140 с.
4. Драчева Е.Л. Специальные виды туризма. Лечебный туризм. М., 2010, 152 с.
5. Дурович А.П., Кабушкин Н.И., Сергеева Т.М. и др. Организация туризма. Мн., 2005, 222 с.
6. Кусков А.С. Основы туризма. М., 2008, 400 с.
7. Погодина В.Л., Филиппова И.Г. География туризма. М., 2012, 256 с.

Ağaqasımov Rüfət Rafiq oğlu
Azərbaycan Dillər Universiteti

## Итоги II Карабахской войны: новый геополитический расклад сил в регионе

***Açar sözlər***: II Qarabağ müharibəsi, Cənubi Qafqaz, geosiyasi güc balansı

***Ключевые слова***: II Карабахская война, Южный Кавказ, геополитический расклад сил

***Key words***: II Karabakh war, the South Caucasus, geopolitical balance of power

С развалом Советского Союза начались многочисленные дискуссии об изменении баланса сил в регионе. На протяжении более 30 лет происходили определённые события, которые незначительно меняли ситуацию. Однако победа Азербайджана во II Карабахской войне позволила ряду экспертов (Д. Тренин, Т. де Вааль и др.) заявить об установлении нового геополитического расклада сил в регионе.

Для проведения полноценного геополитического анализа итогов II Карабахской войны необходимо коротко рассмотреть само понятие «геополитика» и то, какой именно аспект национальной силы государств формирует геополитический баланс. Один из отцов-основателей геополитики Ф. Ратцель придерживается мнения, что «геополитика – это географически интерпретированная политика» [5, с. 293]. Исходя из этого можно заключить, что на геополитический расклад сил важное влияние оказывают именно географические факторы.

При исследовании структуры национальной мощи государств можно определить, что ни один из её элементов не подвергается такому воздействию географии, как военный потенциал. Глобализация мировой

экономики и финансов открывает невиданные горизонты для финансово-экономической мощи стран. Например, американская компания «The Coca-Cola Company» с 200 названиями продукции действует на рынке более 200 стран и территорий по всему миру. Современные технологии и развитие глобальной сети Интернет повышает возможности государств по проецированию собственной информационной и технологической мощи. Так, в 2010 году вирусу Stuxnet, создание которого определённая группа экспертов приписывают американским и израильским спецслужбам, удалось вывести из строя центрифуги на иранском ядерном объекте в городе Нетенз. Причём даже изоляция комплекса от сетей общего доступа не позволила обеспечить защиту объекта [2]. Несколько иным образом обстоит дело при анализе военной мощи государств. Развитие баллистических ракет и средств борьбы с ними хотя и сокращает, но всё же не устраняет значимость географии. Так, в одном из своих последних интервью Президент России В. Путин заявляет: «Ведь расширение НАТО на восток и приближение инфраструктуры (прим. автора НАТО) к нашим границам имеет практическое значение для России... Представим себе, что Украина станет членом НАТО. Подлётное время от Харькова, скажем, или, не знаю, Днепропетровска до центральной части России, до Москвы, уменьшится до 7-10 минут» [6, 3-4 минуты].

Таким образом, можно заключить, что геополитический расклад сил представляет собой, в первую очередь, отображение характера распределения военного потенциала стран. С учётом того факта, что «большинство военных угроз легче преодолевают короткие расстояния, чем длинные» [1, с. 11] более целесообразно включить в наш анализ только региональные страны. В регион «большого Южного Кавказа» входят шесть стран: Россия, Турция, Иран и собственно три южнокавказские республики

– Азербайджан, Армения и Грузия, распределение сил между которыми происходит следующим образом.

Россия – единственная в регионе великая держава. Наличие у РФ значительного объёма ядерного оружия придаёт её характерную черту сверхдержавы – «способность к массовым разрушениям планетарного масштаба» [8, с. 237]. Однако экономическое и технологическое отставание сильно сокращает потенциал России. В связи с этим РФ относится к категории великих держав, которые «нередко стремятся играть мировую роль, однако реальные возможности, которыми они располагают, ограничивают их роль» [8, с. 237].

Турция и Иран – две средние державы, «обладающие прочным влиянием в своём ближнем окружении» [8, с. 237]. Обе страны имеют схожие возможности в военной сфере, однако членство Турции в НАТО, её более свободный доступ на мировой рынок технологий и финансов, а также отсутствие сильного санкционного давления на неё, позволяет нам котировать возможности Турецкой Республики выше её южного соседа.

Три южнокавказские республики входят в третью категорию. В ходе II Карабахской войны Азербайджан на практике доказал, что годы целенаправленного военного строительства не прошли зря. Не случайно уже на четвёртый день войны начальник генштаба Армении предупреждал руководство страны о катастрофической ситуации на фронте [7]. При этом по данным Международного Института Стратегических Исследований в 2020 году Армения и Грузия потратили на оборонительные нужды 621 и 288 млн долл. США, соответственно [3, с. 179-185]. По численности вооружённых сил Грузия так же уступает – 19 тыс. против 41 тыс. [3, с. 179-185]. Безусловно, в результате II Карабахской войны Армения получила существенный ущерб, как в плане материально-технической базы, так и

кадрового потенциала. Однако вхождение Армении в ОДКБ вкупе с довольно натянутыми грузино-российскими отношениями, а также вышеприведёнными цифрами несколько снижают относительные возможности Грузии.

В результате итоговое распределение сил в регионе выглядит следующим образом (порядок убывания): Россия, Турция, Иран, Азербайджан, Армения и Грузия. Россия продолжает играть наиболее важную роль в регионе, однако она больше не доминирует. Сам факт начала II Карабахской войны ещё раз подтверждает данное утверждение, ведь РФ была наиболее сильным противником возобновления вооружённой фазы конфликта. При этом «принципиальный интерес для России представляет именно Россия», то есть её интересы. «Если же её союзники будут проводить многовекторную политику, то им следует ожидать схожего ответа от России» [4]. В подобных условиях, для других стран региона возникают возможности для реализации собственных интересов. Со схожим сценарием мы столкнулись, когда Азербайджан, опираясь на поддержку Турции, смог разгромить вооружённые силы Армении во время II Карабахской войны, и при этом избежать прямого военного вмешательства России в конфликт. В свою очередь, в будущем Армения несмотря на вхождение в ОДКБ, столкнётся с проблемами при попытке реализации тех своих интересов, которые не играют важной роли для России.

**Список использованной литературы:**

1. Buzan B., Waever O., de Wilde J. Security: a new framework for analysis. – London: Lynne Rienner Publishers, – 1998. – 240 p.
2. Stuxnet: начало [Электронный ресурс] / Ноябрь 18, 2014. URL: https://www.kaspersky.ru/blog/stuxnet-victims-zero/6119/

3. The Military Balance 2021 / Chipman J. – London: Routledge, – 2021. – 525 c.
4. Trenin D. Moscow’s new rules [Electronic resource] / November 12, 2020. URL: https://carnegiemoscow.org/commentary/83208
5. Гасанов А. Геополитика. – Баку: Издательство «Zərdabi LTD», – 2012. – 688 с.
6. Долетят за 10 минут. Путин рассказал о последствиях появления ракет НАТО на Украине [Электронный ресурс] / Июнь 9, 2021. URL: https://www.youtube.com/watch?v=hGa5bO5cIhU
7. «Многие думали, что война - это забава»: Жирайр Липаритян о поражении Армении и будущем Карабаха [Electronic resource] / Ноябрь 20, 2020. URL: https://www.bbc.com/russian/features-55132269
8. Цыганков П. Теория международных отношений. – Москва: Гардарики, – 2009. – 557 с.

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ
ADU
Docendo discimus
Öyrədərək öyrənirəm

Ağayeva Xəyalə
Azərbaycan Dillər Universiteti

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN SİYASİ DƏSTƏYİ

Açar sözlər: İkinci Qarabağ müharibəsi, siyasi dəstək, Azərbaycan, Türkiyə.

Ключевые слова: Вторая Карабахская война, политическая поддержка, Азербайджан, Турция

Key words: Second Karabakh war, political support, Azerbaijan, Turkey

Türkiyə Cümhuriyyəti istər beynəlxalq platformada,, istərsə də yüksək səviyyəli ikitərəfli münasibətlər əsnasında Azərbaycana olan güclü dəstəyini hər zaman nümayiş etdirmişdir. Bu dəstək demək olar ki, dövlətlərarası münasibətlərin bütün sahələrində öz əksini tapmışdır. Biz şanlı tariximizin bəzi səhifələrində bu fikrin dönə-dönə öz təsdiqini tapdığının şahidi oluruq.

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında olan siyasi əlaqələr də strateji ortaqlığın və qardaşlıq hüququnun əksidir. Türkiyənin bu dəstəyi qardaşlıq hüququnu və bölgədə sülhün bərpasının vacibliyini özündə əks etdirməklə yanaşı, beynəlxalq hüququn təmin edilməsi üçün önəmli bir cavabdehlik nümunəsidir. Ümumiyyətlə, Türkiyənin regiona olan marağının tarixinə fikir versək, Cənubi Qafqaz regiounun Osmanlı dövləti üçün də mühm əhəmiyyət kəsb etdiyinin şahidi olarıq. Bu baxımdan, Türkiyənin son dövrlərdə Dağlıq Qarabağ münaqişəsində göstərdiyi aktivlik təəccüb doğurmamalıdır.

Azərbaycan Respublikası İkinci Qarabağ müharibəsi zamanı da beynəlxalq səviyyədə qurduğu uğurlu diplomatik münasibətlərini eyni dinamika ilə davam etdirməyi bacardı. Türkiyə ilə yanaşı, Pakistan, İsrail, Ukrayna, Gürcüstan kimi dövlətlər müharibə zamanı Azərbaycanın yanında olduqlarını açıq-aşkar bəyan etməkdən çəkinmədilər. Bu, əsası umummilli lider Heydər

Əliyev tərəfindən qoyulan və prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən möhkım xarici siyasət kursunun nəticəsi idi.

Türkiyə Cümhuriyyəti, İkinci Qarabağ müharibəsi başlayan andan istər rəsmi dairə, istərsə də ictimaiyyət səviyyəsində Azərbaycan tərəfindən mövqeyini qəti şəkildə dünya qarşısında bildirdi. Bir tərəfdən prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla, bütün türk rəsmiləri Azərbaycana siyasi dəstəklərini göstərmiş, digər tərəfdən Türkiyə beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycana olan siyasi dəstəyini davam etdirmişdir. Müharibə başlanan gün, 27 sentyabr 2020-ci il tarixində prezident R.T.Ərdoğan sosial şəbəkə paylaşımı vasitəsilə bütün dünya ictimaiyyətinə müraciət etmişdir: "Azərbaycana qarşı yeni hücumlar edən Ermənistan bölgədə sülhün və sabitliyin qarşısında ən böyük təhlükə olduğunu bir daha göstərdi. Türk milləti hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanındadır. Erməni xalqını onları fəlakətə aparan hakimiyyətinə və onları oyuncaq kimi istifadə edənlərə qarşı gələcəklərinə sahib çıxmağa dəvət edirik. Bütün dünyanı işğala qarşı apardığı mübarizədə Azərbaycanın yanında olmağa çağırırıq" [2].

Türkiyə prezidenti bu müddətdə Azərbaycan prezidenti İlham Əliyev ilə yaxın əlaqələrini davam etdirməklə yanaşı, Almaniya kansleri A.Merkel, AB Şurasının sədri Ç.Mişel, Rusiya prezidenti V.Putin, İran prezidenti H.Ruhani başda olmaqla bir sıra dövlət başçıları ilə Qarabağ məsələləri ilə əlaqədar çoxsaylı telefon görüşləri keçirmişdir.

İkinci Qarabağ müharibəsində Azərbaycan qardaş ölkədən parlament səviyyəsində də açıq dəstək gördü. Türkiyə Böyük Millət Məclisində (TBMM) qrupu olan 4 siyasi partiya (AK Partiya, MHP, CHP və İYİ Partiya) tərəfindən 16.07.2020-ci il və 28.09.2020-ci il tarixlərində iki dəfə ortaq açıqlanan yayımlamada Ermənistanın təcavüzləri şiddətlə qınanmış, Ermənistanın bölgədəki sülh və istiqrarın önündəki ən böyük əngəl olduğu vurğulanmışdır.

Bundan əlavə, 22 iyul 2020-ci il tarixində həyata keçirilən Milli Təhlükəsizlik Təşkilatının Toplantısından sonra nəşr edilən məlumatda, Azərbaycan torpaqlarındakı qeyri-qanuni işğalını illərdir sürdürən Ermənistanın sülhü pozan və beynəlxalq hüququ heçə sayan təcavüzünü şiddətlə qınandığı qeyd edilmişdir [4, s.55]. 18-20 oktyabr 2020-ci il tarixində TBMM sədri Mustafa Şentop bir sır millət vəkilləri ilə birlikdə Azərbaycana rəsmi səfər etmiş və prezident İ.Əliyev başda olmaqla bir sıra dövlət və hökumət rəhbərləri ilə görüşlər keçirmişdir.

Türk parlamenti tərəfindən Azərbaycana göstərilən siyasi dəstək bununla məhdudlaşmırdı. TBMM İnsan Hüquqlarının Müdafiəsi Komissiyasının üzvləri 15 noyabr 2020-ci ildə Ermənistanın Azərbaycanın mülki vətəndaşlarına qarşı törətdiyi təcavüzlərdə yaşanan hüquq pozuntularını araşdırmaq üçün Bərdə və Tərtərdə olmuş və burada çox geniş işlər görmüşlər [4, s.57]..

Növbəti günlərdə Türkiyə-Azərbaycan dostluğunun bariz nümunəsi olaraq Türkiyənin Xarici İşlər Naziri Mövlud Çavuşoğlu bir neçə dəfə Bakıya rəsmi səfər etmiş və bütün çıxışlarında Azərbaycanın bu haqq işində Türkiyəyə güvənə biləcəyini dönə-dönə qeyd etmişdir [1].

İstər II Qarabağ müharibəsində, istərsə də ondan sonrakı mərhələdə Türkiyənin Azərbaycanı heç bir təmənnasız dəstəkləməsi xarici mətbuatda və müxtəlif ictimai dairələrdə də ən çox müzakirə olunan məsələlərdən birinə çevrilmişdi. Bir sıra siyasi şərhçilər bu müharibədə təkcə Azərbaycanın deyil, Türkiyənin də qalib gəldiyi qənaətində idilər. İngilis mediasında, Azərbaycan ilə Ermənistan arasında imzalanan Bəyanata dair xəbərlərdə, müharibənin əsl qalibinin Türkiyə olduğu və Ankaranın bölgədəki müəyyənləşdirici rolunun sabit hala gəldiyi, Qərbin isə əksinə küncə sıxışdırıldığı dəyərləndirilməsi edilmişdir [3].

Ümumiyyətlə, Türkiyənin birinci Qarabağ müharbəsindəki iştirakı ilə ikincini müqayisə edərkən belə bir nəticəyə gəlmək olar ki, İkinci müharibə Türkiyənin siyasi iştirakı və vasitəçiliyi ilə sonlandı. Artıq yeni dövrdə, ATƏT-

in Misk Qrupunun həmsədrləri yerinə, Rusiya və Türkiyənin müşahidəçi və vasitəçi rolu daha önə çıxmış oldu. Türkiyənin bu açıq, şərtsiz və ən əsası tərəddüdsüz dəstəyi Azərbaycanı beynəlxalq arenada gücləndirmiş və Azərbaycan əleyhinə atıla biləcək hər hansı bir aadım qarşısında çəkindirici ünsür olmuşdur.

**İstifadə edilən ədəbiyyat siyahısı:**


1. Dışişleri Bakanı Çavuşoğlu Bakü’de. [Elektron resurs] // https://www. trthaber.com /haber/gundem/disisleri-bakani-cavusoglu-bakude-527465.html (1noyabr 2020)
2. Ərdoğan: Türk milleti bütün imkanları ile Azərbaycanın yanındadır. [Elektron resurs] https://www.realtv.az/news/az/57324/erdogan-turk-milleti-butun-imkanlari-ile-azerbaycanin-yanindadir
3. İngiliz basını: Azerbaycan-Ermenistan savaşının en büyük galibi Türkiye. [Elektron resurs] https://www.aa.com.tr/tr/azerbaycan-cephe-hatti/ingiliz-basini-azerbaycan-ermenistan-savasinin-en-buyuk-galibi-turkiye/2040173
4. “Yukarı Karabağ’da 44 Günde Gelen Zafer: Türkiye-Azerbaycan Kardeşliğinin Nişanesi”. İstanbul, 2021

Alməmmədova Şəbnəm Eldar qızı
Azərbaycan Dillər Universiteti

**Prezident İlham Əliyevin Böyük Zəfərə aparan uğurlu siyasəti**

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Qarabağ, prezident, erməni təcavüzü*
***Ключевые слова:*** *Азербайджанская Республика, Карабах, Президент, армянская агрессия*
***Key words:*** *Republic of Azerbaijan, Karabakh, President, Armenian aggression*

2016-cı il aprelin 2-5 tarixində baş verən "4 günlük müharibə" nəticəsində müzəffər ordumuz münaqişə tarixində ilk dəfə olaraq Azərbaycanın ciddi hərbi-strateji əhəmiyyət daşıyan bir sıra məntəqələrini (Lələ təpə yüksəkliyi, Cocuq Mərcanlı kəndi və s.) işğaldan azad etdi. Beynəlxalq münasibətlər elminə görə, hərbi nəticə məqsəd deyil, siyasi nəticə əldə etmək üçün bir vasitədir. Buna görə "4 günlük müharibə"nin siyasi nəticələri hərbi nəticələrdən daha vacib oldu. "4 günlük müharibə" ilə Azərbaycan Prezidenti İlham Əliyev təkcə Ermənistana deyil, beynəlxalq ictimaiyyətə də vacib bir mesaj verdi ki, işğalçı düşmən torpaqlarımızdan xoşluqla çıxmayacaqsa, onu dəmir yumruqla çıxaracayıq! Beləliklə, Aprel döyüşləri Böyük Zəfərə gedən qalibiyyət yolunun başlanğıcı oldu.

2018-ci il aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisdə andiçmə mərasimindəki nitqində ötən dövr ərzində işğal edilmiş ərazilərin azad olumması istiqamətiində prinsipial xarici siyasətin yeridildiyini bəyan etdi.

2019-cu il fevralin 15-i tarıxındə 56-cı Münhen Təhlükəsizlık Konfransıının Dağlıq Qarabaq münaqişəsi ilə bağlı müzakirələrdə Ermənıstan baş naziri ilə debat zamanı prezident İlham Əliyev işğalçı dövlətin Azərbaycan torpaqlarına iddialarıının tarixi-siyasi, hüquqi baxımdan əsassız olduğunu sübut etdi, Paşınyanın uydurma arqumentlərini alt-üst etdi.

İlham Əliyevin hakimiyyəti illərində hökümət ordu quruculuğu və müdafiə sənayesinin inkişafına böyük diqqət ayıraraq Azərbaycanı silah istehsal edən dövlətə çevirdi. Azərbaycan 2020-ci ildə müdafiə və milli təhlükəsizlik sahəsinə büdcə xərclərinin 15,3%-ni və ya 3 milyard 954 milyon manat (2 milyard 326 milyon ABŞ dolları) ayırmışdı [2].

2019-cü ilın avqust ayında Daqlıq Qarabaqda təşkil oluman Ümumerməni Oyunlarıının acılışında Ermenistan Baş nazıri Nıkol Paşınyan “*Qarabaq Ermənıstandır və nöqtə*” şüarını səsləndirdi. Elə həmın il Ermənıstanın müdafıə nazıri Davıd Tomoyan ABŞ səfərində Ermənıstanın Qarabaqla baqlı yeni strategıyasının “*Yeni müharibə - yeni ərazılər*” olduğunu demışdi [1].

Azərbaycan Prezidenti İlham Əliyev N.Paşınyanın “Qarabaq Ermənıstandır” şüarına “*Qarabaq Azərbaycandır və nıda* ***işarəsi*”** şüarı ilə cavab verdi və Azərbaycanıın ərazi bütövlüyümün müzakirə mövzusu olmadığını bəyan etdi [5].

2020-ci ilın yazında Şuşa şəhərində cinayətkar Daqlıq Qarabaq rejiminın qondarma başçısının qondarma inauqurasiyasında Ermenistanın Baş nazıri Nıkol Paşinyanın da iştirak etməsi, Ermənistan Respublikası Təhlükəsizlik Şurasının iclasını Şuşada keçirməsi sülh danışıqları prosesinə böyük zərbə vurmaqla yanaşı Azərbaycana meydan oxumaq və bizi cavab hərəkətlərinə təhrik etmək idi. Təbii ki, Azərbaycan dövləti Ermənistana kəskin etirazını bildirdi, eyni zamanda bu şüurlu provokasiyalara təmkın, konstrüktivlik və saqlam düşüncə nümayış etdirdi.

Bundan nəticə çıxarmayan Ermenistanın baş nazıri Nıkol Paşimyan danışıqlar prosesinin davam etməsi üçün Azərbaycan tərəfinə 7 qəbuledilməz şərt irəli sürdü:1) Azərbaycan Daqlıq Qarabaqla bir başa danışıqlar aparmalıdır; 2) Daqlıq Qarabaqın təhlükəsizliyi məhdudlaşdırıla bilməz; 3) Daqlıq Qarabaqın öz

müqəddəratını təyın etmə huququ olmalıdır; 4) Azərbaycan Ermənıstana və Daqlıq Qarabaqa güc tətbiqinın fıkrindən rəsmi olaraq imtına etməlidir [4]və s.

Prezıdent İlham Əliyev bu şərtlərə cavabında Paşınyanın "*7 şərtini" lazimsız kağız parçası kimi zibil yeşiyininə atmaq lazımdır*" [3] deyə Ermənıstanı bilərəkdən danışıqlar prosesini pozmaqda, qəbuledilməz tələblər irəli sürməkdə və erməni liderinin qarşı tərəfi müharibəyə təhrik etməkdə günahlandırdı. Azərbaycanın tək şərtinin olduğunu – işğalçı ermeni sılahlı qüvvələrinin Azərbaycan torpaqlarının qeyd - şərtsiz boşaldılıması şərtinın olduğunu bildirdi. Prezıdent Paşınyanın "münaqışənin həlli məqsədılə Yerevanla danışıqlar aparılırsa, demək, Bakı Daqlıq Qarabağı Ermənıstan ərazisi sayır" fikrinə də tutarlı cavab verərək dedi ki, *biz məhz ona görə illərdır İrəvanla danişiqlar aparırıq ki, işqalçı Ermənıstandır, "Daqlıq Qarabaq Respublıkası" qondarıma qürumdur* [3].

Beləliklə, yeni "açıqlamaları" vasitəsilə Paşınyanın informasıya savaşında üstünlüyü qazanmaq istəyi nəticəsiz qaldı. İlham Əliyevin "*özünə güvənirsənsə, elə bu gün Daqlıq Qarabaqın müstəqilliyini tanı*" açıqlaması qarşısında N.Paşınyanın susqunluğu Azərbaycanın Ermənıstanla informasiya müharibəsində açıq-aydın qələbəsi idi.

Ancaq nə ATƏT-ın Mınsk Qrupunun həmsədr dövlətlərindən, nə də beynəlxalq təşkilatlardan tərki görməyən erməni dövləti çox keçmədi ki, Ermənıstan – Azərbaycan dovlət sərhəddinin (!) Tovuz rayonu ərazıləri boyunca, münaqişə zonasından çox-çox uzaqda yerləşən mövqelərimizi ağır artillerıya silahlarmdan ateşə tutaraq ciddi təxribat törətdi.

Avqustun 23-də Azərbaycan ərazisinə soxulan Ermənıstanın təxribat qrupu və onun başçısı təmas xəttinində saxlanıldı və neytrallaşdırıldı.

2020 –ci il sentyabrın 27-də səhər saatlarında Ermənıstan silahlı qüvvələri təmas xəttində genişmiqyaslı təxribat törətdi. Ağır artilleriyanın qəfil bombardmanı nəticəsində bir çox əsgərimiz şəhid oldu və yaralandı. Artilleriya

atəşindən sonra erməni əsgərləri hərbi mövqelərimizə hücum etdilər. Bundan sonra Azərbaycan Silahlı Qüvvələri əks-hücuma keçdi.

Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində Ermənistanın qeyri-konstruktiv və status – kvonun qalmasına yönəlmiş siyasəti və hərbi təxribatları İkinci Qarabağ müharibəsinin başlanmasına səbəb oldu. Prezident İlham Əliyevin elan etdiyi “Qarabağ Azərbaycandır və nida” şüarı Azərbaycan xalqının qələbəyə inam və əzmini atrırdı, Vətən müharibəsində cəmiyyətin bütün təbəqələrinin nümayiş etdirdiyi birlik, xalqın Ali Baş Komandan İlham Əliyevin ətrafinda sıx birləşməsi müqəddəs savaşın qələbə ilə baş çatmasında mühüm rol oynadı, Azərbaycanın gücünü bütün dünyaya nümayiş etdirdi.

Prezident İlham Əliyevin dünyanın ən nüfuzlu televiziya kanallarına, o cümlədən ermənipərəst mediaya müsahibəsi və digər çıxışları dövlətimizin təkcə cəbhədə deyil, informasiya savaşında da qələbəsini təmin etdi.

Türkiyə dövlətinin hərbi əməliyyatların ilk günündən Azərbaycana mənəvi-siyasi dəstəyi, ABŞ və RF-nin bitərəf mövqeyi, prezident E.Makronun beynəlxalq hüquqa və həmsədr kimi vasitəçilik missiyasına zidd erməniprərəst mövqeyinin dövlət başçımız tərəfindən qətiyyətlə pislənilməsi Prezident İlham Əliyevin mahir və peşəkər diplomat olduğunun və hakimiyyəti illərində uğurlu xarici siyasət apardığının parlaq təzahürü idi.

Beləliklə, Böyük Zəfər prezident İlham Əliyevin apardığı məqsədyönlü uğurlu siyasəti nəticəsində mümkün oldu. Ali baş komandan İlham Əliyevin başçılığı altında Azərbaycan Ordusunun 44 günlük qəhrəmanlıq savaşı, “Dəmir yumruq” əməliyyatı Azərbaycanın hərb tarixinin və müasir beynəlxalq münasibətlər tarixinin ən mühüm səhifələrindən biri kimi yadda qalacaqdır.

**İstifadə edilmiş ədəbiyyat**:

1. 2020-ci il Azərbaycanda İkinci Qarabağ Müharibəsi ili kimi yadda qaldı https://www.bbc.com/azeri/azerbaijan-55474903

2. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi https://files.preslib.az/projects/azdiplomacy/a2_4.pdf
3. Əliyev Paşinyana meydan oxudu, “7 şərt”i zibil qutusuna atmaq o deməkdir ki...” – Politoloq// https://www.musavat.com/news/eliyev-pasinyana-meydan-oxudu-7-sert-i-zibil-qutusuna-atmaq-o-demekdir-ki-politoloq_722944.html
4. Nikol Paşinyan: "Əgər Azərbaycan güzəştə razıdırsa, Ermənistan da hazırdır"// https://www.bbc.com/azeri/region-45476590
5. Prezident İlham Əliyev: Qarabağ Azərbaycandır və nida işarəsi //https://xalqqazeti.com/az/news/31782

Aslanzadə Suzana Rövşən qızı
YAP Füzüli rayon təşkilatı

**Azərbaycanın siyasi-diplomatik zəfər təntənəsi**

Açar sözlər: Ermənistan – Azərbaycan münaqişəsi, siyasət, tərəfdaşlıq, beynəlxalq hüquq, beynəlxalq təşkilatlar

Ключевые слова: Армяно-Азербайджанский конфликт, безопасность, политика, международное право, международные организации,

Key Words: Armenia – Azerbaijan conflict, politics, partnership, international law, international organizations

**Biz xarici siyasətimizlə öz milli maraqlarımızı qoruyuruq və mümkün olan riskləri azaldırıq. Bizim xarici siyasətimiz, məhz, milli maraqlar üzərində qurulub. Milli maraqlar nəyi diktə edirsə, biz xarici siyasətdə onu da etməliyik və edirik. Deyə bilərəm ki, buna müvəffəq olmuşuq.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Cənubi Qafqazda Azərbaycan xarici siyasət sahəsində müstəqilliyi hər zaman üstün tutan güclü dövlət olmuşdur. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu uğurlu xarici siyasət kursunun möhkəm təməl, düzgün strategiya üzərində qurduğu müasir zamanın sınaqlarından çıxmaqla öz təsdiqini bir daha tapdı. Unikal şəxsiyyət İlham Əliyevin son 17 ildə apardığı ardıcıl xarici siyasət bu kursun mükəmməl davamıdır. Cənab Prezident müharibədən əvvəl münaqişə ilə bağlı çıxışlarında heç vaxt bu işğalla barışmayacağını, Azərbaycanın tarixi, əzəli torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyini, dövlətin milli maraqlarına, tarixi ədalətə cavab verməyən razılaşma ilə barışmayacağını qeyd edirdi. Dünyanın böyük güclərinə qarşı

qətiyyətli və prinsipial mövqe nümayiş etdirən İlham Əliyev qarşıya qoyulan məqsədə-ərazi bütövlüyümüzün təmin olunmasına zəfərlə taclandırılmış 44 günlük Vətən müharibəsi ilə nail oldu.

Müharibə dövründə Azərbaycanın bu günə qədər milli maraqları və müstəqilliyi rəhbər tutan balanslaşdırılmış formada yeritdiyi xarici siyasət öz gücünü bir daha nümayiş etdirdi. Sentyabrın 27-dən etibarən Prezident İlham Əliyev "Rossiya 1", "Əl-Ərəbiyyə", "TRT Haber", "Əl-Cəzirə", Rusiyanın "Pervıy Kanal", "Euronews" televiziyalarına verdiyi müsahibələrdə ayrı-ayrı suallarla yanaşı, gündəmdə olan ən vacib məsələ Ermənistan-Azərbaycan təmas xəttində baş verənlərlə bağlı idi[1]. Qətiyyətli, uzaqgörən, hazırcavablığı ilə dünya miqyaslı Prezidentimiz beynəlxalq tribunalar vasitəsiylə əsrlərdir ermənilərin yeritdiyi işğalçılıq siyasətini ifşa etmişdir.

Sentyabrın 29-da "Rossiya 1" telekanalında yayımlanan 60 dəqiqə proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən hadisələrə həsr olunmuş verilişdə aparıcının suallarını cavablayan Prezident İlham Əliyev mövcud həqiqətləri çatdırmış, anti-Azərbaycan təbliğatına adekvat cavablar vermişdir[2].

Daha sonra "Əl-Cəzirə" telekanalında da ermənilərin beynəlxalq ictimaiyyəti aldatmaq cəhdlərini ifşa etmiş, onların torpaqlarımızı əbədi işğal altında saxlamaq niyyətlərini bildirmişdir. Ermənilərin heç bir beynəlxalq qətnamələrə və beynəlxalq hüquqa məhəl qoymadan ərazilərimizi işğal altında saxlamasını qətiyyətlə pisləmiş, həll yolunu isə işğal siyasətini dayandırmaqda görmüşdür. "Həll yolunun tapılması üçün vasitəçilik aparmaq məqsədilə Minsk qrupu artıq 28 ildir fəaliyyət göstərir və heç bir nəticə yoxdur. Bunun əsas səbəbi Ermənistanın mövqeyidir; ikinci səbəb, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına başlamaq üçün vasitəçilər tərəfindən təkid göstərilməməsi və təzyiqin olmamasıdır"[1].

Müzakirələrdə qətnamələri əsas tutan Cənab Prezident "Pervıy kanal" əməkdaşının verdiyi "Sizin fikrinizcə, Azərbaycan və Ermənistanın danışıqlar masası arxasında əyləşməsi üçün nə baş verməlidir?" sualına faktlara, analitikaya əsaslanan İlham Əliyev haqlı mövqedən çıxış etmiş və həlli BMT qətnamələrinin yerinə

yetirilməsində-işğal olunmuş ərazilərin dərhal, qeyd-şərtsiz, tamamilə qaytarılmasında olduğunu qeyd etmişdir[1].

Müharibə dönəmində siyasi-diplomatik strategiyanın əsl zəfərinə şahid olduq. Belə ki, BMT Təhlükəsiz Şurasının (TŞ) Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar keçirilmiş qapalı iclasından sonra ATƏT-in Minsk qrupunun həmsədr ölkələri olan Rusiya, ABŞ, Fransa tərəfindən TŞ prezidentinin bəyanatının layihəsi hazırlanmış, razılaşdırılması üçün üzv ölkələr arasında yayılmışdı. Ancaq, bəyanatın layihəsində qəbul olunmuş qətnamələrə istinad olunmamışdı.

Bu səbəbdən, TŞ-də təmsil olunan Qoşulmama Hərəkatına üzv olan 7 ölkə - İndoneziya, Niger, Vyetnam, Tunis, Cənubi Afrika, Dominikan Respublikası, Sent Vinsent və Qrenadin – layihəyə BMT qətnamələrinə (882, 853, 874, 884) istinadın daxil edilməsini təklif ediblər[4]. BMT TŞ-nin bəyanatın qəbul olunması ilə bağlı təkidlərinə baxmayaraq, Qoşulmama Hərəkatı üzvləri prinsipial mövqe nümayiş etdirmiş və instinadın yer almasını təkidlə bildirmişdir. Böyük bir qətiyyət nümunəsi sərgiləyən QH bəyanatın geri çəkilməsinə nail olmuş, bu istiqamətdə tarixi rol oynamışdır. Bəyanatın məzmununda bu günə qədər təklif olunan və heç bir şəkildə həll yoluna çatmayan atəşkəsə nail olunması, münaqişənin sülh yolu ilə həlli təklif olunurdu. Bu bəyanat da məlum olduğu üzrə 30 illik fəaliyyətsizliyin bir yeni döngüsü olacaqdı.

Qoşulmama Hərəkatı beynəlxalq hüquqa və prinsiplərinə sadiqlik nümunəsi göstərmişdir. Bu müddətdə müxalif qüvvələrin QH-na üzv olmağın faydasız olacağı tezislərinin yersiz olduğu bir daha sübut olundu. Xarici siyasəti unikal mövqedə idarə edən Cənab Prezidentin haqlı mövqeyi tarixdəki öz yerini aldı.

Müharibə dövründə İlham Əliyev ingilisdilli auditoriyaya -“Euronews” haqlı mövqeyimizi faktlarla bir daha çatdırdı. Əməkdaşın Türkiyəylə bağlı sualları qardaş ölkə ilə olan münasibətlərin aydınlaşdırılması üçün böyük əhəmiyyət daşıyırdı. Siz Türkiyənin bu münaqişədə ölkənizə nə dərəcə təsir göstərdiyini və hərəkətlərinizi sürətləndirdiyini deyə bilərsiniz?” şəklində verdiyi diplomatik suala cənab Prezidentin cavabı mükəmməl

oldu: “Bu, tamamilə yanlış informasiyadır. Türkiyə bizim üçün güclü müttəfiq, tərəfdaş və qardaş ölkədir. Əlbəttə ki, onların verdiyi bəyanatlar onların mövqeyini ifadə edir və biz bu dəstəyə görə Türkiyə hökumətinə, Türkiyə Prezidentinə və Türkiyə xalqına minnətdarıq. ...Ermənistan mediaya belə feyk xəbərlər yaymaqla Azərbaycan Ordusunun bacarığını azaltmaq istəyir. Biz özümüz savaşırıq. ...Türkiyə heç bir digər şəkildə münaqişəyə cəlb olunmayıb”[1].

44 gün ərzində Türkiyə dövlətinin həqiqətən dostluq, qardaşlıq, müttəfiqlik prinsiplərinə sadiqliyinin şahidi olduq. Bütün televiziya kanalları, sosial şəbəkə platformalarında “Bir millət, iki dövlət!” şüarı ilə “Can Azərbaycan!!!” deyib, haqlı davamızda birmənalı şəkildə yanımızda yer aldılar.

Azərbaycanın digər mühüm uğuru isə mövcud mövqedə dünyanın onu dəstəkləməsində oldu. Belə ki, Ermənistan prezidentinin kömək üçün çağırışlar etdiyi NATO-dan gözlədiyi dəstəyi almamaqla yanaşı, qəti mövqe görməsi Azərbaycanın xarici siyasət strategiyasının yeni zəfəri idi. ABŞ-ın NATO-dakı səfiri Key Beyli Hatçison: “Dağıq Qarabağ münaqişəsi 30 ildir ki, irinləyir. ABŞ, Rusiya və Fransadan ibarət ATƏT-in Minsk Qrupunun həmsədrləri münaqişənin ilkin mərhələsinə qayıtmasını arzu edirlər. Hansı ki, orada Azərbaycanın suveren sərhədləri var və erməni əhali bu sərhədlər çərçivəsində yaşayır. Münaqişə Azərbaycanın sərhədləri və suverenlik məsələləri çərçivəsində həll olunmalıdır”,- deyə qeyd etmişdir[6]. Bu da Ermənistanın Azərbaycana cəbhədə məğlub olması ilə yanaşı geosiyasi arenada da birmənalı şəkildə məğlubiyyəti idi.

Həm uğurlu siyasi-diplomatik fəallıq, həm də analitik informasiya siyasəti dünyanı haqlı dəstəyə səslədi. Qardaş Türkiyə dövləti başda olmaqla, Pakistan, İsrail, Ukrayna, Gürcüstan, Qazaxıstan, Macarıstan, Qırğızıstan, Özbəkistan, Əfqanıstan dövlətləri ölkəmizin yanında olduğunu qeyd etdilər.

Müharibə dövründə ölkəmiz mənfur düşmənin əsassız böhtanlarına məruz qaldı. Bunlardan biri də ordumuzda muzdululların döyüşdüyü iddiası idi. Məlum olduğu üzrə Azərbaycan dövlətində belə bir hal yolverilməz və qəbuledilməzdir. Ölkəmiz özünü

bütün sahələrdə, eləcə də hərb sahəsində təmin edən güclü, nizami orduya malikdir. Erməni ekspertlər özləri belə Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrindən dəfələrlə güclü olduğunu qəbul edirdilər. Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsi Artsrun Ovanisyan bildirmişdir ki, Azərbaycan yüksək texnologiyalara əsaslanan silahlara malikdir, bu cür hazırlıq supergüclərin ordusunda ola bilər. Daha sonra isə, elə sahələr vardır ki, Azərbaycan Ordusu Ermənistandan 12 dəfə güclüdür deyə vurğulamışdır. Cənab Prezident bu məsələ ilə bağlı heç bir dəlilin və əsasın olmadığını, feyk-nyus xarakteri daşıdığını qeyd etmişdir.

Xarici siyasət sahəsində dövlət vətəndaş cəmiyyətinin qarşılıqlı fəaliyyəti, milli dövlət maraqlarının reallaşdırılmasına köməklik etməlidir. Bu mövqedə Vətən müharibəsi dövründə xalq liderinin ətrafında yumruqtək birləşdi və ona inandı.

İlham Əliyev bütün beynəlxalq təzyiqlərə rəğmən həm Ali Baş Komandan kimi cəbhədə, həm dövlət başçısı kimi diplomatiyada, həm də informasiya siyasətində qalib oldu. “Beynəlxalq hüquq və ədalət – bu iki prinsip hər bir ölkə üçün əsas prinsip olmalıdır”,- deyə vurğulayan dövlət başçımız 30 ildir ki, danışıqlar masasından ötəyə getməmiş tarixi haqsızlığa son qoyaraq, beynəlxalq hüququ təmin etdi. Ölkəmizə qazandırdığı şanlı qələbə ilə məğlub xalq stereotipini kökündən dəyişdi.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Paşayeva Q. Diplomatiyamızın təntənəsi. “Xalq qəzeti”., 2020, 10 oktyabr
2. https://president.az/articles/50798
3. Babaoğlu H. Xarici siyasət. Dərslik., Bakı:ELM, 2019-324səh.
4. Cəfərli R. İlham Əliyevin siyasi-diplomatik zəfəri. “Azərbaycan” qəz., 2020, 25 oktyabr
5. Sadıqov B. Xilaskar İlham Əliyev. “Azərbaycan” qəz., 2020, 15 dekabr
6. Tağıyev T. Azərbaycan Ermənistanı həm də diplomatik nokauta saldı. “Xəbər” qəz., 2020, 23 oktyabr

Babaxanova Mehriban Eldar qızı
Azərbaycan Dillər Universiteti

**Vətəndaş cəmiyyəti- Vətən müharibəsi və sonrasında.**

Açar sözlər: vətəndaş, cəmiyyət, QHT, xalq, müharibə
Ключевые слова: гражданское, общество, НПО, народ, война
Key words: civil, society, NGO, people, war

Sülh cəmiyyətində vətəndaş cəmiyyətinin demokratik idarəetmənin gücləndirilməsində əsas rol oynadığı qəbul edilir. Lakin münaqişələr zamanı vətəndaş cəmiyyəti siyasətə daha əhəmiyyətli təsir göstərə bilər. Münaqişələr zamanı siyasiləşmənin artdığı, institusional çərçivənin daha da sərtləşdiyi bir zamanda vətəndaş cəmiyyəti daha da aktivləşə bilər. Vətəndaş cəmiyyəti sabit siyasi sistemdə kifayət qədər inert ola bilsə də, münaqişə zamanı onun səfərbərlik dərəcəsi arta bilər. Eyni zamanda, siyasiləşmə keyfiyyətcə fərqli bir xarakter alır, çünki həyat və ölüm məsələləri təhlükədədir. Dinc dövürdən fərqli olaraq, münaqişələr zamanı, siyasətin ekzistensial təbiəti baş qaldırır, səfərbərlik üçün digər sosial stimullar meydana gəlir.[2] Müvafiq olaraq, belə bir siyasi vəziyyət həyatın müxtəlif sahələrinə təsir edir ki, bu da cəmiyyətin bir çox təbəqələrində müxtəlif sosial qüvvələrin fəallaşmasına səbəb olur. Vətəndaş cəmiyyəti nümayəndələrinin fəaliyyəti münaqişənin səbəblərini və necə hərəkət etməyi fərqli şərh etməsi səbəbindən münaqişənin dərinləşməsinə, status - kvonun qorunmasına və sülh yolu ilə həllinə kömək edə bilər.

Əksər hallarda vətəndaş cəmiyyətini xaricdən maliyyələşən, qərbyönümlü qeyri hökümət təşkilatları kimi başa düşürlər. "Vətəndaş

cəmiyyəti" termini, yerli və beynəlxalq səviyyəli şəxsiyyətlər və təşkilatlar, müstəqil və yarımdövlət strukturlar daxil olmaqla, geniş fərdləri əhatə edir.Vətəndaş cəmiyyətinin fəaliyyəti münaqişənin gedişində özünü biruzə verməyə başlayır.

Bu gün Azərbaycanda Vətəndaş Cəmiyyəti institutları müəyyən inkişaf yolu keçib. Vətəndaş Cəmiyyəti institutlarının fəaliyyəti bir çox sahədə problemlərin həllinə yardımçı olur. Buna görə də Vətəndaş Cəmiyyəti institutlarının dövlət, media və digər quurmlarla sıx əməkdaşlıq etməsi vacib şərtdir. Hələ 170 il öncə məşhur fransız sosioloqu Aleksis de Tokvil "Amerikada demokratiya" kitabında yazırdı: "Amerikalılar yaş fərqindən və vəziyyətlərindən asılı olmayaraq bayramlar təşkil etmək, məktəblər yaratmaq, mehmanxanalar, yeməkxanalar və kilsələr tikmək, kitab yaymaq, missionerləri dünyanın başqa ölkələrinə göndərmək üçün müxtəlif ittifaqlarda birləşirlər". [1,23]

Vətəndaş cəmiyyəti bəşər üçün yeni bir mərhələ təşkil edir.Cəmiyyətinin formalaşması və inkişafı üçün ilk növbədə fərdlərin birliyi gərəkdir. Bu birliyin ən rasional forması QHT-lərdir. Ölkəmizdə QHT-lərin yaranması, İctimai Şuraların təsis edilməsi dövlətimizin müstəqillik tarixində dövlətçiliyimizin inkişafına xidmət edəcək bir haldır. QHT-lər qarşılarına ümumi firavanlıq naminə çalışmaq məqsədini qoyan ayrı-ayrı şəxslərin birliyidir. Demokratik ölkələrin nümunəsinə əsaslanaraq demək olar ki, QHT-lər Azərbaycanda həm demokratiyanın möhkəmlənməsinə, vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə,hüquqi dövlət quruculuğuna, sosial problemlərin həllinə, əhalinin maariflənməsinə, dünyaya inteqrasiya proseslərində iştirakına, və ən

əsası, ölkəmiz üçün 30 il ərzində ən vacib olan məsələlərdən biri olan – Qarabağın işğaldan azad edilməsi və Azərbaycan həqiqətlərinin dünyaya obyektiv çatdırılmasına dair əzmlə fəaliyyət göstərməkdədirlər. Vətəndaş cəmiyyətinin fərqli institutları ictimai siyasətin yaxşılaşdırılması və tələblərə uyğunlaşdırılması, insan hüquqlarının qorunmasına, ictimai iştirakçılığın təmin olunmasına, dövlət və cəmiyyət arasında bir növ bağlayıcı güvvə rolunu oynamağa yönəlib. Dövlətin qanunları, qərarları, proqram və qrantlarında qarşıya qoyulan vəzifələr vətəndaş cəmiyyətinin institutlarının daha da inkişaf etməsinə təkan verir. Azərbaycan Respublikasının Prezidenti tərəfindən Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması isə QHT-lərin əməkdaşlığı üçün yeni imkanlar yaradıb.Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi naminə QHT-lərin inkişafına dövlət dəstəyini nəzərdə tutan çox mühüm bir addım oldu.[4]

Azərbaycan 44 günlük mühahirəni qələbə ilə başa çatdırdı. Xalqımız üçün çox həssas bir zaman kəsiyində güclü birlik, vətənpərvərlik ruhu əsgərlərimizin döyüş əzminə güclü dəstək və ümid oldu.Bu müddət ərzində həm də informasiya savaşı aparıldı və bu savaş hələ də davam edir. Bu prosesdə vətəndaş cəmiyyətinin strukturlarından olan qeyri-hökumət təşkilatlarının rolunu da qeyd etmək lazımdır.

Həmin dövürdə erməni lobbisi Azərbaycana qarşı kəskin şəkildə qara kampaniya apardı və xarici mediada, eləcə də sosial şəbəklərdə dezinformasiyalar yaydılar. Buna cavab olaraq vətəndaş cəmiyyəti də aktiv şəkildə erməni yalanlarının ifşa olunması istiqamətində sosial şəbəkələrdə fəaliyyət göstərdi. Bir çox QHT nümayəndələri informasiya

müharibəsinin içində savaşdılar. Bir neçə dəfə QHT-lər kütləvi şəkildə beynəlxalq təşkilatlara müraciət ünvanladılar. Bu işi hər kəs milli vəzifə bilərək könüllü edirdi. Və bununla QHT-lər də erməni mifinin dağıdılmasına öz töhfələrini verdilər.[3] QHT-lərimizin digər fəaliyyət istiqaməti Milli Orduya yardım kampaniyalarında iştirakı oldu. Əsgərlərin yanında olmaq, onlara isti geyim və ərzaq göndərməklə QHT nümayəndələri də vətəndaşlıq borclarını yerinə yetirdilər”.

Müharibə Azərbaycanın qələbəsi ilə başa çatsa da, xaricdən Azərbaycana təzyiq artıb, həm də ölkənin demokratik qüvvələri Ermənistanın maraqlarını müdafiə edən Avropalı tərəfdaşlarının təzyiqinə məruz qalıb. Onlar qarşısında seçim yaranıb: ya ölkənin ərazi maraqlarının müdafiəsi, ya da demokratiyaya can atmaq. “Hibrid dünya” metodu ilə Dağlıq Qarabağın yaxın beş ildə Azərbaycana iqtisadi və qismən sosial inteqrasiyasının konfiqurasiyası qurulur. Bu prosesin inkişafı üçün Azərbaycanın vətəndaş cəmiyyətinin səylərinə ehtiyacı var, bunun üçün isə QHT-lərin donorlarla işini asanlaşdırmaq məqsədilə ölkə qanunvericiliyi dəyişdirilməlidir. Əks halda prosesdə erməni QHT-lərinin liderliyi önə çıxacaq ki, bu da arzuolunmazdır.

Avropa ilə münasibətlərdə çox şey Azərbaycanda demokratiyanın davamlı inkişafından, QHT-lərimizin fəaliyyətinin asanlaşdırılmasından asılıdır. Qarabağ prosesini regionda fərqli, öz milli məqsədləri olan üç həmsədri olan ATƏT-in Minsk Qrupunun nəzarəti altına vermək olmaz. Prosesə Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyətləri nəzarət etməlidir. Əvvəllər Avropada azərbaycanlılar konfranslara dəvət

olunmurdular, daha çox ermənilər və ruslar iştirak edirdilər. Amma Avropada azərbaycanlı tələbələrin sayı artdıqca bu tədbirlərdə ölkəmizin nümayəndələrinin iştirakı artıb.

Beləliklə, sonda qeyd etmək lazımdır ki, münaqişənin bütün mərhələlərində münaqişələrin tənzimlənməsində və həllində vətəndaş cəmiyyəti təşkilatlarının əhəmiyyəti çoxdan qəbul edilmişdir. İnkişaf və təhlükəsizlik arasında sıx bir əlaqə var. Məhz bu səbəbdən donorlar beynəlxalq QHT -lərə və onların yerli tərəfdaşlarına insan təhlükəsizliyinin gücləndirilməsi ilə münaqişənin şiddətinin azalda biləcəyi anlayışına əsaslanaraq, tez -tez uzunmüddətli inkişaf layihələrini maliyyələşdirmək üçün vəsait ayırırlar.

**İstifadə olunmuş ədəbiyyat**


1. .Токвиль А. Демократия в Америке. 2001, 560с.
2. Buzan, B., Wæver, O., & De Wilde, J. H. (1998). Security. A New Framework for analysis. Boulder and London: Lynne Rienner. /Безопасность. Новая система анализа/)
3. http://www.qhtxeber.az/news.php?id=26999&lang=az)
4. http://anl.az/down/meqale/express/2016/noyabr/515054.htm

Babayeva Nərgiz Elsevər qızı
Azərbaycan Dillər Universiteti

# QARABAĞ MÜNAQİŞƏSİ DÖVRÜNDƏ İNFORMASİYA CƏBHƏSİ

**Açar sözlər:** *müharibə, informasiya, Dağlıq Qarabağ*
**Ключевые слова:** *война, информация, Нагорный Карабах*
**Key words:** *war, information, Nagorno Karabakh*

Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağ uzun illər erməni işğalı altında qalmışdır.1992-1993-cü illərdə cəbhə bölgəsində vəziyyətin gərginləşməsi nəticəsində torpaqlarımızın 20%-i Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmuşdur. Şuşa, Laçın kimi strateji bölgələrimizin işğal olunması Azərbaycana ciddi zərbə vurmuşdur. 1989-1994-cü illər ərzində erməni terrorçuları tərəfindən Azərbaycan ərazisində 300-dən çox terror aktı törədilmişdir. Bu dövrlər ərzində Azərbaycan siyasi, iqtisasi və informasiya blokadası şəraitində olmuşdur.

O dövrdə Azərbaycanın informasiya blokadasından çıxması üçün ümumilli lider Heydər Əliyevin diplomatiyası böyük rol oynamışdır. O, hakimiyyətə gələndən sonra ermənilər tərəfindən yaradılmış informasiya blokadasını dağıda bildi. Xaricə etdiyi bütün səfərlərində dünya ictimaiyyətinə Azərbaycanın tarixi və Dağlıq Qarabağ münaqişəsində haqlı mövqeyi barədə məlumat verirdi, Azərbaycanın sivil dövlət quruculuğu uğrunda mübarizəsindən danışırdı. O, bildirirdi ki, 1988-ci ildən bəri beynəlxalq arenada ermənilər tərəfindən Azərbaycana qarşı yeridilən təbliğat və informasiya müharibəsi olduqca təhlükəlidir və bu, ağır nəticələrə səbəb ola bilər. Ümumiyyətlə, Azərbaycan xalqı ermənilər tərəfindən dünyaya sivil dəyərlərdən uzaq bir xalq kimi tanıdılırdı [4, s.247].

1993-cü ilin ikinci yarısından etibarən Azərbaycanın xarici siyasət kursunun mühüm vəzifələrindən biri Azərbaycanın beynəlxalq arenada təcrid vəziyyətindən çıxması idi. 1992-ci ildə ABŞ Konqresi tərəfindən Azərbaycana yardım göstərilməsini qadağan edən “Azadlığı müdafiə

aktına 907-ci düzəliş" qəbul edildi. Heydər Əliyevin uğurlu diplomatiyası bu aktın ləğvinə nail oldu. Digər addımlardan biri Azərbaycanın MDB-yə daxil olması idi. Azərbaycan keçmiş Sovet respublikaları ilə ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmləndirilməsinə nail oldu. Ümumiyyətlə, Heydər Əliyev Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığına xüsusi önəm verirdi. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra BMT, NATO, ATƏT kimi nüfuzlu təşkilatlarla əməkdaşlıq etməyə başladı. 1995-ci illərin əvvəllərinə qədər erməni təcavüzkarlığı əsl mahiyyətini gizlədə bilmişdir, çünki ermənilər lobbiləri tərəfindən güclü müdafiə olunurdular. Heydər Əliyev BMT Baş Assambleyasının sessiyalarında iştirak edərək həqiqətləri dünyaya çatdırırdı. 1994-cü il sentyabrın 20-də o, Azərbaycan siyasi, iqtisadi və informasiya blokadasında olduğu bir şəraitdə "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. 1996-cı il dekabrın 2-də ATƏT-in Lissabon sammitində iştirak edərək, Azərbaycan həqiqətləri ilə bağlı dünya ictimaiyyətinə ətraflı şəkildə məlumat verdi. Heydər Əliyev ölkə daxilində də məlumat azadlığı, fikir və söz azadlığının əldə edilməsi üçün tədbirlər görürdü. O, qeyd edirdi ki, "Biz senzuranı ləğv etdik, konstitusiya ilə təsbit olunmuş söz azadlığını, mətbuat azadlığını tamamilə təmin etdik.Mətbuat Azərbaycanda çox sərbəstdir, azaddır.Bu da o deməkdir ki, söz azaddır, fikir azaddır" [2].

Dağlıq Qarabağ münaqişəsi Azərbaycan diasporunun formalaşmasında yeni bir mərhələ idi. Heydər Əliyev ölkəmizə gəlmiş diaspor nümayəndələrinə Dağlıq Qarabağ münaqişəsi haqqında dolğun məlumatlar verirdi. Xaricə səfərlərində soydaşlarımızı təşkilatlanmağa çağırırdı. Xarici ölkələrin başçıları, məsələn, Bill Klinton, Boris Yeltsin, Süleyman Dəmirəl və başqaları ilə münaqişə barəsində siyasi dialoqlar aparırdı. Onun Paris, Ankara, London, Moskva və digər görüşləri Azərbaycanın informasiya blokadasından çıxışını təmin edirdi. Hər görüşündə soydaşlarımıza təşkilatlanmanın nə qədər vacib olduğunu bildirirdi, ermənilərin güclü lobbisinin olmasından da xəbərdar idi. O, qeyd edirdi ki, "Amerikanın ən zəngin adamlarından biri ermənidir. O, heç Ermənistanı görməyib. Ancaq o, Ermənistana güclü kömək edir və orada təbliğ edirlər ki, Azərbaycan Ermənistanı iqtisadi blokadaya alıb" [6, s.13]. Erməni diasporu həm Rusiya, həm də Amerika, Avropa ölkələrində güclü idi və həmin ölkələrdə ermənipərəst mətbuatda Azərbaycana qarşı cəfəng fikirlər irəli sürülürdü. Amerikanın ermənipərəst senatorları Dağlıq

Qarabağın Ermənistana aid olduğunu iddia edirdilər. Lakin buna baxmayaraq, Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin günahkarları və səbəblərini dünyaya çatdırırdı. 1994-cü ilin yanvarın 9-da xaricdə yaşayan soydaşlarımızın bir qismi ilə görüşündə onları təşkilatlanmağa çağırdı. O, Fransaya səfəri zamanı orada 400 min erməni yaşadığını, onların ölkənin həyatına necə təsir etdiyini öyrəndiyini nəzərə çatdırırdı. Fransa dövlətinin rəhbərləri də etiraf edirdilər ki, ermənilər bizim xalqımızın bir hissəsidir. Belə bir şəraitdə Azərbaycana hərtərəfli yardım lazım idi. 1994-cü ilin fevralın 23-də Londonun “Hilton” otelində Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşündə ermənilər tərəfindən süni şəkildə yaradılmış “Dağlıq Qarabağ problemi”nin dünyada necə təbliğ olunmasından danışdı [3]. Azərbaycanın informasiya blokadasından çıxması Heydər Əliyev diplomatiyasının uğurlarından biri idi.

İkinci Qarabağ müharibəsi 2020-ci ilin sentyabrın 27-də başladı. 44 gün davam edən bu müharibə ərzində Azərbaycan ordusu uğurlu əks-hücum əməliyyatları nəticəsində öz əzəli torpaqlarını işğaldan azad etdi. Noyabrın 9-dək şəhər, qəsəbə və kəndlərimiz işğaldan azad edildi və Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. Müharibə ərzində Ermənistan cəbhə bölgəsi olmayan Gəncə, Bərdə kimi şəhərlərimizdə terror aktları törətdi. Sentyabrın 27-dən etibarən Ermənistan Silahlı Qüvvələri tərəfindən yaşayış məntəqələrimiz ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutuldu.

Vətən müharibəsi dövründə formalaşan cəbhələrdən biri informasiya cəbhəsi idi. Milli təhlükəsizliyin əsasını təşkil edən amillərdən biri informasiya müharibəsidir. İnformasiya texnologiyalarının inkişaf etməsi nəticəsində təhlükəsizlik sferasında yeni anlayışlar meydana çıxmışdır. 44 günlük müharibədə sosial şəbəkələrdə saxta məlumatlar yayılırdı. Sosial şəbəkələrdə Azərbaycan adları altında saxta hesablar yaradaraq insanlar arasında çaşğınlıq yaratmağa çalışırdılar. Məsələn, ermənilər hücuma keçib, Azərbaycanın çoxlu sayda itkiləri var kimi xəbərlər yayılırdı. Helikopterin vurulması kimi saxta xəbərin sonradan Suriyada lentə alındığı məlum oldu. Türkiyənin bu müharibədə hərbi iştirakı yalan məlumatlardan biri idi. Prezident İlham Əliyevə “France24” kanalına müsahibə verərkən belə bir sual ünvanlandı: “Fransanın xarici işlər naziri Jan-İv Le Drian Türkiyənin hərbi iştirakının mövcudluğu fikirlərini

səsləndirib. O, bu məsələdə səhv edir?" İlham Əliyev cavabında bu fikirlərin səhv olduğunu, Türkiyənin heç bir hərbi iştirakının olmadığını vurğulamışdır. F-16-ların isə burada birgə hərbi təlimdən sonra qaldığı fikirlərini səsləndirmişdir[1] Onu da qeyd etmək lazımdır ki, Türkiyə müharibə ərzində daim Azərbaycana dəstək olmuşdur. Gəncə hadisələrinin dünya ictimaiyyətinə çatdırılmasında "CNN Türk", "Habertürk" və s. kanalların böyük rolu olmuşdur. Gəncə hadisələri ilə bağlı prezidentin köməkçisi Hikmət Hacıyev "Al-Jazeera" kanalına müsahibə verərkən müxbir "Ermənistan bildirir ki, onların Gəncə şəhərini vurmaq üçün lazımi uçuş məsafəsi yoxdur. Bir neçə saat əvvəl Azərbaycan Stepanakerti atəşə tutub" kimi fikirlər səsləndirmişdir. Hikmət Hacıyev bunların Ermənistanın yaydığı yalan məlumatlar olduğunu və o şəhərin adının Stepanakert yox Xankəndi olduğunu, Azərbaycanın mülki şəxsləri hədəf almadığını vurğulamışdı.

İlham Əliyev xarici kanallara müsahibə verərkən hər zaman ermənipərəst medianın kampaniyasının qarşısını almışdır. Almaniyanın "ARD" kanalına müsahibəsi zamanı müxbir Qarabağın Azərbaycan üçün nəyə görə belə önəmli olduğunu, burada resursların əhəmiyyətinin olub-olmadığını soruşmuşdu. İlham Əliyev isə Elzas, Lotaringiya, Bavariyanın onlar üçün nə üçün önəmli olduğunu soruşaraq, Qarabağın bizim beynəlxalq səviyyədə tanınan ərazimiz olduğunu və bunun ədalət məsələsi olduğunu demişdi. Eyni zamanda, İtaliyanın "LaRepubblica" qəzetinə müsahibəsi zamanı Azərbaycan ordusu ilə birlikdə mücahidlərin mövcudluğunun doğru olub-olmaması barədə suallar ünvanlanmışdı. İlham Əliyev adekvat cavab tədbirləri ilə bu məlumatları təkzib etmişdi.

Ermənipərəst media tərəfindən antiazərbaycan təbliğatı aparılırdı. Məsələn, Qərb mediası tərəfindən Qarabağ konflikti ilə bağlı yanlış məlumatlar verən məqalələr dərc olunurdu. Sosial platformalar hər iki tərəf üçün mübarizə meydanına çevrilmişdi. Azərbaycanlılar tərəfindən "WeWillWin", "DontBelieveArmenia", "StopArmenianAgression" kimi həştəqlərdən istifadə olunurdu. Rusiyanın bəzi kütləvi informasiya vasitələrində münaqişə ilə bağlı obyektiv olmayan mövqe nümayiş etdirilirdi. Məsələn, "Qarabağ Respublikası", "Qarabağ Respublikasının paytaxtı" kimi ifadələr işlədilirdi [5].

Müharibə ərzində xaricdə yaşayan azərbaycanlılar da birlik nümayiş etdirirdilər. Paris, Lion, Varşava, Haaqa, Toronto kimi şəhərlərdə bir neçə dildə hazırlanmış “Dağlıq Qarabağda erməni təcavüzünə son!”, “Şəhidlər ölməz,vətən bölünməz!”, “Qarabağ Azərbaycandır!” kimi şüarlarla əhatə olunan posterlər nümayiş olunurdu. Azərbaycan ölkə başçısının adekvat cavab tədbirləri və bu sahədə azərbaycanlıların göstərdiyi fəallıq nəticəsində ölkəmiz informasiya cəbhəsindən də qalib çıxmışdır.

**Ədəbiyyat siyahısı:**

1.Akif Rüstəmov, Postmüharibə dövründə informasiya savaşı, 525-ci qəzet

2.Hüseyn Paşayev, Heydər Əliyev-Azərbaycan qədər əbədi, Xalq qəzeti ,2015 11 dekabr

3.Heydər Əliyev elektron sənədlər toplusu, heydaraliyev.preslib.az

4.İradə Hüseynova, Müstəqil Azərbaycan dövlətinin qurucusu, Bakı-2004

5.Vəfa Zahidqızı, II Qarabağ müharibəsi:Qərb və Rusiya mediasının yanaşması, virtualkarabakh.az

6.Vəli Həbiboğlu,Heydər Əliyev və Azərbaycan diasporu,Bakı-Qartal-2001

Bağırova Şəlalə Vaqif qızı
Azərbaycan Dillər Universiteti

**Vətən müharibəsi və Prezident İlham Əliyevin informasiya siyasəti**

Açar sözlər: Vətən müharibəsi, Prezident İlham Əliyev, informasiya strategiyası.

Key words: Patriotic War, President Ilham Aliyev, information strategy.

Ключевые слова: Отечественная война, Президент Ильхам Алиев, информационная стратегия.

İstənilən müharibədə döyüş strategiyası ilə yanaşı, informasiya strategiyasının da düzgün qurulması əsas şərtlərdəndir. İnformasiya şüura təsir göstərə bilən güclü silahdır. Qarşıdurma zamanı tərəflər öz ölkəsinin məlumat infrastrukturunu qoruyaraq, düşmən qoşunlarının informasiya sistemlərini, məlumat mənbələrini və məlumat infrastrukturunu məhv etməyə çalışır [4]. Hansı tərəfin daha güclü təsirə malik olması isə onun diplomatik sərrastlığından, uzaqgörənliyindən və səriştəsindən irəli gəlir.

2020-ci ilin sentyabrın 27-dən başlayaraq, Ermənistanın Azərbaycana növbəti təxribatı ilə alovlanan II Qarabağ müharibəsi, sözün əsl mənasında, Vətən uğrunda ölüm-dirim savaşı oldu. Ölkənin həm siyasi, həm də ictimai sahələrinin bütün sferaları qüvvələrini səfərbər edərək, fəaliyyətini Vətən müharibəsinin tələblərinə uyğun qurdu. 44 gün davam edən Azərbaycanın haqq savaşında dövlət-ordu-

xalq birliyi möhtəşəm və yaddaşlardan silinməyəcək əzmkarlıq və qətiyyət nümayiş etdirdi. Müharibədə Azərbaycan Silahlı Qüvvələri düşmən ordusuna sarsıdıcı zərbələr vurmaqla, illər boyu formalaşan “məğlubedilməz erməni ordusu” və “Artsax” miflərini darmadağın etdi. Bunun nəticəsi olaraq, Ermənistan rəhbərliyi ay yarım ərzində 3 dəfə atəşkəs imzalanmasını istədi, sonda isə təslim oldu. Artıq müasir döyüş sirlərinə dərindən bələd olan, döyüş meydanında intizamlı savaş aparan, beynəlxalq qaydaları əldə rəhbər tutan qalib bir Azərbaycan Ordusu haqqında stereotip formalaşmaqdadır [6].

Vətən müharibəsi ərzində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev müzəffər Azərbaycan Ordusunun uğurları ilə eyni vaxtda informasiya siyasətinin də başına keçərək Azərbaycanın haqq səsinin dünya mediasına və birliyinə çatdırdı [5]. Dövlət başçısı 44 gün ərzində xarici KİV-lərə 30-dan çox müsahibə vermişdir. Prezident İlham Əliyevin müsahibə verdiyi xarici KİV-in arasında Rusiyanın “Rossiya-1, “Pervıy”, RBK televiziya kanalları, “Ria Novosti”, “TASS” və “İnterfaks” agentlikləri, Türkiyənin “TRT Haber”, CNN-Türk, “Haber Global”, “Haber Türk”, NTV, “A Haber” televiziyaları, Fransanın “Sky News”, “France 24” televiziyaları, “Figaro” qəzeti, Almaniyanın ARD televiziyası, Yaponiyanın “Nikkei” qəzeti, ABŞ-ın “Fox News” televiziyası, İtaliyanın Rai-1 televiziyası və “La Repubblica” qəzeti, İspaniyanın EFE informasiya agentliyi, habelə dünyada yüz milyonlarla izləyiciləri olan “Əl-Cəzirə”, “Əl-Ərəbiyə”, “Euronews”, “CNN International”, “BBC News” televiziya kanalları kimi tanınmış media orqanları var

[7]. Onu da qeyd etmək lazımdır ki, Ermənistanın işğalçılıq siyasəti və Azərbaycana qarşı törətdiyi terror aktları haqqında beynəlxalq media orqanlarının bir qismi qərəzli və birtərəfli yazılar yayaraq, hadisələri olduğu kimi dünya ictimaiyyətinə çatdırmırdı. Bütün bu neqativ məqamlara Prezident İlham Əliyev öz müsahibələrində diplomatik və sərrast cavablar verərək, Ermənistanın təcavüzkar, Azərbaycanın isə haqq yolunda olduğunu beynəlxalq ictimaiyyətə sübut edə bildi. Dövlət başçısının müsahibələrində "gəlin, baş verənləri gözlərinizlə görün" fikrinə də yer verməsi düşmən tərəfin yaydığı məlumatların cəfəngiyyat olmasına sübut idi. Misal üçün, dövlət başçısı nüfuzlu beynəlxalq QHT olan Human Rights Watch təşkilatının Azərbaycanda dinc əhaliyə qarşı Ermənistanın törətdiyi terror aktlarına laqeyd münasibəti haqqında qeyd etmişdi: "Azərbaycana qarşı qərəzli mövqeyinə, hətta jurnalistlərin həbsxanalarda öldüyü zaman, hətta əsas müxalifət partiyasının rəhbəri həbsxanada olduqda belə, Ermənistanda heç bir yanlışlıq görmədiyinə görə bunlar barədə heç bir məlumat vermir. Buna görə də biz "Human Rights Watch" təşkilatı ilə əməkdaşlığı 5-6 il bundan əvvəl dayandırdıq. Yalnız indi bu müharibə başlayanda biz onları bura gəlməyə və öz gözləri ilə görməyə dəvət etdik." [3].

Prezident İlham Əliyevin müharibə ərzində çoxsaylı müsahibələri sübut edir ki, Azərbaycan kifayət qədər səmərəli informasiya siyasətini həyata keçirmək imkanlarına malikdir. Dövlət başçısının çıxışlarının Ermənistan-Azərbaycan münasibətlərinin, Dağlıq Qarabağ münaqişəsinin tarixi, hüquqi və siyasi aspektlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından

xüsusi əhəmiyyət daşıyır. Beynəlxalq mediada yer alan bu çıxışlar, müsahibələr döyüş meydanı ilə yanaşı, informasiya savaşında da Azərbaycanın üstünlüyünün təzahürü oldu. Ali Baş Komandan konstruktiv, prinsipial mövqe sərgiləyərək, ciddi arqumentlərlə dünya ictimaiyyətinə çatdırdı ki, təxribatlar məhz işğalçı Ermənistan tərəfindən törədilib. Azərbaycan öz torpaqlarında ərazi bütövlüyünü təmin etmək uğrunda mübarizə aparır və bu mübarizə BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin tələbidir [4].

Müharibə dövründə Prezident İlham Əliyevin televiziya kanalları vasitəsilə iradəsinə arxalandığını xalqa birbaşa müraciətləri hadisələrin gedişatının sistemli şəkildə Azərbaycan cəmiyyətinin diqqətinə çatdırılmasına xidmət edirdi. Xalq belə həssas dönəmdə dövlət başçısının mənəvi dəstəyinə ehtiyac duyur, onun hər bir çıxışını maraq və həyəcanla izləyirdi. Azərbaycan Respublikası Prezidentinin müharibə dönəmində sosial şəbəkə hesablarından, xüsusilə də “Twitter” hesabından daha aktiv istifadəsi cəmiyyətdə geniş maraq doğururdu. Belə bir vaxtda xalqın etimadını qazanan yeganə tam əsaslı bir mənbə vardı. Cəbhədən gələn qeyri-rəsmi xoş xəbərlərə qeyd-şərtsiz inanmaq əvəzinə, yeni rabitə dilində desək, “tviti gözləyək” deyilirdi [2].

Ümumiyyətlə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin istər diplomatik, istərsə də informasiya savaşındakı uğurları Qarabağın erməni işğalından azad edilməsi prosesində qələbə üçün mühüm rol oynadı.

## İstifadə edilmiş materiallar:


1. Aslan Aslanov. Prezident İlham Əliyevin beynəlxalq ictimaiyyətə aydın və birmənalı mesajları. https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_beynelxalq_ictimaiyyete_aydin_ve_birmenali_mesajlari-1726705
2. Bilal Əşrəfov. Prezidentin twitter siyasəti. https://azlogos.eu/prezidentin-twitter-siyas%C9%99ti/
3. İlham Əliyev "BBC News"a müsahibə verib. https://president.az/articles/45845
4. Leyla Rəşid. İnformasiya müharibəsi: məqsəd və hədəflər. https://xalqqazeti.com/mobile/az/news/60136
5. Zaur Məmmədov. Vətən müharibəsinin əsl qəhrəmanı: İlham Əliyev – Təhlil. https://apa.az/az/xeber/siyasi/Vtn-Muharibsinin-sl-qhrmani-Ilham-liyev-colorredTHLILcolor-621233
6. Zəfər Nəcəfov. 44 günlük Vətən müharibəsinin nəticələri. http://newtimes.az/az/processestrends/6987/
7. Ziyad Səmədzadə. İnformasiya savaşının sərkərdəsi. https://www.azerbaijan-news.az/posts/detail/informasiya-savasinin-serkerdesi-1617135993

Баранов Н.П
УО «Минский государственный лингвистический университет

# ГУМАНИТАРНЫЙ АСПЕКТ РЕШЕНИЯ ПРОБЛЕМЫ АЗЕРБАЙДЖАНО-АРМЯНСКОГО ВООРУЖЕННОГО КОНФЛИКТА В КАРАБАХЕ

**Ключевые слова:** война, гуманизм, конфликт в Карабахе

**Acar cözlər:** müharibə, humanizm, Qarabağ münaqişəsi

**Key words:** war, humanism, Karabakh conflict

Война - одно из наитяжелейших явлений-испытаний в жизни общества, в котором общество может прекратить свое существование. По степени угроз и испытаний человеческому существованию явление войны вполне сопоставимо со стихийными природно-космическими катаклизмами, от которых ключевое генетическое отличие войн заключается в их полной сознательной человекотворности и целевому предназначению. По своей глубинной сущности «война является продолжением политики насильственными вооруженными средствами» [1].

Все войны имеют свое начало и завершение, свои битвы-сражения, «обмен болью» и свои, в целом тяжелые, последствия - политические, экономические и гуманитарные проблемы.

По сообщению РИА Новости 18 июля 2021 года, на совместной пресс-конференции с председателем Евросовета Шарлем Мишелем в Баку о завершении азербайджано-армянского

вооруженного конфликта президент Азербайджана Ильхам Алиев заявил следующее: «Азербайджан поставил конец долгосрочному конфликту. …Хочу еще раз сказать, что армяно-азербайджанский нагорно-карабахский конфликт нашел свое решение. Этот конфликт разрешен. Сторона, которой разрешен этот конфликт, это мы, азербайджанское государство. Мы решили этот вопрос в одностороннем порядке» [2]. По словам политика, Баку выполнил все требования резолюции Совета Безопасности ООН относительно урегулирования ситуации и положил конец противостоянию в регионе. «Конфликт окончен, сейчас пришло время подумать о мире» [2]. Президент Ильхам Алиев призвал армянское руководство вступить в мирные переговоры и назвал подписание мирного соглашения с Арменией главным условием установления мира на Южном Кавказе.

На встрече с семьями погибших военнослужащих в ходе эскалации конфликта в Карабахе Ильхам Алиев мудро напутствовал тех, кто продолжает утверждать, что конфликт не разрешен и должен быть решен: «…это неправильный и опасный путь. Если проблема не решена, пусть нам разъяснят, как ее разрешить. Мы считаем, что конфликт решен, и война окончена».

Как абориген советского прошлого, автор всей душой за мир, причем, за мир во всем мире, и даже согласен допустить идеалистичность мышления в рассматриваемом вопросе и стать пацифистом. Увы, современные реалии не позволяют этим увлекаться: число военных конфликтов в современном глобализирующемся мире имеет устойчивую тенденцию роста.

Объективно противоречивый гуманитарный аспект решения проблемы завершения карабахского военного конфликта обобщенно характеризуется следующими ключевыми данными. Любой военный конфликт, основное содержание которого составляет активное применение его участниками вооруженного насилия, неумолимо жесток, смертоносен, кровав, разрушителен. Главной его жертвой становятся люди.

По официальным данным в 44 дневной войне в Карабахе (27 сентября -10 ноября 2020 года) человеческие (разум не позволяет характеризовать их термином *гуманитарные*) потери сторон конфликта составили: «(по первоначальным подсчетам) 2886 убитых, более 100 пропавших без вести, 1245 раненых продолжают лечение в госпиталях, - заявило министерство обороны Азербайджана. Армения опубликовала данные о 2718 убитых, но не обнародовала число пропавших без вести, то есть ее сведения далеко не окончательные. Обе стороны теряли каждый день войны до 100 убитых. Причем очевидно, что в некоторые моменты потери были гораздо выше средних показателей. 26 марта 2021 года бывший премьер-министр и министр обороны Армении Вазген Манукян заявил, что в этой войне армянская сторона потеряла более 5 тыс. солдат. По данным Азербайджана, Армения с начала конфликта потеряла более 5 тыс. убитыми» [4].

Жертвы среди мирного населения составили (по официальной последовательно регистрируемой статистике) - «Согласно азербайджанским источникам, армянские военные нанесли удар по

густонаселённым районам, где находятся гражданские постройки. По данным Генеральной прокуратуры Азербайджана, по состоянию на 1 октября 2020 г. в результате обстрелов из тяжёлой артиллерии районов проживания населения в общей сложности 55 человек получили различные телесные повреждения, 19 человек погибли, нанесён огромный ущерб 169 жилым домам, 40 гражданским объектам, приведены в негодность транспортные средства. За период с 27 сентября по 13 октября погибли 42 гражданских лица, ещё 206 человек получили ранения, 1479 домов, 66 многоквартирных зданий и 241 гражданский объект пришли в негодность. В ходе конфликта обстрелам армянских формирований подвергались города Тертер, Бейлаган, Барда, Гянджа, ряд селений Агдамского, Агджабединского, Геранбойского и Тертерского районов. По данным генпрокуратуры Азербайджана, за период с 27 сентября по 14 декабря 2020 года число погибших среди гражданского населения с азербайджанской стороны составило 101 человек и 423 мирных жителя были ранены. По состоянию на 2 ноября 2020 года власти Азербайджана заявили, что в результате конфликта в Азербайджане было перемещено около 40 тысяч человек.

Вместе с тем необходимо констатировать как факт, что данная завершенная война прекратила многолетнее военное «противостояние» азербайджанцев и армян в Карабахе после первой войны (сентябрь 1991 – март 1994 гг.), хотя и прерывавшееся временными перемириями, но оказавшееся ужасающе кровопролитным и истребительным для народов. Только в ходе самой войны («Первой») «стороны потеряли убитыми от 15 до 25

тысяч человек, более 25 тысяч получили ранения, сотни тысяч мирных жителей вынуждены были покинуть места проживания. С апреля по ноябрь 1993 года Совбез ООН принял четыре резолюции с требованием о прекращении огня в регионе» [5].

Учитывая, что мировая дипломатия потерпела поражение в своих попытках политико-дипломатическими усилиями урегулировать нагорно-карабахский конфликт, государственная решимость Президента Азербайджана Ильхама Алиева в сложившихся обстоятельствах силовым методом прекратить столь затянувшийся военный конфликт, обоснованно заслужит международное признание и позитивную оценку. Акт силового принуждения к миру правомерно является гуманитарным.

Восстановив контроль над утраченными ранее территориями, Азербайджан стал вторым на постсоветском пространстве государством, продвинувшимся по пути восстановления утраченной территориальной целостности. Актуальными гуманитарными проблемами Азербайджана и Армении в послевоенном Карабахе являются: обеспечение прекращения пограничных конфликтных ситуаций; восстановление инфраструктуры (разблокировка всех транспортных и экономических инфраструктур); возвращение беженцев; недопущение развития вражды, достижение реального примирения, диалога и сотрудничества двух стран.

**Литература:**

1.Клаузевиц, К. О войне. – https://ru.wikipedia.org/wiki.

2. https://ria.ru/20210718/karabakh-1741758696.html?in=t

3.Вооруженный конфликт в Нагорном Карабахе (2020). - https://ru.wikipedia.org/wiki.

4. Война в Карабахе (2020). - https://regnum.ru/news/polit/3155565.html.

5.Что необходимо знать о Карабахе. - https://www.kommersant.ru/doc/2955509.

Baxşaliyeva Ağca Nərman qızı
A.A.Bakıxanov adına Tarix institutunun doktorantı

# İKİNCİ VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ AZƏRBAYCAN-DAĞISTAN MÜNASİBƏTLƏRİ

Açar sözlər: Azərbaycan-Dağıstan əlaqələri, Vətən müharibəsi, Qarabağ münaqişəsi, Qafqaz xalqları, milli azlıqlar

Ключевые слова: Азербайджано-Дагестанские отношения, отечественная война, Карабахский конфликт, Кавказские народы, национальные меньшинства

Key words: Azerbaijani-Dagestan relations, Patriotic War, Karabakh conflict, Caucasian peoples, national minorities

Azərbaycanın Qafqaz xalqları ilə çoxəsrlik və hərtərəfli əlaqələrinin tədqiqi tarix elminin aktual məsələlərindən biridir. Sovetlər Birliyinin dağılmasından sonra Qafqazda millətlərarası əlaqələrin kəskinləşməsi bu mövzunun aktuallığını artırmış oldu [1,67-72;3]. Müasir mərhələdə Azərbaycan-Dağıstan münasibətlərinin nəzərdən keçirilməsi bu xalqlar arasında xeyirxah qonşuluq və dostluq münasibətlərinin davam etdiyini söyləməyə əsas verir. Lakin, qeyd edək ki, sözügedən əlaqələr son 15-20 il ərzində fərqli çalarlar almışdır, bu da SSRİ-nin dağılması ilə əlaqədar respublikaların nəqliyyat, sənaye, elm, energetika və s. əlaqələrinin sarsılması, yenidən qurulma zərurəti ilə izah oluna bilər. İmperiyanın dağılması nəticələri olaraq Dağıstan Rusiya Federasiyasının tərkibinə qatılmış, Azərbaycan isə müstəqil respublika kimi varlığını davam etdirir.

Şimali Qafqaz respublikaları içərisində Dağıstan və Çeçenistan coğrafi, tarixi və mədəni dəyərlərinə görə Azərbaycana çox yaxındır. Belə ki, Dağıstanda 130 min azərbaycanlı, Azərbaycanda isə 200 mindən çox dağıstan xalqları nümayəndələri yaşayır. Müharibə başladığı zamandan çeçen rəsmi dairələri qonşu ölkələrin apardığı müharibəyə dərhal münasibət bildirdilər. İlk toqquşmalardan sonra 2020-ci ilin sentyabrında Çeçenistan rəhbəri Ramzan Kadırov hər iki tərəfi silahı yerə qoymağa səslədi və Rusiyanı sülhməramlı hesab edərək təqdir etdi. Çeçenistan Respublikasının səhiyyə naziri, Azərbaycanda doğulub yaşayan Elxan Süleymanov özünün instaqram hesabında Azərbaycana Ermənistanla müharibədə şərtsiz dəstək verdiyini yazdı, müharibənin nəticələrindən əziyyət çəkən Azərbaycan xalqının yanında olduğunu açıq-aşkar bildirdi.

Paşinyan revanşist qüvvələri müstəqil Azərbaycana qarşı yeni müharibə təhriklərinə əl ataraq uydurma "Böyük Ermənistan" planlarının həyata keçirilməsində bir sıra məqsədlərə nail olmaq istəyirdilər:

a) Azərbaycanı içəridən parçalayaraq daxili etnik faktorlardan (milli azlıqlar olan ləzgilər, avarlar, talışlar, ruslar) istifadə etmək

b) Dağıstan və Şimali Qafqazın bir sıra nümayəndələri simasında özlərinə müttəfiqlər yaratmaq, əsasən isə müxtəlif xalqların çoxluq təşkil etdiyi Rusiyanı bu müharibəyə cəlb etmək. Lakin, müharibənin gedişi "erməni arzularının" qeyri-reallığını, daxili etnik aspektlərdən istifadənin mümkün olmayacağını sübut etdi. Müharibənin gedişi Azərbaycanda mövcud olan milli icmaların (rus, ləzgi, avar, saxur, talış, yəhudi və digərlərinin) birliyini bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda yaşayan milli azlıqların nümayəndələri öz hökumətlərinə sadiq olduqlarını, əllərində silah azərbaycanlı qardaşları ilə bir sırada döyüşmək, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə aparmaq əzmlərini göstərdilər.

Müharibənin gedişatında Dağıstanda hərbi əməliyyatların durumu ciddi izlənilir, Dağıstan xalqları Azərbaycana dəstəklərini sosial şəbəkələr, internet saytları vasitəsi ilə çatdırırdılar. Mahaçkala sakini politoloq və publisist, kumık dilində nəşr olunan "Yoldaş" qəzetinin rəhbəri Kamil Əliyev Azərbaycanın Vətən müharibəsi ilə bağlı müsahibəsində dağlı xalqların Azərbaycanı ürəkdən müdafiə etməsini söyləmiş, dağıstan və azərbaycan xalqlarının demokratik inkişaf naminə birgə mübarizə səhifələrini xatırlatmışdı. İkinci Vətən müharibəsi dövründə erməni təcavüzkarlarına qarşı mübarizədə avarların Azərbaycanı dəstəkləməsini

dünya şöhrətli idmançı, etnik avar Rəsul Çunayev dilə gətirdi. Eyni zamanda sərhəd qoşunlarının zabiti R.Çunayev qeyd etdi ki, əsasən Balakən və Zaqatala bölgələrində yaşayan avarlar şücaətləri ilə hər zaman fərqlənmişlər, erməni təcavüzkarlarına qarşı doğma Azərbaycanın müdafiəsinə hazırdırlar [4].

İkinci Vətən müharibəsinin başa çatmasından sonra Dağıstanın Milli Məclisinin sədri Xizrı Şıxsəidov Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə təbrik müraciəti göndərərək Azərbaycan xalqının səbrinin layiqli mükafatını almasına sevindiyini bildirdi, qardaş Azərbaycan xalqına sülh və inkişaf arzularını çatdırdı [5].

Azərbaycanla tarixi-mədəni köklərə malik Dağıstan Azərbaycanın böyük şimal qonşusudur və Dağıstanın cənub hissəsi Dərbənd şəhəri də daxil olmaqla müxtəlif dövrlərdə Azərbaycan ərazilərinə aid olmuşdur. Təsadüfi deyildir ki, azərbaycan dili dağıstan xalqlarının dilinə nəzərəçarpacaq təsir göstərmişdir [2]. Dağıstan xalqları azərbaycanlılar kimi müsəlman olmaqla yanaşı, tərkibində türk xalqlarını da (noqaylar, kumıklar və d.) birləşdirir və burada azərbaycan icmasının nüfuzunu inkar etmək mümkün deyil. Əsrlərin sınağından keçmiş azərbaycan-dağıstan münasibətləri Vətənimiz üçün ən çətin dövrlərdən birində — 44 günlük müharibə dövründə daha bir sınaqdan uğurla çıxdı, erməni təcavüzkarların bu birliyi, tarixi əlaqələri sarsıtmaq üçün bütün cəhdləri nəticə vermədi.

## İstifadə olunmuş ədəbiyyat

1. Надиров С.М. Социально-культурное развитие Дербента во второй половине XIX-начале XX вв. // «Наука и молодежь». Сборник статей молодых ученых и аспирантов по гуманитарным проблемам. Махачкала, 2001

2. Османов М.О. Роль отгонного скотоводства в хозяйственно-культурных взаимосвязях народов Дагестана и Закавказья (XVIII XIX вв.) // «Историко-культурные и экономические связи народов Кавказа». Изд-во ИАЭ ДНЦ РАН. - Махачкала, 2004

3. Рамазанов Х.Х. Торгово-экономические связи имамата с кавказскими народами. // «Историко-культурные и экономические связи народов Кавказа». Изд-во ИАЭ ДНЦ РАН. Махачкала, 2004

4. Аварцы Азербайджана всецело поддерживают доблестную армию в борьбе с армянскими агрессорами-Расул Чунаев. https://www.trend.az/life/sports/3311924.html —müraciət tarixi 22.06.2021

5. Хизри Шихсаидов поздравил Ильхама Алиева с победой в Карабахской войне. https://dag.aif.ru/politic/hizri_shihsaidov_pozdravil_ilhama_alieva_s_pobedoy_v_karabahskoy_voyne —müraciət tarixi 29.06.2021

Əbdürrəhimova Şəfa Rasim qızı
Azərbaycan Dillər Universiteti

## İKİNCİ QARABAĞ VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ AZƏRBAYCANA QARŞI BEYNƏLXALQ TƏZYİQLƏR FONUNDA FRANSANIN MÖVQEYİ

**Açar sözlər:** Vətən müharibəsi, beynəlxalq təzyiqlər, Azərbaycan, Ermənistan, Fransa.

**Ключевые слова**: Отечественная война, международное давление, Азербайджан, Армения, Франция.

**Key words**: Patriotic war, international pressures, Azerbaijan, Armenia, France.

ATƏT-in Minsk qrupunun həmsədrliyi öhdəliyini daşıyan və Dağlıq Qarabağın işğaldan azad olunması ilə bağlı danışıqlar prosesində əsas vasitəçilərdən biri olan Fransanın Ermənistan-Azərbaycan münaqişəsinə münasibəti bu və ya digər formada, açıq şəkildə olmasa da həmişə birtərəfli və qərəzli olub. Belə ki, Qərbin aparıcı dövlətlərindən biri olan Fransanı erməni diasporunun güclü olduğu bir ölkə kimi tanıyırıq və onun xarici siyasi xəttində ikili standartların olması özünü aşkar göstərir. Türkiyəyə qarşı olan hər bir addımın ya birbaşa, ya da dolayısı yolla Azərbaycana da təsirini nəzərə alsaq, qondarma “erməni soyqırımı” ilə əlaqədar Fransada qəbul olunan qanunun birbaşa Azərbaycanın maraqlarına toxunduğunu deyə bilərik.

Erməni bacılarının gününə ağlayan Fransa Ermənistana invsetisiya yatırımına görə Rusiyadan sonra ikinci yerdə durur. UNCTAD-ın illik hesabatına görə, 2019-cu ildə Ermənistana daxil olan birbaşa investisiyaların ümumi həcmi 254 milyon dollar olub. Bu, Azərbaycanla müqayisədə 1 milyard 205 milyon dollar azdır [7]. Buradan belə nəticəyə gəlirik ki, dünya ölkələri, o cümlədən Fransa üçün Azərbaycan Ermənistanla müqayisədə iqtisadi cəhətdən daha mühüm əhəmiyyət kəsb edir.

İşğalçı Ermənistanın 27 sentyabr 2020-ci il tarixdə başlatdığı 44 günlük müharibə dönəmində Azərbaycana qarşı beynəlxalq təzyiqlər fonunda Fransa da öz mövqeyini açıq-aşkar sərgilədi. Əslində dünyada demokratiyanın və insan haqlarının beşiyi sayılan Fransanın Dağlıq Qarabağ münaqişəsinin həllində haqsız mövqe sərgiləməsi mənim timsalımda bütün fransız dilli müəllimlərin ruh düşkünlüyünə səbəb oldu. 2020-ci il sentyabrın 30-da Fransa prezidenti Emmanuel Makron bəyanatla çıxış edərək Azərbaycanı geri çəkilməyə səsləməsi bunun əsaslı sübutu idi. Beləliklə, Makronun timsalında Fransa obyektiv və ədalətli vasitəçi reputasiyasını itirmiş oldu. Əslində isə Azərbaycanın öz torpaqlarını işğaldan azad etmə uğrunda mübarizəsi beynəlxalq hüquq normalarına əsaslanırdı.

Müharibə dönəmində fransız deputat və senatorlarının, başda Fransa senatoru, Respublikaçılar partiyasının nümayəndəsi Valeri Boyer olmaqla, canfəşanlıqla hazırladıqları "Dağlıq Qarabağın" müstəqilliyinin tanınması ilə bağlı sənədin səs çoxluğu ilə əvvəlcə Senatda, sonra isə Milli Assambleyada qəbul edilməsi heç nəyi dəyişmədi, belə ki, fransız

qanunvericiliyinə görə bu cür sənədlərin qanun qüvvəli akt olması üçün sonda prezidentin imzası olmalıdır.

Valeri Boyerə gəlincə, onun haqqındakı bəzi faktlar marağıma səbəb oldu. 2007-ci ildən Milli Assambleyanın üzvü kimi siyasi fəaliyyətə başlayan V.Boyer 22 dekabr 2011-ci il tarixdə Milli Assambleyaya çıxarılmış “1915-ci il hadisələrini erməni soyqırımı kimi qəbul etməyənlərə 45000 avro yaxud 1 il həbs cəzası verilməsini tələbə edən” 3842 saylı qanun təklifini [2] tərtib etmiş, bununla da kifayətlənməyərək assambleyada bu təklifi müdafiə edən alovlu çıxış da etmişdir. Əlbəttə ki, fransız ictimaiyyəti üçün gülünc olan bu qərarın demokratik ortamda yaşayan vətəndaşlara tətbiq olunmasının nə qədər absurd olacağını düşünməmiş, türkə olan nifrət onun gözlərini tutmuşdur. Nəticədə, Assambleya tərəfindən qanun qəbul olunsa da, Fransa Ali Məhkəməsi bu qərarı təsdiq etməmişdir. Digər maraqlı bir məqam isə ondan ibarətdir ki, atası Əlcəzairdə doğulmuş fransız olan V.Boyer Fransanın Əlcəzairdə heç bir soyqırım törətmədiyini iddia edir, hərçənd çox uzaq tarixə getməyək, Fransada Beşinci Respublikanın (1958) prezidentlərindən bəziləri, o cümlədən Jak Şirak Fransanın öz keçmişi ilə üzləşməyin vaxtının çatdığını bildirmişdir [5, s.163-164]. 2020-ci ilin yanvarında “Vaşinqton Post” qəzetinin əlcəzair əsilli fransız jurnalisti Nabila Ramdaninin Fransanın Əlcəzairdə törətdiyi qətliamla bağlı faktları özündə əks etdirən maraqlı məqaləsi dərc olunmuşdur [6]. Əlcəzairdə törətdiyi qırğın və işgəncələri 2000-ci ildə satışa çıxarılmış “Əlcəzair Gizli Kəşfiyyat Xidməti 1955-1957” adlı kitabında, o cümlədən videomüsahibələrində etiraf edən vaxtilə Əlcəzairdə Xüsusi Xidmət Orqanının rəhbəri olmuş 84 yaşlı fransız

general Pol Ossaresses əlcəzairlilərə necə işgəncə verdiklərini faktlarla etiraf edir [4]. Bütün bunları nəzərə alaraq, V.Boyerin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqe sərgiləməsini gözləmək sadəlövhlük olardı. Belə ki, "Dağlıq Qarabağın" müstəqilliyinin tanınması ilə bağlı sənədin hazırlanmasında birbaşa rolu olan V.Boyer bu təşəbbüsü ilə terrorizmi və separatizmi dəstəkləmiş olur. Belə olduğu təqdirdə bu sənədə qarşılıq olaraq Korsika, Normandiya, Navarra və Breton kimi fransız rayonlarının müstəqilliyi ilə bağlı aktların hazırlanması Fransa hökumətinə necə təsir edərdi görəsən?! Yalnız bununla kifayətlənmək olmaz, əlavə olaraq bəlkə Marseldə də ermənilərə öz müqəddaratlarını təyin etmələri üçün Fransa hakimiyyəti tərəfindən şərait yaradılsın?!

Müharibə dönəmində sosial media və şəbəkələrdə aparılan mübarizə zamanı haqq səsimizi dünyaya çatdırmağa çalışan az sayda da olsa, fransız siyasi xadimləri arasından fransız deputatlar Jerom Lamber, Jan Lük Raytzer, Mişel Vialay, Mecid El Gerrab, Andre Viliye, Frederik Düma və digərlərinin adlarını çəkə bilərik. Onlar Jerom Lamber tərəfindən 21 dekabr 2020-ci il tarixdə tərtib olunmuş münaqişənin sülh yolu ilə ədalətli həlli və regional inkişaf üçün Cənubi Qafqaz regionunda Fransanın rolunun gücləndirilməsinin vacibliyini özündə əks etdirən 3715 saylı qanunun təklifini Milli Assambleyanın spikerinə təqdim etmişlər [1]. Senator Alən Huper Fransanı Minsk qrupunun həmsədri kimi neytral olmağa çağırmış və ən azından bitərəf mövqeyini nümayiş etdirmişdir. İşğalçı Ermənistanın xeyrinə öz sosial hesablarından dəstək göstərən fransız deputat və senatorlarının sayı isə, təəssüf ki, çoxluq təşkil edir.

Lakin haqq-ədalətin öz yerini tutması üçün prezidentimiz İlham Əliyev başda olmaqla siyasi arenalardakı mücadiləmiz fayda verdi. Fransa

prezidenti Emmanuel Makron Dağlıq Qarabağ ərazisinin Azərbaycan torpaqları olduğunu etiraf etdi. Belə ki, o, 21 noyabr 2020-ci il tarixində Parisdəki ianə toplamaqla məşğul olan bir erməni assosiasiyası olan "Hayastan" pan-erməni fondunun nümayəndələri ilə görüşü zamanı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı suala cavab olaraq Qarabağ bölgəsinin (illlərdir Ermənistan tərəfindən işğal edilmiş) Azərbaycan ərazisi olduğunu qəbul etmişdir. "Beynəlxalq hüquqa əsasən, Birləşmiş Millətlər tərəfindən tanınan Dağlıq Qarabağ və yeddi əyalət Azərbaycan ərazisidir” deyə o bildirib. Hətta Makron ziyarəti zamanı insanları Qarabağ bölgəsindən qaçqın düşmüş 120 min məcburi köçkünə köməyə çağırıb. O həmçinin xatırladıb ki, Ermənistan 1992-ci ildən etibarən "5 rayondan ibarət olan" Qarabağ bölgəsini və ölkənin qərbində yerləşən digər 5 rayonu, o cümlədən "Ağdam" və "Füzuli" rayonlarının böyük hissəsini əhatə edən Azərbaycan torpaqlarının təxminən 20% -ni işğal etmişdir [3].

**İstifadə edilən ədəbiyyat siyahısı:**

1. ASSEMBLÉE NATIONALE, QUINZIÈME LÉGISLATURE, Enregistré à la Présidence de l’Assemblée nationale le 21 décembre 2020, PROPOSITION DE RÉSOLUTION, N° 3715, portant sur la nécessité de renforcer le rôle de la France dans la région du Caucase du Sud pour contribuer à la paix et au développement régional,: [Ressource électronique] / Décembre 21, 2020. URL: https://www.assemblee-nationale.fr/dyn/15/textes/l15b3715_proposition-resolution

2. ASSEMBLÉE NATIONALE, TREIZIÈME LÉGISLATURE, Enregistré à la Présidence de l'Assemblée nationale le 18 octobre 2011, PROPOSITION DE LOI, N° 3842, portant transposition du droit communautaire sur la lutte contre le racisme et réprimant la contestation de l'existence du génocide arménien: [Ressource électronique] / Yanvar 28, 2021. URL: https://www.assemblee-nationale.fr/13/pdf/propositions/pion3842.pdf

3. Emmanuel Macron: "Le Haut-Karabagh est en territoire azéri", Monde: [Ressource électronique] / Novembre 23, 2020. URL: https://www.aa.com.tr/fr/monde/emmanuel-macron-le-haut-karabagh-est-un-territoire-az%C3%A9ri-/2053156

4. France shocked by former general's Algeria torture confessions: [Electronic resource] / July 21, 2015. URL: https://www.youtube.com/watch?v=Ta61Qeadhy8

5. Mustafayeva S. Avropa və Amerika ölkələrinin ən yeni tarixi, II hissə, 1945-2007-ci illər / Bakı: ADPU-nun nəşriyyatı, - 2010. – 509 s.

6. Nabila Ramdani, France must reckon with its dark history in Algeria. It's not too late: [Electronic resource] / January 29, 2020. The Washington Post, URL: https://www.washingtonpost.com/opinions/2020/01/29/france-must-reckon-with-its-dark-history-algeria-its-not-too-late/

7. UNITED NATIONS CONFERENCE ON TRADE AND DEVELOPMENT, Handbook of Statistics, Geneva, 2020:

[Electronic resource] / URL:
https://unctad.org/system/files/official-document/tdstat45_en.pdf

Əfəndiyeva Vüsalə Elşad qızı
Azərbaycan Dillər Universiteti

## Azərbaycanın Norveçdəki diaspor təşkilatları və Qarabağ məsələsi

**Açar sözlər:** Norveç Krallığı, diaspora, Qarabağ, Azərbaycan, Ermənistan.

**Ключевые слова**: Королевство Норвегии, диаспора, Карабах, Азербайджан, Армения.

**Key words**: The kingdom of Norway, diaspora, Karabagh, Azerbaijan, Armenia.

Miqrasiya prosesləri demək olar ki, dünyanın bütün xalqlarının həyatında bu və ya digər dərəcədə rol oynamışdır. Təbii şərait, sosial, siyasi, iqtisadi və digər amillər miqrasiya proseslərinin əsas səbəbi hesab olunur. Müasir dövrümüzdə beynəlxalq münasibətlərin vacib elementinə çevrilmiş diaspor anlayışı məhz miqrasiya proseslərinin nəticəsi olaraq meydana gəlmişdir.

Avropanın şimalında, Skandinaviya yarımadasında yerləşən Norveç eqalitar (bərabərlik) dəyərlərin daha geniş şəkildə qəbul olunduğu ölkə hesab edilir. Bu norveçlilərin birgə qərar qəbul etmə, inteqrasiya və iqtisadi bərabərlik kimi meyillərin qəbuluna hər zaman açıq olmaları deməkdir [3, 13]. Bu gün adam başına düşən ümumdaxili məhsula görə Norveç dünyanın ən zəngin iqtisadiyyatına malik ölkələrdən biri sayılır. Hər kəs üçün təhlükəsizlik, gəlirlərin paylanması və yaşayış standartlarının

yaxşılaşdırılması, bərabər hüquq və vəzifələr, yüksək keyfiyyətli xidmətlərin bərabər paylanması, maddi cəhətdən imkansız insanlar üçün daha yaxşı iş imkanı Norveç rifah dövlətinin qarşısına qoyulmuş öhdəliklərdir [3, 105]. Qeyd olunmuş bütün göstəricilər Norveçə miqrasiya proseslərini motivasiya edən səbəblərdəndir. İlk olaraq, 1960-cı illərdə Norveçə gələn immiqrantların əksəriyyəti Skandinaviya ölkələrindən idi. Bu Norveç, İsveç, Danimarka və Finlandiya (İslandiya 1982-də qoşulur) arasında ümumi əmək bazarının mövcudluğu ilə bağlı idi. 1960-cı illərin sonlarında iqtisadiyyatın inkişafı və əhali azlığı Norveçin Marokko, Türkiyə və Pakistandan işçi qüvvəsini qəbul etməsi ilə nəticələndi. İnkişaf etməkdə olan immiqrantların sayında kəskin artım müşahidə olunduğundan 1975-ci ildə immiqrasiyanın qarşısı ilk dəfə rəsmi olaraq alındı. Bu, həmin dövrdə Avropada gedən ümumi immiqrasiya siyasəti ilə eyni idi və immiqrantların bu ölkələrə qaçqın və ailə üzvü olaraq gəlməsi ilə nəticələndi [5, 166].

Norveçə immiqrasiya edən azərbaycanlılar yalnız Azərbaycan Respublikasından deyil, həmçinin Güney Azərbaycandan olan həmvətənlərimizdir. Bu azərbaycanlılar yeni həyat, yaxşı güzəran axtarışı prinsipi ilə Norveçə siyasi və iqtisadi qaçqın kimi miqrasiya etmişlər. Cənubi Azərbaycandan 1980-ci illərin sonu İran İslam İnqilabından sonra, Azərbaycan Respublikasından isə kütləvi immiqrasiya 1990-cı illərdə baş vermişdir. Azərbaycandan Norveçin neft mərkəzi olan Stavanger şəhərinə “beyin axını” edən azərbaycanlı ailələr də çoxluq təşkil edir. Onlar Stavangerdə yüksək məvacibli neft sahələrində fəaliyyət göstərirlər. Onu da qeyd edək ki, Azərbaycanda doğulmuş və Norveçdə məskunlaşmış

həmvətənlərimiz Azərbaycana, Vətənə daha çox bağlıdırlar və yad təsirlərə uğramayıblar.

1996-cı ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Norveçə rəsmi səfərindən sonra ölkələrimizin qarşılıqlı əlaqələri daha sürətli inkişaf mərhələsinə qədəm qoymuşdur. Ötən dövr ərzində Norveç və Azərbaycan arasında siyasi, iqtisadi və humanitar əməkdaşlıq sahələrində yüksək səviyyəli qarşılıqlı səfərlər baş tutub, əlaqələrin inkişaf etdirilməsi üçün geniş imkanlar və hüquq-müqavilə bazası yaradılıb.

Hazırda dünyanın əksər ölkəsində həmvətənlərimiz tərəfindən yaradılan təşkilatların sayı getdikcə artmaqdadır. Artıq müxtəlif ölkələrdə yaranan gənclər təşkilatları diasporumuzun inkişafı üçün çalışır, digər ölkələrin diaspor təşkilatları ilə sıx əlaqə saxlayır, dünyanın qabaqcıl ölkələrinin diaspor təcrübələrini öyrənirlər. Xaricdəki həmvətənlərimiz arasında Azərbaycançılıq ideyaları, milli mənəvi dəyərlərimiz getdikcə daha dərindən kök salır. Onlar məskunlaşdıqları ölkələrin ictimai-siyasi, mədəni və işgüzar həyatında mühüm mövqelərə sahib olmaqla yanaşı, həm də Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq istiqamətində, maddi və mənəvi irsimizin təbliğinə, ölkəmiz əleyhinə yönəlmiş ideoloji təxribatların qarşısının alınmasına öz töhfələrini verirlər. Bu məqsədlə müxtəlif tədbirlər təşkil olunur, görülən işlər kütləvi informasiya vasitələrində işıqlandırılır. Bu cür təşkilatlar Norveçdə də fəaliyyət göstərir. Norveçdəki Azərbaycan diaspor təşkilatları paralel olaraq zəngin tarixi-mədəni irsimizin də fəal təbliğatçıları hesab edilirlər. Bu məqsədlə bu ölkədəki diaspor təşkilatlarımız tərəfindən müntəzəm olaraq mədəni-kütləvi tədbirlər təşkil olunur.

Norveçdə aktiv Azərbaycan diaspor təşkilatlarından biri də Norveç Azərbaycanlıları Gənclər Təşkilatıdır (Norwegian Azerbaiyani Youth Organization - NAYO). Norveç Azərbaycanlılarının Gənclər Təşkilatı 2005-ci ildə Norveçdə təsis edilmiş dünyəvi, sivil, qeyri-siyasi və gəlir əldə etmək məqsədi olmayan bir təşkilatdır. Təşkilatın əsas məqsədi orada yaşayan azərbaycanlıların Norveç ictimaiyyətinə inteqrasiya olunmasında yardımçı olmaq, onları təşkilatlandırmaq, hüquqlarını müdafiə etmək və sosial problemlərinin həlli istiqamətində fəaliyyət göstərməkdir. Azərbaycan xalqının mədəniyyətini, tarixini, problemlərini və nailiyyətlərini Norveç cəmiyyətinə çatdırmaqla yanaşı, iki ölkə arasında dostluq əlaqələrini möhkəmləndirmək, iqtisadi, elmi və mədəni əlaqələrin inkişafına dəstək verməklə dostluq və əməkdaşlıq körpüsü rolunu oynamaqdadır [4,15].

Ümumilikdə Norveç Azərbaycanlıları Gənclər Təşkilatının layihələri üç hissəyə bölünür. Belə ki, tədbirlərdə ilk olaraq, Azərbaycanın potensialı, neft strategiyası, regionda mövqeyi, daha sonra isə Dağlıq Qarabağ problemi, Xocalı faciəsi və ermənilərin törətdiyi digər cinayətlər haqqında məlumatlar verilir və sonda Azərbaycanın turizm potensialını əks etdirən kitablar və bukletlər təqdim edilir.

Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması və ölkəmizin Avropa ölkələrində təbliği Azərbaycan diasporunun ən əsas vəzifələrindən biridir. Norveç Azərbaycanlıları Gənclər Təşkilatı – NAYO və Oslo Azərbaycan Evi Xocalı soyqırımının ildönümü ilə əlaqədar hər il Dağlıq Qarabağ məsələsi, Xocalı soyqırımı və ermənilərin törətdiyi digər vəhşiliklərin Norveç ictimaiyyətinə çatdırılması məqsədilə müxtəlif tədbirlər həyata keçirir.

İkinci Qarabağ Müharibəsi dövründə dünyanın digər ölkələrində fəaliyyət göstərən diasporlar kimi Norveç Krallığında mövcud olan diaspor təşkilatlarımız da Vətən müharibəsi ilə bağlı reallıqların beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq üçün müxtəlif fəaliyyətlər həyata keçirmişlər. Bundan əlavə, Vətən müharibəsi dövründə Azərbaycan Tələbə və Məzunlar Platforması (ASAP) Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) vahid informasiya platforması yaratmış və gənclərin informasiya müharibəsində birləşmək barədə çağırışına cavab olaraq Norveç Azərbaycanlıları Gənclər Təşkilatı da bu platformaya qoşulmuşdu. Platformanın əsas məqsədi Ermənistanın ölkəmizə qarşı apardığı informasiya müharibəsində Azərbaycan gənclərinin fəallığının təşviq edilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Ermənistanın yalanlarının ifşa edilməsi, beynəlxalq ictimaiyyətin Ermənistanın ölkəmizə qarşı təcavüzünə son qoyulmasından ibarət idi.

Xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatlarımız öz fəaliyyətlərində Azərbaycanın beynəlxalq aləmdə tanınması, maddi və mənəvi irsimizin təbliği, Qarabağ məsələsi, Xocalı faciəsi ilə bağlı Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətinini daha da gücləndirməli, yaşadıqları ölkələrdə xalqımızı layiqincə təmsil etmək üçün öz fəaliyyət dairələrini daha da genişləndirməlidir.

**İstifadə edilən ədəbiyyat siyahısı:**

1. Azərbaycan diasporu ensklopedik məlumatlar toplusu. Bakı, "SƏS-2012" MMC, 2012, 654 s.

2. Azərbaycan diasporu. Böyük Yolun Başlanğıcı./Buraxılışa məsul: Nazim İbrahimov. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsitəsinin nəşri. Bakı: Çaşıoğlu, 2006, 208 s.
3. Magero Eva, Simonsen Birte. Norway Society and Culture. Kristiansand, Norway: Portal, 2008, 350 p.
4. **Norveçdə Azərbaycan diaspor təşkilatları. "Olaylar" qəz., 2013, 27 noyabr, №198, s.15.**
5. Stenersen Öivind və Ivar Libək: Norveç tarixi buz dövründən bu günə kimi *(Tərcümə edən V.Əfəndiyeva)*. Bakı: İndigo, 2009, 187 s.

Əjdərzadə Gülər İlham qızı
Mingəçevir Dövlət Universiteti

# Cənubi Qafqazda sülh və yanaşıyaşama modelinin perspektivləri

**Açar sözlər:** Cənubi Qafqaz, Avropa İttifaqı, yeni regionalizm, 3 + 3, 5 + 1,

**Ключевые слова:** Южный Кавказ, Европейский Союз, новый регионализм, 3+3, 5+1

**Keywords:** South Caucasus, European Union, new regionalism, 3+3, 5+1

Avrasiyanın “Strateji planetar məkan” kodu daşıyan və mühüm geosiyasi əhəmiyyətə malik olan ərazilərindən biri də Qərb və Şərq əlaqələrində körpü rolunu oynayan Cənubi Qafqazdır. Cənubi Qafqaz respublikaları – Azərbaycan, Gürcüstan, Ermənistan Qərb və Şərq əlaqələrində dənizlərarası aralıq keçidləri, quru və dəniz kommunikasiyaları vasitəsi ilə onun Avropa hissəsini təşkil edir.

Cənubi Qafqaz ölkələri siyasi inkişaf, demokratik transformasiya və Qərbə inteqrasiya baxımından Orta Asiya dövlətlərindən həm əlverişli vəziyyətdədir, həm də bir qədər irəlidədir.

Cənubi Qafqazın ümumi geosiyasi və geoiqtisadi nizamını, regional təhlükəsizlik sisteminin dinamizmini və hər üç yerli ölkənin bir – biri ilə sıx bağlı olan geosiyasi maraqlarını davamlı olaraq pozan və təhdid edən ölkə Ermənistandır.

Regional səpgidən yanaşılsa bölgənin həm böyük dövlətləri – Rusiya, İran və Türkiyə, həm də Cənubi Qafqazın digər ölkələri – Azərbaycan və Gürcüstanla münasibətlərində Ermənistanın yalnız birinci

ikisi ilə ciddi regional problemi müşahidə olunmur. Qalan bütün qonşu ölkələrlə bu dövlətin münasibətləri “qonşularına qarşı işğalçılıq siyasəti yürütməsi” daim ciddi problemlərlə müşahidə olunmuşdur.

Azərbaycanın 44 günlük İkinci Qarabağ müharibəsində qazandığı tarixi Qələbə geosiyasi məkanda proseslərin bütöv mənzərəsini dəyişməkdədir. Azərbaycan Prezidenti 44 günlük müharibə zamanı digər məsələlərlə yanaşı, iki siyasi-psixoloji məqamı daha qabarıq surətdə bütün dünyaya nümayiş etdirdi. Onlardan birincisi Prezidentin dünyanın müxtəlif ölkələrindən olan jurnalistlərə verdiyi müsahibələrdə, eyni zamanda atdığı konkret addımlarda Azərbaycanın müharibə paradiqmasının əsiri olmadığını sübut etməsi ilə bağlıdır. Bu baxımdan Azərbaycanın kiminləsə müharibə etmək həvəsində olmasından, kiminsə ordusunu dağıtmaq və ya ölkəsini viran qoymaq kimi məqsədlər güdməsindən söhbət gedə bilməz [1].

Azərbaycan Prezidentinin qeyd etdiyi ikinci məqam isə hərbi əməliyyatların getdiyi dövrdə tez-tez regional əməkdaşlıq haqqında mesajlar verməsi ilə bağlıdır. İlham Əliyev yeni əməkdaşlıq formatının meydana gəlməsi üçün konkret fikirlər səsləndirirdi. Bu , Azərbaycan rəhbərinin regional və qlobal səviyyədə əməkdaşlığa can atmasını sübut edirdi. Hərbi əməliyyatların başa çatması ilə İlham Əliyevin ekspertlərin "3+3" formulu adlandırdığı əməkdaşlıq formatını irəli sürməsi ciddi dönüş nöqtəsi sayıla bilər. İndiki zamanda artıq siyasətçilər və ekspertlər bu formul əsasında fəaliyyətə üstünlük verirlər. Bu formul Cənubi Qafqaz ölkələri ilə yanaşı regionun digər böyük dövlətləri olan Rusiya, Türkiyə və İranın sistemli və davamlı əməkdaşlığını nəzərdə tutur. Bu formulu "5+1" də adlandırırlar (Azərbaycan, Gürcüstan, Türkiyə, Rusiya, İran və

Ermənistan). Lakin əsas olan adda deyil, formatın məzmunundadır. Məzmun ondan ibarətdir ki, Cənubi Qafqazda "yeni regionalizm" konsepsiyasına uyğun əməkdaşlıq platforması yaradılır. Və qeyd edək ki "yeni regionalizm" konsepsiyası Avropada meydana gəlib və hazırda Avropa İttifaqının müxtəlif regionlara yönəlik siyasətində ("Şərq Tərəfdaşlığı" proqramına üzv ölkələr də buraya daxildir) öz ifadəsini tapır.

Qısacası, "yeni regionalizm" Avropada və ona qonşu olan yerlərdə regional əməkdaşlıqla qlobal əməkdaşlığın bir-birini tamamlaması və təhlükəsizliyin təmin edilməsi kimi başa düşülür. Regionun lideri olan Azərbaycan "yeni regionalizm" konsepsiyasına uyğun şəkildə siyasət yürüdür. Bu konsepsiya isə özünü əməkdaşlıq platforması kimi "3+3" formulunda təzahür etdirir. Avropanın bu təşəbbüsə dəstək verməkdən başqa yolu yoxdur – əks halda, özü öz prinsipinə zidd davranmış olar!

Bununla da Cənubi Qafqazın geosiyasi, iqtisadi, təhlükəsizlik və eyni zamanda mədəni reallıqlarına "3+3" formulu prizmasından baxmaq zərurəti meydana çıxıb. Artıq bu zərurət üzrə regionun böyük dövlətləri fəal addımlar atırlar. Türkiyə daha çox bu istiqamətdə fəaldır. Əvvəlcədən Azərbaycanın haqq işinə dəstək verən Türkiyə, bununla yanaşı , yalnız Ermənistanın konstruktiv davranacağı halda onunla əməkdaşlığın mümkün ola biləcəyini vurğulayıb. İndiki mərhələdə kommunikasiya xətlərinin açılmasına rəsmi Ankara ciddi dəstək verir. Türkiyə bu sahədə Bakının hər bir təşəbbüsünü və addımını tam dəstəkləyərək həm regional proseslərə təsirini artırır, həm də əməkdaşlıq və təhlükəsizliyə öz qiymətli töhfəsini verir [2].

İran Cənubi Qafqazda fəallığını artırmaqda davam edir . Xarici işlər naziri Məhəmməd Cavad Zərifin regiona səfəri bu baxımdan önəmlidir. Rəsmi Tehran regional əməkdaşlıqda Azərbaycan, Rusiya və Türkiyə ilə eyni mövqedən çıxış etdiyini nümayiş etdirir .Hazırki mərhələdə faktiki olaraq Azərbaycan, Rusiya, Türkiyə və İranın "3+3" və ya "5+1" formulu üzrə əməkdaşlığa tam hazır olduqlarını deyə bilərik.

Bu konteksdə artıq regional layihələrin reallaşması zərurəti konkret olaraq hiss edilir. Beləliklə, Qarabağın yenidən qurulmasının yalnız Azərbaycan üçün deyil, bütövlükdə regional inkişaf üçün son dərəcə əhəmiyyətli olması qəbul edilməlidir [1]

Dinc şəkildə birgə yaşamanı təmin etmək üçün xalqların buna nə dərəcədə hazır olması, sülhə dair formalaşmış ümumi yanaşma, bu baxımdan hansı təcrübəyə malik olmaları vacib elementlərdir. Ermənilərin isə Azərbaycan xalqından fərqli olaraq, uzun illər ərzində qonşu xalqlara, o cümlədən fərqli mədəniyyətlərə aqressiv münasibəti bu gün regionda sülhü və təhlükəsizliyi təmin etmək yolunda əsas manedir. Azərbaycan tərəfi dəfələrlə bəyan edir ki, biz Qarabağda yaşayan ermənilərlə yox, erməni silahlı birləşmələri ilə mübarizə aparırıq. Azərbaycan ordusu öz ərazilərini işğalçılardan və terroristlərdən təmizləyir, ermənilərdən fərqli olaraq mülki əhalini hədəfə almır və sülhyönümlü mövqeyini qoruyub saxlayır. Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi regiondakı sülhü və təhlükəsizliyi təmin etməsi təkcə Azərbaycan və Ermənistanda deyil eləcə də qonşu dövlətlərdə yaşayan insanların sülh və firavan həyatına xidmət edir. Hər zaman mülki əhalini hədəfinə alan Ermənistan isə Azərbaycan ərazisində işğal rejimini davam etdirməyə çalışaraq, ilk növbədə elə ermənilərin dinc həyatını təhdid edir. Hazırki şəraitdə insan cəmiyyətində

birgə yaşamaya əsaslanan və multikulturalizmin humanist ideyalarının alternativi yoxdur. Konkret olaraq, multikulturalizm və birgə yaşama modellərinin inkişafı müxtəlif xalqlar və dövlətlər arasında uzlaşmanı təmin etmək üçün olduqca vacibdir. Bu Azərbaycan üçün çətin məsələ deyil, çünki Azərbaycan xalqı öz ərazi bütövlüyü və sərhəd təhlükəsizliyi çərçivəsində hər zaman sülhə hazırdır [2]

İstifadə olunmuş ədəbiyyat:

1. Azerbaijan Diary: A Rogue Reporter's Adventures in an Oil-Rich, War-Torn, Post-Soviet Republic, by Thomas Goltz. New York, 1998.

2. Azerbaijan, Oil and Geopolitics, by Cynthia Croissant. Nova Science Publishers, 1998. Executive Report on Strategies in Azerbaijan (Strategic Planning Series), by The Azerbaijan Research Group, The Azerbaijan Research Group, 2000.

Ələsgərova Fidan Cəbrayıl qızı
Azərbaycan Dillər Universiteti

# 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ QAZANCLARIMIZ

**Açar sözlər:** beynəlxalq hüquq normaları, rəşadətli ordumuz, şərəfli mübarizə, dəmir yumruq

**Key words:** international law norms, brave army, honorable struggle, iron fist,

**Ключевюе слова:** Нормы международного права, храбрая армия, достойная борьба, железный кулак

44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın rəşadətli ordusu XXI əsrdə dastan yazaraq mənfur düşmən üzərində tam qələbəni əldə etdilər. Bu qısamüddətli müharibə sadəcə səngərlərdə deyil, eyni zamanda dünyanın azərbaycanlılar yaşayan hər yerində, bütün sosial platformalarda, nüfuzlu media vasitələrində gedirdi. Bu şərəfli mübarizəni sadəcə azərbaycanlılar deyil, həmçinin bizim haqq-ədalət mübarizəmizi dərk edən insanlar da davam etdirdilər. 30 ilə yaxındır ürək ağrısı ilə yaşayan millətimizin bir anda yaralarına məlhəm qoyuldu, kədər göz yaşlarımız sevinc göz yaşlarına çevrildi. Biz Azərbaycan xalqı olaraq bu şərəfli mübarizəmizdə tək yumruq olaraq mənfur düşmənimizi həm səngərdə, həm də informasiya müharibəsində məhv etdik. Əlbəttə bu müharibənin şanlı qalibiyyətinin əsası dünyanın ən ağıllı siyasətçilərindən biri olan cənab İlham Əliyevin uğurlu siyasi və hərbi diplomatiyası, güclü diaspora fəaliyyəti, xalqımızın çətin gündə tək yumruq olması, qəhrəman

oğullarımızın vətən sevgisi və haqq-ədalət, şərəf, qeyrət uğrunda aparılan mübarizə aparılmasında idi.

Vətən müharibəsində bizim qazanclarımız çox oldu. Belə ki, bizim rəşadətli ordumuz dəmir yumruğu ilə on illərlə heç bir beynəlxalq hüquq normalarına, insanlığa, ədalətə sığmayan addımları ilə xalqımıza, millətimizə göz dağı vermək istəyən, terrorçu qruplaşmaları dogma torpaqlarımızda yerləşdirərək ərazimizi terror yuvasına çevirmək istəyən, ərazi bütövlüyümüzü pozmaq istəyən mənfur erməni əsgərlərinin başını əzdi, hərbi birləşmələrinin onurğa sütununu qırdı. Azərbaycan hökuməti 1990-cı illərdən indiyə qədər beynəlxalq hüquq normaları çərçivəsində Ermənistan hökuməti tərəfindən işğal olunan torpaqlarımızın qaytarılmasını səbrlə gözləsə də təəssüf ki, BMT, ATƏT kimi dünyanın çox nüfuzlu təşkilatları bu işdə qətiyyən müsbət rol oynaya bilmədi. Ermənistan hökuməti isə dünyaya meydan oxuyaraq torpaqları qaytarmayacağı ilə bağlı istər konfrans və görüşlərdə, istərsə də kütləvi informasiya vasitələri qarşısında dəfələrlə fikir bildirdi.

İgid əsgərlərimiz canlarından, qanlarından keçməyi göz önünə alaraq qısa müddət ərzində düşmənin bütün hərbi qüvvələrini hərtərəfli məhv etdilər. Bu addımla rəşadətli ordumuz həm də beynəqxalq təşkilatların Ermənistan hökuməti ilə bağlı götürdükləri, lakin yerinə yetirə bilmədiyi öhdəliklərini də yerinə yetirməyə müvəffəq oldu. Düşmən caynağından azad etdiyimiz torpaqların sadəcə Azərbaycan xalqı üçün deyil, həmçinin türk dünyası üçün böyük əhəmiyyəti vardır. Belə ki, işğal altında olan bütün rayonlarda muzeylər, qalalar, tarixi abidələr demək olar

ki, yerlə yeksan olunmuşdur. Bu tarixi abidələr sadəcə Azərbaycan xalqının deyil, bütün türk dünyasının dəyərləridir. Ümumiyyətlə, sadəcə mədəni deyil, həmçinin dini nöqteyi-nəzərdən də Ermənistan hökuməti öz barbar siyasətini həyata keçirərək islam dininə aid məscidləri dağıtmış, belə müqəddəs məkanlardsa təhqiramiz hərəkətlər nümayiş etdirmişdir. Buna erməni mediasının sosial şəbəkələrdə Ağdam rayonundakı Cümə məscidində donuz saxlamalarını nümunə göstərə bilərik [1]. Ermənistan hökumətinin belə insanlığa sığmayan əməllərinin arxasında müharibənin xarakterini və gedişatını dəyişmək, dünyanın diqqətini guya xristiyan-müsəlman müharibəsində azsaylı xristiyanların müsəlmanlar tərəfindən əzilməsi yalanıyla cəlb etmək siyasəti  dayanırdı. Cənab prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan hökumətinin uğurlu siyasəti nəticəsində dünya mediası Ermənistan hökumətinin bu yalanı ilə bəslənmədi. Əslində xristiyan dünyasının da belə vəhşi və barbar olduqları üçün erməni xalqının mövcudluğundan narahat olması, qorxması və xəcalət çəkməsi  qaçınılmazdır.

44 günlük müharibə ərzində sadəcə ön cəbhədə rəşadətli ordumuz deyil, həmçinin arxa cəbhədə olan bütün vətəndaşlarımız qəhrəmanlıq nümayiş etdirdilər. Vəhşi düşmən qarşısından ölümü bahasına belə olsa qaçmayan, tarixə iz salan qəhrəmanlıq göstərən bütün şəhid, qazi, hərbçi və əsgərlərimizin arxasında bütöv Azərbaycanın sevgisi, güvəni,duası və borcu dayanırdı. Belə ki, vətən torpağının hər qarışı uğrunda şərəflə mübarizə aparacaqlarına and içərək bu şərəfli yola baş qoymuş qəhrəmanlarımız Azərbaycan xalqının sadəcə keçmişi və bu gününü xilas etməyi deyil, həmçinin aydın və işıqlı gələcəyini təmin etməyi də öz borcları bilmişlər. Belə ki, bu gün  olduğu kimi, gələcəkdə də hər bir

Azərbaycan övladı sülh və əminamanlıq içində öz ana vətənində düşmən əsarəti altında yaşamadıqları üçün canından-qanından keçmiş vətən oğullarına hər zaman minnətdar olacaqdır. Bu şərəfli mübarizədə düşmən tərəf və onların havadarlarının yalan informasiya müharibəsi Azərbaycan xalqının birliyi və bütövlüyünü parçalaya bilmədi. Cənab prezident İlham Əliyev tərəfindən multikulturalizm siyasətinin uğurla aparıldığı ölkəmizdə yaşayan bütün etnik-azlıqlar birlikdə mənfur düşmənlə mübarizə apardılar. Sosial mediada bəzən subliminal şəkildə etnik azlıqları qızışdıracaq mesajlar verilsə də bunlara məhəl qoyan olmadı. Axı vətən torpağı onun vətəndaşları üçün müqəddəsdir, onu bağışlamaq, pay vermək olmaz. Beləliklə, bu mübarizədə Azərbaycan xalqı bir yumruq altında birləşərək dəmir yumruğunu sadəcə ön cəbhədə deyil, bütün digər cəbhələrdə də düşmənə göstərdi. Bu qısa müddət ərzində istər ölkə daxilində, istərsə də ölkə xaricində ölkəmizin imicinə zərbə vurulmaması uğrunda gərgin mübarizə aparıldı. Bu işdə öz xüsusi töhvəsini verən dünyanın bir çox ölkələrində yaşayan azərbaycanlılar oradakı ermənilər və ermənipərəst qüvvələr tərəfindən zərbələrə məruz qalsalar, onlara hədə qorxu gəlinsə də onlar Azərbaycanın haqq-ədalət mübarizəsini davam etdirərək düşmənə meydan oxudular. Həqiqətən də, bu şanlı qələbədə Azərbaycan xalqı, milləti sağlam orqanizm kimi bütünləşdi və biz illərlə həsrətini çəkdiyimiz torpaqlarımıza, mədəni və dini abidələrimizə qovuşduq.

Bu mübarizədə düşmənə qalib gəlsək də itkilərimiz az olmadı. Belə ki, 2783-dən çox şəhidimiz gözlərini belə qırpmadan şərəfli mübarizədə şəhadət zirvəsinə ucaldılar. Qazilərimiz canları bahasına da olsa 44 günlük

Vətən müharibəsində qəhrəmanlıq səlnaməsi yazdılar. Ermənistan Respublikası I Qarabağ müharibəsində olduğu kimi, bu dəfə də mülki əhalini dünyanın gözü qarşısında hədəfə tuş etməkdən çəkinmədi. Azərbaycan ordusunun qarşısında tab gətirə bilməyəcəyini başa düşən Ermənistan silahlı qüvvələri son çırpınışları kimi Gəncə şəhəri və Bərdə rayonunun raket hücumuna məruz qoyaraq dünyanın ən mənfur düşməni ilə mübarizə apardığımızı sübuta yetirdi [2]. 44 günlük Vətən müharibəsində tərəfindən dəfələrlə raket hücumu ilə hədəf obyektinə çevrilən Gəncə, Tərtər və Bərdə kimi rayonlarımız həm maddi və mənəvi, həm də can itkisi verdi [2]. Erməni caniləri bu əməlləri ilə Azərbaycan tərəfini haqlı mübarizədə çəkindirməyi qarşısına hədəf qoysa da onlar Azərbaycan türkünün "bir ölər, min dirilərik" inancı ilə onlara qarşı hər yerdə vuruşmağa hazır qəhrəman əsgər olduğunu plana daxil etməmişdi.

Beləliklə, 44 günlük Vətən müharibəsində itkilərimiz olsa da, haqq-ədalət qalib gəldi. Erməni ordusunun məğlubiyyətinin əsas səbəbi olaraq isə onların özgəsinin torpağı uğrunda mübarizə aparmaları oldu. Rəşadətli Azərbaycan ordusu isə öz əzəli və əbədi torpaqları uğrunda mübarizə aparırdı. Azərbaycan ordusunun arxasında ürəyi onun üçün çırpınan Azərbaycan xalqı, türk dünyası, haqq-ədalətin qalib gəlməsini arzulayan dünya xalqları var idi. Ordumuz ümidlərimizi doğruldaraq 27 illik əsarətdə olan torpaqlarımıza yeni nəfəs verdi. Bu mübarizədə itkilərimiz az olmasa da nəticə etibarilə düşmənin onurğa sütununu sındıraraq ərazi bütövlüyümüzü bərpa etdik.

**Ədəbiyyat siyahısı**

1. Ağdam məscidində donuz yerləşdirilib, Femida.az, 27 mart 2017

http://femida.az/az/news/50770/A%C4%9Fdam-m%C9%99scidin%C9%99-donuz-yerl%C9%99%C5%9Fdirilib---R%C6%8FSM%C4%B0

2. Ermənistan Gəncə, Tərtər və Bərdənin mülki əhalisinə qarşı törətdiyi terrora görə ağır cavab verəcək, İki sahil, 30 oktyabr 2020. https://ikisahil.az/post/ermenistan-gence-terter-ve-berdenin-mulki-ehalisine-qarshi-toretdiyi-terrora-gore-agir-cavab-verecekdir

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
ADU
Docendo discimus
öyrədərək öyrənirəm

Ələsgərova Sara Tahir qızı
Azərbaycan Dillər Universiteti

# AZƏRBAYCANIN DIASPORA VƏ LOBBIÇILIK SAHƏSINDƏ FƏALIYYƏTI

**Açar sözlər**: diaspora quruculuğu, lobbiçilik fəaliyyəti, xarici siyasət, dövlətçilik ənənələri.
**Ключевые слова**: Диаспора строительство, лоббизм, внешняя политика, традиции государственности.
**Keywords**: diaspora, lobbying, foreign policy, statehood traditions.

Diaspor fəaliyyəti ilə məşğul olan təşkilatlar, fəaliyyətdə olduğu ölkədəki soydaşlarının da xidmətlərindən istifadə edərək, ölkəsini təbliğ edə, Novruz bayramı, Həmrəylik günü, Milli Nar festivalı kimi müxtəlif tədbirlər təşkil edərək soydaşları bir yerə yığa, adət-ənənənin qorunmasına çalışa bilər. Diaspor fəaliyyəti geniş anlayışdır bura, həmçinin doğma dilində məktəblərin təşkili, musiqimizin, incəsənətimizin, xalçaçılıq, dulusçuluğumuzun təbliği və s. daxildir. Lobbiçilik isə tam fərqli sırf siyasi fəaliyyət növüdür. Lobbiçilik dövlət və qanunverici orqanların qəbul edəcəyi qərarlara öz xeyrinə təsir etməkdir. Lobbiçiliyi diasporun formalaşmasından sonrakı mərhələ saymaq olar. Odur ki, Azərbaycanın heç də bütün diasporaları buna hələ hazır deyil. Azərbaycan diaspora fəaliyyəti sahəsində bir çox nailiyyətlər əldə etsə də, etiraf edək ki lobbiçilik sahəsində çox yeniyik və qarşıda görməli olduğumuz çox işlər var.

Diaspora quruculuğunda çoxsaylı cəmiyyət və birliklərimiz fəaliyyət göstərir. Bunlara Ümumrusiya Azərbaycan Konqresi, Ukrayna Azərbaycanlıları Konqresi, Almaniya Azərbaycan cəmiyyətləri Federasiyası, İsveç-Azərbaycan Federasiyasını, Qazaxıstan, Qırğızıstan və Özbəkistan azərbaycanlılarının "Turan" Konqresi və Qırğızıstanda "Azəri" İctimai Birliyi və s. aiddir. Bu birliklər fəaliyyət göstərdikləri ölkələrlə Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, həmvətənlərimizin təşkilatlanması və doğma vətənləri ilə əlaqələrinin qopmaması sahəsində əhəmiyyətli işlər görməyə müvəffəq olmuşlar [6].

Azərbaycan diasporunun bazasını XIX əsrdə başlayan, XX əsrdə daha da mütəşəkkilləşmiş mühacirət hərəkatları təşkil edir. Azərbaycan mühacirətinin tarixi başlıca olaraq əsas üç böyük mərhələdən keçir:

1. XIX əsrin əvvəllərindən Rusiya-İran, Rusiya-Osmanlı müharibələrində Azərbaycanın parçalanmasından Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədər olan dövr
2. AXC süqutundan XX əsrin 70-ci illərinə Şimalda Sovet rejiminin zəifləməsinə, Cənubda şah rejiminin süqutuna qədər
3. XX əsrin 80-ci illərindən sonrakı dövr

Onu da qeyd edək ki, Azərbaycanlıların sırf ABŞ-a mühacirət etməsi prosesi də uzun tarixi yol keçmiş və bir neçə mərhələdən ibarətdir [4, s. 3-6].

- ADR-nin süqutundan sonrakı azərbaycanlıların ABŞ-a mühacirəti (1918-1920-ci illər)
- II Dünya müharibəsindən sonra azərbaycanlıların ABŞ-a mühacirəti; əsasən Cənubi Azərbaycandakı azərbaycanlılarının ABŞ-a mühacirəti (50-90-cı illər)
- SSRİ-nin dağılmasından sonra azərbaycanlıların ABŞ-a mühacirəti.

Azərbaycanlıların ilk mühacirəti dərəbəy həyat tərzindən başlamış, daha sonra yeni dünyagörüşlü ziyalıları əhatə etmişdir. A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, M.Şahtaxtlı, C.Məmmədquluzadə və başqa ziyalılar müxtəlif dövrlərdə Tiflisdə məskunlaşmış, geniş milli- mədəni, ideoloji mühit yaratmışdılar. "Şərqi-Rus" qəzeti, "Molla Nəsrəddin" jurnalı bu prosesin nəticəsidi [3, s. 3-4].

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il, dekabrın 31-dən etibarən qeyd edilən Dünya Azərbaycanlılarının Həmrəylik Günü soydaşlarımız arasında birlik və həmrəyliyi reallığa çevirirdi. Artıq, diaspor quruculuğu tarixində yeni bir mərhələ başlayırdı. Azərbaycan diaspora quruculuğu sahəsində yaranan cəmiyyətlərin işini əlaqələndirmək istiqamətində ilk cəhd 1997- ci ildə ABŞ-ın Los- Anceles şəhərində təsis olunan Dünya Azərbaycanlıları Konqresi (DAK) nin yaradılması olmuşdur. Azərbaycan Respublikasının hələ müstəqil olmadığı, lakin sovet rejiminin süquta doğru getdiyi illərdə dövlət tərəfindən yaradılmış Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti ("Vətən" cəmiyyəti) dünya azərbaycanlılarının birliyi naminə xeyli işlər görsə də, bu yolda daha əsaslə addımlar Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra atılmışdır [5, s.6-8].

2001- ci il, noyabr ayının 9-u və 10- da Bakıda ümummilli lider Heydər Əliyevin iştirakı ilə Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi bu yolda atılan addımlardan ən önəmlisi oldu. Qurultayda çıxışı zamanı ümummilli lider qeyd edirdi ki, bütün dünyaya səpələnmiş azərbaycanlıların birliyi, həmrəyliyi həm müstəqil Azərbaycan dövləti, həm də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün xüsusi əhəmiyyət kəsb edir [8, s. 23-27]. 5 iyul 2002-ci ildə Prezident H.Əliyevin fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. 27 dekabr 2002-ci ildə isə Milli Məclis “Xaricdə Yaşayan Azərbaycanlılarla bağlı Dövlət Siyasəti haqqında” qanun qəbul etdi. Azərbaycan xalqının ümummilli lideri H.Əliyevin milli diasporun yaradılması uğrundakı ardıcıl, məqsədyönlü mübarizəsini bugün Azərbaycan Prezidenti İ.Əliyev uğurla davam etdirir. Onun təşəbbüsü ilə 16 mart 2006-cı ildə Bakıda keçirilən Dünya Azərbaycanlılarının II qurultayı Diaspor quruculuğu prosesində növbəti mərhələ oldu. Dünyanın böyük ölkələrində çox saylı məskunlaşmış azərbaycanlıların yaratdıqları cəmiyyətlərin hələ I qurultaya qədər bütöv təşkilatlar halında birləşməsi hərəkatı (məsələn, 1996- cı ildə Almaniya-Azərbaycan Cəmiyyətləri Federasiyasının, 1999-cu ildə Ukrayna Azərbaycanlıları Konqresinin, 5 mart 2001-ci ildə Ümumrusiya Azərbaycanlılar Konqresinin yaradılması) get-gedə güclənir. Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası (2004) nın təsisi bu, hərəkatın davamı idi [2].

2008-ci ildə 19 noyabr tarixli Prezident Sərəncamı ilə Xarici Ölkələrdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında

Diasporalarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Komitənin əsas məqsədi lobbi fəaliyyəti və diasporalarla iş üzrə vahid dövlət siyasətini formalaşdırmaqdır [1, s.3-5]. Bu qurum Azərbaycan Diasporunun lobbi fəaliyyətinə keçməsi , müxtəlif ölkələrdə Azərbaycan Lobbisinin yaradılması üçün məqsədyönlü addımlar atır.

Son illərdə xaricdə yaşayan həmvətənlərimiz milli-mədəni yöndə təşkilatlanmağa başlasalar da, təəssüf ki, xarici siyasətdəki fəaliyyətləri barədə eyni sözləri deyə bilmirik. Azərbaycan diaspora quruculuğu strategiyamızda bir neçə vacib prinsipi əsas tutmalıyıq:

- azərbaycanlılar milli mənəvi dəyərləri qoruyub saxlamalı, təbliğ etməli və eyni zamanda ümumbəşəri dəyərlərə də yiyələnməlidirlər
- azərbaycanlılar yaşadıqları ölkənin ictimai həyatında fəal iştirak etməli, tarixən mənsub olduqları milli- mənəvi dəyərləri qoruyub saxlamaqla yanaşı həmin ölkənin qayda- qanunları çərçivəsində öz istədikləri kimi yaşamağa çalışmalı
- azərbaycanlılar dünyanın harasında yaşamaqlarından asılı olmayaraq azərbaycançılıq ideologiyası ətrafında birləşməli, milli mütəşəkil birlik göstərməli.

**Ədəbiyyat siyashısı:**

1. Azərbaycan diaspor təşkilatları Amerika qitəsində. Olaylar qəzeti.-2013.-25 may.№93

2. Azərbaycan diaspora quruculuğu. (accessed july 2020) http://azerbaijan.az/portal/Society/Diaspora/diaspora_a.html

3. Azərbaycan diasporası problemi Amerikada. İradə Ağayeva. Millət-1995, 27 iyun

4. Azərbaycan diasporası. Olaylar qəzəti. 2014-ci il 5 may, 15 s.

5. Azərbaycan lobbisinin inkişafı dahi Heydər Əliyevin vəsiyyətidir. https://meqamm.webnode.com/meqaleler/azərbaycan%20lobbisinin%20inkişafı%20dahi%20heydər%20əliyevin%20vəsiyyətidir-%20%20%20%20/ (accessed 23.07.2019)

6. Əliyev Z. Dünya diasporları. Bakı, Qismət, 2005, 349 s.

7. Hafiz Paşayev M. Bir səfirin manifesti. Bakı: Şərq-Qərb, 2007, s.264

8. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Birinci Kitab: iyun, 1993-may, 1994, Bakı: Azərnəşr, 1997, 612 s

Ələkbərli Faiq Qəzənfər oğlu
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi

# DAĞLIQ QARABAĞ PROBLEMİNİN YARANMASI, İNKİŞAFI VƏ HƏLLİ PROSESİ

**Açar sözlər:** Dağlıq Qarabağ, Azərbaycan, Ermənistan, ATƏT Minsk qrupu, 10 noyabr

**Keywords:**Nagorno-Karabakh, Azerbaijan, Armenia, the OSCE Minsk group, November 10

**Ключевые слова**: Нагорный Карабах, Азербайджан, Армения, Минская группа ОБСЕ, 10 ноября.

Dağlıq Qarabağ probleminin tarixi kökləri ən azı iki və ya ya üç əsr bundan əvvələ gedib çıxır. Çar Rusiyasının Qafqazı işğalı ən azından I. Pyotr dövründə gerçəkləşmiş, ancaq qısa ömürlü bu işğala Səfəvilərin baş sərkərdəsi Nadirqulu xan tərəfindən son verilmişdir. I. Pyotr ilə başlayan bu proses daha sonra II Yekaterina dönəmində davam etdirilməyə çalışılmışdı. Hər halda müsəlman-türk dövlətləri olan Osmanlının zəifləməsi, Səfəvilərin tarix səhnəsindən silinməsi, onun yerinə keçən Əfşarların uğursuz sonluğu Qafqazın bütün müsəlman xalqlar, ilk növbədə də, müsəlman türklər üçün böyük zərbə olmuşdur (1, s.4).

Beləliklə, XVIII əsrdə Çar Rusiyası Quzey Azərbaycan xanlıqlarını da içində tutan Güney Qafqazı iqtisadi olaraq özünə bağlı hala gətirməyə çalımış, bununla bağlı bəzi mühüm addımlar atmışdır. Xüsusilə də, XIX əsrin əvvəllərində Çar Rusiyası tərəfindən Qarabağ xanlığı da

daxil olmaqla Quzey Azərbaycanın işğalı, 1805-ci ildə Kürəkçay müqaviləsi ilə rəsmiyyət qazanmağa başlamışdı. (2, 251).

Qacarlar dövləti Quzey Azərbaycan da daxil olmaqla Güney Qafqazın Çar Rusiyası tərəfindən işğalının qarşısını almaq üçün quzey imperiyasına qarşı iki dəfə müharibə elan etmiş, ancaq hər iki savaşda da (1804-1813 və 1826-1828-ci illər) yenilmişdi. Gülüstan və Türkmənçay sülh müqavilələrinin bir sonucu olaraq, Qacarlar sadəcə Qarabağı və ya Quzey Azərbaycanı deyil, bütün Güney Qafqazı Çar Rusiyasının işgalı altında buraxmaq zorunda qalmışdı. Bu hadisələrlə bərabər Çar Rusiyası erməniləri Quzey Azərbaycana özəlliklə Qarabağ topraqlarına yerləşdirməyə başlamış, hatta 1828-ci il Türkmənçay müqaviləsindən qısa bir müddət sonra bir Erməni vilayəti qurmuşdu. 1840-cı ildə erməni vilayətini ləğv etmək zorunda qalan çarizm bütün hallarda Qarabağ probleminin təməlini qoymağı bacarmışdı. (3, s.101). Görünür, çar ideoloqları sonralar anlamışdılar ki, qondarma “erməni vilayəti” hələlik real bir şey deyildir, üstəlik çarizmin maraqlarına zidd olan tərəfləri də vardır. Çünki “Erməni vilayəti” qalacağı təqdirdə çarizm sonralar məcbur olaraq “Gürcü vilayəti”, “Türk-tatar vilayəti” və başqa bu kimi vilayətlər də yaratmalı idi. Bu isə çarizmin “parçala və hökm sür” siyasətiylə tam uzlaşmırdı.

Çar Rusiyası dövründə təməli qoyulan Qarabağ problemini ermənilər quzey imperiyasının dağılması ərəfəsində və Azərbaycan Cumhuriyyəti dövründə də dünya gündəminə gətirməyə çalışmışlardır. XX əsrin əvvəllərində Yaponiya ilə müharibədə (1903-1904) məğlubiy-yətlə yanaşı dünya iqtisadi böhranından (1901-1903) qurtula bilməmək,

milli azadlıq və fəhlə hərəkatlarının genişlənməsi çar Rusiyasını çətin vəziyyətə salmışdı. 1905-ci il yanvarın 9-da II Nikolayın minlərlə adamların ona ünvanlanmış şikayətləri dinləmək əvəzinə güllə-borana tutması da problemi həll edə bilmədi (Baykara, 1992: 101). Çarizm inqilabi hərəkatın qarşısını almaq, əhalinin diqqətini başqa istiqamətə yönəltmək üçün millətlərarası qırğından istifadə etdi. Belə ki, çar Rusiyası Quzey Azərbaycanda inqilabi-marksist və milli-demokratik cərəyanların güclənməsindən ehtiyat edərək Güney Qafqaz bölgəsində erməni-müsəlman münaqişəsinə (1905-1906-cı illər) rəvac verdi. Bundan isə ən çox Quzey Azərbaycan türkləri, bütövlükdə Quzey Azərbaycan ərazisində yaşayan bütün müsəlmanlar əziyyət çəkdilər (4, 327).

1918-ci ilin martında erməni daşnakları yenidən himayədarları rusların yardımı sayəsində türk-müsəlmanların kütləvi şəkildə soyqırımına başladılar. Bu kimi daxili ziddiyyətlər Zaqafqaziya Federativ Demokratik Respublikasının da dağılmasına səbəb oldu (5, s.338). 1918-ci il mayın 26-da Gürcüstanın Seymin tərkibindən çıxması ilə Seym süquta uğradı, Qafqaz birliyi ideyası da yarımçıq qaldı.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin məkrli oyunlarından fərqli olaraq Azərbaycan Türk aydınları Qafqaz Federasiyası amilini önə çəkmişlər. Həmin dövrdə Qafqaz Konfederasiyası ideyasınının müəlliflərindən olan Azərbaycan Cümhuriyyətinin qurucusu, milli ideoloq Məhəmməd Əmin Rəsulzadə yazırdı: «Mən Azərbaycanı Qafqaz İttifaq dövlətinin konfederativ tərkib hissəsi kimi təsəvvür edirəm. Həmin ittifaq dövlətinin tərkibinə Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqaz daxil olmalıdır» (6, s.186). Bu ideyanı 1919-cu ilin noybarında «Müsavat»ın 2-ci qurultayında da müdafiə edən Rəsulzadənin təşəbbüsü

ilə toplantı iştirakçıları Qafqaz respublikalarının Qafqaz Konfederasiyası azad ittifaqında birləşməsi ilə bağlı qətnamə də qəbul etmişdi (6, s.186).

Həmin dövrdə uğur qazana bilməyən ermənilər Quzey Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalından sonra Qarabağ msəsələsində daha aktiv fəaliyyət göstərmişdilər. Bunun nəticəsi olaraq Moskvanın birbaşa dəstəyilə 1923-cü ilin iyulunda Dağlıq Qarabağ Muxtar Vilayətini qurmağı bacaran ermənilər, Sovetlər Birliyi dönəmində dəfələrlə Dağlıq Qarabağı Ermənistan SSR ilə birləşdirməyə çalışmışlar.

II Dünya müharibəsindən sonra da ermənilərin Azərbaycan torpaqlarına qarşı iddiaları davam etməkdə idi. Sovet hökumətində yüksək vəzifə tutan A.Mikoyanın himayəsilə “Qarabağ Komitəsi” yaradıldı. 1945-ci ilin payızında Ermənistan rəhbərliyi Mərkəz qarşısında Dağlıq Qarabağın Azərbaycandan alınıb, onlara verilməsi məsələsini qaldırdı. Azərbaycan KP MK-nın I katibi M.C.Bağırov əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan Şuşa rayonunu çıxmaqla Yuxarı Qarabağın Ermənistana verilməsinə bu şərtlə razılıq verdi ki, müxtəlif dövrlərdə Ermənistana, Rusiyaya və Gürcüstana verilmiş tarixi torpaqlarımız geri qaytarılsın. Təbii olaraq, “Mərkəz” və ermənilər Bağırovun bu təklifini qəbul etmədilər. 1988-ci ilin payızında yüz minlərlə azərbaycanlıların, Azərbaycan türklərinin iştirakı ilə Bakıda Azadlıq meydanında (keçmiş Lenin meydanı) keçirlən mitinqlərdə əvvəlcə ermənilərin Dağlıq Qarabağla bağlı iddialarına etiraz edən xalq yavaş yavaş müstəqillik tələbləri ilə çıxış etmişlər. (7, 11-15).

Sovetlər Birliyi dağıldıqdan sonra Azərbaycan Respublikası torpaqlarının bir qismini, o cümlədən Dağlıq Qarabağ bölgəsini işğal edən

Ermənistan-Rusiya hərbi birləşmələri burada qondarma separatçı bir rejim də yaratmışdılar. Xüsusilə də, XX əsrdə Azərbaycan xalqıyla Ermənistan xalqı arasında baş verən münaqişılər, o cümlədən 1905-1906-cı illlər erməni-müsəlman münaqişəsi, 30-31 mart Azərbaycan türklərinin soyqırımı, 1920-ci illər Zəngəzurun Ermənistana verilməsi və DQMV-nin yaradılması, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli torpaqlarından deportasiyası, 26 fevral Xocalı soyqırımı, 1988-1994-cü illər arasında Dağlıq Qarabağın və onun ətrafındakı digər 7 rayonun işğal olunması Qarabağ münaqişəsinin həlli yolunda yeni bir müharibəni qaçılmaz edirdi. Beləliklə, 2020-ci ilin payızında baş verən Vətən müharibəsi nəticəsində Azərbaycan ordusu işğal altında olan 7 rayonunu, o cümlədən Dağlıq Qarabağ bölgəsinin bir hissəsini işğaldan azad etməyi bacarmışdır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


**1.** Nadir Şah Əfşar: diplomatik yazışmalar. Bakı, “Şərq-Qərb nəşriyyat Evi”, 2015

**2.** Ələkbərli F.Q. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq.  Bakı, “Xan” nəşriyyatı, 2017

**3.** Azərbaycan tarixi. Yeddi cilddə,  IV cild. Bakı: Elm, 2008.

**4.** Məmmədov İsmayıl. Azərbaycan tarixi. Dərslik, Bakı, Adiloğlu Nəşriyyatı, 2005

5. Azərbaycan tarixi. Yeddi cilddə,  V cild. Bakı: Elm, 2008.

**6.** Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı, 2011

**7.** Yaqublu Nəsiman. Azərbaycan Milli Azadlıq Hərəkatı Ensiklopediyası, Bakı, Qanun nəşriyyatı, 2018

**Əlişanova Aynur Arif qızı**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**

# QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİNDƏ BEYNƏLXALQ TƏŞKİLATLARIN MÖVQEYİ

**Azərbaycan dilində:** *Dağlıq Qarabağ, BMT, ATƏT, İƏT, II Qarabağ müharibəsi.*

**İngilis dilində:** *Nagorno-Karabakh, the UN, the OIC, the OSCE, the Second Karabakh War.*

***Rus dilində:*** *Нагорный Карабах, ООН, OIC, ОБСЕ, Вторая Карабахская война.*

XX əsrin sonlarında keçmiş SSRİ ərazisində meydana gələn münaqişələrdən biri də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Azərbaycan Respublikası həyata keçirdiyi aktiv və uğurlu xarici siyasət nəticəsində beynəlxalq təşkilatlar tərəfindən Ermənistanın irəli sürdüyü iddiaları inkar edən və Azərbaycanı dəstəkləyən qərarların qəbul edilməsinə nail olmuşdur. Buna baxmayaraq, beynəlxalq təşkilatların Dağlıq Qarabağ probleminin həllində və işğalçı ölkəyə – Ermənistana qarşı qəti addımların atılmasında passiv mövqe nümayiş etdirmişdir.

Azərbaycanın Dağlıq Qarabağ problemi ilə bağlı müraciət etdiyi ilk təşkilat BMT olmuşdur. Bundan başqa, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınmasında, regionda müharibəyə son

qoyulmasında maraqlı beynəlxalq təşkilatlardan biri də Avropa İttifaqıdır. Aİ-nin Dağlıq Qarabağ məsələsindəki rəsmi prioritetləri ilk olaraq silahlı münaqişənin qarşısını almaq, ikinci olaraq müharibə fikrini ortadan qaldırmaq və son olaraq müzakirələrin davamlı olmasını təmin etməkdir.

Avropa Şurası da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini diqqət mərkəzində saxlamaqdadır. Təşkilat da 1992-1993-cü illərdə qəbul etdiyi bəyanatlarda Qarabağdakı qarşıdurmalardan və mülki əhaliyə qarşı baş verənlərdən narahat olduğunu, sərhədlərin zorla dəyişdirilməsinin mümkün olmayacağını, işğal edilmiş ərazilərdən işğalçı qüvvələrin çıxardılmasını, Azərbaycanın ərazi bütövlüyünə hörmət edilməsinin, münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində həllinin zəruriliyini bildirir, məcburi köçkünlərin sayının artmasının və bütövlükdə münaqişənin bütün regionun təhlükəsizliyi üçün təhdid ünsürü olduğunu bildirirdi.

Avropa Şurası Parlament Assambleyasının 25 yanvar 2005-ci il tarixində qəbul edilmiş "Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə dair" 1416 saylı qərarı da vardır. Bu qərarın da sanksiya gücü yoxdur və problemin həlli üçün qəti bir fəaliyyət planı təqdim etmir. Qərarın qəbulunda məqsəd sadəcə Azərbaycan ictimaiyyətini təsəlli etməkdir.

Dağlıq Qarabağ probleminin həlli istiqamətində adı tez-tez hallanan təşkilatlardan biri də Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsidir (indiki ATƏT). 1992-ci ilin martında Dağlıq Qarabağa dair sülh konfransının çağırılması ilə bağlı qərar qəbul edildi və Minsk Qrupu yaradıldı. 1997-ci ilin ikinci yarısından sonra Minsk Qrupunun həmsədrləri Dağlıq Qarabağın ətrafında işğal edilmiş rayonların

Azərbaycana verilməsi ilə bağlı üç təklif irəli sürdülər. Bunlar mərhələli həll, paket həll və ümumi dövlət prinsipi idi. Lakin bu təkliflər qəbul edilmədi.

Sonuncu, yəni Yenilənmiş Madrid prinsiplərində aşağıdakılar qeyd olunurdu:

– Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş ərazilərin Azərbaycana qaytarılması;

– Dağlıq Qarabağa təhlükəsizlik və özünüidarəetmə hüququnu təmin etmək üçün müvəqqəti statusun verilməsi;

– Dağlıq Qarabağ ilə Ermənistanı birləşdirən dəhliz məsələsinin həlli;

– İradənin hüquqi yolla ifadə edilməsi ilə gələcəkdə Dağlıq Qarabağın yekun hüquqi statusunun müəyyənləşdirilməsi;

– Bütün məcburi köçkünlərin və qaçqınların öz yaşayış yerlərinə qaytarılması;

– Sülh əməliyyatları da daxil olmaqla beynəlxalq təhlükəsizliyin təminatı [1, s. 258-260].

2009-cu ildə Yenilənmiş Madrid prinsiplərinin dərcindən sonra Azərbaycan ərazi bütövlüyü, Ermənistan isə öz müqəddəratını təyin etmə ilə bağlı qərarın üzərində dayanmış və problemin həllində heç bir irəliləyiş qeyd edilməmişdir. Həmsədrlər problemin həlli mexanizmasından çox tərəflər arasında gərginliyin azaldılması üçün bölgəni mütəmadi olaraq ziyarət etməklə "problemin idarəsinə" daha maraqlı görünürlər, lakin prosesi irəliyə aparacaq qərarlılıqdan uzaqdırlar.

Dağlıq Qarabağ münaqişəsinə ən ədalətli mövqeyi İslam Əməkdaşlıq Təşkilatının sərgiləmişdi desək, yanılmarıq. Təşkilat Ermənistanın təcavüzkar bir dövlət kimi Azərbaycan ərazilərini işğal etdiyini qəbul edən ilk və yeganə beynəlxalq qurum olmuşdur. İƏT Qarabağ məsələsini müntəzəm olaraq öz gündəmində tutmuş, bütün zirvə toplantılarında bu problemlə bağlı olaraq beynəlxalq hüquq normalarının tətbiq edilməsini istəyən bəyanatlar qəbul etmişdir. Bu bəyanatlarda Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi qınanmış, yaşanan qarşıdurmalar və işğallar nəticəsində yüz minlərlə azərbaycanlının öz torpaqlarından didərgin salınmasının ən ağır insan hüququ pozuntusu olduğuna diqqət çəkmişdir. Ermənistanın mövqeyinin və davranışlarının regional sülh üçün təhlükə kəsb etdiyini və Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən təcili olaraq çıxarılmasının zəruri olduğunu vurğulamışdır [2, s. 106]. İƏT II Qarabağ müharibəsində də Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda haqq işini dəstəkləmişdi.

Cənab Prezident İlham Əliyev 2020-ci il martın 4-də İqtisadi Əməkdaşlıq Təşkilatının onlayn Zirvə toplantısında çıxış edərək Azərbaycanın İƏT-ə üzv dövlətlərlə münasibətlərinə böyük əhəmiyyət verdiyini vurğulamış, müharibə dövründə ölkəmizə dəstək verən dövlətlərə təşəkkürünü bildirmişdir: “Müharibə başlayan kimi bizi dəstəkləyən ilk ölkə qardaş Türkiyə oldu. Əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın açıqlamalarını və onun siyasi və mənəvi dəstəyini yüksək qiymətləndiririk. Ötən il sentyabrın 27-də və 28-də – müharibənin birinci və ikinci günü qardaş Pakistan və Əfqanıstan Ermənistanı işğala son qoymağa, BMT Təhlükəsizlik Şurasının müvafiq

qətnamələrini icra etməyə çağırmış və Azərbaycanın ərazi bütövlüyünə öz dəstəklərini ifadə etmişlər. Mən bizi dəstəklədiklərinə görə onlara dərin təşəkkürümü bildirirəm. Eyni zamanda, müharibə dövründə bizi dəstəkləyən ölkələrin dövlət və hökumət başçılarına da təşəkkür edirəm"[3].

Qeyd edək ki, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq təşkilatların mövqeyi mövcud problemin həll prosesinə ciddi təsir göstərməmişdir. Belə olan təqdirdə regionda müharibə təhlükəsi yenidən alovlanmışdır. Belə ki, Ermənistan Azərbaycana qarşı yeni torpaq iddialarını, təcavüzkarlıq siyasətini davam etdirmişdir. Beynəlxalq təşkilatların hüquqi prinsiplərlə həll mexanizminə məhəl qoymayan Ermənistan 2020-ci ildə Tovuz istiqamətindən Azərbaycan torpaqlarına qarşı yeni hücum, yeni işğalçılıq niyyətini həyata keçirmək istəmişdir. Lakin Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli, uğurlu cavab tədbirləri ilə qüdrətli Azərbaycan ordusu öz torpaqlarını yeni işğal niyyətindən qorumuş, eyni zamanda işğal altında olan torpaqlarını da Erməni təcavüzkarlarından xilas etmişdir. Bununla da Azərbaycan dövləti Dağlıq Qarabağ probleminin həlli ilə bağlı Beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələri icra etmiş, işğalçı Ermənistan ordusunu öz əzəli torpaqlarından çıxarmışdır. Beləliklə, beynəlxalq təşkilatların hüquqi bazası əsasında II Qarabağ müharibəsi böyük zəfərlə başa çatmışdır.

**Ədəbiyyat:**

1. Qarabağ 99 sualda / B.M.Dədəyev, C.Mahmudlu, Ş.Əbilov. Bakı: CBS Polygraphic Production, 2014, 368 s.

2. Khalilov, Anar (2008). Avrupa İnsan Hakları Sözleşmesi Işığında Karabağ Sorunu. Dokuz Eylül Üniversitesi. Sosyal Bilimler Enstitüsü, 2008.

3. https://president.az/articles/50795 - [Elektron resurs] – Cənab Prezident İlham Əliyevin İƏT-in onlayn Zirvə toplantısında çıxışı.

**Алиев Аббас Али оглу**

**Азербайджанского университета языков**

# РОЛЬ ЭНЕРГЕТИЧЕСКИХ РЕСУРСОВ В ВОССТАНОВЛЕНИИ ОСВОБОЖДЁННЫХ ТЕРРИТОРИЙ

**Ключевые слова: Энергетическая безопасность, Возобновляемые энергоресурсы, Золото.**

Энергетическая безопасность является одной из концептуальных составляющих основ безопасности страны. Обеспечения энергетической безопасности в наши дни определяет во многом политическое и социально-экономическое развитие всех без исключения стран.

Обеспечение энергетической безопасности на всей территории страны – одна из обязательных функций государства, и её реализация является необходимым условием стабильности и эффективности развития, как одного отдельно взятого государства, так и отдельных регионов.

Актуализация обеспечения энергетической безопасности обусловлена освобождением территорий от армянской оккупации, в ходе которой была разрушена почти вся инфраструктура региона. Почти 30 лет территория Карабаха была отрезана от энерго сетей Азербайджана. Создание генерирующих мощностей является одним

из первоочередных пунктов программы социально-экономического развития регионов.

Большую роль в скорейшем восстановлении освобождением территорий играет обилие возобновляемых источников энергии в регионе.

Согласно оценкам экспертов, общий потенциал производства солнечной энергии в Кяльбаджарском, Физулинском, Лачинском, Зангиланском, Джебраильском районах оценивается более чем в 7200 мегаватт на площади более 14,4 тысячи гектаров на восьми различных территориях. Но если говорить о реальном потенциале солнечных электростанций, то он составит порядка 4000 мегаватт с учетом использования части этих земель как сельхозугодий.

Выработка ветряной электроэнергии в горных областях освобожденных территорий составляет согласно расчетам более 500 мегаватт. Большие перспективы и в выработке электроэнергии за счет использования рек, находящихся на территории Карабаха. [1]

В рекордные сроки были восстановлены ГЭС Суговушан-1" и "Суговушан-2" общей мощностью 7,8 мегаватта. [2]

В ходе армянской окупации только в Лачинском районе было уничтожено 5 гидроэлектростанций в Кельбаджарском районе 12 ГЭС. Малая 8 МВт ГЭС в селе Гюлябирд Лачинского района уже введена в экплуатацию

Таким образом, генерирующая мощность восстановленных станций только в Кельбаджарском и Лачинском районах составит 120 МВт. 3]

В ближайшее время будут построены гидроэлектростанции «Худаферин» и «Гыз Галасы» общей мощностью 200 МВт и 80 МВт, соответственно. В результате на них будет вырабатывается 716 млн кВт/час электроэнергии в год»

Освобождённых территории также богаты на минеральные ресурсы в частности 155 месторождений различных видов полезных ископаемых, из которых 6 месторождений - золотоносных, 5 - ртутных, 2 - цинковых, 2 - медных, а также месторождения полиметаллов, минеральных вод. Касательно одних только золотоносных месторождений, по предварительным оценкам их запасы составляют около 132,4 тонн, что на рынке оценивается в $8 млрд» [4]

Добывающая и перерабатывающая промышленности одни из основных потребителей электро энергии и благодаря наличию в регионе большого количества источников возобновляемой энергии производящих дешёвую и экологически чистую энергию то затраты на производство будут заметно ниже нежели чем при использование углеводородных источников энергии которые в вдобавок загрязняли бы окружающую среду региона.

Вторым потребителем электро энергии является сельское хозяйство а также большое количество энергии понадобится для функционирования проектам типа умное село и умный город.

Резюмируя приведенные факторы, можно сделать вывод, что первостепенной задачей в данном регионе является развитие

альтернативной энергетики которая станет основой для остальных отраслей.

1 https://zerkalo.az/stavka-na-prirodu-karabah-imeet-bolshoj-potentsial-dlya-razvitiya-alternativnoj-energetiki/
2 https://news.day.az/economy/1306198.html
3 http://interfax.az/view/826977
4 http://interfax.az/view/817679

Əliyev Bəhmən Fazil oğlu
Azərbaycan Dillər Universiteti

# Azərbaycanın ordu quruculuğunda yeni mərhələ

**Açar sözlər:** Azərbaycan ordusu, hərbi islahatlar, xüsusi təyinatlı, pilot hazırlanması, hərbi əməkdaşlıq

**Ключевые слова:** азербайджанская армия, военные реформы, специальное назначение, подготовка летчиков, военное сотрудничество.

**Keywords:** Azerbaijani army, military reforms, special group, pilot training, military cooperation

İkinci Qarabağ müharibəsindən sonrakı dövr regionda, Azərbaycan Respublikasının həyatında siyasi, iqtisadi, sosial, hərbi dəyişikliklərlə müşayiət olunur. Bura həyata keçirilən və həyata keçirilməkdə olan bir sıra addımları aid etmək mümkündür: 44 günlük müharibə nəticəsində əldə olunan qələbənin siyasi, diplomatik və informativ baxımdan möhkəmləndirlməsi, müharibə zamanı dəyən ziyanın aradan qaldırılması, şəhid ailələrinin və qazilərin problemlərinin həlli, işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinin başlanması və s.

Hazırda Azərbaycan Respublikasının qarşısında duran ən mühüm məsələ hərbi-milli təhlükəsizliyin təmin olunması, işğaldan azad olunmuş ərazilərdə hərbi baxımdan möhkəmlənmə, sərhədlərin təhlükəsizliyini təmin etməkdir. Azərbaycan Resbublikasının Prezidenti, Silahlı

Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 44 günlük müharibədə qazanılan qələbə işğalçı Ermənistan ordusunu tamamilə sıradan çıxarmışdır [1]. "İkinci Qarabağ müharibəsində Azərbaycanın hərbi potensialı minimum itki ilə maksimum nəticəyə qələbəyə nail olmağa imkan verdi. Əgər ənənəvi müharibələrdə, hücum edən tərəf 3 dəfə çox qüvvə səfərbər edirdisə, bu müharibədə Azərbaycan ordusunun şəxsi heyəti 1:1 nisbətində, bəzən hətta sayca çox olan düşmənin müqavimətini qıraraq dərinliyə irəliləməyə müvəffəq oldu…Vaşinqton Post qəzetində yazılır: "Qarabağ müharibəsi kiçik və nisbətən ucuz hücum dronları hesabına quru döyüşlərinin və hava gücünün dominantlıq etdiyi ənənəvi müharibələrin xarakterinin dəyişdiyini göstərən ən yaxşı nümunədir" [ 2, s.10].

Müharibə günlərində, eləcə də müharibədən keçən dövrdə Ermənistanın müxtəlif təxribatçı yollarla Rusiya Federasiyası başda olmaqla, KTMT-yə daxil olan müttəfiqlərini münaqişə tərəfi kimi cəlb etmək cəhdləri, 30 il səmərəsiz fəaliyyət göstərmiş ATƏT Minsk Qrupu həmsədrlərini proseslərə qoşmaq niyyətləri səngiməmişdir. Cənubi Qafqazda maraqları olan və bu regiona özünün tarixi "nüfuz bölgəsi" kimi baxan ölkələrin Ermənistanın revanşizm cəhdlərindən yararlanacağı gözləniləndir.

Müxtəlif səviyyəli və fərqli qaynaqlardan gələn təhdidlərin qarşısının alınması, işğaldan azad olunmuş ərazilərimizdə tikinti-quruculuq işinin görülməsi, bir milyondan çox məcburi köçkünün dogma yurda dönməsini təmin etmək üçün geniş spektrli siyasi, iqtisadi, sosial və hərbi addımların atılması zərurəti yaranmışdır.

Azərbaycan Ordusunun daha da gücləndirilməsi müasir dövrdə dövlətimizin qarşısında duran ən aktual və vacib məsələlərdəndir. Əgər tarixi inkişafa nəzər yetirsək, xüsusi şəkildə vurğulamaq lazımdır ki, ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimizdə geniş islahatlar aparılmış, Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü orduya çevrilmişdir.

Hazırda Azərbaycanda ordu quruculuğu yeni reallıqlar çərçivəsində baş tutur. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev müsahibələrinin birində Azərbaycan Ordusunu Türkiyə Ordusu modelində yenidən təşkil ediləcəyini bəyan etmişdir. Bu, Azərbaycan Ordusunu Türkiyə Ordusu modelinə uyğunlaşdırmaq ordu quruculuğunda NATO modelinin tətbiqini nəzərdə tutur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: “Bundan sonra da ordumuza nə qədər vəsait lazımdırsa, o qədər də ayrılacaqdır. Heç bir məhdudiyyət olmayacaq. Hərbi gücümüz eyni zamanda, torpaqlarımızın azad olunmasında və ərazi bütövlüyümüzün bərpasında öz rolunu oynayır və oynayacaq” [1]. Onu da qeyd edək ki, gələn il Azərbaycanın müdafiə və təhlükəsizlik xərcləri artaraq 4 milyard 499 milyon 238,9 min manat olacaq [3]. Hazırda Azərbaycan Rusiyadan xeyli miqdarda silah-sursat alır, eləcə də Ukrayna, Belorus, Türkiyə, İsrail və s. ölkələrlə hərbi texnika, silah-sursat sahəsində əməkdaşlıq edir və bu əməkdaşlıq davam etməkdədir.

Ordu quruculuğunda özünü göstərən yeni reallıq isə aşağıdakı kimi ümumiləşdirmək mümkündür: Azərbaycanda ordu quruculuğunda

"müttəfiq və qardaş ordular" prinsipi həyata keçirilir, Azərbaycan-Türkiyə-Pakistan orduları arasında əməkdaşlığın yeni mərhələsi başlamışdır.

Hazırda Azərbaycan və Türkiyə arasında siyasi əlaqələr strateji müttəfiqlik səviyyəsinə yüksəlmişdir, "Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə", Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının (YSSƏŞ) yaradılması əlaqələrin daha da dərinləşməsinə gətirib çıxarmışdır. 2013-cü ildən başlayaraq Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında birgə hərbi təlimlərin keçirilməsi hər iki ölkənin ordularının döyüş qabiliyyətinin artırılması, təcrübə mübadiləsinin həyata keçirilməsi, müxtəlif qoşun növləri arasında qarşılıqlı fəaliyyətə nail olmaq baxımından böyük əhəmiyyət daşıyır. Cənubi Qafqaz ölkələri ilə, xüsusilə də Azərbaycanla hərbi əməkdaşlığın dərinləşdirilməsi NATO-nun aparıcı ölkələrindən olan Türkiyənin dövlət və milli maraqlarından irəli gəlir [4], [7]. Müasir dövrdə Azərbaycanda Ordu quruculuğunun əsasını müəyyənləşdirən ən mühüm sənəd isə "Azərbaycan və Türkiyə arasında müttəfiqlik haqqında Şuşa bəyannaməsi"dir.

Türkiyə Ordusunun hərbi rəhbərliyi ilə yanaşı, Pakistan hərbi rəhbərliyinin, hərbi nümayəndə heyətlərinin Azərbaycana səfərləri artmışdır, bu səfərlər qarşılıqlı xarakter almışdır. Bu sırada Pakistan İslam Respublikasının Hərbi Hava Qüvvələrinin (HHQ) Aviasiya vitse-marşalı Tariq Ziyanın, Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı ordu generalı Qamar Caved Bacvanın rəhbərlik etdiyi nümayəndə heyətlərinin səfərləri xüsusi qeyd etmək lazımdır [5]. Səfərlər zamanı xüsusi təyinatlı dağ komandolarının, hərbi pilotların hazırlanması məsələləri müzakirə olunmuş, əməkdaşlığın inkişaf perspektivlərinin

müzakirəsi zamanı dağ təlimi mərkəzlərinin birgə istifadəsi və dağ-təlim heyətinin hazırlanması, birgə təlimlərin keçirilməsi barədə razılıq əldə olunmuşdur. Çox ehtimal ki, yaxın gələcəkdə Azərbaycan və Pakistan arasında hərbi sahədə əməkdaşlıq yeni mərhələyə çıxarılacaq və müvafiq müqavilələr imzalanacaq.

Geniş təhlil aparmaqla belə nəticəyə gəlmək olar ki, Azərbaycan, Pakistan və Türkiyə hərbi əməkdaşlığının genişlənməsi ordu quruculuğuna müsbət təsir göstərməklə yanaşı, bölgədə yeni siyasi-iqtisadi-hərbi güc mənbəyi yaratmaqdadır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Azərbaycan Prezidenti İlham Əliyev: Bu tarixi hadisədir, Azərbaycan tarixində buna oxşar parlaq qələbə olmayıb. “Azərbaycan Ordusu”, 27 fevral 2021-ci il
2. Piriyev H., Tahirov R., İskəndərov X. Müharibənin bitmə müddəti və sülh şərtləri (İkinci Qarabağ müharibəsinin nümunəsində), “Hərbi Bilik”jurnalı, №4, 2020-ci il, s.5-13
3. Azərbaycanın yeni hərbi büdcəsi açıqlandı 20:30 / 08 Sentyabr 2021 https:// www.bakupost.az/azerbaycanin-yeni-herbi-budcesi-aciqlandi
4. Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin Milli Müdafiə Nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. “Azərbaycan Ordusu”, 3 yanvar 2021-ci il

5. Azərbaycan və Pakistan arasında hərbi əməkdaşlığın istiqamətləri müzakirə olunub. "Azərbaycan Ordusu", 6 mart 2021-ci il

6. İskəndərov X. İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsini şərtləndirən faktorlar: [Elektron resurs] / AZƏRTAC, Bakı, 04 dekabr, 2020. URL: https://bit.ly/2ImSjUL.

Əliyeva Flora Ayaz qızı
Azərbaycan Dillər Universiteti

# УСПЕШНАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В ОТЕЧЕСТВЕННОЙ ВОЙНЕ

**Açar sözlər:** Azərbaycan, zəfər, Vətən müharibəsi, silah, Ermənistan.

**Keywords:** Azerbaijan, victory, Patriotic war, weapon, Armenia.

**Ключевые слова:** Азербайджан, победа, Отечественная война, оружие, Армения.

В своих выступлениях Президент Ильхам Алиев неоднократно заявлял, что победа Азербайджана в Отечественной войне была достигнута не только с использованием современного оружия и военной подготовки, но и с боевым духом и решимостью солдат и офицеров страны. Эксперты говорят, что официальный Баку в последние годы увеличил расходы на оборону, причем во много раз больше, чем в Армении [1].

Эту победу следует рассматривать как формулу успеха, достигнутого методами, которые можно рассматривать как боевое искусство. Применение мощного оружия в наше время, определяющее судьбу войн, подорвало военные возможности врага. По оценкам военных экспертов, в 2020 году в Азербайджане успешно прошли испытания беспилотный летательный аппарат «Байрактар»

под турецким флагом, беспилотные летательные аппараты израильского производства, российское огнестрельное оружие, несколько авиационных ракетных комплексов С-300.

По данным Стокгольмского института, Армения утроила свой военный импорт в 2014-2019 годах и закупила большое количество систем типа СМЕРЧ, противотанкового оружия, ракетно-авиационных комплексов, но все армянские шаги не были успешными и страна проиграла в частном бою. Начало широкомасштабных боевых действий разрушили оборону противника. Кроме того, в качестве основных причин трагического поражения следует указать внутренний кризис в Армении, раскол между солдатом и офицером, экономические проблемы государства [5].

По мнению аналитиков, стоимость военной техники, уничтоженной азербайджанской армией в ходе 44-дневной войны, оценивается в 3,8 миллиарда долларов, а в 2020 году военные расходы Армении оцениваются в 726 миллионов долларов. В связи с этим, с учетом существующего военного бюджета Армении, ожидается, что на восстановление военной инфраструктуры до прежнего состояния потребуется около 38 лет. Стоимость уничтоженной и разграбленной противником военной техники как минимум вдвое превышает государственный бюджет Армении. В арсенале оккупационной армии ничего не осталось [2].

Стоит отметить, что экономическая мощь Азербайджанской Республики приблизила факт победы. Несомненно, экономическая власть определяет политическую независимость. Эта независимость, как до войны, так и во время продолжающихся боевых действий сыграла важную роль.

Помимо вопроса статуса Карабаха, у Армении осталась одна мечта. Речь идет о Лачинском коридоре. Эти территории всегда были инструментами на всех переговорах и всегда тщательно обсуждались. Согласно трехстороннему заявлению и решительной позиции азербайджанской стороны, этот план армян не осуществился, и коридор в настоящее время находится под контролем миротворцев [3].

Ни одному региону оккупационная политика не приносит счастья и благополучия. Война сузила объем крупномасштабных инвестиций и снизила доверие к региону. В то же время многолетний конфликт, так или иначе омрачал отношения с соседями. Благодаря авторитету нашего президента, строительство нового подъездного коридора, соединяющего Нахичевань и братскую Турцию, имеет чрезвычайно важное значение [4]. Новый коридор считается важным фактором доступа в страны Центральной Азии. Отметим, что торгово-экономические ожидания высоки. Социально-экономический потенциал Нахичеваня в треугольнике Азербайджана, Турции и Центральной Азии будет усилен. Эти нюансы очень важны в мире дипломатии и экономического кризиса.

**Литература:**

1. Публицистические размышления: Сорок четыре мгновения солнечной осени, https://azertag.az/ru/xeber/Publicisticheskie_razmyshleniya_Sorok_chetyre_mgnoveniya_solnechnoi_oseni-1656845

2. Cumhurbaşkanı İlham Aliyev'in halka çağrısı - SHUSHA serbest bırakıldı! // https://www. youtube.com/ watch?v= XcinA1fxplc

3. İki Ermeni Su-25 uçağı imha edildi, https://oxu.az/war/435759

4. PKK’s Involvement in the Armenia-Azerbaijan Conflict would Jeopardise European Security https://www.eupoliticalreport.eu/pkks-involvement-in-the-armenia-azerbaijan-conflict-would-jeopardise-european-security/

5. Prosecutor General's Office: As a result of Armenian provocations, 24 civilians killed and 121 injured https://apa.az/en/xeber/frontline-news/Prosecutor-General%27s-Office:-As-a-result-of-Armenian-provocation-14-civilians-were-killed-and-46-were-injured-331667

Ülviyyə Çingiz qızı Əliyeva
Azərbaycan Dillər Universiteti

## Milli birlik və şanlı qələbə

Açar sözlər: Vətən savaşı, şəhidlik, qazilik

Key words: The Patriotic war, martyrdom, veteran

Ключевые слова: Отечественная война, мученичество, ветеран

44 günluk müharibə zamanı heyrətamiz hadisələrin şahidi olduq. Baxmayaraq müharibə taleləri sındırır, qələbəyə gedən yol isə candan ,qandan keçir. Milyonlarla insanın sevinməsi üçün 2783 şəhid verməliydik. Xarıbülbülü gürməyə və Şuşanı azad etməyə gedən 2783 igid ogul. Deyirdilər Qarabagı görməyən gənclərdə milli ruh olmayacaq, lakin tarix əksini göstərdi. Şəhidlər Azərbaycana Şəhadət məktəbi gətirdilər, Azərbaycan xalqının qürurunu, mənliyini özünə qaytardılar.Xalqımız şəhidlik və qazilik mərtəbəsini mənəviyyat mərtəbəsinə yüksəltdi. Kişilərin qəddi əyilmışdi, qalxdı artıq, kədərli təqvimlər qeyd edirdik, indi isə zəfər təqvimlərimizi qeyd edirik və edəcəyik. Qalib olmaq üçün bizə üç əsas amil lazım idi. Birinci xalqın birliyi, ikinci ordunun gücü, zəfər əzmi, üçüncü dövlət başçısının qətiyyəti, diplomatiyanın gücü. Azərbaycan xalqı həmrəylik modeli nümayiş etdirdi. Bütün bunlar səngərdə sınandı. Bizim birliyimiz əbədi birlik oldu. Bu birlik bizi ŞUŞA Qalasına kimi apardı.Ali baş komandan İlham Əliyevin dediyi kimi biz onları qovuruq və qovacağıq. Azərbaycanın qarşısında heç kim dura bilməz. Biz haqlıyıq, öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik, ermənilərin ərazisinə keçməmişik.Mənfur düşmən şərtlərimizi qəbul etməlidi.( 1 )

Müharibədə silahlar danışır. Bizim leksikonumuza kamikadze, dron, pilotsuz raket, Bayraqdar sözləri daxil olub, amma ən gözəl silah Azərbaycan xalqının iradəsi oldu. Biz hamımız eyni mövqedən çıxış etdik. Mərhum generalımız Polad Həşimov şəhid olanda 50 min insan küçələrə çıxıb “Ali baş komandan bizə silah ver, əmr ver!” şüarı səsləndirdi və o

hadisədən sonra QƏLƏBƏMİZ gəldi. Doğrudanda hər şeyin zamanı və qisməti var. Səbr və təmkin! Sentyabrın 27 dən başlayaraq zəfər yürüşlərindən sorakı azərbaycanlı ilə əvvəlki azərbaycanlını müqayisə etsək indi insanlar daha çox mehriban, xeyirxah, paxıllıq hissi itib hamı birləşib. Qalib insanla məğlub insan arasında çox fərq var. Dünyada çalışır ki, qalib insanlar yetişdirsin. Bir xalq özünün suverenliyini bərpa edirsə bütün dünya da ona hörmət edir. Dünya yeni bir Azərbaycan tanıdı. İstər siyasi , istər ordu quruculugu, istər informasiya müstəvisində prezident ilham Əliyevin necə bir diplomat oldugunu bir daha anladı.

Yazıçı Sehran Səxavət televiziya kanallarının birində gözəl bir ifadə işlətdi. Qarabağ haqqında ən böyük əsəri Ali Baş Komandan yazdı.İndi kim nə yazır yazsın artıq İlham Əliyevə nəzirə olacaq.

Biz ruh etibarilə yenidən doğulmuşuq və insanın gücü onun ruhundadı. Biz yenə ehtiyatlı olmalıyıq, elə bir nəsil yetişdirməliyik ki, ayıq sayıq olsunlar, necə bir məkrli düşmənlə üz-üzə olduğumuzu unutmamalıyıq, yaddaşımızı daim ayıq saxlamalıyıq. Elə etməliyik sülhə məcbur etmə daimi olsun! Müharıbə başqa sferada  siyasi, informasiya müstəvisində davam edir.Ali baş komandan İlham Əliyev dediyi kimi: Elbəttə heç kim bizə təsir edə bilməz. Sadəcə olaraq, bizim hərbiçilərimiz, vətəndaşlarımız bilsinlər ki, həm cəbhədə ,həm siyasi arenada cox ciddi mübarizə gedir. Biz döyüş meydanında qan tökürük, bu qəhrəmanlarımızın canı-qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik, eyni zamanda, siyasi səhnədə də müqavimət göstəririk, mərdlik göstəririk, öz mövqeyimizi müdafiə edirik.( 1)

Vətən müharibəsi hər seyi üzə çıxardı kim bizim dostumuzdu, kim bizim düşmənimiz. Ermənilərin yalanlarına uymuş bir sıra qurumlar, televiza kanalları ermənilərin Kəlbəcərdən çıxmasını faciə kimi təqdim etdilər. Lakin 28 il vətənindən didərgin düşən insanlardan heç danışan olmadı. Kəlbəcər 1992-ci ildə mühasirəyə alınıb, insanlara şəhəri tərk etməyə 10 saat vaxt verilib, coxu güllənib və əsir götürülüb. Ermənilər nəinki azərbaycanlılara nifrət edir onlar bizim torpaqlara da nifrət yağdırıb əkməyib, becərməyiblər, ekoloji terrora məruz qoyub, tərk edəndə bolluca minalar əkiblər.

Döyüşdən yeni çıxmış Şuşada musiqi festivalı Ramazan bayramı günlərinə təsadüf edirdi, bayram namazı məhz Şuşada qılındı. May ayının 12-13-də 44 günlük müharibənin mədəni sferada davamı "Xarıbülbül festivalı" keçirildi. Cıdır düzündən bütün dünyaya sülh mesajı verildı.Bu dəfə Azərbaycan dronlarla, bombalarla yox, musiqi ilə, atəşfəşanlıq ilə mesaj verdi ermənilərə. Multikultural mədəniyyətin ifadəsi olan "Xarıbülbül festivalı" erməni xalqına bir daha çatdırdı ki, barbarlıqdan əl çəkirsinizsə bu xalqlar arasında bərabər hüquqlu yaşayıb öz mədəniyyətinizi təqdim edə bilərsiz.

## Ədəbiyyat siyahısı

1. https://ikisahil.az>post>72760
2. https://prezident.az

Əliyeva Sevdagül Fazil qızı
Azərbaycan Dillər Universiteti

**Qarabağ münaqişəsinin Qarabağ xalçaçılıq sənəntinə təsiri**

**Açar sözlər:** Qarabağ xalçaları, Şuşa Xalça Muzeyi, Ağdam Xalçaçılıq İstehsalat Birliyi.

**Ключевые слова:** Карабахские ковры, Шушинский Музей Ковров, Агдамское Ковровое Производственное Объединение.

**Key words:** Karabakh carpets, Shusha carpet museum, Aghdam Carpet Production Association.

Xalçaçılıq Azərbaycan xalqının milli kimliyinin ifadəsi, maddi mədəniyyətinin kodudur. Zəngın təbii şərait və maddi nemətlərin bolluğu burada müxtəlif sənət sahələri kimi xalçaçılığın inkışafını təmin etmişdir.

Qarabağ qədimdən Azərbaycanın sənət və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Burada xalçaçılığın başlanğıcı e.ə. II minilliyə aiddir. VII əsrə aid “Alban tarixi”ndə və IX-X əsr ərəb mənbələrində Qarabağ xalçaçılığı haqqında məlumat vardır [6].

Əsrlər boyu Qarabağ xalçaçılıq məktəbinin özünəməxsus xüsusiyyətləri formalaşmış, xalçalarının 33 kompozisiyası yaranmışdır. Burada yerli yunun xüsisiyyətlərinə görə, xalçalar sıx, hündür və yumşaq xova malik olur. Bu xalçalar əsasən uzunsov, az hallarda kvadrat formada toxunurdu. Qarabağ xalçalarının ilmə hündürlüyü 6-10 millimetr, ilmə sıxlığı hər kvadratmetr

sahədə 90 mindən 160 minədək olur. Xalçalara toxunduğu yerə və ya üzərindəki bəzəyə görə adlar verilirdi. Qarabağ xalçaları 4 qrupa bölünür: medalyonlu, medalyonsuz, namazlıq və sujetli xalçalar [1].

Azərbaycanda qədimdə olduğu kimi, XX əsrdə də xalçaçılığın inkişafına həmişə ciddi fikir verilmişdir. Bütün xalçaçılıq məktəbləri kimi Qarabağ xalçaçılıq məktəbinin də inkişafına çalışılmışdır. 1939-cu ildə Ağdam xalça fabriki yaradılmış, 1980-ci ildən bu fabrik Ağdam Xalçaçılıq İstehsalat Birliyinə çevrilmişdi. Birliyin Şuşa, Bərdə, Xocalı və bir neçə kənddə flialları fəaliyyət göstərmişdir [5]. 1987-ci ildə Azərbaycan Xalça Muzeyinin Şuşa filialı yaradılmışdır. Mehmandarovların mülkündə fəaliyyət göstərən Xalça müzeyində 200-dən çox xalça, xalçaçılıq məmulatı, tikmə, zərgərlik məmulatı saxlanılırdı [7].

İşğal dövründə ermənilər Azərbaycanın mədəni irsini məhv etmək məqsədi ilə evlərdəki maddi mədəniyyət nümunələrini, eləcə də muzeylərdə saxlanılan eksponatları talan etmişlər. Qarət edilmiş muzeylərin ekspozisiyasına Azərbaycan xalqının tarixi və mədəniyyətinin qiymətli nümunələri, o cümlədən məşhur, tanınmış Qarabağ xalçaları daxil idi [5].

Erməni saxtakarları işğal olunmuş ərazilərdən qarət etdikləri digər əşyalar kimi minlərlə xalçamızı da özününküləşdirərək, xarici ölkələrə öz əsərləri kimi təqdim etmişlər. İşğal dövründə Şuşada təşkil olunan sərgidə Qarabağ xalçaları ermənilərə məxsus maddi mədəniyyət nümunəsi kimi nümayiş edilmişdir [3].

Erməni işğalı ərəfəsində, yalnız Azərbaycan Xalça Muzeyinin Şuşa filialı öz eksponatlarını tam xilas edə bilmişdir. Muzey əməkdaşlarının fədakarlığı nəticəsində XIX-XX əsrlərə aid olan 80 ədəd xovlu xalça, 35 ədəd xovsuz xalça

və xalça məmulatı, 29 ədəd bədii tikmə və geyim, 39 ədəd zərgərlik məmulatı xilas edilərək Bakıya gətirilmişdir [7].

İşğaldan sonar Qarabağ xalçaçılığında böhran dövrü başladı. Xalçalar və xalçaçılar öz dogma yerlərindən didərgin düşdü, xalça ustaları ölkənin müxtəlif yerlərinə səpələndi. 1993-cü ildə Ağdam Xalçaçılıq İstehsalat Birliyinin bütün fliallarının fəaliyyəti dayandırıldı. İşğal dövründə Azərbaycanın digər bölgələrində yerləşdirilən qarabağlı xalçaçı sənətkarlar tərəfindən bu sənətin sirlərinin qorunması və gənc nəslin nümayəndələrinə ötürülməsi sahəsində bir sıra işlər aparılmışdı. Sənətkarlar tərəfindən bir sıra məhşur xalça çeşniləri hazırlanıb xalça sexlərinə və peşə məktəbi tələbələrinə verilmişdir [1]. Bu dənizdə bir damla idi. Qarabağsız xalçaçılığın bu məktəbi süquta döğru gedirdi. Ona görə də Heydər Əliyev Fondunun böyük səyi nəticəsində Azərbaycan Respublikasında ənənəvi xalçaçılıq sənəti 15-19 noyabr 2010-cu il tarixində Keniyanın Nayrobi şəhərində keçirilən YUNESKO-nun Qeyri - maddi Mədəni İrs üzrə Hökümətlərarası Komitəsinin 5-ci Sessiyası çərçivəsində qəbul edilmiş qərara əsasən, YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilmişdir [2].

Azərbaycan Xalça Muzeyi dünya dövlətlərində hərraca çıxarılmış bir sıra xalçaları alıb ölkəyə gətirmişdi. Vətənpərvər şəxslər tərəfindən xarici bazarlara çıxarılmış xalçalar da satın alınaraq ölkəmizə qaytarılmışdır. Məsələn, “Bağçada güllər” adlanan, üzərində öz dilimizdə yazılar olan Qarabağ xalçası 2017-ci ildə ABŞ-da keçirilən hərracda “Antik erməni xalçası” kimi təqdim olunmuşdur. Azərbaycan vətəndaşı Elşad Tahirov bu xalçanı almış, ilk sahibini tapmadıqda 2017-ci ilin 5 mayında xalçanı Azərbaycan Milli Xalça Muzeyinə təhvil vermişdir. Azərbaycan Xalça Muzeyinin gördüyü işlər nəticəsində ABŞ-ın Şərq xalçası və tekstili üzrə Çikaqo Cəmiyyətinin üzvü, mərhum Qrover Şiltsin həyat

yoldaşı Beverli Şilts kolleksiyasında olan “Əjdahalı” (XVII əsr, Qarabağ xalçası) adlanan xalçanı muzeyə hədiyyə edib [8].

Xalça bizim kimliyimiz, tariximiz, arzularımız, həyat tərzimidir. Qarabağda inkişaf edən xalçaçılıq sənəti ərazinin ən qiymətli sərvətidir. Təxminən 30 il Qarabağ xalçaları və xalçaçıları köçkünlük həyatı keçirdi. Bu muddətdə doğma yurdunun həsrətini çəkən neçə xalça ustası dünyasını dəyişdi, sənətkarlar əvvəlki ənənəvi şux rəngli ecazkar xalçaları toxuya bilmədilər, bu sənətin sirlərini əvvəlki kimi gənc nəslin nümayəndələrinə ötürə bilmədilər. Xalçaçılar övladlarına cehizlik toxuduqları “ömür xalçasına” doğma torpaqlarının azad olması arzusunu və istəyini yazdılar [4]. Onların bu arzusu, nəhayət ki, yerinə yetdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Ordumuz torpaqlarımızı işğaldan azad etdi. Artıq Qarabağ xalçalarının doğma yurdda, yerlı xammal, yerli boyalarla boyanmış saplarla, yerli ustalar tərəfindən, əsrlərlə təkrarlanan , bir-birinə bənzəməyən, füsünkar naxışlarla toxunmasının vaxtı gəlib çatıb. Qarabağın ən ecazkar, ən sehrli irsi olan xalçalarının böhran dövrü yekunlaşıb.

Şuşada 2021-ci il avqustun 30-da keçirilən Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən “Qarabağ Azərbaycan mədəniyyətinin incisidir” və “Yenidən doğma diyarda. Qarabağın sənət inciləri” sərgiləri təşkil edildi, burada Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasına daxil olan Qarabağ xalça nümunələri, xovlu və xovsuz xalçalar, xalça məmulatları da nümayiş olundu. Nəhayət, Qarabağ xalçalarının doğma yurd həsrətinə son qoyuldu.

**Ədəbiyyat:**

1.Ağaməmmədov T. Qarabağ xalçaları - keçmişdən bu günə. https://azertag.az/xeber /Qarabag_xalchalari___kechmisden_bu_gune-905874

2.Azərbaycan Respublikasında ənənəvi xalçaçılıq sənəti. http://unesco.az/index.php?options =content&id=37

3.Ermənilər taladiqlari Qarabağ xalçalarini Şuşada muzeyə çixardi https://musavat.com/news/ ermeniler-taladiqlari-qarabag-xalcalarini-susada-muzeye-cixardi_109480.html

4.İsmayılova A. Qarabağı qaytardıq, növbə Qarabağ xalçalarınındır… https://modern.az /az/news/278521/qarabagi-qaytardiq-novbe-qarabag-xalcalarinindir

5.Nuriyev Ə. Qarabağ xalça sənətinin inkişafında Ağdam xalça müəssisələrinin rolu https://medeniyyet.az/page/news/49061/Qarabag-xalca-senetinin-inkisafinda-Agdam-xalca-muessiselerinin-rolu.html?lang=az

6.Sariyeva İ. Tarixi e.ə. II minilliyə gedib çıxan Qarabağ xalçaları - sehirli ilmələrimiz. http://www.anl.az/down/meqale/baki_xeber/2015/aprel/431364.htm

7.Tağıyeva R. Şuşa xalçaçılığı. http://bao.az/categories_Medeniyy%C9%99t/subcategories_ azerbaycan-medeniyyet/product_1804943918

8.Zahidqızı F., Qaragözov S. Qarabağ xalçaları yurduna qayıdış astanasında https://apa.az/az/apa-tv/xeber/reportaj/qarabag-xalcalari-yurduna-qayidis-astanasinda-reportaj-65678

Əsədov Namiq
Azərbaycan Dillər Universiteti

# Qafqaz regionunda yaranan yeni geosiyasi reallıqların İran üçün sosial-iqtisadi perspektivləri fonunda bu ölkənin qeyri konstruktiv mövqeyi.

**Açar sözlər:** Azərbaycan, İran, müharibə, kommunikasiya
**Keywords:** Azerbaijan, Iran, War, communication
**Ключевые слова:** Азербайджан, Иран, война, коммуникация

Uğurlu daxili və xarici siyasətimizin məntiqi nəticəsi olaraq, 44 günlük Vətən müharibəsi nəticəsində 30 illik işğala son qoyuldu və Azərbaycan əzəli torpaqlarını düşməndən geri aldı. Bu mücadilədə bizi dəstəkləyən dövlətlər oldu və həmin dövlətlərlə ölkəmiz arasında strateji əməkdaşlıq daha da möhkəmləndi. Bəzi dövlətlər isə ikili siyasət yeridərək, bir tərəfdən, sülh bəyanatları verir, digər tərəfdən, işğalçıya yardım edirdilər. Bu baxımdan qonşu İran İslam Respublikasının da siyasətini paradoksal hesab etmək olar. Vətən müharibəsinin ilk günlərində İran erməniпərəst mövqe sərgiləyərək düşmən ölkəyə yardımları davam etdirdi.

Münaqişə dövründə Azərbaycan və İran mətbuatı Rusiyaya məxsus silah-sursat və hərbi texnikanın İran üzərindən Ermənistana daşındığını bildirdi. Sentyabrın 29-da İran Xarici İşlər Nazirliyi bu iddiaları rədd etdi [6]. Ertəsi

gün Azərbaycan hökumətinə bağlı KİV-lər hərbi texnikanın İran üzərindən Ermənistana aparıldığını göstərən videogörüntülər paylaşdı [7]. Azərbaycanlı millət vəkili Sabir Rüstəmxanlı İranın müxtəlif ölkələrdən Ermənistana silah daşınması ilə məşğul olduğunu bildirdi [3]. İran Prezidentinin İşlər İdarəsinin rəisi Mahmud Vaezi, Azərbaycan baş nazirinin müavini Şahin Mustafayevlə telefon danışığında iddiaları rədd etdi və bu şayiələrin iki ölkə arasındaki münasibətləri pozmağa yönəldiyini bildirdi [4]. Əlavə olaraq, İran dövlətinə bağlı KİV-lər kadrlarda əks olunan yük maşınlarının Ermənistan hökumətinin daha əvvəl Rusiyadan aldığı Kamaz markalı yük maşınlarının olduğunu bildirdi [5].

İran hakimiyyəti sonradan regiondakı geosiyasi reallığı dərk edərək, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatlar verməyə başladı və hətta noyabr ayının 4-də Qarabağın tarixi müsəlman (nədənsə Azərbaycan yox) ərazisi olduğunu bildirdi.

İran 44 günlük Vətən Müharibəsinin əvvəlki toqquşmalardan keyfiyyətcə fərqli olduğunu hərbi əməliyyatların başlanmasından dörd gün sonra anlaya bildi. Hərbi əməliyyatların dördüncü günü, bu dəfəki döyüşlərin həmişəki sonluqla yekunlaşmayacağını anlayan Tehran, diplomatik ritorikasını bitərəflik və tərəflər arasında vasitəçilikdən Azərbaycanın tərəfində olduğunu vurğulamağa doğru dəyişdi.

İranın açıqlamaları, tərəfləri "atəşkəsə" dəvətdən "Azərbaycanın torpaqlarını erməni nəzarətindən geri almasını" dəstəkləməyə çevrildi.

Ritorikasının dəyişməsinə baxmayaraq, Tehranın "ermənipərəst mövqe"dən daha açıq şəkildə "Azərbaycan tərəfdarı" mövqeyinə keçdiyini söyləmək səhv olardı. Bunu son günlərdə İrandan Ermənistana daşınan

yüklərin artması və Azərbaycan-Türkiyə-Pakistan birgə hərbi təlimlərinə cavab olaraq, Azərbaycan-İran sərhədləri yaxınlığında İranın hərbi təlimlərə başlaması da aşkar şəkildə göstərir.

Təəssüf ki, İran tərəfi yeni geosiyasi reallığın əslində İran üçün nə qədər faydalı ola biləcətini sanki dərk etmək istəmir.

Belə ki, 10 noyabr bəyanatında əks olunan məsəslələrdən biri də bütün regional kommunikasiyaların açılması məsələsidir. Razılaşmaya əsasən, Azərbaycan quru yolu ilə Naxçıvan eksklavı ilə, oradan da Türkiyə ilə əlaqə quracaq, ermənilər isə Qarabağda yaşayan erməni əsilli Azərbaycan vətəndaşları ilə əlaqə saxlamaq üçün Laçın dəhlizindən istifadə edə biləcəklər. Bəyanatda İranın adı çəkilməsə də, kommunikasiyaların açılması və Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi faktiki olaraq İran üçün də geniş iqtisadi imkanlar yaradır.

Birincisi, Azərbaycanın işğal altında olan əraziləri geri qaytarmaqla Araz çayı boyu İranla olan sərhəd xəttini tam bərpa etməsi nəticəsində bu ərazidə olan körpülər, su anbarları və hidroelektrik və suvarma qurğuları və s. infrastruktur bölmələri İranın istifadəsi üçün də açıq ola bilər. Buna misal olaraq, İran və Azərbaycan artıq Cəbrayıl rayonunda, sərhəd xətti olan Araz çayı üzərindəki Xudafərin bəndindən qarşılıqlı şəkildə istifadə etməyə başlaya bilərlər. Bu bənd 2008-ci ildə Tehranın maliyyə dəstəyi ilə tikilmişdi, lakin o dövrün siyasi reallıqları İslam Respublikasının bu qurğunu istismar etməsinə maneə törədirdi. Bununla birlikdə, 14 dekabr 2020-ci il tarixdə, Xudafərin Anbarı üzrə Birgə Texniki Komissiyanın İran və Azərbaycan nümayəndələri Naxçıvanda hidroelektrik stansiyanın qarşılıqlı fəaliyyətini müzakirə etmək üçün toplantı keçirdilər. Yəqin ki,

İranın investisiyaları bu sərhəd bölgələri ilə məhdudlaşmayacaq, belə ki, İlham Əliyev xarici işlər naziri Cavad Zəriflə 25 yanvar tarixli görüşündə İran şirkətlərini geriqaytarılmış ərazilərdəki rekonstruksiya işlərinə qoşulmağa dəvət etmişdi.

İkincisi, Ermənistan və Azərbaycan arasında trans-regional nəqliyyat marşrutlarının açılması, adı çəkilən iki ölkənin hüdudlarından kənara çıxır. Bu marşrutların açılması İranı da əhatə edən Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin yaradılmasına, eləcə də İranla Ermənistan arasında (Naxçıvan ərazisindən) dəmir yolu xəttinin çəkilməsinə imkan verir. Bu baxımdan İran, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “6 ölkənin regional əməkdaşlıq platforması” təşəbbüsünün əsas tərəfdaşı kimi qəbul edilə bilər. İranla Türkiyə arasındakı strateji rəqabət səbəbindən İran əvvəlcə bu təşəbbüsə soyuq yanaşmışdı, lakin diplomatik səviyyədə cərəyan edən son hadisələr önəmli dəyişikliyə səbəb oldu - xüsusən İran və Türkiyə XİN rəhbərləri arasındakı 2021-ci ilin yanvar ayında baş tutan görüşdə 6 ölkənin regional əməkdaşlıq platformasi müzakirə edildi [1].

Üçüncüsü, yeni kommunikasiyaların açılması beynəlxalq sanksiyalardan və təcridçilikdən əziyyət çəkən İran üçün geniş iqtisadi imkanlar da yarada bilər.

İran dövləti dərk etməlidir ki, regionda davamlı sülh əldə olunarsa və Azərbaycanla-Ermənistan arasında normal və ya heç olmasa sabit münasibətlər qurularsa, bu, Tehranın da maraqlarına cavab verəcək. Bunun üçün də İran Ermənistana rəsmi və qeyri-rəsmi dəstəkdən əl çəkməli, obyektiv siyasət yürüdərək, Azərbaycanla siyasi və iqtisadi əlaqələrin inkişafına maraq göstərməlidir, çünki ən yüksək hərbi

texnologiyaya və NATO-nun ikinci ən qüdrətli ordusuna malik Türkiyə və nüvə dövləti olan Pakistanla strateji səviyyədə əməkdaşlıq edən və dünyanın ən dinamik ordularından birinə sahib olan Azərbaycanla keçən əsrin 90-cı illərinin zəif və köməksiz Azərbaycanı kimi davranmaq heç bir dövlət üçün yaxşı heç nə vəd etmir [2].

**Ədəbiyyat siyahısı**

1. Məmmədli R. İran ikinci Qarabağ müharibəsində məğlubdurmu? / https://oc-media.org/

2. https://axar.az/news/gundem/586239.html

3. Military supplies for Armenia being shipped through Iran – Photos and Videos. / azernews.az.

4. Military supplies for Armenia being shipped through Iran (PHOTO/VIDEO). / trend.az.

5. Opening Azerbaijani Embassy to Israel suggested in Azerbaijani Parliament. / apa.az.

6. Spokesman Denies Claim That Arms Transferred via Iran to Armenia. / en.mfa.gov.ir.

7. Video footages spread regarding weapons and military equipment transport from Iran to Armenia – VIDEO. / apa.az (azərb.).

Əsədova Jalə Alik qızı
Azərbaycan Dillər Universtiteti

# 2-Cİ QARABAĞ MÜHARİBƏSİNDƏ TÜRKİYƏNİN AZƏRBAYCANA HƏRBİ DƏSTƏYİ

Açar sözlər: Qarabağ, hərbi əməkdaşlıq, Türkiyə, silahlı qüvvələr

Ключевые слова: Карабах, военное сотрудничество, Турция, вооруженные силы

Keywords: Karabakh, military cooperation, Turkey, armed forces

Türkiyə Cümhuriyyəti həm beynəlxalq platformalarda, həm də zirvədə ikitərəfli təmaslarda həmişə Azərbaycana güclü dəstəyini ifadə etmişdir. Türkiyə ilə Azərbaycan arasındakı güclü əlaqələr, siyasi münasibətlər dünyada bənzərsiz bir strateji tərəfdaşlıq və qardaşlıq qanununun əksidir. Türkiyənin Azərbaycana dəstəyi nəinki qardaşlıq əlaqələri və ya regional səviyyədə ümumi maraqların perspektivi ilə, həm də Azərbaycanın şübhəsiz ədaləti ilə bağlıdır. Türkiyənin bu dəstəyi, beynəlxalq hüququn həyata keçirilməsində, qardaşlıq və regional sülh qanunlarına töhfə verməyin vacib bir nümunəsidir. Bu çərçivədə, İkinci Qarabağ Müharibəsi əsnasında, bir tərəfdən, Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla bütün əlaqədar yüksək səviyyəli məmurlar Azərbaycana dəstək bəyanatları verdilər, digər tərəfdən də Türkiyə Azərbaycana siyasi dəstəyini davam etdirdi.

Bu 44 günlük müddətdə Türkiyə bütün imkanları daxilində beynəlxalq platformalarda, xüsusən də, NATO-da Azərbaycanın haqlı olduğunu sübut edən faktları bölüşdü, Azərbaycana qarşı verilə biləcək mümkün qərarların qarşısını aldı və digər ölkələrin manipulyasiyasına mane oldu. Ermənistanın qanunsuz iddiaları ilə Tovuza hücumların başladığı 12 iyul 2020-ci il tarixində Türkiyə Respublikası Xarici İşlər Nazirliyi tərəfindən edilən açıqlamada hücum şiddətlə qınandı, Türkiyənin bütün vasitələrlə Azərbaycanın yanında olacağı vurğulandı. Türkiyə Böyük Millət Məclisində (TBMM) dörd siyasi partiya (AK Partiya, MHP, CHP və IYI Partiyası) həm 16 iyul 2020-ci ildə, həm də 28 sentyabr 2020-ci ildə iki dəfə birgə bəyanat dərc etməklə Ermənistanın hücumlarını şiddətlə qınadı, Ermənistanın bölgədə sülh və sabitliyə ən böyük maneə olduğunu vurğuladı və Türkiyənin Azərbaycana dəstəyi parlamentdə ifadə edildi. [1]

Prezident Rəcəb Tayyib Ərdoğan bu müddətdə Azərbaycan Prezidenti İlham Əliyevlə sıx əlaqə saxladı. Prezident R.T.Ərdoğan İlham Əliyevdən başqa, Almaniya Kansleri Merkel, Avropa Şurasının sədri Çarlz Mişel, Rusiya Prezidenti Vladimir Putin və İran Prezidenti Həsən Ruhani ilə Dağlıq Qarabağ məsələsi ətrafında telefon danışığı aparmışdır.

Bundan başqa, İzmir Millət vəkili, Türkiyə Böyük Millət Məclisinin keçmiş sədri və keçmiş Baş nazir Binali Yıldırım da 1-3 noyabr 2020-ci il tarixlərində Azərbaycana səfərləri çərçivəsində təmaslar qurmuşdur. Türkiyənin bu açıq, qeyd-şərtsiz və sarsılmaz dəstəyi Azərbaycanı beynəlxalq aləmdə gücləndirdi və Azərbaycana qarşı atıla biləcək addımların qarşısını aldı. Ermənistanın bütün məntiqsiz addımlarına

baxmayaraq, Azərbaycanın eksklavın bir hissəsi olan Naxçıvana hücumdan imtina etməsi bu cəsarətin bariz nəticəsidir. [2]

Türkiyə ilə Azərbaycan arasında hərbi əməkdaşlıq tarixi Azərbaycan müstəqillik qazandıqdan sonra başlasa da, son hərbi əməkdaşlığın hüquqi əsası 2010-cu ildə imzalanmış "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında Saziş" dir. Hərbi-texniki əməkdaşlıq, maliyyə əməkdaşlığı və humanitar məsələlər kimi bir çox ölçüləri olan bu əhatəli Sazişin ən əhəmiyyətli xüsusiyyəti, hücum edən tərəfin üçüncü tərəflərin hücumu qarşısında bütün vasitələrlə dəstəklənməsini nəzərdə tutmasıdır. Müqavilə imzalandıqdan sonra, davam edən danışıqlar və texniki araşdırmalarla birgə müdafiə qabiliyyəti davamlı olaraq təkmilləşdirilmişdir. Birgə hərbi təlimlərlə təmasların davam etməsi Türkiyə-Azərbaycan əlaqələrini çox inkişaf etmiş bir mərhələyə gətirdi. Digər tərəfdən, yuxarıda göstərilən təlimlər Azərbaycan və Ermənistan arasında qurulan tarazlığın pisləşməsini istəməyən və iki ölkə arasındakı yaxınlıqdan məmnun olmayan bəzi mərkəzlərdə narahatlıq yaradır. Son vaxtlar, xüsusilə Ermənistanın təxribatçı Tovuz hücumundan sonra iki ölkə arasında çox vacib hərbi təlimlər həyata keçirildi.

Azərbaycan-Türkiyə Birgə Atəş Birliyi/Birgə Tabur İş Qrupu Təlimi iyulun 26-da Bakıda və Naxçıvanda eyni vaxtda keçirilmişdir. 14 avqust 2020-ci il tarixində sona çatmışdır. 13 avqust 2020-ci il tarixində keçirilən təlimin Hörmətli Müşahidəçi Gününə Milli Müdafiə Naziri Hulusi Akar, Baş Qərargah rəisi və bütün qüvvə komandirləri qatılmışdır.

TurAz Qartal Təlimi, 29 iyul 2020-ci ildə hava elementlərinin köçürülməsindən sonra 30 iyul 2020-ci il tarixində Bakı, Naxçıvan, Gəncə, Kürdəmir və Yevlax şəhərlərində həyata keçirilməyə başladı. [2]

Hazırda Türkiyə Silahlı Qüvvələrinin tələb olunan miqdarda hərbi qüvvəsi və şəxsi heyəti Azərbaycanda çalışır. Türkiyənin Azərbaycana hərbi dəstəyi İkinci Qarabağ müharibəsində müəyyən edici faktorlardan biri olmuşdur. Şübhəsiz ki, verilən hərbi dəstəyin bir çox ölçüləri var, ancaq müharibə zamanı ən önəmli elementlərdən biri Türkiyənin müdafiə sənayesi istehsalı olan PUA/SİHA'lar idi. Ölkəmizin terrorla mübarizəsinə əlavə olaraq, "Zeytun Budağı" əməliyyatı və "Sülh Baharı" əməliyyatı çərçivəsində uğurla həyata keçirdiyi müharibə konsepsiyasının izlərini Azərbaycanın Ermənistanın işğalına qarşı qanuni mübarizəsində görmək olar. Bu kontekstdə, Azərbaycan ordusunun cəbhədə Türkiyənin istehsal etdiyi PUA/SİHA-dan səmərəli istifadə etməsi, 44 günlük müharibədə qazanılmış uğurlarda əhəmiyyətli rol oynadı.

Türk müdafiə sənayesinin məhsulları olan PUA/SİHA-ların münaqişə bölgələrində yaratdığı dağıntılar və digər tərəfdən əldə etdiyi görüntülər Azərbaycan əsgərinin gücünü, Türkiyənin hərbi qabiliyyətini göstərməklə yanaşı, müharibənin gedişatına psixoloji təsir etmişdir. Bu psixoloji təsir Azərbaycan və Türkiyə xalqları üçün müsbət olsa da, Ermənistana və onun tərəfdarlarına ruh düşkünlüyü gətirən bir təsirə malik idi və erməni əsgərlərinin müqavimətinin qırılmasında mühüm rol oynadı. [1]

Müharibə əsnasında ön plana çıxan türk SİHA'ları cəbhədə təsirli olması ilə yanaşı, onların istifadəsi bir çox müşahidəçinin və xarici

mətbuatın diqqətini çəkdi. Azərbaycan Prezidenti İlham Əliyev bir müsahibəsində, “Azərbaycan inventarında neçə türk SİHA-sı var” sualına "kifayət qədər var" cavabını vermiş, müasir və qabaqcıl türk SİHA-larının münaqişələrdə Ermənistanın milyardlarla dollarlıq hərbi texnikasını məhv etdiyini bildirmişdir. Bundan əlavə, hərbi dəstək kontekstində Prezident Rəcəb Tayyib Ərdoğanın Türkiyə Böyük Millət Məclisinə təqdim etdiyi əsgərlərin Azərbaycana göndərilməsi ilə bağlı qətnamə 17 noyabr 2020-ci ildə Türkiyə Böyük Millət Məclisində qəbul edildi. [3]

Bütün bu proseslər Türkiyə və Azərbaycan cəmiyyətləri arasındakı qardaşlığın heç vaxt sarsılmayacağını göstərdi. Həmrəyliyin göstəricisi olan "iki dövlət, bir millət" şüarı bir daha tarixə yazıldı.

Ədəbiyyat siyahısı

1. 44 GÜN SAVAŞI: AZERBAYCAN’IN KARABAĞ ZAFERİ. TASAV Dış Politika ve Güvenlik Araştırmaları Merkezi. 2020

2. https://www.iletisim.gov.tr/images/uploads/dosyalar/Yukar%C4%B1_Karabag%CC%86_Tu%CC%88m_Diller_Dikey_WEB.pdf

3. https://dergipark.org.tr/tr/download/article-file/1676673

Матанат Аскерова
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

# ИТОГИ II КАРАБАХСКОЙ ВОЙНЫ: НАРУШЕНИЯ ГУМАНИТАРНОГО ПРАВА

**Ключевые слова**: баллистические ракеты, выженные земли,военные преступления
**Açar sözlər:** ballistik raketlər, yandırılmış torpaqlar, hərbi cinayətlər
**Key words:** ballistic missiles, *scorched earths*, war crimes

Оккупированные территории Арменией превращены в руины непригодные для проживания, разграблены, выжжены и минированы, в течение 1988-1992 гг. погибло 20 тысяч азербайджанцев, ущерб, нанесенный национальным объектам культуры Азербайджана в Нагорно-Карабахской области и прилегающих к ней районах, не поддается точному подсчету, потому что разграбленные и уничтоженные материально-духовные ценности являются бесценными образцами культуры не только Азербайджана, но и всей мировой цивилизации. По предварительным и не уточненным данным, наряду с морально-психологическим ударом, нанесен также ущерб азербайджанской экономике более чем в 60 миллиардов долларов США.

Азербайджан 27 сентября 2020 года объявил о контр*наступательных операциях Азербайджанской Армии в ответ армянским вооруженным силам.* Армянские ВС начали удары баллистическими ракетами на гражданские объекты Тертера,

Гянджи, Хызы, Мингечаура, Барды и других районов, находящихся далеко от театра военных действия, были убиты мирные жители и уничтожены гражданские объекты. Армения при бомбардировках использовали оперативно-тактические ракеты «Эльбрус», «Смерч», кассетные боеприпасы. Согласно ст. 1 Конвенции по кассетным боеприпасам 2008 года, каждое государство-участник обязуется никогда и ни при каких обстоятельствах: а) не применять кассетные боеприпасы [1]. Использованный Арменией ракеты «Скад» для бомбардировки города Гянджа расцениваются как применение оружия массового уничтожения, не являются высокоточным оружием и явно предназначены для поражения гражданских целей, неизбирательные ракеты были направлены против мирных жителей и гражданских объектов и вызвала только гражданские жертвы. Баллистические ракеты запускались с территории Армении в гражданские объекты Азербайджанской Республики, которое является нарушением Статья 51 2. ДП I к Женевским конвенциям.

Одним из горьких правд Карабахского конфликта является минирование оккупированных территорий. Ст. 3 Протокола о запрещении и ограничении применения мин, мин ловушек и других устройств, ограничения на применение. Протокол требует, чтобы противопехотные мины оснащены механизмами самоуничтожения и само деактивации, установлены в пределах района с промаркированным периметром. Маркировка должна быть отчетливой и устойчивой и должна по крайней мере быть видимой человеку, который намеревается проникнуть в район с промаркированным периметром. Далее, Протокол обязует

установщика разминировать, ликвидировать, уничтожать безотлагательно после прекращения активных военных действий [2]. Положения Протокола были нарушены Арменией в части не оснащения противопехотных мин с механизмами самоуничтожения и само деактивации, отсутствия маркированного периметра, ограждения и иных средств для обеспечения эффективного недопущения гражданских лиц в район минирования. Но, к сожалению, пока не разработаны или просто не существуют механизмы, обязывающие государства установщиков сотрудничать в выводе из эксплуатации установленных ими мин.

Азербайджанская сторона получила и выжженные и разграбленные территории. Стратегия "выжженной земли" является военным преступлением, запрещена статьей 54 Протокола № I к Женевским конвенциям, а ст. 55 в свою очередь запрещает причинять ущерб природной среде. Армения за разграбление и уничтожение материально-духовных ценностей несет ответственность по ст. 53 I ДП к Женевским конвенциям. Ст. 54 ДП I к Женевским Конвенциям запрещает подвергать нападению или уничтожать, вывозить или приводить в негодность объекты, необходимые для выживания гражданского населения,

**Незаконное заселение оккупированные территории Азербайджана армянами из других регионов мира, в том числе террористами YPG и ПКК является нарушением с**т. 49 в части YI Четвертой Женевской конвенции, которая определяет, что «Оккупирующая держава не может депортировать или перемещать

часть своего собственного гражданского населения на оккупированную ею территорию».

Статья 8 Римского Статута определяет составы военных преступлений, в том числе и серьезные нарушения гуманитарного права. Азербайджан и Армения не являются участниками Римского статута. Но, военные преступления совершенные армянскими вооруженными силами могут быть расследованы судом. Согласно ст. 87 (5) Статута, Суд имеет право и практику рассмотрения дело, связанное с событиями на территории, государства, не являющимся членом. В связи с военными преступлениями и преступлениями против человечности, которые имели место в провинции Дарфур в Судане, Международная комиссия по расследованиям 25 января 2005 г. представила Генеральному секретарю ООН доклад и рекомендовала, чтобы Совет Безопасности передал ситуацию в Дарфуре на рассмотрение Международного Уголовного Суда [3].

Армения как участник ДП I к Женевским конвенциям нарушает требование ст. 1- «Высокие Договаривающиеся Стороны обязуются соблюдать настоящий Протокол и обеспечивать его соблюдение при любых обстоятельствах».

Армения и ее должностные лица несут ответственность и за действия марионеточного режима в Ханкенди. Ст. 8 «Ответственности государств за международно-противоправные деяния» определяет, что «Поведение лица или группы лиц рассматривается как деяние государства по международному праву, если это лицо или группа лиц фактически действует по указаниям либо под руководством или контролем этого государства при

осуществлении такого поведения» [4]. ЕСПЧ на своей практике определил и экстра-территориальную юрисдикцию государств, осуществляющих эффективный контроль [5,6,7,8].

Арменией были совершены все преступления, перечисленные в ст. 8 Статута на оккупированных территориях и других прилегающих районах и даже далеко от военного театра территориях. Армения за указанные военные преступления несет международную уголовную ответственность и должен ликвидировать вред, причиненный им Азербайджанской стороне. К видам ответственности Армении по отношению к Азербайджану относится репарация, реституция, компенсация и сатисфакция. Для привлечения к ответственности Армении возбуждены уголовные дела против преступников прокуратурой Азербайджанской Республики и возможно создания ad hoc международного суда.

**Список использованной литературы:**

1. Конвенция по кассетным боеприпасам 2008. URL: https://www.un.org/ru/documents/decl_conv/conventions/cluster_munitions.shtml
2. Протокол II о запрещении и ограничении применения мин, мин ловушек и других устройств, утвержденного Резолюцией 3093 Генеральной Ассамблеи ООН от 10-10-1980 к Конвенции «О запрещении или ограничении применения конкретных видов обычного оружия, которые могут считаться наносящими чрезмерные повреждения или имеющими неизбирательное действие». URL: | https://www.icrc.org/ru/doc/resources/documents/misc/treaties-ccw-protocol2-101080.htm

3. «Report of the International Commission of Inquiry on Darfur to the United Nations Secretary- General», 25 January 2005. URL: http://www.un.org/News/dh/sudan/com_inq_darfur.pdf
4. «Ответственности государств за международно-противоправные деяния» приятой Резолюцией 56/83, принятая Генеральной Ассамблеей 12 декабря 2001 года». URL: https://docs.cntd.ru/document/901941379
5. Case of Loizdou v. Turkey (Application no. 15318/89) Judgment 23 March 1995https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57920%22]}
6. 6. Grand Chamber case of Chiragov and others v. Armenia. (Application no. 13216/05). Judgment 16 June 2015. URL: https://hudoc.echr.coe.int › app › conversion › pdf
7. Case of Ilaşcu and Others v. Moldova and Russia, (Application no. 48787/99). Judgment 8 July 2015, § 316. URL: http://hudoc.echr.coe.int/rus?i=001-59454
8. Case of Cyprus v. Turkey (Application no. 25781/94). Judgment 10 may 2001, § 77. URL: http://hudoc.echr.coe.int/rus?i=001-59454

Əzət Nazim qızı Dadaşova
Bakı Dövlət Universiteti

# QARABAĞ AZƏRBAYCANDIR

**Açar sözlər:** Qarabağ, Ermənistan, qətnamə,işğal, münaqişə, qələbə

**Ключевые слова:** Карабах, Армения, постановление, захват, конфликт

**Keywords:** Karabakh, Armenia, resolution, occupation, conflict, victory

XX əsrin 90-cı illərində təcavüzkar Ermənistan hökuməti Azərbaycana qarşı qanlı terror aksiyalarını daha da genişləndirdi. Respublika ərazisinin 20 faizi düşmən əlinə keçdi. Ermənilər “torpağı viran qoymaq” taktikasından istifadə edirdilər. İşğal olunmuş ərazilərdə evlər, müəssisələr, kommunikasiya vasitələri, təbii sərvətlər talan edilir, dağıdılır, yandırılır. Müharibədə 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 5 min nəfər əlilə çevrilmişdi. Qaçqın və köçkünlərin sayı milyon nəfəri ötmüşdü [2]. Ulu Öndər Heydər Əliyevin gərgin əməyi sayəsində atəşkəsə nail olunmasaydı, hərbi əməliyyatlar daha böyük vüsət alaraq daha geniş əraziləri əhatə edəcəkdi. Ulu Öndər Heydər Əliyevin əhəmiyyətli səyləri sayəsində bu problemin həllinə yönəlik məqsədyönlü addımlar atıldı. Problemin sülh yolu ilə həll edilməsinin vacibliyini dəfələrlə vurğulayan Azərbaycan müxtəlif səviyyəli diplomtik danışıqlara

gedərək və bütün mövcud vasitələrdən istifadə edərək məsələnin həlli yollarını axtarmağa başladı. 1994-cü il mayın 8-də tərəflər arasında atəşkəsin əldə edilməsi barədə imzalanmış “Bişkek protokolu” mayın 12-də qüvvəyə minib və həmin gün cəbhə xəttində aktiv hərbi əməliyyatlar müvəqqəti olaraq dayandırıldı. Qarabağ məsələsinin ATƏT çərçivəsində həll edilməsi üçün təşkil edilən Minsk Qrupunda, həmçinin, qurumun bir sıra zirvə toplantılarında məsələnin mahiyyətini dünya ictimaiyyətinin diqqətinə çatdıran Ulu Öndər Heydər Əliyev dünya dövlətlərini bu məsələdə diqqətli olmağa və məsələnin tezliklə beynəlxalq hüquq normalarına uyğun həll edilməsində yaxından iştirak etməyə dəvət edirdi [5]. Ümummilli Lider Heydər Əliyev Qarabağ həqiqətlərini bütün dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq üçün var qüvvəsi ilə çalışmışdır. Dahi siyasətçi Heydər Əliyev istər dövlət başçıları, istərsə də xarici ölkələrdə olan Azərbaycan diasporunun nümayəndələri, iş adamları, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlərində Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması fikrini əsaslandırmış və buna da nail olmuşdur [6] .

Bu gün də işğal olunmuş ərazilərdə azərbaycanlı əhali yoxdur və işğal olunmuş ərazilər, onların böyük bir hissəsi yandırılmış, dağıdılmış torpaqlar, viran qoyulmuş evlər, məktəblər, ictimai binalardır. Münaqişə nəticəsində Azərbaycan humanitar fəlakətlə üzləşib. Dağlıq Qarabağdan və Azərbaycanın işğal olunmuş digər ərazilərindən olan 700 mindən çox məcburi köçkün, üstəgəl müasir Ermənistanın ərazisindəki öz tarixi torpaqlarından qovulmuş 250 min azərbaycanlı. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və

qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. İyirmi beş ildən çoxdur ki, bu qətnamələr yerinə yetirilmir. Burada biz mühüm məsələyə qəbul olunmuş qərarların yerinə yetirilməsinə gəlirik. BMT Təhlükəsizlik Şurası ali beynəlxalq orqandır.

Əgər 25 ildən çox müddətdə Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar yerinə yetirilmirsə, onda bu, həmin təşkilatın səmərəliliyi ilə bağlı bir çox suallar doğurur. Azərbaycanda bizi qətnamələrin yerinə yetirilməsinin reallaşdırılmasının seçmə xarakteri narahat edir. Bəzən onlar bir neçə gün ərzində yerinə yetirilir, bəzən isə müəyyən hərbi əməliyyatların həyata keçirilməsində onlara, ümumiyyətlə, ehtiyac qalmır. Bizimlə bağlı məsələdə isə qətnamələr kağız üzərində qalır. Həmçinin Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də “Valday” forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: “Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə”. Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi. İlham Əliyevin Valday” forumu çərçivəsində çıxışı istənilən nəticəni verdi.

27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından

intensiv atəşə tutması nəticəsində, Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başladı.

Qarşıdurmalar qısa müddətdə sürətlə alovlanmış və İkinci Qarabağ müharibəsinə çevrilmişdir. Davam edən müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan 25 oktyabrda Qubadlı və 8 noyabr-da Şuşa şəhəri işğaldan azad edilmişdir. Haqq və Şərəf işimiz olan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmiş 44 günlük müharibənin ilk günlərindən Azərbaycan Ordusu vətənpərvərlik dastanı yazdı, bütün dünyaya əsl qəhrəmanlığın, vətən uğrunda necə mübarizə aparmağın nümunəsini göstərdi [1].Sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

10 noyabr 2020-ci il tarixində üç ölkənin dövlət başçıları tərəfindən bəyanat imzalanır. Bəyanatda 10 Noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə 00:00-dan etibarən tam bir atəşkəs və Dağlıq Qarabağ münaqişəsi bölgəsindəki bütün hərbi əməliyyatların dayandırılması elan edilir. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə əsasən xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək [3] .   Hər gün yeni torpaqların işğaldan azad olunması ilə bağlı xoş müjdələrin gəldiyi bir vaxtda 27 il Azərbaycandan ayrı düşmüş, adları hər bir azərbaycanlının yaddaşında hifz olunan bu ərazilərin iqtisadi potensialı barədə yazmaq zamanı artıq yetişib. Əlbəttə, bu ərazilərin azərbaycanlılar üçün tarixi-mədəni əhəmiyyəti hər hansı iqtisadi dəyərlərdən qat-qat yüksəkdir. Son hadisələr də məhz buna dəlalət edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan qəzeti № 250, 29 noyabr 2020
2. Azərbaycan tarixi VII cilddən,VII cild Bakı 2008, 693 s.

3. Azərbaycan Respublikasında Zəfər gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı
4. az.wikipediya.org
5. Məmmədov H.B. Xarici siyasət Bakı 2019, 324 s.
6. https://haydaraliyevcenter.wordpress.com

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
ADU
Docendo discimus
Öyrədərək öyrənirəm
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

Feyziyeva Günay Mobil qızı
Azərbaycan Dillər Universiteti

# Dağlıq Qarabağ münaqişəsi çərçivəsində İsrail-Azərbaycan və İran-Ermənistan münasibətlərinin qarşılıqlı təsiri

**Açar sözlər:** Münasibətlər, Azərbaycan, İsrail, Ermənistan, İran
**Ключевые слова**: Азербайджан, Армения.
**Key words**: Azerbaijan, Israel, Armenia.

Yaxın Şərq regionunun siyasi nüfuza malik, inkişaf etmiş qeyri-islam ölkəsi olan İsrail dövləti beynəlxalq münasibətlərin digər aktorları kimi həm ikitərəfli münasibətlərin qurulmasını, həm də regional konteksdə uğurlu xarici siyasət həyata keçirilməsini əsas prioritet istiqamət hesab edir. İsrail dövləti xarici siyasətini real siyasi əsaslarla təşkil edir. Belə ki, beynəlxalq arenada milli-dövlət kimi öz müstəqilliyini və statusunu gücləndirmək üçün İsrail dövləti öz məqsədlərini siyasi fəaliyyətində həyata keçirir.

Tarix boyu Azərbaycan dağ yəhudilərinin, Aşkenazilərin və iki ölkə arasındakı münasibətlərdə mühüm rol oynayan digər icmaların evi olmuşdur [7]. Azərbaycan müstəqilliyini qazandıqdan sonra müstəqilliyini qorumaq və Rusiya və İranın təsirinin qarşısını almaq üçün dünyanın aparıcı dövlətləri ilə ikitərəfli əlaqələr qurmağa çalışmışdır. Əhalisinin əksəriyyəti müsəlman olmasına və İranla qonşu olmasına rəğmən İsrail ilə münasibətlər Azərbaycanın xarici siyasətinin prioritetlərindəndir. Azərbaycan bir çox məsələlərdə İsrail ilə münasibətlərini inkişaf

etdirmişdir. Həmçinin, İsrail Ermənistanla müharibədə - Dağlıq Qarabağ müharibəsində Azərbaycanın strateji tərəfdaşlarından biri oldu.

SSRİ-nin dağılmasından sonra Cənubi Qafqaz ölkələrinin eləcədə ittifaq tərkibində olan digər dövlətlərin müstəqillik əldə etməsi İsrail dövlətinin Cənubi Qafqaz ölkələri xüsusilə, Azərbaycan ilə münasibətlərin qurulması istiqamətində əsaslı addım atmasına rəvac verdi. Belə ki, İsrail dövləti Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuşdur. 1991-ci il aprelin 7-də İsrail və Azərbaycan arasında diplomatik münasibətlər qurulmuşdur [4]. Qeyd edək ki, İsrail dövləti Cənubi Qafqaz ölkələri içərisində birinci Azərbaycanın müstəqilliyini tanımış və ilk olaraq Bakıda səfirlik açmışdır. Buna baxmayaraq, Azərbaycan Respublikası hələ də İsraildə səfirlik açmamışdır. Səfirliyin açılmaması münasibətlərin inkişafına mənfi təsir etməmişdir [11]. Əksinə Azərbaycan – İsrail münasibətləri strateji-diplomatik əməkdaşlıq səviyyəsinə çatmışdır. Münasibətlərin inkişafının əyani göstəricisi kimi 1997-ci ildə və 2016-cı ildə baş nazir Benyamin Nitenyahunun, 2009-cu ildə isə prezident Şimon Peresin rəsmi səfərini qeyd etmək olar [9;4].

XX əsrin son onilliyində Cənubi Qafqaz ölkələrinin münaqişə vəziyyətində olması və İsraildə "Ərəb-İsrail münaqişəsi" çərçivəsində Oslo danışıqlarının əsas prioritet məsələ olması daha çox iqtisadi və mədəni aspektdən münasibətlərin inkişafına təsir etmişdir. 2000-ci ildən başlayaraq Cənubi Qafqaz və Mərkəzi Asiya İsrail xarici siyasətinin əsas prioritet istiqamətinə çevrilmişdi. Münasibətlərin əsasını qarşılıqlı maraq doğuran məsələlər təşkil edir. Belə ki, yüksək "Hİ-TECH" sənayesinə malik olan İsrailin öz təcrübəsini keçid iqtisadiyyatı yaşayan Cənubi

Qafqaz ölkələri ilə paylaşması, münaqişə vəziyyətində olan Cənubi Qafqaz ölklərinin silah mübadiləsi (xüsusilə, Azərbaycan və Gürcüstan), kənd təsərrüfatında olan yeniliklərin paylaşılması və s. məsələlər əsas rol oynayır [3;4;5].

İsrailin xarici siyasətinin Cənubi Qafqaz ölkələri ilə formalaşmasında yəhudilərin Cənubi Qafqaz ərazisində tolerant dinc sülh şəraitində yaşaması da müsbət təsir göstərir. Buna bariz örnək Azərbaycanın tolerantlıq nümunəsidir. Azərbaycan cəmiyyətində yəhudilərə qarşı heç bir vaxt anti-semitizm halları olmamışdır. Azərbaycan cəmiyyətinin bütün xalqlara müsbət münasibət göstərməsi, yəhudilərlə bərabər bütün digər xalqların dinc yanaşı yaşaması iki dövlət arasında münasibətlərin inkişafına müsbət təsir göstərən amillərdən biridir. Digər bir amil Cənubi Qafqazın zəngin faydalı qazıntılara malik olmasıdır. Belə ki, son dövrlərdə təbii neft və qaz ehtiyatlarına malik olmayan İsrail öz ehtiyaclarını qarşılamaq üçün Azərbaycandan xam nefti idxal edir. Deməli, ikitərəfli münasibətlərin formalaşmasında iqtisadi amillər də birbaşa iştirak edir [5;6].

Digər Qafqaz ölkələri ilə müqayisədə Ermənistanın İsrail ilə münasibətlərini qənaətbəxş qiymətləndirmək olar. Belə ki, Ermənistan İran ilə strateji tərəfdaşlıq münasibətləri aparan ölkədir. İsrail-İran münasibətləri isə daimi gərgin olaraq qalmışdır. Buna görə İran rəhbərliyi İsrail-Azərbaycan münasibətləri inkişaf etdikcə, Azərbaycan torpaqlarının 20%-ni işğal etmiş Ermənistan ilə sıx əməkdaşlıq münasibətlərini davam etdirmişdir. Ermənistan İranın əsas xammal idxalçısıdır. 1991 - ci ildə İran Azərbaycan və Ermənistan ilə münasibətlərini bərpa etmək niyyətində idi.

Azərbaycanın ikinci prezidenti Ə. Elçibəyin anti-İran siyasəti İran-Ermənistan münasibətlərini daha da yaxınlaşdırmışdı. İran Amerikadan sonra Ermənistanın dövlət müstəqilliyini tanıyan ikinci dövlət olmuşdur. Dağlıq Qarabağ münaqişəsində İran şiə müsəlmanlığına rəğmən neytral mövqede idi [1;2;3].

Qarabağ münaqişəsindən sonra Türkiyə və Azərbaycan öz sərhədlərini Ermənistanla bağlamışdır. Bu, Ermənistanın iqtisadiyyatına böyük zərbə vurur. Belə gərgin bir vəziyyətdə İranla sərhədlər və oradan keçən tranzit yollar  Ermənistan üçün çox önəm daşıyır. İran vasitəsilə Ermənistan digər dövlətlər və bütün dünya ilə əlaqə qura bilir. Buna görə də, Ermənistan İranla olan ikitərəfli münasibətlərdən asılıdır.

İranın Ermənistana dəstəyinin digər səbəblərindən biri İranın daxilindəki azəri türklərinin siyasi ideyalarını təhdid hesab etməsidir. Belə ki, azəri türkləri arasında türk millətçiliyinin artması İran tərəfi üçün ciddi siyasi problemdir. Fars rejimi ilə Azərbaycan arasında siyasi problemlərdən ən mühümü İranın azərbaycan mənşəli əhalisi (təxm. 20 milyon) ilə Azərbaycan arasında mənəvi, mədəni yaxınlıqdır [9;8]. Tarixi Azərbaycan torpaqlarının birləşməsi, yəni, Böyük Azərbaycan ideyası İranı narahat edən əsas faktorlardandır. İran-Azərbaycan münasibətlərində Xəzərin təbii resurslarının paylaşılması və İsrail –Azərbaycan strateji tərfdaşlığı gərginlik yaradan məsələlərdəndir.

Həmçinin, beynəlxalq və regional konteksdə Ermənistan və İran bir-birinin maraqlarını müdafiə edirlər. Ermənistan Amerikadan aldığı maddi dəstəyə rəğmən, hər zaman İrana sanksiyaların qoyulmasına qarşı çıxış etmişdir. İran da Amerikadakı güclü erməni lobbisindən faydalanmışdır. Bugün İran və Ermənistan arasında müxtəlif sahələrdə yüzlərlə

razılaşmalar imzalanıb. İki ölkə arasında yaxın iqtisadi və siyasi münasibətlər mövcuddur. Əməkdaşlığın və dostluğun möhkəmləndirilməsi üçün müxtəlif səviyyəli görüşlər keçirilir. Ermənistan İsrail ilə yaxın münasibətlər qurmaq əvəzinə prioritet əhəmiyyəti hər zaman İrana vermişdir [10].

İran-Ermənistan münasibətləri qarşılıqlı asılılıq təşkil edir. Regional konteksdə Ermənistan türk müsəlman dövlətlərinin əhatəsində, İran vasitəsi ilə öz mövcudluğunu qoruyub saxlayırdı. İran isə 1979-cu il islam inqilabından sonra İsrailin əsas geosiyasi düşməninə çevrildiyi üçün üçlü münasibətlərdə mücərrəd konfiqurasiya yaranmışdı. Ermənistan İsrail ilə münasibətlərini saxlasa da, prioritet əhəmiyyəti hər zaman İrana vermişdi. Eyni zamanda Ermənistan ərəb dövlətləri ilə sıx münasibətlərini inkişaf etdirərək, Fələstin məsələsində heç də, həmişə İsraili dəstəkləmirdi. Digər tərəfdən İsrailin Azərbaycanla olan münasibətləri Ermənistan tərəfindən də birmənalı qarşılanmırdı. Ermənistan İsrailin Azərbaycana silah satması, hərbi dəstək göstərməsi və digər sahələrdə olan köməyini öz milli təhlükəsizliyinə təhdid hesab edir. Bu vəziyyətdə Ermənistan, İsrail, İran, Azərbaycan və Yaxın Şərqin ərəb dövlətləri arasındakı olan münasibətlər mürəkkəb konfiqurasiyaya malikdir.

44 günlük II Qarabağ müharibəsinin gedişində və sonrasında İran ənənəvi olaraq, Ermənistana dəstək olmuşdur. İtirilmiş torpaqlarının qaytarılmasında Azərbaycanın ən böyük dəstəkçisi İsrail, Türkiyə və Pakistan olmuşdur [12] . Dondurulmuş münaqişədə sülh üçün savaşan Azərbaycanın qələbəsi regionda gələcək sülh və perspektivlər üçün imkanlar açmışdır.

**İstifadə edilən ədəbiyyat siyahısı:**

1. Dr. Elnur İsmayil, Azerbaycan-İsrail Stratejik Ortaklığı, 05 Ocak 2013, http://www.bilgesam.org/incele/1101/azerbaycanisrailstratejikortakligi/#.WJ_sYW-LTIU
2. Azərbaycan – İsrail münasibətləri //http://lib.aliyevheritage.org/az/8269149.html
3. History of Azeri-Israeli Relations // http://azerireport.com/index2.php?option=com_content&do_pdf=1&id=1393
4. Alexander Murinson, The Ties between Israel and Azerbaijan,p.40, // https://web.archive.org/web/20141103080836/http://besacenter.org/wp-content/uploads/2014/10/MSPS110-web.pdf
5. Alexander Murinson, Good Relations between Azerbaijan and Israel:A Model for Other Muslim States in Eurasia? //http://www.washingtoninstitute.org/policy-analysis/view/good-relations-between-azerbaijan-and-israel-a-model-for-other-muslim-state
6. Gallia Lindenstrauss, Israel-Azerbaijan: Despite the Constraints, a Special Relationship // http://www.inss.org.il/uploadImages/systemFiles/adkan17_4ENG_7_Lindenstrauss.pdf
7. Yəhudilərin Azərbaycanda yaşaması müsəlmanların çoxluq təşkil etdiyi bir ölkənin tolerantlıq mədəniyyətinin təcəssümüdür // http://multikulturalizm.gov.az/2015/11/20/
8. גליה לינדנשטראוס, ישראל-אזרבייג'ן: יחסים מיוחדים אל מול מגבלות

İsrail-Azərbaycan: Bütün məhdudiyyətlərə rəğmən xüsusi münasibətlər

http://www.inss.org.il/uploadImages/systemFiles/%D7%92%D7%9C%D7%99%D7%94%20%D7%9C812770184.pdf

9. Burak Calishkan, İsrail’in Güney Kafkasya Stratejisi// https://insamer.com/tr/israilin-guney-kafkasya-stratejisi_1833.html

10. Israeli chief Rabbi in historic Armenia visit // https://web.archive.org/web/20120224055624/http://www.ejpress.org/article/4334

Ministry of Foreign Affairs of the Republic of Armenia. Bilateral Relations // http://mfa.am/en/country-by-country/il/

11. Israeli Foreign Minister: “The issue why the Azerbaijani embassy does not open in Israel should be addressed to the Azerbaijani government” // http://www.today.az/news/politics/48863.html

12. Daniel Edelstein, Potential Gains for Israel After Azerbaijan’s Victory in Nagorno-Karabakh, 2021 // https://www.justsecurity.org/75135/

Güləmirli Fatimə Bəhram qızı
Azərbaycan Dillər Universiteti

## Qarabağın işğaldan azad olunmasının regional təhlükəsizliyə təsiri

Açar sözlər: Qarabağ müharibəsi, Qafqazda təhlükəsizlik, regional əməkdaşlıq

Ключевые слова: Карабахская война, безопасность на Кавказе, региональная сотрудничества

Key words: Karabakh war, Security in the Caucasus, regional cooperation.

Müasir dövrdə Cənubi Qafqaz bölgəsi geosiyasi və geoiqtisadi baxımdan mühüm əhəmiyyət daşıyır. Regionun təhlükəsizlik sistemini səciyyələndirən bir sıra parametrlər mövcuddur. Zəngin karbohidrogen ehtiyatları, bölgənin tranzit imkanları, etnik və dini zəmində mövcud ziddiyyətlər, böyük dövlətlərin milli maraqlarının kəsişməsi, o cümlədən regional təhlükəsizliyinə təsir göstərən transmilli təhdidlər Cənubi Qafqazın təhlükəsizlik sistemini səciyyələndirir.Cənubi Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin bərqərar olması, davamlı sülhün bərpası üçün əsas maneələrdən biri həll edilməmiş münaqişələrin mövcudluğudur. Regionda güclü təhlükəsizlik sisteminin yaradılması bölgədə yerləşən və marağı olan dövlətlərin mənafeyi ilə yanaşı, global təhlükəsizliyin təmin edilməsi baxımından da mühüm əhəmiyyət daşıyır. Ermənistanın işğalçı siyasəti və qeyri-konstruktiv mövqeyi nəticəsində 30

ilə yaxın davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi regionda uzunmüddətli və davamlı nəqliyyat-kommunikasiya layihələrinin reallaşdırılmasının qarşısını alırdı. Ermənistanın işğalçı siyasətinə son qoyulması və Qarabağın azad edilməsi regional sabitlik üçün bir neçə məqama görə zəruri əhəmiyyət daşıyırdı. Ermənistanın işğalı altında olan Qarabağ bölgəsi beynəlxalq təşkilatların yoxlamalarından kənarda qalan bir ərazi kimi transmilli təhlükələrin mənbəyinə çevrilmişdir. Narkotik maddələrin qanunsuz dövriyyəsi, silah qaçaqmalçılığı, terrorçuların təlimlərinin keçirilməsi və s. kimi illeqal fəaliyyət nəticəsində regional təhlükəsizlik sistemi üçün ciddi problemlər yaranmışdı. Digər tərəfdən su hövzələrinin qəsdən çirkləndirilməsi, meşə örtüyünün bilərəkdən məhv edilməsi nəticəsində ciddi ekoloji və ətraf mühit problemləri ortaya çıxmışdır.

30 illik qeyri -müəyyənlikdən sonra Azərbaycan ordusunun 27 sentyabrda başlayan və 44 gün davam edən şanlı qələbələri bölgədə yeni reallıqlar yaratdı. Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 1-də xalqa müraciətində bildirmişdir: "Biz düşməni torpaqlarımızdan qovduq və yeni bir reallıq yaratdıq. Hər kəs bu reallığı qəbul etməlidir"[2]. Yeni reallıqlar ilk növbədə Qarabağ regionunun işğaldan azad olunması bölgənin bərpa olunması, yenidənqurulması və məcburi köçkün düşən insanların öz evlərinə qayıtması üçün şərait yaradacaq. Eyni zamanda Qarabağ regionunun zəngin yeraltı və yerüstü resurslarının legal formada istifadə edilməsi regionunun inkişafı üçün geniş imkanlar açacaq.

44 günlük zəfərin yaratdığı yeni reallıqlardan biri də Zəngəzur dəhlizinin açılması ilə bağlı perspektiv plandır. Dəhlizin tamamlanması Türkiyə ilə Azərbaycan arasında quru əlaqəsini də təmin edəcək. Bu, Türkiyə-Azərbaycan strateji tərəfdaşlığının gücləndirilməsi baxımından əhəmiyyətli bir addım hesab edilir[1]. Digər tərəfdən üç tərəfli bəyanatda göstərildiyi kimi yeni nəqliyyat və kommunikasiya sistemlərinin qurulması bütövlükdə regionun inkişafına, dövlətlər arasında etimadın güclənməsinə təkan verəcək.

İstifadə edilmiş ədəbiyyat:


1. Ataman M. Azerbaijan's Victory in Karabakh. // https://www.dailysabah.com/opinion/columns/azerbaijans-victory-in-karabakh
2. Rəhimov R. Azerbaijan's Karabakh Victory Creates New Realities. A State of Affairs Emerges after Liberation of Occupied Territories. // https://www.aa.com.tr/en/azerbaijan-front-line/azerbaijan-s-karabakh-victory-creates-new-realities/2064731

Günay Məmmədova Kamil qızı
Azərbaycan Dillər Universiteti

## Qarabağ münaqişəsi və qadın zorakılığı

**Açar sözlər:** qadın hüquqları, zorakılıq, münaqişə, erməni təcavüzü

**Keywords:** права женщин, насилие, конфликт, армянская агрессия

**Ключевые слова:** women's rights, violence, conflict, armenian aggression

Ermənistanın Azərbaycana qarşı ərazi iddiası, onun işğalçı müharibə yolu ilə Qarabağa qarşı olan təcavüzkar siyasəti on illərlə davam etmişdir. Tarixən qonşu dövlətlərə qarşı əsassız ərazi iddiaları irəli sürən və “Böyük Ermənistan” yaratmaq xülyası ilə yaşayan erməni millətçiləri bəşəriyyətə, insanlığa qarşı qeyri-insani rəftara, terror aktlarına və dəhşətli cinayətlərə əl atmışlar. Bu cinayətlər zamanı dinc əhali, eləcə də, yüzlərlə qadın erməni təcavüzünün qurbanı olmuş, girov götürülmüş, dözülməz işgəncələrə məruz qalmışdır. Erməni tərəfi "Müharibə qurbanlarının müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə Konvensiyasını, insan haqlarını kobud şəkildə pozmuşdur. Zorakılıq qurbanı olan və qaçıb canlarını qurtara bilməyənlər arasında qadın və uşaqlar əksəriyyət təşkil etmişdir. Qadınlara qarşı zorakılıq elə bir  qlobal problemə çevrilib ki, heç bir siyasi, sosial, iqtisadi, milli sərhəd tanımır. O, insan hüquqlarının ciddi

pozuntusudur. Bu baxımdan Qarabağ münaqişəsinın qurbanları olmuş və dəhşətli zorakılığa məruz qalmış qadınlara dair araşdırma aparmağı vacib hesab edirik. Ermənistan tərəfinin təcavüzü nəticəsində yaranan humanitar fəlakətlərdə də ən çox əziyyət çəkən qadınlar olub. Qarabağ münaqişəsi erməni vandalizminin bariz nümunəsi və XX əsrin ən faciəli münaqişələrindən biri kimi milyonlarla azərbaycanlının, azərbaycan ailəsinin taleyinə acınacaqlı təsir göstərmişdir.

1992-ci ildə Xocavənd rayonunun işğalı zamanı ermənilər Qarabağlı kəndindən girov götürdükləri 117 nəfər dinc sakini Xankəndinə apararkən yolda onların 76 nəfərini güllələmiş, onlardan 20 nəfəri 10-12 yaşına qədər uşaq, yarıya qədəri isə qadınlar olmuşdur. Füzuli rayonunun işğalı zamanı Horadiz yolunda tutulmuş 40 nəfər mülki şəxsin 29 nəfəri, Gorazıllı kəndindən götürülmüş girovların 40 nəfəri, Kəlbəcər rayonunun Başlıbel kəndindən girov götürülmüş qoca, qadın və uşağın 29 nəfəri yerindəcə öldürülmüş, meyitlərə qarşı əxlaqsızlıq və vandalizm hərəkətlərinə yol verilmiş, Kəlbəcər rayonunun "Tunel" adlanan yerində güllələnən dinc sakinlər iz itirmək məqsədi ilə yük avtomobilinin üstünə yığılaraq maşınla birlikdə yandırılmışdır. Bu günahsız soyqırım qurbanlarının az qala yarısı qadınlar və uşaqlar idi. Erməni vandalizminin ən bariz nümunələrindən olan və təəssüf ki, bütün dünyanın göz yumduğu Xocalı soyqırımı zamanı erməni və rus yaraqlılarının qətlə yetirdikləri 613 nəfər Xocalı sakinin 63 nəfərini azyaşlı uşaqlar, 106 nəfərini isə müxtəlif yaş həddində olan qadınlar təşkil edirdi. Hadisədən sonra əldə olunmuş bəzi meyitlərin xarici müayinəsi məhkəmə-tibb ekspertizalarının rəyləri, mühasirədən çıxmağa, girovluqdan qaçmağa müvəffəq olmuş sakinlərin ifadələrinə, eləcə də digər dəlil sübutlara əsasən, ermənilər ələ keçirdikləri

dinc sakinlərə ən ağlasığmaz işgəncələr vermiş, onlara qarşı sözün həqiqi mənasında vəhşilik nümayiş etdirmişlər [3]. Onlar zorlanmış, döşləri kəsilmiş, sinələrinə qızdırılmış damğa basılmış, dişləri kəlbətinlə çıxarılmış, diri-diri divarlara mismarlanmış və hərbi texnikaların altında əzilərək öldürülmüş, hamilə qadınların qarınları yırtılmış və həyat yoldaşlarının kəsilmiş başları yerləşdirilərək tikilmiş, sağ qalanların gözləri qarşısında körpə uşaqlarının və həyat yoldaşlarının diri-diri başları kəsilmiş, onlar ömürlük mənəvi və fiziki şikəst olmuşlar. Bundan başqa, Qubadlı, Ağdam, Füzuli rayonlarının işğalı zamanı da dinc əhaliyə divan tutulmuş, yüzlərlə qadın öldürülmüş, əsir və girov götürülmüşdür. Onların bəziləri girovluqda dəhşətli işgəncələrə dözməyərək ölmüşlər. Qadınlara qarşı qeyri-insani rəftara, ən dəhşətli zorakılıq hallarına baxmayaraq onlar övladlarından əl çəkməmiş və bunun müqabilində də onların gözləri qarşısında azyaşlı uşaqları öldürülmüş, özləri isə naməlum istiqamətlərə sürüklənmişlər. Bütün bu hadisələrin təkində biz Azərbaycan qadınının mətinliyinin, dözümünün, gücünün tükənməzliyinin şahidi oluruq. Faciələrin şahidləri olmuş qadınların müsahibələrinə əsasən, onların başına açılan cinayətlərin sıradan və təsadüfi olmadığını, ermənilərin zorakılıq siyasətinin sistemli olduğunu və azərbaycanlıların kütləvi məhvinə yönəldiyini görürük.

Qarabağ münaqişəsi dövründə ermənilərin işğal etdikləri Azərbaycan torpaqlarında əsir götürülən 4.852 nəfər azərbaycanlının 323 nəfəri qadın olmuşdur [2, s.6]. Zirzəmilərdə girov saxlanılan qadınları və cavan qızları huşsuz vəziyyətə salaraq naməlum yerlərə göndərmişlər. Əsir götürülən qadınlar qul kimi ən çətin işlərdə işlədilmiş, amansız işgəncələrə

məruz qalmış və alçaldılmışlar. Bundan əlavə, Dağlıq Qarabağ və ətraf 7 rayondan qovulmuş qadınlar da çox böyük çətinliklərlə qarşılaşmışlar. Azərbaycanda qadın hüquqlarının müdafiəsi sahəsində qaçqın və məcburi köçkün qadınlara xüsusi diqqət və yüksək qayğı göstərilsə də, onların əksəriyyəti həm təhsil sahəsində, həm də işlə təmin olunmada, sosial həyat sferalarında fəaliyyətdən kənarda qalmışlar. Onu da qeyd edək ki, bu günə qədər əsir və girovluqdan 1399 nəfər azad edilmişdir. Onlardan 343 nəfər qadın, 1056 nəfər kişidir. Eyni zamanda 170 nəfər uşaq (65 nəfər azyaşlı qız), 289 nəfər yaşlı şəxsdir (112 nəfər yaşlı qadın) [4].

Yuxarıda qeyd olunanlarla yanaşı onu da vurğulayaq ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsi olaraq, Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımız geri qaytarılıb və artıq qaçqın və məcburi köçkün qadınlarımız da, bütün azərbaycanlılar kimi öz doğma yurd-yuvalarına qayıdırlar. Onlar işğaldan azad olunmuş ərazilərdə yenidənqurma işlərinin həyata keçirilməsində fəal iştirak edirlər. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz tarixi zəfərimizin qazanılmasında da Azərbaycan qadınlarının əvəzsiz rolu olmuşdur. Vətən uğrunda canından keçən şəhidlərimizi, əzmlə döyüşən qazi və əsgərlərimizi dünyaya gətirən, onları vətənpərvər ruhda tərbiyə edən və vətən sevgisi aşılayan məhz Azərbaycan qadınlarıdır. Qadın həkimlərimiz, tibb bacılarımız könülllü şəkildə müharibə zonalarına yollanmış, yaralı hərbçilərimizin həyatını xilas etmək üçün əllərindən gələni etmişlər.

## Ədəbiyyat:

1. Camal Zeynaloğlu: “Qarabağ dərdi – Ermənivandalizmi”. Bakı, “UniPrint” nəşriyyatı – 2014, - 460 səh.

2. Ermənistan–Azərbaycan münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi.-Bakı, 2005
3. Ermənistanın Azərbaycan Respublikasına təcavüzünün qurbanı olmuş qadınlar və uşaqlar barədə arayış http://supremecourt.gov.az/static/view/182
4. Qaçqınlar, məcburi köçkünlər, əsir, girov və itkin düşənlər https://www.virtualkarabakh.az/az/post-item/28/115/qacqinlar-mecburi-kockunler-esir-girov-ve-itkin-dusenler.html
5. Vətən müharibəsində Azərbaycan qadınının rolu" mövzusunda tədbir keçirilib https://science.gov.az/az/news/open/17344

Hacıyeva Gülnar Nuru
Azərbaycan Dillər Universiteti

# QARABAĞIN FAYDALI QAZINTILARIN ONUN GƏLƏCƏK SOSİAL-İQTİSADİ İNKİŞAFINDA ROLU

**Açar sözlər: təbii ehtiyatlar, işsizlik, sənaye**

**Ключевые слова: природные ресурсы, безработица, промышленность**

**Keys words: natural resources, unemployment, industry**

Qarabağ Kür və Araz çayları arasında yerləşməklə, şərqdən Kür-Araz ovalığı, qərbdən və şimal-qərbdən Ermənistan Respublikası, az bir sahədə isə Iran Islam Respublikası ilə sərhədlənir. Ümumi sahəsi 29040,381 km$^2$ olub, respublikamızın 25% hissəsini əhatə edir. Şimal-qərbdən cənub-şərqə doğru 600 km məsafədə uzanır [1]. Tədqiq olunan ərazi həm dağlıq, həm də düzənlik əraziləri özündə birləşdirən Kiçik Qafqaz dağlarında geniş ərazini əhatə edən bir bölgədir. Dağlıq ərazi Kiçik Qafqaz dağlarının şərq hissəsini 39$^0$24'-40$^0$25' şimal enliyində və 15$^0$58'-17$^0$01' şərq uzunluğunda yerləşir və ümumi sahəsi 4363 km$^2$-dir. Ərazinin relyefi çox mürəkkəbdir. Qarabağ silsiləsi üzərində yerləşən tədqiq olunan ərazi cənubdan Xaçınçaydan öz başlanğıcını götürür. Silsilə Mıxtökən silsiləsinin cənub davamıdır ki, 60 km uzanır və şimal və cənub hissələrə ayrılır.

Mürəkkəb geoloji və geomorfoloji quruluşa malik olan Dağlıq Qarabağ faydalı qazıntılar ilə zəngindir. Polimetal qrupuna daxil olan faydalı qazıntılar əsasən Xocalı rayonu ərazisində cəmlənmişdir. XIX əsrdən etibarən burada qeyd olanan mineral ehtiyatlar kəşf edilmişdir.

Xüsusilə Xocalı rayonunun Tərtər və Xaçınçay çayları arasında yerləşən Mehman, Drombon, Canyataq və Gülyataq kəndlərində qızıl, gümüş, kadmium və digər nadir elementlər aşkar edilmişdir. Bu yataqlar epigenetik qruppuna görə hidrotermaldırlar. Belə ki, burada mövcud olan isti su məhlulları yerin təkində olan filizlərə qarışaraq onların strukturunda müəyyən dəyişikliklər yaradır ki, buda yeni növ filizlər əmələ gətirir. Bu qrupa daxil olan minerallar 200 km ərazidə yayılmışdır ki, yataqların bir-birindən uzaqlığı 25 km -dən artıq deyildir. Sink və qurğuşun ehtiyatı elə də çox deyildir. Polimetal filizlər Vəngli, Qazançı, Gültəpə, Təpəkənd kəndləri yaxınlıqlarında və o cümlədən Elbək-daş və Murovdağ zirvələrində rast gəlinir. Mehman qrupunda dəmir filizi aşkar edilmişdir. Bu minerala Xocavənd rayonunun Zərdanaşen, Şuşanın Qaladaras və Xocalı rayonunun Erek-Mankuk bölgəsində yayılmışdır. Burada mis yerli müəssisələr tərəfindən ixrac olunurdu və hazırda da onun izlərini görmək mümkündür [3]. Dəmiz filizinə həmçinin Xocavənd rayonun Böyük Tağlar və Tuğ, həmçinin Xocalı rayonunun Ballıca kəndində rast gəlinir. Qeyd etmək lazımdır ki, bu ehtiyatların sənaye əhəmiyyətinə malik deyildir.

Xüsusilə, mineral ehtiyatlar içərisində Xocavənd rayonu ərazisindəki islandiya ştampını çox maraqlıdır. Xocavənd rayonundakı Çakur yatağı sənaye əhəmiyyətlidir. Bu təbii ehtiyata Xocavənd rayonun Tuğ kəndində, o cümlədən Şuşada rast gəlmək mümkündür. Xocalı rayonun hündür ərazilərində krital şpatı vardır. Ancaq bu ehtiyat hələ də tam öyrənilməmişdir.

Xankəndi rayonunun Qorov kəndində mərmər ehtiyatı vardır ki,

onun ehtiyatı 80 min $m^3$ hesablanmışdır. Bu təbii ehtiyata həmçinin Dağdağan, Şuşakənd (Xocalı), Ninqi, Mirikənd, Kuşilər, Arakel, Binədərəsi (Xocavənd) və Sus (Laçın) kəndlərin ərazilərində də rast gəlmək mümkündür. Sus kəndi yaxınlığında mövcud olan mərmər ehtiyatı özünəməxsusluğu ilə seçilir. Burada mərmərin rəngi boz, boz-yaşıl və sredno-zernisti rəngə çalır. Xocalı rayonun keçmiş qalasının yaxınlığında ehtiyatı 1600 min ton olan sement ehtiyatı vardır. Bu ehtiyat 1939-cu ildə kəşf edilmişdir. Sement həmçinin Xocavənd rayonunun Mirikənd ərazisində də rast gəlinir [2].

Həmin rayonu adı qeyd olunan kəndlərlə yanaşı Qaçı və Güləpli kındləri ərazisində liqrafik daş ehtiyatına rast gəlinir. Bunu təbii ehtiyatı ilk dəfə rus alimi akademik Abixom tərəfindən qeyd alınmışdır. Yüksək keyfiyyətli daş yataqları Mirikənd kəndi yaxınlığındadır ki, onun sahəsi 177 min $km^2$-dir. Daşların qalınlığı və laylılığı 8-10 km-ə çatır. Litoqraf daşların Dağlıq Qarabağda iki növünü müəyyən edilmişdir. Bunlar əhənglə zəngin olan ağ daşlar və mergellə zəngin olan sarımtıl daşlardır. Barıt ehtiyatına keçmiş Ağdərə rayonunu Tonaşen və Kasapet kəndləri ətrafında yayılmışdır. Bu təbii ehtiyatının dəyəri hələ də öyrənilməmişdir.

Alebatrın təbii yolla alınmasına istifadə olunan gips təbii ehtiyatı indiki Tərtər rayonun Təpəkənd, Dəstəgül kəndlərində, həmçinin Xocalı rayonunun Balluca kəndi ərazisində yayılmışdır.

Xromit ehtiyatına Şuşa və Laçın rayonlarının sərhədlərində yayılmışdır. Tərtər rayonunun Canyataq, Zəylik, Xocavənd rayonunun Dolanlar kəndin yaxınlığında kvars ehtiyatı mövcuddur (Cədvəl 1).

Cədvəl 1.

Qarabağda mövcud olan bəzi mineral ehtiyatlar

| № | Faydalı qazıntıların adı | Yerləşdiyi ərazi | |
|---|---|---|---|
| | | Yaşayış məntəqəsi | Rayon |
| 1 | Vulkanik köpük və kvars qumu | Dolanlar | Tərtər |
| 2 | Gil dulusçular və odadavamlı | Hadrut, Xocalı, Şuşa, Xankəndi | Tərtər, Xocalı, Şuşa, Xankəndi |
| 3 | Kadmiyum | Mehman | Kəlbəcər |
| 4 | Qızıl | Gülyataq | Tərtər |
| 5 | Gümüş | Gülyataq | Tərtər |
| 6 | Pirit | Ballıca, Tuğ, Xanyurdu | Xocalı, Xocavənd, Xocalı |
| 7 | Karbid əhəngdaşları | Suqovuşan | Tərtər |
| 8 | Mineral boyalar | Vəngli, Ballıca, Dağdağan | Tərtər, Xocalı |
| 9 | Dəyirman daşı | Vəngli, Ballıca, Dağdağan | Tərtər, Xocalı |
| 10 | Tikinti materialları | Vəngli | Tərtər |

Bunlardan başqa Qarabağda xromit (Şuşa və Laçın rayonunda), qəhvəyi kömür (Çardaqlı (Tərtər), Tuğ, Böyük Tağlar (Xocavənd)) və s. təbii ehtiyatlar vardır ki, onların sənaye əhəmiyyəti olmasa da yerli sakinlər onlardan istifadə edirlər.

Yuxarıda qeyd edilən bütün təbii ehtiyatlar Qarabağın dağlıq ərazisində yayılmışdır. Bu ehtiyatların bəziləri sənaye əhəmiyyətlidir ki, işğal altında olduğu zaman onlardan qeyri-qanuni və intensiv sürətdə istismar edilmişdir. Hazırda ərazinin gələcək sosial-iqtisadi inkişafında onlardan geniş istifadə edilməli, yeni sənaye müəssisələri açılmalı və ixrac olunacaq məhsulların təbliğatına xüsusi önəm vermək lazımdır. Qeyd olunan proseslər nəticəsində işsizlik problemi, tədqiq olunan ərazinin və ən əsası respublikamızda qeyri-neft sektorunun inkişafında əhəmiyyətli rol oynayacaqdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Torpaq və Xəritəçəkmə Komitəsinin 03 oktyabr 2005-ci il tarixli məlumatı

2. Hacıyev N. Dağlıq Qarabağ tarixindən sənədlər. Bakı, "Gənclik", 2005, 192 s.

3. Xəlilov Ş.B. Azərbaycanın ekocoğrafi problemləri Bakı: Nafta-Press, 2006, 160 s.

Hacıyeva Leyla Elxan qızı
Azərbaycan Dillər Universiteti

## QARABAĞ İQTİSADİYYATIN YENİ İNKİŞAF LOKOMOTİVİ KİMİ

Açar sözlər: Qarabağda quruculuq, prioritetlər, perspektivlər

Ключевые слова: Строительство в Карабахе , приоритеты, перспективы

Key words:Construction in Karabakh , priorities, prospects

Biz işğaldan azad olunmuş ərazilərdə Böyük Qayıdışın astanasındayıq.

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci ilin yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə dediyi kimi: “Bizim planlarımız böyükdür. Müharibə başa çatıb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin. Ona görə 2021-ci il bu baxımdan çox əlamətdar olmalıdır. Məhz 2021-ci ildə Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır, bizim planlarımız həyatda gerçəkləşir. Keçmiş köçkünlərə tezliklə öz doğma torpaqlarına qayıtmağı arzulayıram. Hər halda Azərbaycan dövləti əlindən gələni edəcək ki, bu gün daha da

yaxınlaşsın. Vahid Azərbaycan dövləti bundan sonra uğurla, inamla inkişaf edəcəkdir”. **[4].**

İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də öz əksini tapıb və bu məsələnin növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş milli prioritetdən biri olaraq müəyyən edilməsi Azərbaycan dövlətinin bu işə nə dərəcədə böyük önəm verdiyinin bariz nümunəsidir**. [5]**.

Dövlətimizin başçısının tapşırığı əsasında Azərbaycanda yaradılan iqtisadi siyasətin yeni strateji idarəetmə çərçivəsinə uyğun olaraq, Qarabağ bölgəsi davamlı inkişaf etdirilərək ölkə həyatına reinteqrasiya olunacaq. Qarabağın inkişaf strategiyası vaxt ardıcıllığı və bölgələr nəzərə alınmaqla aşağıdakı prioritetlər üzrə həyata keçirilə bilər. Belə ki, Qarabağın inkişaf strategiyasının həyata keçirilməsini təmin etmək üçün idarəetmə, monitorinq və qiymətləndirmə mexanizmi, həmçinin şəffaf və hesabatlı maliyyələşmə mexanizmi qurula bilər. Ərazidə iqtisadi infrastrukturun, o cümlədən, yol, meliorasiya-irriqasiya, elektrik, qaz, su, kanalizasiya və sair sistemlərinin yaradılması, bərpası və inkişaf etdirilməsi zəruridir. Eyni zamanda, ərazidə sosial infrastrukturun, o cümlədən, təhsil və səhiyyənin inkişafı vacibdir. İşğaldan azad olunmuş ərazilərdə dövlət və bələdiyyə idarəetmə orqanlarının fəaliyyətinin tam təmin edilməsi, rəqabətqabiliyyətli iqtisadi sahələrin inkişaf etdirilməsi və məşğulluğun, o cümlədən, özünüməşğulluğun təmin olunması prioritet olmalıdır. Məcburi köçkünlərin mərhələlərlə iqtisadi və sosial məsələlər nəzərə alınmaqla öz yerlərinə qayıtması, insan kapitalının inkişafı, dövlət sərmayələri ilə

yanaşı, xarici və yerli sərmayənin cəlb olunması, sahibkarlığın, xüsusilə də mikro, kiçik və orta biznesin inkişafının dəstəklənməsi, iqtisadiyyatın innovativ həllər, yeni texnologiyalar, yaşıl iqtisadiyyat və dövri iqtisadiyyat prinsiplərinə uyğun inkişaf etdirilməsi də prioritetlər arasındadır. Azərbaycanda əmək ehtiyatlarının sabit qaldığı şəraitdə kapitalın - əsas fondların çoxalması kapitaltutumlu iqtisadi artımı sürətləndirir. Yaradılan yeni əsas fondlar müasir texnologiyalara əsaslandığından daha çox fondverimliliyi, yəni hər manat kapitala düşən məhsulu artıracaq. Digər tərəfdən də, Solou modelinə görə Qarabağda kapital qoyuluşu sıfırdan başladığına və tarazlıq nöqtəsinə (steady-state level) məsafə çox olduğuna görə daha çox dəyər yaradacaq. Necə ki, İkinci Dünya müharibəsindən sonra Almaniya və Yaponiya dağıntların üzərində rəqabətqabiliyyətli iqtisadiyyat qurdular. Qarabağda dövlət sərmayələri katalizator, qeyri-dövlət sərmayələri isə drayver olacaq. Təsadüfi deyil ki, bu günlərdə Standard & Poor's (S&P) agentliyi Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren kredit reytinqini "BB+/B" səviyyəsində təsdiqləyib, reytinq üzrə proqnozu isə "mənfi"dən "stabil"ə yüksəldib. Agentlik bunu Qarabağın azad olunması və atəşkəs razılaşmasının imzalanması nəticəsində təhlükəsizliyin, maliyyə sektorunun və tədiyyə balansının risklərinin azalması ilə əsaslandırıb”. **[1].**

Qarabağda dağ-mədən, metallurgiya, emal sənayesi, ərzaq istehsalı, elektrik enerjisi istehsalı, meşə sənayesi və kreativ sənayenin inkişafı imkanları var. Həmçinin, meşə sənayesinin və turizm industriyasının inkişafı üçün Kiçik Qafqazın dağlıq zonasının iri meşə massivi əhəmiyyətlidir: “Regionun ümumi meşə sahəsi təxminən 246,7 min

hektardır, o cümlədən 13,2 min hektar qiymətli meşə sahələridir. Ölkəmizdə xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi hazırda 890 min hektara çatdırılıb ki, bunun da 42,3 min hektarı işğalda olub. İşğala son qoyulduqdan sonra Qarabağın dağlıq və Aran hissələri sənaye istehsalı nöqteyi-nəzərindən inteqrasiya olunacaq”. **[2]**.

Sovet dövründə Dağlıq Qarabağ Aran Qarabağla və Azərbaycanın digər iqtisadi rayonları ilə sıx iqtisadi əlaqədə inkişaf edib: “Bütün istiqamətlərdə keçən yollar bu iki ərazini iqtisadi cəhətdən bir-birinə möhkəm bağlayıb. Dağlıq Qarabağın ərazisində yerləşən müəssisələrin böyük əksəriyyəti Azərbaycanın rayonlarından gətirilən yanacaq, xammal və materiallar əsasında işləyirdilər, bir çoxu isə Bakının iri müəssisələrinin filialları kimi fəaliyyət göstərirdi. 1985-ci ildə Xankəndidəki İpək Kombinatına daxil olan barama xammalının 8 faizi Dağlıq Qarabağın özündə istehsal olunurdu. Yerdə qalan 92 faizi isə Azərbaycanın digər rayonlarından gətirilirdi. Dağlıq Qarabağ Vilayətinin 1986-cı ildə həyata keçirdiyi iqtisadi əlaqələrin həcminin cəmi 0,3 faizi, idxalının isə 1,4 faizi Ermənistan SSR-in payına düşdüyü halda, keçmiş vilayətdə istehsal olunan məhsulun 33,3 faizi Azərbaycanın qalan ərazisində realizasiya olunurdu. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Xankəndi vaxtilə birbaşa Azərbaycan dəmir və avtomobil yollarına və bütövlükdə respublikanın nəqliyyat-kommunikasiya sisteminə sıx bağlanıb”. Xankəndidən dəmir yolu ilə Bakıya qədər olan məsafə 392 km-dir. Bir sözlə, işğala qədər Qarabağ həmişə Azərbaycan iqtisadiyyatının bir parçası olaraq inkişaf edib. **[3].**

İqtisadi artıma təsir göstərəcək amillərdən iqtisadiyyatın özünün səmərəliliyi və insan kapitalı amili Qarabağda mühim əhəmiyyət kəsb

edəcəkdir. Prezident İlham Əliyev Qarabağda yeni, daha səmərəli idarəetmə modelinin anonsunu verdi, hətta Prezidentin xüsusi nümayəndəliyi institutunun yaradılması barədə göstəriş verildi, Qarabağ Dirçəliş Fondu yaradıldı. Bu, inkişafın Qarabağ modelinin əsasının qoyulmasıdır və uğur qazanacağı təqdirdə Azərbaycanın qalan ərazisində də tətbiq ediləcək. Qarabağda smart region yanaşması tətbiq edilir: müasir şəhərsalma, 4-cü sənaye inqilabının çağırışlarına uyğun yanaşma, xarici kapital və ən əsası yeni idarəetmə modeli. Ermənistan üçün yükə və buxova çevrilən Qarabağ, Azərbaycan üçün inkişafın drayveri və ilham mənbəyidir."

**Ədəbiyyat siyahısı:**

**1.** https://xalqqazeti.com/mobile/az/news/68852

**2.** http://www.garabagh.net/content_184_az.html

**3**. http://shusha.az/ermənistanin-azərbaycana-təcavuzu/

**4.** Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib. https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_sedrliyi_ile_2020_ci_ilin_yekunlarina_hesr_olunmus_videoformatda_musavire_kechirilib_YENILANIB_VIDEO-1682565

**5.** https://president.az/articles/47685

Hacıyeva Xatirə Ziya qızı
Azərbaycan Dillər Universiteti

# Azərbaycan Avropa İttifaqı ilə yeni saziş ərəfəsində

*Təhlükəsizlik, siyasi inkişaf, ticarət, enerji, nəqliyyat,multukulturalizim kimi bütün vacib məsələləri özündə ehtiva edəcək yeni sazişlə biz Avropa İttifaqı ilə münasibətləri uğurla inkişaf edəcəyinə ümid edirik.*

*Prezident İlham Əliyev.*

Açar sözlər: Avropa İttifaqı, Cənubi Qafqaz, əməkdaşlıq
Ключевые слова: Евросоюз,Южный Кавказ, сотрудничество.
Keywords: European Union, South Caucasus, cooperation.

Azərbaycanın xarici siyasət prioritetlərindən biri Avropanın aparıcı təşkilatlarından olan Avropa İttifaqı ilə münasibətlərdir. Bu münasibətlərin hüquqi əsası 1996 cı il aprelin 22də Lüksemburqda imzalanmış “Aİ ilə Azərbaycan arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş”ilə qoyulmuşdur [2 səh.79]. Saziş bölgənin bütün ölkələri ilə minimal 10 il müddətinə imzalanmış və onu imzalayan bütün dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra 1999-cu il iyulun 1-də qüvvəyə minmişdir [7].Tərəfdaşlıq və əməkdaşlıq sazişi Azərbaycanla Avropa İttifaqı, onun üzv dövlətləri arasında ticarət, investisiya, iqtisadi qanunvericilik və mədəni əməkdaşlıq, immiqrasiya, qeyri-qanuni ticarətin qarışsının alınması və digər sahələrdə münasibətləri əhatə edən ümumi sənəddir. Bu saziş çərçivəsində indiyədək ikitərəfli əlaqələrə dair 3 layihə TACİS texniki yardım layihəsi, TRASEKA regional layihə və İNOGATE hazırlanıb. Sazişin imzalandığı zamandan keçən müddət ərzində tərəflər arasında perspektivli əməkdaşlıq istiqamətləri daha da inkişaf edib.Avropa İttifaqının Azərbaycandakı nümayəndəsi səfir Kestutis Yankauskasın dediyinə görə Brüssel Azərbaycanla əməkdaşlıqda “yaşıl İqtisadiyyat,kiçik sahibkarlıq,regionların inkişafı,təhsilin və səhiyyənin dəstəklənməsi kimi sahələri əsas götürür.Bunlar Azərbaycanda dayanıqlı inkişafa kömək üçün nəzərdə tutulur [9] Lakin bilirik ki,TƏS 10 il

müddətinə imzalanmış və 2009-cı ildə sazişin icra müddəti bitdiyi üçün icrası hər il 1 il müddətinə uzadılır.Bu gün Azərbaycan və Avropa yeni saziş imzalanması ərəfəsindədirlər.

Azərbaycanla Avropa İttifaqı arasında mövcud olan tərəfdaşlıq münasibətləri bütövlükdə Cənubi Qafqazın geosiyasi gələcəyi üçün çox əhəmiyyətlidir.Keçən əsrin 90-ci illərindən başlayan bu münasibətlərin dinamikası zaman zaman fərqli olub.Aİ-nin qonşuluq siyasətinə etdiyi düzəlişlər fonunda 2015-ci ildən bu yana müşahidə edilən sürətli geosiyasi dəyişikliklər Brüssel Bakı xəttində də maraqlı yeniliklərə səbəb olmaqdadır. Ekspertlər Qarabağ müharibəsindən sonra Aİ ilə Azərbaycan arasında münasibətlərin hansı xətt üzrə inkişaf edəcəyi ilə ciddi maraqlanırlar.Müxtəlif təhlillər aparılır proqnozlar verilir.Bütün bunların fonunda Aİ Azərbaycan münasibətlərinin hazırki mərhələdə ziddiyyətləri və perspektivləri üzərində geniş dayanmağa ciddi ehtiyac vardır. Bu problem hər iki tərəf üçün ciddi surətdə aktuallığını saxlayır. Ona iki nöqteyi nəzərdən baxmaq olar.Birincisi Avropa İttifaqının hələ də dünyanın böyük geosiyasi güclərindən biri olması ilə bağlıdır. Faktiki olaraq Aİ hazırda böyük bir məkanda geosiyasi balans yaratmaq funksiyasını yerinə yetirir.[8] Eyni zamanda Avropa İttifaqı Cənubi Qafqaz dövlətləri ilə (həm “Şərq Tərəfdaşlığı”proqramı çərçivəsində, həm də ikitərəfli əlaqələr müstəvisində) münasibətlərin qurulmasında müəyyən təcrübəyə malikdir. Belə ki, 1992-ci ildən başlayaraq Aİ müxtəlif proqramlarla region ölkələri ilə əlaqələrində bu təcrübədən istifadə edir.

İkinci nöqteyi nəzər Azərbaycanın son illər ərzində sürətli iqtisadi inkişaf yolu keçməsi,müstəqil siyasətini daha da təkmilləşdirməsi ilə ikinci Qarabağ müharibəsində əldə etdiyi parlaq qələbə sayəsində regionda geosiyasi balansı yeniləşməsi ilə bağlıdır.[1]

Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft diplomatiyasını uğurla davam etdirən Cənab İlham Əliyev müxtəlif obyektiv və subyektiv çətinliklərin öhdəsindən gələrək 2006 –cı ildə Bakı-Tbilisi-Ceyhan, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum kimi nəhəng neft və qaz marşurutlarının reallaşmasına nail oldu. 2011-ci ildə Avropa Komissiyası ilə Azərbaycan arasında Strateji əməkdaşlıq və enerji sahəsində Anlaşma Memorandumu,

növbəti ildə isə TANAR-ın çəkilişinə dair Azərbaycan və Türkiyə arasında tarixi saziş imzalandı.

Prezident İlham Əliyev Cənub qaz dəhlizi layihəsinin uğurunu təmin edən səbəblərdən bəhs edərkən xüsusi olaraq aşağıdakı amilləri ön plana çəkmişdir: “Enerji siyasi alət kimi istifadə edilməməlidir. Hesab edirəm ki, Cənubi Qaz Dəhlizi sazişində göstərdiyimiz nümunə nümayiş etdirir ki, enerji ilə siyasət ayrılanda uğur əldə edilə bilər.”[4]

2017-ci il sentyabrın 14-də Heydər Əliyev mərkəzində “Azəri”, “Çıraq” və “Günəşli” yataqları üzrə yeni sazişin imzalanması ilə bu yataqların işlənməsi 2050-ci ilə qədər uzadıldı.

Regionda çox böyük nəqliyyat layihələri icra olunmaqdadır. Şərq-Qərb nəqliyyat marşurutu artıq reallaşmaqdadır. 2017-ci ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasından sonra artıq bu marşut fəaliyyətdədir.

Çindən gələn ilk qatar Bakı-Tbilisi-Qars dəmir yolundan keçərək Avropaya çatmışdır.

Davos Dünya İqtisadi Formunun 2019-cu il üçün qiymətləndirilməsinə əsasən, Azərbaycan dəmir yollarının səmərəliliyinə görə dünyada 12-ci, hava yollarının səmərəliliyinə görə isə 11-ci yerdədir. Heydər Əliyev Beynəlxalq hava limanı dünyadakı beş ulduzlu 10 hava limanından biridir.

Son illər Azərbaycanın mədəniyyətlərarası dialoq məkanına çevrilməsi faktı da qlobal əhəmiyyət kəsb edən məsələlərdəndir. “Multukulturalizm bizim adət-ənənəmizdir. Multukulturalizm-dövlət siyasəti və ictimai sifarişdir. Multukulturalizm bizim həyat tərzimizdir” –deyən Prezident İlham Əliyevin təşəbbüsü ilə keçən il 10 illiyini qeyd etdiyimiz “Bakı prosesi” nin əsası qoyulmuşdur. Bu təşəbbüs BMT çərçivəsində yüksək dəyərləndirilmişdir.[3]

2015-ci ildə tarixdə ilk dəfə olaraq I Avropa Oyunlarını keçirən Azərbaycan Respublikası 2017-ci ildə IV İslam Həmrəylik Oyunlarına ev sahibliyi etməklə mədəniyyətlər arasında unikal körpü rolunu oynamış və idman vasitəsilə sivilizasiyalarla barışıq və dialoqa böyük töhfə vermişdir.

Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində Azərbaycanın hərbi üstünlüyüdə təmin edilmişdir. Bu bir həqiqətdir ki, Azərbaycan ordusu dünyada ən güclü 50 ordu sırasındadır.

Son illər ərzində ölkəmizdə 20 hərbi zavod tikilib istifadəyə verilmişdi. Bu zavodlarda 1200 adda hərbi təyinatlı məhsullar istehsal edilir.

Bu gün dünya birliyi də Azərbaycanın gücünü və inkişafını görür və qəbul edir. Prezident İlham Əliyevin səsləndirdiyi "Azərbaycan tarixində hec bir zaman indiki qədər güclü və qüdrətli olmayıb" fikrini təsdiqləyirlər. ABŞ-ın nüfuzlu " U.S.News and World Report" jurnalının acıqlandığı 2019-cu ildə dünyanın ən güclü ölkələrinin reytinq siyahısında Azərbaycan 80 ölkə arasında 45-ci yerdə qərarlanmışdır.[1]

2019-cu ilin dekabr ayında Çin Xalq Respublikasının Uhan şəhərindən başlayaraq dünyanın bütün ölkələrini əsarətə alan koronovirus pandemiyası dünya iqtisadiyyatında yeni və daha ağır böhran təhlükəsi yaratdığı kimi, Azərbaycana da təsirsiz qalmamışdır. Prezident İlham Əliyevin və ölkəmizin Birinci vitse prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan Dövlətinin koronavirus infeksiyasına qarşı mübarizədə həmrəylik, birlik və məsuliyyətimizi daha da möhkəmləndirməklə bağlı çağırışları yalnız bir məqsədə Azərbaycan Respublikasını bu qorxulu infeksiyanın fəlakətli nəticələrindən hifs etməkdir.

2018ci ilin iyulun 11-də Avropa İttifaqı ilə Azərbaycan arasında qəbul olunmuş "Tərəfdaşlıq Prioritetləri" adlı sənəddə bir çox məsələlər öz həllini tapmaqla yanaşı, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə sərhədlərimizin toxunulmazlığına dəstək və hörmət ifadə olunur.

2019-cu il iyulun 9-da Avropa Şurasının Prezidenti Donald Tuskun Azərbaycan Respublikasına səfəri zamanı keçirilən görüşdə Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, Avropa İttifaqı ilə Azərbaycanın gələcək əməkdaşlığını planlaşdıracağıq. 2020-ci il mayın 11-də Avropa Parlamentinin məruzəçilərinin bəyanatında işğal faktının Avropa təşkilatları tərəfindən də təsdiqini tapdığını göstərilir.Beləki Avropa Parlamentinin Azərbaycan üzrə məruzəçisi Yelena Zavkov,Ermənistan üzrə mərüzəçisi Trayan Basesku,Cənubi Qafqaz üzrə Parlament əməkdaşlıq komitəsinin həmsədri Mariya Kalyurand tikiləcək maqistral yol ilə bağlı bəyanat yaydılar [7]. Bu yol Ermənistan ilə Azərbaycanının işğal altında olan Dağlıq Qarabağ bölgəsini birləşdirməili idi.Bəyanatda bu maqistralın tikintisi beynəlxalq hüququn pozulması kimi göstərilir.

Azərbaycan Prezidenti İlham Əliyevin dünyanı heyrətləndirən qətiyyətli addımı münaqişənin nizama salınmasında dönüş nöqtəsi oldu. Belə

ki,Azərbaycan BMT-nin Dağlıq Qarbağla bağlı qətnamələrini və Aİ-nin qəbul etdiyi bəyanatları 44 günlük Vətən müharibəsi ilə həyata keçirməyə başladı.Bunun doğru addım olduğuna şübhə ilə yanaşan Aİ,ATƏT-in Minsk qrupunun həmsədr ölkələri və dünyanın digər güc mərkəzləri tezliklə yanıldıqlarını etiraf etdilər. Çünki,Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanı İlham Əliyevin çox uğurlu fəaliyyəti, ordunun yüksək peşəkarlığı,cəmiyyətin sıx birliyi sayəsində cəmi qırx dörd gün müddətində Ermənistan ordusu darmadağın edildi.[1]

Hərbi əməliyyatların gedişində Avropanın üç aparıcı dövləti Almaniya,Fransa,Böyük Britaniya eyni mövqe tutmadı.Minsk qrupunun həmsədri kimi rəsmi Paris neytrallığa rəayət etməli olmasına baxmayaraq, Fransa tamamilə Ermənistan tərəfində olduğunu göstərirdi.Hərbi əməliyyat günlərində real neytrallığını Almaniya saxlamış oldu.İngiltərə isə BBS-nin vasitəçiliyi ilə əhəmiyyətli dərəcədə azərbaycanpərəst mövqe tuturdu.[6]

Azərbaycanın postsovet məkanında demokratik dəyərləri olan müstəqil dövlət kimi mövqeyi Avropa İttifaqının artıq ikili standart və islamofobiya kimi hallara yol verməsinə son qoymalı idi. Beləliklə 44 günlük müharibədən sonra Brussel Aİ-Azərbaycan münasibətlərinə yeni dinamika vermək məcburiyyətində qaldı. Praqmatik prezident İlham Əliyev dəfələrlə vurğulamışdı ki,rəsmi Bakı Aİ ilə yeni sazişin imzalanmasına önəm verir

Saziş imzalanması ərəfəsində Azərbaycan Zəngəzur dəhlizinin açılmasına siyasi qətiyyət,iqtisadi iradə və tam hazırlıq nümayiş etdirib.Prezident İlham Əliyev bununla bağlı bildirir: “Hazırda biz Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən,Şərq-Qərb dəhlizinin tərkib hissəsi olaraq “Zəngəzur nəqliyyat dəhlizi” üzərində çalışırıq.Bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və loqistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək.”(6)

Yuxarıda aparılmış təhlillərdən belə nəticəyə gəlirik ki,Azərbaycanın Avropa təsisatları ilə münasibətləri ziddiyyətlərlə deyil,perspektivlərlə xarakterizə olunur.

2021-ci il iyun ayının 26-da Avropa İttifaqının üç ölkəsinin – Avstriya,Litva və Ruminiyanın XİN başçıları Aleksandr Şallenberq,Qabrilliks Landsberqis və Boqdan Auresku Aİ xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borellin tapşırığı

əsasında cənubi Qafqaza səfər ediblər.Səfər çərçivəsində nazirlər Azərbaycanda,Ermənistanda,sonra isə Gürcüstanda olublar.Ruminiya xarici işlər naziri Boqdan Aurresku Tiblisidə keçirilmiş mətbuat konfransında deyib: “Azərbaycanda olarkən bu ölkənin Cənubi Qafqazın sabitliyi və firavanlığında əsas rola malik olduğuna inandığımızı bildirdik.Biz ümid edirik ki,hazırda Azərbaycanla Aİ arasında müzakirə olunan yeni saziş bu ilin sonunadək imzalanacaq” [10]

İstifadə edilmiş ədəbiyyat.

1.Adıgözəlov K.İlham Əliyevin təşəbbüsləri yeni perspektivlər açır.New times.az –Analitik informasiya portalı.htt:/newtimes.az/az/

2.Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) məqalələr toplusu,Bakı Poliart MMC,2017,

3.Nəsirov E.İslahatçı Prezident və onun xarici siyasət kursu https:/apa.az/az/ (siyasi xəbərlər)

4.Bakıda Cənubi Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsinddə nazirlərin beşinci toplantısında Azərbaycan Prezidenti İlham Əliyevin nitqi.

5.Əhmədov E.Azərbaycanın xarici siyasətində Avropa İttifaqı ilə əlaqələr bərabər hüquqlu tərəfdaşlığa və əməkdaşlığa əsaslanır. Azər TAC 2020 23 iyun

6.Amaeв T.Глобальная стратегия Европейского Союза во внешней политике и политике безопастности.https: //europa.eu archives/docs / ru/

7.Жан-Марк Эйро,Любомир Заоралек. Движение к стратегической автономии Европы https:// ru.амвафрансе org /Dvizhenil-k strategicheskoj-avtonomii-Evropy.

8.Piening Ch.Clobal Europe: European Union in world Affairs, London 1997,p8

9. Aİ ilə Azərbaycan arasındakı əməkdaşlıqda prioritet sahələr açıqlanıb. https :/moderator.az/ 38 4104.

10. Avropa İttifaqı: “Azərbaycanla yeni sazişin bu ilin sonunadək imzalanacağına ümid edirik”htttp.s : / www.mia.az.1016877#.

Hacıyeva Səidə Müzəffər qızı
AMEA A.A.Bakıxanov adına Tarix institutu

## Qarabağ münaqişəsi və İkinci Qarabağ Vətən müharibəsi dövründə Azərbaycan-Belarus münasibətləri

**Açar sözlər:** İkinci Qarabağ Müharibəsi, Azərbaycan-Belarus əlaqələri, hərbi əməkdaşlıq, azərbaycan diasporu, Minsk-İrəvan münasibətləri

**Ключевые слова:** Вторая Карабахская война, азербайджано-белорусские связи, военное сотрудничество, азербайджанская диаспора, отношения Минск-Ереван

**Key words:** The Second Karabakh War, Azerbaijani-Belarusian relations, military cooperation, Azerbaijani diaspora, Minsk-Yerevan relations

Belarus Respubliksı Azərbaycanın dünyada və MDB məkanında çox isti münasibətlərə malik olduğu ölkələrdəndir. Bakı və Minsk arasında qarşılıqlı maraq bir sıra amillərlə müşayət olunur. Bunlar içərisində Qarabağ münaqişəsi dövründə Azərbaycanın silahlara ehtiyacının olması, həmin ehtiyacı Belarusun qarşılamaq imkanları, eləcə də Belarusun enercidaşıuıcılar problemində Bakının köməyinə ehtiyac duyması mühüm yer tutur. Artıq, 2006-cı ildən başlayaraq Belarus Respublikasının rəhbərliyi arasında Azərbaycandan neft və neft məhsullarının gətirilməsi barədə fikirlər səslənir və bu ciddi reallıq olaraq nəzərə çatdırılır. 2007-ci ilin may ayında Belarus Respublikasının prezidenti A.Lukaşenkonun Azərbaycana növbəti səfəri zamanı dostluq və əməkdaşlıq haqqında müqavilənin imzalanması isthsal kooperasiyası sahəsində bir sıra

müştərək layihələrin həyata keçirilməsinin əsasını qoydu. Belə ki, Azərbaycanda Belarus markasına məxsus traktorların, yük maşınlarının, avtokran və liftlərin yığılmasına start verildi, Cəncə avtozavodu isə istehsal kooperasiyası sahəsində birgə əməkdaşlığın lideri kimi fəaliyyət göstərməyə başladı. 2008-ci ildə Azərbaycanın Belarusdakı səfiri A.Nağıyev iki ölkə prezidenti arasında Azərbaycan neftinin hasilatında Belarusnın iştirakı və Belarus ərazisindən nəqli barədə sənəd imzalandığını bildirir [8], 2009-cu ildə isə A.lukoşenko xammal tədrükünün genişləndirildiyini ictimaiyyətin diqqətinə çatdırır [1, s. 33-34]. 2005-2010-cu illər arasında Belarus ilə Azərbaycan arasında əmtəə mübadiləsinin 8 dəfə artması ölkələr arasında münasibətlərin inkişaf durumundan xəbər verirdi (5, s. 8—9.).

Azərbaycanla Belarus arasında iqtisadi əməkdaşlıqla yamnaşı hərbi əməkdaşlıq da daim aktual idi və diqqət mərkəzndə saxlanılırdı. Belə ki, 2006-cı ilin iyul ayında Azərbaycan Respubliksı Müdafiə Nazirliyinin nümayəndələri Minskdə işgüzar səfərdə oldular və qısa müddətdən sonra “hərbi əməkdaşlıq planları” barədə danışıqlar başladı (6, s. 9—13.). Qeyd etmək yerinə düşərdi ki, Azərbaycanla Belarus arasında hərbi əməkdaşlıq haqqında danışıqlar Azərbaycan tərəfin haqlı olaraq kəskin ritorikası ilə müşayət olunurdu. Belə ki, 2007-ci ilin noyabr ayında Azərbaycanın Müdafiə naziri S.Əbiyev “Ermənistan tərəfindən Azərbaycan əraziləri işğal altında olduğu müddətdə müharibə ehtimalı demək olar ki yüz faizdir” deyərək ölkənin işğalçılarla mübarizəyə hazırlaşdığını diqqətə çatdırdı [2]. 2005-2010-cu illər ərzində Azərbaycanın Belarusdan sovet və Rusiya istehsalı olan avadanlıqlar, həmçinin 60 tank alması barədə

məlumatlar var. Eyni zamanda xatırlatmaq istərdik ki, KTMT-nin üzvü olan Belarus  Qarabağ münaqişəsində haqlı tərəfin hansı ölkə olduğu barədə konkret ifadələrdən heç zaman istifadə etməmiş, BMT–nin bununla bağlı səsvermələrində ya iştirak etməmiş, ya da bitərəflik nümayiş etdirmişdir [4, s.443].

2010-2011-ci illərdə Rusiya-Belarus münasibətlərinin növbəti gərginləşməsi fonunda Minsk neft tədarükü məsələləri ilə əlaqədar Bakı ilə münasibətlərini daha da genişləndirir. Rusiyadan aldığı qaz müqabilində borcunu ödəyə bilməməsi Minskin suverenliyini də təhlükə altına qoyurdu və bu çətin zamanda Azərbayan Belarusun kredit barədə müraciətini laqeyid qarşılamadı [4, s. 444]. MDB məkanı və dünyada Azərbaycanın ən yaxın tərəfdaşlarından biri olan Belarus Respublikası ilə münasibətlərin İrəvanı qəzəbləndirməsi aşkardır və müəyyən iqtisadi-ticarət əlaqələrinə baxmayaraq, eyni təşkilat üzvü olan bu iki ölkə arasında münasibətləri qənaətbəxş adlandırmaq olmaz. İrəvan Minskin Bakıya silah satmasından narazıdır və bildirir ki, bu silahlar tərəfdaş olduğu halda ona tərəf tuşlanacq. Minsk isə  Bakıya "Polonez"  raket sistemləri satmasından daha əvvəl Rusiyanın Ermənistana "İsgəndər" satmasını əsas gətirərək İrəvanın iradlarını rədd edir [8].

Azərbaycan və Belarus prezidentlərinin yaxın dost münasibətləri ilə yanaşı Belarusda yaşayan Azərbaycan diasporu da bu münasibətlərin yüksək səviyyədə saxlanılmasına cidd-cəhdlə çalışır. Bu ölkədə yaşayan azərbaycanlılar əsasən biznes sahəsində təmsil olunsalar da, dövlət xidmətində çalışanlar da az deyil. Belarusdakı Azərbaycan icmasının lideri peşəkar idmançı Natiq Bağırov Sovetlər Birliyinin dağılmasından bir qədər əvvəıl Belarusda yaşamağa başlasa da ölkəsi ilə əlaqələrini qoruyub

saxlamış və Azərbaycan-Belarus əlaqələrinin yüksək səviyyədə davam etməsi üçün bütün imkanları səfərbər etmişdir [3].

Hazırda Azərbaycan-Belarus əlaqələri strateji tərəfdaşlıq mərhələsinə qədəm qoyub. Belarus nəinki hərbi-texniki əməkdaşlığı davam etdirməkdə, eyni zamanda azad edilmiş ərazilərdə infrastrukturun bərpa edilərək inkişafında maraqlıdır. Regionda nəqliyyat kommunikasıyalarının qurulması Belarusu cəlb edir, əmttə dövriyyəsinin yarım milliard dollara yaxınlaşması isə geniş perspektivlərdən xəbər verir.

İstifadə olunmuş ədəbiyyat

1. Ганбаров Б.А. Республика Беларусь во внешней политике Азербайджанской Республики в 2001—2012 гг. 2-е изд. Минск: Право и экономика, 2014
2. Глава Минобороны Азербайджана назвал вероятность войны с Арменией «почти 100-процентной» // NEWSru.com. 27.11.2007. URL: https://www.newsru.com/ world/27nov2007/azerwar100.html—müraciət tarixi 02.07.21
3. Глава диаспоры об отношении азербайджанцам в Беларуси. https://ru.oxu.az/politics/285005—müraciət tarixi 06.07.21
4. Гронский А.Д. Отношения Белоруссии с Азербайджаном (2005—2018 гг.): между экономикой и поиском политической опоры. Вестник РУДН. Серия Международные отношения, 2019, №3, s.439-449

5. Мировой кризис — это шанс для дальнейшего развития взаимовыгодного социально-экономического сотрудничества // Экспорт & Инвестиции. Минск: Восток-проект, 2010
6. Ниязов Н.С. Нагорно-Карабахский конфликт между Арменией и Азербайджаном и развитие военно-промышленного комплекса Азербайджана // Кавказ и глобализация. 2012. Т. 6. Вып. 2.
7. Полонезы, авиацию, танки, ЗРК продала Белоруссия Азербайджану за 10 лет. https://regnum.ru/news/polit/2525478.html— müraciət tarixi 06.07.21
8. Страны бывшего СССР сближает нефть // Neftegaz.RU. 28.05.2008. URL: https://neftegaz.ru/news/ view/79402-Strany-byvshego-SSSR-sblizhaet-neft—müraciət tarixi 06.07.21

Həbibzadə Nərmin Elman qızı
Azərbaycan Dillər Universiteti

# QARABAĞIN BƏRPASI: SOSIAL-IQTISADI INKIŞAF PERSPEKTIVLƏRI

**Açar sözlər:** mədəni irs, yenidənqurma, sosial-iqtisadi inkişaf
**Key words:** cultural heritage, reconstruction, socio-economic development
**Ключевые слова:** культурное наследие, реконструкция, социально-экономическое развитие

Ötən ilə qədər dövlətimizin prioritet məqsədlərindən biri işğal altında olan torpaqlarımızı azad etmək idi. 44 günlük Vətən müharibəsində xalq, dövlət və ordu birliyi nəticəsində işğal altındakı torpaqlarımızın azad edilməsi isə dövlətimizin qarşısına yeni bir məqsəd qoydu: Qarabağın bərpası. Mənfur düşmənin torpaqlarımızı işğal etməsi azmış kimi, tarixi-mədəni abidələrimizi, məscidlərimizi məhv etməsi dini və mədəni dəyərlərə yüksək qiymət verən xalqımızın diqqətindən yayına bilməzdi. Bu cür abidələrin bədii dəyərlərinə zərər vurulması Azərbaycan xalqının mədəni irsinə qarşı bir təhdid ehtiva edirdi. Təsadüfi deyil ki, mədəni irsimizə göstərdiyi qayğı və diqqəti ilə seçilən Prezident İlham Əliyev ötən il xalqa müraciətində ərazi bütövlüyümüzün bərpa edilməsindən sonra bütün dini abidələrimizin də bərpa ediləcəyini bildirmişdi. Bu müraciətdən heç 1 il keçmədi ki, Ağdam məscidi, Şuşa məscidi və aşağıda daha ətraflı bəhs edəcəyimiz bir sıra tarixi abidələrimiz bərpa edildi.

Qarşıya qoyulmuş məqsədə çatmaq üçün görüləcək işlər heç də az maliyyə vəsaiti tələb etmir. Bərpa işlərinin aparılması üçün bu il dövlət büdcəmizdən 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub. Bundan başqa, Prezident İlham Əliyevin göstərişi ilə quruculuq işlərinin aparılması, azad edilmiş ərazilərdə sosial rifahın artırılması istiqamətində "Qarabağ Dirçəliş Fondu" da yaradılıb. Tarixi-mədəni abidələrimizin bərpası ilə yanaşı, Qarabağda tarazlı və dayanıqlı iqtisadiyyatın formalaşdırılması ilə bağlı addımların atılması gələcəyə mühüm perspektivlər açır. Ümumilikdə isə, erməni vandalizminin vurduğu ziyanın hesablanması üçün xarici mütəxəssislər cəlb edilir. Nəzərə alsaq ki tarixi-mədəni abidələrimiz ermənilər tərəfindən dağıdılıb, interyerləri dəyişdirilib, hətta təhqir edilib, bu halda biz bunu təcavüz, hətta bəşəri cinayət də adlandıra bilərik. Əlavə olaraq, təbii sərvətlərimizin, mis, qızıl və digər yataqlarımızın qanunsuz istimarı da beynəlxalq cinayətdir. Belə hesab etmək olar ki, Qarabağda dövlətimiz tərəfindən aparılan bərpa işləri həm mənəvi, həm də maddi xarakter daşıyır [1].

Azərbaycanın mədəniyyət beşiyi olan Şuşada bərpa və quruculuq işləri sürətli şəkildə davam edir. Şuşanın Prezident İlham Əliyev tərəfindən ölkənin mədəniyyət paytaxtı elan edilməsi Azərbaycan tarixinin, sənətinin və təbiətinin nadir incisi hesab edilən bu şəhərin xalqımız üçün mənəvi dəyərini ehtiva edirdi. Burada "Xarıbülbül" musiqi festivalının, "Vaqifin Poeziya Günləri"nin bərpa edilməsi qələbəmizin təntənəsini ifadə edirdi. Heydər Əliyev fondunun dəstəyi ilə Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi yenidən quruldu. Şuşada yerləşən məscidlər, mədrəsələr, imarətlər, hamamlar, məqbərələr, kilsələr, muzeylər və digər dini, tarixi, mədəni abidələr bərpa edilir. Şuşa şəhərinin

yuxarı hissəsində yerləşən Qazançı kilsəsinin bərpa olunması isə dövlətimizin öz mədəni irsimizlə birgə, xristian irsinə də diqqətini nümayiş etdirir. Beləliklə, Azərbaycan multikultural mühiti və tolerantlığı ilə mənfur düşməndən fərqlənir.

Qarabağda 600-dən çox kənd təsərrüfatı və sənayə müəssissələrini dağıdan erməni vandallarının əksinə, dövlətimiz xüsusi iqtisadi konsepsiyalar hazırlayır, iqtisadiyyatın inkişafına təkan verən aqrar-sənayə komplekslərinin tikintisinə, təbii ehtiyatların iqtisadi dövriyəyə daxil edilməsinə çalışır. Turizm obyektlərinin inşası isə bölgənin tanınması və rifahının artmasına təkan verəcək. Bölgədə yerləşən tarixi-mədəni abidələrin, o cümlədən qoruq və yasaqlıqların əsasında turizmin inkişafı üçün əlverişli şərait var. Xüsusilə, dünyanın ən qədim yaşayış məskənlərindən biri olan Azıx mağarasının burada yerləşməsi turizmin inkişafına böyük imkanlar açılır. Turizmin inkişafı istiqamətində Şuşada “Qarabağ” otelinin açılması da ciddi addımlardan biridir. Nəzərə alsaq ki, Şuşaya gələcək illərdə kütləvi turist axını olacaq, bu cür otellərin sayının artırılması zəruridir. Bu cəhətdən deyə bilərik ki, məqsəd yalnız viran edilmiş evləri bərpa etmək deyil, həm də sosial obyektlər və kommunikasiya şəbəkələri inşa etməkdir. Su, torpaq, meşə resursları kənd təsərrüfatının və turizmin, o cümlədən emal sənayesinin gücünü artırır ki, bu da, ölkəmizdə qeyri-neft sektorunun daha da sürətli inkişafı deməkdir. Hesablamalara əsasən, yaxın gələcəkdə Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarında inkişaf edən əsas sahələrdə məhsulun ümumi buraxılışı iki milyard manatdan çox ola bilər. Qarabağda üzümçülük, pambıqçılıq, baramaçılıq, tütünçülük, heyvandarlıq, eyni zamanda meyvə-

tərəvəz və bostançılığın inkişafı üçün lazımi şərait və imkanlar var. Bu da, ərzaq və emal sənayesinin inkişafı, hətta ərzaq təhlükəsizliyinin təminatına töhfə verə, heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsinin artmasına yol aça bilər. Ötən il süd və süd məhsulları üzrə özünütəminetməsi səviyyəsi 86,2%, ət və ət məhsulları üzrə özünütəminetməsi səviyyəsi isə 82,5% idi, ancaq işğaldan azad edilən ərazilərdə təsərrüfat fəaliyyəti bərpa ediləndən sonra şərait imkan verəcək ki, vəziyyət daha da yaxşılaşdırılsın. Azad edilən torpaqlarda olan su ehtiyatı da ölkəmiz üçün kifayət qədər əhəmiyyətlidir. Belə ki, bu ehtiyatlardan elektrik enerjisi istehsalı, meliorasiya və içməli suyun təminatı üçün istifadə ediləcək. Nəzərə alsaq ki, su ehtiyatlarımızın 72,7%-i ölkə xaricində formalaşırdı, bu halda su ehtiyatlarına çıxışların artması ölkəmiz üçün mühüm bir imkan yaradır. Bundan başqa, mineral su ehtiyatlarımızın da təxminən 40%-i bu regionun payına düşür. Üstəlik, bu suların həm qablaşdırılaraq satılması, həm də bu ərazilərdə kurort zonalarının yaradılması mümkündür [3].

Qeyd edək ki, bölgədə elektrik təchizatının təmin edilməsi istiqamətində xətlər çəkilir, yarımstansiyalar tikilir. Bundan başqa isə Qarabağda yol infrastrukturu yaradılır. Füzuli-Şuşa, Füzuli-Cəbrayıl, Füzuli-Hadrut, Horadiz-Zəngilan, Göygöl-Toğanalı-Kəlbəcər və digər avtomobil yollarının tikintisi regionda abadlaşdırma siyasətinin bariz nümunələridir. Üstəlik, Bərdə-Ağdam və Horadiz-Zəngilan-Ağbənd dəmir yollarının Zəngəzur dəhlizinə qədər uzanması geosiyasi qüdrətimizi daha da artıracaq. Füzuli Beynəlxalq Hava Limanının tikintisinin başa çatması isə bölgənin sürətli inkişafından xəbər verir. Yaxın gələcəkdə isə Zəngilan və Laçında hava limanlarının açılması planlaşdırılır. Yeni

nəqliyyat marşrutlarının fəaliyyətə başlaması isə regional sabitliyi və əməkdaşlığı möhkəmləndirir. Ümumilikdə, bütün şəhərlərin baş planlarının hazırlanması, dövlət başçımız tərəfindən “Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyasının hazırlanması haqqında sərəncamın imzalanması keçmiş köçkünlərin öz doğma dədə-baba torpaqlarına qayıtması və onlar üçün lazımi şəraitin yaradılmasını nəzərdə tutur [2].

Beləliklə, işğaldan azad edilən torpaqlarımızda bərpa, quruculuq və abadlaşdırma işlərinin aparılması regionun hərtərəfli inkişafına yol açacaq. İstər tarixi-mədəni irsimizin bərpası, istərsə də vahid iqtisadi konsepsiyanın hazırlanması ölkəmizdə yeni sosial-iqtisadi perspektivlər yaradacaq. Davamlı və dayanıqlı inkişaf isə “Böyük Qayıdış”ı sürətləndirəcək və keçmiş köçkünlərin əlverişli bir şəraitdə məskunlaşmasına imkan yaradacaq. 30 il ərzində tarixi torpaqlarımızı viran qoyan erməni vandallarının əksinə, biz birlikdə Qarabağı dirçəldəcək, onu hər zaman canlı saxlayacağıq, çünki əsl Vətən sevgisi bunu tələb edir!

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Akif Musayev, Mahir Zeynalov, Azərbaycan qəzeti, 2021 // science.gov.az/az/news/open/15789
2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin Nəşri, 2021. // medeniyyet.az/page/news/56966/Qarabagin-berpasi-uzre-butun-istiqametlerde-isler-baslanib.html

3. Vüsal Qasımlı: Qarabağın böyük iqtisadi potensialı var, 2020. // azertag.az/xeber/Vusal_Qasimli_Qarabagin_boyuk_iqtisadi_potensiali_var-1620053

Həyatova Firuzə Akif qızı
Azərbaycan Dillər Universiteti

## Azərbaycanın maddi-mədəni irsi və erməni vandalizmi

Açar sözlər: Vətən müharibəsi, mədəni irs, erməni vandalizmi.
Ключевые слова: Отечественная война, культурное наследие, армянский вандализм.
Key words: Patriotic war, cultural heritage, Armenian vandalism.

Ermənistanın 30 ilə yaxın davam edən hərbi təcavüz və işğalçılıq siyasəti nəticəsində Azərbaycan Respublikasının çox əsrlik maddi və mədəni irsinə ciddi ziyan vurulmuşdur. Dağıdıcı prosesi ermənilər planlı və məqsədyönlü şəkildə həyata keçirmişdir. Bu azərbaycanlıların yaşayışının izini itirmək, mədəni kimliyimizi məhv etmək cəhdindən başqa bir şey deyil. Eyni zamanda Azərbaycan xalqına qarşı mədəni soyqırım dünya mədəni irsinə qarşı həyata keçirilmiş hücumdur.

Statistikaya əsasən 1990-cı illərin əvvəllərində işğal edilmiş ərazilərimizdə 2625 mədəni-tarixi abidə qeydə alınmışdır. Bunların sırasında 11 dünya əhəmiyyətli, 240 ölkə əhəmiyyətli və 455 yerli əhəmiyyətli olmaqla ümumilikdə 706 abidə dövlət tərəfindən mühafizə edilirdi. Eyni zamanda 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponata malik olan 22 muzey , 4 rəsm

qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı bu planlı vandalizmin qurbanına çevrilmişdir [1].

Ermənilərin əsas hədəflərdən biri dünyanın ən qədim yaşayış yerlərindən olan Azıx mağarası olmuşdur. Füzuli rayonun ərasizində yerləşən bu qədim abidədə qanunsuz arxeoloji qazıntılar aparılmış, onlarla maddi-mədəniyyat nümunələri mənimsənilmişdir.

Məscidlərin böyük əksəriyyətini dağıdan ermənilər beynəlxalq ictimaiyyətin gözündən pərdə asmaq üçün bir neçə məscidin qalıqlarını saxlamışlar. Lakin bu məscidləri iribuynuzlu ev heyvanları, donuz saxlamaq üçün tövləyə çevirmişdilər.

Ermənistanın işğal etdiyi ərazilərdə muzeylərdən əlyazmalar və digər dəyərli eksponatlar oğurlanaraq şəxsi kolleksiyalara, qara bazarlarda satışa çıxarılmışdır. Qarabağ xalçaçılıq məktəbinin ən nadir nümunələri talan edilmişdir. Hətta qəbirüstü abidələr belə erməni vandalizmindən öz nəsibini almışdır[4].

Bütün bunlarla yanaşı bir zamanlar dinc azərbaycanlıların yaşadıqları şəhərlər demək olar ki, yerlə bir edilmişdir. Uzunillik atəşkəs illərində Ağdam, Füzuli və digər şəhərlərdə bütün yaşayış evləri, ictimai binalar dağıdılaraq, yararsız hala gətirilmişdir [2].

Beynəlxalq konvensiyalara uyğun olaraq, mədəni irsin hədəfə alınması, müharibə cinayəti sayılır. Ermənistan 27 ildən çoxdur ki, Azərbaycanın işğal olunmuş ərazilərində bu cinayəti həyata keçirir [5, s. 440] Bu, cinayətlərə dair faktlar ATƏT-in 2005 və 2010-cu illərdə işğal olunmuş ərazilərdə fakt araşdırıcı missiyaları tərəfindən sənədləşdirilsə də artıq yeni reallıqlar yaranmışdır. Beynəlxalq medianın peyk şəkilləri və

hesabatları da bu qanuna zidd hərəkətlərin beynəlxalq humanitar hüquqa zidd olduğunu göstərir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə müzəffər Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində erməni işğalçılarına sübüt etdi ki, bu torpaqların əsl sahibi Azərbaycan xalqıdır. İkinci Qarabağ müharibəsində qələbədən sonra işğaldan azad olunan torpaqlarımızda geniş miqyaslı yenidənqurma və bərpa işləri həyata keçirilir. Eyni zamanda aparılan monitorinqlərin nəticəsində erməni vandallarının törəkdikləri cinayətlərin miqyasi və maddi dəyəri ölçülür, beynəlxalq məhkəmələrə müraciət etmək üçün müvafiq hüquqi sənədlər hazırlanır. Ermənistan beynəlxalq ictimaiyyət və hüquq qarşısında məsuliyyətə cəlb olunmalı və işğalçı dövlət barəsində müvafiq tədbirlər görülməlidir.

Ədəbiyyat siyahısı:

1. “Azərbaycanın tarixi və mədəni irsinə qarşı Ermənistanın törətdiyi cinayətlər” mövzusunda brifinq. 28.10.2020. http://mct.gov.az/az/umumi-xeberler/13291

2. Cəbiyev Q. Erməni vandalizminin həddi-hüdudu yoxmuş. “Xalq qəzeti”. 15.12.2020. https://science.gov.az/az/news/open/15378

3. Orucova N. Erməni vandalizmi: faktlar və rəqəmlər. “İki sahil “qəzeti. 30.09.2020. http://ikisahil.az/post/ermeni-vandalizmi-faktlar-ve-reqemler

4. Şahbazov T. Ermənistanın işğalı nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi ziyan, onun ödənilməsinin hüqiqu aspektləri. 13.10. 2018. https:// mod. gov.az/az/pre/24525.html

5. Zeynaloğlu C. Qarabağ dərdi, erməni vandalizmi. Bakı: UniPrint, 2014. 460 s.

Hüseynova Leyla Əhliman qızı
AMEA A.Bakıxanov ad. Tarix İnstitutu

# AZƏRBAYCAN RESPUBLİKASININ QARABAĞ QƏLƏBƏSİNİ ŞƏRTLƏNDİRƏN DİPLOMATİK AMİLLƏR

**Açar sözlər:** Dağlıq Qarabağ, beynəlxalq normalar, İkinci Qarabağ müharibəsi, üçtərəfli bəyannamə, antiazərbaycan qüvvələr.
**Key words:** Nagorno-Karabakh, international norms, the Second Karabakh war, trilateral declaration, anti-Azerbaijani forces.
**Ключевые слова:** Нагорный Карабах, международные нормы, Вторая карабахская война, трехсторонняя декларация, антиазербайджанские силы.

Azərbaycan Respublikası cəbhədə və diplomatiyada böyük qələbəyə imza atdı. Azərbaycan Respublikası, Rusiya Federasiyası və Ermənistan rəhbərlərinin noyabrın 10-da imzaladığı birgə bəyanat Azərbaycanın döyüş meydanında qazandığı parlaq qələbənin hüquqi müstəvidə rəsmi təsdiqidir.

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təcavüzünə cavab olaraq Azərbaycan Respublikasının Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan ordusuna cəbhə boyu əks-hücum haqqında əmr verdi. Bu qərarı nəinki Azərbaycan Respublikasının on milyonluq vətəndaşları, bütün dünyaya səpələnmiş əlli milyonluq bütöv Azərbaycan xalqı dəstəklədi. Qələbələrin zirvəsi Azərbaycanın dilbər guşəsi, mədəniyyət ocağı, milli qeyrət, milli mənlik simvolu olan Şuşa şəhərinin azad edilməsi oldu. Tarixi memarlıq ansanblı dağıntılara məruz qalmadan Şuşa azad edildi. Şuşanın azad edilməsi qısa zaman çərçivəsində

beynəlxalq hərbi ekspertlər, siyasi xadimlər tərəfindən təhlil edildi. Təbii ki, bu həssas yanaşmanı, duyarlılığı yalnız bu diyarın əsl sahibləri, əsl sakinləri edə bilərdi.

Beynəlxalq hüquq normaları çərçivəsində Azərbaycan Respublikasının öz ərazi bütövlüyünü bərpa etməsi 2020-ci ilin noyabrın 10-dan etibarən hərbi əməliyyatlardan Ermənistanın kapitulyasiyası mərhələsinə keçmişdir. İmzalanmış üçtərəfli bəyannamə 30 ilə yaxın həll olunması açıq qalan Qarabağ probleminin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həll edilməsi yolunda hərbi-diplomatik qələbədir.

Müharibənin başladığı ilk gündən bütün dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların nəzəri Azərbaycan Respublikasına kökləndi. İlk gün müşahidə mövqeyində duran beynəlxalq təşkilatlar hərbi əməliyyatların növbəti atəşkəs pozuntusu kimi qəbul etsə də, sentyabrın 27-də Müdafiə Nazirliyinin mətbuat xidmətinin "Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verilib." [1] məzmunlu bəyanatı beynəlxalq institutları bir-birinin ardınca bəyanatlar verməsinə səbəb oldu. İlk olaraq ATƏT-in Minsk qrupunun həmsədrlərindən, ABŞ-ın Dövlət Departamentindən, BMT-nin Təhlükəsizlik Şurasından, Avropa və Amerika ölkələrindən, eləcə də Rusiya prezidenti V.Putin, ABŞ prezidenti D.Tramp və Fransa prezidenti E.Makron tərəfindən birgə bəyanatların ümumi məzmunu: hərbi əməliyyatlar dərhal dayandırılsın, mülki əhalinin təhlükəsizliyinin təmin edilsin, Ermənistanla Azərbaycan Respublikası

arasında Dağlıq Qarabağ münaqişəsi haqqında ATƏT-in Minsk qrupu çərçivəsində yenidən danışıqlar başlasın.

Ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin diplomatik gedişi gecikmədi. Beləki, sentyabrın 28-də BMT-nin Baş katibi Antonio Quterreşin təşəbbüsü ilə onunla Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev arasında videokonfrans formatında görüş zamanı dövlət başçısı beynəlxalq təzyiqlərə qarşı prinsipial mövqe nümayiş etdirdi. İlham Əliyev bildirib ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur. Ermənistan rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib [4]. Azərbaycan Prezidenti söhbət zamanı bildirib ki, o, Ermənistanın yeni müharibəyə hazırlaşmasını BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışında qeyd edib, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll olunmalıdır. Beləliklə, İlham Əliyev Azərbaycan Respublikasının Qarabağ münaqişəsinin hərbi yolla həllinin beynəlxalq hüquqi normalar çərçivəsində həllinin təxirəsalınmaz yol olduğunu bəyan etdi.

Terrorçu Ermənistanın cəzasızlıq nəticəsində təhlükəli bir qüvvəyə çevrilməsini CNN-Türk televiziyasına Prezident İlham Əliyev

belə təhlil etmişdir: "İlk növbədə, PKK terror qruplarının düşərgələri Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarında mövcud idi. Bizdə olan yeni kəşfiyyat məlumatları, - bunların bir hissəsi artıq mətbuata da açıqlandı, - onların danışıqları, onların təmasları haqqında artıq sənədlər və audioməlumat var. Bu, bizdə heç bir şübhə doğurmayan bir məsələ idi." [6].

Beynəlxalq təzyiqlər fonunda Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsinə ilk diplomatik dəstək Türkiyə Cümhuriyyətindən gəldi. Sentyabrın 27-də öz tvitter hesabından "Azərbaycana qarşı hücumlarına bir yenisini də əlavə edən Ermənistan bölgədə sülh və dincliyin önündə ən böyük təhlükə olduğunu bir daha göstərdi. Türk milləti hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanındadır. Ermənistanın təhrikedici hücumları qarşısında gərəkli və lazımı bir münasibət ortaya qoymaması beynəlxalq birliyin ikili standartlarını bir daha göstərir. Təxminən 30 ildir ki, məsuliyyətsiz mövqe sərgiləyən Minsk üçlüyü də həll yolu axtarışına istiqamətlənən davranışlardan çox uzaqdır", - deyə R.T.Ərdoğan yazıb [2]. Türkiyənin dövlət başçısının qətiyyətli mövqeyi birmənalı qarşılanmasa da Azərbaycan Respublikasının haqlı mübarizəsinə əhəmiyyətli təsir göstərdi.

Beləliklə, Qarabağ zəfərini şərtləndirən diplomatik amilləri aşağıdakı kimi ümumiləşdirmək olar:

- Respublikada xarici və yerli medyaya şəffaf informasiya əldə etmək şəraiti yaradıldı;
- Ölkə başçısı tərəfindən ərazi bütövlüyünün beynəlxalq hüquq normaları çərçivəsində həll edilməsini ən ali əsas olaraq irəli sürüldü;

- Xarici təzyiqlərə, bəyanatlara dərhal diplomatik cavab verildi və dünya medyasına bəyan edildi;
- Münaqişə tərəfləri arasında vasitəçi olmağa çalışan dövlətlərə Azərbaycan Respublikasının prioritet maraqları baxımından cavab verildi;
- Terror aktlarına (Gəncə və Bərdə ş-də) maksimum dözümlü davranaraq yalnız diplomatik fəndlərlə cavab verildi.

Qırx dörd günlük Vətən müharibəsi dövründə Prezident İlham Əliyevin diplomatik məharəti, prinsipiallığı, dəqiq və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan Respublikası tarixi qələbə qazandı. Dövlət başçısının prosesi yüksək peşəkarlıqla, çevikliklə idarə etməsi, zəruri müdaxilələri diplomatik masada da bizi düzgün hədəflənmiş uğura doğru aparırdı. Ölkənin potensialı bütün platformalarda Ermənistanın işğalçılıq siyasətinin ifşa edilməsinə yönəldilmişdir. Dövlətimizin başçısı tərəfindən yürüdülən düşünülmüş siyasətin nəticəsidir ki, Ermənistan heç bir perspektivi olmayan dövlətə çevrildi.

**Ədəbiyyat:**

1. Bütün cəbhə boyu qoşunlarımız əks-hücum əməliyyatına başlayıb/Azərbaycan Respublikası Müdafiə Nazirliyinin saytı/ https://mod.gov.az/az/news/butun-cebhe-boyu-qosunlarimiz-eks-hucum-emeliyyatina-baslayib-32316.html
2. Cumhurbaşkanı Erdoğan: Ermenistan bölgedeki barışın en büyük tehdidi/ “Sözcü” qəzeti, İstanbul, 27 sentybr 2020.
3. Fransa qondarma “Dağlıq Qarabağ respublikası”nı tanımır // Xalq qəzeti, 27 noyabr 2020.
4. İlham Əliyevlə BMT-nin Baş katibi Antonio Quterreş arasında videokonfrans formatında görüş olub/Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı/ https://president.az/articles/41087

5. İlham Əliyevin “CNN International” televiziya kanalına müsahibəsi/Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı/ https://president.az/articles/42434
6. İlham Əliyev CNN-Türk televiziyasına müsahibəsi / Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı/ https://president.az/articles/42038

Hüseynova Nigar Lətif qızı
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

# Qarabağın bərpa və inkişaf layihələri

*Qarabağ ölkəmizin ən gözəl və bərəkətli regionlarından biridir. Bu regionun perspektivləri Azərbaycanın davamlı inkişafı üçün çox vacib olacaq. Regionun bərpası ilə bağlı bizi çox böyük işlər gözləyir.Biz bütün bu yerləri bərpa edəcəyik.*

*İlham Əliyev*

*Azərbaycan RespublikasınınPrezidenti*

**Açar sözlər:** Qarabağ, inkişaf, region, vəzifələr

**Ключевые слова:**Карабах, развитие, регион, задачи

**Key words:** Karabakh, progress, region, challenges

Ölkəmizin iqtisadi cəhətdən güclü və gözəl regiona çevrilmək üçün bütün imkanları vardır. Qarabağ kimi iri və böyük potensialı olan bir bölgədə irimiqyaslı, uzunmüddətli bərpa, dirçəliş və inkişaf prosesinə start verildiyi bir məqamda, bildiririk ki, ümumiyyətlə regionlarda iqtisadiyyatın və bütövlükdə məhsuldar qüvvələrin inkişaf istiqamətləri müəyyən edilərkən hər bir bölgənin fərqli xüsusiyyətləri və respublikamızın qarşısında duran ümumi strateji xarakterli vəzifələri nəzərə alınır.

Bu baxımdan Qarabağın işğaldan azad edilmiş rayon və şəhərlərinin əvvəlki həyatının yeni keyfiyyətdə bərpa və inkişaf etdirilməsi daha çox özünəməxsusluq kəsb edir.

Prezident İlham Əliyevin 02.02.2021-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" də də bununla bağlı bir sıra əhəmiyyətli məqamlar yer alıb. Strategiyada işğaldan azad edilən ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyanın, eyni zamanda, yeni beynəlxalq və regional nəqliyyat logistika dəhlizlərinin imkanlarından faydalanılması hesabına Azərbaycanın inkişafının sürətlənəcəyi vurğulanıb. Bununla da regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşacağı, eləcə də Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyənləşdirilməsində rolunun daha da möhkəmlənəcəyi diqqətə çatdırılıb [2].

Yeni reallıq iqtisadi rayonlaşdırmaya yeni yanaşmanı əsaslandırır. Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü, xüsusən Qarabağın bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasına töhfə verəcəkdir. Ölkədə iqtisadi idarə etmədə çevikliyin təmin olunmasına, institutsional islahatlar aparılmasına xidmət edəcəkdir. Xüsusən də iqtisadi rayonlar üzrə planlaşdırma işinin səmərəliliyini artıracaqdır.

Regionların sosial-iqtsadi inkişaf proqramı, eyni zamanda Qarabağın inkişaf strategiyası da iqtisadi rayonların yeni bölgüsünə uyğunlaşdırılacaqdır.

Cari ildən başlayaraq, növbəti illər ərzində də bu tədbirlərin daha geniş miqyasda davam etdirilməsi, öz doğma yurdlarına qayıdan vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün şəraitin təşkil edilməsi, sözügedən ərazilərdə iqtisadi fəaliyyətin bərpa olunması istiqamətində tədbirlərin maliyyələşdirməsinə ehtiyac vardır.

Bölgənin müasir şəhərsalma konsepsiyası əsasında ən mütərəqqi innovasiyaların tətbiqi ilə yenidən qurulması və eyni zamanda azad edilmiş ərazilərdə kifayət qədər alternativ enerji mənbələrinin mövcudlugunu nəzərə alaraq oranın “yaşıl enerji” zonasına çevrilməsi mühüm əhəmiyyət daşıyır.Belə ki, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla bölgənin şəhər və kəndləri “smart-city” (“ağıllı şəhər”), “smart-village” (“ağıllı kənd”) konsepsiyası əsasında yenidən qurulacaq, bu da, öz növbəsində həmin bölgədə turizm sahəsinin bütün növlərinin ən müasir səviyyədə təşkil və inkişaf etdirilməsinə şərait yaradacaq [3].

Azərbaycanın ərazi bütovlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtərəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu Böyük Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır.

Əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsas olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır. Bu stimullar əsasında və dövlət-özəl tərəfdaşlığın inkişafı çərçivəsində həyata keçirilmləidir. Yalnız belə şəraitdə işğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını təmin etmək mümkündür [1].

Bu məqsədlərə dövlət büdcəsindən ayrılacaq vəsaitlə yanaşı, yerli şirkətlərin rolunun artırılması, o cümlədən xarici investorların bu işlərə cəlb edilməsi də öz müsbət töhfəsini verəcək. Ümumilikdə, azad edilmiş ərazimizin vahid konsepsiya əsasında bərpası ölkənin iqtisadi potensialının genişlənməsinə səbəb olacaq. Bu ərazilərin reinteqrasiyası ölkə iqtisadiyyatına müsbət təsir göstərəcək, iqtisadi artıma səbəb olacaqdır. Qarabağın bərpa prosesi çoxşaxəli olduğu üçün nəinki həmin ərazilərdə, ümumilikdə ölkə iqtisadiyyatının bir çox sektorlarının inkişafı üçün yeni imkanlar yaranacaq. Məqsəd Qarabağı onun böyük imkanlarına uyğun olaraq hərtərəfli inkişaf etdirmək, modernləşdirmək, Azərbaycanın zəngin və iqtisadi cəhətdən ən güclü regionlarından birinə çevirməkdir.

**Ədəbiyyat siyahısı:**


1. www.qdf.gov.az
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı
3. www.economy.gov.az
4. www.rebuildkarabakh.az
5. Xalq Qəzeti, 2 iyun 2021-ci il

Hüseynova Ülviyyə Yadulla
Azərbaycan Dillər Universiteti

# BİRLƏŞMİŞ KRALLIĞIN QARABAĞ MÜNAQİŞƏSİNDƏ DÖVLƏT MARAQLARININ TƏHLİLİ

**Açar sözlər:** Böyük Britaniya, strategiya, Azərbaycan, Ermənistan.

**Ключевые слова**: Великобритания, стратегия, Азербайджан, Армения.

**Key words**: Great Britain, strategy, Azerbaijan, Armenia.

Birləşmiş Krallığın Dağlıq Qarabağ münaqişəsinə dövlət maraqları aspektindən yanaşmasını tədqiq etmək üçün Kembric Universiteti tərəfindən dövriyyəyə buraxılan səfir və diplomatların müsahibələrinə istinad etmək məqsədəuyğundur. Universitet tərəfindən dövriyyəyə buraxılan materiallarda 1992-95-ci illərdə Rusiya Federasiyasına və eyni vaxtı Ermənistan, Gürcüstan, Moldova və Türkmənistana, 1992-1993-cü illərdə isə həmçinin Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan və Özbəkistana göndərilmiş Britaniya səfiri Ser Brian Ceyms Protol Follun müsahibəsi yer almışdır: “*Azərbaycan böyük kommersiya marağı idi, nəzərəçarpan neft ehtiyyatları ilə, axırıncı yerdə BP olmayaraq, əsas Qərb neft şirkətləri üçün əhəmiyyətli maraq kəsb edirdi*”. Müsahibəyə əsasən Marqaret Tetçer BP-nin maraqlarını dəstəkləmək üçün Honq-Konqdan uçub gəlmişdi. Səfirin xatirələrinə görə: “*Minsk Qrupu Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ üzərində mübahisəni həll etməyə səy göstərmək öhdəliyi almışdı. Mən də Ter-Petrosyanın müşavirlərindən*

*biri ilə Birləşmiş Krallığın Minsk Qrupunun üzvlərindən biri ola bilmə haqqında söhbət etməli üzrə idim. Məncə biz bunun alına bilməməsi ilə bağlı mədəni səbəblərin olması faktı üzərində dayandıq. Ermənilər düşünürdülər ki, britaniyalılar neftə güclü mədəni marağa sahib olduqları səbəbindən güman ki, neytral qala bilməyəcəklər. Retrospektivdə aydın oldu ki, Minsk Qrupunda ranq və iş üzvü olmağın heç bir xeyiri yoxdur: üzvlər qarşısında ildə bir neçə dəfə, özü də xüsusi detallarsız hesabat verən üç həmsədrə diplomatik səylər etməyə mane olmağı hesaba almasaq, uzaqperspektivdə üzvlük (bizə) heçnə vermirdi. Siz Bakı və Yerevana Minsk Qrupunun üzvü olmayaraq da produktiv səfər edə bilərdiz*" [4, s. 68-69].

Qeyd edək ki, Kembric Universiteti cənab Foll 2002-2012-ci illərdə Britaniya hökümətinin Cənubi Qafqaza xüsusi nümayəndəsi kimi fəaliyyətindən bəhs edən müsahibəsini də dərc etmişdi.Rusiyanın Gürcüstana 2008-ci il müdaxiləsini təhlil edən diplomat daha sonra Cənubi Qafqazda 10 illik diplomatik fəaliyyətini belə ümumiləşdirmişdi:"*Ermənistan Dağlıq Qarabağda hüquqların 9/10-na sahibdir və hərbi əməliyyatlar kulminasiya səviyyəsində olanda Azərbaycandan tutduğu böyük ərazilərdə yerləşib; amma bunun əvəzində, o müharibəni davam etdirməli, nəzərəçarpan Rusiya nəzarətini qəbul etməli və sahibkarlarının əlçatan Bakıda inkişaf edə biləcəkləri biznes imkanlarından imtina etməlidir. Azərbaycan neft və qazı ilə özünü Sinqapur kimi, alternativ şəbəkənin olmadığı şəraitdə isə regionun təbii mərkəz kimi görməli və beləliklə irəli hərəkət etməlidir. Bunun yerinə isə o düzənliklər həddən artıq isti olduğu vaxtlarda qoyunlarını otaqrmaq üçün çəmənlik kimi istifadə etdiyi böyük tarixi dəyər kəsb edən dağlıq ərazi*

*parçasının bərpası naminə özünə milli ambisiyalar mərkəzi kimi qalmaq ixtiyarı verib*” [4, s. 78-79].Gördüyümüz kimi Azərbaycana qarşı qərəzli müxalifət təkcə Britaniya parlamentində deyil, həmçinin xarici siyasətin mərkəzi orqanlarında da formalaşmışdı.

Dərc edilən materiallar içərisində hökümətin 1993-95-ci illərdə Şərqi Avropa üzrə kiçik-katib köməkçisi olan Ser Rocer Bricland Bonun müsahibəsi xüsusi maraq kəsb edir. Müsahibədə diplomat Britaniyanın siyasi-iqtisadi maraqlarının Azərbaycanın tərəfində olduğunu qeyd etsə də, şəxsi simpatiyasının tam olaraq Ermənistanda olduğunu gizlətmir: “*Bizim neft məhsullarının əhəmiyyəti səbəbindən artıq Bakıda nümayəndəliyimiz var idi və biz digər iki yerdə də (Yerevan və Tiflisdə) səfirlik açdıq. Mən görüşdüyüm ermənilərdən çox təsirləndim. ...Dağlıq Qarabağ adlanan Ermənistan və Azərbaycanda mübahisəli ərazinin kiçik anklavı olan yerdə iyrənc kiçik müharibə gedirdi. Bunlar ölkənin bir kənarında baş verirdi, ölkənin o biri kənarında isə ermənilər türklər ilə daimi problemlərə malik idilər. ...Mən Yerevanda fəaliyyət göstərən yeganə hoteldə qalırdım və hoteldə gündə bir saat üçün elektrik toplayan generator var idi. Bu oktyabr-noyabr vaxtları idi və biz ermənilərlə hökümət departamentlərində görüşlərə gedəndə bütün günü üst geyimində idik. Lakin onlar elə alicənab və sivil insanlar idi ki, mən onlardan isinirdim. Mən özümü onların çıxılmaz yerində hiss edib, kədərli getdim*” [3, s. 38].

Münaqişənin tənzimlənməsi ilə bağlı Britaniya mətbuatında əks olunan və dövlətin xarici siyasət kursu ilə sıx əlaqəli olan modellər içərisində “Şotlandiya modeli” xüsusi qeyd edilməlidir. “Skotland Herald”

qəzetinə görə Şotlandiya modelinin Dağlıq Qarabağ münaqişəsi üçün perspektivləri Qərbin siyasi və intellektual institutları tərəfindən ciddi nəzərdən keçirilirdi. Məqaləyə əsasən, beynəlxalq vasitəçilər, o cümlədən amerikanlar Şotlandiya sülh modelini Dağlıq Qarabağ və Cənubi Osetiya və Abxaziya üçün istifadə etməyə cəhd edirdilər. Gürcüstan, Azərbaycan və Ermənistandan siyasətçilər Şotlandiyada 2003-cü ildə sülh danışıqlarında görüşdülər. Nəzəriyyə ondan ibarət idi ki, Şotlandiya stilində "*assimetrik devolyusiya*" mümkün kompromis ola bilərdi. ABŞ-ın Azərbaycanda sabiq səfiri Metyu Brayza Şotlandiya həllini regionda təqdim etmək istəyənlərdən biri idi. Vaşinqtonda yerləşən Brukinqs İnstitutundan Fiona Hill Qafqazdakı etnik gərginliyi uzun müddət müşahidə edib, məsələ barəsində belə izah vermişdi: "*Buş administrasiyası vaxtında, hansısa məqamda, Aleks Salmondun baxış sahəsində olmasa da, Dağlıq Qarabağ üzrə "Şotlandiya həlli" irəli sürülmüşdür. Bu ifadə altında standart kimi Şotlandiya olaraq Azərbaycan tərkibində Dağlıq Qarabağ üçün maksimal muxtariyyət nəzərdə tutulurdu. Şotlandiya, Dağlıq Qarabağ kimi uzun antoqonizm tarixli, ancaq XXI əsrdə müasir həll tapa bilən son dərəcədə müstəqil insanların qədim ölkəsi kimi nəzərdən keçirilirdi. Bu variant indi onu Dağlıq Qarabağ üçün müdafiə edənlərdə yoxa çıxıb*" [1].

Aparılan tədqiqat Dağlıq Qarabağ münaqişəsinin lap əvvəldən Britaniyanın siyasi dairələrində müzakirə olunduğunu müəyyən etdi. Araşdırmalar nəticəsində müharibə illərində Böyük Britaniyada Azərbaycana qarşı güclü siyasi müxalifətin mövcud olduğu bəlli oldu. Azərbaycana qarşı çıxış edən ən inadkar britaniyalı siyasətçilərin ittihamları siyasi, hüquqi, tarixi və məntiqi dəlillərin köməyi ilə təkzib

edilmişdir. Birləşmiş Krallığın bəzi nümayəndələrinin Xocalı soyqırımını yanlış formada təqdim etmə cəhdləri, Britaniya mətbuatında çıxan məqalələr daxil bir çox dəlillərlə ifşa edilmişdir. Krallığın ermənipərəst siyasi xadimlərinin parlamentdə çıxışları, habelə onların münaqişə ilə bağlı mətbuatda dərc etdikləri məqalə və məktublar, paraqraf daxilində tədqiq edilmişdir. Tədqiqat, ermənipərəst qüvvələrin şifahi və yazılı nitqində absurda aparma, fassinasiya və s. bu kimi manipulyativ ritorik fənnlərdən istifadə etməsini müəyyən etmişdir. Tədqiqat, həmçinin britaniyalı səfir və diplomatların nəzərəçarpan hissəsinin Ermənistana Azərbaycan qarşısında üstünlük verməsini bəlli etdi. Kembric Universiteti tərəfindən dərc edilən səfir və diplomatların müsahibələr toplusunun təhlili, müsahibələri yerləşdirilmiş bir sıra diplomatların Azərbaycana qarşı qərəzli mövqedən çıxış etməsini müəyyənləşdirdi.

**İstifadə edilən ədəbiyyat siyahısı:**

1. As Others See Us. The view from Nagorno-Karabakh: [Electronic resource] / November 26, 2012. URL: https://www.heraldscotland.com/politics/13082451.as-others-see-us-the-view-from-nagorno-karabakh/#
2. Barber, T. Azerbaijan: Threat of ripple effect in Nagorno-Karabakh conflict: [Electronic resource] / March 12, 2015. URL: https://www.ft.com/content/b8513050-be99-11e4-8036-00144feab7de
3. Bone, R. British diplomatic oral history programme recollections of Sir Roger Bone: [Electronic resource] / KCMG, recorded and transcribed by Suzanne Ricketts. –February 02, 2018. URL: https://www.chu.cam.ac.uk/media/uploads/files/Bone.pdf

4. Fall, B. British diplomatic oral history programme recollections of Sir Brian Fall: [Electronic resource] / GCVO KCMG recorded and transcribed by Catherine Manning – January 23, 2017. URL: https://www.chu.cam.ac.uk/media/uploads/files/Fall.pdf

Н.А.Ибрагимова
Бакинский славянский университет

# МЕТОДИКА РАБОТЫ НАД ВОЕННО-ПАТРИОТИЧЕСКОЙ ЛЕКСИКОЙ НА УРОКАХ РУССКОГО ЯЗЫКА В ШКОЛАХ С АЗЕРБАЙДЖАНСКИМ ЯЗЫКОМ ОБУЧЕНИЯ

***Açar sözlər*****:** söz, şagird, vətənpərvərlik, tədris, hərbi.
***Key words*****:** word, student, patriotism, teaching, military.
***Ключевые слова*****:** слово, ученик, патриотизм, преподавание, воинский.

Воспитание патриотизма и интернационализма у подрастающего поколения – одна из важнейших задач современности, тесно связанная с изучением русского языка. Особенно актуальна она в условиях национальной республики.

Русскому языку как учебному предмету в школах с азербайджанским языком обучения принадлежит большая роль в интернациональном воспитании учащихся. Именно русский язык сближает и объединяет людей различных наций и народностей, развивает и укрепляет дружбу народов. «Русский язык – язык дружбы и братства – органично вошел в жизнь миллионов … всех национальностей, приобщил их к богатствам мировой цивилизации, стал фактором исключительного социально-политического и культурного значения». [2]

Распространение и повсеместное изучение русского языка в Азербайджане, как и в других постсоветских республиках, рассматривается как объективный социально-исторический фактор. Сам по себе факт добровольного изучения азербайджанскими учащимися русского языка – факт интернационализма народа, ибо появление интереса у учащихся к изучению русского языка непосредственно связано с пробуждением у них любви и уважения к

русскому народу. Задача учителей русского языка школ Азербайджана – раскрыть перед учащимися богатства, красоту, общественную роль русского языка. Кроме того, перед учителями стоит и задача воспитания у учащихся патриотизма и готовности к защите своего Отечества.

Опыт военной истории нашей Родины учит, что без могучих Вооруженных Сил, без участия всего народа в защите демократического государства нельзя обеспечить безопасность страны. Воинский долг – высший патриотический долг каждого азербайджанца. Подготовка к его выполнению начинается со школьной скамьи на занятиях по начальной военной подготовке (НВП), которая является составным элементом военно-патриотического воспитания учащихся. На этих занятиях военный руководитель не только учит старшеклассников основам военного дела, но и проводит активную работу по воспитанию преданных, идейно убежденных патриотов демократической Родины, готовых в любую минуту встать на ее учащихся защиту, с честью выполнить свою почетную обязанность – служить в Вооруженных Силах Азербайджанской Республики, а после окончания этой службы трудиться на самых ответственных рубежах демократического строительства.

Военно-патриотическое воспитание старшеклассников представляет собой организованный и непрерывный процесс педагогического воздействия на сознание, чувства, волю, психику и физическое развитие школьника с целью формирования у него высоких нравственных принципов, выработки норм поведения, должной физической и практической подготовки к безупречному несению службы в рядах Вооруженных Сил, выполнению священного долга по защите Родины и содружества братских стран. В военно-патриотическом воспитании должен участвовать весь педагогический коллектив школы, общественные организации.

Весь процесс обучения начальной военной подготовке должен проходить в специально оборудованных классах, в которых имеются

стенды, рассказывающие об истории создания Вооруженных Сил Республики, подвигах людей, пожертвовавших своей жизнью ради возврата исконно своих исторических земель Карабаха, счастья грядущих поколений. Особое внимание уделяется подвигам юношей и девушек. В настоящее время актуальным является вопрос пропаганды жизни и деятельности ветеранов Карабахской войны и тех кто отдал жизнь за свободу родных земель.

Главное в воспитании подрастающего поколения в духе верности идеям великого Г.А.Алиева – наглядный пример и слово. Слово, которое поможет воспитать молодого человека беззаветно преданным Родине, сумеет направить его на верное служение Отчизне, на подвиг.

Успешная служба выпускников средних школ в рядах Вооруженных Сил во многом зависит от учителя русского языка, от его плодотворной работы по обучению будущих воинов русскому языку. Эта задача неразрывно связана с усвоением военно-патриотической лексики на уроках русского языка.

Военно-патриотическая лексика представлена в творчестве русских и азербайджанских писателей и поэтов, отрывки из произведений которых изучаются в школах с азербайджанским языком обучения.

Особое место в героико-патриотическом воспитании школьников занимают отрывки произведений, в которых рассказывается о высоком патриотизме азербайджанского народа в годы второй мировой войны. Из специальной военной лексики в текстах учащиеся встречаются с такими лексическими единицами, как **боец, батарея, разведчик, разведка, тыл, наступление**. К перечисленным словам можно добавить слова **бой, бороться, бесстрашный, смелый, сражаться, храбрый**. Эта лексика позволит расширить словарный запас учащихся. Она может быть легко усвоена, так как часто встречается в кинофильмах, книгах по внеклассному чтению. Все перечисленные выше, как и другие незнакомые слова, должны быть объяснены учащимся до начала

чтения текста или в процессе его чтения. Каждое новое слово ученики должны услышать в правильном произношении, увидеть в графическом выражении, понять его значение и научиться употреблять в своей речи. В вопросно-ответной беседе по тексту, помещенному в учебнике, и по расширенному пересказу учителем содержания произведения ученики должны активизировать перечисленную лексику, уметь передать содержание текста.

При проведении урока на военно-патриотическую тему учитель должен подобрать упражнения, в которых находят место слова и словосочетания, относящиеся к изучаемой теме: **война, выстрел, пистолет, курок, линия фронта, летчик, аэродром, документ, командирская книжка, караулить, самолет, командир эскадрильи, авиационный, полковой комиссар, офицер, армия, пуля, лейтенант, старший лейтенант, военно-воздушные силы, пехота, распоряжение, атака**.

В алфавитном словаре учебника даются следующие слова: **армия, воевать, командир, курок, служба**. Нам кажется недостаточным понимание значений только этих слов для восприятия всего текста. В активный запас могут быть включены слова: **аэродром, распоряжение, лейтенант, офицер, полковой**. Они очень употребительны, и их понимание и усвоение необходимо для будущих воинов.

Несмотря на то, что характер домашнего и классного чтения в 5 и 8 классах различен, в 8 классе, так же, как и в 5 классе, чтение каждого отрывка должно быть предварено словарной работой, которая позволит учащимся сознательно подойти к содержанию читаемого и обогатить их словарный запас. Объяснению, конечно, подлежит не только перечисленная лексика, но и все незнакомые слова и словосочетания.

Как известно, существуют разные способы семантизации слов на уроках русского языка: перевод слова на родной язык, подбор синонимов, антонимов, узнавание смысла слова по контексту, разбор слова по составу, морфологический разбор и т.п. Перевод – очень убедительный способ толкования слов, но его применение

ограничено сферой таких слов, значение которых полностью совпадает в обоих языках. Это, как правило, однозначные слова, между тем в текстах не всегда встречаются однозначные слова. Если в 5-6 классах основной способ семантизации перевод на родной язык, то начиная с 7 класса необходимо сочетать разные способы семантизации слов при работе над текстом, а не отдавать предпочтение какому-либо одному. В каждом конкретном случае учителю предстоит выбрать такой способ семантизации, который с наибольшей полнотой и ясностью раскроет значение слова.

1.Можно предложить учащимся подобрать синонимы к словам **бодрость, распоряжение, воевать**.

2.Подобрать антонимы к словам **опытный**, **энергичный**. Составить словосочетания с данными словами и употребить их в предложении.

3.При объяснении значений слов **разрывная** (**пуля**) и **полковой** (**командир**) поможет толкование на русском языке: **разрывная** – та, которая разрывает, **полковой** – относящийся к полку. При таком разборе учащиеся более сознательно подходят к выяснению значения слова.

Остановимся более подробно на работе, связанной с подачей и закреплением военно-патриотической лексики. Мы считаем, что словарная работа должна проводиться на каждом уроке русского языка. Использование на уроках слов из текстов для чтения способствует переходу от стадии усвоения слов учащимися к стадии активизации их в речи.

Тщательная, всесторонняя работа над словом способствует усилению эмоционального воздействия произведений героико-патриотического характера, что очень важно в деле патриотического воспитания будущего поколения.

Ниже мы предлагаем список слов, которые, с нашей точки зрения, должны войти в активный словарный запас учащихся средней школы: автомат, агрессия, армия, артиллерия, атака, бдительность, безопасность, бессмертный, бесстрашный, битва,

боевой, боеприпасы, боец, бой, борец, бороться, борьба, воевать, военный, воин, война, войско, вооружение, враг, враждебный, вражеский, выиграть (бой), выстрелить, герой, героический, героизм, генерал, гвардия, гражданин, гражданский, граница, десантник, доброволец, долг (воинский), допрос, драться (сражаться), захватить, захватчик, защита,, защитник, защищать, знамя, изгнать, иноземный, капитулировать, команда (воинская), командир, лейтенант, медаль, мир, мирный, мировой, мужественный, мужество, награда, наградить, наступать, наступление, независимость, непобедимый, непокорный, оборона, одержать (победу), оккупант, орден, отчизна, парад, победить, солдат, танк, танкист и т.д.

## СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ

1. Актуальные вопросы теории и методики преподавания русского языка. Материалы региональной конференции. Издательство Нижневартовского государственного гуманитарного университета. 2009, 119 с.

2.Алиев Г.А. Об основных направлениях реформы общеобразовательной и профессиональной школы. «Правда», 13 апреля 1984 г.

3.Методика русского языка  в школе. Под ред. Баранова М.Т. Учебник для студентов высших педагогических учебных заведений. Москва, Издательский центр «Академия», ACADEMA, 2001, 368 с.

İbrahimov Elçin
Азербайджанский Университет Языков

# İkinci Qarabağ savaşı və Azərbaycan-Türkiyə birliyi

*“Bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq”*
**Prezident İlham Əliyev**

*“Hər zaman olduğu kimi, bu gün də Azərbaycanın yanındayıq”*
**Prezident Rəcəb Tayyib Ərdoğan**

**Açar sözlər:** *Azərbaycan-Türkiyə əlaqələri, Vətən müharibəsi, Türkdilli ölkələr, həmrəylik.*

**Keywords:** *Azerbaijan-Turkey relations, Patriotic war, Turkic-speaking countries, solidarity.*

**Ключевые слова:** *Азербайджано-Турецкие отношения, Отечественная война, тюркоязычные страны, солидарность.*

Azərbaycan-Türkiyə əlaqələri Ulu Öndər Heydər Əliyevin dediyi kimi, ***“Bir millət, iki dövlət”*** tezisinə əsaslanır. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərləri çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir. Dekabrın 10-da Azadlıq meydanında keçirilən Azərbaycanın 44 gün İkinci

Qarabağ Müharibəsinin Zəfər Paradında Prezident İlham Əliyev və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bir yerdə olması bir daha bu qardaşlıq birliyinin təcəssümüdür.Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında çıxışı zamanı bildirib ki, bu tarixi gündür və bu Zəfər Paradında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın, eyni zamanda, Türkiyədən gəlmiş böyük nümayəndə heyətinin, türk əsgər və zabitlərinin paradda iştirakından şad olduğunu söyləyib: *"Bu gün tarixi bir gündür. Bu gün Azadlıq meydanında Zəfər paradı keçirilir. Mən çox şadam ki, bu paradda mənim dəvətimi qəbul edərək Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan iştirak edir. Eyni zamanda, Türkiyədən gəlmiş böyük nümayəndə heyəti, türk əsgər və zabitləri iştirak edirlər. Bu, bir daha bizim birliyimizi, dostluğumuzu və qardaşlığımızı göstərir. Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür..."*

Bu, ulu öndər Heydər Əliyevin dahiyanə şəkildə elan etdiyi "tək millət - iki dövlət" təliminin nə qədər böyük həyati gücə və geniş imkanlara malik olduğunu hər dəfə yenidən təsdiq edir. Bu, həm də xalqlarımız arasındakı tarixi-mədəni bağların, dil və din birliyinin əbədi olan təzahürlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham

Əliyev Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyə Respublikasının preizdenti Rəcəb Tayyib Ərdoğanın bu günə qədər ardıcıl olaraq verdiyi bəyanatları, göstərdiyi davamlı siyasi səyləri və təşəbbüsləri, bütövlükdə türk xalqının mənəvi dəstəyini yüksək qiymətləndirir, bu addımların belə çətin və məsuliyyətli günlərdə əvəzsiz kömək olduğunu dünya ictimaiyyəti qarşısında açıq şəkildə bildirir.

44 günlük Vətən müharibəsinin başladığı günlərdən dövlətimizə ilk olaraq dəstək verən beynəlxalq qurumların içərisində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının açıq bəyanatı tam vaxtında ifadə olunmuş birmənalı münasibətin əks-sədası kimi səslənmişdir. Bu, həm də Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası kimi nüfuzlu bir beynəlxalq qurumun münasibətini bildirən bəyanat kimi də dünya ölkələrində Azərbaycanın ədalətli mövqeyi haqqında obyektiv fikirlərin, düzgün ictimai rəyin formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir. Bu günlərdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təşəbbüsü ilə bu beynəlxalq təşkilatın Baş katibi Bağdat Amreyevin rəhbərliyi ilə, Türkiyə Cümhuriyyətinin, Özbəkistanın və Qırğızıstanın Ticarət və Sənaye Palatalarının rəhbərlərinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşü zamanı ifadə edilən birmənalı dəstək həm də qarşılıqlı münasibətlərdəki etibarlı Türkiyə dəstəyinin üfüqlərinin genişləndirilərək beynəlxalq təşkilatlara və digər Türk Respublikalarının qurumlarına qədər inkişaf etməkdə olduğunu göstərən faktdır. Göründüyü kimi, çətin sınaq günlərinin möhkəm və etibarlı Azərbaycan - Türkiyə Birliyi inkişaf edərək türk dünyasının həmrəyliyinə doğru genişlənir və daha da möhkəmlənir. Bu cəhətdən Türkiyə Cümhuriyyətinin bütün səviyyələrdə dönmədən

göstərdiyi əsl qardaşlıq münasibəti türk dünyası üçün və ümumiyyətlə dünyada əsl dostluq, qardaşlıq və həmrəylik nümunəsi kimi də ibrətamiz və qiymətli örnəkdir. Azərbaycan-Türkiyə Birlik və Həmrəyliyi müasir dövrün qardaş ölkələr üzrə əsl tarixi və ibrətamiz dərsləridir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın bütün dünyaya nümayiş etdirdikləri birlik və həmrəylik "tək millət - iki dövlət" haqqındakı qardaşlıq və həmrəylik təliminin gerçək təntənəsidir. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasındakı bütün sahələri əhatə edən qarşılıqlı əməkdaşlıq, strateji tərəfdaşlıq, müharibə dövründəki böyük siyasi və mənəvi dəstək istənilən istiqamətdə, o cümlədən, hərb meydanlarında böyük qələbənin əsas dayağı və hərəkətverici qüvvəsidir. Müharibə dövründə böyük sınaqlardan keçərək daha da möhkəmlənən və hər iki ölkə üçün çox əhəmiyyətli olan bu qardaşlıq və həmrəylik xalqımızı xain və qəsbkar Ermənistan üzərindəki qələbəyə aparan yolların da ən mühüm faktorlarından biridir. Eyni zamanda, əsl qardaşlıq nümunəsi olan sarsılmaz Azərbaycan - Türkiyə birliyi dost və tərəfdaş ölkələr üçün də çağırışdır.

İmanova Samirə Əbülfət qızı
Azərbaycan Dillər Universiteti

# AZƏRBAYCANIN TARİXİ, MADDİ-MƏDƏNİ İRSİNƏ QARŞI ERMƏNİ VANDALİZMİ

***Açar sözlər:*** təcavüz, maddi-mədəni irs, erməni vandalizmi

***Key words:*** aggression, material and cultural heritage, Armenian vandalism

***Ключевые слова:*** агрессия, материальное и культурное наследие, армянский вандализм

Ermənistan – Azərbaycan münaqişəsinin kökləri ermənilərin Şərqi Anadolu və İrandan Qafqaza köçürülməsinə gedib çıxır. XIX əsrin ikinci yarısından Qafqaza köçürülən ermənilər potensial münaqişə ocağının yaranmasına səbəb olmuş, 1918-ci ildə qədim İrəvan şəhərinin inzibati mərkəz olaraq ermənilərə verilməsindən sonra yaranan Ermənistan dövləti daim Azərbaycana qarşı ərazi iddiaları irəli sürmüş, İrəvanda, Qarabağda və Azərbaycanın digər ərazilərində etnik təmizləmə siyasəti həyata keçirmişlər. Öz ərazisini daim Azərbaycan torpaqları hesabına genişləndirmiş Ermənistan bununla kifayətlənməmiş, tarixi abidələri, qədim mədəniyyətləri, məscidləri məhv etmiş, zorla bu əraziləri erməniləşdirməyə çalışmış, saxtalaşdırma siyasəti həyata keçirmişlər.

XX əsrin 80-90-cı illərində Azərbaycan növbəti dəfə Ermənistanın Dağlıq Qarabağa olan ərazi iddialarına məruz qalmış, nəticədə yalnız Dağlıq Qarabağ ərazisi deyil, onun ətrafındakı rayonlar da erməni

təcavüzünün hədəfinə çevrilmişdir. Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində öz xislətinə xas olan vandalizm siyasəti həyata keçirmişdir.

Azərbaycanın mədəniyyət beşiyi olan Qarabağ zəngin mədəni irsə malikdir. Qarabağ Azərbaycana Pənahəli xan Cavanşir, Xurşidbanu Natəvan, Üzeyir Hacıbəyli, Molla Pənah Vaqif, Bülbül, Əbdürrəhim bəy Haqverdiyev kimi dahi şəxsiyyətlər və mədəniyyət xadimlərini bəxş etmiş, ənənəvi Qarabağ atüstü oyunu Çovqan, əsasən Qarabağda formalaşan Azərbaycan muğamı və Azərbaycan xalçası UNESKO-nun mədəni irsi siyahısına daxil edilmişdir. 1990-cı illərin əvvəllərinə olan statistikaya əsasən, işğal edilmiş ərazilərimizdə 2625 abidə qeydə alınmış, onlardan 11-i beynəlxalq əhəmiyyətli, 240-ı ölkə əhəmiyyətli və 455-i yerli əhəmiyyətli olmaqla ümumilikdə 706-sı dövlət tərəfindən mühafizə edilirdi [1].

Qarabağ münaqişəsi dövründə yüzlərlə mədəniyyət müəssisəsi, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, o cümlədən Füzuli rayonu ərazisində dünyanın ən qədim yaşayış məskənlərindən biri – Azıx mağarası, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu erməni vandalizminin qurbanına çevrilmişdir [1].

30 il ərzində Ermənistanın işğalı altında olmuş Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı şəhərləri Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə viran qoyulmuş və talan edilmişdir. Laçın və Kəlbəcər şəhərlərində Ermənistandan və xaricdən köçürülüb gətirilən ermənilər məskunlaşdırılmışdır. Münaqişə dövründə viran qoyulan

Ağdam və Füzuli şəhərləri, 1945-ci ildə atom bombası ilə dağıdılan Xirosima və Naqasaki şəhərlərini xatırlayır, ölü şəhərlərə çevilmişdir. İndiki Ermənistan ərazisində yerləşən mindən artıq azərbaycanlı yaşayış məntəqəsi, tarixi-memarlıq abidələri, karvansaralar, imarətlər, məscidlər, mavzoleylər, məqbərələr, qəbiristanlıqlar, qəbirüstü abidələr və s.erməni vandalizminin hədəfinə çevrilmişdir.

XX əsrin əvvəllərində İrəvan quberniyası ərazisində 310 məscid qeydə alındığı halda, indiki Ermənistan ərazisində yalnız bir məscid – Göy məscid qismən salamat qalmışdır ki, onu da xarici qonaqlara fars məscidi kimi təqdim edirlər [3]. Ermənistan – Azərbaycan münaqişəsi dövründə Azərbaycanın işğal altındakı ərazilərindəki yeraltı və yerüstü sərvətləri vəhşicəsinə talan edilərək Ermənistana daşınmışdır [3].

Azərbaycanın işğal edilmiş ərazilərində 13 dünya əhəmiyyətli — 6 memarlıq və 7 arxeoloji, 292 ölkə əhəmiyyətli — 119 memarlıq və 173 arxeoloji və 330 yerli əhəmiyyətli — 270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidəsi, 15 dekorativ sənət nümunəsi, tarix və mədəniyyət abidələri mövcud olmuşdur. Ermənistan işğal altındakı bu ərazilərdə mədəni irsi məhv edərək, muzeylərdə saxlanılan tarixi eksponatları, qiymətli incəsənət və mədəniyyət nümunələrini talan etmişdir [2]. Ermənistanın təcavüzü nəticəsində Kəlbəcər, Şuşa, rayonlarının Tarix muzeyləri, Ağdamın dünyada nadir olan Çörək Muzeyi, Qubadlı tarix-diyarşünaslıq muzeyi (3 mindən çox eksponat), Zəngilan rayonunun tarix-diyarşünaslıq muzeyi (6 minədək eksponat), daş abidələr muzeyi və s. talan edilmişdir. Bu muzeylərin heç birini xilas etmək və köçürmək mümkün olmamışdır [2].

Qarabağ bölgəsi eyni zamanda qədim insan məskənlərindən biri hesab olunur. Azərbaycanın ən qədim insan məskənlərindən biri olduğunu sübut edən və 2 milyon il yaşı olan Azıx mağarası Qarabağ bölgəsində yerləşir. Qarabağ ərazisi paleolit dövrünün Quruçay mədəniyyəti yaradıcılarının, Tunc və Dəmir dövründə mövcud olan və bir-birini əvəz edən Kür-Araz və Xocalı-Gədəbəy mədəniyyətlərinin davamçılarının yaşayış məskənidir. Qarabağ ərazisində Qafqaz Albaniyasına məxsus yerüstü xristian abidələri də mövcuddur. Bu məbədlərdən ən məşhuru Çəncəsər (Qanzasar), Amaras, Yelisey, və Xotavəng məbədləridir. Qarabağın şəhərləri – Ağdərə, Kəlbəcər, Xocavənd, Şuşa, Xankəndi, Tərtər, Füzuli, Cəbrayıl, Ağcabədi, Laçın, Qubadlı, Zəngilan şəhərləri Azərbaycanda islam dini qəbul olunduqdan sonra salınmışdır. Azərbaycanın Qarabağ bölgəsində islam abidələri, məscid və minarələr inşa edilmişdir. Qarabağ xanlığı dövründə bir çox qalalar, Bayat, Şahbulaq, Pənahabad tikilmiş, şəhər və qəsəbə tipli yaşayış məntəqələri yaranmışdır.

Ermənistan – Azərbaycan münaqişəsi dövründə Azərbaycanın əsrlərlə qoruyub saxladığı tarixi abidələrin əksəriyyəti məhv edildi. Xocalı soqırımını törədən erməni və rus qüvvələri, tarixi yaddaş rəmzi olan məşhur Xocalı qəbiristanlığını texnika vastəsilə darmadağın etdilər, Xocalı kurqanları məhv edildi. Şuşada Azərbaycan mütəfəkkirlərinin – Xurşudbanu Natəvan, Üzeyir Hacıbəyov və Bülbülün heykəllərini avtomat gülləleri ilə deşik-deşik etdilər. Qədim yaşayış məskəni olan Azıx mağarası ermənilərin hərbi sursat anbarına çevrilmiş, islam abidələri dağıdılmış, məscidlərdə donuz saxlanılmış, Alban xristian abidələri isə təmamilə saxtalaşdırılmışdır. Yelisey, Həsənriz məbədləri və digər

abidələrdə alban yazıları silinmiş, həmin abidələrin albanlara məxsus olan əşyaları dağıdılmışdı. Yelisey məbədində saxlanılmış Alban hökmdarı III Vaçaqanın qəbri və sövməsindəki yazı təmamilə məhv edilmişdir [4].

İkinci Qarabağ müharibəsindən zəfərlə çıxan Azərbaycan dövləti erməni vandalizminin dünyada tanıdılması istiqamətində məqsədli iş apararaq, xarici dövlətlərin rəsmi və media qurumlarını işğal edilmiş ərazilərdəki erməni vəhşilikləri ilə tanış etmişdir. Bu istiqamətdə beynəlxalq hüquqi təsisatlar qarşısında məsələ qaldıraraq, insan hüquqları, maddi-mədəni dəyərlər, humanitar hüquq istiqamətində fəaliyyət göstərən təsisatları obyektiv qərar çıxarmağa səsləmiş, XXI əsrin əvvəllərində qeyri-insani vəhşilik, vandalizm siyasətinə üstünlük verən Ermənistana qarşı hüquqi tədbirlərin görülməsinə, ikili standartlara son verməyə çağırmışdır.

Ədəbiyyat:


1. “Azərbaycanın tarixi və mədəni irsinə qarşı Ermənistanın törətdiyi cinayətlər” mövzusunda brifinq keçirilib // http://mct.gov.az/az/umumi-xeberler/13291
2. “Dağlıq Qarabağ münaqişəsi zamanı məhv olmuş maddi və mənəvi mədəniyyət nümunələri, tarix və mədəniyyət abidələri haqqında təbliğat işləri” adlı layihə həyata keçirilir // http://culture.gov.az/az/umumi-xeberler/
3. Erməni vandalizm: əsirlikdə olan Azərbaycan abidələri // https://armenianvandalism.preslib.az/az_general.html

4. Hacıyev Q. Qarabağ abidələri // https://www.virtualkarabakh.az/az/post-item/25/39/qarabag-abideleri.html

***Иманова Севинц***

*Бакинский Славянский Университет*

# ШУША – ЦЕНТР АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ С ГЕРОИЧЕСКОЙ СУДЬБОЙ В КОНТЕКСТЕ ИСТОРИИ И СОВРЕМЕННОСТИ

**Açar sözlər:** Azərbaycan, Şuşa, Qarabağ, dil, mədəniyyət, tarix, müasirlik

**Key words:** Azerbaijan, Shusha, Karabakh, language, culture, history, modernity

**Ключевые слова:** Азербайджан, Шуша, Карабах, язык, культура, история, современность

Возникновение города – один из необходимых этапов в развитии человеческой культуры. Город – сложное творение человека, а язык любого народа, в свою очередь, важнейший компонент его национальной культуры, формирующийся на основе зарождения нации.

Удивительный уголок Шуша расположен на отвесной скале. Об истории основания этой сказочной крепости дана информация в «Очерке города Шуши и Шушинского уезда» К.Никитина, в которой, по словам автора, «<…> к счастью для Карабаха, один из искателей приключений, по имени Панах Али бек, выходец из Сарыджалинского общества Джеванширского племени, дал лучшую жизнь дикой и необитаемой скале, сделавшись виновником основания на ней города» [3, с. 2]. Впоследствии «сделав его своей резиденцией и столицей всего Карабага и назвал Панах-Абатом» [3,

с. 4] Время основания г.Шуши отнесено, по Мусульманскому летоисчислению, к 1167 году Геджры, т.е. 1752 году от Р.Х. Впоследствии, город этот назван Шушою, по имени соседней деревни «Шушакент» [3, с. 4-5]. Для уточнения: Панахабад – Гала – Шуша (в народе Шушу именовали «Гала» – в зн. «скала»). С момента основания и по настоящее время город переживает великие исторические события.

Весной 1796 года русские войска под командованием графа Валериана Зубова прибыли в Карабах. Ибрагим Халил ханом к Зубову было направлено посольство во главе с сыном Абульфат ханом, в которое входил и первый визирь Карабахского ханства, известный политический и общественный деятель Азербайджана Молла Панах Вагиф, с богатыми дарами. В свою очередь, Ибрагим Халил хану и Вагифу от имени Екатерины II были преподнесены ценные подарки, в том числе Вагифу был подарен посох, украшенный драгоценными камнями, творчество которого оказало большое влияние на дальнейшее развитие азербайджанской поэзии. Учитывая, что в те годы азербайджанский язык был языком межнационального общения на Кавказе, то стихи Вагифа в кратчайший срок завоевали популярность не только среди азербайджанцев, но и на всем Кавказе. Тем не менее его стихи были переведены на многие языки народов Кавказа, сохранились и почитаются по настоящее время.

Известен факт, что столкнувшись при осаде Шуши с ярым противостоянием ее защитников, правитель Ирана, возглавлявший

персидскую армию, Ага-Мухаммед шах Каджар отправил гонца с письмом со следующим содержанием:

*«Безумец! Град камней летит с небес.*
*А ты в стеклянных стенах ждешь чудес».*

(Измененное в соответствии с ситуацией двустишие из касиды поэта Сеид-Мухаммеда Ширази, где обыгрывается название города Шуша в значении «стекло»).

На которое получил ответ Вагифа:

*«Меня стеклом создатель окружил,*
*Но в крепкий камень он стекло вложил».*

Таким образом, шах, потерпев неудачу, вынужден был снять осаду.

После завершения второй Русско-персидской войны и подписания Туркменчайского мирного трактата в 1828 году Россия начинает интенсивно заселять Южный Кавказ армянами. А.С.Грибоедов писал по этому поводу: «Армяне большею частью поселены на землях помещичьих мусульманских... Переселенцы находятся сами в тесноте и теснят мусульман, которые все ропщут и основательно...» [2, с. 85].

Удивительный край, богатство земли, многообразие природы, поэтичность языка стали основой рождения целой плеяды творческих людей, в том числе поэтов. И на небосклоне Карабаха засверкали талантом поэтессы Ага Бейим Ага, Ашыг Пери, Фатма Ханум Камине и Хуршид Бану Натаван («Натаван» – псевдоним,

взятый юной поэтессой, означающий на перс. – «беспомощный, незащищенный»). Последняя – одна из ярких фигур азербайджанской поэзии XIX века дочь последнего правителя Карабаха Мехтигулу хана Джаваншира Хуршидбану Натаван родилась в августе 1832 года в городе Шуша. В народе ее так и называли – Хан гызы. Ее всегда волновало благосостояние Шуши, и Карабаха в целом. Хуршудбану Натаван похоронена на кладбище «Имарет» в Агдаме, находящегося около 30 лет под оккупацией армянских захватчиков, в течение которого был разрушен мавзолей правителя Карабаха Ибрагим Халил-хана и надгробный памятник Хуршудбану Натаван.

В Шуше родился Наджаф бек Везиров (1854-1926), с именем которого связана история возникновения азербайджанского театра, а также выдающийся просветитель, талантливый литературовед Фирудин бек Кочарли (1863-1920), плодом 35-летней деятельности которого являются книги «Литература азербайджанских татар» (1903), «Подарок детворе» (1911), «Мирза Фатали Ахундов» (1911), «Материалы по истории азербайджанской литературы» (1925-1926); первая статья – «Татарские комедии» (1895), «Письма о нашей литературе» (1904). Бесценны заслуги Кочарли в развитии литературного азербайджанского языка. Он одним из первых поднял вопрос об его унификации, переработав учебник «Родной язык». «Материалы по истории азербайджанской литературы» – фундаментальный труд Кочарли, состоящий из 3-х томов, 4-х частей. В них впервые собраны сведения о выдающихся личностях нашей словесности начиная с XII по XIX век. В общей сложности – 131 автор, которых ученый группирует по территориально-географическому

принципу: «Ширван и Шемаха», «Карабах – город Шуша» (в нем он называет Шушу Закавказским Ширазом), «Куба», «Гянджа» и др.

Другой не менее известный азербайджанский прозаик, публицист, фольклорист и политический деятель, родом из Шуши, Юсиф Чеменземинли (Везиров, 1887-1943) в своем произведении «Взгляд на азербайджанскую литературу» дал, в свою очередь, высокую оценку творчеству Фирудин бека Кочарли.

В колыбели культуры и науки Карабаха городе Шуша родились так же один из основоположников драматического театра, автор театральных пьес, либретто балетов, первый азербайджанец-дирижер Абдурагим Асад бек оглу Ахвердов (Ахвердиев), детский писатель, драматург, педагог С.С.Ахундов, занимавший после установления советской власти в Азербайджане в апреле 1920 года должность министра образования Нагорно-Карабахской автономной области.

Невозможно вместить в рамки одной статьи имена и деятельность многочисленных деятелей культуры и науки, уроженцев города Шуша.

Карабахское ханство с центром Шуша – исконная земля Азербайджана, перекресток культур, перекресток истории. Она дала нашей культуре великие имена не только литературных, но и других ярких талантов. Здесь много музыкантов, певцов и танцоров. Эта родина гениального композитора Узеира Гаджибекова, проф. Бюль-Бюля и многих др., прошедших школу Харрат Кулу, Молла Ибрагима, Мир Мовсума Навваба. О музыкальной жизни Шуши пишет видный советский музыковед В.Виноградов в своей работе

«Узеир Гаджибеков и азербайджанская музыка», а известный армянский музыковед В.Д.Карганов в работе «Кавказская музыка» отмечает, что все «Закавказье снабжает музыкантами и певцами Шуша <…>; она служит консерваторией для всего Закавказья…» [4, с. 68-69]. Это город великих учёных и историков, старинный центр ковроделия.

XX-XXI вв. – век радикальных изменений, потрясших нашу общественность. Находящиеся в течение 30 лет в аннексии земли Азербайджана, в том числе, и «зеркало его души» – Шуша – освобождены, в результате успешной военной операции – Отечественной войны 27 сентября-10 ноября 2020 года. Недаром сказано, что «история напоминает Мальстрём: то, что она поглощает, она возвращает обратно».

Закон возвращения к истокам – общий закон культуры. Рано или поздно справедливость торжествует, и все возвращается на круги своя. И хотя во время оккупации был нанесен серьёзный урон всему культурному наследию (как материальному, так и духовному), последствия этих разрушений мы стараемся устранить в кратчайшие сроки.

История развития человечества свидетельствует о возникновении необходимости своевременного противостояния и устранения всего негативного, в то же время способствования консолидации как нации, так и этнических меньшинств с целью формирования высшего сознания для культурного сосуществования общества.

## Библиографический список

1. Бакиханов, А.К. Гюлистан-и Ирам / А.К. Бакиханов. – Баку: Элм, 1991. – 304 с.
2. Каджар, Ч. Старая Шуша / Ч. Каджар. – Баку: Şərq-Qərb, 2007. – 344 с.
3. Никитин, К. Очерк города Шуши и Шушинского уезда / К. Никитин. – Елисаветполь: В типографии Федорова и Тарумова. 1873. – 30 с.
4. Шушинский, Ф. Шуша / Ф. Шушинский. – Баку: Азернешр, 1968. – 163 с.

İsgəndərova İlhamə Qərib qızı
Azərbaycan Dillər Universiteti

# QARABAĞIN BƏRPASI VƏ SOSİAL-İQTİSADİ İNKİŞAF PROSESİNDƏ XARİCİ ÖLKƏLƏRİN DƏSTƏYİ

**Açar sözlər:** bərpa, sosial-iqtisadi inkişaf, əməkdaşlıq

**Ключевые слова:** реконструкция, социально-экономическое развитие, корпорация

**Key words:** reconstruction, social economic development, corporation

Azərbaycan ordusu 44 günlük Vətən müharibəsində şanlı və tarixi qələbəsi ilə bütün dünyaya səs saldı. Torpaqlarımız işğaldan azad edildikdən sonra həmin ərazilərin tezliklə bərpası, yenidən qurulması, eləcədə məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtması və orada məskunlaşması ön plana keçdi. Regionun gələcək sosial-iqtisadi inkişafı hal-hazırda müzakirə olunan məsələyə çevrildi.

Artıq işğaldan azad olunmuş torpaqlarda bərpa işlərinə start verilib. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin yekun işlərinə həsr olunmuş video-konfransında keçirilən müşavirədə qeyd etmişdir ki, torpaqlarımız işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik (2). Ona görə də, 2021-ci il bu baxımdan çox əlamətdar olmalıdır. Məhz 2021-ci ildə bütün dünya, eləcə də Azərbaycan xalqı şahid olacaq ki, bizim niyyətimiz baş tutur və eyni zamanda nəzərdə tutduğumuz planlarımız gerçəkləşir. Dövlət başçısı hətta belə bir fikir səsləndirmişdir: "Vahid Azərbaycan dövləti bundan sonra uğurla, inamla inkişaf edəcəkdir" (2). Məhz bu istiqamətdə İlham Əliyev

4 yanvar 2021-ci il tarixli fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir həyatın təmin edilməsi, habelə bütün sahədə quruculuq-bərpa işlərinin aparılması məqsədilə “Qarabağ Dirçəliş Fondu” yaradılıb. Türkiyə, Pakistan, İsrail, Böyük Britaniya kimi bir sıra dost ölkələr işğaldan azad olunmuyş ərazilərimizin bərpası prosesində yaxından iştirak etmək və dəstək olmaq arzusunda olduqlarını bildiriblər. Bu baxımdan ilk müqavilə Türkiyə şirkəti ilə bağlanıb, ikinci müqavilə isə İtaliyadan olan bir şirkətlə bağlanması planlaşdırılıb.

Artıq Qarabağda bildiyimiz kimi, quruculuq-bərpa işləri sahəsində xarici ölkələrin şirkətləri ilə əməkdaşlıq başlanılıb. Bu baxımdan, Türkiyədə fəaliyyət göstərən “GOSB” texnoparkı ilə Azərbaycan İnnovasiyalar Agentliyi arasında imzalanmış “Mədəni və Elmi Əməkdaşlıq” memorandumuna əsasən Qarabağda Yüksək Texnologiyalar Parkı yaradılması nəzərdə tutulub. Bu parkda ən son “soft” və “hard” elmi araşdırılmaların aparılması, hətta yüksək texnoloji cihazların istehsalı nəzərdə tutulub (2). Bundan başqa Böyük Britaniya dövləti də işğaldan azad edilmiş ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərində Azərbaycana yaxından kömək göstərə biləcəyini bildirib.

Qarabağdakı bərpa və quruculuq sahəsində görülən işlərdən biri də Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan “Karabakh Center” adlı internet resursudur. Bu internet resursunun özəlliyi ondan ibarətdir ki, müxtəlif dillərdə təqdimatı nəzərdə tutulur və təkcə onlayn versiya ilə məhdudlaşdırmamalı, Qarabağda ermənilərin həyata keçirdiyi dağıntıların miqyası bütün dünyaya çatdırılmalıdır.

Dövlət başçımız İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən quruculuq sahəsində edilən işlərdən biri də Füzuli beynəlxalq aeroportunun təməlqoyma mərasimi oldu və artıq 5 sentyabr 2021-ci il tarixindən Bakıdan uçan "AZAL"a məxsus ən böyük "Airbus A 340-500" tipli sərnişin təyyarəsi sınaq reysi həyata keçirərək, Füzuli beynəlxalq hava limanında eniş edib.

Azərbaycan Prezidentinin rəhbərliyi ilə Qarabağda bərpa və rekonstruksiya işlərinin sürətlə davam etdiyindən əmin olaraq qeyd edə bilərik ki, tezliklə biz bu torpaqların çiçəklənməsinin tam şahidi olacağıq.

**Ədəbiyyat**

1. Zeynalov M. "Azərbaycan" qəzeti. Bakı. 2021
2. Qarabağın bərpası prosesində xarici ölkələrin dəstəyi [Elektron mənbə] http://science.gov.az

İsmayılova Aygün İslam qızı
Mingəçevir Dövlət Universitet

## Sonu zəfərlə bitmiş Vətən müharibəsi

**AÇAR SÖZLƏR:** Vətən müharibəsi, milli ordumuz, Azərbaycan xalqı.
**КЛЮЧЕВЫЕ СЛОВА:** Отечественная война, наша национальная армия, народ Азербайджана.
**KEY WORDS:** Patriotic war, our national army, the people of Azerbaijan.

Dünya xalqları içərisində Azərbaycan xalqı öz əzmkarlığı, döyüşkənliyi, mərdliyi vətənə və yurda olan sevgisi ilə seçilmişdir. Tarix boyu xalqımız düşmən qarşısında əyilməmiş, sınmamış, başını dik tutmuşdur. 44 günlük Vətən müharibəsi bunu bir daha sübut etdi. Mərd, düşməndən qorxmayan oğul yetişdirən analar bu Vətən müharibəsində ağlamadı, hər oğul dəfnində Vətən sağ olsun dedi!.

Tarix boyu Babəklər, Cavanşirlər, Uzun Həsənlər, Şah İsmayıllar yetişdirən Azərbaycan dövləti adını bir daha tarixə qızıl hərflərlə yazdırdı. Biz bir dövlət kimi, düşmənə sübut etdik ki, bizim güclü, yenilməz ordumuz, sözü ilə əməli bir yerdə olan cənab Prezidentimiz İlham Əliyev vardır. Cənab prezident İlham Əliyevin rəhbərlik etdiyi milli ordumuz 2020- ci ilin yekununda öz adını tarixə yazdı. Yenilməz ordumuz 44 günlük Vətən müharibəsinin sonunda işğal olunmuş torpaqlarını düşməndən azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi. Bu Vətən

müharibəsinin sonunda Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinə son qoyuldu və tarixi ədalət bərpa edildi. Keçən əsrin 90-cı illərində işğal olunmuş ərazilərimizin sülh yolu ilə azad edilməsi uğrunda Azərbaycan dövləti çox mübarizə apardı. Otuz ilə yaxın davam edən bu çalışmaların heç bir nəticə verməməsi hansı yolla olursa-olsun itirilmiş torpaqlarımızı geri qaytarmağı şərtləndirdi.

Məhz buna görə də Azərbaycan dövləti öz Ali Baş Komandanının rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də düşmənin yeni təxribatına qarşı əks-hücuma keçməklə torpaqlarımızın yağı düşməndən təmizlənməsi, öz tarixi sakinlərinin bu yerlərə geri dönməsi uğrunda Vətən müharibəsinə başladı. Bu müqəddəs döyüşlərdə iştirak edən hər bir generalın, mayorun, zabitin, əsgərin, bir amalı, bir məqsədi vardır: işğala, haqsızlığa, ədalətsizliyə son qoyulsun, tarixi haqq-ədalət öz yerini tapsın.

Vətən müharibəsində yağı düşmənimiz olan Ermənistan mülki əhalimizə yenidən soyqırım törətdi. Bərdəni, Gəncəni, Mingəçeviri,, Tərtəri, Ağdamı, Qəbələni, Siyəzəni özlərinə hədəf seçdilər. Adlarını qeyd etdiyim ərazilərin hamısı Azərbaycanın cəbhə bölgəsindən xeyli uzaqda yerləşir. Dinc əhaliyə yönələn terror zamanı insanlar öz təsərrüfatlarında məişət işləri ilə məşğul olduğu vaxt atəşə məruz qaldı, məcburi köçkün və əlilliyi olan şəxslərin məskunlaşdığı çoxmənzilli yaşayış binaları qəsdən hədəf seçilərək yararsız vəziyyətə salındı, uşaq bağçaları, məktəblər, xəstəxanalar, təcili tibbi yardım maşınları, dövlət qurumlarının yerləşdiyi inzibati binalar, qəbiristanlıqlar atəşə tutulmuşdur.

Bu ərazilərə hücumlar zamanı mülki əhaliyə edilən terror aktları bir daha sübut etdi ki, Ermənistan xalqı tarix boyu vandal, vəhşi bir xalq olmuşdur. 44 günlük müharibə dövründə qüdrətli Azərbaycan Ordusu

cəbhədə tarix yazdı. Bu gün bizim bayrağımız illərlə düşmən vandalizminin qurbanına çevrilmiş, indi isə qəhrəman Azərbaycan oğullarının öz canları bahasına azad etdiyi, düşməndən təmizlədiyi Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa səmalarında dalğalanır.

Böyükdən tutmuş balacalar bir sözlə, hamımız bu tarixi hadisələrin canlı şahidləriyik. 44 günlük Vətən müharibəsində eşitdiyimiz qələbə xəbərləri, milli ordumuzun apardığı uğurlu hərbi əməliyyatlar, düşmənin canlı texnikasının məhvi, əldə etdiyimiz nəticə bir daha bizim doğru yolda olduğumuzu göstərdi.

Biz müqəddəs amal-öz torpaqlarımızın azadlığı uğrunda apardığımız bu mübarizədə haqlıyıq və “Haqq incəlsə də, üzülməz”. Ona görə də biz öz prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşməli, düşmənə qarşı bütün səylərimizi səfərbər etməliyik. [1]

Uğurla həyata keçirilən “Dəmir Yumruq” əməliyyatı nəticəsində Ermənistan sülhə və kapitulyasiya aktını imzalamağa məcbur edildi. Noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən bəyanat imzalandı. Bəyanatda 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə 00:00-dan etibarən tam bir atəşkəs və Dağlıq Qarabağ münaqişəsi bölgəsindəki bütün hərbi əməliyyatların dayandırılması elan edildi. Bu bəyanatın müddəalarına əsasən Ermənistan dekabrın 1-dək işğal etdiyi bütün Azərbaycan torpaqlarını azad etməli, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasını təmin etməlidir. Bəyanatın imzalanmasından sonra noyabrın 20-i Ağdam, 25-i Kəlbəcər, dekabrın 1-i

isə Laçın işğaldan azad edildi. Beləcə, bütün Qarabağ azad edildi və “Qarabağ Azərbaycandır!” şüarı həqiqətinə qovuşdu.[2]

Prezident İlham Əliyev hər il sentyabrın 27-nin Anım Günü, noyabrın 8-nin isə Zəfər Bayramı kimi qeyd olunması üçün sərəncam imzaladı.

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq, rəşadət göstərmiş, vəzifə borcunu ləyaqət və vicdanla yerinə yetirmiş, igidlik, mərdlik nümayiş etdirmiş silahlı qüvvələrin hərbi qulluqçuları fəxri adlar, orden, medallarla təltif edildilər. General-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev ölümündən sonra və ehtiyatda olan baş çavuş İbad Hüseynova “Azərbaycanın Milli Qəhrəmanı” adı verildi. Silahlı Qüvvələrimizin minlərlə hərbi qulluqçusu, onların sırasında bir çoxu ölümündən sonra olmaqla “Vətən müharibəsi Qəhrəmanı” adına layiq görüldü, “Vətən uğrunda” medalı, “Zəfər”, “Qarabağ”, “Azərbaycan Bayrağı” ordenləri ilə təltif edildi.

Sonda qeyd edim ki, 10 noyabr şanlı qələbəmiz göstərdi ki, Azərbaycan xalqı döyüş meydanında da, diplomatiya meydanında da öz sözünü deməyi bacarır və öz torpaqlarının bir qarışını da heç kimə güzəştə getməyəcəkdir. Dövlətimizin görəcəyi işlər hələ qabaqdadır. İşğaldan azad olunmuş torpaqlar minadan təmizlənir, həmin ərazilərdə həyat yenidən canlanır, torpaqlarımızın dirçəlməsi uğrunda müxtəlif quruculuq işləri aparılır. Bu işlərə artıq ilk olaraq Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu çəkilməsi ilə başlanmışdır. Biz inanırıq ki, müdrik, uzaqgörən rəhbərimiz cənab prezident İlham Əliyevin rəhbərlik etdiyi dövlətimiz günü- gündən

çiçəklənçək və onun sayənsində Azərbaycan dövlətinin uğurlu gələcəyi olacaqdır.

**İstifadə olunmuş Ədəbiyyat**

1. Tərabik Əhməd Abdo “Qarabağ: Qafqazda sülhə aparan yol” Qafqaz ,2017, 324 səh.

2. A. Mustafazadə “ 44 Günlük Diplomatiya dərsləri” Bakı, Elm və təhsil, 2021, 251 s.

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
ADU
Docendo discimus
öyrədərək öyrənirəm
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

İsmayılova Ayşən Fəxrəddin qızı
Mingəçevir Dövlət Universiteti

# ERMƏNI YALANLARI VƏ REALLIQLAR

**Açar sözlər:** Qarabağ münaqişəsi, maddi-mədəni irs, tarixi abidələr, Erməni vandalizmi.

**Key words:** Karabakh conflict, material and cultural heritage, historical monuments, Armenian vandalism.

**Ключевые слова:** Карабахский конфликт, материальное и культурное наследие, исторические памятники, армянский вандализм.

XX əsrin sonunda Azərbaycan xalqına özünün müstəqil dövlətini yaratmaq qismət olmuşdur. Sevindirici haldır ki, müstəqil Azərbaycan dövləti iqtisadi sahədə böyük nailiyyətlər əldə etdikcə onun torpaqlarını Ermənistanın işğalından azad edə biləcək qüdrətli ordusu da formalaşır və möhkəmlənir. Həmçinin ölkə prezidentinin səyi nəticəsində bütün dünya dövlətləri Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və işğalçı dövlət olan Ermənistanı beynəlxalq hüquq normalarına əməl etməyə çağırır.

Lakin cinayətkar erməni hakimiyyəti nəinki hüquq normalarına, adi əxlaq prinsiplərinə uyğun olmayan riyakarlıqdan əl çəkmir. Uzun əsrlərdən bəridir ki, "dənizdən-dənizə" böyük Ermənistan yaratmaq niyyəti erməni xalqının şüurunda fanatizm həddinə çatdırılmış, türk dünyasına qarşı insan oğluna sığmayan bir qəddarlıq yaratmışdır. Onların qəddarlığı nəticəsində 1,2 milyona qədər azəri türkləri qaçqına, didərginə

və məcburi köçkünə çevrilmişdir. Bu proses XIX əsrin birinci yarısından başlayaraq sovet hakimiyyətinin süqutuna qədər mərhələ-mərhələ davam etmişdir. Şovinizm və vandalizm ruhu ilə zəhərlənmiş erməni qəsbkarları işğal etdikləri ərazilərdə Azərbaycan xalqına məxsus olan minlərlə şəhər və kəndləri dağıtmış, yüz minlərlə maddi-mədəniyyət nümunələrini məhv etmişlər.

Çox acınacaqlı haldır ki, azəri türklərinin Qafqazda hələ qədim daş dövründən mövcudluğunu təsdiq edən maddi-mədəniyyət nümunələri ilə də ermənilər hesablaşmaq istəmirlər. Onlar özlərinə qonşu dövlətlərin ərazilərində saxta tarixlər uydurur, xalqımıza məxsus olan tarixi abidələri və yer adlarını da erməniləşdirməyə çalışırdılar.

Bildiyimiz kimi, görkəmli Norveç səyyahı və etnoqrafı Tur Heyerdal bir neçə dəfə Azərbaycana gəlmiş, Qobustan qaya rəsmləri ilə yaxından tanış olmuşdur. O, qədim əcdadlarımızın qayalar üzərində həkk etdikləri mədəniyyət nümunələrini “Sivilizasiyanın başlanğıc nöqtəsi” adlandırmışdır. Alim öz fikrini Qobustan ərazisində təsvir olunan gəmi rəsmlərinə əsaslanaraq söyləmişdir. “Tur Heyerdal Norveç əfsanələrində xatırlanan gəmilərin məhz Qafqazdan gəlişini, başqa sözlə desək, norveçlilərin Qafqazlı olduqlarını irəli sürür. Norveç əfsanəsində Aser adlı xalqın yaşadığı yer, ərazi də göstərilir. Norveç aliminin fikrincə, indiki Azəri xalqı və saqalarda təsvir olunan aserlərin kökü eynidir” [1, s. 21].

Qobustan qaya təsvirləri orta daş dövründən başlayaraq tunc dövrünə qədər olan böyük bir tarixi mərhələnin həyat tərzini ardıcıllıqla özündə əks etdirir [2, s.14]. Qobustanın rəsm çəkmək ənənələrinə orta əsrlərin qəbir abidələrində də təsadüf olunur. Yaxud bütün Qafqaz

ərazisini əhatə edən qoç heykəlləri bu yerlərin məhz qədimdən türklərə məxsusluğunu təsdiqləyən tarixi nümunələrdir. Dünyanın böyük dövlətlərinin qanadı altına girərək iyrənc yalanlar uyduran erməni siyasətçiləri Azərbaycana zaman-zaman torpaq iddiaları qaldırmışlar.

Ermənilər nəinki Azərbaycan torpaqları hesabına öz dövlətlərini yaratmışlar, eyni zamanda işğal etdikləri ərazilərdə yaşayan Azəri türklərinə qarşı ağlasığmaz qəddarlıq nümayiş etdirmişlər. Tarixi faktlar sübut edir ki, təkcə XX əsrdə bir milyona qədər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmiş, milyon yarımdan çox soydaşlarımız isə ermənilərin işğal altına düşdüyü ərazilərdən deportasiya edilmişlər [3, s. 6]. Bütün təcavüzlər zamanı ermənilər rus ordusunun həm canlı qüvvələrindən, həm də hərbi texnikasından bəhrələnmişlər. Elə 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan ərazisindən SSRİ-nin totalitar rejimi tərəfindən sürgün edilmişdir. Belə ki, Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 saylı qərarları Azərbaycan xalqına qarşı növbəti cinayət aktı olmuşdur [4]. Bu qərarların qəbul edilməsində fəallıq istərərək, Sovet İttifaqının hakimiyyət orqanlarında böyük vəzifələr tutan rmənilər Stalini və V.Molotovu “ələ alaraq” bu növbəti tarixi cinayəti yerinə yetirdilər.

Ermənistandan əsasən Orta Asiya və Azərbaycanın Orta Asiyaya və isti Kür-Araz ərazisinə zorla köçürülmüş soydaşlarımızın ata-baba yurrdlarında guya “vətənə qaytarılan” adı altında İranda yaşayan ermənilər köçürüldü. Hətta bu dövrdə V. Elotov Türkiyəyə qarşı da ərazi iddiaları qaldırdı. Bu iddialar da Rusiyanın bir çox dövlət rəhbərlərinin türkdilli xalqlara düşmən mövqeyindən yanaşmasını sübut edirdi. Stalinin Azərbaycan ziyalılarına qarşı repressiyalar tətbiq etməsi də onun türkə

olan düşmən mövqeyindən irəli gəlirdi. 1988-ci ildə isə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini yenidən siyasi arenaya çıxartdılar. Bu tələblər ətrafında Dağlıq Qarabağda erməni separatizmini formalaşdırdılar.Əvvəllər olduğu kimi, daşnak partiyası yenidən açıq şəkildə fəallaşdırıldı. Rusiyanın Dağlıq Qarabağda yerləşən 366 alayı isə erməni separatçılarını hərbi texnika və silahla təchiz etdi. Məlum olduğu kimi, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə azğınlaşmış erməni cəlladları 366-cı alayın yüksək rütbəli hərbçilərinin iştirakı ilə 7 min nəfər əhalisi olan Xocalı şəhərini, bu şəhərdə olan təyyarə limanını yerlə yeksan etmişlər. Bu vəhşilik nəticəsində 613 nəfər Xocalı sakini qətlə yetirilmiş, 1275 nəfər əsir götürülmüş, 487 nəfər isə ağır yaralar alaraq şikəst olmuşlar. Ermənilər torpaqlarımızın 20 faizindən çoxunu işğal etmişlər. 30 ildən sonra Şanlı Ordumuz Ali baş komandamızın rəhbərliyi altında 27 sentyabr 2020-ci ildə düşmənin yeni təxribatına qarşı əks-hücuma keçməklə torpaqlarımızın yağı düşməndən təmizlənməsi uğrunda Vətən müharibəsinə başladı. Ali Baş Komandirimizin erməni faşistlərinə qarşı dönməz qətiyyəti igidlərimizi qələbədən-qələbəyə qovuşdururdu. 44 günlük Vətən müharibəsində xalq və ordu birliyi qalib gəldi. Xalqımız sonu zəfərlə bitən Vətən müharibəsində öz başçısına-Prezidentinə, Ordusunun sərkərdəsinə inandı, onların arxasında durdu.

Ermənilər azad olunmuş ərazilərimizə od vurub yandırmış, tarixi və mədəniyyət abidələrimizi, qəbirstanlıqları dağıtmış, zəngin təbii sərvətlərimizi talan etmişlər. Bunlara baxmayaraq döyüş meydanında əldə etdiyimiz tarixi zəfərmizin ardınca azad olunmuş ərazilərdə artıq böyük

inkişafın təməlləri atılır. Məqsəd yalnız ölkə səviyyəsində deyil, ölkəmizi regional və beynəlxalq səviyyələrdə inkişafı təmin etməkdir.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Həbiboğlu,V. Türk xalqlarının soykökünü və tarixini düşünərkən / V. Həbiboğlu.-Bakı: Qartal, -2004.-104 s.
2. Haqverdiyev, T.Ş. Abidələr tarixin sirdaşıdır / T.Ş. Haqverdiyev.-Bakı: Gənclik,-1982.-88 s.
3. Məmmədov, X.M., Məmmədov, N. Z. Erməni iddiaları və Azərbaycanlıların soyqırımı / X. M. Məmmədov, N. Z. Məmmədov. Bakı: Ülvi-Həyat, 2008.- 320 s.
4. 1948-1953 cü illərdə Azərbaycanlıların Ermənistan SSRİ ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiya haqqında . Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 1997-ci il tarixli fərmanı.

İbrahim Kazımbəyli Feyzulla oğlu
Azərbaycan Dillər Universiteti

# AZƏRBAYCAN ƏRAZİLƏRİNƏ QARŞI İŞĞAL SİYASƏTİ: “BÖYÜK GÜCLƏR” ERMƏNİ TƏBLİĞATINDA

***Açar sözlər:*** ərazi, işğal, siyasət, böyük.

***Ключевые слова***: территория, оккупация, политика, великий.

***Key words:*** territory, occupation, politics, great.

Erməni məsələsi müxtəlif zamanlarda “böyük güclərin” diqqətindən kənarda qalmamış, yeri gəldikcə bu xisləti xarab, xəyanətkar toplumdan öz məqsədlərinə çatmaq üçün istifadə etmişlər. Heç bir konkret əraziyə malik olmayan bu toplum XIX yüzilliyin sonlarından başlayaraq köçürülüb yerləşdikləri ərazilərdə əsassız xəyali “Böyük Ermənistan” dövləti yaratmaq üçün xristian himayəçiliyi pərdəsi altında imperialist siyasət yeridən dövlətlərin maraqları ilə üst-üstə düşmüş və düşməkdədir.

Rusiyanın gələcək işğalçı planlarının və geosiyasi maraqlarında ermənilərdən istifadə edə bilən I Pyotr olmuşdur. Rus tarixçisi S.N.Qlinka yazır ki, I Pyotr erməniləri öz əlində saxlayır və Rusiya üçün istifadə edirdi. I Pyotr İran səfərində erməni xalqının sədaqətini güya ki, özü üçün anlamış və sonradan onları sadiq erməniləri faydalı vətəndaşlar olaraq Rusiyaya dəvət etmişdi [1, s.17].

XVII yüzilin sonu XVIII yüzilin əvvəllərindən etibarən Avropa dövlətləri Osmanlı və Səfəvi imperiyalarının torpaqlarını ələ keçirmək üçün işğalçı siyasət yeritməyə başladılar. Onlar Şərq dövlətlərinin daxili

işlərinə müdaxilə etmək üçün bu ərazilərdə məskunlaşmış xristianların köməyinə arxalanırdılar. Bu yardım adı altında Qərb öz işğalçı siyasətini həyata keçirməyə başladı.

Ermənilərin "Böyük Ermənistan" dövləti yaratmaq xülyası, həmçinin "xristian himayəçiliyi" pərdəsi altında müstəmləkəçilik siyasəti yeridən Rusiyanın mənafeyinə uyğun gəlirdi. Özünün işğalçılıq siyasətini reallaşdırmağa çalışan Rusiya imperiyası ermənilərin havadarı rolunda çıxış edərək onlardan bir alət kimi istifadə edirdi [2, s.215). Bu proses XIX-XX yüzillər boyu davam etdi.

Tarixi faktdır ki, ermənilər ruslara "ən yaxşı işğalçı", "xristianlığın və ermənilərin xilaskarı" kimi baxmışlar. Erməni tarixçisi A.Arakelyan yazır: "Rusiya, Türkiyə və İran Qarabağa yiyələnmək üçün öz aralarında mübarizə aparırdılar. Rusiya Qarabağ üzərində sayca üstünlük təşkil edən Şərq işğalçılarının dağıdıcı hücumları ilə müqayisədə bölgə üçün ən yaxşı işğalçı və müstəmləkəçi dövlət idi [3, s.53]. Təəssüflə qeyd edək ki, bu bu gün də belədir. Müzəffər ordumuzun Cənubi Qafqaz regionunda yeni yaratdığı reallıqlar heç də bir mənalı qarşılanmadı. Biz 44 günlük haqq savaşımızda öz dostlarımızı da, məkirli, riyakar, xəbis, ağa qara deyən "böyük güclər"i də gördük. Ancaq bizim davamız haqq davasıdır. Xeyirin şər üzərində qələbəsidir.

Yenidən qayıdaq "erməni-məsələsi"nin əvvəlki tarixi dövrlərinə. Çünki gənc nəsil bizə qarşı olan tarixi ədalətsizliyin köklərini bilməli, gələcək addımlarını düzgün müəyyənləşdirməlidirlər ki, bir də bu riyakarların əlinə fürsət (işğallar, soyqırım, deportasiya və s. – İ.K.) verilməsin.

Tarixin müəyyən dövrlərinə qədər nə Rusiyanın, nə də digər Qərb dövlətlərinin “erməni məsələsi”nə yaxın münasibət bəslədikləri açıqca görünə bilər. Bu yazıda biz “böyük güclər” ifadəsini boş yerə işlətmirik. Bu güclərin siyasi müdaxilələri və diplomatik gedişləri olmadan heç bir milli problem “qlobal məsələ” səviyyəsində diqqət çəkməz. İkincisi “Qarabağ problemi”nin başlaması və günümüzə qədər davam etməsi (nəhayət bizim haqq zəfərimizlə bitməsi – İ.K.) problemin beynəlxalq arenaya çıxması Rusiya da daxil böyük güclərin regionda milli maraqların artması sayəsində mümkün olmuşdur. Bu “güclər” “erməni məsələsi”nə öz geosiyasi planlarında xüsusi bir yer ayırmağı məqsəd və maraqlarına uyğun görmüşdür.

Çar hökumətinin başa çatdıra bilmədiyi “erməni kartı”na SSRİ dövründə də qayıdıldı. Hai Tahd ideologiyası içərisində özünə yer tutan “türk işğalı altındakı Ermənistan”ı xilas etməyi, eyni zamanda Ermənistandakı Azərbyacan türklərini yaşadıqları öz tarixi-etnik torpaqlarından çıxarmağı hədəf alan təklif və tələblər sovetlər dövründə Moskvaya təqdim edilmişdir. Bu iyrəc planlar “Ana Vətənə dönüş layihəsi” çərçivəsində həyata keçiriləcəkdi. Bizim bir zamanlar sadəlövcəsinə əlçatmaz kristal bir dövlət kimi baxdığımız Sovet idarəsi də bu riyakar təklifə müsbət münasibət bəsləmişdir. Bütün bu bələdçi qeydlərin hər birinin geniş müqayisəli-təhlilli izahları var.

XX yüzilin ortalarına doğru (daha doğrusu II Dünya müharibəsindən sonra – İ.K.) Türkiyənin geosiyasi baxımdan əhəmiyyətli bir mövqedə yer alması və böyük dövlətlərin maraqları içərisində olması onun NATO-ya girməsinə zəmin yaratmışdır.

Sovet hökuməti Türkiyəyə qarşı düşmənçiliyini öz hüdudları daxilində olan respublikalar, xüsusilə Ermənistan vasitəsi ilə davam etdirmiş, 1955-ci ildə Ermənistanda ucaltdığı uydurma soyqırım abidəsiylə, Ermənistan xalqı Avropa və ABŞ-da yaşayan erməniləri antitürk fəaliyyətlərə yönləndirmişdi [4, s.147]. Erməni terror təşkilatlarının ortaya çıxması və fəaliyyətlərinin artması SSRİ-nin bilavasitə dəstəyi ilə mümkün olmuşdur.

SSRİ-nin parçalanmasına baxmayaraq, Rusiyanın prioritetlərində və strategiyasında elə bir ciddi dəyişiklik olmamışdır. Rus hərbi birləşmələri Azərbaycandan çıxarıldığı və Gürcüstana etimad göstərilmədiyi üçün Ermənistan Rusiyanın yeganə icraçısına çevrilmişdi. Əldə etdiyimiz məlumatlara əsaslanaraq qeyd edə bilərik ki, 1994-cü ildən günümüzədək Ermənistana təxminən 2 milyard ABŞ dolları dəyərində ən müasir silah-sürsat göndərilmişdir.

1994-cü il maym 12-də baş tutmuş atəşkəs münaqişənin reallıqlarını əks etdirirdi. Müharibə həm azərbaycanlıların, həm də ermənilərin gücünü almışdı. Döyüş meydanında minlərlə vətəndaşını itirən və bu itkilərin müqabilində yalnız cüzi uğurlar qazanan Azərbaycan atəşkəsin labüdlüyü ilə razılaşdı, lakin rus hərbi kontingentinin yerləşdirilməsinə qarşı çıxdı. Beləcə, atəşkəs xəttində qeyri-adi vəziyyət yarandı: neytral sülhməramlı qüvvələr cəlb olunmadan atəşkəs özü-özünü nizamlayırdı. Ermənilər sülhməramlı qüvvələrin yerləşdirilməsindən daha çox gücləndirilmiş cəbhə xəttinin saxlanılmasında maraqlı idilər. Robert Koçaryan deyir ki, "Qarabağın ciddi müdafiəsini təmin edə bilən hüduda çatanda, biz, (atəşkəs) haqqında ciddi düşünməyə başladıq”. Bu hüdudlar Dağlıq Qarabağ daxil olmaqla Azərbaycanın bütün cənub-qərb hissəsini,

yəni Azərbaycanın rəsmən tanınmış ərazisinin təqribən 14 faizini Azərbaycandan ayırdı. Atəşkəsə əməl edən, lakin heç bir sülh sazişi bağlamayan tərəflər arasındakı münaqişə yeni və, eyni zamanda, qəribə bir mərhələyə - "nə sülh, nə də savaş" mərhələsinə addımladı. Döyüşlər bitdi, lakin münaqişənin kökündə duran problemlər həll edilməmiş qaldı [5, s.276].

Ancaq böyük dövlət adamı, xalqımızın ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu və müzəffər Ali baş komandan, cənab Prezident İlham Əliyevin apardığı düzgün, düşünülmüş, ağıllı siyasət xalqımıza böyük qələbə əzmini yaşatdı. Cənubi Qafqazda hətta “böyük güclər”in gözləmədiyi yeni tarixi bir reallıq formalaşdı. Qarabağ uzun işğaldan sonra öz soydaşlarına qovuşdu. Artıq Azərbaycan postmüharibə dövrünə qədəm qoyub. Erməni vandallarının insanlığa sığmayan ağır talanlarının, dağıntılarının bərpası işlərinə yeni infrastruktur layihələrin həyata keçirilməsinə çox sürətlə başlayıb.

Qarabağ məsələsinə ikili standartlarla yanaşanlar erməni acizliyini və qəddarlığını görmək məcburiyyətindədirlər.

Qarabağ Azərbaycandır!

## ƏDƏBİYYAT

1. İsmayılov F. “Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində”, Bakı, 2001.
2. Nəcəfli Y.C. “XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri”, Bakı, 2007.

3. А.Аракелян «Присоединение Карабаха к царской России», исторический журнал, 1939, №10.
4. Mehmet Saray "Sovyet tehdidi karşısında Türkiye'nin Nato'ya girişi", Ankara, 2000.
5. Tomas de Vaal "Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında", Bakı, 2008

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
ADU
Docendo discimus
Öyrədərək öyrənirəm
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

Kərimov Namiq Əlişah oğlu
Azərbaycan Dillər Universiteti

# ERMƏNISTANIN MÖVCUD TƏBİİ QAZ TƏHCİZATI SİSTEMİNƏ SİYASİ ASPEKTDƏ BAXIŞ

Açar sözlər: Ermənistan, təbii qaz, qaz kəməri, təchizat
Keywords: Armenia, natural gas, gas pipeline, supply
Ключевые слова: Армения, природный газ, газопровод, снабжение

Sovetlər dönəmində yaradılmış ümumi qaz şəbəkəsindən Ermənistan da yaralanırdı və bu daha çox Türkmənistan qazı hesabına həyata keçirilirdi. Orta Asiyadan təbii qaz Cənubi Qafqazın hər üç ölkəsinə- Azərbaycana, Gürcüstan və Ermənistana nəql olunurdu. SSRİ-nin çöküşündən sonra Ermənistanın təbii qaza olan ehtiyacının ödənilməsi üçün danışıqların ilk vaxtlar məhz Türkmənistanla aprılması yuxarıda söylədiyimiz fikri bir daha təsdiqləmiş olur. Sadəcə olaraq türkmən qazı sövet dönəmində Rusiyanın yuridisdikasında olan kəmərlə Ermənistana nəql olunmuşdur. Yeri gəlmişkən qeyd edək ki, Şimal-Cənub qaz kəməri adı ilə bilinən bu xətt 221 km uzunluğunda olub, 1960-cı illərdə Rusiya-Gürcüstan sərhəddindən başlayaraq (təbii ki, Gürcüstandan keçməklə) Ermənistana çəkilmişdir. Müstəqilliyinin ilk illndən Ermənistan ilə Türkmənistan arasında bağlanmış müqaviləyə görə idxal olunan təbii qazın 70%-nin dəyəri rəsmi Yerevan tərəfindən kabel, elektrik motorları və digər sənaye məmulatları ilə ödənilirdi. Qalan 30%-lik hissə isə nəqd

danışıqların aparılmasına çağırmışdı. İlham Əliyev isə ona yaranmış vəziyyətlə bağlı Ermənistanın məsuliyyət daşıdığını, Azərbaycandakı yaşayış məskənlərinin ağır artilleriya atəşinə tutulması nəticəsində mülki vətəndaşların yaralandığını və həlak olduğunu, yüzlərlə evin dağıdıldığını bildirmişdi. Prezident İlham Əliyevin Fransanın ermənipərəst mövqeyi və separatizmi dəstəkləməsi ilə bağlı fikirləri belə idi: *“Əgər Fransa Dağlıq Qarabağ üçün öz müqəddəratını təyinetmə istəyirsə, qoy onlar, demək olar ki, sakinlərinin yarısı ermənilərdən ibarət olan Marsel şəhərini onlara versinlər və onlara Dağlıq Qarabağ respublikası elan etməyə icazə versinlər və qoy onlara müstəqillik versinlər”* [3].

Avropa İttifaqının üzvü olan Fransa regionda qurulan yeni reallıqları asanlıqla qəbul edə bilmirdi. Erməni lobbi qruplarının ağır təsiri altında olan Fransa Senatı 2020-ci il noyabrın 25-də hökuməti qondarma “Dağlıq Qarabağ Respublikasını” tanımağa çağıran və məcburiyyət gücü olmayan bəyannamə qəbul etdi. Prezident Emmanuel Makronun rəhbərliyi altında Fransa son vaxtlar həmsədrlik mövqeyinin daha bir vacib elementini - bitərəfliyini itirdi. Fransa Senatının Dağlıq Qarabağda qurulmuş separatçı rejimin tanınması ilə bağlı təxribat xarakterli və əsassız təklifi sülh prosesinə heç bir töhfə vermir, əksinə, digər dövlətlərin söndürməyə cəhd göstərdikləri münaqişəni daha da alovlandıra bilər [1].

İkinci Qarabağ müharibəsi zamanı Almaniya Xarici İşlər naziri Hayko Maas Ermənistan və Azərbaycanı güc tətbiqindən imtina edərək dərhal bütün hərbi əməliyyatları dayandırmağa çağırmışdır. Həmçinin kənd və qəsəbələrin atəşə tutulmasından da olduqca narahat olduğunu bildirmişdir [2].

Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən Avropa dövlətlərindən İtaliya İkinci Qarabağ müharibəsi dövründə də Azərbaycanın haqlı mövqeyini müdafiə etmişdir. İtaliyanın Kampobasso əyalətinin Sepino və San Culiano del Sannio bələdiyyələri, Milan əyalətinin Korbetta şəhər Bələdiyyə Şurası Ermənistanın Azərbaycana qarşı təcavüz, etnik təmizləmə, soyqırımı siyasətini pisləyən və Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirən sənədlər qəbul etmişdir [2].

Avropa İttifaqı 44 günlük müharibə dövründə münaqişə tərəflərini döyüş əməliyyatlarını dayandırmağa, gərginliyi azaltmağa və atəşkəsə ciddi əməl etməyə çağırmışdır. Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali nümayəndəsi Cozef Borrellin bəyanatında ATƏT-in Minsk qrupu həmsədrlərinin rəhbərliyi altında Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə heç bir ilkin şərt qoyulmadan danışıqlara dərhal başlamağın zəruriliyi vurğulanmışdır [2].

Qərbi Avropa dövlətləri tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə riayət etmək üçün siyasi iradənin olmamasına, eyni zamanda ikili standartların mövcudluğuna görə Ermənistan Respublikasının işğalçılıq siyasətinin ittiham edilməməsinə və müvafiq cəza tədbirləri həyata keçirilməməsinə baxmayaraq Azərbaycan 2020-ci il sentyabrın 27-də başlamış və 44 gün davam etmiş İkinci Qarabağ müharibəsini qlobal pandemiyanın baş verdiyi şəraitdə böyük zəfərlə başa çatdırdı. Son iki yüz illik tarixində Azərbaycan müharibədən ərazi itkisi ilə deyil, ərazi bütövlüyünü bərpa edərək çıxdı.

**Ədəbiyyat siyahısı**

1. Hüseynov, R. Qarabağ konflikti ərzində və sonrasında Fransanın təxribatçı siyasəti: [Elektron resurs] / – 26 noyabr, 2020. URL: https://top-center.org/az/ ekspert-reyi/3070/qarabag-konflikti-erzinde-ve-sonrasinda-fransanin-texribatci-siyaseti
2. İkinci Qarabağ müharibəsi. Vətən müharibəsi və ya “Dəmir Yumruq” əməliyyatı: [Elektron resurs] / – URL: https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html.
3. Makrona və başqa məkrli ermənipərəstlərə möhtəşəm cavab: [Elektron resurs] / – 6 oktyabr, 2020. URL: https://525.az/news/151458-makrona-ve-basqa-mekrli-ermeniperestlere-mohtesem-cavab-yazi

Quliyev Ramin Xəlil oğlu
Azərbaycan Dillər Universiteti

## BRİTANİYA KRALLIĞININ ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNƏ MÖVQEYİ VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

Açar sözlər: Britaniya, Azərbaycan, müharibə, münaqişə, mövqe
Key words: Britain, Azerbaijan, war, conflict, attitude
Ключевые слова: Великобритания, Азербайджан, война, конфликт, взгляд

Dağlıq Qarabağ münaqişəsi silahlı fazaya keçən ilk vaxtlardan başlayaraq dünyanın aparıcı dövlətlərindən biri kimi Böyük Britaniya və Şimali İrlandiya krallığının münaqişəyə xüsusi baxışı olmuşdur. Şübhəsiz SSRİ-nin parçalanmasından sonra Britaniya Cənubi Qafqazda ələlxüsus Azərbaycanda ciddi maraqları olan dövlətlərdən biri idi. Xüsusən də perspektiv vəd edən enerji və nəqliyyat layihələri Azərbaycanı Böyük Britaniyanın birbaşa maraq dairəsinə çevirirdi. Bu maraqlar Britaniyanın Cənubi Qafqazda maraqları olan Fransa, Rusiya və ABŞ-dan münaqişəyə fərqli, praqmatik və ədalətli münasibət sərgiləməsinə səbəb olurdu. Digər səbəb kimi biz qeyd edilən ölkələrdə erməni diasporunun fəaliyyət gücünü göstərə bilərik: əgər Britaniyada cəmi 18 min erməni mənşəli əhali yaşayırsa, ABŞ-da 1.5 milyon, Fransada 500 minə yaxın və Rusiyada 2 milyondan çox erməni əsilli vətəndaş olan böyük bir diaspora fəaliyyət göstərir. Eyni zamanda Azərbaycan dövlətinin və diasporunun erməni iddialarını aradan qaldırmaq üçün Britaniyadakı mühüm fəaliyyəti də danılmaz faktdır.

Vətən müharibəsi dövründə Britaniya krallığının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu prinsipial mövqe Azərbaycan Respublikasının müstəqillik əldə etdiyi ilk zamanlardan Britaniya krallığı ilə yaradılan sıx siyasi və iqtisadi əməkdaşlığa dayanırdı. Təsadüfü deyildir ki, münaqişənin ilk illərindən başlayaraq Britaniya krallığı Dağlıq Qarabağ münaqişəsinin məhz Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinin tərəfdarı olmuşdur. Belə ki, Böyük Britaniyanın baş naziri Con Meycor 1992-ci ilin sentyabrında Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə göndərdiyi məktubda Dağlıq Qarabağ

münaqişəsi haqqında öz hökumətinin mövqeyini belə ifadə etmişdir: "Böyük Britaniya hökuməti bildirir ki, Dağlıq Qarabağın rəsmi statusu məsələsi müzakirə mövzusu ola bilməz. Bu, Azərbaycan ərazisidir."[6]. Həmçinin Birləşmiş Krallıq hökumətinin 1993-cü il aprelin 14-də, iyulun 27-də, oktyabrın 29-da verdiyi bəyanatlarda Ermənistanın Azərbaycan torpaqlarının işğalını davam etdirməsi qətiyyətlə pislənilirdi və tutulan ərazilərin dərhal boşaldılması istənilirdi. Böyük Britaniya yalnız bəyanat verməklə kifayətlənmədi. Azərbaycana humanitar yardım etmək üçün BMT-nin Qaçqınlarla işi üzrə Ali Komissarlığına 100 min funt sterlinq verdi. Bu, Britaniya hökumətinin Ermənistanın təcavüzünə münasibətinin göstəricisi idi [8, s. 30-31]. BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi Britaniyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin qəbulunda xüsusi rolu olmuşdur. Qeyd etmək lazımdır ki, Britaniya hökuməti qondarma "Dağlıq Qarabağ Respublikası"nda keçirilən "prezident və parlament seçkilərinin nəticələrini" tanımamış və onu pisləyən bəyanatlarla çıxış etmişdir. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Endryu Taker "Xalq qəzeti"nə (2001 -ci il, 26 yanvar) verdiyi müsahibədə bildirmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz və tərkib hissəsidir, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş torpaqlarını tərk etməlidir. Səfir sözünə davam edərək demişdir: "Böyük Britaniyanın rəsmi dairələri dəfələrlə bəyan etmişlər ki, Dağlıq Qarabağa veriləcək muxtariyyətin hansı statusa malik olmasını yalnız Azərbaycan Respublikasının rəhbərliyi müəyyən etməlidir. Rəsmi London Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir"[6]. Britaniya hökumət nümayəndələri H. Əliyevlə aparılan danışıqlarda Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olması dəfələrlə bildirilmiş və ona hər hansı bir statusun, yəni siyasi, mədəni muxtariyyət və ya xüsusi iqtisadi hüquqların verilməsi Azərbaycan Respublikasının öz işi sayılmışdı [7, s. 482-483]. Britaniyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu mövqe 2016-cı il aprel döyüşlərində də dəyişməz olaraq qaldı.

Qeyd etmək lazımdır ki, Britaniya krallığı enerji resursları və Xəzər dənizinin təhlükəsiliyi məsələsində də maraqlıdır. 2019-cu il mart ayının 6-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Böyük Britaniya və

Şimali İrlandiya Birləşmiş Krallığı Müdafiə Nazirliyinin beynəlxalq təhlükəsizlik siyasəti üzrə direktoru Nik Qurrun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdi. Görüşdə regional, dəniz, enerji resurslarının təhlükəsizliyi, terrorizmə qarşı birgə mübarizə və digər məsələlər müzakirə edilib. N.Qurr xüsusi qeyd edib ki, Böyük Britaniya Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımaqla yanaşı Dağlıq Qarabağ münaqişəsinin BMT-nin Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında, beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində həllinin tərəfdarıdır [1].

Vətən müharibəsi dövründə Britaniyanın tutduğu ədalətli mövqe ilə bağlı iddiaların bir qismi Britaniyanın işğaldan azad edilmiş ərazilərdə investisiya yatırımı və qlobal iqtisadi layihələrin icra edilməsində üstünlüyü almaq istəyi ilə bağlıdır. Bu iddialar azad edilmiş Kəlbəcər və Zəngilan rayonlarında qızıl və qiymətli metal yataqlarının istismarının Britaniyanın Anglo Asian mədən şirkəti ilə birgə həyata keçirilməsi üçün Azərbaycan tərəfi ilə gəlinmiş razılıqla əlaqələndirilir [11]. Qeyd etmək lazımdır ki, 2020-ci ilin iyul ayında Tovuz və Qazax rayonları istiqamətindəki ərazilərimizdən keçən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, Böyük ipək yolu, Bakı-Tbilisi-Kars dəmiryolu [5] kimi beynəlxaq enerji və nəqliyyat layihələrinə zərbə vurmaq məqsədi ilə Ermənistanın başlatdığı Tovuz döyüşlərindən təxminən bir ay əvvəl 2020-ci il iyun ayının 19-da Böyük Britaniya Beynəlxalq Ticarət Nazirliyinin (BTN) rəsmi internet səhifəsində "Xarici Biznes Riskləri-Azərbaycan" (Overseas Business Risks-Azerbaijan) [10] adlı elektron bələdçi məlumat bazasına Dağlıq Qarabağ və ətraf ərazilərdə Britaniya şirkətlərini hər hansı iqtisadi fəaliyyətlə məşğul olmamaqla bağlı xəbərdarlıq yerləşdirilib. Belə ki, 2017-ci ildə Avropa Komissiyası Ticarət Baş Direktorluğunun internet səhifəsində yerləşdirilmiş məlumatın mətninə uyğun olan xəbərdarlıqda vurğulanıb: "BTN Dağlıq Qarabağ və ətraf ərazilərdə Britaniya şirkətlərini hər hansı iqtisadi fəaliyyətlə məşğul olmamaqla bağlı xəbərdarlıq edir. Həmçinin Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, Dağlıq Qarabağ və ətraf ərazilərdə iqtisadi fəaliyyətin mülki və cinayət məsuliyyəti doğuracağı, belə fəaliyyətlə məşğul olan fərdlərə və şirkətlərə qarşı Azərbaycanda müvafiq hüquqi tədbirlərin, o cümlədən cinayət işinin açıla biləcəyi, eləcə də həmin fərdlərin gələcəkdə Azərbaycana səyahət etmək imkanlarına təsir edə biləcəyi vurğulanıb"[2]. Beləliklə dolayı yolla da olsa Britaniya hökuməti Dağlıq Qarabağ və ətraf ərazilər üzərində Azərbaycanın suverenliyi, bu ərazilərə münasibətdə Azərbaycan

qanunvericiliyinin qüvvədə olduğunu bir daha təsbit edirdi. Qeyd etmək lazımdır ki, Londonun Azərbaycana diqqəti ənənəvi olaraq Britaniya neft və qaz sənayesinin maraqlarına möhkəm şəkildə bağlıdır: “BP” uzun müddət Azərbaycanda ən böyük və hazırda de-fakto yeganə qərb əməliyyatçı şirkətidir[4]. Bu günə qədər BP-nin Azərbaycana yatırdığı sərmayə 72 milyard dollardır. Tovuz döyüşləri zamanı Britaniya parlamentinin bir qrup üzvləri Ermənistanı təcavüzkar adlandıraraq işğalçı addımlara son vermələri haqqında qərar imzalamışdır. Vətən müharibəsi başlandıqdan sonra Minsk qrupunun həmsədrləri olan ölkələr –Rusiya, Fransa və ABŞ Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsinə qarşı kəskin bəyanatlarla çıxış etdilərsə[12], Britaniya daha sakit bir mövqe nümayiş etdirdi. 30 Sentyabrda Baronessa Sugg hökumətin mövqeyini göstərdi: “Lordlar, İngiltərə Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünü dəstəkləyir” [3]. İngiltərə parlament işlərinin rəsmi qeydləri olan Hansard 7 oktyabr 2020-ci ildə müharibəni müzakirə edən yuxarı palatanın (Lordlar) sənədini qeyd edir: “Lordlar, İngiltərə gərginliyi azaltmağa və danışıqlar masasına dərhal geri dönməyə çağırır, Türkiyə əsas NATO tərəfdaşıdır və NATO -nun təsirini gərginliyi sakitləşdirmək üçün istifadə etməsini təşviq etmək üçün çalışmağa davam edirik” [9]. Parlamentin Xarici Əlaqələr Departamentinin müavini Vendi (Wendy) Morton sentyabrın 28-də həm Azərbaycan, həm də Ermənistanın xarici işlər nazirləri ilə danışaraq, sülh və davamlı nizamlanmanı təmin etmək üçün ATƏT-in Minsk qrupu çərçivəsində dialoqa qayıtmağı tələb etdi. Vendi Morton 13 oktyabrda İngiltərə Hökumətinin “Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar narahatlığını ifadə edərək, bütün tərəfləri mülki vətəndaşları qorumaq üçün mümkün olan hər şeyi etməyə çağırdı” [3]. Oktyabrın 19-da “BP”-nin Azərbaycandakı Regional Direktoru Qari Cons şirkət adından Azərbaycana de-fakto dəstəyini bildirdi və Azərbaycan enerji kommunikasiyalarının Böyük Britaniya üçün strateji əhəmiyyətini vurğuladı. Maraqlıdır ki, bir gün sonra Britaniya Xarici İşlər Naziri Dominik Raab Britaniya-Türkiyə münasibətlərinin strateji xarakterini vurğulayaraq, Vətən müharibəsi zamanı Azərbaycana tam dəstəyini ifadə edən Ankaranı “müttəfiq və dost” adlandırmışdır. Türkiyə ilə möhkəm əməkdaşlıq Londonun xarici siyasətindəki əhəmiyyətli istiqamətə-bütün mümkün üsullarla Russiyanın qarşısının alınmasına xidmət edir [4]. Beləliklə, qlobal rolunu bərpa etməyə çalışan Britaniya krallığının Cənubi

Qafqazda iqtisadi və siyasi maraqları Dağlıq Qarabağ münaqişəsinə obyektiv mövqeyi ilə müşayiət edilir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycanın Müdafiə naziri Böyük Britaniyanın Müdafiə Nazirliyinin nümayəndə heyəti ilə görüşüb, 6 mart 2019. https://mod.gov.az/az/news/azerbaycanin-mudafie-naziri-boyuk-britaniyanin-mudafie-nazirliyinin-numayende-heyeti-ile-gorusub-25999.html
2. Britaniya öz şirkətlərini Qarabağda fəaliyyətdən çəkinməyə çağırdı, 19 İyun 2020. http://femida.az/az/news/134631/britaniya-oz-sirketlerini-qarabagda-fealiyyetden-cekinmeye-cagirdi
3. Consistent Passive Aggression and Realpolitik A History of the UK Government's Attitude Toward Armenia, December 06, 2020. https://www.evnreport.com/politics/consistent-passive-aggression-and-realpolitik
4. Dağlıq Qarabağ və Britaniyanın mövqeyi, 21 oktyabr 2020. https://top-center.org/az/ekspert-reyi/3063/dagliq-qarabag-ve-britaniyanin-movqeyi
5. Düşmənin başına vurulan ağır zərbə - Tovuz döyüşləri, 16 iyul 2020. https://ordu.az/az/news/168200/dusmenin-basina-vurulan-agir-zerbe-tovuz-doyusleri
6. Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin həllində Böyük Britaniyanın mövqeyi, 20 fevral 2013. http://www.anl.az/down/meqale/ses/2013/fevral/295045.htm
7. İsmayıl M. Çağdaş Beynəlxalq Münasibətlər və Azərbaycanın Xarici Siyasəti, // III hissə, Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2001, - 776 səh
8. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) // II hissə, Bakı, Mütər-cim, 2015, -664 səh.
9. Nagorno-Karabakh Volume 806: debated Wednesday 7 October 2020, 7 October 2020. https://hansard.parliament.uk/lords/2020-10-07/debates/77EF86EC-7553-404B-A398-3D9DD32A7716/Nagorno-Karabakh
10. Overseas Business Risk: Azerbaijan, 18 February 2021. https://www.gov.uk/government/publications/overseas-business-risk-azerbaijan

11. Revealed: the UK’s business links to Nagorno-Karabakh, 17 June 2021. https://www.opendemocracy.net/en/odr/revealed-the-uks-business-links-to-nagorno-karabakh/
12. Unfinished Business in the Armenia-Azerbaijan conflict, Thomas De Wall. February 11, 2021. https://carnegieeurope.eu/2021/02/11/unfinished-business-in-armenia-azerbaijan-conflict-pub-83844

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
ADU
Docendo discimus
Öyrədərək öyrənirəm
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES

Qurbanlı Kəmalə Məhəmməd qızı

Azərbaycan Dillər Universiteti

**Livan erməni icmasının Qarabağ münaqişəsində rolu**

Açar sözlər: Livan, ermənilər, diaspor, Qarabağ münaqişəsi

Keywords: Lebanon, armenians, diaspora, Karabakh war

Ключевые слова: Ливан, армяне, диаспора, Карабахский конфликт

Livan dini-etnik baxımdan rəngarəng mənzərəsi olan ölkələrdən biridir. Digər ərəb ölkələrindən fərqli olaraq Livan Milli Paktında diqqət çəkən məqamlardan biri dövlət vəzifələrinin dini icmalar arasında bölüşdürülmə prinsipidir. Bu prinsipə əsasən, dövlət vəzifələri dini icmalar arasında ədalətli formada bölüşdürülməlidir. Eyni zamanda, 3 əsas vəzifə bölgüsü aşağıdakı qaydadadır:

- Prezident xristian-maroni;
- Baş nazir müsəlman-sünni;
- Parlament sədri müsəlman-şiə olmalıdır [1, s. 111-112].

Ölkənin xristian əhalisinin tərkib hissəsi olan ermənilər ümumi əhalinin təxminən 4%-ni əhatə edir. Livan vətəndaş müharibəsi buradakı ernənilərin sayının azalmasına səbəb olmuşdur. Bu səbəbdən Livan ermənilərinin bir hissəsi Avropa, Amerika, Avstraliyaya emmiqrasiya etmişdir. Hazırda Livanda yaşayan ermənilərin saylarından asılı olmayaraq, kifayət qədər nüfuza sahib olduğunu deyə bilərik.

Livanda yaşayan ermənilərin 3 siyasi partiyası (Erməni İnqilab Federasiyası, Sosial Demokrat Hınçak Partiyası, Erməni Demokrat Liberal Partiyası) mövcuddur. Bu partiyalar ölkənin siyasi, iqtisadi, mədəni həyatında rolu olan qurumlardır. Eyni zamanda erməni diasporunun fəaliyyətinin güclənməsində iştirak edirlər. Aztag, Ararad, Zartonk kimi günlük nəşr olunan erməni dilli qəzetlər bu partiyalara məxsusdur.

Hər bir diasporun özünəməxsus xüsusiyyətləri və yaşayış tarixi olsa da, 1915-ci ildən sonra erməni diasporunun ən çox cəmləşdiyi yer Livan ərazisidir. Bir sözlə, Livan Yaxın Şərqdəki erməni icmalarının əsas mərkəzidir [2, s. 11-14], [5].

1975-ci ildə Livanda vətəndaş müharibəsinin yaratdığı boşluqdan istifadə edən ermənilər Beyrutda ASALA (Armenian Secret Army for the Liberation of Armenia) terror təşkilatının yaratmışlar [3].

Livan Azərbaycan Respublikasının müstəqilliyini yarandığı ildə tanıyan ölkələrdən olsa da (30 dekabr, 1991), Xocalı soyqırımını tanımamışdır. Lakın, 11 may, 2000-ci il tarixində “erməni soyqırımı” Livan Parlanmenti tərəfindən tanınmışdır. Livanı digər ərəb dövlətlərindən fərqləndirən cəhətlərdən biri də məhz bu məsələdir. Bu hadisə ilə Livan “erməni soyqırımı”nı tanıyan ilk ərəb dövləti olmuşdur.

Müqayisə üçün qeyd edək ki, erməni icmasının yaşadığı ölkələrdən biri olan İsrail bu baxımdan Livandan fərqlənir. Həm “erməni soyqırımı” məsələsi, həm də Qarabağ münaqişəsinə münasibətdə İsrailin mövqeyi fərqlidir.

2015-ci ildə armenpress.am-ın məlumatına görə, Livan Parlamentinin sədri Nabih Berri Qarabağ münaqişəsində Ermənistanı

dəstəklədiyini bildirmişdir [4]. Parlament sədri müsəlman-şiə olduğu halda, bu məqamda "din qardaşlığı"nın arxa planda qaldığını görürük. Digər tərəfdən bu kimi halları erməni lobbiçiliyinin və Livandakı siyası gücünün nəticəsi kimi izah etmək olar.

### Ədəbiyyat siyashısı


1. Rafiq bəy İsmayıl, Nərgiz Axundova, Aida Bağırova. Ərəb ölkələrinin çağdaş tarixi. Bakı-2013. 402 s.
2. Dr. Mehmet Çelik. Kavramsal Olarak Diaspora, Ermeni Diasporası Ve Lübnan Ermeni Diasporası. Tarih ve Gelecek Dergisi, Aralık 2017, Cilt 3, Sayı 3. 21 s. https://dergipark.org.tr/
3. Dr. Serdar Yıldız. ASALA. November 2015. https://www.researchgate.net/
4. Lebanon reconfirms its support to Armenia in Nagorno Karabakh conflict https://armenpress.am/
5. Why Lebanese-Armenians feel the pull of the Nagorno-Karabakh war https://www.arabnews.com/


ADU
LANGUAGES OF UNIVERSITY AZERBAIJAN
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ
discimus öyrənirəm

Qurbanova Sevinc Əşrəf qızı
Azərbaycan Dillər Universiteti

## Şuşanın rəmzlərindən biri- Vaqif məqbərə kompleksi

Açar sözlər: Molla Pənah Vaqif, məqbərə, erməni vandalizmi, Şuşa

Ключевые слова: Мулла Панах Вагиф, мавзолей, армянский вандализм, Шуша

Key words: Molla Panah Vagif, mausoleum, armenian vandalism, Shusha

Azərbaycan xalqına qarşı iki əsrdən artıq davam edən erməni təcavüzünün qurbanları təkcə soydaşlarımız deyil, həmçinin tarixi mədəni abidələrimizdir. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2001-ci ilin 2 avqust 132 nömrəli qərarı ilə təsdiqlənmiş mədəniyyət abidələrinin siyahısına görə, işğal olunmuş ərazilərdə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinin ümumi sayı 900-dən çoxdur [4, s.4]. Bu tarixi-dini abidələrimiz, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalmışdır.

Erməni silahlı dəstələri tərəfindən dağıdılan abidələrimizdən biri dahi Azərbaycan şairi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksidir. Molla Pənah Vaqif milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan verən öz poeziya ənənələri ilə seçilən ölməz sənətkarımızdır. Onun türbəsi Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa şəhərində yerləşir. Bu

muzey-məqbərə kompeksi 1977-ci ildən Azərbaycanın görkəmli sənətşünas-alimi Əbdülvahab Salamzadə və əməkdar memar Eldar Kanukovun layihəsi əsasında inşa edilməyə başlanılmış və 4 ilə yaxın davam etmişdir. Kompleksin açılışı isə 1982-ci ildə baş tutmuş, yanvarın 14-də ümumilli liderimiz Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə əzəmətli məqbərənin açılışı olmuşdur [7]. Ulu Öndər sonralar Şuşa haqqında xatirələrini söyləyəndə Vaqif türbəsinin tikintisi haqqında da məlumat vermişdir: "...Mən 1967-ci ildə DTK-nın sədri olarkən, Şuşaya gələndə ilk dəfə Vaqifin qəbrini ziyarət etdim. Elə o zaman fikirləşdim ki, şairin məzarı qətiyyən özünə yaraşmır. Respublikanın rəhbəri olarkən orada həmin türbənin tikilməsinə göstəriş verdim..." [1]. Həmin səfəri zamanı Vaqif poeziya günlərinin keçirilməsi ilə bağlı Heydər Əliyev göstəriş vermişdi. 1982-ci ilin 29 iyul - 3 avqust tarixində Vaqif Poeziya Günləri Şuşada keçirilmişdi [5].

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev "TRT Haber"ə müsahibəsi zamanı bu hadisəni xatırlayaraq, 1982-ci ildə ümummilli lider Heydər Əliyev ilə Şuşaya getməsini və böyük şairimiz Vaqifin məqbərəsinin açılışında iştirak etdiyini xatırlatmışdır [6].

Türbə məşhur Cıdır düzünə yaxın bir ərazidə Azərbaycanın dahi şairi və ictimai xadimi Molla Pənah Vaqifin dəfn edildiyi qayalı təpədə ucaldılıb. Türbənin inşası zamanı ərazinin təbiəti və şəhərsalma xüsusiyyəti də nəzərə alınmış və Azərbaycanın qülləvari türbələrinin kompoziziyasından istifadə edilmişdir. Türbənin inşası zamanı xalq memarlığının yerli ənənələrinə də istinad edilmişdir. Türbən dördkünc quruluşa malikdir, aşağısı bir qədər geniş olan hündür bürcdür. O, xaricdən qırmızımtıl Qarabağ mərməri ilə üzlənmişdir. Türbənin baştağının

atqısında böyük hərflərlə ağ mərmərdən şairin adı həkk olunmuşdur. Şairin qəbri üzərində qara mərmərdən sənduqə qoyulub. Türbənin daxilində isə Molla Pənah Vaqifin büstü qoyulmuşdu [7]. Türbənin konstruksiyası dəmir-beton karkasa əsaslanırdı. Türbə Azərbaycan ənənələrini davam etdirsə də günbəzlə qurtarmırdı. Günbəzin əvəzinə burada yastı dəmir-beton düzəldilmişdir [7]. Beləliklə, gözəl təbiət mənzərəsi ilə təzad təşkil edən bu abidə Şuşanın memarlıq üslubuna yeni bir nəfəs gətirmişdir.

Ermənistanın işğalı dövründə Şuşanın mədəniyyət abidələrinə qarşı vandalizm aktları törədilmiş və 600-ə yaxın tarixi memarlıq abidələri məhv edilmişlər. Bu abidələr arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün ev muzeyləri də dağıdılmışdır. O cümlədən, Molla Pənah Vaqif məqbərəsinə böyük zərər dəymiş, burada olan eksponatlar məhv edilmiş və daşınması mümkün olan eksponatlar isə Ermənistana aparılmışdır [3, s. 3-4]. Uzun müddət məqbərə acınacaqlı vəziyyətdə idi. Kompleksin divarları və üzlük daşları sökülmüşdü.

Müzəffər Azərbaycan Ordusunun şanlı qələbəsindən sonra erməni vandalizminə məruz qalmış çoxsayda tarixi-dini mədəniyyət abidələrimizin bərpasına başlanılmışdır. Yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı Azərbaycan Respublikasının prezidenti İlham Əliyev məqbərini ziyarət etmiş və onun tapşırığına əsasən Vaqif məqbərə kompleksinin də təmir-bərpa işlərinə başlanılmışdır [6].

Vaqif məqbərə-muzey kompleksinin təmir-bərpa və yenidənqurma işləri Heydər Əliyev Fondu tərəfindən aparılmışdır. Azərbaycanın Prezidenti İlham Əliyev 2021-ci il 16 mart tarixində Şuşaya səfəri zamanı türbənin bərpası ilə yaxından tanış olmuşdur 2021-ci ilin avqustunda təmir

işlərindən sonra türbə yenidən bərpa olunaraq açılmışdır. Abidənin tarixi görkəmi qorunub saxlanılmışdır [5]. Şuşa işğaldan azad edildikdən sonra ilk dəfə 2021-ci ilin avqustun 30-da Vaqif Poeziya günləri yenidən təşkil olunmuşdur [2]. Bununla da, Vaqif məqbərəsi yenidən Şuşanın əsas rəmzlərindən birinə çevrilmişdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. 15 Yanvar 1982-ci il - Şuşa 36 il öncə: [Elektron resurs] /13 Yanvar, 2018. URL: https://modern.az/az/news/154165/14-yanvar-1982-ci-il-susa-36-il-once-
2. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər:[Elektron resurs]/30 Avqust, 2021. URL: https://president.az/articles/52881
3. Quliyeva S., Əhmədova L. Molla Pənah Vaqif - 300. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Bakı, 2017, 32 s.
4. Məmmədov N. İşğal altındakı tarixi-dini abidələrimiz. Bakı, "Nurlar" NPM, 2015, 96 səh.
5. Şuşada dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin açılışı olub: [Elektron resurs]/Avqust 29,2021. URL: https://apa.az/az/xeber/resmi-xeber/susada-vaqifin-muzey-meqbere-kompleksinin-acilisi-olub-
6. Vaqif məqbərəsi Şuşanın işğalından əvvəl və indi: [Elektron resurs] / Oktyabr 5, 2020. URL: https://yenisabah.az/vaqif-meqberesi-susanin-isgalindan-evvel-ve-indi-foto

7. Vaqif türbəsi: [Elektron resurs] /URL:http://anl.az/el/emb/.P.Vaqif/xatire/M.P.Vaqif-turbesi.htm

Mehdizadə Günel Zərəf qızı
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu

## Bütün türk dünyasını birləşdirəcək dəhliz – Zəngəzur dəhlizi

**Açar sözlər:** *Üçtərəfli bəyannamə, Zəngəzur dəhlizi, Şuşa bəyannaməsi, nəqliyyat əlaqələri*
**Key words:** *Tripartite declaration, Zangazur corridor, Shusha declaration, transport links*
**Ключевые слова:** *Трехсторонняя декларация, Зангезурский коридор, Шушинская декларация, транспортное сообщение*

Azərbaycan Respublikasının təkcə ölkəmizin üçün deyil, eləcə də regionun gələcək inkişafı üçün böyük önəm daşıyan bir məsələ - Zəngəzur dəhlizinin açılması istiqamətində gördüyü işlər günümüzün ən aktual məsələlərindən biridir. Uzun illərdən bəri Azərbaycanla torpaq rabitəsini itirən Naxçıvan torpağının məhz bu dəhliz vasitəsilə Azərbaycana birləşməsini təmin edəcək siyasi qərar 2020-ci il 10 noyabr tarixində Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin imzaladığı Üçtərəfli Bəyannamədə öz əksini tapmışdır. Bu bəyannamə müharibəni bitirməklə yanaşı, Cənubi Qafqazda nəqliyyat əlaqələrinin bərpasına təkan verir. Ermənistanın təxminən 30 il davam etdirdiyi işğalçı siyasəti bu əlaqələri tamamilə məhdudlaşdırmışdı. Bəyannamənin 9-cu maddəsi məhz bu əlaqələrin bərpasını nəzərdə tutur və qeyd edilir ki, bölgədə bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa olunmalıdır və Ermənistan Azərbaycanın qərb

bölgəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Zəngəzur dəhlizi vasitəsilə nəqliyyat əlaqəsinə zəmanət verməlidir.

2021-ci il 11 yanvar tarixində Moskvada Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında keçirilmiş üçtərəfli görüşdə də əsas müzakirə mövzusunun bölgədə nəqliyyat-kommunikasiyalar sisteminin bərpa edilməsi olması bu istiqmətdə konkret addımlar atılmasını şərtləndirdi.

Hələ 2009-cu ilin oktyabr ayında Türk Şurası dövlət və hökümət başçılarının Naxçıvan Zirvə görüşündə türkdilli dövlətlər arasında əməkdaşlığın dərinləşməsi istiqamətində Naxçıvan sazişi imzalanmışdı. Bu sənədin imzalanması ilə Türkdilli ölkələrin Əməkdaşlıq Şurası yaradıldı. Bu Şuranın türkdilli ölkələr arasında siyasi-iqtisadi, turizm əlaqələri, humanitar sahədə əməkdaşlıq, nəqliyyat-kommunikasiya və s. sahələrdə əməkdaşlığın genişləndirilməsində rolu böyükdür. Zirvə görüşündə prezident İlham Əliyev çıxışında qeyd edirdi ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan bölgəsi arasında Zəngəzur yerləşir. Vaxtilə Zəngəzur bölgəsinin Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi böyük türk dünyasını coğrafi baxımdan parçaladı. Ancaq Naxçıvanda qəbul etdiyimiz qərarlarla və birgə işimizlə biz türk dünyasının birliyini daha da gücləndirdik və qardaşlığımızı davam etdiririk. Bu mənada, Türk Şurasının yaradılmasına dair qərarın, məhz Naxçıvanda keçirilmiş Zirvə Görüşündə qəbul edilməsi türk dünyası üçün böyük rəmzi əhəmiyyətə də malikdir [3, s.3].

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 31 mart 2021-ci il tarixində videokonfransla keçirilmiş Zirvə görüşündə də bu dəhlizin yaradılması çox yüksək qiymətləndirilmişdir. Azərbaycan bu yol vasitəsilə

əsas siyasi və iqtisadi tərəfdaşı olan Türkiyə Cümhuriyyəti ilə quru yolla bağlanacaq, eyni zamanda Türkiyəni bütün türk dünyası ilə birləşdirəcəkdir. Bunun reallaşacağı təqdirdə Avrasiyanın mərkəzində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yeni bir "arteriyası"nın açılması imkanları genişlənərək nəinki bölgə dövlətləri arasında, eləcə də, qitələrarası ticari-iqtisadi əlaqələrin artmasına müsbət təsir göstərəcəkdir. Şübhəsiz ki, Orta Asiyaya "ticarət qapısı" rolunu daşıyacaq bu dəhliz qısa zaman ərzində turizm əlaqələrinin də sürətlə inkişaf etməsinə şərait yaradacaqdır.

Burada söhbət 1,1 trilyon dollardan çox nominal ümumi daxili məhsulu olan türkdilli ölkələri strateji və iqtisadi baxımdan birləşdirəcək dəhlizdən gedir. Belə ki, Türkiyə 761,4 milyard dollar, Qazaxıstan 181,7 milyard dollar, Özbəkistan 57,9 miyard dollar, Azərbaycan 48 milyard dollar, Türkmənistan 48 milyard dollar və Qırğızstan 8,5 milyard dollar nominal ÜDM-ə malikdir. Bu isə ondan xəbər verir ki, Zəngəzur dəhlizi kifayət qədər böyük iqtisadi potensiala və təbii resurslara malik olan regionu birləşdirəcək [4].

15 iyun 2021-ci ildə Türk dünyasının mədəniyyət beşiyi olan Şuşada imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannamə"sində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türksoy və Türkdilli ölkələrin Parlament Assambleyası çərçivəsində türk həmrəyliyinin möhkəmləndirilməsinə dəstək verilməsi nəzərdə tutulur.

Azərbaycanla Türkiyə Cümhuriyyəti arasında əlaqələri ən yüksək səviyyəyə daşıyan Müttəfiqlik haqqında Birgə Bəyannamənin

imzalanmasından sonra Türkiyə və Azərbaycan prezidentləri Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev mətbuat üçün verdikləri birgə bəyanatda Zəngəzur dəhlizi məsələsinə də toxundular. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanmış Birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır” [1] deməsi türk torpağı olan Naxçıvanın iqtisadi blokadadan çıxarılması, planlaşdırılması nəzərdə tutulan nəqliyyat-kommunikasiya, infrastruktur layihələri vasitəsilə bütün türk dünyasının birləşdirilməsi mənasına gəlir.

Bu gün Naxçıvanla Türkiyəni birləşdirəcək Qars-Naxçıvan dəmir yolu layihəsi üzərində də işlər aparılır. Gələcəkdə bu dəmir yolunun adı gedən dəhliz vasitəsilə qərb bölgələrimizlə birləşdirilməsi Ankara ilə Bakı arasında ticari-iqtisadi əlaqələrin tərəqqisində yeni mərhələ açacaqdır.

Dəhlizin vəd etdiyi üstünlüklərdən Ermənistan tərəfi də iqtisadi faydalar əldə etməklə yararlana bilər. Belə ki, hal-hazırda Ermənistanın nə Rusiya, nə də İranla dəmir yolu əlaqəsi yoxdur. İqtisadi blokadadan çıxmaq üçün bütün transregional layihələrdən kənarda qalan Ermənistan ona təklif olunan iqtisadi əməkdaşlıq xəttini rəhbər tutmaqla dəmir yolları şəbəkəsinə qoşula və ölkənin dezinteqrasiyasının qarşısını bu yolla ala bilər. Füzuli rayonunda uzunluğu 100 kilometr olan Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlinin qoyulması Horadiz-Zəngilan-Ağbənd xəttinin gələcəkdə Cənubi Avropa ilə Asiyanı birləşdirməklə Qarabağın

gələcək iqtisadi tərəqqisinə töhvələr verəcəyi fikrini söyləməyə imkan yaradır [2, s.4].

Zəngəzur dəhlizinin açılmasının Rusiya Federasiyası üçün əhəmiyyəti dəhlizin Rusiyadan qonşu ölkələrə və ya əks istiqamətdə yük daşımalarında əsas marşruta çevrilmə potensialı ilə izah edilməlidir. Belə ki, yüklər Rusiya dəmir yolları şəbəkəsindən Azərbaycan ərazisi ilə Zəngəzur dəhlizinə keçə, bununla da Ermənistan, Türkiyə, İran və Cənubi Asiya ölkələrinə gedə bilər. Başqa cür ifadə etsək, Zərgəzur dəhlizi Türkiyə Cümhuriyyəti ilə Rusiya Federasiyası arasında ticarət əlaqələrinə müsbət təsir göstərməklə, Rusiyanın da bu yolla Yaxın Şərq bazarlarına alternativ yolun əldə edilməsi ilə nəticələnir. Eyni zamanda, Rusiyanın əsas müttəfiqlərindən biri olan Ermənistana quru yolla gedib çıxa bilməsi Ermənistanın da Avrasiya İqtisadi İttifaqına çıxışla bağlı olan problemlərin götürülməsinə şərait yaradacaq və beləliklə, dəhlizin işləməsi hər iki ölkə üçün mühüm əhəmiyyətə malikdir.

Göründüyü kimi, Zəngəzur dəhlizinin açılması Azərbaycan hökümətinin gələcəyə istiqamətlənmiş siyasətinin tərkib hissəsi olmuş, onun günümüzdə reallaşmaq ərəfəsində olması bu siyasətin və Vətən müharibəsindən sonra regionda yaranmış yeni geosiyasi vəziyyətin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir. Gələcək əməkdaşlığın genişləndirilməsi və nəqliyyat-kommunikasiya sisteminin inkişafı baxımından bu dəhlizin yaradılması yuxarıda adı çəkilən Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan sənəddə yer alan ən mühüm məsələlərdən biri sayılmalıdır. Azərbaycan hökuməti regionda yeritmiş olduğu siyasətdə bölgədə bərqərar olmuş sülhün davamlı olması üçün əməkdaşlığı, nəqliyyat əlaqələrinin inkişafını əsas vasitə olaraq görür və

Zəngəzur dəhlizinin yaradılması, reallaşdırılması üçün görüləcək işlər Azərbaycanın regionun beynəlxalq dəhlizlərdəki “Şimal-Cənub”, “Şərq-Qərb” əlaqələrində oynadığı rolunun və ümumilikdə bölgənin tranzit potensialının daha da artmasına səbəb olacaqdır.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Azərbaycan və Türkiyə prezidentlərinin mətbuat üçün bəyanatları / https://president.az/articles/52173
2. Horadiz–Ağbənd dəmir yolu xəttinin təməlinin qoyulması mühüm tarixi hadisədir. “Xalq qəzeti”. 2021-ci il, 19 Fevral, s.4
3. Zəngəzur dəhlizi bütün türk dünyasını birləşdirəcək. “Xalq qəzeti”, 2021-ci il, 2 aprel, s.3
4. Zəngəzur dəhlizi region üçün böyük strateji əhəmiyyət kəsb edir. / https://xalqqazeti.com/az/news/73652

Məcidov Elşən Nazim oğlu
Azərbaycan Dillər Universiteti

# EHTIMALLAR NƏZƏRIYYƏSI PRIZMASINDAN AZƏRBAYCANIN II QARABAĞ MÜHARIBƏSINDƏN SONRA ERMƏNISTANA MÜNASIBƏTDƏ FORMALAŞDIRMALI OLDUĞU DÖVLƏT STRATEGIYASI

**Açar sözlər:** Ehtimallar nəzəriyyəsi, strategiya, Azərbaycan, Ermənistan.

**Ключевые слова**: Теория вероятностей, стратегия, Азербайджан, Армения.

**Key words**: Probability theory, strategy, Azerbaijan, Armenia.

R. Douzun "Qeyri-müəyyən dünyada rasional seçim" əsərində A. Tverskinin eksperimenti əks olunur. İştirakçılardan növbəti açılacaq kartın rəngini müəyyən etmək xahiş olunur. İştirakçılara kartların 70%-nin qara olması və rənglərin açılma ardıcıllığının təsadüfi olması əvvəlcədən bildirilir. Belə şəraitdə ən optimal variant hər dəfə qara kartın çıxacağına mərc edib, effektivlik səviyyəsini 70%-ə çatdırmaqdır [6]. Kartların 30%-i qırmızı olduğuna görə ardıcıl qara kartın çıxacağına mərc edən 30% halda səhv etmiş olsa da, kartların 70%-nin qara olması haqlı olma səviyyəsinin 70%-ə bərabər olmasını şərtləndirir. Lakin eksperiment göstərdi ki, oyunçular ən ehtimal olunan variantı çıxan kartların nisbi tezliyinə uyğun müəyyənləşdirməyə (qara kartın 70% halda, qırmızı kartın isə 30% halda açılacağını) çalışırdılar. Belə strategiya yekunda 58% effektivlik verirdi, belə ki oyunçu qara kart düşdüyü halda 70 % (0,70 ehtimal), qırmızı kart

düşdüyü halda isə 30 % (0,30 ehtimal) haqlı olurdular: (0,7 * 0,7) + (0,3 * 0,3) = 0,58

Qara və qırmızı kartların say və nisbətini Ermənistan və Azərbaycan arasında rəqabət və əməkdaşlıq hallarının say və nisbəti ilə əvəz etməklə, iki ölkə arasındakı münasibətlərin gələcəyini hesablamaq olar. Bu mənada aşağıdakı nümunələri gətirmək olar: **1.** Ermənistan 80 ilə yaxın SSRİ tərkibində birlikdə yaşadığı qonşu Azərbaycanın ərazi bütövlüyünə qəsd etmişdir. **2.** I Qarabağ müharibəsinə qədər Ermənistanın enerji təhlükəsizliyində Azərbaycandan asılılığı olsa da, bu asılılıq onu Azərbaycan ərazilərini işğal etməkdən çəkindirmədi. **3.** 1988-ci il Spitak zəlzələsindən sonra Ermənistanın daxili problemləri prioritet sayıb, separatçılıqdan əl çəkəcəyi gözlənilsə də, zəlzələ Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına mane olmadı. **4.** Ermənistanın Dağlıq Qarabağdan savayı ətraf 7 rayonu da işğal etməsi onun işğalçı dövlət olmasını isbatlayır. **5.** Erməni qoşun birləşmələrinin qeyd-şərtsiz çıxmasını tələb edən və Azərbaycanın ərazi bütövlüyünü təsdiqləyən beynəlxalq təşkilatların qətnamə və bəyanatlarına baxmayaraq, Ermənistan onlara əməl etməmişdir. **6.** ATƏT-in Minsk Qrupu 30 ilə yaxın münaqişənin tənzimlənməsi istiqamətində təkliflər irəli sürsə də, Ermənistan onların heç birini icra etməmişdir. **7.** 2016-cı il aprel döyüşləri zamanı Ermənistan prezidenti S. Sarkisyan ərazilərin boşaldılması ilə bağlı Azərbaycan tərəfinə şifahi vəd versə də, bu vədi yerinə yetirməmişdir [2]. **8.** 2018-ci ildə hakimiyyətə gələn N. Paşinyan, münaqişənin tənzimlənməsi üzrə konstruktiv mövqe tutacağını vəd etmiş, lakin o da vədini yerinə yetirməkdən imtina etmişdir [1]. **9.** 2020-ci ildə

Ermənistanın o vaxtkı baş qərargah rəisi O. Qasparyan iyul təxribatından əvvəl N. Paşinyanı ölkənin genişmiqyaslı müharibəyə hazır olmadığı barəsində xəbərdar etmişdir [3]. İyulda Ermənistan Azərbaycan-Ermənistan sərhəddinin Tovuz rayonu hissəsində Azərbaycanın ərazinə hücum etmiş, bir ay sonra isə Azərbaycana qarşı diversiya qrupu göndərmişdir. Hərbi təcavüz siyasəti Azərbaycana qarşı 7 bənddən ibarət ultimatuumun verilməsi ilə tamamlanmışdır. **10.** II Qarabağ müharibəsi zamanı ardıcıl məğlubiyyətlərə düçar olan Ermənistan Azərbaycan və Rusiyanın sülh təkliflərinə Gəncə, Tərtər və Bərdəni atəşə tutmaqla cavab vermişdir. **11.** İşğal etdiyi əraziləri itirən Ermənistan, oktyabrda Azərbaycan və Rusiyanın sülh təklifini rədd etmişdir [5]. **12.** N. Paşinyan hakimiyyətinin səhv siyasətinin müharibəni qaçılmaz etməsini hətta Ermənistanın sabiq prezidenti R. Koçaryan da “5-ci kanala” müsahibəsi zamanı təsdiqləmişdir [3]. **13.** Üçtərəfli razılaşmaya əsasən, Azərbaycan ərazilərində hər hansı erməni silahlı birləşmələrinin mövcudluğu qadağan olunsa da, Ermənistan razılaşmanın qeyd edilən bəndinin təhrif edilməsi ilə rəsmi sürətdə məşğul olmuşdur [4]. **14.** Ermənistan sülhməramlıların müvəqqəti nəzarətində olan ərazilərə vaxtaşırı hərbçi və silah göndərir. **15.** 30 il ərzində işğal altında qalan ərazilərdə Azərbaycanın mədəni-tarixi irsi məqsədyönlü şəkildə məhv edilmişdir. **16.** Ermənistan xarici havadarlarının əli ilə Azərbaycana qarşı təzyiq göstərməyə cəhd etməkdə davam edir.

Bununla belə iki ölkə arasındakı münasibətlərdə vaxtaşırı əməkdaşlıq və kvazi-əməkdaşlıq elementləri də peyda olurdu: **1.** Münaqişənin dinc yollarla tənzimlənməsi istiqamətində tərəflər Minsk Qrpunun vasitəçiyi ilə müəyyən hüquqi çərçivə yaratmağa nail

olmuşdular. **2.** Azərbaycanın diplomatik addımları sayəsində Ermənistan separatçı qurumu danışıqlar formatından çıxarıb, münaqişəni ikitərəfli formatda aparmağa razılıq vermişdir. **3.** Üçtərəfli razılaşmaya imza atmanı müəyyən şərtlərlə kvazi-əməkdaşlığa cəhd kimi nəzərdən keçirtmək olar. **4.** II Qarabağ müharibəsindən sonra tərəflər arasında sərhədlərin delimitasiya və demarkasiyası, anklavların dəyişdirilməsi problemi mövcud olsa da, Ermənistan bu problemi ancaq diplomatik yolla həll edəcəyini bəyan etmiş, hətta imzalanacaq sənədin ilkin variantı üzrə müəyyən razılıq da əldə edilmişdir.

Nəticə etibarı ilə rəqabətə meylli davranışının xeyrinə olan 16 müddəa qarşısında əməkdaşlığa aid 4 müddəa dayanır. İki ölkənin əvvəlki münasibətlərində mövcud rəqabət-əməkdaşlıq nisbəti gələcək əlaqələrin ehtimal bölgüsünü müəyyən etmək üçün istifadə edilə bilər. Hesablamalara görə Ermənistanın Azərbaycanla gələcək münasibətləri güman ki, 75% halda rəqabət, 25% halda isə əməkdaşlıq elementlərini özündə daşıyacaqdır. Bu ehtimal nisbətini nəzərə aldıqda, Azərbaycanın 4 mümkün strategiyası yaranır: I. Ardıcıl rəqabət; II. 75% halda rəqabət, 25% halda əməkdaşlıq; III. Ardıcıl əməkdaşlıq; IV. 75% halda əməkdaşlıq, 25% halda rəqabət.

Əgər Azərbaycan **IV strategiyanı** seçərək, əksər halda Ermənistan ilə əməkdaşlıq, vaxtaşırı isə onun rəqabət siyasətinə rəqabət ilə cavab versə, dövlət siyasətinin effektivlik dərəcəsi 12,5%-ə bərabər olacaqdır. Əgər Azərbaycan rəqabətdən tam imtina edərək, ardıcıl əməkdaşlıq strategiyasını seçərsə (**III Strategiya**), dövlətimizin effektivlik göstəricisi 25%-ə bərabər olacaqdır. Azərbaycan Ermənistanla proporsional olaraq

75% halda rəqabət, 25% halda isə əməkdaşlıq strategiyasını (**II Strategiya**) seçərsə, dövlət siyasətinin effektivlik göstəricisi 62,5%-ə bərabər olacaqdır. Belə ki, 75% halda rəqabətə üstünlük verən ölkə ilə 75% halda rəqabət aparan Azərbaycan 75% halda haqlı olur. Digər tərəfdən 25% halda əməkdaşlığa üstünlük verən ölkə ilə 25% halda əməkdaşlıq aparan Azərbaycan 25% halda haqlı çıxmış olur: (0,75 * 0,75) + (0,25 * 0,25) = 0,625. Lakin maksimal effektivlik yalnız ardıcıl rəqabət (**I Strategiya**) sayəsində əldə edilir. Ermənistanın 75% halda rəqabətə meylli olma faktı ardıcıl rəqabət aparan Azərbaycan üçün nəticədə 75%-lik effektivlik göstəricisi deməkdir.

**İstifadə edilən ədəbiyyat siyahısı:**

1. İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib. / https://president.az/
2. Арутюнян, С. В апреле 2016 года Серж Саргсян дал обещания Азербайджану, после чего война прекратилась - секретарь Совбеза. / https://rus.azatutyun.am/
3. Власти Армении сделали все, чтобы приблизить войну в Карабахе – Кочарян. / https://ru.armeniasputnik.am/
4. Заявление МИД Армении. / https://www.mfa.am/ru
5. Путин заявил об упущенной возможности прекратить бои в Карабахе в октябре. https://www.rbc.ru/
6. Dawes, Rational Choice in An Uncertain World; Yaacov Schul and Ruth Mayo, “Searching for Certainty in an Uncertain World: The Difficulty of Giving Up the Experiential for the Rational

Mode of Thinking," Journal of Behavioral Decision Making 16, no. 2 (2003): 93–106, doi:10.1002/bdm.434.

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ ADU Docendo discimus Öyrədərək öyrənirəm AZERBAIJAN UNIVERSITY OF LANGUAGES АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

Магеррамова Севда Эльшад кызы
Доктор философии по экономике
Азербайджанский Университет Языков

## Перспективы социально-экономического развития Карабаха

**Ключевые слова:** Социально-экономическое развитие, фонд возрождения Карабаха, экономическая мощь.

**Açar sözlər:** Sosial-iqtisadi inkişaf, Qarabağın dirçəliş fondu, iqtisadi güc.

**Key words:** Socio-economic development, Karabakh revival fund, economic power.

В ходе 44-дневной войны победа могучей азербайджанской армии вошла в историю и продемонстрировала успехи политики Азербайджана на протяжении многих лет. Войдя в историю 2020 года как успешная страна, Азербайджан значительно улучшил свое устойчивое положение в мире и еще раз показал свои способности всему миру.

Освобождение Карабаха от армянской оккупации создало очень серьезные альтернативы для будущего азербайджанской экономики. Как известно, Азербайджан - страна с развивающей экономикой, и этот фактор создает определенные проблемы для привлечения крупных ненефтяных инвестиций, резкого увеличения добычи, а также усиления протекционистских мер в мире для увеличения экспорта. Эти альтернативы могут увеличить экономическую мощь

Азербайджана, усилить его экономическую диверсификацию и изменить экономическую карту региона.

Распоряжением Президента Азербайджанской Республики Ильхама Алиева от 4 января 2021 года о том, чтобы обеспечить современную и достойную жизнь для устойчивого заселения на освобожденных территориях, провести строительные и восстановительные работы во всех сферах.

Создание фонда возрождения Карабаха служит для поддержки устойчивого роста активности и процветания. Этот фонд обеспечивает финансовую поддержку и инвестиции в реабилитацию и реконструкцию освобожденных территорий Азербайджанской Республики.

Ряд дружественных стран - Турция, Пакистан, Израиль, Венгрия, Иран, Италия, Великобритания и другие выразили желание участвовать в процессе восстановления наших освобожденных территорий. Правительство Азербайджана также заявило о намерении сотрудничать с дружественными странами в этой области.

Уже начато конкретное сотрудничество с иностранными компаниями в сфере строительных работ в Карабахе. Так, с целью создания электроэнергетической инфраструктуры на освобожденных территориях Азербайджана было подписано соглашение о поставках между Azerenergy и итальянской компанией Ansaldo Energia в области взаимного сотрудничества. Согласно соглашению, итальянская компания поставит оборудование на 4 подстанции на

110 киловольт, которые будут построены в Агдамском, Физулинском, Кельбаджарском и Губадлинском районах.

Рассмотрим мировой опыт и отметим, что первая цель, поставленная после окончания боевых действий - это удовлетворение основных потребностей населения послевоенной страны, обеспечение развития региона с ослабленной экономикой. На этом и последующих этапах восстановления важную роль играет помощь зарубежных стран, международных институтов и организаций в различных направлениях: мы можем суммировать помощь, предоставленную разным странам в разное время, следующим образом: пожертвования, инвестиции, ссуды, гранты, списание долгов, размещение вкладов в местных банках, повышение стоимости местной валюты.

В освобожденном Карабахе будет проводиться планомерное восстановление и реконструкция территорий, начнется переселение, будет развиваться экономика региона с большим потенциалом. Для нашей страны может быть полезно использовать международный опыт в финансировании этих мероприятий, которые потребуют больших денежных средств и превратят Карабах обратно в рай.

Другой очень серьезный проект - возрастающая роль Азербайджана заключается в строительстве железной дороги - «Один пояс, один путь» после победы в Карабахе. Хочу отметить, что в случае успешной реализации этого проекта, он объединит 65 стран, производящих 65% мирового ВВП. Этот проект охватывает 70% населения мира и 75% обнаруженных энергоресурсов.

С этой точки зрения, прежде всего, хотелось бы отметить, что Азербайджан - страна без выхода к открытому морю, и выход в открытое море в настоящее время осуществляется через Грузию. Создание прямого транспортного коридора между Нахчываном и Азербайджаном обеспечит выход в открытое море через Турцию. Кроме того, новая региональная транспортная сеть, которая появится после победы в Карабахе, приведет к диверсификации возможностей Азербайджана в этой области, уменьшит существующую зависимость и значительно увеличит транзитный потенциал.

Творчество, повышение благосостояния народа - это миссия Азербайджана под руководством Президента Ильхама Алиева, и я уверена, что, как сказал Президент Ильхам Алиев, Карабах станет одним из самых развитых регионов мира.

**Список используемой литературы:**


1. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir "AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ" İNKİŞAF KONSEPSİYASI
2. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosialiqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı
3. Eldar Allahyar oğlu Quliyev. Aqrar iqtisadiyyat. Məktəblilər üçün dərslik. Bakı, 2015, Kooperativ nəşriyyatı, 320 səhifə.
4. Museyibov M.A. Azərbaycanın fiziki coğrafiyası. Bakı, "Maarif", 1998, 400 səh.
5. Ümummilli lider H.Ə.Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş gənc tədqiqatçıların IV Respublika elmi-praktiki konfransının materialları "Azərbaycan turizmi: bu gün və sabah"
6. İlqar Hüseynov, Nigar Əfəndiyeva TURİZMİN ƏSASLARI. Dərslik. Bakı, 2007
7. https://president.az/

8. https://www.economy.gov.az/
9. https://www.stat.gov.az/

Günel Məlikli
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏSASINI QOYDUĞU SİYASƏTİN PREZİDENT İLHAM ƏLİYEV TƏRƏFİNDƏN UĞURLA DAVAM ETDİRİLMƏSİ

**Açar sözlər:** lider, sosial-iqtisadi. sabitlik, ordu, strateji islahatlar.

**Ключевые слова**: лидер, социально-экономический, стабильность, армия, стратегические реформы.

**Keywords:** leader, socio-economic. stability, army, strategic reforms.

Dəyişən dünya liderlik keyfiyyətlərinin də dinamikasını şərtləndirir. Ölkədəki real vəziyyət liderin müəyyən obrazını daha qabarıq təqdim edir. Xoşbəxt o xalqdır ki, onu inkişaf etdirən, yüksək rifaha çatdıran liderləri olur. Məhz elə Azərbaycan xalqının çətin, təhlükəli günlərinin keçirdiyi dönəmdə ümumxalq mənafeyini üstün tutan, xalq üçün çalışan, onun müstəqilliyini qoruyan Heydər Əliyev kimi dahi uzaqgörən siyasətçiyə ehtiyac duyulurdu. Dahi lider xalqının ağır vəziyyətdə qoymayıb onun köməyinə çatdı. Azərbaycan xalqı çox xoşbəxtdir ki, onun Heydər Əliyev kimi lideri olub.

Dahi lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətini qısa müddət ərzində regionda və dünyada inkişaf etmiş məkana çevirdi.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı cənab prezident İlham Əliyev yüksək nüfuzu, müdrikliyi, novatorluq və digər keyfiyyətləri özündə təcəssüm etdirən, dövlətimizin inkişaf etməsi, mənəvi dəyərlərimizi qoruması, daima xalqın güzəranı üçün gərgin, səylə çalışması, ölkəmizdə və beynəlxalq miqyasda dövrün yeni lider olduğu sübut edildi.

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu rasional siyasətin Prezident İlham Əliyev tərəfindən dövrün reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirilməsi sayəsində bu gün ölkə daxilində böyük nüfuza və geniş beynəlxalq əlaqələrə malik olan Yeni Azərbaycan Partiyası Azərbaycan siyasi palitrasının ən güclü təşkilatı qismində çıxış etməkdədir.

Cənab İlham Əliyev Prezident seçildiyi elə ilk gündən böyük dövlət xadimi kimi iqtisadiyyatın birqütblü, birtərəfli inkişafının, ölkənin neft gəlirlərindən asılılığının yolverilməz olduğunu qətiyyətlə bəyan etdi. Azərbaycanda qeyri-neft sektorunun işlək hala salınmasını, sahibkarlığın vüsət almasını, kənd təsərrüfatının dinamik inkişafını, tarixi məşğulluq ənənələrinin bərpası istiqamətində təcili, təxirəsalınmaz işlərin həyata keçirilməsini tələb etdi.
Mövcud reallıqlar Azərbaycanın müasir dövlətçilik tarixində İlham Əliyev faktorunun prioritet, həlledici mahiyyətini bir daha ortaya qoyur.

Azərbaycan cəmiyyətinin cənab İlham Əliyevi dahi şəxsiyyətin strateji islahatlar kursunun layiqli davamçısı kimi görməsi, əslində, bir sıra reallıqlarla şərtlənirdi.
İntellektlə istedadın, ənənə ilə novatorluğun, keçmişlə gələcəyin üzvi bağlılığına, yaradıcı sintezinə nail olmaq qabiliyyəti, Azərbaycanın

dünəni, bugünü və sabahına sonsuz, sarsılmaz sədaqət İlham Əliyev şəxsiyyətini hər kəsə sevdirən cəhətlərdir.

Bu gün tam əminliklə deyə bilərik ki, cənab İlham Əliyev prezidentlik fəaliyyətinin ilk günündən "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir", - tezisini irəli sürərək, ötən müddətdə ona bəslənilən ümidləri doğruldub, cəmiyyətin bütün arzularını gerçəkləşdirməyə çalışmaqla, xalqın maraq və mənafelərinə cavab verən çevik, qətiyyətli qərarlar qəbul edib, mühüm uğurlara imza ataraq özünü ciddi siyasətçi kimi təsdiqləyib, beynəlxalq aləmdə böyük nüfuz sahibinə çevrilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyduğu heç kimdə şübhə doğurmur. Ölkə rəhbərinin dövlətçilik təfəkkürünü, idarəçilik səriştəsini səciyyələndirən əsas amillər inkişaf, tərəqqi, siyasi sabitlik, sosial rifah, firavan həyat və güclü müasir Azərbaycandır. Məhz cənab İlham Əliyevin gərgin fəaliyyəti və ugurlu siyasəti nəticəsində qazanılan bu nailiyyətlərdən cəmiyyətin bütün üzvlərinə pay düşür. XXI əsrin başlanğıcında dünyada çox böyük dəyişikliklər baş verib. Fikrimcə, bu dəyişikliklər sırasında ən mühümü vətəndaş cəmiyyətinin inkişafında əsas amilə çevrilən insan kapitalıdır. [5]

Əgər dünənə qədər həlledici amil hərbi güc, iqtisadi sistemin inkişafı, informasiya texnologiyası sahəsində nailiyyətlər idisə, hazırda bu, insan kapitalıdır. Sabitlikdən innovasiyalı, sosial orientirli mərhələyə keçən indiki Azərbaycanda bu, xüsusilə mühüm önəm daşıyır. Prezident İlham Əliyevin inkişaf strategiyasının əsas mahiyyəti də bundan ibarətdir. "Azərbaycan çox zəngin ölkədir. Bizim çox zəngin sərvətimiz

vardır. Ancaq bizim ən böyük resursumuz insanların biliyidir, savadıdır. Öz imkanlarımızdan səmərəli istifadə edərək, maddi kapitalı insan kapitalına çevirməliyik və bunu edirik”. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri qısa müddət ərzində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi. [2]

Sentyabrın 29-da “Rossiya-1” telekanalında yayımlanan “60 dəqiqə” proqramında Azərbaycan – Ermənistan təmas xəttində baş verən hadisələrə həsr olunmuş verilişdə cənab Prezident sərrast, məntiqli, peşəkar və qətiyyətli çıxışı ilə əsl həqiqəti rusdilli auditoriyaya çatdıtrmaqla, Ermənistan rəhbərliyinin məkrli siyasətini göstərməklə etmklə yanaşı, həm də rus ekspertlərinin səsləndirdiyi kimi, Paşinyanı darmadağın etdi.

Bu sözlər Prezident İlham Əliyevin xalqa müraciətindəndir: “...İndiki vəziyyətdə birinci günahkar Ermənistan rəhbərliyidir. Eyni zamanda, bu məsələyə biganə yanaşan və daim Ermənistanın tərəfini saxlayan və bu işğalı əbədi etmək istəyən bəzi ölkələrin dairələridir. Azərbaycan özü bu məsələni həll edir və mən 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq. Baxaq, kim-kimdir?! Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik kim-kimdir”. [4]

Bütövlükdə, Pezident İlham Əliyevin adı böyük Xilaskar, Qəhrəman kimi tariximizə əbədi həkk olundu.

**Ədəbiyyat siyahısı**

1. http://anl.az/down/meqale/xalqqazeti/2011/iyun/180894.htm
2. http://philosophy.edu.az/index.php?newsid=1011
3. https://beu.edu.az/az/article/azerbaycan-prezidenti-ilham-eliyev-xalqa-muraciet-edib-498
4. https://president.az/articles/41713
5. https://yeniazerbaycan.com/SonXeber_e75810_az.html

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
ADU
Docendo discimus
Öyrədərək öyrənirəm
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

**Məmiyeva Sevinc Alim qızı**
**Azərbaycan Dillər Universiteti**

## QARABAĞIN GEOMORFOLOJİ QURULUŞUNUN ONUN GƏLƏCƏK İNKİŞAFINDA ROLU

**Açar sözlər:** relyef, geoloji quruluş, sürüşmə, sel

**Ключевые слова:** рельеф, геологическое строение, оползни, наводнения

**Key words:** relief, geological structure, landslides, floods

XX əsrin sonu və XXI əsrin əvvəllərində qlobal ekodinamik dəyişikliklərlə əlaqədar olaraq, yer kürəsində ekosistemlərin inkişafının proqnozlaşdırılması problemi alimlər tərəfindən ciddi şəkildə müzakirə olunur. Ekoloji böhranların yaranmasının əsas səbəblərindən biri bəzi ölkələrin sosial-iqtisadi inkişafında ətraf mühitə vurulan ziyanların nəzərə alınmamasıdır. İnsanın geosistemlərə təsirinin intensivliyi və miqyası, texniki vasitələrin və enerji təchizatının artımı ilə birlikdə davamlı olaraq yüksəlir. Ekoloji böhranı gücləndirən amillər biri də təbii və antropogen təsir nəticəsində aktivləşən (seysmik dislokasiyalar, vulkonoqen proseslər, daşqınlar, sellər, sürüşmələr, uçqunlar) müasir təhlükəli geomorfoloji proseslərdir (MTGP) [1,3]. Bu proseslər geokomplekslərdə mövcud əlaqələri pozur və bu da təbii fəlakat hadisələrinin geniş ərazilərin əhatə etməsi ehtimalını artırır [2,4].

Qarabağ ərazisi təhlükəli endo və ekzo-geomorfoloji proseslərin inkişafı üçün böyük bir potensiallı ilə xarakterizə olunur və mövcud məlumatlar nəticələri onların əhəmiyyətli dərəcədə artdığını göstərir.

Kiçik Qafqaz daxilində, Qarabağ vahid ox qalxma meydana gətirməyən və dərin uzununa və köndələninə çatların mövcud olduğu, qırışıqlı-qaymalı quruluşu ilə xarakterizə olunan mürəkkəb bir silsilə sistemidir. Ərazi Murovdağ, Şərqi-Göycə, Mıxtökan, Qarabağ silsilələri ilə seçilir.

Dağlıq bölgələrin mənimsənilməsi zamanı, ilk növbədə dağ geosistemləri üçün son dərəcə təhlükəli ekoloji amil olan MTGP öyrənilməsi, qiymətləndirilməsi və proqnozlaşdırılması olduqca vacibdir. Relyefin morfoloji görünüşünü geodinamik cəhətdən aktiv, differensial inkişafı endogen və ekzogen cəhətdən müəyyən edilmiş kompleks relyefəmələgəlmə prosesləri nəticəsində daim dəyişdirir. Bu qeyri-sabitlik dağ geosistemlərinin mənimsənməsində ekoloji təhlükəni qiymətləndirərkən mütləq nəzərə alınmalıdır. Bu zaman birdən-birə yaranan və sürətlə axan təhlükəli və ya fəlakətli endo və ekzodinamik proseslər daha böyük təhlükələr yaradır. Bu zaman kosmik şəkillərin (KŞ) deşifrələnməsində alınan materiallar relyefin təhlilində mühüm rol oynayır.

Qarabağ - Yer kürəsinin əsas seysmik aktiv kəmərlərindən birinin bir hissəsi olan yüksək hərəkətli bir geotektonik zonadır. Neotektonik hərəkətlərin ümumi spektrinin analizinə görə, onların kəskin differensial təzahürünün mənzərəsi aydın görünür. Qarabağ relyefinin göstərilən ümumi geodinamik xüsusiyyətləri bu dağlıq ərazidə MTGP-nin fərqli spektrinin - seysmikdislokasiyanın, sürüşmələrin, uçqunların, sellərin, ufantının geniş yayılmasını müəyyən edilmişdir, bu da ərazidə gərgin ekogeodinamik vəziyyət yaradır. Bu proseslərin inkişaf yaşayış məntəqələrinə və iqtisadiyyata böyük ziyan vurur, hətta insanların

ölümünə səbəb ola bilir. Buna 7 may 2015-ci il tarixində Qarabağın dağlıq bölgələrində yağan güclü yağışlar nəticəsində Tərtər və Bərdə rayonlarının yaşayış məntəqələri üçün ciddi problemlər yaradan sel hadisəsini misal gətirə bilərik. Daşqınlar nəticəsində məcburi köçkünlərin bir neçəsinin evləri dağılmış (təxminən 20 ev), təsərrüfat sahələrinə, yol və dəmir yolu körpülərinə ciddi ziyan dəymiş, evlərin zirzəmilərini su basmış, mal-qara isə məhv olmuşdu. Bərdə rayonunun bir hissəsi işıqsız qalmışdı. Sel qarşısına çıxan avtomobilləri yuyub aparmışdı. Bundan əlavə, özləri ilə birlikdə hələ o zaman işğal altındakı Azərbaycan torpaqlarından və təmas xəttinin neytral ərazilərindən PMN-72 partlamamış bir çox tank əleyhinə mina gətirmişdi.

MGTP-un bir insana və Qarabağ daxilindəki iqtisadi infrastruktura təsiri və inkişafı dərəcəsini təyin etmək üçün eko-geomorfoloji gərginlik baxımından rayonlaşdırma aparılmışdı, fərqli ekoloji təhlükəli siniflər və xarakterik MGTP tiplərinin ekogeomorfoloji bölgələri müəyyən edilmişdir [4, 5, 6]. Ekogeomorfoloji bölgələrin hər biri MGTP qrupuna və dərəcəsinə görə fərqlənir.

Bu məlumatları nəzərə alaraq Qarabağ ərazisini aşağıdakı ekogeomorfoloji bölgələrə bölünüb: 1 - Önqafqaz meylli düzənlik; 2 - Kiçik Qafqazın şərq yamacı; 3 - Kiçik Qafqazın cənub-qərb yamacı; 4 - Qarabağ vulkanik yaylası (şəkil 1). Bu sahələr ayrı-ayrılıqda müxtəlif dərəcədə ekogeomorfoloji təhlükə ilə xarakterizə olunur: I sinif - aşağı ekogeomorfoloji təhlükə, II sinif - orta ekogeomorfoloji təhlükə, III sinif - yüksək ekogeomorfoloji təhlükə.




Şəkil 1. Kiçik Qafqazın şimal-şərq yamacının ekogeomorfoloji təhlükəsizlik üzrə rayonlaşma kartosxemi.

Turizmin, kənd təsərrüfatının ərazidə inkişafı üçün dağ geosistemlərində MGTP-nin ətraflı şəkildə tədqiqi çox önəmlidir. Qarabağ ərazisinin eko-geomorfoloji bölgələri daxilində MGTP-nin qısa təhlili imkan verir ki, bu bölgədə seysmik dislokasiyalar, sürüşmə, uçqun, sellər, səthi və çay eroziyası ən təhlükəli proseslər kimi monitorinqi həyata keçirilsin.

Onlar ümumi bir ekodinamik gərgin vəziyyət yaradaraq, insan həyatı üçün təhlükəni azaltmaq məqsədilə, kütləvi mənimsəmə başlamazdan əvvəl hər bir geosistem daxilində ekogeomorfoloji vəziyyətin planlı, geniş miqyaslı ekspert qiymətləndirməsinin keçirilməsi tələb edir.

Ədəbiyyat siyahısı

*1.* Ализаде Э.К., Тарихазер С.А. Экзоморфодинамика рельефа гор и ее оценка. Баку:Victory, 2010. 236 с.

*2.* Кошкарев А.В., Мерзлякова И.А., Чеснокова И.В. Географические информационные системы в эколого-геоморфологических приложениях // Геоморфология. 2002. № 2. С. 68-80.

*3.* Кружалин В.И. Экологическая геоморфология суши. М.: Научный мир, 2001. 176 с.

*4.* Влияние экзодинамической активности на экогеоморфологическую обстановку северо-восточного склона Малого Кавказа (в пределах Азербайджана) Труды Географического Общества. XIX том. г.Баку, 2017г.

*5.* Тарихазер С.А. Разработка методики дешифрирования морфоскульптур горных стран (на примере северо-восточного склона Большого Кавказа). Автореф. канд. дис. Баку 1997.29с

*6.* Тарихазер С.А. Особенности проявления экзо-динамических процессов на различных высотно-геоморфологических поясах // Труды Географического об-ва Азербайджана. 2006. Т. X. С. 238-242.

Məmmədli Şəhla Rafiq qızı

AMEA A.A.Bakıxanov adına Tarix institutu

# QARABAQ MÜNAQİŞƏSİNƏ REGİONAL RƏQİB ÖLKƏLƏRİN SİYASİYANAŞMASI TARİXİNDƏN

**Açar sözlər :** Qarabağ münaqişəsi, beynəlxalq münasibətlər, Azərbaycan-Türkiyə münasibətləri, Azərbaycan-İran münasibətləri, Rusiya-Azərbaycan münasibətləri

**Ключевые слова:** Карабахский конфликт, международные отношения, азербайджано-турецкие отношения, азербайджано-иранские отношения, российско-азербайджанские отношения

**Key words:** The Karabakh conflict, international relations, Azerbaijani-Turkish relations, Azerbaijani-Iranian relations, Russian-Azerbaijani relations

Cənubi Qafqazın unikal geosiyasi rolu tarixin bütün dövrlərində olduğu kimi XXI əsrdə də təsirini saxlamış, Cənubi Qafqaz üzərində nəzarətin əldə edilməsi uğrunda rəqabət ideoloji amilə çevrilərək Rusiya və Aİ üçün vacib strateji əhəmiyyət kəsb etməyə başlamışdır [7]. Rusiya ənənəvi olaraq Cənubi Qafqazı həm Yaxın Şərqdə qeyri-stabilliyə, həm də Türkiyənin təsirli regional nüfuzuna qarşı bufer olaraq görüb. Elə bu səbəbdən də bütün postsovet dövründə Rusiya Ermənistanla — özünün əsas regional müttəfiqi ilə sıx əlaqələrini qorumuş, Ermənistan ərazisində (tarixi Azərbaycan torpaqlarında) Rusiya ordusunun hərbi bazası və aviabazasını yerləşdirmişdir. 2010-cu ildə Rusiya və Ermənistan arasında bağlanan müqavilə Ermənistanın təhlükəsizliyinə zəmanət olaraq

(Ermənistan hərbi qüvvələrinin ucuz qiymətlərlə silahla təmin edilməsi daxil), 2044-cü ilə qədər rus qüvvələrinin burada mövcudluğunu nəzərdə tutur. Rusiyanın bu regiondan əllərini çəkməmə cəhdləri sübut edir ki, Qafqazsız Rusiya Federasiyası (Rusiya imperiyası və Sovetlər İttifaqı) geosiyasi baxımdan heçdir. Bu səbəbdən də Cənubu Qafqaz Rusiyanın mühüm milli maraqlarının olduğu regiondur. Bu baxımdan Rusiyanın xarici siyasətində Cənubi Qafqazdan Xəzər dənizi və Mərkəzi Asiyaya qədər uzanan əhəmiyyətli iqtisadi və təhlükəsizlik maraqları hegemonluq edir. Aydındır ki, bu nöqteyi-nəzərdən Qarabağ münaqişəsi də Rusiya Federasiyasının sələflərinin yaratdığı, həllində bu ölkənin siyasi maraqlarının hər zaman önə çəkiləcəyi məsələ olmuşdur. Qarabağ münaqişəsinin uzun illər ərzində mövcud olması üçün Rusiyanın cidd-cəhdlə çalışmasına şübhə etmək olmaz, belə ki, problemin olduğu kimi qalması, Qafqazın ən böyük dövləti Azərbaycan Respublikasına təsir imkanlarının əldən verilməməsi Kremlin maraqlarına cavab verirdi. Ermənistanın baş naziri Paşinyanın Ermənistandakı Rusiya şirkətlərini hüquqi baxımdan təqib etməsi, rus telekanallarına qadağa qoyulması, Rusiya təsirinin ölkədə yox edilməsi ilə bağlı bütün tədbirləri fonunda Rusiyanın Ermənistanı tərəfdaşı olaraq yanında saxlamağa çalışmasının, bu məqsədlə Qarabağ münaqişəsini əlində rəhbər tutmasının başqa izahı varmı? Dondurulmuş münaqişəyə malik bəzi digər sovet respublikalarından fərqli Azərbaycan Rusiyaya düşmən dövlət olmamışdır. Azərbaycanda heç bir hakimiyyət antirusiya ritorikasından mühüm xarici siyasi məhsul kimi istifadə etməyib [4]. Postsovet məkanında Rusiyadan asılı olmayan xarici siyasət yürütmə nöqteyi-nəzərindən Azərbaycan hər zaman nümunəvi dövlət olmuşdur. Rusiyanın

Ermənistanı müdafiə etməsi üçün subyektiv səbələri varsa da Azərbaycanla münasibətlərin pozulması üçün əsası yoxdur [6]. Bütün bunların fonunda İkinci Vətən Müharibəsi dövründə də hər zaman olduğu kimi Rusiya Kütləvi informasiya vasitələrinin Azərbaycana qarşı cəbhə alması, Ermənistanın xeyrinə təbliğat aparması açıq-aşkar görünürdü. Buna diqqət çəkən Azərbaycan prezidenti İ.Əliyev Rusiyanın RBK kanalına müsahibəsində Rusiya KİV-ləri tərəfindən anti-azərbaycan təbliğatı aparılması, yalan məlumatların yayılması, tok-şou içtitakçıları tərkibinin qeyri-bərabər olması barədə haqlı iradlarını bildirmiş, bu informasiya hücumunun Rusiya-Azərbaycan münasibətlərinə mənfi təsir göstərə biləcəyini vurğulamışdı [3].

Qarabağ münaqişəsi ilə əlaqədar Rusiyaya bənzər siyasət yeridən digər ölkə İran İslam Respublikası da sözdə Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəklədiyini bəyan etsə də Azərbaycanın Ermənistan üzərində qələbə çalacağı, Türkiyənin regionda nüfuzunun artacağı qorxusunu gizlədə bilmirdi. İranı narahat edən mühüm amillərdən biri azərbaycan separatizmidir. Bu ölkədə yaşayan azərbaycanlıların sayını və müstəqil Azərbaycan Respublikasına rəğbətini nəzərə alsaq, İslam Respublikasının qorxusunu anlamaq olar. Azərbaycanın NATO ilə sıx əməkdaşlığı isə İranı daha çox vahiməyə salır, Azərbaycan ərazisində ABŞ hərbi bazaları və silahlı qüvvələrinin yerləşdiriləcəyi fikri ölkə rəhbərliyini daim narahat edir [2, s.17-26].

Son illər ərzində İranın Ermənistanla münasibətlərini stabil və yaxşı adlandırmaq olar. Iran Ermənistan tərəfdən təhlükə ğörmür, bu ölkənin KTMT üzvü olması və Ermənistanda Rusiya hərbi bazasının

mövcudluğunu regionda Türkiyə və ABŞ təsirinə qarşı zəmanət olaraq qəbul edirdi. Ermənistan üçün İran mühüm iqtisadi və siyasi tərəfdaş idi. 2008-ci ildən Gürcüstan öz ərazisindən Rusiya hərbi tranzitinə icazə vermədiyi üçün Ermənistana Ruisya hərbi yükləri məhz İran ərazisindən daşınırdı. Azərbaycana qonşu bu iki ölkənin Qarabağ münaqişəsinə münasibətindən bəhs edərkən, unutmaq olmaz ki, Rusiya-Iran münasibətləri birgə atom layihələrindən tutmuş İslam Respublikasına Rusiya silahlarının ixracına qədər bir çox vacib məqamlarda əlbirliyi ilə müşayət olunur [5, s.35-39]. Rusiya ilə bu yaxın münasibətlərə malik İran, müəyyən mərhələlərdə Azərbaycanın qərb ölkələri və ABŞ ilə əməkdaşlığına qısqanc yanaşır, Azərbaycanı islam dəyərlərini milli maraqlara qurban verməkdə günahlandırırdı.

İkinci Vətən müharibəsi dövründə Türkiyə-Azərbaycan birliyi İran üçün son dərəcə xoşagəlməz oldu. İqtisadi inkişaf məqsədi ilə Bakının qərb ölkələrinə üstünlük verməsi, hərbi və hərbi-texniki əməkdaşlıq baxımından Türkiyə və İsrail ilə əməkdaşlığı genişləndirməsi İranı olduqca narahat edirdi. Belə ki, İran və Türkiyə regional rəqib, İsrail isə İranın aşkar düşmənidir. İran və Türkiyənin birbaşa münaqişədən çəkinmələrinə, ikitərəfli əməkdaşlıq məqamlarına baxmayaraq, Türkiyə-İran maraqlarının toqquşduğu məsələlər az deyil [1, s.146-178]. Narazılığı birbaşa nümayiş etdirməkdən çəkinən İran İslam Respublikasının dövlət nümayəndələri Qarabağda terrorist qruplaşmaların fəaliyyətinin yolverilməz olduğunu dəfələrlə dilə gətirsələr də konkret ölkəni günahlandırmır, diplomatik manevrlərə üstünlük verirdilər. Tehranın qorxusu nəticədə, İkinci Vətən müharibəsi dövründə münaqişə zonasına,

həmçinin Naxçıvan Muxtar Respublikası ilə sərhədlərinə çoxlu sayda qoşun (hərbi hava və quru qoşun qüvvələri) toplamasına səbəb oldu.

Postsovet məkanında Rusiyanın hegemon rolunun artıq keçmışdə qalması aşkardır. Rusiya Federasiyası prezidenti V.Putinin Türkiyənin regionda mühüm rolundan danışarkən Ankaranın beynəlxalq hüquq çərçivəsində hərəkət etdiyini qeyd etməsi, Türkiyənin Cənubi Qafqazda nüfuzuna Rusiyanın mane ola bilməyəcəyi anlamına gəlir. Tarixi sənəd "Şuşa deklarasiyası"nın imzalanması isə yeni geosiyasi reallığı beynəlxaq aləmə bəyan etmiş oldu.

**İstifadə olunmuş ədəbiyyat**

1. Абилов, И. Этнический фактор во взаимоотношениях Турции, Азербайджана и Ирана (2001—2013 гг.) / И. Абилов // Вестник полоцкого государственного университета. Серия А. Гуманитарные науки. Исторические науки, 2016, № 1, s.145-152
2. Алексеев Н.Н., Бабиров И.М. Азербайджано-иранские отношения: трансформация внешней политики Азербайджана при президенте И. Г. Алиеве // Конфликтология /, 2020, № 3, s. 16 - 28
3. Алиев увидел в российских СМИ "оголтелую антиазербайджанскую пропоганду" https://lenta.ru/news/2020/10/11/propaganda/– müraciət tarixi 08.07.21
4. В ожидании союзника. Почему Россия не спешит помогать Армении в Карабахе. https://carnegie.ru/commentary/82921— müraciət tarixi 08.07.21

5. Гасанов О.С., Рыжов И.В. Современное состояние российско-азербайджанских отношений // Политика и Общество, 2017, № 6, s. 32 – 50
6. Пивовар Е. И. Российско-азербайджанские отношения. Конец XX – начало XXI века. М., Kremlin Multimedia, 2012
7. Россия - Евросоюз - страны СНГ: экономические и политические отношения на пространстве общего соседства // Доклад Национального инвестиционного совета Института экономики РАН, 2007

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
ADU
Docendo discimus
Öyrədərək öyrənirəm

Məmmədova Səbinə İlqar qızı
Azərbaycan Dillər Universiteti

# II QARABAĞ MÜHARİBƏSİ ZAMANI RUS-TÜRK TƏRƏFDAŞLIĞI

Açar sözlər: İkinci Qarabağ müharibəsi, Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan.

Ключевые слова: Второя Карабахская Война, Россия, Турция, Азербайджан, Армения

Key words: The Second Karabakh War, Russia, Turkey, Azerbaijan, Armenia

Son illər Rusiya ilə Türkiyə arasında münasibətlərdə kardinal dəyişikliklərin baş verdiyinin şahidi oluruq. Hələ 90-cı illərin əvvəllərində Rusiya Türkiyəni ABŞ-ın yaxın müttəfiqi və post-sovet Avrasiyasında əsas rəqib olaraq görürdü. Lakin bu dövrdə regionda Türkiyə aparıcı iqtisadi və siyasi liderə çevrilə bilməmişdi, eyni zamanda Rusiyanın da mövqeyi də zəifləmişdi.

Rusiya prezidenti Vladimir Putin və Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan hakimiyyətə gəldikdən sonra 2003-cü ildə görüşdə iki dövlət arasında bir çox mübahisəli məsələlərə aydınlıq gətirdilər.

Bu gün Rusiya ilə Türkiyə münasibətlərində müsbət dəyişikliklərin baş verməsinə iki ölkə arasında enerji münasibətləri, ticarət və turist axınlarının artması təsir göstərib. Geostrateji ölçüdə götürsək, bu yaxınlaşmanın əsas motivi isə Qərbə olan məyusluq hissi ilə əlaqədardır. 2003-cü ildən başlayaraq hər iki ölkə ABŞ və Avropaya olan inamlarını

itiriblər. Qafqazda ümumi sərhəd zonasına ABŞ və Avropa müdaxiləsinin qarşısını almaq arzusu, həmçinin ABŞ-ın Yaxın Şərq siyasətinə qarşı ümumi mövqe bu iki dövləti bir-birinə yaxınlaşdırmışdır.

Rusiya və Türkiyənin maraqlarının Qafqazda xüsusilə yaxınlaşdığını görürük. Aİ-nın Şərqə doğru genişlənmə planları, həmçinin Rusiya və Türkiyə arasında geosiyasi bir məkanda yerləşən Cənubi Qafqazın hər bir dövlətinə-Azərbaycan, Gürcüstan və Ermənistana münasibətdə ayrıca siyasətin yürüdülməsi onların yaxınlaşmasına imkan yaratdı. Burada maneə yaradan əsas məsələlərdən biri odur ki, hər bir dövlətin bu və ya digər Qafqaz dövləti ilə münasibətləri münaqişə xarakteri daşıyır (məs, Rusiyanın Gürcüstanla, Türkiyənin Ermənistanla) və bu da siyasi qərarların qəbul edilməsini çətinləşdirir[2].

İki dövlət arasında münasibətlər Cənubi Qafqazda İkinci Dağlıq Qarabağ müharibəsinin başlaması ilə yeni mərhələyə qədəm qoydu. İkinci Qarabağ müharibəsi zamanı və sonra Ankara və Moskva Cənubi Qafqazda ən çox təsir gücü olan dövlətlər olaraq ön plana çıxdı. Azərbaycana göstərdiyi hərbi və diplomatik dəstəklə Türkiyə 44 günlük əməliyyatda Bakının işğal olunmuş ərazilərinin geri alınmasında böyük rol oynadı. Rusiya isə prosesin əvvəlindən etibarən izlədiyi diplomatiya ilə razılaşmada vasitəçi ölkə olaraq Rusiya Sülhməramlı Qüvvələrinin bölgədə məskunlaşmasını təmin edə bildi.

Müharibə zamanı Rusiya prezidenti Valdimir Putin öz çıxışlarında birmənalı olaraq qeyd edirdi ki, "Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində onun müttəfiqdir,  lakin Dağlıq Qarabağ Ermənistana məxsus deyil, vasitəçilikdən başqa Rusiya Dağlıq Qarabağda baş verən hərbi əməliyyatlara görə heç bir öhdəlik daşımır". Lakin

müharibə dövründə məlumatlar yayılırdı ki, 44 günlük müharibə dövründə Rusiyadan Ermənistana döyüş sursatı və hərbi texnika Qazaxıstan-Türkmənistan-İran hava yolları vasitəsilə daşınıb. Rusiya isə birtərəfli qaydada bəyan etdi ki, daşınan yük döyüş sursatı və hərbi texnika deyil, Ermənistanda Rusiya hərbi bazası üçün tikinti materiallarıdır [3].

Rusiyanın vasitəçiliyindən danışan İlham Əliyev Rusiya və onun prezidenti Vladimir Putinin İkinci Qarabağ müharibəsinin həllində, hətta Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasında da əhəmiyyətli rol oynadığını bildirmişdir[4]. Lakin Prezident İ.Əliyev CNN türk kanalına müsahibəsində bildirmişdir ki, Rusiya Ermənistanı hal-hazırda da silahla təmin edir, hətta iki dövlətin müdafiə nazirlərinin görüşündə Ermənistana silah göndərilməsi prosesinin başlanıldığı vurğulanıb. Bu da təbii ki, bölgədə mövcud sülh prosesi üçün təhlükə yaradır [2].

Türkiyəyə gəldikdə isə o, hələ Ermənistanın iyul ayında Tovuza hücumundan sonra Bakıya çox açıq dəstək vermişdir. Türkiyənin müdafiə sənayesinin Pilotsuz Uçuş Aparatları və Silahlı Pilotsuz Uçuş Aparatları ilə birlikdə Suriya və Liviyada da müvəffəqiyyətli olan bir çox fərqli hərbi texnika Azərbaycana təqdim edildi. Nəticədə, illərlə Moskvanın dəstəklədiyi Ermənistan meydanda Türkiyənin dəstəklədiyi Azərbaycana məğlub oldu. Rusiyanın bölgədə qurduğu status-kvo Türkiyənin dəstəyi ilə dəyişdi və Moskva bu vəziyyəti qəbul etmək məcburiyyətində qaldı. Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan isə öz müraciətində dünya dövlətlərini işğala qarşı mübarizədə Azərbaycan dəstək olmağa çağırdı. O,

bildirdi ki, ATƏT-in MİNSK qrupu münaqişənin həllinə laqeyd yanaşmış və onun həlli üçün heç bir fəaliyyət göstərməmişdir[2].

Müharibədən sonra imzalanan müqavilə nəticə etibarilə Bakının qələbəsi və İrəvanın məğlubiyyəti deməkdir. Birincisi, bu sövdələşmə Ermənistan üçün böyük bir uğursuzluğu əks etdirməklə yanaşı, Azərbaycan tərəfini qismən qane edir, ruslar yeni müvəqqəti status-kvo yaradır və bununla da münaqişəni yenidən dondurur. Bu, Rusiyanın maraqlarına uyğundur. Ancaq münaqişə hər nə qədər dondurulmuş vəziyyətdə qalmazdısa və köhnə status-kvo nə qədər pozulardısa, Türkiyə üçün vəziyyət bir o qədər yaxşı olardı. Bunun əksinə olaraq, Rusiyanın maraqları Azərbaycanın istəklərinin qismən yerinə yetirilməsi və münaqişənin yeni status-kvo əsasında dondurulması ilə bağlıdır. Bu da Rusiyanın hələ əvvəldən təşəbbüslə planlaşdırdığı nəticəyə uyğun olaraq aparıldı. İkincisi, Türkiyə Azərbaycanı xaricdən dəstəkləyən dövlət olsa da, münaqişəyə son qoyan müqavilə Rusiya, Azərbaycan və Ermənistan arasında bağlanmışdır. Türkiyə imzalayan tərəflər arasında deyildi. Rusiya bu səbəbdən diplomatik mərhələdə üstünlüyünü qorudu. Üçüncüsü, İdlibdən fərqli olaraq, sülhməramlı missiyalar (hərbi patrullar) yalnız Rusiya tərəfindən yerinə yetiriləcək - ortaq patrul olmayacaq və bu səbəbdən türk əsgərləri fəaliyyət göstərməyəcək. Türkiyə yalnız müşahidəçilər göndərəcək [5].

Yekun olaraq regionda baş verən hadisələr onu göstərdi ki, Rusiya və Türkiyənin maraqları bir çox məsələlərdə toqquşsa da, Cənubi Qafqazda onlar müəyyən razılıq əldə edə bildilər. Belə ki, hər iki dövlət münaqişə tərəflərini müdafiə edən tərəflər olaraq bu problemin həllində Qərb dövlətlərinin qarışmasını istəmədi. Türkiyənin də rolunu qəbul edən

Rusiya müqavilədə Türkiyənin tərəf olmasına imkan verməsə də, onun rolunu qəbul etdi [6].

## İstifadə olunmuş ədəbiyyat siyahısı:


1. https://president.az/news/interviews/ 18 avqust 2021
2. https://www.ifri.org/sites/default/files/atoms/files/hilltaspinar_russe.pdf/ Россия и Турция на Кавказе: сближение ради сохранения статус кво/ 2006 yanvar/17.07.2021
3. https://www.virtualkarabakh.az/ru/post-item/52/2871/vtoraya-karabahskaya-vojna.html/ Вторая Карабахская Война/17.07.2021
4. https://iz.ru/1084936/2020-11-10/aliev-otcenil-rol-rossii-v-razreshenii-konflikta-v-nagornom-karabakhe/Алиев оценил роль России в разрешении конфликта в Нагорном Карабахе/17.07.2021
5. https://www.swp-berlin.org/en/publication/turkish-russian-relations-in-light-of-recent-conflicts#hd-d17741e1076/https://www.kommersant.ru/doc/4637028/Turkish-Russian Relations in Light of Recent Conflicts,Syria, Libya, and Nagorno-Karabakh/21.07.2021
6. https://www.bbc.com/azeri/azerbaijan-56844543/ Zəngəzur dəhlizi: Azərbaycan və Ermənistan kommunikasiyaların bərpasında niyə razılığa gələ bilmirlər?/ 22.07.2021

Yaqut Məmmədova Yaqub qızı
AMEA A.A.Bakıxanov adına Tarix institutu

# QARABAĞ MÜNAQİŞƏSİ DÖVRÜNDƏ RUSİYA FEDERASİYASI VƏ AZƏRBAYCAN RESPUBLİKASI ARASINDA

**Açar sözlər:** Qarabağ münaqişəsi, beynəlxalq münasibətlər, Rusiya-Azərbaycan münasibətləri,
siyasi əlaqələr, mədəni əlaqələr

**Ключевые слова**: Карабахский конфликт, международные отношения, российско- азербайджанские отношения, политические связи, культурные связи

**Key words:** Karabakh conflict, international relations, Russia-Azerbaijan relations, political
relations, cultural relations

XXI əsrin əvvəllərində Rusiya–Azərbaycan münasibətlərinin inkişafına əhəmiyyətli dərəcədə təsir edən bir sıra amillər mövcud idi ki, onların arasında Qarabağ probleminin nizamlanmasında Moskvanın nüfuzu və rolu, qarşılıqlı ticarət dövriyyəsinin artırılması, neft-qaz sahəsində əməkdaşlıq, ölkələr arasında ənənəvi mədəni əlaqələrin fəallığının yüksəldilməsi əsas yer tutur. Moska və Bakı arasında münasibətlərin möhkəmləndirilməsində maraqlı olan azərbaycan diasporunun fəaliyyəti, həmçinin Azərbaycanda rus icmasının mövcudluğu bu iki ölkə arasında münasibətlərin yüksək səviyyədə saxlanılmasına təsir göstərmişdir [3, s.39-42].

Rusiya-Azərbaycan dövlətlərarası siyasi münasibətlərinin mühüm məsələsinin elə ilk zamanlardan Dağlıq Qarabağ olduğunu xüsusilə qeyd etmək yerinə düşərdi. Bununla əlaqədar Rusiya Dağlıq Qarabağ probleminin nizamlanmasında vasitəçi rol oynamağa cəhd edir, Azərbaycanın ərazi bütövlüyünün vacibliyini dəfələrlə önə çəkirdi. 1994-cü ilin may ayında Rusiya və digər MDB ölkələrinin iştirakı ilə “Atəşin müddətsiz dayandırılması sazişi” təqdim olundu ki, bu da 12 may 1994-cü ildə qüvvəyə mindi. 2007-ci ildə Rusiyanın iştirakı ilə münaqişənin nizamlanması istiqamətində “Madrid prinsipləri” irəli sürüldü. Bu prinsiplər Azərbaycan Respublikasının ərazi bütövlüyünün saxlanılması şərti ilə Dağlıq Qarabağ əhalisinin referendum yolu ilə öz müqəddəratını müəyyən etməsini nəzərdə tuturdu. 2008-ci ilin noyabrında Dağlıq Qarabağ ətrafında danışıqlar Rusiya prezidenti D.A.Medvedyevin birbaşa iştirakı ilə keçirilirdi. Münaqişənin nizamlanmasında yeni mərhələ Azərbaycan, Ermənistan və Rusiya prezidentləri tərəfindən “Mayendorf Deklarasiyası” adlanan sənədin imzalanması oldu [2, s.22]. “Dördgünlük müharibə” adlanan və münaqişənin başladığı zamandan ən iri silahlı toqquşmanın baş verdiyi 2016-cı ilin aprelində Rusiya vasitəçi rolunu daha da qabartdı. 2016-cı ilin iyununda Rusiya, Azərbaycana məxsus Dağlıq Qarabağ məsələsinin nizamlanmasına həsr olunan Azərbaycan və Ermənistan prezidentləri, eləcə də ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə keçirilən görüşün təşəbbüskarı oldu.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Rusiyanın aparıcı roluna qiymət verərkən iki amili nəzərdən qaçırmaq olmaz. Birincisi, Rusiyanın vasitəçiliyinin hər iki münaqişə iştirakçısı tərəfindən

qəbul edilməsi inkaredilməz amildir. Belə ki, Azərbaycan və Ermənistan Rusiya ilə strateji tərəfdaşlığın inkişafında maraqlıdır. İkincisi, Rusiyanın münaqişənin nizamlanması istiqamətində vasitəçi cəhdləri qərb ölkələri və ABŞ tərəfindən müsbət qarşılanır [5]. Bununla yanaşı, unutmaq olmaz ki, Azərbaycan-Rusiya münasibətlərinə qeyri-region oyunçuları olan həmin ölkələrin müəyyən təsiri də özünü göstərir, çünki burada iqtisadi, energetika və geosiyasi maraqlar toqquşur. Rusiyanı əhatə edən sovet məkanına daxil olan bütün ölkələr geosiyasi qarşıdurmada mühüm element olsa da, məhz Azərbaycanın rolu unikal və son dərəcə əhəmiyyətlidir. Xatırladaq ki, əsasını Azərbaycanın təşkil etdiyi Xəzər regionu enerjidaşıyıcı olaraq Rusiya üçün yeganə ciddi rəqibdir [6 ]. Beynəlxalq səhnədə bu iki dövlətin qarşılıqlı dəstəyi də diqqətəlayiqdir və onların strateji münasibətlərini təsdiq edən amildir. BMT-də təmsil olunan hər iki ölkə əslində müstəqil, eyni zamanda çox zaman bənzər mövqedən çıxışlar edir. Qeyd edək ki, Azərbaycan Rusiyaya qarşı sanksiyaları heç vaxt dəstəkləməmişdir, ölkələri iqtisadi qarşıdurmaya deyil, dialoqa səsləmişdir. Rusiya da öz növbəsində müəyyən mərhələlərdə Avropa Şurasının hüquq və söz azadlığı ilə bağlı Azərbaycana hücumlarına tənqidi yanaşmışdır.

Rusiya-Azərbaycan münasibətlərindən bəhs edərkən Azərbaycanın iqtisadiyyatında Rusiyanın möhkəm mövqelərini inkar edə bilmərik. Neft-qaz sektorunda əməkdaşlıq ilə yanaşı qeyri-neft, xüsusilə kənd təsərrüfatı sahəsində də əlaqələr ümumiyyətlə, yüksələn xətt üzrə davam etdirilmişdir, lakin müəyyən dövrlərdə iqtisadi böhran və müxtəlif obyektiv amilərin Rusiya-Azərbaycan əlaqələrində xoşagəlməz izlər buraxdığını da qeyd etmək istərdik. Belə ki, 2015-ci ildə 2014-cü il ilə

müaqyisədə böhran və sanksiyaların nəticəsi olaraq ölkələrarası əmtəə dövriyyəsində 30% azalma müşahidə olunur ki, bu da dünya böhranı ilə yanaşı, neftin qeyri-sabit dəyərləndirilməsi, hər iki ölkənin milli valyutasında ucuzlaşma səbəblərindən də irəli gəlmişdir [4]. İkinci Vətən Müharibəsindən öncəki dövrdə Rusiya ilə Azərbaycan arasında hərbi-texniki əməkdaşlığın çox məhsuldar olması görünür. Qeyd edək ki, yalnız 2010-cu ildən 2012-ci ilədək 4 mlrd. dollar, 2014-cü idə isə “Rosoboronoeksport” xətti ilə 1 mlrd. dollar həcmində silah-sursat təminatı ilə bağlı müqavilələr imzalanmışdır. Rusiyadakı nəhəng Azərbaycan diasporunun rolunu nəzərə alaraq, humanitar və mədəni sahədə əlaqələrin sabit inkişafının mühüm əhəmiyyətə malik olduğu qənaətinə gələ bilərik. Bu iki ölkə tarix boyu isti mədəni əlaqələri qoruyub saxlamağa müvəffəq olub. S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram teatrı hazırda azərbaycanlıların sevimli məkanlarından hesab olunur [1, s.46] Rusiyada isə Azərbaycan Dövlət Dram teatrı (Dərbənd şəhərində) fəaliyyət göstərir. Azərbaycanda tədrisin azərbaycan və rus dillərində aparıldığı 300-dən çox, həmçinin tədrisin yalnız rus dilində aparıldığı 20-ə yaxın məktəb mövcuddur. Rus dilində təhsil ali məktəblərdə də davam etdirilir və rus dilində təhsil alan tələbələrin sayı bu illər 20 min nəfərə yaxınlaşmışdır. Moskvada fəaliyyət göstərən 157 saylı ümumtəhsil məktəbi etnomədəni azərbaycan komponentini əks etdirir, həmçinin Rusiya Federasiyasının paytaxtında Azərbaycan mədəni-tədris mərkəzi fəaliyyət göstərir.

Münaqişə dövründə Rusiya və Azərbaycan mütəmadi olaraq yüksək səviyyədə görüşlər keçirmişdir. İkitərəfli münasibətləri

nizamlayan 80-dən çox hökümətlərarası və müəssisələrarası müqavilə və sazişləri əks etdirən normativ-hüquqi baza qüvvəsini saxlayır. Təbii ki, Rusiya-Azərbaycan münasibətlərinin problemli tərəfləri də yox deyil. Bunların sırasında Azərbaycanın MDB məkanında ilk neft kəməri olan "Bakı-Ceyhan" layihəsində Rusiyanın iştirakı olmadan təmsil olunması, Rusiyanın Ermənistanı silah və hərbi sursatla təmin etməsi kimi məsələləri qeyd etmək olar. Buna baxmayaraq, Rusiya-Azərbaycan münasibətlərinin müxtəlif sahələr üzrə tərəfdaşlıq imkanlarını da unuda bilmərik. Rusiya və Azərbaycan arasında ticarət əlaqələri Qarabağ münaqişəsi dövründə də MDB məkanında ən yaxşı əlaqələr sırasında olmuşdur. Qarşılıqlı münasibətlərin geniş spektorunu nəzərə alaraq, Azərbaycan və Rusiya arasında çoxplanlı, hər iki ölkənin maraqlarına cavab verən uzunmüddətli perspektivlərin gələcəyinə şübhə etmək olmaz.

**İstifadə olunmuş ədəbiyyat**


1. Алиева А. Азербайджанский государственный русский драматический театр им. Самеда Вургуна //Декада искусства и литературы Аз ССР. Москва, 1959
2. Бахревский Е. В. 20 лет политических взаимоотношений России и Азербайджана. История и основные проблемы // Российско-азербайджанские отношения за 20 лет. История и перспективы. Баку, 2011
3. Перспективы развития азербайджано-российских отношений // Россия и мусульманский мир, №7, 2004, s.39-42
4. Протокол об установлении дипломатических отношений между Российской Федерацией и Азербайджанской Республикой— http://docs.cntd.ru/document/1902960 — müraciət tarixi 02.06.21.

5. Маркедонов С. Нагорно-карабахский конфликт: на перекрестке внешнеполитических интересов— http://russiancouncil.ru/inner/?id_4=8584#top-content – müraciət tarixi 05.06.21.

6. Friedman G. From Estonia to Azerbaijan: American Strategy After Ukraine—https://www.stratfor.com/weekly/estonia-azerbaijan-american-strategy-after-ukraine— müraciət tarixi 05.06.21.

Məmmədov Əli Səyyad oğlu
Azərbaycan Dillər Universiteti

**44 GUNLÜK MÜHARİBƏDƏN SONRA ABŞ VƏ RUSIYANIN CƏNUBI QAFQAZDAKI GEOSIYASI MARAQLARI**

Açar sözlər: Cənubi Qafqaz bölgəsi, beynəlxalq təhlükəsizlik, Rusiya, ABŞ.
Ключевые слова: Закавказский регион, международной безопасность, Россия, Соединенные Штаты.
Key words: Transcaucasian region, international security, Russia, United States.

44 gunlük müharibədən sonra Cənubi Qafqaz bölgəsi dünya ictimaiyyətinin diqqətini, getdikcə cəlb edir. Əhəmiyyətli resurs potensialı, Cənubi Qafqazın özünəməxsus coğrafi mövqeyi onu dünyanın bir çox ölkələri üçün xüsusilə cəlbedici edir. Bu dövlətlər bu bölgədə mövcud olmaqda və Qafqazda yerləşən təbii sərvətlərdən istifadə etməkdə maraqlıdırlar.

Cənubi Qafqaz dövlətlərinin ərazisi və Azərbaycanın Xəzər ərazisi bu gün dünyanın bir çox ölkələrinin zəngin karbohidrogen ehtiyatlarına deyil, həm də geosiyasi və geostrateji nizamının xüsusiyyətlərinə görə diqqəti cəlb edir. Bütün bunlar dünya siyasətinin aparıcı aktorlarının iqtisadi, siyasi və hərbi-strateji maraqlarını müəyyənləşdirir. Cənubi Qafqaz bölgəsi əslində dünyanın bu strateji əhəmiyyətli bölgəsinə hakim olmaq istəyən dövlətlərlə hərbi-siyasi bloklar arasında çox vektorlu rəqabət və qarşıdurma sahəsinə çevrilib. Bu bölgə beynəlxalq ticarət və iqtisadi

əlaqələrin ən əhəmiyyətli qovşağı edir. Şərq-Qərb və Şimal-Cənub ticarət yolları Cənubi Qafqazın ərazisində kəsişir.

Tarixi prosesdə Cənubi Qafqazın bölgəsi tez -tez böyük dövlətlər arasında toqquşmalar meydanına çevrilmişdir. Bu gun bu prosesin mərkəzində Rusiya və ABŞ dayanır. Burada vurğulamaq vacibdir ki, ABŞ -ın xarici siyasətinin formalaşmasının özəlliyi ABŞ -ın milli təhlükəsizliyinin beynəlxalq təhlükəsizlik ilə eyniləşdirilməsidir. Öz növbəsində, dünyanın əsas bölgələrində regional təhlükəsizlik beynəlxalq təhlükəsizliyin ayrılmaz hissəsidir.

Vaşinqtonun Cənubi Qafqazdakı xarici siyasəti kontekstində beynəlxalq münasibətlərin regional münaqişələr, beynəlxalq terrorizm, kütləvi qırğın silahlarının yayılması təhlükəsi kimi aspektləri böyük əhəmiyyət kəsb edir.

Cənubi Qafqaz respublikaları (Azərbaycan və Gürcüstan) hal -hazırda çox dinamik inkişaf edir ki, bu da Azərbaycanın kifayət qədər əhəmiyyətli karbohidrogen ehtiyatları və bioloji resursları ilə asanlaşdırılır. Logistika prosesində əhəmiyyətli rol neft və qaz boru kəmərlərinin tranzit keçdiyi Gürcüstana məxsusdur. Üçüncü Zaqafqaziya respublikası - Ermənistan iqtisadiyyatını sabit və yüksək inkişaf etdirə bilmədi. Azərbaycan və Gürcüstana qarşı ərazi iddiaları Ermənistanın enerji və nəqliyyat izolyasiyası şəklində ifadə edildi. (1)

Ümumiyyətlə, Qarabağ, Abxaziya və Osetiya problemləri bu bölgənin sabit inkişafını təhlükəyə atır və Cənubi Qafqazdakı dövlətləri üçün vahid strategiyanın hazırlanmasına töhfə vermir. Eyni zamanda, Zaqafqaziya respublikalarının əlverişli geostrateji mövqeyi və neftin və

qazın olması dünyanın aparıcı güclərinin, ilk növbədə ABŞ -ın maraqlarına cavab verir və bölgədə xarici qüvvələrin güclənməsini müəyyən edir.

Rusiya ilə ABŞ arasında yeni müstəqillik qazanan Cənubi Qafqazdakı ölkələri ilə əlaqələr məsələsi bu gün beynəlxalq münasibətlərdə ən önəmli məsələlərdən biridir. 44 günlük müharibədən sonra Rusiya və ABŞ-ın strategiyası və siyasəti, ABŞ və Rusiyanın Cənubi Qafqaz bölgəsindəki mövqelərini hərtərəfli möhkəmləndirmək istəyində ən aydın şəkildə özünü göstərdi.

XX əsrin sonunda Moskva və Vaşinqton tərəfindən Rus Amerikanın həyati milli maraqlarının bir bölgəsi olaraq təyin olunan Cənubi Qafqaz bölgəsi, Rusiya və ABŞ -ın Cənubi Qafqazdakı açdığı böyük siyasi oyunun bir hissəsidir.

Sovet İttifaqının dağılmasından sonra ABŞ -ın Cənubi Qafqazdakı xarici siyasəti bipolyar sistemin ləğvinə kömək etdi və bu da öz növbəsində Amerikanın qlobal hökmranlıq strategiyasının atributuna çevrildi - ölkələrin dünya nizamının idarə olunduğu bir sistemə inteqrasiyası. Amerika Birləşmiş Ştatları tərəfindən. Geopolitika çərçivəsində Cənubi Qafqaz ABŞ üçün əhəmiyyəti bir neçə faktorla müəyyən edilir.

1 faktor. Bölgənin Rusiya və İrana yaxın yerləşməsi, Vaşinqtona amerikapərəst rejimlər qurulacağı təqdirdə, geosiyasi rəqibləri olan Moskva və Tehrana təzyiq göstərmək imkanı verir.

2 faktor. Enerji təhlükəsizliyini təmin etmək üçün Cənubi Qafqaz dövlətləri üzərində nəzarət Rusiya Federasiyasının ərazisini keçərək enerji resurslarının çatdırılmasını təmin etməyə imkan verir.

3 faktor. Xəzər dənizinə çıxış

4 faktor. Orta Asiyanın zəngin bölgəsinə çıxış

Cənubi Qafqaz ölkələrindəki Amerika strategiyası, şübhəsiz ki, ABŞ -ın daha böyük geosiyasi strategiyasının yalnız bir hissəsidir və bu bölgədəki digər böyük oyunçunun milli maraqlarını - Rusiyanın Cənubi Qafqaz bölgəsindəki maraqlarını təhdid edir. Cənubi Qafqaz əslində ABŞ və Rusiya arasında müxalifət sahəsidir.

ABŞ Cənubi Qafqazdakı amerikapərəst rejimlər yaratmaqla geniş planlarını həyata keçirir. Vaşinqton bölgədə siyasi, iqtisadi və hərbi varlığını gücləndirməyə çalışır. Eyni zamanda, bu bölgənin üç dövləti olan Azərbaycan, Ermənistan və Gürcüstan ABŞ -ın Cənubi Qafqazda geosiyasi və geostrateji varlığı mövzusunda vahid mövqeyə malik deyillər.

Gürcüstan tamamilə ABŞ -a yönəlib və ümumiyyətlə Qərbin maraqlarını müdafiə edir. Azərbaycan balanslaşdırılmış siyasət yürüdür və həm ABŞ, həm də Rusiya ilə siyasi sahədə də əməkdaşlığa hazırdır. Ermənistan tam Rusiyanın təsiri altındadır.

**Ədəbiyyat:**

1. Экономика Армении: особенности развития Обсудить Редактировать статью 0 - Читайте подробнее на FB.ru: https://fb.ru/article/319774/ekonomika-armenii-osobennosti-razvitiya

Məmmədov Ceyhun Valeh oğlu

Azərbaycan Dillər Universiteti

**DİNİ MƏBƏDLƏRİMİZİN ERMƏNİLƏR TƏRƏFİNDƏN DAĞIDILMASI**

Açar sözlər: multietnik, tarixi-dini abidələr, məscid, erməni təcavüzü

Keywords: multiethnic, historical and religious monuments, mosque, armenian aggression

Ключевые слова: мультиэтнический, историкорелигиозные памятники, мечеть, армянская агрессия

Azərbaycan tarixən mədəniyyətlər və dinlər arasında aparıcı rol oynamışdır. Azərbaycan Respublikasının Konstitusiyasında da qeyd edildiyi kimi, ölkəmizdə millətindən, dinindən, məzhəbindən, dilindən, irqindən və s. asılı olmayaraq hər kəs bərabər hüquqlara malikdir [1]. Azərbaycan multietnik əhalisi olan ölkədir və burada yaşayan hər kəs digər etnik-dini mədəniyyətlərə hörmətlə yanaşır.

Ermənilərin Azərbaycan xalqına təcavüzü iki əsrdən artıqdır ki, davam edir. Bu təcavüzdən zərərçəkən təkcə əhali deyil, həmçinin tarixi mədəniyyət abidələri olmuşdur. Ermənilər tarixi-dini abidələrimizi erməniləşdirməklə, özgələşdirməklə dəyişdirməyə, eyni zamanda tamamilə dağıtmağa-məhv etməyə çalışmışlar. Ümumilikdə, 300-dən çox tarixi-dini abidəmiz erməni təcavüzünə məruz qalmışdır. Onlar təkcə İslam mədəni irsinə deyil, həmçinin alban tarixi irsinə də ziyan

vurmuşdur. Məscidlərlə yanaşı, qəbiristanlıqlar dağıdılmış, qəbirüstü abidələr, qəbir daşları yerlə yeksan edilmişdir.

Qarabağ məscidləri deyəndə ilk nüvbədə Şuşanın qoşa minarəli məscidləri yada düşür. Erməni vandalizminin qurbanı olan abidələrimizdən biri Qarabağ xanı İbrahimxəlil xan tərəfindən inşa etdirilmiş Yuxarı Gövhər ağa məscididir. Bu məscid dövrünün memarlıq xüsusiyyətlərinin ən gözəl formada nümayiş etdirildiyi memarlıq nümunələrindəndir.

Şuşada inşa edilən tarixi-dini abidələrdən biri də şəhərin aşağı məhəlləsində yerləşən Aşağı Gövhər ağa məscididir. 1992-ci ildə Şuşanın ermənilər tərəfindən işğalı zamanı məscidin binası ciddi zədələnmişdir. Məscidin divarındakı yazılar silinmiş, azərbaycanlılara qarşı təhqiramiz ifadələr yazılmışdır [2], [3].

Xoca Mərcanlı məscidi XVIII əsrdə inşa edilən məscidlərdəndir. Məscid ermənilər tərəfindən məhv edilmişdir. Hal-hazırda xarabalıqları qalmaqdadır.

Ermənilər tərəfindən dağıdılan məscidlərdən biri də Şuşanın XIX əsr dini-memarlıq nümunəsi olan Saatlı məscidi olmuşdur. Məscid eyniadlı məhəllədə inşa edilmişdir. Saatlı məscidi öz xarici görünüşü, memarlıq quruluşu, həcmi ilə digərlərindən fərqlənmişdir [2].

Şuşanın Köçərli məhəlləsində yerləşən Köçərli məscidi yandırılaraq varlığı təhlükəyə atılmış tarixi-dini abidələrimizdəndir. Köçərli məscidi XIX əsrdə Arran memarlıq məktəbi üslubunda inşa edilmiş abidələrdəndir.

Ağdam ərazisində yerləşən Ağdam Cümə məscidi də erməni vandalizminin qurbanı olmuşdur. Bu məscidin tavanı bir neçə yerdən uçurulmuş, minarələri daxildən sökülmüşdür. Dini abidəmiz ermənilər tərəfindən təhqir edilmiş, içərisində donuz və digər heyvanlar saxlanılmışdır.

II Vətən müharibəsindən əvvəlki illərdə məscidlərdə mal-qara və digər heyvanların saxlanılması faktını Qərb ölkələrinin müxbirləri lentə almış və bütün dünya ictimaiyyəti bu kadrlarla tanış olmuşdur [4].

2020-ci ildə ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən işğal altında olan ərazilərimiz azad edilmişdir. Bununla da, işğaldan azad edilən ərazilərimizdəki tarixi-dini memarlıq abidələri də erməni əsarətindən xilas olmuşdur. Hazırda 44 günlük Vətən müharibəsinin nəticəsində işğaldan azad edilmiş torpaqlarımızda bərpa işləri aparılır. Tarixi-dini abidələr, tarixi-mədəni binalar, yaşayış məntəqələri restavrasiya edilir.

**Ədəbiyyat siyashısı**


1. AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI http://www.e-qanun.az/
2. F.İsmayılov. Azərbaycanın işğal olunmuş ərazilərindəki tarix və mədəniyyət. Abidələrə vurulan zərər. AMEA. Hüquq və İnsan Haqları İnstitutu. Bakı 2016. 91 səh.
3. N.Alışova. A.Abdullayeva. Şuşa həsrəti. Metodik vəsait. Bakı 2007. 39 səh.
4. N.Məmmədov. İşğal altındakı tarixi-dini abidələrimiz. Bakı, “NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, 174 səh.

Məmmədov Novruz İsmayıl oğlu
Azərbaycan Dillər Universiteti

# AZƏRBAYCAN İKİNCİ VƏTƏN MÜHARİBƏSİ:GEOSİYASƏT

Qlobal miqyasda müşahidə olunan geosiyasi proseslər kataklizmlərlə zəngin dünyanın nə dərəcədə mürəkkəb vəziyyətdə olduğunu göstərir. Siyasi liderlər, alimlər, siyasətşünaslar, ekspertlər və digər maraqlı dairələr bu durumdan səmərəli çıxış yollarını aramaqdadırlar. Siyasət və diplomatiya prizmasından aktual olan başlıca məsələlərdən biri dünyanın yeni nizamlı struktura elə transformasiyasına nail olmaqdır ki, uzun müddət və dayanıqlı olaraq bəşəriyyətin təhlükəsizliyi təmin olunsun. Lakin, təəssüf ki, problemin məhz bu aspekti hələlik az ümidvericidir.

Belə bir vəziyyət başqa məsələlərlə yanaşı, dünyanın üzləşdiyi təhdid və çağırışlara geosiyasi-nəzəri kontekstdə cavab vermək ehtiyacını daha da artırır. O cümlədən geosiyasət elminin XX əsrdə keçdiyi yola təhlil işığında təkrar-təkrar baxmaq lazım gəlir. Çünki "nə üçün bu cür riskli və təhdidlərlə dolu durumun yaranması" sualına cavabı hər şeydən öncə əsaslandırılmış arqumentlərlə izah etmək gərəkdir.

Bu özəlliyin fonunda hazırkı mərhələ üçün olduqca əhəmiyyətli olan faktorlar da meydana çıxıb. Biz, ilk növbədə, qlobal təhlükəsizlik sisteminin səmərəsizliyini, beynəlxalq münasibətlərin çətinliklər və qeyri-müəyyənliklərlə üzləşməsini, beynəlxalq terrorun yeni dalğasını, qlobal miqyasda siyasi ədalətsizliyin getdikcə vüsət almasını və əlbəttə, COVID-19 pandemiyasının yaratdığı böhranlı situasiyanı nəzərdə tuturuq.

Vurğulanan faktorlardan əlavə, regional və qlobal miqyasda çox sayda faktor-prosesləri də müşahidə edirik ki, onların da sistemli tədqiqinin vacibliyi ilə yanaşı, bəşəriyyət üçün böyük təhlükə kəsb etdiyini də vurğulamaq lazımdır.

Bu reallıqlar prizmasından gənc müstəqil dövlətlər üçün uğurlu xarici siyasət yeritmənin əhəmiyyətini sübut etməyə ehtiyac yoxdur. Çünki uğurlu xarici siyasət kursu olmadan, ümumiyyətlə, belə qarışıq və qeyri-müəyyən mərhələdə beynəlxalq aləmdə söz və nüfuz sahibi olmaq mümkün deyildir. Bu baxımdan XX əsrdə geosiyasətin qısa

transformasiyalarından sonra XXI əsrin ilk onilliklərində geosiyasətin dinamikasının bir sıra məqamları üzərində dayanmağa ehtiyac hiss edirik. Həmin bucaq altında isə əlinizdə tutduğunuz kitabın başlıca tezislərinə təhlili işıq salmaq imkanı meydana çıxır. Bizcə, geosiyasətin müasir məsələlərinə maraq göstərən tədqiqatçılar, xüsusilə də gənc tələbələr üçün bu, çox maraqlı olardı.

Kitabın birinci fəslində də araşdırıldığı kimi, XX əsrdə geosiyasət bir nəzəriyyə kimi böyük transformasiyalara məruz qalıb. Ən ümumi səviyyədə "sərt güc"dən "yumşaq güc"ə keçid baş verib. Geosiyasi təlimlərin konkret məzmunundan asılı olmayaraq, tədqiqatçılar bu keçidin əsas parametrlərini müəyyən etməyə çalışmışlar. Bunun səbəbi bütövlükdə dünyanın geosiyasi aspektdə yeni struktur-funksional vəziyyətə keçməsi ilə bağlıdır.

Konkret desək, keçən əsrin 90-cı illərində dünya ikiqütblülükdən birqütblülüyə keçidi yaşamışdır. Lakin tezliklə aydın oldu ki, daha doğru yol çoxqütblülüyə keçiddən ibarətdir. Buna nail olmaq isə geosiyasətin qaydaları kontekstində asan məsələ kimi görünmür. İndiyə qədər dünya çoxqütblülüyün hamılıqla qəbul edilən formulunu tapa bilməyib. Bu baxımdan kitabda aparılan təhlil maraq doğurur.

Belə bir geosiyasi dinamika milli dövlətlər üçün ciddi vəzifə qarşıya çıxarır: sürətlə dəyişən mənzərə fonunda balanslı xarici siyasət kursu müəyyən etməklə güclü və dayanıqlı dövlət qurmaq! Bu isə öz növbəsində xarici siyasətin "üfüqlərini" dəqiq təyin etməklə onun prioritetlərini müəyyən etməyi tələb edir. Təcrübə göstərdi ki, postsovet məkanında bu çətin vəzifənin öhdəsindən heç də bütün ölkələr gələ bilmədi. Həmin səbəbdən kitabın ikinci fəslində bu məqamın nəzəri təhlili aktuallığını hələ də qoruyub saxlayır.

Eyni zamanda, vurğulanan geosiyasi mürəkkəblik prizmasından "güclü dövlət" konseptinin analizi aktuallaşır. Lakin burada da bir incəliyi unutmaq olmaz. Məsələ ondan ibarətdir ki, güclü dövlət yaratmağın konkret milli, regional və qlobal hədəfləri olmalıdır. Əsərin üçüncü fəslində Azərbaycan üçün bu hədəflər Ulu Öndər Heydər Əliyev tərəfindən milli səviyyədə demokratik-hüquqi, müstəqil dövlətin qurulması, regional səviyyədə lider ölkənin formalaşdırılması və qlobal

səviyyədə barış və əməkdaşlığı prioritet hesab edən dövlətin beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutması kimi müəyyən edilir.

Bu müddəalar yekun fəsildə Azərbaycanın xarici siyasətinin prioritetləri haqqında həm analitik-nəzəri, həm də konkret praktiki və diplomatik səviyyələrdə təhlil aparmaq üçün zəmin yaradır. Beləliklə indiki mərhələdə müşahidə edilən aktual geosiyasi proseslərin işığında qlobal nizamın gələcəyi və onda Azərbaycanın oynayacağı rol haqqında müəyyən nəzəri təsəvvür əldə etmək olar. Həmin çərçivədə Azərbaycanın beynəlxalq miqyasda fəaliyyətinin bir sıra özəlliklərinə pandemiya mərhələsinin meydana çıxardığı yeni məsələlər işığında da baxmaq imkanı əldə edilir.

Tədqiqatçılar qlobal geosiysi proseslərin məzmununda ciddi dəyişikliklərin müşahidə edildiyini və bunun fonunda pandemiyanın bütün səviyyələrdə meydana bir çox problemlər çıxardığını etiraf edirlər1. Bütövlükdə geosiyasi mənzərənin transformasiya məntiqi isə hələlik tam aydın deyildir. Çünki yeni neqativ faktorların özünün tam nəzəri obrazı yoxdur. Bunun ən əyani təzahürü COVID-19 virusu ətrafında aparılan siyasi, geosiyasi və informasiya spekulyasiyalarıdır. Buna görə də müxtəlif siyasi və elmi dairələrdə regional və qlobal miqyasda ədalətsizliklərin müşahidə edilməsi narahatlıqla vurğulanır.

Təbii ki, bu cür durum hazırkı mərhələdə geosiyasi proseslərin daha geniş təhlilini və həmin kontekstdə ayrı-ayrı milli dövlətlərin bu istiqamətdəki yeri və rolunun nəzəri tədqiqini xeyli aktuallaşdırır. Həmin bağlılıqda bir sıra tədqiqatçıların "dövlət" anlayışına yenidən baxmağın zəruriliyini vurğulaması tam məntiqi görünür .

İndiki mərhələdə qlobal səviyyədə müşahidə edilən məqamların işığında bu kitabın əhəmiyyəti, bizcə, daha qabarıq şəkildə özünü göstərir. Bu tezisin fonunda kitabın strukturu və məzmununa dəyərli oxucunun fikrən yenidən müraciət etməsi, şübhəsiz, daha konkret mənzərə yaradar. Xüsusilə Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilən xarici siyasət kursunun son illərdə daha böyük səmərə verdiyinə bir daha əmin oluruq. Prezident İlham Əliyevin fəaliyyətinin bütün istiqamətlərdə

olduğu kimi, bu aspektdə də yüksək dərəcədə uğurlu olduğu şübhə doğurmur.

Bəli, məhz geosiyasi prosesləri dəqiqliklə təhlil edən Prezident İlham Əliyevin əsaslandırılmış arqumentləri, qətiyyətli qərarları sayəsində Azərbaycanın xarici siyasəti dünya miqyaslı çətinliklərə, qeyri-müəyyənliklərə və risklərə baxmayaraq, Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirdi (bu proses davam edir), İkinci Qarabağ müharibəsində tarixi qələbəyə apardı və "dəmir yumruq"la düşmənə qalib gələn müzəffər Ali Baş Komandan bölgədə yeni reallıqlar yaratdı və təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti hazırda dünyanın nüfuzlu liderlərindən biri kimi qəbul edilir.

Nəzərə almaq lazımdır ki, xarici siyasət elə bir dinamik sahədir ki, burada vəziyyət daim dəyişir və meydana yeni parametrlər çıxır. Hətta taktiki və ya strateji aspektdə prioritetlərdə düzəlişlər ola bilir. Bu həqiqət prizmasından da kitabda ifadə edilən fikirlər maraqlı hesab edilə bilər.

Həmin kontekstdə Heydər Əliyevə məxsus olan fikir çox aktualdır. Ümummilli lider bəyan etmişdi: "Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur".

Ulu Öndər tərəfindən xarici siyasət qarşısında qoyulan bu vəzifənin öhdəsindən Prezident İlham Əliyevin uğurla gəldiyini bütün dünya görür və qəbul edir. İlham Əliyev bu bağlılıqda bəyan edib: "Azərbaycan tərəfindən aparılan xarici siyasət nəticəsində bu gün dünya miqyasında bizə çox böyük inam və hörmət vardır"!

Şübhə yoxdur ki, bu reallıqları daha dərindən və obyektiv dərk etmək üçün geosiyasətin inkişaf qanunauyğunluqlarını, onun təkamül özəlliklərini, indiki inkişaf istiqamətlərini ciddi elmi səviyyədə mənimsəmək mühüm şərtdir. Bu xüsusilə gənc tələbələr, magistranlar üçün çox əhəmiyyətlidir. Bu baxımdan təqdim olunan kitabın ali məktəblərdə dərslik kimi istifadəsinin olduqca faydalı olacağına inanırıq!

**Лилия Мирзазаде**

**Национальной Академии Наук Азербайджана**

# РЕГИОНАЛЬНАЯ СТРАТЕГИЯ АЗЕРБАЙДЖАНА В КОНТЕКСТЕ ВТОРОЙ ОТЕЧЕСТВЕННОЙ КАРАБАХСКОЙ ВОЙНЫ

**Ключевые слова: регион, стратегия, безопасность, угрозы, победа.**

Лейтмотивом внешнеполитической стратегии Азербайджана всегда были мир и безопасность. Статья 4.3.2. Концепции национальной безопасности Азербайджанской республики от 23 мая 2007 г. (№ 2198) гласит: «Азербайджанская Республика всегда была примером мирного сосуществования разных наций…» [1]

Азербайджанская Республика транслировала мир также и в Закавказское региональное пространство, посредством целого ряда глобальных проектов, начиная с нефтяной инициативы Общенационального лидера Азербайджана Гейдара Алиева, именуемой «Контрактом века». После «Контракта века» был подписан целый ряд других международных договоренностей, ориентированных на процветание региона, чему всячески препятствовали армянские и другие деструктивные силы, навязавшие Азербайджану войну за Нагорный Карабах. Как страна с гуманистическими ценностями Азербайджан был сторонником мирного разрешения военного конфликта, но все попытки заходили в тупик. Набравшись терпения, он

долго ждал воплощения в жизнь четырех резолюций Совета Безопасности ООН и резолюций Генеральной Ассамблеи ООН,

Европарламента, Движения неприсоединения, Организации исламского сотрудничества и других международных организаций о необходимости освобождения 20 % азербайджанских земель, 30 лет находящихся под армянской оккупацией.

Однако, вместо того чтобы требовать от Армении выполнения принятых решений, Совбез ООН, а также, международные посредники в лице Минской группы ОБСЕ, все последующие годы говорили о неких взаимных уступках. Они спокойно наблюдали за провокационными действиями армянского руководства, фактически, делающими переговоры бессмысленными». [3, с.5]

В то время как Азербайджан боролся за процветание и безопасность своей страны и всего региона, Армения регрессировала сама и вносила в регион угрозы и риски. В результате Закавказье вошло в зарубежную публицистическую печать как конфликтогенный регион.

Оккупированные Арменией «бесконтрольные» территории, транснациональная организованная преступность превратила в хаб наркотиков, оружия, живого товара и иную незаконную деятельность. Параллельно наживе преступной мафии, над национальной безопасностью Азербайджана нависали серьёзные риски и угрозы, подогреваемые армянским фашизмом. Если зарубежные члены международного сообщества проявляют по этому поводу недоумение, целесообразно принять во внимание, что в 1926-м году бывший премьер-министр дашнакской республики Армении – Симон Врацян со страниц издававшегося в Париже армянского националистического журнала «Дрошак» обвинил Бенито Муссолини в плагиате проповедуемых им

идей фашизма, в заимствовании их из программы партии «Дашнакцутюн»…[2, с. 13]

Куратор и главный вербовщик армянских нацистов от СД Петер Камсаракан в показаниях от 21 октября 1948 года говорил, что во время переговоров о сотрудничестве с нацистами летом 1940 года лидер французских дашнаков Аршак Джамальян (активно сотрудничал с французской военной разведкой, а после оккупации севера Франции переметнулся к гитлеровцам) открыто заявлял, что партия «Дашнакцутюн», а не НСДАП является родоначальницей национал-социализма»…

Когда знакомишься с показаниями сотрудника СД Петера Камсаракана советским органам госбезопасности, невольно обращаешь внимание на то, что абсолютно все армянские националисты, которых он привлёк к сотрудничеству или завербовал на службу в разведке националистической Германии, в один голос выражали восхищение Третьим рейхом и его фюрером. Это замечание в полной мере касается и проживающих в Болгарии Гарегина Тер-Арутюняна («Нжде» и Хайка Ассатурьяна, имевших бизнес в Румынии Саркиса Араратьяна и Драстамата Канаяна («Дро»), а также руководителя армянской диаспоры во Франции Аршака Джамальяна. Не являясь членами НСДАП, все они совершенно искренне (если верить Камсаракану), считали себя нацистами, или носителями родственной нацизму идеологии, подчеркивая данный Факт при каждом удобном случае. Это публично демонстрируемая ими родственность или тождественность идей германского нацизма и армянского национализма во многом объясняет,

почему они так легко шли на контакт и сотрудничество с германской разведкой и продолжали работать на неё до самого конца – до своего ареста или падения гитлеровского режима в Германии. При этом они очень легко предавали страны своего проживания, совершая против них государственные преступления в форме шпионажа. [2, с. 14]

Учитывая всю криминальную и взрывоопасную затянувшуюся ситуацию, как для Азербайджана, так и для всего Закавказского региона, во имя мира, безопасности и справедливости, как государство – лидер Закавказья с накопленным высоким военным потенциалом, героической армией, преданным народом, под руководством сильного Президента Ильхама Алиева вступил в Отечественную войну. За 44 дня Азербайджан полностью сокрушил врага, освободил свои земли и перешёл к последовательной реализации стратегии успеха в политико–дипломатической и экономической плоскостях.

Таким образом, Баку открыл путь масштабному процессу многостороннего сотрудничества в регионе завершившегося нагорно-карабахского конфликта. Причем участником этого процесса может стать и сокрушенная в войне Армения, но при условии отказа от сепаратизма и идей реваншизма. Пока что оснований говорить о перевоплощении армянского государства, оказавшегося у разбитого корыта вследствие обернувшегося его военным разгромом многолетнего отказа от деоккупации азербайджанских территорий, нет. Вместо смирения и осознания пагубности неуемных территориальных претензий к соседям, от армянских политиков по-прежнему звучат реваншистские призывы, активирующие провокации и диверсии. Как показал опыт, подобные деструктивные действия не могут продолжаться, об их печальных

последствиях напомнил Президент Азербайджана Ильхам Алиев: «Железный кулак» Азербайджана на месте, он в состоянии усугубить положение Армении и так пребывающей в катастрофическом положении из-за сокрушенного военного поражения. [4, с.5]

Современная ситуация в Закавказском регионе не та, чтобы Армения могла позволить себе безнаказанные игры с огнем. Самое главное, что свёрнут конфликтный статус региона, впереди реанимация освобождённых территорий, созидательный процесс и новые проекты.

Список литературы:

1. Концепция национальной безопасности Азербайджанской Республики. № 2198. г. Баку, 23 мая 2007/ Собрание законодательств Азербайджанской Республики. № 5, ст. 535, 31 мая 2007 г.
2. Кузнецов О. Армения: страна разрешенного нацизма, ч.6./ Ж. Region plus. № 23 (375), 15.12.2018, с.12-15
3. Маилов Н. Победа железного кулака / Ж. Region plus. № 22 (420), 15.12.2020, с.4-7
4. Намизоглу Н. На пути к миру. Ж. Region plus. № 2 (422), 15.01.2021, с.4-7

*Muradova Səbinə İlham qızı*
*Azərbaycan Dillər Universiteti*

# Qələbəyə aparan güc və yeni dövrün siyasi xəritəsi

***Açar sözlər:*** müstəqil,siyasət,hərbi,sülh

***Ключевые слова:*** демократия,политика,военный,мир

***Keywords:*** independence,political,military,peace

Azərbaycan Cənubi Qafqazda ən çox əhalisi olan ölkədir. 2019-cu il üçün 10 milyon əhalisi var. Coğrafi mövqeyi və zəngin təbii sərvətləri ölkənin tarix boyu geosiyasi vəziyyətinə təsir etmiş və bu xüsusiyyətlərinə görə dövrün böyük dövlətlərinin diqqətini çəkmişdir. Bu gün Azərbaycan neft və təbii qaz ehtiyatları ilə böyük dövlətlərin və transmilli şirkətlərin diqqət mərkəzində olan bir ölkədir. Nerft sektoru Azərbaycan iqtisadiyyatının ən vacib sütununu təşkil edir və siyasi təsirini sərhədləri xaricində həyata keçirir.

Azərbaycanın müstəqillik qazandıqdan sonra üzləşdiyi ən vacib problem, ərazisinin 20% -nin Ermənistan tərəfindən işğal edilməsi idi. Bu problem Azərbaycanın daxili və xarici siyasətini formalaşdıran ən əhəmiyyətli faktor olmuşdur. Bu Azərbaycanda yaranan böyük iqtisadi, siyasi, hərbi, sosial və mədəni mənfiliklərə gətirib çıxartdı, Azərbaycan vətəndaşları öz ölkələrində məcburi köçkün oldular. İki dövlət arasındakı qarşıdurmalar səbəbindən 250 min azərbaycanlı Ermənistandan Azərbaycana köçmək məcburiyyətində qaldı. Dağlıq Qarabağın və ətrafının işğalı problemini diplomatiya yolu ilə həll etmək üçün sıx səylərə baxmayaraq, təxminən 20 ildən sonra heç bir sülh əldə olunmadı və bunun

əsasında sülhün qurulacağı konsensus əldə olunmadı. Çünki iki tərəf arasındakı güc balansı Ermənistan üçün stabil qalsa da, Azərbaycan iqtisadiyyatı və hərbi gücü artmaqda davam etdikcə daha dinamik görünürdü.[1]

Henri Kissingerin qeyd etdiyi kimi, diplomatiya aləmində yüklü silah həmişə hüquqi bilikdən daha güclüdür. Digər tərəfdən, hərbi gücdən istifadə etmək qərarı, dövlət adamları tərəfindən qəbul edilən ən böyük qərarlar arasındadır və bunlar çox ətraflı şəkildə nəzərdən keçirilməli və araşdırılmalıdır. Hərbi gücün və ya müharibənin istifadəsi, siyasətin qarşıya qoyduğu məqsədlərə çatmaqda ağılın rəhbərliyi altında bir vasitə kimi istifadə edildikdə mənalıdır. Çünki "saf hərbi uğur" anlayışı yoxdur. Hərbi uğurun əsas götürülməsi lazım olan bir sıra siyasi və mənəvi dəyərlər olmalıdır.[2]

Azərbaycan rəsmi siyasət və doktrinalarında lazım gəldikdə hərbi gücdən istifadə edərək Dağlıq Qarabağ problemini həll etmək istəyini həmişə bəyan etmişdir. Bunlardan ən əhəmiyyətlilərindən biri 8 iyun 2010 -cu ildə qəbul edilmiş Azərbaycanın hərbi doktrinasıdır. Bu doktrinada Azərbaycanın beynəlxalq hüquqdan irəli gələn hüquqları çərçivəsində Dağlıq Qarabağın və onun ətrafındakı yeddi rayonun erməni işğalından azad edilməsi dəfələrlə vurğulanırdı. Yeni hərbi doktrinanın əksinə olaraq, Azərbaycan 24 iyun 2010 –cu ildə ən böyük hərbi təlimini keçirdi. Prezident İlham Əliyevin də izlədiyi təlimə 4000 Azərbaycan əsgəri,100 tank, 77 zirehli maşın, 125 artilleriya silahı, 17 döyüş təyyarəsi və 12 döyüş helikopteri qatıldı. Söhbət Azərbaycanın ərazi bütövlüyünü təmin

etmək məqsədi ilə Azərbaycana edilən hərbi hücuma cavab olaraq əks-hücumdan getdiyindən xəbər verilsə də, hərbi gücün nümayişi Azərbaycanın güclü olduğunun sübutu idi. 2010 -cu ildə hərbi xərclər 1.42 milyard dollara yüksəldi ki, bu da 2004 -cü ildəki hərbi xərclərdən təxminən üç dəfə çoxdur. Bundan əlavə, Azərbaycanın 2010 -cu ildə etdiyi 1,41 milyard dollarlıq hərbi xərclərin miqdarı Ermənistanın eyni il üçün dövlət büdcəsini üstələmişdir.[3] Dağlıq Qarabağ müharibəsindən sonra (1995-2010-cu illər arasında) atəşkəsdən bəri hər iki ölkənin hərbi xərclərə ayırdığı büdcə müqayisə edildikdə; Belə çıxır ki, Ermənistan 3,4 milyard dollar, Azərbaycan isə 11 milyard dollar xərcləyib. Sözügedən dövrdə Azərbaycan, Ermənistanla müqayisədə təxminən dörd dəfə çox hərbi xərc çəkdi. Xüsusilə 2006 -cı ildən etibarən Azərbaycanın hərbi xərclərində əhəmiyyətli artım müşahidə olunurdu. Bunun səbəbini diplomatik kanallar vasitəsilə problemin sülh yolu ilə həllini tapa bilməməsi və buna görə də Azərbaycanın getdikcə hərbi variantda həll axtarması kimi şərh etmək mümkündür. Hərbi ədəbiyyatda, müvəffəqiyyətli bir hücum həyata keçirmək üçün, hərbi baxımdan düşmənin üç qat böyüklüyündə bir qüvvənin olması lazım olduğu ifadə edilir. Azərbaycanın hərbi büdcəsi, silah idxalı və daxili müdafiə sənayesini inkişaf etdirmək üçün ayırdığı maliyyə mənbələri Ermənistandan üç qat böyük bir hərbi gücə çatmasına imkan verir.

Bu gün mövcud beynəlxalq hüquqi nizamda güc tətbiq etməyin yeganə qanuni forması özünümüdafiədir. Birləşmiş Millətlər Təşkilatı Dağlıq Qarabağdakı erməni işğalına qarşı Baş Assambleyanın dörd qətnaməsinin işğalı aradan qaldırmağa təsir etmədiyindən və uzun

müddətdir davam edən bütün diplomatik həllər nəticə vermədiyi üçün Azərbaycan öz müdafiə hüququndan istifadə etmək hüququna malik idi.Təbii ki, artan iqtisadiyyat, silahlı qüvvələrin güclənməsi və mənəviyyat qələbədən xəbər verirdi.

İkinci Qarabağ müharibəsi ilə, 28 ildir ki, Dağlıq Qarabağ münaqişəsində Azərbaycana tətbiq olunmağa çalışılan status-kvo dərindən sarsıldı. Türkiyə-Azərbaycan qardaşlığının bu sahədə necə nəticə verə biləcəyi başda Ermənistan olmaqla bütün dünyaya göstərildi. Qarabağda yeni bir dövrə damğa vuran bu müharibənin nəinki Qarabağ və ya Qafqaz kontekstində, həm də qlobal səviyyədə təsirləri oldu. Xüsusilə Qarabağa baxdıqda, Türkiyə-Azərbaycan əməkdaşlığının Ermənistanın işğaldan azad edilmiş torpaqlarda illərdir davam edən işğalçılıq siyasətinin izlərinin silinməsi baxımından qısa müddətdə hansı nəticələr verəcəyi görüləcək. Erməni qüvvələri geri çəkilərkən etdikləri vəhşiliklər aradan tez bir zamanda qaldırıldı. Azad edilmiş torpaqlarda yolların və infrastrukturun yaradılması və tarixi irsin bərpası üçün Azərbaycanla Türkiyə birlikdə islahatlar aparacaq. Beləliklə, köçkün azərbaycanlıların azad edilmiş torpaqlarına qayıtmaları qısa müddətdə təmin olunacaq. Regional baxımdan bölgədəki yenidən qurulan tarazlıqların sülh və sabitlik gətirməsi mümkündür. Hazırda bölgədə Ermənistanın istisna olduğu bir çox sabitləşdirmə təşəbbüsü var. Nəqliyyat və enerji ötürmə infrastrukturu bölgədə böyük irəliləyiş əldə etdi. Otuz il ədalətsiz və qanunsuz bir işğalı davam etdirərək Ermənistan bu cəhdlərin xaricində qaldı.[3]

Yeni dövrdə Ermənistan rəhbərliyinin iki yolu var: yeni təxribatlar əlavə edərək təcavüzkar siyasətini davam etdirəcək və ya xalqının rifahını, bölgənin təhlükəsizliyini və sabitliyini nəzərə alaraq təcavüzkar siyasətinə son qoyacaq və diplomatik həll yoluna yönələcək. İrəvan rəhbərliyi birincini seçərsə, 44 günlük müharibədə baş verənlərə baxaraq nəticə ilə bağlı ipuçlarını asanlıqla başa düşmək olar.[3] İkinci yolu seçərsə, bölgədə sülh və əmin -amanlıq mühiti yaradılacaq və bu vəziyyətdən ən çox faydalanan ölkələrdən biri olacaq.Türkiyə və Azərbaycan prezidentləri keçirdikləri mətbuat konfransında Altı Platformanı təklif etdilər. 10 noyabr 2020 -ci il tarixində Ermənistan ikinci variantı seçməlidir. Cənubi Qafqazda sabitliyin təmin edilməsi üçün edilən bu təklif, Türkiyə ilə Azərbaycanın yeni dövrdə bölgəyə baxışlarını ortaya qoyur. Əslində, hələ də işğal altında olan Azərbaycan torpaqları olsa da, regional sabitlik üçün Ermənistana qapı açıq qaldı və Beş Platformanın yerinə Altı Platforma təklif edildi. Hər şeydən əvvəl, Türkiyə ilə Azərbaycan arasında sahədəki əməkdaşlığın praktiki nəticələri təkcə ikitərəfli münasibətlər və ya bölgə baxımından deyil, həm də dünya miqyasında mənalıdır. Torpaqların haqsız və qanunsuz işğalının sonsuza qədər davam etməyəcəyi mesajı torpaqları işğal altında olan xalqlar və dövlətlərə çatdırılmışdı. Xüsusən də illərdir bu problemi uzadan BMT və Minsk Qrupu həmsədrlərinə baxmayaraq, problemin alternativ həll yollarının tapıla biləcəyi və lazım olduqda tənlikdən kənarda qala biləcəkləri nümayiş etdirildi.

**Ədəbiyyat**

1.ALKAN, Haluk. Azerbaycan Paradoksu, USAK, Ankara, 2010.

2.KISSINGER, Henry. Diplomasi, Çev: İbrahim H.KURT, İstanbul, Türkiye İş Bankası Kültür Yayınları, 2004. 4.NEEF, Christian. Kafkasya: Rusya’nın Kanayan Yarası, çev: Özalp Göneralp, Yeni Hayat Kütüphanesi, İstanbul, 2004.

3.Yukarı Karabağ’da 44 Günde Gelen Zafer: TÜRKİYE-AZERBAYCAN KARDEŞLIĞININ NIŞANESI

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
ADU
Docendo discimus
öyrədərək öyrənirəm
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

Mustafayeva Lamiyə
Azərbaycan Dilər Universiteti

# VƏTƏN SAVAŞINDA PİLOTSUZ UÇUŞ APARATLARINDAN İSTİFADƏ VƏ ONUN NƏTİCƏSİ

**Açar sözlər:** Azərbaycan ordusu, İkinci Qarabağ Savaşı, pilotsuz uçuş aparatları.

**Key words:** Azerbaijani Army, Second Karabakh War, Unmanned Aerial Vehicles.

**Ключевые слова:** Азербайджанская армия, Вторая Карабахская война, беспилотные летательные аппараты.

27 sentyabr 2020-ci il tarixində Ermənistan Silahlı Qüvvələrini təxribat törədərək cəbhəboyu Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində, Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verildi. Qarşıdurmalar nəticəsində Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycanda isə hərbi vəziyyət və komendant saatı, 28 sentyabrda qismən səfərbərlik elan edildi. Qarşıdurmalar qısa müddətdə sürətlə alovlanmış və İkinci Qarabağ müharibəsi-zəfərlə sona çatan Zəfər savaşı başlamışdı [1]. Düzgün siyasət, vahid komandanlıq, qüsursuz

döyüş nəticəsində Azərbaycan böyük irəliləyişlərə imza atdı. Əlbətdə ki, 44 günlük müharibə pilotsuz uçuş aparatlarının istifadəsi öz nəticəsini göstərdi. Müharibə ərzində "Harop" zərbə pilotsuz aparatlarından, o cümlədən İsraillə birgə Azərbaycanda istehsal olunan "Zərbə" dronlarından və digər PUA-lardan, o cümlədən Bayraktar TB2" zərbə pilotsuz təyyarələrindən geniş istifadə edildi.

TB2 dronları vasitəsilə Azərbaycan Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv etdi. Türkiyənin operativ-taktiki, orta yüksəklikdə uçan qırıcı milli pilotsuz döyüş təyyarəsi "Baykar Makina" şirkəti tərəfindən istehal edilmişdir. Asqısında dörd raket olan Bayraktar TB2 pilotsuz uçan aparatı 12 saat səmada qala bilər. Bu, havada daima növbədə olmağa, hədəflərin aşkarlanması halında tez bir zamanda cəbhə xəttinə yaxınlaşaraq raket zərbəsi endirməyə imkan verir. Qeyd etmək lazımdır ki, SPUA hərbi aviasiya ilə müqayisədə daha çevikdir və dar zaman çərçivəsində hədəfləri effektiv şəkildə vurmağa imkan verir. Bayraktar TB2 PUA-sı ilk dəfə 2016-cı ildə kürd terrorçu dəstələrinə qarşı tətbiq edilmişdir. İlk döyüş tətbiqi PUA-nın xarakteristikalarını təsdiqləyir. 2019-cu ildə TB2-dən Liviyada Haftarın qoşunlarına qarşı istifadə olunmuşdur. 2020-ci ilin fevralında TB2-dən Türkiyə Silahlı Qüvvələrinin Suriyanın İdlib vilayətində həyata keçirilən «Bahar qalxanı» əməliyyatında da geniş şəkildə istifadə edilib [2]. İkinci Qarabağ müharibəsində böyük şöhrət qazanan "Bayraktar TB2" PUA-larına dünyada maraq getdikcə artdı.

Ümumiyyətlə, dronlar həm düşmənin texnikasına və canlı qüvvəsinə dəqiq zərbələrin endirilməsi, həm də artilleriya atəşini

korreksiya etmək və kəşfiyyat aparmaq məqsədləri ilə tətbiq olunur. Belə dronlarda biri də “Harop”dur – İsrail Aerokosmik Sənayesi tərəfindən istehsal edilən kamikadze dron. “Harop” anti-radiasiya kateqoriyasına aid olub, hədəfin yaydığı radiodalğalara kilidlənərək özünü həmin hədəfə vurur. Həm avtonom olaraq özününün radar siqnallarını qəbul edən sensorları vasitəsilə hədəfi tapır və məhv edir, həm də yerüstü idarəetmə mərkəzindən idarə olunur. Əgər hədəf aşkarlanmazsa, dron özü avtomatik olaraq bazaya qayıdır. Dron dizayn olunarkən radar ölçüsünün kiçik olması nəzərdə saxlanılıb. Bu cür kiçik dronlar düşmənin əsas hava hücumundan müdafiə sistemlərinə demək olar ki, görünməz olduqlarına görə onlardan asanlıqla yayınırlar və buna görə də döyüşdə ilk sırada göndərilirlər. Beləliklə, düşmənin radar bazalarını, hava hücumundan müdafiə sistemlərini yararsız vəziyyətə saldıqdan sonra digər dost təyyarələr düşmən hava hücumundan müdafiə sistemləri tərəfindən vurulmaq riski daha az şəkildə düşmən ərazisində əməliyyatlara başlayırlar [3].

Döyüşlərdə, həmçinin, Azərbaycanın milli dronu olan "Zərbə" PUA-larından da istifadə olunmuşdur. “Zərbə” PUA-larındakı xüsusi izləmə mini optik kamerası istisna olmaqla (kamera Çindən idxal olunur) tamamilə yerli istehsaldır. “Zərbə” pilotsuz uçuş aparatı gecə və gündüz, istənilən hava şəraitində sərbəst şəkildə düşməni izləmək və ona zərbə endirmək imkanına malikdir. Partladıcı gücə malik yeni aparat, eyni zamanda, qəlpəli fuqaslı piyada əleyhinə, müxtəlif texnikaya və canlı qüvvəyə qarşı effektivdir. “K1-Zərbə” həm kəşfiyyat, həm də düşmənin canlı qüvvəsini məhv etmək üçün nəzərdə tutulmuşdur. Çəkisi 10 kq olan “Zərbə” atılan yerdən 100-110 km uça

bilir və 2 saat havada qala bilir. 60km/saat sürətlə yuxarıdan aşağıya doğru şığıyanda isə sürəti 400 km/saat da ola bilir. Heç bir radar buna nəzarət edə bilmir. Həmçini “K1-Zərbə”nin geri qayıtması da mümkündür. Belə ki, geri qayıdan zaman alt hissədə olan paraşüt açılır və yerə düşə bilir. Onun 1000 metr hündürlükdə, ümumiyyətlə, gözlə görünməsi mümkün deyil. Aparat maksimum 4000 metr uçur. Aparatın 4 min fuqas tipli qəlpələri var. Aparat əməliyyat baxımından xüsusi avadanlıqlarla təchiz edilmiş yüksək keçid qabiliyyətinə malik "K1-Zərbə” mobil xüsusi zirehli maşına quraşdırılıb və istənilən zaman düşmənə sarsıdıcı zərbə endirə bilər [4].

Qeyd edə bilərik ki, İkinci Qarabağ savaşı dünya müharibə sənəti tarixinə “dronlar müharibəsi” kimi daxil olmuşdur. Müharibə tərəflərindən biri olan Azərbaycan dünya tarixində ilk dəfə olaraq, bu qədər zərbə və kəşfiyyat pilotsuz uçuş aparatlarından istifadə edib. Müharibədə qalib olmağın başlıca faktoru isə Azərbaycan əsgəri və zabitinin igidliyi, hərbi komandanlığın savadlılığı, həmçinin Ali Baş Komandan İlham Əliyevin istisnasız böyük rolu olması idi. Azərbaycan Prezidenti İlham Əliyev həm dövlət başçısı, həm də Ali Baş Komandan kimi Azərbaycanda mövcud olan hakimiyyət modelinin effektli olduğunu, ümumilikdə qeyri-səmərəli, bacarıqsız və korrupsiyaya bulaşmış Ermənistan rejiminin fonunda Azərbaycan dövlətinin nə qədər effektli olduğunu göstərdi. Vətən müharibəsinin uğurlu sonluğu bölgədə qüvvələr nisbətini dəyişdi, yeni reallıq yaratdı. İndi biz tək deyilik. Qardaş Türkiyə artıq yanımızda, siyasi masadadır. Qarabağda atəşkəsə türk əsgəri də nəzarət edəcək. Ankaradan ən yüksək səviyyədə

mesajlar gəlməkdə davam edir: biz Azərbaycanın yanında olmağa davam edəcəyik. Bu siyasi-mənəvi dəstək gücümüzə güc qatır, Ermənistanın havadarlarını müdaxilədən çəkindirir. Dünyadakı çoxsaylı münaqişələrin və müharibələrin gedişinə nəzər salsaq görərik ki, son nöqtəni güclü tərəf qoyur. Azərbaycan xalqının Qarabağ uğrunda 44 günlük Vətən müharibəsi buna ən yeni nümunədir. Ötən 17 ildə güc topladıq, düşmənin başını dəmir yumruqla vurub əzdik. Otuz il davam edən işğala, ədalətsizliyə 44 gündə son qoyuldu.

**Ədəbiyyat siyahısı**

1.https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html

2. Bayraktar TB2 - tarix yazan Azərbaycan Ordusunun səmadakı yumruğu

3.https://az.wikipedia.org/wiki/IAI_Harop

4.wiki.az/news/140621/azerbaycanin-milli-dronu-zerbenin-xususiyyetle

Şəfəq Fərman qızı Mustafayeva

Azərbaycan Dillər Universiteti

## 44 Günlük İkinci Qarabağ Müharibəsində Fransanın Cənubi Qafqaz siyasəti

**Açar sözlər**: Fransa, İkinci Qarabağ müharibəsi, ATƏT, Minsk qrupu

**Key words:** France, the Second Karabakh War, OSCE, Minsk Group

**Ключевые слова**: Франция, Вторая карабахская война, ОБСЕ, Минская группа

2020-ci il sentyabrın 27-də Ermənistanın hücumuna cavab olaraq başlayan Vətən müharibəsi "Dəmir Yumruq" əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə başa çatdı. Müharibə dövründə ATƏT-in Minsk qrupunun həmsədri olan, münaqişə tərəflərinə tarazlı mövqedən yanaşmayan və öz mandatına uyğun gəlməyən bəyanatlar verən Fransa təcavüzkarı, separatizmi dəstəkləməyə çalışdı. İstər müharibə dövründə, istərsə də post münaqişə dövründə Fransa tərəfindən Azərbaycanın siyasi iradəsinə təsir etmək cəhdləri nəticəsiz qaldı.

Qeyd edək ki, 2016-cı il aprel hadisələrindən sonra da Fransanın ATƏT-in Minsk qrupunun üç həmsədr ölkəsindən biri olaraq vasitəçi qismində tərəfsiz və qərəzsiz mövqe nümayiş etdirməmişdi. Beləki, 2017-ci il martın 8-9 da Fransaya rəsmi səfər edən Ermənistan prezidenti ilə görüşdə Fransa prezidenti Fransua Olland atəşkəsi pozan tərəfə qarşı

sanksiya tətbiq etməyin mümkünlüyünü ifadə etdi. Azərbaycanın ərazilərini işğal edən Ermənistana qarşı hər hansı bir sanksiyanın tətbiqinin mümkünlüyünə toxunmayan Fransa, indi atəşkəsi pozan ölkəyə qarşı sanksiya tətbiqi məsələsi gündəmə gətirilməyə cəhd etdi. Bu məqam, ATƏTin Minsk qrupunun üç həmsədr dövlətdən biri olan Fransanın əsas missiyasının Azərbaycanın təcavüzə məruz qalmış ərazi bütövlüyünün bərpası deyil, sadəcə münaqişə bölgəsində atəşkəsin qorunması olduğunu niyyətini göstərir.

Vətən müharibəsi dövründə Fransanın Azərbaycana qarşı münasibətinə 4 müstəvidən nəzər salaq:

Birinci, Beynəlxalq hüquq müstəvisindən – Azərbaycanın beynəlxlaq hüquq çərçivəsində tanınmış ərazilərini işğaldan azad etməsinə Fransa düzgün mövqedən yanaşmadı. Həmin dövrdə, Fransa parlamenti artıq mövcud olmayan "Dağlıq Qarabağ"ın müstəqilliyini tanımaq üçün qətnamə lahiyəsini müzakirəyə çıxartdı. Bundan əlavə, ermənipərəst mövqeyi ilə tanınan Paris meriyası Ann Mari İdalqo da analoji addım atmağa cəhd etdi.

Qeyd edək ki, Fransada parlament iki palatadan ibarətdir. Milli məclis və Senatdan. Hər palatada deputat birlikləri -fraksiyalar var, Fransada belə birliklər siyasi qurumlar adlanır. Fraksiyalar aşağı palatada ən azı 20 deputat, yuxarı palatada isə ən azı 14 senatordan ibarət tərkibdə yaradılır. Bu birliklər (fraksiyalar) öz məqsədləri haqqında bəyanamə (bəyanat) dərc etdirməlidir. Fraksiyaların mütənasib təmsilçiliyi əsasında palatanın bürosu və daimi komissiyalar yaradılır. Fraksiya sədrləri fraksiyaların siyasi xəttini müəyyən edir. Başqasının əvəzinə səsvermənin reqlamentlə qadağan olunmasına baxmayaraq, bəzən fraksiya sədrləri öz

fraksiya üzvlərinin elektron tablosunun açarına malik olmaqla onların əvəzinə də səs verirlər [1; s.501, 503].

Bir sözlə, Fransa prezidenti Emanuel Makron bu növ sənədləri sanksiyalaşdırmaqla həm qondarma rejimin ləğv olunmuş statusnu aktuallaşdırmaq, həm də məsələnin həllini ATƏT-in Minsk qrupu çərçivəsində nəticəsiz danışıqlar müstəvisinə qaytarmaq istəyirdi. Bəs bu Fransaya nə üçün lazım idi? Çünki prezidentliyi dövründə Emanuel Makronun Fransa bir çox böhranlarla üzləşdi:

- Sosial, iqtisadii cəhətdən (sarı jiletlilərin etiraz aksiyaları və s.)
- Frankofoniya çərçivəsində sülhməramlı qüvvələr yaratmaq niyyətinin reallaşmaması
- Afrikanın şimalında, cənub şərqində, cənub qərbində Fransanın nəzarətində olan ölkələrin bir-bir Fransanın nəzarətindən çıxması
- Növbəti prezident seçkilərində Makronun fransa vətəndaşı olan erməni seçicilərinin səsini toplamağa ehtiyac

İkinci, münaqişənin həllində region dövlətlərinə qısqanc münasibət müstəvisindən- Münaqişənin nizamlanmasında kənarda qalan Fransanın regionda Rusiya və Türkiyənin münaqişənin həlli istiqamətində fəallığını özünün regionda geosiyasi maraqlarına zərbə kimi görür.

Bu tezisi 12.11.2020- ci il tarixində dərc olunan Fransanın Lopinion qəzetindəki Dağlıq Qarabağ müharibəsinin hərbi dərsləri başlıqlı məqaləsi daha da gücləndirir. “Artıq tam aydın olan bir məqam var başda ABŞ və Fransa olmaqla Qərb ölkələri Qarabağla bağlı diplomatik oyunlardan kənara atıldılar. 1993-cü ildən bəri Minsk qrupunun 3 həmsədri – ABŞ, Fransa, Rusiya- bu münaqişənin həlli ilə bağlı məsuliyyıt

daşıyırlar. Onlar uğursuzluğa düçar oldular. İkinci Qarabağ mühaibəsinin nəticələri Türkiyəyə qarşı aşkar şəkildə Ermənistanı dəstəkləyən Fransanın faktiki olaraq Suriya və Liviyadan sonra növbəti uğursuzluğudur. Qarabağ müharibəsi hələ uzun müddət Fransa Müdafiə Nazirliyi tərəfindən təhlil ediləcək. Xüsusilə də hərbi məktəblərdə Azərbaycan ordusu barəsində deyə bilərik ki, yetərincə yaxşı səviyyə nümayiş etdirdilər" [2 ].

Üçüncü, ATƏT-in Minsk qrupu həmsədri çərçivəsi müstəvisindən- Fransan mandatına uyğun olmayan, qeyri-obyektiv, qərəzli, ermənipərəst siyasət nümayiş etdirdi. Azərbaycan ictimaiyyəti haqlı olaraq Fransanı ATƏT-in Minsk qrupunun həmsədri olaraq münaqişənin həllində faktiki, praktik, defakto, de jure heç bir addım atmadı, əksinə Parisin Separatçıları dəstəkləməsinə dair addımlarını, separatçı rejimin keçmiş rəhbəri Bako Saakyanın Fransaya səfəri, fransız merlərinin və bələdiyyə rəhbərlərinin Qarabağa qanunsuz səfərlərini dəstəkləməsini əsas gətirərək üzərinə götürdüyü öhdəliyə hörmətsizlik etdiyini bildirərək mandatının geri alınmasını təklif etdilər.

Dördüncü, Avropa İttifaqı müstəvisindən- Fransa qəbul edilmiş qətnamələrdə Azərbaycanın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını qəbul edib. Qeyd edək ki, Ermənistan- Azərbaycan arasında baş verən 44 günlük müharibədən sonrakı dövrdə Avropa İttifaqının region ölkələri ilə əməkdaşlıq imkanları genişlənib.

**İstinad olunmuş ədəbiyyat siyahısı**

1. V.Y.Çirkin. Xarici ölkələrin konstitutsiya hüququ. Bakı 2007.s.720

2. Haut-Karabakh : les leçons militaires de la guerre. 11 novembre 2020. https://www.lopinion.fr/blog/secret-defense/haut-karabakh-lecons-militaires-guerre-228810

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
ADU
Docendo discimus
öyrədərək öyrənirəm
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

Lamiyyə Namazova
Azərbaycan Dillər Universiteti

**ZƏFƏR PARADINA APARAN TARİXİ HADİSƏLƏRƏ QISA BAXIŞ**

Açar sözlər: Azərbaycan, Ali Baş Komandan, Qarabağ

Ключевые слова: Азербайджан, Верховный главнокомандующий, Карабах

Keywords: Azerbaijan, Supreme Commander-in-Chief, Karabakh

Azərbaycanın ərazi bütövlüyü o cümlədən, Dağlıq Qarabağ torpaqlarının Azərbaycan Respublikasının tərkib hissəsi olması beynəlxalq hüquq normalarına əsasən bütün dünya tərəfindən tanınır. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ötən əsrin 90-cı illərinin əvvəllərində ərazimizin təxminən 20 faizi işğal edilmiş, xalqımız etnik təmizlənməyə məruz qalmış və 1 milyondan çox azərbaycanlı öz əzəli yurd-yuvasından qaçqın və məcburi köçkün düşmüşdü. Azərbaycan Respublikası münaqişənin həlli üsulu kimi ilk öncə danışıqlar aparmağı üstün tutsa da, danışıqlar səmərə verməyincə qalan yeganə çıxış yolu – hərb yolu ilə Cənab Ali Baş Komandanımızın rəhbərliyi altında Zəfər paradına uzanan şərəfli bir tarix yazıldı.

Qarabağda qazanılan zəfərə 3 əsas məsələ üzərindən yanaşa bilərik: Aprel döyüşləri və ya Dördgünlük müharibə (2016-cı il, 1-5 aprel), Günnüt əməliyyatı (2018-ci il, 20-27 may) və Tovuz döyüşlərində (2020-ci il, 12-23 iyul) qazanılan qələbənin əhəmiyyəti; 44 günlük müharibədə ön və arxa cəbhədə görülən işlər; Azərbaycan Resublikasının Prezidentinin Vətən müharibəsinin gedişində diplomatiya sahəsində beynəlxalq ictimaiyyətə

verdiyi dərs və istər ölkə daxilində, istərsə də xaricdə yaşayan Azərbaycan xalqının nümayəndələrinin Qararabağ məsələsində nümayiş etdirdiyi birlik.

Ordumuzun Aprel, Tovuz döyüşləri, uğurlu Günnüt əməliyyatı Azərbaycanın 44 günlük müharibədə qazanmış olduğu Böyük Zəfərin ilk işartıları olmuşdu. Düşmənin təxribatlarından səbr kasası dolmuş Azərbaycan xalqının gözlədiyi an 2020-ci il sentyabrın 27-də saat $06^{00}$ radələrində baş verən ermənilərin növbəti təxribatı zamanı yetişdi – 44 günlük Vətən müharibəsi başlandı. Bu andan Ali Baş Komandanın ətrafında dəmir yumruq kimi birləşən müdrik xalqımızın birlikdən doğan gücünü, ruh yüksəkliyini Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sosial çağırışları və çıxışları günü-gündən daha da artırmış, mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət kimi gözəl xüsusiyyətlərlə bu ciddi vəzifənin öhdəsindən layiqincə gələ biləcəyimizə şübhə qalmamışdı.

44 günlük müharibə dövründə Prezident İlham Əliyevin 30-a yaxın xarici KİV-inə verdiyi müsahibələri şərti olaraq Türkiyə KİV-inə verilən müsahibələr, Qərb KİV-inə verilən müsahibələr, Rusiya KİV-inə verilən müsahibələr, Ərəb KİV-inə verilən müsahibələr kimi qruplaşdırmaq olar. Bu müsahibələrdə dövlət başçısı Azərbaycanın haqlı mövqeyini, müharibənin başlanma səbəblərini sistemli şəkildə, siyasi uzaqgörənliklə auditoriyanın diqqətinə çatdırdı. Bəşər tarixinin son onillikləri müharibələrlə dolu olsa da, heç bir dövlət başçısı həmin müharibə dövründə çox sayda aparıcı KİV-in maraq dairəsinə düşməyib. Bu baxımdan cənab İlham Əliyevə müsahibə üçün dünyanın bir çox tanınmış

media qurumlarının müraciət etməsi, ilk növbədə, Azərbaycan Prezidentinin nüfuzlu lider olmasından, həm də Dağlıq Qarabağ probleminə olan diqqətin hansı səviyyədə olmasından xəbər verirdi [6]. Təsadüfi deyil ki, Prezident İlham Əliyev 2021-ci il fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında bu müsahibələrin əhəmiyyətini bir daha qeyd etdi [5]. Döyüş meydanının qalibi olan Müzəffər Ali Baş Komandan İlham Əliyev informasiya savaşında da qalib oldu və düşmənin haqsız maraqlarını müdafiə edən qüvvələrin nümayəndələrinə tutarlı cavablar verərək həm Ermənistanın, həm də erməni lobbisinin Azərbaycana qarşı qərəzli informasiya mühiti yaratmaq xülyasını iflasa uğratdı [7].

44 günlük haqlı savaşımız müddətində diaspor təşkilatlarımıza və xaricdə yaşayan həmvətənlərimizə Diasporlarla İş üzrə Dövlət Komitəsi tərəfindən beş dəfə – 27 sentyabr, 4 oktyabr, 21 oktyabr, 7 noyabr və 10 noyabr tarixlərində müraciət ünvanlandı. Azərbaycan əsgəri ilə ürəkləri bir döyünən dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar əlbir olaraq dezinformasiya mühasirəsindən məharətlə çıxa bilmiş, qəhrəman ordumuzun haqq işi uğrunda apardığı müharibədə qazandığı tarixi qələbə ilə əlaqədar dünya ictimaiyyəti diasporumuz tərəfindən mütəmadi olaraq məlumatlandırılmışdır [2, s.10; 12].

Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-dən Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri (4 oktyabr) və rayonun 90 kəndi, Füzuli şəhəri (17 oktyabr) və rayonun 53 kəndi, Zəngilan şəhəri (20 oktyabr), rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi (9 oktyabr)

və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri (25 oktyabr) və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri (8 noyabr), Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik azad edildi. 2020-ci il 10 noyabr tarixində Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatına əsasən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonunun Azərbaycana təhvil verilməsi ilə rayonun işğal edilmiş 73 faiz ərazisi azad olundu. Ərazi baxımından respublikamızın ən böyük rayonlarından biri, 147 yaşayış məntəqəsi olan Kəlbəcər rayonu isə əldə olunan razılığa görə 10 gün gec – noyabrın 25-də Azərbaycan təhvil verildi. Nəhayət, 1 dekabr 2020-ci il tarixində bir şəhər, bir qəsəbə və 125 kəndi olan Laçın rayonu azad edildi [8]. 10 noyabr bəyanatında tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəyi də öz əksini tapdı [3; 9, s.505-506].

Hərbi əməliyyatlar nəticəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 2907 hərbi qulluqçusu şəhid olmuş, 7 nəfər isə itkin düşmüşdür [11]. Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən dekabrın 7-dək Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 100 nəfər həlak olmuş, 416 nəfər isə xəsarət almışdır [1].

2020-ci il dekabr ayının 10-da Bakının Azadlıq meydanında İkinci Qarabağ müharibəsində qazanılmış qələbəyə həsr olunan “Zəfər paradı” ilə əldə edilən qalibiyyət əbədiləşdirildi. “Dəmir yumruq” əməliyyatına – Azərbaycanın Vətən müharibəsindəki möhtəşəm qələbəsinə həsr olunmuş Zəfər paradında 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi [4]. Zəfər paradında Türkiyə Cumhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirakı bir daha “Bir millət, iki dövlət” şüarınının parlaq nümunəsi oldu. Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur. Göstərilən dəstəyin zirvəsi isə 2021-ci il iyunun 15-də Qarabağda – Prezident İlham Əliyev Sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərində tərəflər arasında “Şuşa Bəyannaməsi”nin imzalanması oldu [10].

Vətən müharibəsində qalib gələn Azərbaycan xalqının öz Ali Baş Komandanına, Ordusuna, əsgərinə inamı, görülən koordinasiyalı və səmərəli iş müharibədən zəfərlə çıxmağımızla nəticələndi. Biz Ali Baş Komandanın “İrəli” əmri ilə şərəfli tarixi adımızı – “Qalib xalq” adımızı özümüzə qaytardıq! Azərbaycan xalqı vaxtında və düzgün atılan addımlar sayəsində dəmir yumruq kimi birləşərək düşmənin belini qırdı, düşmənin başını əzdi. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, məhv

edildi. İndiyə qədər beynəlxalq ictimaiyyətin görməzdən gəldiyi bir həqiqəti artıq bütün dünya görür və görəcəkdir: Qarabağ əbədi və əzəli Azərbaycan torpağıdır! Qarabağ Azərbaycadır!

İstinad olunmuş ədəbiyyat

1. Baş Prokurorluq: Ermənistanın təxribatları nəticəsində 100 mülki şəxs həlak olub, 416 nəfər yaralanıb // xalqqazeti.com/az/news/65613
2. Hacıyev, V. Dünya azərbaycanlılarının bir bayraq altında fəaliyyəti prioritet vəzifəmizdir. Xalq qəzeti, 19 yanvar 2021. № 12, s. 10.
3. İlham Əliyev xalqa müraciət edib. 10 noyabr, 2020-ci il // president.az/articles/45924
4. İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər. 10 dekabr, 2020 / president.az/articles/48788
5. İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib. 26 fevral, 2021 / president.az/articles/50738
6. İnformasiya savaşının sərkərdəsi. 31.03.2021 / https://www.azerbaijan-news.az/posts/ detail/informasiya-savasinin-serkerdesi-1617135993
7. İnformasiya savaşının sərkərdəsi. 02.04.2021 / https://www.azerbaijan-news.az/posts/detail/informasiya-savasinin-serkerdesi-1617309175

8. İşğaldan azad olunan şəhər, qəsəbə və kəndlərimiz. 1 dekabr 2020 // mod.gov.az/az/news/isgaldan-azad-olunan-seher-qesebe-ve-kendlerimiz-28583.html
9. Səlimbəyli, Ş. Azərbaycan tarixinin zəfər salnaməsi. Bakı: Avropa, 2020, 512 s.
10. Şuşa Bəyannaməsinin TAM MƏTNİ 16 iyun, 2021-ci il // report.az/ xarici-siyaset/susa-beyannamesinin-tam-metni/
11. Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı. 14 iyul, 2021 // mod.gov.az/az/news/veten-muharibesinde-sehid-olmus-herbi-qul luqcularin-siyahisi-36783.html
12. 44 gündə diaspor nələr edib? 05.07.2021 / axar.az/news/musahibe/ 570652.html

*Nəbiyev Orxan*
*Azərbaycan Dillər Universiteti*

# QARABAĞIN BƏRPASI: SOSIAL-IQTISADI INKIŞAF PERSPEKTIVLƏRI

**Açar sözlər:** Qarabağ, Zəngəzur, Sosial-iqtisadi inkişaf, yenidənqurma, beynəlxalq əməkdaşlıq.

**Ключевые слова:** Карабах, Зангезур, Социально-экономическое развитие, восстановление, международное сотрудничество.

**Key words:** Karabakh, Zangezur, social-economic development, reconstruction, international cooperation.

İlk növbədə qeyd etmək lazımdır ki, XXI əsrin hərbi əməliyyatlarını, şəxsi heyətin cəsarətini və gücünü nümayiş etdirən Azərbaycan 44 gün ərzində böyük bir qələbə qazandı. II Qarabağ müharibəsi birincilər kimi uzun illər sürmədi və Azərbaycan Ermənistanın işğalçı qoşunlarını tamamilə məğlub etdi. Bu şanlı zəfərin arxasında Azərbaycanın güclü hərbi-siyasi idarəçiliyi, iqtisadiyyatı və düşünülmüş islahatların durduğu heç kəsə sirr deyil.

Yeni yaranan şərtlər logistik imkanları ön plana keçirdi ( The Impact of COVID-19 on Logistics, International Finance Corporation, World Bank 2020. Page). Buna əsaslanaraq demək olar ki, Azərbaycanın Avropa ilə Asiya arasında, eyni zamanda Şimali Avrasiya ilə Hind Okeanı arasında əsas ticarət qovşağı rolunu oynamaq üçün bir vəzifəsi var. Regionda logistik ticarət qovşağını qurulması üçün davamlı sülhə nail

olmaq vacibdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu məsələni açıq şəkildə bildirmişdi. (İlham Əliyevin iştirakı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda müzakirələri keçirilib. https://president.az/articles/51583).

Yeni infrastruktur layihələri BMT-nin davamlı inkişaf məqsədlərinə uyğun olaraq, təmiz, yaşıl enerji ilə qidalanacaq ağıllı kənd, ağıllı şəhər modelinə uyğun qurulmaqdadır ("Azerbaijan Accelerates Development of 'Smart Village' and 'Smart City' Projects." Caspian News. Accessed July 18, 2021. https://bit.ly/2YHcowQ), (Rep. Smart Villages in Azerbaijan. World Bank Publications, 2021. https://bit.ly/3EcKGbB).

Bu modellərin qurulması üçün işğaldan azad olan torpaqlarda logistik vahidlərin düzgün inşası və istismarı vacibdir. Bura həm mövcud yolların müasir tələblərə uyğun yenidən qurulması və eyni zamanda da ərazidə yeni yolların (Zəfər Yolu, Toğana-Kəlbəcər-Laçın-Zəngilan yolu) layihələrini icraata götürdü. İşğaldan azad olan ərazilərin iqtisadi dirçəlişinin və daha sonra bu potensialın sosial sahəyə yönəldilməsi məqsədi ilə həyata keçirdiyi digər bir addım da işğaldan azad olan ərazilərimizdə 3 yeni hava limanının tikilməsini başlıca məqsəd qoydu. İlk baxışdan qeyri-real görünsə də Azərbaycan bir daha sübut edə bildi ki, bu mümkündür və tikintiyə başlanan gündən cəmi altı ay sonra Azərbaycan ilk Füzuli Beynəlxalq hava limanını tamamladı və 5 sentyabr dünyaya bunu göstərdi.(Landmark Development: AZAL's "KARABAKH" aircraft landed at Fuzuli Airport

https://bit.ly/3tzR6fY). Digər iki hava limanı da Zəngilan və Laçın rayonlarının ərazisinə düşür. Bu hava limanlarının da tikintisi artıq başlamışdır (Laçın və Zəngilan hava limanlarının texniki göstəriciləri açıqlanıb. “Report” informasiya agentliyi 3 sentyabr 2021. https://report.az/infrastruktur/lacin-ve-zengilan-hava-limanlarinin-gostericileri-aciqlanib/).

Eyni zamanda da bu logistik potensial Avrasiya Şərq-Qərb ticarət xəttinin əsas hissəsdir. İşğaldan azad olunan ərazilərin bərpası sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə iqtisadi rayonlar üzrə yenidən bölünməsi məsələsi labüd amil idi. Bu səbəbdən də 7 iyul 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu məqsədlə “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı”nı imzaladı: “Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.” (Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 07 iyul 2021, https://president.az/articles/52389).

İşğaldan azad olunan ərazilərin yeni iqtisadi bölgələrdəki yerini təhlil edərkən iki amilə nəzər yetirilməldir. İlk amil təbii ki, sözügedən məsələnin siyasi tərəfidir. Şərqi Zəngəzur tarixi adının qaytarılması, gələcəyə hesablanan addımdır. Eyni zamanda da iqtisadi ərazilərin

bölgüsündə logistik yolların bölüşdürülməsinə diqqət yetirilməlidir. Şərqi Zəngəzur iqtisadi rayonu Azərbaycanın qərb qapıları – Türkiyəyə və tədricən Avropaya gedəcək malların çıxış nöqtəsi olacaqdır. Ermənistan ərazisindən keçən logistik magistrallar Şərqi Zəngəzur rayonunun nəzarətində olacaqdır.

Bir il keçməsinə baxmayaraq işğaldan azad olan ərzilərin yenidənqurulması ilə və əhalinin öz yurdlarına qayıtması artıq reallığa çevrilmədədir. Belə ki, Şuşa və Ağdam şəhərlərinin baş planları artıq təsdiq edilib. (İlham Əliyev Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində iştirak edib, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. https://president.az/articles/51777; Prezident: "Şuşanın Baş Planı təsdiq edilib". 30 avqust 2021. https://apa.az/az/xeber/resmi-xeber/prezident-susanin-bas-plani-tesdiq-edilib-659122)

Beynəlxalq əməkdaşlığa gəlincə bir çox dövlətlər – Türkiyə, Pakistan, İsrail, Macarıstan, İran, İtaliya, Böyük Britaniya, ABŞ şirkətləri işğaldan azad olunan ərazilərə sərmaye yatırmasında maraqlı olduqlarını bildiriblər.

Bütün bunlar sosial və mədəni nəticələrlə müşayiət olunacaqdır. Aparılan islahatlar bütün aspektləri - hüquqi, iqtisadi, sosial, təhsili, texnologiyanı və intellektual bazanı əhatə etməlidir.

Azərbaycan bütün ərazisi ilə 21-ci əsrə - yeni (IV) sənaye inqilabının, yüksək texnologiyaların, yeni dünya nizamı və düşüncəsi dövrünə qədəm qoyur.

Hərbi əməliyyatlar zamanı Azərbaycan xalqı və onun rəhbərliyi müharibəyə, həmrəyliyə və qətiyyətə tam hazır olduğunu göstərdi.

**İstifadə olunmuş istinadlar:**


1. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 07 iyul 2021, https://president.az/articles/52389
2. Ceyhun Bayramov Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri ilə görüşüb. https://apa.az/az/xeber/xarici-siyaset/ceyhun-bayramov-seudiyye-erebistani-kralliginin-investisiya-naziri-ile-gorusub-649641
3. İlham Əliyev Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində iştirak edib, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. https://president.az/articles/51777
4. İlham Əliyevin iştirakı ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin “Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri” adlı videoformatda müzakirələri keçirilib. https://president.az/articles/51583
5. Laçın və Zəngilan hava limanlarının texniki göstəriciləri açıqlanıb. “Report” informasiya agentliyi 3 sentyabr 2021. https://report.az/infrastruktur/lacin-ve-zengilan-hava-limanlarinin-gostericileri-aciqlanib/
6. Prezident: “Şuşanın Baş Planı təsdiq edilib”. 30 avqust 2021. https://apa.az/az/xeber/resmi-xeber/prezident-susanin-bas-plani-tesdiq-edilib-659122
7. “Azerbaijan Accelerates Development of ‘Smart Village’ and ‘Smart City’ Projects.” Caspian News. Accessed July 18, 2021. https://caspiannews.com/news-detail/azerbaijan-accelerates-

development-of-smart-village-and-smart-city-projects-2021-4-20-0/.

**8.** Landmark Development: AZAL’s “KARABAKH” aircraft landed at Fuzuli Airport. https://azertag.az/en/xeber/Landmark_Development_AZALs_KARABAKH_aircraft_landed_at_Fuzuli_Airport-1868773

**9.** Rep. Smart Villages in Azerbaijan. World Bank Publications, 2021. https://openknowledge.worldbank.org/bitstream/handle/10986/35468/Smart-Villages-in-Azerbaijan-A-Framework-for-Analysis-and-Roadmap.pdf?sequence=1&isAllowed=y.

**10.** The Impact of COVID-19 on Logistics, International Finance Corporation, World Bank 2020. Page 3.

**Zəfər Nuri oğlu Nəcəfov**
**Silahlı Qüvvələrin Hərbi Akademiyası**

# POSTMÜNAQİŞƏ DÖVRÜNDƏ CƏNUBİ QAFQAZDA YENİ GEOSİYASİ REALLIĞIN İMPERATİVLƏRİ

**Açar sözlər:** İkinci Qarabağ müharibəsi, reinteqrasiya, atlantizm, neosmanizm
**Ключевые слова:** Вторая карабахская война, реинтеграция, атлантизм, неоосманизм
**Keywords:** Second Karabakh war, reintegration, atlanticism, Neo-Ottomanism

İkinci Qarabağ müharibəsi adını almış altı həftəlik silahlı qarşıdurma Azərbaycanın şanlı qələbəsi ilə sona çatdı. Münaqişənin başa çatmasından sonra regionda başlanmış geosiyasi oyunların əsas imperativləri aşağıdakılar hesab edilir:

## 1. MDB-nin reinteqrasiyası planı: postsovet məkanının cənub sərhədlərini tam nəzarətə götürmək.

İkinci Qarabağ müharibəsindən qalib çıxan dövlətlər arasında Rusiya da yer alıb və onun əldə etdiyi geosiyasi nailiyyətlər aşağıdakılar hesab edilir:

1. Rusiya fərdi şəkildə 44 günlük qanlı müharibənin qarşısını almaqla bir daha postsovet məkanında dominant qüvvə olduğunu və məlum münaqişənin həlli açarının məhz onun əlində olduğunu nümayış etdirmiş oldu. 1992-ci ildə Azərbaycandan hərbi bazasını çıxartmağa məcbur olmuş Rusiya yenidən sülhməramlı qüvvə qismində Dağlıq Qarabağda fəaliyyətini bərpa etmiş oldu.

2. Rusiya fərdi vasitəçiliyi ilə Minsk Qrupunun digər həmsədr ölkələri – ABŞ və Fransanı, bütüövlükdə isə ATƏT-in məlum qurumunu “offsayda” saldı və beləliklə əsas rəqibi olan ABŞ-ın münaqişəyə təsir imkanlarını bloklamış oldu. Bu, İranın da milli təhlükəsizlik maraqlarına cavab verir.

3. Rusiya bir tərəfdən Ermənistan rəhbərliyini qərbpərəst mövqeyinə görə cəzalandırdı, digər tərəfdən də Qarabağda mühasirədə qalmış 25 minlik erməni ordusunu ağır məğlubiyyətdən qurtarmaqla xilaskar imici qazandı.

4. Bu savaşın nəticələrinə görə Rusiya Ermənistanla Azərbaycan arasında kommunikasiyaları açmaqla regionda Gürcüstanın nəqliyyat-kommunikasiya hegemonluğuna son qoymuş olacaq. Laçın və Zəngəzur dəhlizlərindən anklav (Dağlıq Qarabağ) və eksklava (Naxçıvan) gediş - gəlişə Rusiya nəzarət edəcək.

Deməli Rusiya 10 noyabr Üçtərəfli bəyanatına görə, MDB-nin cənubunda yeganə ölkə olan Azərbaycanda öz hərbi iştirakını bərpa etməklə bu məkanda rolunu gücləndirib, atlantistlərin regionda təsir imkanlarını zaiflətməyə nail olub, strateji kommunikasiya xəttlərini nəzarətə götürüb, Türkiyəni öz tarixi nüfuz dairəsinə buraxıb və İran üçün nisbətən təhlükəsiz şərait yarada bilib, Gürcüstanı isə yaxın perspektivdə “regional logistik hab” funksiyasından məhrum etmək planını hayata keçirib.

Bakı ilə İrəvan arasında diplomatik münasibətlərin olmaması, Qarabağda Rusiya sülhməramlılarının iştirakı Ermənistan-Azərbaycan dialoqunun bütün spektrində - sərhəd demarkasiyasından tutmuş kommunikasiyanın açılmasına qədər və s. Moskva üçün əsas vasitəçi kimi

"fürsət pəncərəsi" yaradır. Bu fürsətdən istifadə edərək, Rusiya regional sabitliyin üç sütununu - beynəlxalq səviyyədə tanınmış ərazilərin bütövlüyünü, əhalinin təhlükəsizliyini və iqtisadi inkişafını öz üzərinə götürməklə bu mürəkkəb bölgədə uzunmüddətli təsirini təmin edə bilər [2].

## 2. Neoosmanizm və panslavizm geobloku: antiatlantizm demarşı.

Tarixən Cənubi Qafqazda geosiyasi proseslərdə Türkiyə fəal iştirak edib. XVIII əsrin əvvəllərindən XX əsrin 20-ci illərinədək regiona təsir uğrunda gedən imperiyalararası müharibələrdə Osmanlı Türkiyəsi əsas rəqiblərdən biri olub. "Soyuq müharibə"nin süqutundan sonra Türkiyə yenidən Cənubi Qafqaz uğrunda geosiyasi rəqabətə qoşulmaq imkanı əldə etdi.

Türkiyənin Cənubi Qafqaz siyasəti iqtisadi, enerji və mədəni komponentləri əhatə edən kompleks xarakterilidir. Onun əhəmiyyətli bir istiqaməti mədəni və təhsil komponentidir. Türkiyənin müasir qlobal siyasətdə rolunun artmasını həzm edə bilməyən bəzi xarici tədqiqatçılara görə, həmin siyasət "pantürkizm"in elementlərini özündə cəmləşdirən "neoosmanizm" siyasətinə söykənir. Həmin ideya Türkiyənin keçmiş Osmanlı ərazilərindəki təsirinin genişlənməsinə və tarixi qüdrətinin geri qaytarılmasına istiqamətlənib. [5, 295].

2019-cü ildən başlayaraq Türkiyə tərəfindən müəyyən məsələlərin həllində güc amilinin əhəmiyyətinin artdığı nəzərə çarpır [4, 9-10]. Bunu Türkiyənin Suriya, Liviya, Şərqi Aralıq dənizi bölgəsi və Kipr ətrafında davranışında, Avropa İttifaqından (Aİ) uzaqlaşmaq, NATO ilə artan fikir

ayrılıqları, Dağlıq Qarabağ münaqişəsinə qarışmasında görmək olar. Türkiyənin fəallığı ilə müşahidə edilimiş 44 günlük qarşıdurma Cənubi Qafqazda türk ekspansiyasını leqallaşdırdı [3,107].

Rusiya Türkiyənin İkinci Qarabağ Müharibəsində fəallığına göz yummaqla ondan Suriya və Liviyada ABŞ və Aİ üzvlərinə qarşı, həmçinin NATO daxilində "beşinci kolon" qismində istifadə etməkdə və atlantist cəbhəsini daxildən sarsıtmaqda maraqlıdır. Beləliklə, neosmanizm və panslavizm (Rusiya) dueti regionda atlantizmin dayaqlarının laxlamasına və geosiyasi proseslərdən kənarlaşmasına xidmət edir. Lakin bu duetin özünün davamlı olacağı ehtimal edilmir.

**3. Atlantizmin revanş planları.**

Rusiyanın Minsk Qrupundakı digər həmsədr ölkələri nəzərə almadan Qarabağda müharibəni dayandırması ABŞ və Fransanı əməlli - başlı narazı salıb. Onlar bununla hesablaşmalı olsalar da, incikliklərini məlum sülhün pozulması istiqamətində atılan addimlar və qəbul edilmiş qərarlarla büruzə verirlər. Fransa, Niderland, Belçika və Lüksembur parlamentlərinin postkonflikt dövründə Ermənisanın lehinə sənəd qəbul etməsi, ABŞ-ın erməni soyqırımını tanıması bu qəbildən olan hərəkətlər hesab edilir. Bu azmış kimi 20 may 2021-ci ildə Avropa Parlamentində "Ermənistan və Azərbaycan arasında sonuncu münaqişədən sonra hərbi əsirlər" adlı qəbul edilmiş qətnamə açıq-aşkar erməni isterikasının Fransadakı təzahürü və bunun məhz Paris vasitəsilə Avropa İttifaqı kimi əhəmiyyətli quruma daşınması anlamını daşıyır. Qətnamənin dili, "ruhu" da göstərir ki, onu hazırlayanlarda Azərbaycana qarşı kin, nifrət son həddədir, Avropada isə bunun əsas daşıyıcısı Fransadır [1].

Avropa İttifaqının ərazisi erməni vandalizmi nəticəsində dağılmış Azərbaycana 150 mln. avro, işğalçı Ermənistana isə 2,6 mlrd.avro ayırması ikili standartların və erməni simpatiyasının, antitürk və antirus mövqeyinin aşkar nəticəsidir.

Aralarında ciddi fikir ayrılıqlarına baxmayaraq, ABŞ/Aİ tandeminin Türkiyədən tamamilə əl çəkməsi real görünmür. Bu NATO-nun aşkar iflasına (ABŞ-dan sonra alyansda ikinci böyük orduya Türkiyəyə malikdir) və Avrasiyada daha təhlükəli antiamerikan məhvərinin yaranmasına gətirə bilər.

Türkiyəyə qarşı ABŞ/Aİ tandeminin Rusiya ilə yaxınlaşması da hələlik az ehtimal ediləndir. Bunu son illər ərzində Suriya, Liviya və İraqda, habelə Vətən müharibəsindən sonra Cənubi Qafqazda tərəflər arasında dərinləşməkdə olan rəqabətdən görmək mümkündür. Hazırda atlantistlərin 10 noyabr sülh sazişini pozmaq cəhdləri ilk növbədə Rusiyanın vasitəçiliyinə ağır zərbə hesab edilir. Rusiyanın buna imkan verəcəyi ağılbatan görünmür. Bunun üçün Rusiya Ermənistanı öz təsir dairəsində bərk-bərk saxlamağa və Türkiyənin ABŞ/Aİ ittifaqi ilə barışmasına imkan verməməklə onu öz tərəfinə çəkməkdə davam edəcək.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Azərbaycana qarşı Fransa-İran cəbhəsi – Bu iki ölkəni bizə qarşı birləşdirən "dəyər" nədir?..: [Elektron resurs] / – Bakı, 23.05.2021. – http://pia.az/azerbaycana-qarsi-fransa-iran-cebhesi-%E2%80%93%C2%A0bu-iki-olkeni-bize-qarsi-birlesdiren-deyer-nedir-..-403297-xeber.html

2. Ипполитов Дмитрий. Новая архитектура влияния России на Южном Кавказе: [Электронный ресурс] / Москва, 9 января 2021,

– https://www.rosbalt.ru/world/2021/01/09/1881265.html

3. Когут В.Г., Нурышев Г.Н. Карабахский узел геополитических противоречий
на Южном Кавказе // Евразийская интеграция: экономика, право, политика. Москва, 2021. № 1. С. 104 – 111.

4. Маркедонов Сергей, Каледжи Вали, Хас Керим. Слом статус - кво и международное измерение кризиса в Нагорном Карабахе. / - Москва, Фонд развития и поддержки Международного дискуссионного клуба «Валдай», - 2020. – 32 с.

5. Суванова М.С. Политика Турции на Южном Кавказе/ Проблемы постсоветского пространства. – Москва, 2018; 5(3), С. 284–297.

Nəsibli Svetlana Arif qızı
Mingəçevir Dövlət Universiteti

# QARABAĞ MÜNAQİŞƏSİ DÖVRÜNDƏ ŞUŞADA AZƏRBAYCAN ƏDƏBİYYATININ VƏ MƏDƏNİYYƏTİNİN DƏYƏRLİ İRSLƏRİNƏ QARŞI TÖRƏDİLMİŞ ERMƏNİ VANDALİZMİ

Açar sözlər: Qarabağ, ədəbiyyat, abidə, mədəniyyət, erməni vandalizmi

Key words: Karabakh, literature, monument, culture, armanian vandalism

Ключевые слова: Карабах, литература, памятник, культура, армянский вандализм

**Turana qılıncdan daha kəskin, ulu qüvvət,**
**Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!**
**Hüseyn Cavid**

Tarixi faktlar dönə-dönə təsdiqləyir ki, erməni işğalçıları Azərbaycanın maddi-mədəniyyət abidələrini viran etmiş, öz vəhşiliklərini nümayiş etdirmişlər. Torpaqlarımızı 30 ilə yaxın müddətdə işğal altında saxlamış ermənilərin Qarabağda törətdikləri dağıntıların miqyası hər kəsə məlumdur. Azərbaycan mədəniyyəti, incəsənəti, ədəbiyyatında xüsusi əhəmiyyətə malik çoxsaylı maddi-mədəni irs nümunələri də erməni vandalizminin qurbanı olmuşdur. Həmin maddi-mədəni irs nümunələrini aşağıdakı kimi sadalaya bilərik: Qarabağ xan sarayı; Xan qızı Natəvanın

sarayı; Yuxarı Gövhər ağa məscidi və Aşağı Gövhər ağa məscidi; Saatlı məscidi və Cümə məscidi (Ağdam); Vaqif türbəsi; Bülbülün ev muzeyi (Şuşa) və s.

Qarabağın döyünən ürəyi, mədəniyyət, incəsənət ünvanı olan Şuşa şəhərinin Dövlət Musiqili Dram teatrı, Şuşa şəhərindəki tarix diyarşünaslıq muzeyi, Qarabağ dövlət tarix muzeyi, Üzeyir Hacıbəyovun, Bülbülün, Mir Möhsün Nəvvabın xatirə muzeyləri və s. dağıdılmış, talan edilmişdir.

Şuşa Dövlət Tarixi-Memarlıq Qoruğuna yüzlərlə tarixi abidəmiz daxil olsa da onların çoxu işğal dövründə erməni vandalizminin qurbanına çevrilmişdir [2, s.63-64].

Azərbaycanın məşhur şairi Molla Pənah Vaqifin xatirəsini əbədiləşdirmək məqsədilə Şuşada tikilmiş movzeley AMEA-nın həqiqi üzvü, sənətşünaslıq doktoru Ə.V.Salamzadə və əməkdar müəllim E.İ.Kanukovun layihəsi əsasında ərsəyə gəlmişdir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Qarabağ xanının vəziri, diplomat və şair Molla Pənah Vaqifin xatirəsinin əbədiləşdirilməsi üçün türbə-movzeley tikilməsi sovet dövründə Azərbaycanın milli kimliyinin, qədim tarixinin təsdiqi baxımdan mühüm addım idi. Binanın tikintisi 1982-ci ildə başa çatmış və abidənin açılışında ümummilli lider Heydər Əliyev iştirak etmişdir. Vaqif türbəsi Şuşanın memarlıq, incəsənət üslubuna xüsusi gözəllik, rəngarənglik qatmış bir abidədir. Lakin 1992-ci il 8 mayından 2020-ci il noyabrın 8-dək erməni işğalında olan digər abidələr kimi bu movzeley də dağıdılmışdır.

Şuşada mənfur düşmənlər tərəfindən məhv edilən abidələrindən biri Azərbaycanın xanım şairi xan qızı Xurşidbanu Natəvanın büstüdür.

Bu qəbirüstü abidə 1982-ci ildə heykəltəraş Namiq Dadaşov tərəfindən hazırlanmışdır. Tuncdan hazırlanmış büst işğal dövründə düşmən tərəfindən yararsız hala gətirilmiş, daha sonra ondan maddi gəlir əldə etmək üçün Gürcüstana aparılmışdır. Azərbaycan dövlətinin müdaxiləsi ilə Xurşidbanu Natəvanın büstü alınaraq Bakıda İncəsənət muzeyində himayə edilmişdir. Bülbül, Üzeyir Hacıbəyov kimi korifey sənətkarlarımızın eyni taleli büstləri də İncəsənət Muzeyində saxlanmışdır.

Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun 8 noyabr 2020-ci il tarixində Qarabağın incisi və mədəniyyət mərkəzi sayılan Şuşa şəhərini işğaldan azad etdi. Bu tarixi hadisə nəticəsində Azərbaycan xalqı öz tarixi torpaqlarına qovuşdu, eyni zamanda erməni vandalizminə məruz qalmış, güllələnmiş heykəllərin, tarixi abidələrimizin Şuşa həsrətinə son qoyuldu. 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu tarixi ədaləti bərpa etməyə müvəffəq oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq tapşırıqları ilə tarixi abidələrimizin bərpası həyata keçirilir. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı 14 yanvar 2021-ci il tarixində Şuşaya səfəri zamanı M.P.Vaqifin türbəsini ziyarət etmiş və abidənin əvvəlki möhtəşəmliyinə qovuşması üçün təmir-bərpa işlərinin sürətlə aparılması istiqamətində göstərişlər vermişdir.

Artıq “Güllələnmiş heykəllər” kimi tanınan, erməni vandalizminin şahidləri olan Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri öz evlərinə, yurdlarına qovuşmuşdur. İndi onların ruhu şaddır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirmişdir ki, dahi şəxsiyyətlərimizin büstlərinin Şuşaya qaytarılması bizim qələbəmizin rəmzidir: "Tarixi ədalət bərpa olunur. Xürşudbanu Natəvan, Üzeyir bəy, Bülbül milli ruhumuzun təcəssümüdür. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayıb və əbədi yaşayacaqdır. Qarabağ Azərbaycandır!" [3].

Erməni vandalizminin qurbanı olmuş Azərbaycan mədəniyyəti nümunələrinin bərpası, qorunması daim dövlətimizin rəhbərliyinin nəzarətindədir və bu iş uğurla davam edir. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə Şuşa şəhərində Xarıbülbül Musiqi Festivalının, Vaqif Poeziya günlərinin keçirilməsi Azərbaycanın maddi və mənəvi irsinə verilən yüksək dəyəri bir daha nümayiş etdirir.

Ədəbiyyat:

1. Alməmmədov X.İ. Qarabağın arxeoloji abidələri toplusu. I kitab. Bakı: "Çap Art" nəşriyyat evi, 2016, 448 s.

2. Məmmədov N. "İşğal altındakı tarixi-dini abidələrimiz". Bakı: "Nurlar" nəşriyyat-poliqrafiya mərkəzi, 2015, 96 s.

3. Fərəcova Zöhrə. Güllələnmiş heykəllər yurduna döndü. http://azerbaijan-news.az saytı,

Niyazi Mehdi

*Azərbaycan Dillər Universiteti*

# DÜNYANI, ƏN ƏSASI ERMƏNİLƏRİ MAT QOYAN AZƏRBAYCAN SAVAŞI

**Açar sözlər:** *Müharibə, təəccüb, Qarabağ, azərbaycanlılar. ermə nilər.*

**Keywords:** *War, surprise, Garabag, Azeries, Armenians.*

**Ключевые слова:** *Война, удивление, Гарабаг, азербайджанцы, армяне.*

Ortaçağ müsəlman mədəniyyətində tez-tez dəyərli eyləmlər və düşüncələr "adamı mat qoydu" reaksiyasında verilir. Antik dünyada Aristotelin sözləri yayılmışdı ki, insanın fəlsəfəyə əl atmasının nədəni təəccüb duyğusundan başlayır. Deməli, Ərəstuna görə, insanda təəccüblənmək şakəri olmasaydı, fəlsəfə yapmaq da ağlına gəlməzdi. Müsəlman, konkret, Azərbaycan mədəniyyti Aristotel ideyası ilə səs-səsə verən inama tutulmuşdu:bütün müdrik düşünclər, hərəkətlər, bütün gözəlliklər adamı mat qoyurlarsa, elənçi olurlar. Təəccübün universal jesti barmağı dişləmək idi. Bu üzdən «təəccübləndi» sözünün sinonimi kimi «filankəs barmağını dişlədi» deyimini söyləyirdilər. Bu hətta miniatür şəkillərinə də keçmişdi: nəyinsə arxasından xəlvətcə boylanıb baxan adamın təəccübünü barmağını dişləməsi ilə görükdürürdülər.

1.1. 44 günlük Vətən savaşı gerçəklik qatında başlayıb sürsə də sanki Azərbaycan dövləti tərəfindən Aristoteldən, Ortaçağ mədəniyytimizdən gələn təəccüb doğuran tekst kimi qurulmuşdu. Derrida deyərdi ki, hər nəsnə tekstdir. Bu anlamda 44 günlük Vətən savaşını da

tekst adlandırmaq olar və sonra söyləmək olar ki, bu tekst Dövlət və Ali baş komandan tərəfindən təəccüb paradiqmasında biçilib yapılmışdır.

1.2. Nə insanı təəccübləndirir? İnformasiya nəzəriyysinə görə gözlənməz olanlar. Gözlənməzliyin riyazi düsturu belə bir ideyaya söykənir: nəyin olması o birisinin olmasından  az güman edilirsə, o birisinin olmasından daha çox gözlənməz olur. Deməli, o birisindən daha təəccüblü olur. Bütün mədəniyyət sanki anti-gözlənməzlik paradiqmasında qurulur və insana gərəkli olmasını  bununla anladır. Normalar, qanunlar, törənlər, gələnəklər – hamısı insan ilişgilərini proqnozlaşan sürəcə salır. Hətta siyasətdə də nə və necə edəcəyi proqnoz olunan dövlət daha yaxşı partnyor sayılır. Karl Popperə görə, dövlətin iqtisadi davranışı da gözlənməz olmamalıdır, yəni qəfildən, tutalım, vergi qanununu dəyişdirməməlidir, öncədən iş adamlarını xəbərdar etməlidir ki, işlərini bilib ölçü götürsünlər.

1.3. O biri yandan, mədəniyyətin anti-gözlənməzlik pafosuna qarşı insanın, elə mədəniyytin də təəccüblənməuk grəyi durur. Gözlənməzik olmayan yerdə təəccüb də ölür. Bütün sənət estetik yeniliyi gözlənməzlik «qrammatikasnda» yapır. Hətta kanonk sənətdə də bütün təkrarçılığa baxmayaraq nəyinsə yapılmasının çətinliyi gözlənməzlik yaradır. Muğamın zəngulələri çətindir, kim bunu misilsiz bacarıqda edirsə, mat qoyur. Ortaçağda miniatür şəkillərini çəkmək çox çətin idi, bu üzdən hər şəkil misilsiz görünürdü və ya öyülmək üçün misilsiz adlandırılırdı.

1.4. Deməli, bir kulturoloji qanunu formulə etmək olar. Mədəniyyət mahiyyətcə stabillik verən mexanizmdir. Ancq stabilliyin ölgünlük gətirmək qorxusu var. Bu üzdən mədəniyyət sənət, oyunlar

araçılığı ilə gözlənməzliklə oynayır. Mühariblər gözlənməzlik oyunlarından istifadə edən ən qorxunc sahədir.

2.0. 44 günlük Vətən savaşı bir daha göstərdi ki, bizdə öz millətimiz və gəncliyimiz haqqında olan düşüncələr çox prozaik imiş, yəni gündəlik yaşamın olağanlıq ritmi, darıxdırıcılığı, əxlaqi ziddiyyətləri, bir-birini bəynməz adamları, gənclərin pasionar görünməməsi onlar haqqında düşüncələrimizdə çox bədbin stereotiplər yaradır. Hətta Mübariz İbrahimovun igidliyi belə bu stereotipin yanlışlığı düşüncəsinə gətirməmişdi. Vətən savaşı millətimiz və gəncliyimizlə bağlı bu stereotipi darmadağın etdi. Çoxlarımız millətimizdən olan adamların və gənclərin vətən uğrunda fədakarlığına mat qaldı. Savaş bizi bizə bilmədiyimiz yöndən tanıtdı və bu gözlənməzlik özümüzü özümüzə təəccüblü etdi.

2.1. Azərbaycan ordusunun yüksək hazırlığı hamımız üçün gözlənməz oldu. İri işləri gizlətmək olmur. Ordunun texniki imkanlarını, yüksək döyüş peşəkarlığını indiki kəşfiyyat-izləmə vasitələri ortamında gizlətmək mümkün deyil. Ancaq Azərbaycanda bu sirr elə qapalı saxlanlmışdı ki, hətta bizim vəzifəsinə görə xəbəri olmalı olan yetkililər üçün də ordumuz, gənclərimiz təəccblü oldu. Hamının «ağzı yırtıq» olduğu bu dünyada heç kim bilmirdi ki, Azərbycan ordusu axıracan gedəcək. Ona görə də qələbəmiz hamını mat qoydu.

2.2. Azərbaycan prezidentinin ermənilər barış danışıqları uzansa savaşla hədələməsi ermənilərə, ruslara və avropalılara poker oyunundakı blef kimi görünürdü. Savaşın 3-4 gündən sonra dayanmayıb davam etməsi hamını mat qoydu.

2.3. Azərbaycan prezidenti Ali baş komandan İlahm Əliyev ermənilər, ruslar və avropalılar tərəfindən həddən artıq mülki adam kimi qavranılırdı. 44 günlük savşda o hamını hərbi strateq və siyasi istedad kimi mat qoydu.

3.0. Ermənilər azərilərlə bağlı öz miflrinin qurbanı oldu Bir mif o idi ki, Azərbaycanda yeni nəsil artıq bununla barışıb ki, Qarabğ itirilib. İkinci mif o idi ki, azərilər alverçi, ermənilərsə döyüşkən xalqdır. Üçüncü mifsə o idi ki, Rusiya və Batı Azərbaycan prezidentinə basqı yapsa, o geri çəkiləcək, ona görə də o bunu bilib sürəkli savaşa girişməz. Ermənilərin bu inamını və gözləntiləri dağıtığı üçün Azərbaycan prezidenti və ordusu onları mat qoydı. Ancaq bu təəccüb təbiii ki, erməniləri estetik ləzzətə yox, dərin mənəvi böhrana uğratdı.

3.1. Azərbaycanlılarda tarixən ermənilər haqqında «bic millət», «bacarıqlı millət» düşüncə qəlibi formalaşıb. 44 günlük savaşdan sonra bu qəliblər dağıldı: erməni politoloqların, bloqerlərin çoxluğu düşüncə və siyasi mədəniyyət baxımından aşağı səviyyədə bəlli oldu.

3.2. Erməni özünə vurğunluğunun baş simvolları olan qədimlik, Xristian dünyasının forpostu olması, bəşəriyyətin əsas qenetik kodundan biri olması kimi spekulyativ «icadlar» ciddi zərbələr aldı. Hamısı bayağılaşdı. Qarabağ klanının dəhşətli korrupsiyası, Ermənistan camaatının Qarabağ ermənilərinə münasibəti bizə və dünyaya gözlənməz olduğundan böyü təəccüb doğurdu.

3.3. Azərbaycan elmi erməni miflərini dağıtmaq məsələsində çoxlu işlər görməlidir.

3.4. Azərbaycan elmi «pis millət yoxdur» deyiminə yenidən baxmalıdır. Hər bir milli mədəniyyətin mahiyytində düşmnçilik və

humanizm başlanğıcı gizlənir. Ancaq ideoloqiyalar bu başlanğıclardan birini etginləşdirib qabarıq edə bilir. Erməni millətçiliyi erməni millətinin mahiyyətindəki düşmənçilik potensialını aktivləşdirdıiyi üçün azərbaycanlılarda bu millətə nifrət və qəzəb yaranıb. Biz bu qəzəbimizə, niərətimizə görə utanmamalıyıq. Yaralarımsız qaysaqlanacan bu müqəddəs nifrəti saxlaya bilərik. Dağıdılmış Ağdam, Füzuli, Ermənistanın bizə, Türkiyəyə torpaq iddiaları tək-tük ermənінin xisləti deyil, ermənilərin çoxunun əqidəsidir. Ağdam, Füzuli, Xocalı qətliamına görə utanan, peştman olan təkəm-seyrək erməni tapılar. Bu üzdən bütün qonşular birləşib erməniləri xəstə psixoloqiyadan arındırmalıdır ki, onlar millət kimi nifrətlə qavranılmasınlar.

3.5. Qarabağ erməniləri bu deyilənləri gözə alıb öz psixologiyalarında əsaslı dəyişmə yapmlıdırlar ki, bizimlə birgə yaşaya bilsinlər.

**Gulbeniz Javadova Palali**

## Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycana dəstəyi*.

*Vətən Müharibəsi şəhidlərinə hörmətlə.*

**Açar sözlər**: Dağlıq Qarabağ, Qafqaz, Türkiyə, Azərbaycan, Rusiya, Ermənistan.

**Keywords**: Nagorno-Karabakh, Caucasia, Türkey, Azerbaijan, Russia, Armenia.

**Ключевые слова**: Нагорный Карабах, Кавказ, Турция, Азербайджан, Россия, Армения.

Azərbaycan Respublikası 1991-ci il 18 oktyabrda müstəqillik qazandı (1). Müstəqillik qazandıqdan sonra Azərbaycanın Ermənistanla arasında 1988-ci ildən davam edən Dağlıq Qarabağ münaqişəsi yenidən alovlandı. 1992-ci ildən başlayaraq daha da şiddətlənən Dağlıq Qarabağ müharibəsi 1994-cü ildə Heydər Əliyevin misilsiz səyləri nəticəsində imzalanan Atəşkəs anlaşmasıyla dayandırıldı (2). Münaqişə dondurulsa da, tam anlamıyla öz həllini tapmadı.

2020-ci ililn sentyabr ayında Ermənistan tərəfinin atəşkəsi pozması nəticəsində tarixə II Qarabağ müharibəsi adı altına düşen şanlı Vətən Müharibəsi başladı (3). Heç kəsə sirr deyil ki, Azərbaycan dövləti hər daim Türkiyə Dövlətinə güvənmiş və qardaş dəstəyini də hiss etmişdi. Hələ 1918-ci lidə Azərbaycan Xalq Cumhuriyətinin kömək istəməsi nəticəsində Osmanlı Dövləti Qafqaz İslam Ordusunu yaratmış və Nuru Paşa

* Dr. Gülbeniz Palalı. Erciyes Universiteti. gulbanizpalali@gmail.com.

komandanlığında Azərbaycana göndərmişdi. Nəticədə Nuru Paşa başda olmaqla yardıma gələn Qafqaz İslam ordusu 130 şəhid verərək Azərbaycan torpaqlarını, eləcə də Bakı şəhərini (1918 –cili 15 sentyabr) Erməni quldur birləşmələrindən azad etmişdi (4).

1918-ci ildə olduğu kimi 1980-ci illərin sonunda da Qafqaz regionunda öz müstəqilliyini bərpa etmiş Azərbaycan münaqişənin başlanğıcında ordu və silah baxımından əziyyət çəkirdi (5:564). Sovetlər zamanı hərbi işdə çox sayıda azərbaycanlının olmaması bu vəziyyəti daha da çətinləşdirdi. Erməniler Rus ordusundan qalma təhcizatla silahlanmışdı, Azərbaycan tərəfi ise ov tüfəngləri ilə mübarizə aparmağa məcbur olmuşdu.

1994-cü il Atəşkəs anlaşmasından sonra ərazi bütövlüyünün 20 faizi Ermeniler tərəfindən işğal olunmuş vəziyyətdə qalırdı (6). Münaqişənin sülh yolu ilə həll olunması üçün Fransa, ABŞ və Rusyanın iştirakı ilə yaradılmış ATƏT –in Minsk qurupu (7) isə demək olar ki, heç bir nailiyyət əldə etmir, hətta cəhd də göstərmirdi.

Torpaqlarının işğal altında qalması, vətəndaşlarının köçkün düşməsi və milli kimliyinin zədələnməsinə otuz il boyunca dözən Azərbaycan milləti və hökuməti hər nə olursa olsun, torpaqlarını geri alacağı ümidini itirmədi. “Azadliq verilmir, alınır” qayəsindən yola çıxan Azərbaycan II Qarabağ müharibəsində liderinin ağlı, əsgərlərinin qəhramanlığı, millətinin bir bütün olması nəticəsində şanlı qələbə qazandı. Prezident İlham Əliyev II Qarabağ müharibəsi qazilərini ziyaret edərkən çıxışında bildirmişdi: “Bu yeni nəsil müharibə üsuludur. Planlaşdırma, texniki təhcizat, müasir texnologiyalardan istifadə, əməliyyatların düzgün

aparılması, əsgərlərimizin döyüş qabiliyyəti və mənəvi ruhu birləşərək bizə bu qələbəni yaşatdı. Mən bunu dəfələrlə söylədim, qələbəni texniki imkanlar deyil, zabit və əsgər heyətimiz qazandı. Müharibənin qalibi əgərlərimizdir. Hər kəs bunu bilsin. Biz bir xalq olduğumuzu hər kəsə isbatladıq" (8). Azərbaycan Respublikasının prezidenti cənab İlahm Əliyevin bu sözləri ilə qələbə sayəsində Azərbaycanın milli kimliyinin bir Simurq quşu kimi necə yeniden dirilməsini görürük.

Bu haqq savaşında Azərbaycanın hər zamanki kimi yenə də ən böyük dəstəkçisi Türkiyə dövləti oldu. Hələ 16 avqust 2010-cu ildə Türkiyə ilə Azərbaycan arasında "Strateji Ortaqlıq və Qarşılıqlı Yardım Anlaşması" imzalanmışdı. Müqaviləyə görə tərəflər dost və qardaş ölkələr olaraq bir birlərinin suverenliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığının təmin olunması və qorunmasında əməkdaşlıq edəcəklərdi. Dövlətlərdən biri üçüncü bir dövlətin hücumuna məruz qaldıqda digəri, BMT Nizamnaməsinin 51-ci maddəsinə görə ona yardım göstərəcəkdi (9).

II Qarabağ müharibəsi başlayanda Türkiyə tərəfi bu müqaviləyə əsaslanaraq Azərbaycana yardım göndərmişdi. Müqavilənin şərtlərinə görə Türkiye Azərbaycan arasında əməkdaşlıq çərçivəsində tərəflərin müdafiə təyinatlı məhsullarla təhciz olunması, müdafiə təyinatlı məhsulların istehsalı, müdafiə təyinatlı məhsulların təqdim edilməsi nəzərdə tutulmuşdu (10). Bu əsaslara dayanaraq Türkiyə Azərbaycana insan və silah yardımı etmiş və müharibə sonrası isə bir sıra hərbi tətbiqatlara başlamışdılar (11).

44 gün boyunca davam edən döyüşlər zamanı Türkiyənin prezidenti Rəcəp Tayyib Ərdoğan hər çıxışında Azərbaycana dəstək

verəcəklərini, Azərbaycanın bütün istəklərinin yerinə yetiriləcəyini açıq şəkildə bildirmiş, Xarici İşlər Naziri Mevlud Çavuşoğlu, Müdafiyə Naziri Hulusi Akar, Türkiyə Böyük Millət Məclisinin spikeri Mustafa Şentop bu müddət ərzində bir neçə dəfə Azərbycana səfər etmişdi (12). Bütün bunlar Azərbaycanın haqq davasında qardaş Türkiyənin ona nə qədər dəyər verdiyini və hər zaman arxasında olduğunu bir daha sübut etmişdi.

Bundan əlavə, müharibə boyunca gördüyü dəstək və yardımdan sonra Azərbaycan Respublikasının prezidenti İlham Əliyev çıxışlarının birində “Azərbaycanda Türk ordusnun kiçik modelini yaradacağıq. Azərbaycana qarşı hər hansı bir təhdid olduğunda isə Türkiyə arxamızda olacaqdır” deyə açıqlama vermişdi (13).

Müharibədən sonra aparılan danışqlarında Azərbaycanın da qətiyyətli istəyinə əsasən Türk Silahlı Qüvvələrinin əsgər və zabit heyəti də Qarabağda sülhün nizama salınmasında yaxından iştirak edəcəkdi. Danışıqların nəticəsində Sülh anlaşmasına tərəflərin riayət etməsinə nəzarət etmək üçün 2020-ci ilin dekabrında ilk Türk əsgərləri Azərbaycana gəldi (14).

Beləliklə, 102 il öncə Qafqaz İslam Ordusundan sonra bu dəfə Azərbaycan torpaqlarına, qardaşlarına yardım məqsədiylə Türkiye Silahlı Qüvvələrinin əsgərləri gəldilər. Babaları kimi onlar da Azərbaycanın yardım çağırışına biganə qalmadılar (12).

Düzdür, 44 günlük Vətən Müharibəsi zamanı Azərbaycan bir sıra ölkələrdən maddi mənəvi yardım almış və haqq mübarizəsində yalnız olmadığının fərqinə varmışdı. Amma, qardaş Türkiyədən gələn yardımların anlamı çox böyükdür. Türkiyənin bu haqq savaşında

Azərbaycana yardım və dəstəyi sayəsində artıq bütün dünya “bir millət, iki dövlət” deyiminin nə olduğunu anladı.

**Ədəbiyyat siyahısı:**


1. Http://Www.Anl.Az/18oktyabr.Html
2. Dr. NazimCaferov - Araz Aslanlı. Karabağ sorununda ateşkes ve rusya. Ermeni Araştırmaları 2016, Sayı 53
3. https://www.bbc.com/news/world-europe-54314341
4. https://www.aa.com.tr/tr/dunya/baku-fatihi-nuri-pasa-/1584049
5. Azerbaycan Cumhuriyeti Devleti'nin Kuruluşunda Türkiye'nin Yardımları İlhak Amacına mı Yönelikti? Yrd. Doç. Dr. Selma YEL*
6. http://shamkir-ih.gov.az/page/66.html
7. https://www.osce.org/mg
8. https://tr.euronews.com/2020/11/18/dagl-k-karabag-da-nato-nun-zaferi-azerbaycan-n-kullerinden-dogusu-gorus
9. https://www.resmigazete.gov.tr/eskiler/2011/05/20110528M1-30-1.pdf
10. Dağlık Karabağ: Türkiye, Azerbaycan'ın askeri kapasitesini geliştirmesinde nasıl rol oynadı? - BBC News Türkçe
11. Türkiye ve Azerbaycan özel birliklerinin işgalden kurtarılan Laçın'daki ortak askeri tatbikatı sürüyor (aa.com.tr)
12. Türk askeri 102 yıl sonra yeniden Azerbaycan'da (aa.com.tr)
13. Azerbaycan Cumhurbaşkanı Aliyev: Azerbaycan'da Türk ordusunun küçük modelini oluşturacağız (aa.com.tr)

14. SON DAKİKA HABERİ: Tuğgeneral komutasındaki askerler Azerbaycan'a gitti | NTV

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
ADU
Docendo discimus
öyrədərək öyrənirəm
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

Piriyeva Tükəz Nadir qızı
Azərbaycan Dillər Universiteti

**Dövlət, Xalq, Ordu birliyi qələbə ilə nəticələndi**

Açar sözlər: gücümüz birliyimizdədir, tarix yeniləndi, qələbə qazandıq, Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!

Key words: our strength is in our unity, history changed, we won the victory, Karabakh i’s Azerbaijan! Long live Azerbaijan!

Ключевые слова: наша сила в нашем единстве, дата обновлена, мы выиграли, Карабах – это Азербайджан, Да здравствует Азербайджан!

Fikirlərimə  bu cümlələrlə başlamaq istəyirəm. İlk növbədə mən bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, qazilərimizə şəfa və bütünlükdə hərbçilərimizə can sağlığı arzulayıram. Onlar Azərbaycana şanlı qələbə qazandırdılar.Və bu qələbəyə görə biz onlara borcluyuq.

Azərbaycanın 2-ci Qarabağ müharibəsi ərəfəsində Azərbaycan-Ermənistan münaqişəsində, daha dəqiq desək, Azərbaycanın haqlı olaraq öz torpaqlarının müdafiəsinə qalxdığı bir zamanda Fransanın ATƏT-in MİNSK qrupunun həmsədr dövləti olaraq bu qrupun beynəlxalq hüquq normalarına qarşı çıxması və bu mövzuda qərəzli mövqeyi ziddiyyətli fikirlərə səbəb oldu. Fransız dili dərsliklərində demokratiyanı, hümanizmi tədris etdiyimiz bir halda Fransanın bu cür mövqe göstərməsi düşüncələrimizdə böyük təzadlar yaratdı. Unudulmamalıdır ki, Azərbaycan vətəndaşlarının da vaxtilə Fransa və Rusiya dövlətlərinin azadlıqları üçün böyük xidmətləri olub. Buna əyani misal olaraq

Əhmədiyyə Cəbrayılovun Fransa dövlətinin azadlığı uğrunda göstərdiyi qəhrəmanlığını və eləcə də onun timsalında bir çox vətəndaşlarımızı misal göstərə bilərik. Bildiyimiz kimi Əhmədiyyə Cəbrayılov 2-ci Dünya Müharibəsi zamanı Fransada partizan olmuş və Fransanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Həmçinin Rusiya uğrunda gedən döyüşlərdə də Sovet İttifaqı qəhrəmanları hamımıza yaxşı məlumdur. Yaxşı olardı ki, addım atmazdan əvvəl Rusiya və Fransa dövlətləri keçmişə nəzər salsınlar və bizim vətəndaşlarımızın vaxtilə onların ölkələri üçün etdikləri fədakarlığı unutmasınlar.

Mən bir Azərbycan vətəndaşı olaraq bildirmək istəyirəm ki, biz həmişə sülhün tərəfdarıyıq. Biz istəyirik ki, hamı sülh şəraitində yaşasın.

TF1, France 24 və digər beynəlxalq təşkilatların nümayəndələri Ağdamda və digər işğaldan azad olunmuş ərazilərimizdə keçən əsrin ən dəhşətli faciəsini – Xocalı faciəsini törədən erməni vəhşiliklərinin, barbarlıqlarının, Gəncədə, Bərdədə, Tərtərdə və digər bölgələrimizdə onların törətdikləri terror aktlarının bir daha öz gözləri ilə şahidi oldular. Mənfur düşmən bizim mülki əhaliyə, günahsız uşaqlara atəş açıb. Onlar bizim tarixi abidələrimizi dağıdıb. Azərbaycan Ermənistanın əksinə olaraq beynəlxalq hüquq normaları çərçivəsində, ən əsası öz hümanist mövqeyinə görə davranır. Azərbaycan hər bir dinin nümayəndəsinə hörmətlə yanaşır. Azərbaycan multikultural, tolerant ölkədir. Mən fəxr edirəm ki, Azərbaycanlıyam! Vətənini sevən bir şəxs kimi bu məsələdə biganə qalmayıb həmin dövrdə öz fikirlərimi fransız media və saitlərinə də çatdırmağı özümə borc bildim. Vətənini sevən bir azərbaycanlı olaraq bu məsələyə biganə qala bilməzdim və bütün azərbaycanlılar kimi mənim

üçün də bu qələbənin şahidi olmaq çox qürurvericidir.

Pezident İlham Əliyevin beynəlxalq arenadakı ictimai-geosiyasi mövqeyi müasir ordu quruculuğu sahəsindəki islahatları da bizi qələbəyə aparan uğurlarımızdan biri oldu.

Azərbaycanın mədəniyyət şəhəri olan Şuşa şəhəri uğrunda gedən döyüşlərdə hərbçilərimizin çətin coğrafi relyefdə sıldırımlı qayalıqlara əliyalın qalxaraq əlbəyaxa döyüş göstərmələri beynəlxalq media nümayəndələri tərəfindən xüsusi işıqlandırılmışdır. Məhz Qarabağda, xüsusən də Şuşada yetişən və şəhidlərimizin əziz xatirəsinin simvoluna çevrilən Xarıbülbül öz azad həyatına qovuşdu.

2-ci Qarabağ Müharibəsi bir daha dünyaya sübut etdi ki, Azərbaycan xalqı qalib xalqdır. Dünyanın ən nüfuzlu media orqanları da məhz 2020-ci ildə dünyada aparılan sorğu nəticəsində Azərbaycan xalqını dünyanın ən vətənpərvər xalq olduğunu təsdiqlədilər.

2-ci Qarabağ Müharibəsində PUA-larla (pilotsuz uçuş aparatları) savaşın aparılması dünya hərb tarixində bir yenilik oldu və dünyanın ən qabaqcıl ölkələri öz hərbilərində bu təcrübədən yararlanırlar. Bu ölkəmizin tarixində yeni tarix oldu və bu şanlı tarix barədə gələcək nəsillərə hələ çox danışılacaqdır.

Vətən müharibəsindəki qələbəmizdə bir millət, iki dövlət olan qadaş Türkiyə dövlətinin də mənəvi dəstəyi xüsusi qeyd edilməlidir. Ölkəmizdə qardaş Türkiyə və Pakistan dövlətlərinin bayraqlarının bayrağımızla birgə dalğalanması bizi qələbəyə daha da ruhlandırdı.

2020-ci il sentyabr ayının 27-də başlayan Vətən müharibəsində xalqımızın mərd övladları, eyni zamanda ölkəmizdəki azsaylı xalqların nümayəndələrinin də torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə

mərdlik göstərməsi bir daha Azərbaycan dövlətçiliyinin birliyini, birliyimizi dünyaya nümayiş etdirdi və prezidentimiz İlham Əliyevin dediyi kimi hamımız bir yumruq kimi birləşərək gücümüzü birlikdə göstərərək qələbə qazandıq.

Qarabağ Azərbaycandır!

Yaşasın Azərbaycan!

**Ədəbiyyat siyahısı:**

1) https://portal.azertag.az/az/node/4229

2) https://az.m.wikipedia.org/wiki/%C5%9Eu%C5%9Fa

*Рамазанова Айтен Шахиновна*
*Азербайджанский Университет Языков*

# ГЕОПОЛИТИЧЕСКИЕ ПОСЛЕДСТВИЯ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ

Ключевые слова: 44-х дневная Отечественная война, «Железный кулак», конфликт, Азербайджан, Армения.
Açar sözlər: 44 günlük Vətən Müharibəsi, "Dəmir Yumruq", münaqişə, Azərbaycan, Ermənistan.
Key words: 44-day Patriotic War, "Iron Fist", conflict, Azerbaijan, Armenia.

Летом 1989 года в журнале National Interest Фрэнсис Фукуяма опубликовал статью «Конец истории?», который предвещал распад Советского Союза и социалистического блока и конец века идеологических противостояний, глобальных революций и войн, однако дальнейшие события, конфликты и войны показали иллюзорность и преждевременность этих идей. [5] Сегодня в свете последних событий, связанных с 44-х дневной Отечественной войной 2020 года, можно ли говорить о «Конце истории» армяно-азербайджанского нагорно-карабахского конфликта, который, пожалуй, был и остается одним из самых сложных конфликтов на всем постсоветском пространстве?!

Многолетние противоречия и столкновения между Азербайджаном и Арменией, продолжавшиеся около 30 лет, неэффективная деятельность Минской Группы ОБСЕ, провокационные действия армянских сил, показали сложность решения конфликта мирным путем. Геополитическая ситуация в регионе изменилась 27 сентября 2020 года, когда вооруженные силы

Армении осуществили следующую широкомасштабную провокацию и обстреляли позиции азербайджанской армии и населенных пунктов, расположенных в прифронтовой зоне. В целях обеспечения безопасности мирного гражданского населения и военных, руководством Азербайджана было принято решение о начале контрнаступательной операции «Железный кулак», продемонстрировав сплоченность и единство народа, армии и Президента, в результате которого Азербайджан добился больших успехов и установил историческую справедливость. В итоге 44-х дневной Отечественной войны 10 ноября стороны при участии России подписали заявление о полном прекращении огня в зоне конфликта, которая ознаменовалась победой Азербайджана, возращением исконных азербайджанских территорий и капитуляцией Армении. Значимость трехстороннего заявления заключалась в том, что в Ханкенди развертывались российские миротворческие силы сроком на 5 лет, Армения возвращала Агдамский, Кяльбаджарский, Лачинский районы, а также обеспечивалось строительство новых транспортных коммуникаций, которые будут соединять Нахчыванскую Автономную Республику и западные районы Азербайджана через Зангезурский коридор. [1]

Таким образом, в итоге войны Азербайджан добился изменения геополитической ситуации в свою пользу. Правительством были намечены широкомасштабные планы по восстановлению разрушенных территорий и созданию новых инфраструктур. Осуществленный совместно с Турцией проект

Южный Газовый Коридор, открытие транспортных, коммуникационных путей, создание новых проектов с региональными и внерегиональными акторами, изменят геополитическую карту региона, а также превратят Азербайджан в центр региональных проектов и обеспечат стратегическое сотрудничество между государствами Южного Кавказа. [4]

Для Армении же последствия войны оказались катастрофичными, в стране начался глубокий политический кризис, большие потери и поражение в войне привели к деморализации и расколу общества.

Что касается о геополитических последствиях войны для России, то следует отметить, что она добилась присутствия в качестве миротворческих сил в регионе без участия западных сил, тем самым укрепив свое положение и получив рычаги влияния и на Азербайджан, и на Армению. Однако срок деятельности миротворцев ограничен, чего не было в Абхазии, Южной Осетии или Приднестровье. К тому же, в регионе за всю историю армяно-азербайджанского нагорно-карабахского конфликта появился новый игрок, Турция. Создание совместного российско-турецкого мониторингового центра в Агдаме, ограничивает возможности России, но в то же время превращает регион в центр конкурентного взаимодействия России и Турции. Теперь России будет сложно действовать в регионе без огласки на Турцию. [3]

В нынешних условиях Турция намерена дальше усиливать свое присутствие в регионе не только в энергетических, транспортных и коммуникационных проектах, но и в сфере безопасности.

Значимость постконфликтного периода для Турции также связана и с тем, что Турция пытается более тесно интегрироваться с тюркскими народами, а благодаря открытию Зангезурского коридора перспектива создания «Великого Турана» окажется более реальной. Но в то же время эти амбиции Турции противостоят интересам России и Ирана, которые воспринимают действия Турции как угроза национальной безопасности. Сегодня Турция конкурирует с Ираном не только на Кавказе, но и на Ближнем Востоке, однако между сторонами имеются и общие интересы, и совместные проекты, а также схожесть позиций об обеспечении безопасности Южного Кавказа совместными усилиями региональных государств без присутствия западных сил. [2]

Таким образом, 44-х дневная Отечественная война и геополитические противоречия превратили Южный Кавказ в узел, где столкновение интересов региональных акторов превратилось в особую «геополитическую игру». Россия, Турция и Иран предпочли бы взаимодействовать друг с другом при минимальном вовлечении «западных партнёров». Тем не менее, они по-разному оценивают перспективы Кавказа и своего участия в разрешении проблем региона. [3] В этом контексте, конечно, следует говорить о конце армяно-азербайджанского нагорно-карабахского конфликта, которая завершилась победой Азербайджана и азербайджанского народа под руководством Президента Ильхама Алиева, в результате которого был положен конец тридцатилетней армянской оккупации и несправедливости. Однако говорить о наступлении долгого мира

пока рано. В современных условиях геополитических реалий в результате победы Азербайджана над армянскими сепаратистами, фактором безопасности в регионе служит, прежде всего, армянский реваншизм и поддерживающие его позиции проармянских некоторых ведущих геополитических акторов.

Список использованной литературы

1. Вторая Карабахская война. [Электронный ресурс]/ Портал Молодежного общественного объединения ИКТ "Виртуальный Карабах". https://www.virtualkarabakh.az/ru/post-item/52/2871/vtoraya-karabahskaya-vojna.html
2. Когут В. Г., Нурышев Г. Н. Карабахский узел геополитических противоречий на Южном Кавказе // Евразийская интеграция: экономика, право, политика. 2021. № 1. С. 104 – 111. file:///C:/Users/Acerr/Downloads/886-1122-1-SM.pdf
3. Маркедонов С. Нагорно-карабахский конфликт: отложенное решение и интересы России. [Электронный ресурс]/ Международный дискуссионный клуб «Валдай». 13.01.2021. https://ru.valdaiclub.com/a/highlights/nagorno-karabakhskiy-konflikt-otlozhennoe-reshenie/
4. Самсонова Т. Победа в Отечественной карабахской войне заложит фундамент кардинальных перемен в Азербайджане. [Электронный ресурс]/ Зеркало, 11.05.2020. https://zerkalo.az/pobeda-v-otechestvennoj-karabahskoj-vojne-zalozhit-fundament-kardinalnyh-peremen-v-azerbajdzhane/
5. Фукуяма,Фрэнсис. Конец истории и последний человек / Фрэнсис Фукуяма; пер. с англ. М. Б. Левина. — М.: АСТ, 2007. — 588 с.

**Rəcəbli Rəna Qəzənfər qızı**
**Azərbaycan Dillər Universiteti**

## Tikdim ki, izim qala

**Açar sözlər:** Azərbaycan, Qarabağ, milli irs, mədəniyyət abidələri.

**Ключевые слова**: Азербайджан, Карабах, культурное наследие, памятники культуры.

**Key words**: Azerbaijan, Karabakh, cultural heritage, cultural monuments.

Qarabağ Azərbaycanın dilbər guşələrindən biridir, təbii sərvətləri ilə zəngin və məşhurdur. Burada dünyanın heç bir yerində yetişməyən bitkilərə belə rast gəlinir. Gözəl təbiəti, büllur bulaqları ilə insanı valeh edən bu torpaq eyni zamanda sənətkarlar məskəni sayılır.

Qarabağda erməni işğalına qədər burada 395 memarlıq və 202 arxeoloji abidələr, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət abidələri vardı. 30 ilə yaxın işğal dövründə Ermənistanın bu torpaqlarda Azərbaycan mədəni irsini məhv etməyə yönələn siyasəti nəticəsində demək olar ki, bu abidələrin 97 faizi dağıdılıb, məhv edilib. Hətta kəndlər və şəhərlər tamamilə dağıdılaraq düzəngaha, "ruhlar şəhərləri"nə çevrilib.

Mədəniyyət və Turizm Nazirliyinin statistikasına görə, işğal olunmuş ərazilərdə 40 mindən çox eksponata malik olan 22 muzey var idi. Bu muzeylərdən Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı

qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli xalçalar, xalça məmulatları, görkəmli şəxsiyyətlərin xatirə əşyaları, digər qiymətli eksponatlar talan edilib. Qədim sikkələr, qızıl və gümüş məmulatlar, nadir və bahalı daşlar və digər əşyalar ilə zəngin olan Kəlbəcər rayonunun Tarix Diyarşünaslıq Muzeyi, Şuşa rayonunun Tarix muzeyləri, Ağdam rayonunda dünyada nadir olan Çörək Muzeyi, Qubadlı Tarix-Diyarşünaslıq muzeyi, Zəngilan rayonunun tarix-diyarşünaslıq muzeyi, daş abidələr muzeyi çərçivəsində və bir çox başqa muzeylər bura daxildir [2].

Keçmişimdən bizə miras qalan tarixi, mədəni, memarlıq abidələrimiz və dini inanc yerlərimiz olan məscidlər, türbələr, qəbiristanlıqlar, dünyanın ən qədim yaşayış məskənlərindən olan Azıx mağarası, Tağlar mağarası və digər nadir maddi və mənəvi mədəniyyət nümunələri erməni vandalizminin qurbanına çevrilmiş, saxta tarix yaratmaq xülyası ilə saxtalaşdırılmağa çalışılmışdır. Bu isə təkcə xalqımızın deyil, ümumilikdə bəşəriyyətin mənəvi irsinə qarşı qəsd, dünya mədəni sivilizasiyasına vurulan ağır zərbələr kimi Haaqa Konvensiyasının, YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" konvensiyasının tələblərinin kobud şəkildə pozulmasıdır [3].

Hikmət yükü yaşam fəlsəfəsi olan “Tikmədim özüm qalam, tikdim ki, izim qala” bayatısında deyildiyi kimi tarixi, mədəni, memarlıq abidələri əsrlər keçsə də, tarixin izlərini yaşadan mənbələr, xalqın isə mənəvi dayağı və yaddaşıdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yenilməz iradəsi və rəşadətli ordumuzun dünya ictimaiyyətində heyranlıq yaradan qəhrəmanlığı

sayəsində torpaqlarımız azad olundu, xalqın daxilindəki sınıqlıq duyğusu aradan qaldırıldı, milli ləyaqət hissi yenidən millətimizə qaytarıldı. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə eyni yenilməz ruhla da işğaldan azad edilmiş ərazilərdə sistemli bərpa-quruculuq işləri başlanıb. Xalqa müraciətində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirib: “Mən əminəm ki, Azərbaycan xalqı bərpa-quruculuq dövründə də birlik, həmrəylik, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcək. Biz bundan sonra yenə də böyük və qürurlu xalq kimi yaşayacağıq” [1].

**İstifadə edilən ədəbiyyat siyahısı:**

8. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti. Xəbərlər. 01 dekabr 2020. https://president.az/articles/48205

9. Sarıyeva İ. Erməni işğalçıları muzeylərimizi məhv edib, ərazilərimizdə qanunsuz arxeoloji qazıntılar aparıb. “Bakı xəbər”. 20 may 2015, s. 15. URL: http://www.anl.az/down/meqale/baki_xeber/2015/may/440504.htm

10. Məmmədov C. Erməni vandalizmi: Tarixi-mədəni irsimizə qəsd. www.science.gov.az

Rəcəbova Aidə Əkbər qızı
Azərbaycan Dillər Universiteti

**İşğalçı Ermənistanın Azərbaycanın mədəni irsinə qarşı təcavüzü beynəlxalq hüquq müstəvisində cəzalandırılmalıdır**

Açar sözlər: Azərbaycan, Qarabağ, erməni vandalizmi, terrorizm, milli-mədəni abidələr
Key words: Azerbaijan, Karabakh, Armenian vandalism, terrorism, national-cultural monuments
Ключевые слова: Азербайджан, Карабах, армянский вандализм, терроризм, национальные-культурные памятники

Azərbaycan xalqı iki əsrdən artıqdır ki, erməni təcavüzkarlığına məruz qalır. Erməni təcavüzkarlığı xalqımıza qarşı genosid siyasəti, qətliamlar, eləcə də tarixi-dini abidələrimizə, məbədlərimizə, müqəddəs ocaqlarımıza qarşı da vandalizm siyasəti şəklində davam etmişdir.

İşğal olunmuş torpaqlarımızda erməni vandalları maddi-mədəniyyət nümunələrimizi, o cümlədən tarixi-dini abidələri məhv edib, erməniləşdirməyə çalışmışlar. Dədə-baba yurdumuz olan İrəvan, Göyçə, Qərbi Zəngəzurda Azərbaycan xalqına məxsus qəbirləri, dini abidələri, ziyarətgahları uçurmuş, dağıtmış, bəzilərinin isə memarlıq xüsusiyyətlərini dəyişdirmişlər. Erməni daşnaklarının əsas məqsədi minilliklər ərzində yaşadığımız torpaqlarda həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı məhv etməkdən ibarət olmuşdur.

Erməni şovinizminin mahiyyətini izah etmək baxımından Yuri Pompeyevin “Qarabağ gündəliyi” kitabından götürdüyümüz sitat maraq doğurur: “Erməni qəzetləri 1988-ci ildə belə çağırışlar edirdi: “Biz tələb edirik – siz razılaşın! Qoy bütün dünya odda yansın, ancaq Qarabağ bizim olsun!”” [1, s. 356].

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazandığımız qələbə, torpaqlarımızın işğaldan azad edilməsi ermənilərin idbar və vəhşi siyasətinin mahiyyətini ortaya qoydu. İşğal altındakı Ermənistanın insanlıq və mülkiyyət əleyhinə olan cinayətləri, mədəni irsin dağıdılması yönündə fəaliyyətinin dəhşətli miqyası bir daha aydınlaşdı.

Ermənistan silahlı qüvvələrinin 30 ilə yaxın müddətdə işğal altında saxladığı Qarabağ bölgəsi və ətraf rayonlar şanlı Azərbaycan Ordusu tərəfindən qarış-qarış yağılardan təmizləndikcə xalqımıza məxsus tarix və mədəniyyət abidələrinin vandalizmə məruz qaldığı, yerlə-yeksan edildiyi, bir qisminə isə toxunulmadığı, saxtalaşdırılaraq erməniləşdirildiyi aşkarlandı. Düşmənin ən çox dağıtdığı mədəni irs nümunələri sırasında isə İslam dini abidələri – məscidlər, türbələr və digər inanc yerləri daha çox diqqət çəkdi [2].

Ermənistanın işğalı dövründə ilk insan məskənlərindən olan məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hərbi məqsədlərlə istifadə olunmuş, qəsdən dağıdılmışdır. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, Şuşa, Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı, Füzuli rayonlarının ərazilərindəki

qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər dağıdılmış, Qafqaz Albaniyasına məxsus abidələrə, kilsələrə erməni xaçları pərçimləməklə, divar daşlarına erməni dilində sözlər yazmaqla erməniləşdirməyə çalışılmışdır. Məsələn, Xudavəng monastırına aid Arzu xatun kilsəsinin şərq divarındakı, Xudavəng monastırının incisi hesab olunan freska xüsusi üsullarla kəsilərək götürülmüşdür. Erməni daşnakları Şuşa şəhərinin Aşağı və Yuxarı Gövhərağa, Köçərli, Mərdinli cümə məscidlərini, Üzeyir Hacıbəyovun, Bülbülün ev muzeylərini bərbad hala salmış, Xurşidbanu Natəvanın saray kompleksini, Möhsün Nəvvabın evini dağıtmış, heykəllərin bəzilərini Ermənistana aparmışlar. Erməni vandalları işğal olunmuş ərazilərdə qeyri-qanuni arxeoloji qazıntılar aparmış və qiymətli arxeoloji materialları talamışlar.

İşğal dövründə ermənilər Azərbaycan xalqının irsini, İslam mədəniyyətinin izlərini silməyə çalışıblar. İnsanlıq simasını itirən bu vəhşilər xalqımıza məxsus məscidlərdə ev heyvanları, o cümlədən donuz saxlamaqla azərbaycanlılara qarşı öz nifrətlərini sərgiləyiblər. Bu Azərbaycanın zəngin mədəni irsinə, o cümlədən xüsusi əhəmiyyətə malik, unikal abidələrə bu cür münasibət dünya irsinə qarşı yönəlmiş təhdiddir.

Azərbaycan Respublikasının Prezidenti, İlham Əliyev müsahibələrində işğalçı ermənilərin rayonları başdan-başa xarabalığa çevirdiklərini bildirmişdir: “Onlar bunu bilərəkdən, Azərbaycan mədəniyyətinin izini itirmək, bu torpaqları bizim yaddaşımızdan silmək və həmin ərazilərin mənşəyini dəyişdirmək məqsədilə ediblər. Lakin bu gün Azərbaycan xalqı qururla deyir: “Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Qarabağ bölgəsi yenidən qurulur, canlanır, dirçəlir!” [4]. İşğalçı Ermənistan isə xalqımıza qarşı, insanlıq əleyhinə törətdiyi

cinayərkar və terrorçu fəaliyyətinə, Azərbaycanın maddi-mənəvi irsinə qarşı təcavüzünə görə beynəlxalq hüquq çərçivəsində layiq olduğu cəzanı almalıdır.

**İstifadə olunmuş ədəbiyya siyahısı**


1. Помпеев Ю. Карабахский дневник. Москва: «Канон+РООН» «Реабилитация», 2010
2. Bayramov V. Azərbaycan beynəlxalq hüququn normalarına əsaslanaraq ərazi bütövlüyünü bərpa etdi. 22 Sentyabr 2021-ci il. https://xalqqazeti.com/az/news/85682
3. Nəzakət Ələddinqızı. Erməni barbarlığı: dağıdılan tarixi və dini abidələr. “Səs” qəzeti, 2021-ci il, 22 may, s. 10
4. Qarabağda məscidlərin dağıdılması, təhqir edilməsi İslam dininə qarşı ən böyük cinayətdir. 01 may 2021, https://ikisahil.az/post/215928-qarabagda-mescidlerin-dagidilmasi-tehqir-edilmesi-islam-dinine-qarshi-en-boyuk-cinayetdir-ermeni-vandalizmi

Leyla Rustamli
Azerbaijan University of Languages

**AZERBAIJAN-ISRAEL RELATIONS AFTER THE SECOND KARABAKH WAR: IMPLICATIONS FOR THE REGION**

Key words: strategic relationship, the Second Karabakh war, South Caucasus

Açar sözlər: strateji əməkdaşlıq, İkinci Qarabağ müharibəsi, Cənubi Qafqaz

Ключевые слова: стратегические отношения, Вторая Карабахская война, Южный Кавказ

The Second Karabakh war had and will obviously continue to have significant impact on shaping the geopolitical landscape of the South Caucasus and the broader region. Among numerous post-war developments, a special attention deserves the progress of Azerbaijan-Israel relationship and its implications for the region.

Azerbaijan and Israel have developed a strategic alliance throughout the decades, which manifested itself during the second Karabakh war. Major realms of bilateral relations are economy and military-technical cooperation. According to Israeli Ynet.news.com Israel supplies more than 60 percent of Azerbaijani arms. (1) On the other hand, Israel imports more than 40 percent of its oil from Azerbaijan. (2) Interestingly, Azerbaijan had 120 tactical and 500 kamikaze drones in its disposal just prior to the 44-day war, vast majority of which were of Israeli manufacture, despite

the fact that many were taking about 50 Bayraktar TB2 drones of Turkish production. Decisive victory of Azerbaijan in the Second Karabakh war was due to the coalescence of reasons one of which was the use of advanced military equipment by Azerbaijani army purchased from Israel. Furthermore, during the war Israel sent humanitarian aid and medical supplies to Baku, alongside Turkey. (3) However, unlike Turkey’s manifest and bold support, the Jewish state stood by Azerbaijan silent and tranquil. After the war, often overlooked, Israel again is one of the major beneficiaries of the war.

Regaining the control of its territories occupied by Armenia in 1990s provides Azerbaijan with some important maneuver opportunities. First, Azerbaijan kept low profile diplomatic relations and restrained from opening an Embassy in Israel, as Baku didn’t want to acerbate Arab states (since needed their votes both in the UN and in the OIC in discussion of the issues regarding Nagorno- Karabakh). Now, as President I. Aliyev claimed, “there is no Nagorno-Karabakh conflict anymore” (2), Azerbaijan may “go public” about relations with Israel and even settle a long-standing issue of opening an Embassy in Israel. A complementary incentive in this action might be normalization of relations among some Arab states (UAE, Bahrain, Morocco) and Israel in recent years. Second, Azerbaijan restored control over the border with Iran. Although, Azerbaijan is quite prudential and leery about allowing any other state to use its territory, Israel may feel more confident about having an amiable Azerbaijan in re-control of the northern border of its historical foe – Iran. As for Azerbaijan, reconnecting with Nakhchivan through Zangezur

corridor in case the latter will operate as indicated in the triparted declaration of November 10, 2020 will enable Azerbaijan to avoid Iran. At the same time control over the border allows Azerbaijan to inspect border transfers from Iran to the territories currently under the control of the Russian peacekeepers. Considering the size of Azerbaijani Turkic population of Iran, their steady quest for freedom and Tehran’s oppressive position in this issue and Azerbaijanis’ stance during the 44-day war in regard to the Iranian assistance to Armenia, it is not baseless to claim that rapprochement between Israel and Azerbaijan in containment of Iran will grow in the future. Third, the Second Karabakh war paved the way for Turkey’s unprecedented active involvement in the South Caucasus, including high-level military alliance with Azerbaijan which may have positive projections for Israeli-Turkish relations. Even though Israeli-Turkish diplomatic relations deteriorated after Gaza Flotilla incident, the working relations remained and trade volume between the two countries exceeded 5 billion dollars. (5) Now, Azerbaijan may seize the chance to mediate between Ankara and Tel-Aviv and benefit from the reconciliation of the two of its major allies.

Implications of the Second Karabakh is multifaceted and will be observed more clearly in the long run. Azerbaijan-Israel relations which have a strong foundation and great prospects are not exempt from this. Azerbaijani government and intellectuals should prevent the sense of euphoric victory to permeate in the national consciousness of the people and even more of the decision-makers. The 44-day war has far-reaching

geopolitical impacts and Azerbaijan need to grasp this historical opportunity to reinforce its alliances and to neutralize the foes.

Literature:


1) https://www.ynetnews.com/article/SygcfSf8P (accessed September 11, 2021)
2) https://fmes-france.org/israel-azerbaijan-an-alliance-in-search-of-renewal/ (accessed September 13, 2021)
3) https://jamestown.org/program/israel-delivers-aid-to-azerbaijan-background-and-implications/ (accessed September 11, 2021)
4) https://report.az/qarabag/azerbaycan-prezidenti-indi-artiq-dagliq-qarabag-munaqisesi-yoxdur/ (accessed September 10, 2021)
5) https://www.brookings.edu/blog/markaz/2015/02/19/turkey-israel-relations-a-political-low-point-and-an-economic-high-point/ (accessed September 12, 2021)


AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ
ADU

Sadıqova Firuzə Aşur qızı
Bakı Dövlət Universiteti

## QARABAĞ QAFQAZIN KONSERVATORİYASIDIR

**Açar sözlər:** musiqi, sənət, tarix, muğam, bəstəkar

**Keywords:** music, art, history, mugam, composer

**Ключевые слова:** музыка, искусство, история, мугам, композитор

Azərbaycanın musiqi sənəti çoxəsrlik inkişaf tarixinə malikdir. Musiqi haqqında ən qədim məlumatlar arxeoloji qazıntılar zamanı əldə edilən bir sıra materiallardan, Qobustan (e.ə. XII-VI minilliklər) və Gəmiqaya (e.ə. III-I minilliklər) qaya rəsmlərindən alınmışdır. "Kitabi-Dədə Qorqud"da (VII əsr), Nizaminin, Xaqaninin, Füzulinin əsərlərində orta əsrlərin musiqi həyatı, janrları və alətləri barədə zəngin məlumat verilmişdir. Bu çağda Azərbaycan musiqisinin o dövrə məxsus əsas janr və formaları təşəkkül tapmış, sintetik fəaliyyət dairəsinə malik peşəkar musiqiçilər (bəstəkar, şair, müğənni-ifaçı) yaranmışdır. Bir sıra böyük şəhərlərdə şair və musiqiçilərdən ibarət kiçik peşəkar cəmiyyətlər yaranmışdır (Məçmə ül-ürafə). O dövrün ən parlaq simalarından biri istedadlı şairə Munisə Məhsəti Gəncəvi gözəl səsə malik olmuş, öz ifasını musiqi alətlərində müşayiət etmişdir. XII əsrdə ən populyar musiqi janrı poetik əsası qəzəl olan muğam idi. Saraylarda muğamla yanaşı klassik mahnılar (müasir təsniflərin sələfi) da geniş ifa edilirdi. Saray məclislərində xanəndələr muğam üstündə musiqi deyişmələri keçirirdilər.

Azərbaycanın Səfiəddin Urməvi (XIII əsr), Əbdül-qadir Marağayi (XIV əsr), Fətullah Şirvani (XV əsr), Mirzə bəy (XVII əsr), Mir Möhsün Nəvvab (XIX əsr) kimi ensiklopedik biliyə malik alimlərinin risalələrində Yaxın və Orta Şərq xalqlarının mədəniyyətləri ilə sıx təmasda inkişaf edən orta əsr musiqi mədəniyyətinin, ifaçılığının yüksək inkişaf səviyyəsi barədə danışılmış, Azərbaycan musiqisinin nəzəri problemləri işlənilmişdir. Səfiəddin Urməvi Şərqdə sistemçilik məktəbinin əsasmı qoymuşdur. Onun məşhur “Kitabül-ədvar” və “Şərəfıyyə” risalələri unikal elmi əsərlər kimi bir sıra dillərə tərcümə edilmiş, onlara Şərqin və Qərbin böyük alimləri elmi şərhlər yazmışlar.

Səfiəddin Urməvi musiqi-estetik problemləri, musiqinin səs sistemini, intervalları, ladları, ritmi və başqaları nəzəri məsələləri araşdırmış, dövrünün musiqi nümunələrini əbcəd not sistemi ilə nota salıb gələcək nəsillərə çatdırmışdır. Onun Şərqdə məşhur olmuş not sistemindən bir neçə əsrdə istifadə edilmişdir.

Azərbaycan alimi Əbdülqadir Marağayi Urməvinin qoyduğu elmi irsi davam və inkişaf etdirmişdir (“Came əl-əlhan”, “Şərhül Kitab əl-ədvar”, “Fəvaid əşərə” və s.). Fətullah Şirvani (XV əsr) “Musiqi məcəlləsi” risaləsində özündən əvvəl gələn görkəmli sələflərinin əsərlərinə istinad edərək, sistemləşdirilmiş qanunlar külliyyatı və toplusunu yaratmışdır.

Sonrakı dövrə aid risalələrdə daha çox musiqi ifaçılığına üstünlük verilmişdir. M.M.Nəvvabının "Vüzu-hül ərqam" (1884) risaləsi də mühüm nəzəri problemlərin həllinə həsr edilmişdir.

Azərbaycan musiqi sənətinin ayrılmaz və önəmli hissəsini qədim ənənələrə, dərin məzmuna, bədii kamilliyə, zəngin janr çeşidliyinə malik olan musiqi folkloru təşkil edir. Musiqi folkloru Azərbaycan xalqının tarixini, həyatını, istək və arzularmı ifadə etmiş, adət və ənənələrini özündə əks etdirmişdir.

Belə bir deyim var - əgər Azərbaycan bütöv bir bədəndirsə, bu bədənin ürəyi Qarabağdır. Qarabağın incisi olan Şuşa isə Azərbaycanın ən dilbər guşəsi, musiqi beşiyi, Cabbar Qaryağdıoğlu, Keçəçi Məhəmməd, Məşədi Dadaş, Sadıqcan, Üzeyir Hacıbəyov, Bülbül, Fikrət Əmirov, Xan Şuşinski və daha onlarla məşhur musiqiçilər diyarıdır.

Şuşa özünün gözəl təbiəti, yüksək mədəniyyəti ilə şöhrət tapmışdır. Şuşanı əbəs yerə "musiqi və poeziyanın beşiyi" adlandırmırlar. Demək olar ki, Azərbaycanın bütün məşhur oxuyanları Şuşada doğulmuşlar. Səməd Vurğunun bu sözlərində dərin bir məna və inkaredilməz bir həqiqət var. Azərbaycanın ən gözəl guşəsi Qarabağı haqlı olaraq poeziyamızın və musiqimizin beşiyi, "istedadlar məskəni" adlandırırlar.

Təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Bu böyük ziyalı dəstəsi Qarabağı mədəniyyət mərkəzinə çevirmiş, poeziya və musiqini inkişaf etdirərək yüksək zirvəyə qaldırmışdır.

Qarabağ şeirimizin incisidir. Azərbaycanın məşhur şairi və görkəmli dövlət xadimi Vaqifin ürəyi burada döyünmüşdür. Xalqımızın poeziya tarixində, müstəsna xidmətləri olan Qasım bəy Zakir, Xurşudbanu Natəvan, Mir Möhsün Nəvvab, Baba bəy Şakir, Abdulla bəy Asi, Aşıq

Pəri, Məhəmməd Ağa Müçdəhidzadə, Məşədi Əyyub Baki kimi sənətkarların həyat və yaradıcılıqları bu diyar ilə bağlı olmuşdur.

Azərbaycan dramaturgiyası və nəsri tarixində görkəmli rol oynayan Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov, Yusif Vəzir Çəmənzəminli məhz Qarabağın yetirmələridir.

Qarabağ eyni zamanda görkəmli alim, jurnalist və tarixçilərin vətənidir. Bunlardan Firidun bəy Köçərlini, Haşım bəy Vəzirovu, Əhməd bəy Ağayev, Əhməd bəy Cananşiri, Mirzə Adıgözəl bəyi, Mir Mehdi Xəzanini, Mirzə Camal bəyi, Həsənəli Xan Qaradağlını və başqalarını göstərmək olar.

Qarabağ həm də Kərbəlayı Səfixan, Kərbəlayı Səfərəli, Usta Qənbər, Lətif Kərimov, Cəlal Qaryağdı, Toğrul Nərimanbəyov, Əmir Hacıyev kimi istedadlı memarların, xəttatların və görkəmli rəssamların vətənidir.

Musiqimizin beşiyi olan Qarabağ bir çox zəngin və incə səsə malik olan xanəndələr və məharətli musiqiçilər yetişdirmişdir. Öz məlahətli səsləri və böyük sənətləri ilə bütün Qafqazı, Yaxın və Orta Şərqi valeh edən xanəndələrdən Hacı Hüsü, Məşədi İsi, Əbdülbaqi (Bülbülcan), Keştazlı Həşim, Cabbar Qaryağdıoğlu, Məşədi Məmməd, Zabul Qasım, Keçəçioğlu Məhəmməd, Malıbəyli Həmid, Segah İslam, Seyid Şuşinski, Bülbül, Zülfü Adıgözəlov, Xan Şuşinski, Mütəllim Mütəllimov, Rəşid Behbudov və bir çox başqaları Qarabağın yetirdiyi məşhur sənətkarlardır.

Qarabağda xanəndəlik sənəti ilə əlaqədar olaraq gözəl tar, kaman və qarmonçalanlar da yetişmişdi. Bu musiqiçilərdən Ələsgər, Sadıqcan, Məşədi Zeynal, Qurban Pirimov, kamançaçılardan Qaraçı Hacıbəy, Rasim

Şirinov, qarmon çalanlardan Abutalıb Mirzə Muxtar oğlu, Kərbəlayı Lətif, İsi bəy, Yusif Yusifov və başqaları ən məşhur sənətkarlardır.

Qarabağ onun qoynunda böyüyüb boy atmış, sonralar şöhrətləri çox uzaqlara yayılmış görkəmli bəstəkarların və mahir dirijorların vətəni kimi də məşhurdur. Azərbaycan opera musiqisinin banisi Üzeyir bəy Hacıbəyov, Zülfüqar bəy Hacıbəyov, Fikrət Əmirov, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Süleyman Ələsgərov, Zakir Bağırov, Çingiz Hacıbəyov, Niyazi və bir çox başqaları öz gənclik illərini doğma vətənin gözəlliklərindən ilham alaraq musiqimizin inkişafında mühüm rol oynamışlar.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


1. Bünyadov T.Ə.. Əsrlərdən gələn səslər. Bakı, 1993. 264 s.
2. Bədəlbəyli Ə. Musiqi lüğəti. Bakı:  1969,  216 s.
3. Şuşinski F. Azərbaycan xalq musiqiçiləri, Bakı, Azərnəşr, 1970.
4. Zöhrabov R. Muğam. Bakı, 1991, 124 s.

**Салтанович Ирина Петровна**
**УО «Минский государственный лингвистический университет**

# КУЛЬТУРА КАК ИСТОРИЧЕСКИЙ ТРИГЕР КАРАБАХСКОГО КОНФЛИКТА

Ключевые слова: культура, тригер, моральные ценности, конфликт.

Key words: culture, trigger, moral values, conflict.

Развитие дихотомии «война-культура» существовало можно сказать, вместе с человечеством. Человечество всегда находилось либо в состоянии войны, либо в предпоговке к ней, либо к восстановлению своего хозяйства после них. То есть война, как прочно вписанный в культуру аспект, никогда не выгружался из сознания [3].

Если мы понимаем концепцию культуры как совокупность общих убеждений, представлений и моделей поведения, эволюционировавших для достижения успеха или выживания в мире, тогда имеет смысл предположить, что особенно стрессовая среда войны вырастает и из культурных противоречий и способствует развитию собственных «культур». Культурный конфликт (в нашем контексте и военный) происходит только тогда, когда верования и традиции одной культурной группы представляют собой вызов для людей другой.

Поскольку природа моральных ценностей, в значительной степени определяемая культурой, отстраивает поступки людей и влияет на принятие ими решений, теорией предлагается увидеть два способа проявления этой природы - деонтологический и утилитарный. Деонтологический процессинг определяется акцентом на абсолютном праве и неправоте, что также называют этикой долга (или долженствования), тогда как утилитарный характеризуется затратами и выгодами.

Как ни странно, но перспективы нанесения ущерба экономике и как последствие, огромное число смертей не обязательно сбивают людей с их позиции относительно того, идти ли на войну, выбирать революцию или сопротивление. Одно из возможных объяснений состоит в том, что люди вообще не взвешивают все «за» и «против» для продвижения материальных интересов, а, скорее, используют моральную логику «священных ценностей» - убеждений, которые превосходят все другие соображения и которые невозможно измерить количественно [1]. В потенциально насильственных ситуациях межгруппового конфликта священные ценности, по-видимому, действуют как моральные императивы, которые порождают действия независимо или несоразмерно их очевидным или вероятным результатам, потому что поступать независимо от последствий - это правильно.

Культура влияет на то, как мы воспринимаем конфликт, в какие рамки мы его ставим и как мы пытаемся его разрешить. Именно культура определяет, а существует ли конфликт вообще.

Среди всех нынешних этнических конфликтов в Закавказье конфликт вокруг Нагорного Карабаха, пожалуй, самый сложный и трудноразрешимый. Ведь Карабахский конфликт – это не просто спор из-за куска земли, это конфликт, который во многом затрагивает суть армянской и азербайджанской национальной самоидентификации.

Известный американский исследователь С. Хантингтон, исследуя в своей работе «Столкновение цивилизаций» культурную несовместимость религиозного и идеологического содержания цивилизационного развития, полагает, что на смену войнам идеологического типа (межгосударственным) приходят войны культурных идентичностей (межцивилизационнные). [7, с. 15].

Учитывая аспект, что цивилизационный конфликт вокруг Нагорного Карабаха выходит далеко за рамки традиционной хантингтоновской «войны на линии разлома» между двумя современными мировыми религиями и приобретает для каждой из сторон пафос вселенской борьбы между силами Добра и Зла, участвуя в которой, каждая из них видит и понимает себя орудием Добра. [2].

Интересный анализ культурно-исторических причин конфликта можно найти в обзоре работ, посвященных данной тематике как русско- так и англоязычных, предложенных историком, антропологом Анатолием Ямсковым, который называет себя «самым проазербайджанским из в целом проармянских авторов», никогда не ставившим под сомнение чье бы то ни было право

на самоопределение [8]. В трудах, в том числе и самого А. Ямского, речь идет не только о сегодняшнем дне, но о близкой или не очень близкой истории, о предпосылках того, что происходит сейчас, предоставляя возможность наиболее полно понять, на чем основываются диаметрально противоположные взгляды современных армян и азербайджанцев, которые уверены, что Карабах именно их.

В работе Томаса де Ваала можно найти взвешенный и компактный анализ, который сосредоточен на том, что происходило в Нагорном Карабахе, Армении и Азербайджане с февраля 1988 года. Книга американского историка Одри Альтштадта очень хорошо показывает, как в период Российской империи и в советские годы формировалась идентичность современных азербайджанцев; представление о том, кто они такие, что они за народ, какова их этническая культура, какие события в их истории выделяются как важнейшие, кто для них народы-друзья, а кто — исторические оппоненты. В работе классика американских исторических исследований Суни проделана сходная работа в отношении Армении. Небольшой анализ работ современных авторов демонстрирует явные и скрытые процессы возникновения культурного конфликта, когда правила и ценности одной культурной группы существенно отличаются от другой.

Одна совокупность ценностей, которая, кажется, приобретает священный статус в различных культурных средах и нарушение которой часто вызывает моральное возмущение, которое может привести к крайнему насилию, касается концепции «чести» [5].

Любое предполагаемое нарушение кодекса чести лицами, не принадлежащими к своему обществу, может быть основанием для насилия и даже войны.

Когда группы находятся в конфликте, культурные предубеждения служат для дальнейшего разобщения и предотвращения примирения. Можно предположить, что эти предубеждения подавляют способность человека либо мыслить о душевных состояниях кого-то из конфликтующей культуры, либо сочувствовать его боли.

В условиях глобализации виртуальная война за "исторические территории" угрожает армянскому этносу изоляцией. Что касается Азербайджана, то карабахский конфликт привел к консолидации сил вокруг сохранения суверенной государственности. Сегодня Баку ограничивается исключительно нормами международного права, а также практикой дипломатических отношений в урегулировании последствий конфликта. [4].

«Территориальные споры – одни из самых сложно разрешимых на свете. Так уж повелось, что именно территория воспринимается как наиболее ценный ресурс, значение которого со временем сакрализуется», — справедливо замечает российский политгеограф Игорь Окунев [6].

Понятие культуры часто объясняют, используя ее сравнение с айсбергом, большая часть которого скрыта водой. Не принимать культурный фактор во внимание может оказаться очень опасным, особенно, когда речь идет об урегулировании конфликта. Учет

культурного субстрата конфликта позволяет предпринимать более взвешенные, продуманные меры к его разрешению. Поэтому культурная грамотность является ключевой компетенцией для посредников и миротворцев, а также для всех, кто желает разрешить конфликт, и не заинтересован в его продолжении.

Литература:


1. ***Baron, J., & Spranca*** M. Protected values. Organizational Behavior and Human Decision.- Processes, 1997. - 70, 1–16. [Google Scholar]
2. ***Кузнецов О.*** Нагорно-карабахский конфликт: «столкновение цивилизаций»? Кавказ & Глобализация: Журнал социально-экономических и политических исследований (Стокгольм, Швеция)**.** – 2013, Т. 7. Вып. 1-2. – С. 93-108.
3. ***Ларкин Л. Г.*** Парадигма взаимодействий война – культура. Аналитика культурологии. Электронное научное издание.
4. **Нагорно-карабахский конфликт**: культурно-психологические последствия https://vestikavkaza.ru/analytics/Nagorno-karabakhskiy-konflikt-kulturno-psikhologicheskie-posledstviya.html
5. ***Nisbett R., Cohen D***. Culture of honor: the psychology of honor in the south. Boulder, CO: Westview Press - 1996 [Google Scholar]
6. ***Окунев И.*** Десять способов решения неразрешимого территориального спора https://globalaffairs.ru/articles/bylo-by-zhelanie/
7. ***Хантингтон С.*** Столкновение цивилизаций.– М., 2003.
8. ***Ямсков А.*** 5 книг о том, каковы исторические и этнокультурные причины Карабахского конфликта https://gorky.media/books-collection/5-knig-o-tom-kakovy-istoricheskie-i-etnokulturnye-prichiny-karabahskogo-konflikta/

**Aynur Səfərli**

**DİN-in Polis Akademiyası**

# QƏLƏBƏ ZƏFƏRİNİ XALQ-İQTİDAR-ORDU BİRLİYİNƏ BORCLUYUQ

Açar sözlər: xalq, ordu, lider, iqtidar, zəfər, Qarabağ

Keywords: people, army, leader, power, victory, Karabakh

Ключевые слова: народ, армия, вождь, власть, победа, Карабах

Birliyimiz – diriliyimizdir! Tarix bu sonluqla bir daha sübut etdi: ən müşkül düyünü də milli birliyin gücü, qüdrəti ilə açmaq mümkündür, ən sağalmaz milli dərdin də məlhəmi xalq birliyidir, ən vəhşi düşməni də Xalq–Lider–Ordu vəhdətindən yaranan ümummilli birliyin gücü ilə əzib-diz çökdürmək mümkündür [1].

Birinci Qarabağ müharibəsi nəticəsində öz torpaqlarının 20 faizini itirən Azərbaycan Respublikası əsasən 1994-cü ildə imzalanmış Bişkek protokolundan sonra Ermənistan Respublikası ilə BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxarılmasını nəzərdə tutan qərarlarının icra olunması üçün müxtəlif beynəlxalq qurumlar çərçivəsində uzunmüddətli diplomatik danışıqlar apardı. Sülh danışıqları prosesi 2018-ci ildə Ermənistanda rəngli inqilab nəticəsində hakimiyyətə gəlmiş Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi populist bəyənatları və Azərbaycanın işğal olunmuş ərazilərinə ardıcıl qanunsuz səfərləri kimi təxribatçı xarakter daşıyan hərəkətləri ilə ciddi ölçüdə sarsıldı. Və bütün bunlar İkinci Qarabağ

savaşını labüd etdi. Elə bir müharibə ki, müasir tariximizdə daim böyük qürurla xatırlanacaq, eyni zamanda, hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq ən parlaq səhifələr kimi əks olundu. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusu tariximizə Böyük Qələbə zəfərini yazdı. 44 gün ərzində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Hadrut, Şuşa və Qarabağdakı bir çox yaşayış məntəqələri hərbi yolla azad edildi, erməni ordusu darmadağın edildi. 30 illik işğala son qoymaqla, bir güllə atmadan, bir şəhid vermədən Ağdam, Kəlbəcər və Laçının azad edilməsinə nail olmaqla dünyada qalib xalq, məğlubedilməz dövlət kimi özümüzü yenidən təsdiq etdik. Beləliklə, sentyabrın 27-dən başlayaraq dekabrın 1-nə qədər davam edən bu mərhələdə Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Azərbaycan ordusunun əsgər və zabitləri 44 gün davam edən müharibədə hərb tariximizin yeni şanlı səhifələrini yazdılar. Müzəffər ordumuz düşmənin torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərdi, zəfər uğrunda inadından dönmədi, əzmlə, cəsarətlə son nəticəyə qədər döyüşdü. Şanlı ordumuzun şücaəti 300-ə yaxın yaşayış məntəqəsi, 5 şəhər və 4 qəsəbə, çoxsaylı strateji yüksəklikləri işğalçılardan təmizlədi, qəsbkarın texnikasına, canlı qüvvəsinə ciddi zərbə vurdu. Məlumdur ki, dünyanın müvafiq reytinq agentliklərinin sorğusuna görə, Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusu sırasında yer tutmuşdur. Döyüşlərin ilk günündən Azərbaycan xalqı yekdilliklə əməliyyatları dəstəklədi, on minlərlə vətən övladı könüllü şəkildə döyüşlərə qoşuldu. Hamı “hər şey vətən üçün, hər şey cəbhə üçün, hər şey qələbə üçün” şüarı ilə ordumuzun tam qələbəyə nail olması məqsədilə əlindən gələni əsirgəmədi. Dilindən, dinindən, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq, hər kəs eyni amal uğrunda bir yumruq kimi birləşərək

Prezident İlham Əliyevin növbəti dəfə xalqa müraciət edərək yeni qələbə xəbərləri verməsini gözlədi. “Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!” şüarı dilimizin ən əziz kəlməsi oldu. Ali Baş Komandanımızın söylədiyi kimi, məhz birlik, əzm, iradə – güc böyük Qələbəmizi reallaşdırdı. Xalq-iqtidar-ordu birliyi əsasında qazanılmış şanlı tarixi zəfərimiz nəticəsində hazırda erməni faşistlərindən xilas edilən ərazilərimizdə Azərbaycan bayrağı dalğalanır [1].

Qarabağın tacı, döyünən ürəyi Şuşanın işğaldan azad edilməsi əməliyyatı tarixdə əbədi qalacaq. Şuşa təbii istehkam olduğundan şəhərə tanklarla, yaxud digər ağır silahlarla girmək mümkün deyildi. Onu almağın iki yolu vardı. Birinci halda şəhərdəki düşmən qüvvələrini hava zərbələri, top atəşləri ilə məhv etmək olardı. Komandanlıq buna getmədi. Çünki şəhərin bombardman edilməsi böyük dağıntılara səbəb olacaqdı. Buna görə də alternativ variant kimi əlbəyaxa döyüş taktikası seçildi. Qəhrəman əsgər və zabitlərimiz yüngül silahlarla qalın meşələrdən, dərin dərələrdən keçərək, qayalar, dağlar aşaraq düşməni üzbəüz döyüşdə məhv etdi. Şuşa döyüşlərinin getdiyi vaxt Xankəndidə olan xarici jurnalistlərdən biri ermənilərin düşdüyü acınacaqlı vəziyyəti belə təsvir edirdi: *“Şuşanı müdafiə edənlər pərən-pərən düşüblər. Hərbi təcili yardım maşınlarında onlarla yaralı qan içində Xankəndi xəstəxanasına daşınır. Qalan döyüşçülər yorğun halda yolboyu hərbi geyimlərini çıxarıb ataraq dağdan enirlər. Təcili yardım maşınları aramsız olaraq gedib-gəlir. Avtomobildə yaralı əsgərlər bir-birinin üstünə qalaqlanıb. Onların aldığı xəsarətlər əlbəyaxa döyüşlər getdiyinin sübutudur”* [3].

44 gün davam edən müharibə nəticəsində Ermənistan 10 ədəd S-300 və onun taktiki-döyüş vasitələri, 366 tank, 352 müxtəlif çaplı top, 22 ədəd pilotsuz uçuş aparatı, 5 Su-25 təyyarəsi, 50 Tor, Osa, Kub, Kruq modelli zenit-raket kompleksindən məhrum olub. Eyni zamanda döyüş əməliyyatları çərçivəsində xüsusi əhəmiyyətə malik 97 ədəd Qrad, 4 ədəd Smerç, 1 Tos odsaçan, 2 Uraqan, 1 ədəd Yars, Toçka-U, ballistik raketlər, Elbrus raket kompleksləri də məhv edilib. Azərbaycan ordusunun məhv etdiyi və ya qənimət kimi götürdüyü hərbi texnikasının dəyəri minimum qiymətləndirmə əsasında ən azı 3,8 milyard ABŞ dolları dəyərindədir. İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanda siyasi-iqtisadi sabitlik hökm sürmüşdür. Xalq-hakimiyyət birliyi ən yüksək səviyyədə nümayiş olunmuşdur. Prezident İlham Əliyev dərin biliyi, dəmir məntiqi, təkzibolunmaz arqumentləri ilə ermənipərəst medianın qarayaxma kampaniyasını zərərsizləşdirə bildi, informasiya cəbhəsini təkbaşına yardı. Xüsusi tapşırıq alan bəzi Qərb müxbirləri mətləbi yayındırır, feyk məlumatlara istinad edərək Azərbaycan tərəfinin ünvanına əsassız ittihamlar səsləndirirdilər. Münaqişədə Türkiyənin iştirakı, F-35-lərdən istifadə, Suriya və Liviyadan muzdluların cəlb olunması, atəşkəsin pozulması və bir çox digər qıcıqlandırıcı suallar dönə-dönə təkrarlanırdı.

Keçmiş müharibələrdə “Yandırılmış torpaq” adlandırılan bir taktika vardı. İşğalçı ordu geri çəkilmək zorunda qalanda hər şeyi dağıdır, yaxud talayıb aparır, apara bilmədiyinə od vurub yandırırdı. Bu, həm də ona görə edilirdi ki, yerli əhali, torpağın əsl sahibi bir daha o yerlərdə məskunlaşa bilməsin. 1977-ci ildə Cenevrə Konvensiyasının bir nömrəli Protokolunun 54-cü maddəsi ilə "Yandırılmış torpaq" taktikası qadağan olunub və belə əməllər müharibə cinayəti sayılır. Ermənilər XXI əsrdə

sivil dünyanın gözü qarşısında ibtidai icma dövrünə xas olan bu taktikanı işlədirlər. Prezidentimizin dediyi kimi, “*elə bil bu yerlərdən vəhşi qəbilə keçib. İşğaldan azad edilmiş şəhər və kəndlərimizin videogörüntüləri ürək ağrıdır. Vəhşi düşmən daş üstə daş qoymayıb, hər yeri xarabazara çevirib. Onların faşist simasını bütün dünyanın görməsi vacibdir. Qoy, hamı görsün və bilsin ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Hamı bilsin ki, biz təkcə işğalçı ordunu deyil, bəşəriyyət üçün təhlükə mənbəyi olan erməni faşizmini məhv etmişik*” [3].

Vətən müharibəsinin uğurlu sonluğu bölgədə qüvvələr nisbətini dəyişdi, yeni reallıq yaratdı. İndi biz tək deyilik. Qardaş Türkiyə artıq yanımızda, siyasi masadadır. Qarabağda atəşkəsə türk əsgəri də nəzarət edəcək. Ankaradan ən yüksək səviyyədə mesajlar gəlməkdə davam edir: *“Biz Azərbaycanın yanında olmağa davam edəcəyik”* [3]. Bu siyasi-mənəvi dəstək gücümüzə güc qatır, Ermənistanın havadarlarını müdaxilədən çəkindirir.

Nəticə olaraq qeyd edək ki, İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi və ya "Dəmir Yumruq" əməliyyatı kimi tarixə düşmüş bu savaş atəşkəsdən sonra müşahidə olunan Azərbaycan Silahlı Qüvvələri və Ermənistan Silahlı Qüvvələri arasında Dağlıq Qarabağda davam edən ən gərgin və uzunmüddətli döyüş oldu. Və bu döyüşlər zamanı 3 polkovnik, 23 polkovnik-leytenant, 49 mayor, 54 kapitan, 103 baş leytenant, 118 leytenant, 5 kiçik leytenant, 33 baş gizir, 183 gizir, 58 kiçik gizir, 25 baş çavuş, 69 çavuş, 92 kiçik çavuş, 7 baş əsgər, 1898 əsgər, 3 mülki qulluqçu (rəqəmlənir yenilənir), o cümlədən

1 kapitan-leytenant, 1 baş miçman, 5 miçman, 1 kiçik miçman, 1 matros şəhid olmuşdur.

Allahdan qazilərimizə sağlıq, şəhidlərimizə rəhmət və ailələrinə səbr diləyirik.

ƏDƏBİYYAT


1. Ağaşahqızı Yaqut. Tarixi Qələbəmizin əsas formulu: Xalq-iqtidar-ordu birliyi. “İki sahil”, 2 dekabr 2020-ci il.
2. Aydınoğlu Tahir. Ümummilli birliyin gücü Xalq – Lider – Ordu vəhdətindədir. “Xalq qəzeti”, 24 fevral, 2021-ci il .
3. https://www.virtualkarabakh.az/az/post-item/52/2871/ikinci-qarabag-muharibesi.html.

*Səfərova Çinarə Qabil*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

# QARABAĞ MÜNAQIŞƏSI DÖVRÜNDƏ AZƏRBAYCANIN MADDI-MƏDƏNI IRSINƏ QARŞI ERMƏNI VANDALIZMI

Məlumdur ki, Azərbaycan xalqı dünyanın ən zəngin mədəni irsə sahib olan xalqlarından biridir. Bu zənginlik isə bizə ötüb gələn tarixi, mədəni və dini abidələrimizdə əks olunur. Amma əfsuslar olsun ki, mənfur qonşularımız olan ermənilər hər fürsətdə bizim tarixi keçmişimizi məhv etməyə çalışıb, hətta milli adət-ənənələrimizi özününküləşdirməyə çalışıb, ərazilərimizdəki qədim alban-xristan abidələrini erməni “irsi” kimi təqdim etməyə cəhd edib.Ermənilər 30 ilə yaxın müddət ərzində işğal altında saxladığı Azərbaycan ərazilərində vandalizm aktı törədərək bütün maddi, mədəni, tarixi və dini abidələr məhv ediblər. Azərbaycan xalqının irsini qəsdən hədəf alan vandal ermənilər işğal olunmuş ərazilərdə çoxsaylı hərbi cinayətlər həyata keçiriblər. Təkcə onu demək yeterlidir ki, ermənilər tərəfindən bu dövrdə 70-ə yaxın məscid, çoxlu sayda mədəni-tarixi abidələr məhv edilib. Ermənilərin bu vəhşiliyi xalqımızın mədəni-tarixi irisnə qarşı soyqırımıdır. II Vətən müharibəsi zamanı Zəngilan işğaldan azad olunanda bütün dünya məsciddə ermənilərin donuz saxladığının şahid oldu. Bu həm də beynəlxalq normaların pozulması ilə yanaşı, İslam dünyası üçün təhqir,həm də vandalizm aktıdır.

Düşünülmüş şəkildə islam dini abidələrinin, həmçinin qəbiristanlıqların, qəbirüstü abidələrin, qəbir daşlarının tamamilə dağıdılaraq yerlə-yeksan edilməsi Ermənistanın siyasi dairələrinin ardıcıl və davamlı fəaliyyət planının tərkib hissəsidir. İşğaldan azad olunmuş ərazilərimizdən yayımlanan video və foto görüntülər də bunu təsdiqləyir. Görüntülərdən bəlli olduğu kimi erməni vandalları dini abidələrimizlə yanaşı, qəbirlərimizə qarşı da vəhşilik törətmişlər. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən təsbit olunmuş siyahıda işğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olduğu göstərilir. Onlardan 67-si məscid, 144-ü məbəd,192-si ziyarətgahdır. İslam dövrünə aid tarixi

abidələrin xüsusi amansızlıqla dağıdılmasının səbəblərindən biri də onların üzərində müsəlman epiqrafiyası ilə yazıların olmasıdır.Elə bu səbəbə görə bu abidələri erməniləşdirmək və qeyri- Azərbaycan abidələri kimi təqdim etmək mümkün deyil. Ona görə də Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınmışdır. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub.[2] Ermənilər Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla daha bir əxlaqsızlıqlarını dünyaya nümayiş etdirərək, azərbaycanlılara qarşı öz nifrətlərini nümayiş etdirdilər.Cənab Prezident İlham Əliyev çıxışlarında Ermənistanın işğal edilmiş torpaqlarda müsəlman dini abidələrinə qarşı soyqırımı törətdiyini və erməni işğalçılarının məscidlərə qarşı təhqiramiz hərəkətlər etdiyini dəfələlər bildirmişdi: "İşğal edilmiş torpaqlarımızda Ermənistan rəhbərliyinin göstərişi ilə bütün məscidlərimiz dağıdılıb. Şuşa, Ağdam və digər şəhərlərimizin dağıdılmış məscidlərinin fotoşəkilləri erməni vandalizminin sənədli sübutudur. Aydındır ki, Ermənistanın Azərbaycan ərazilərində mədəni irsin məhv edilməsinə və saxtalaşdırılmasına yönələn cinayət əməlləri ümumilikdə bəşəriyyətə qarşı yönəlmişdir. Mədəni irsin məhv edilməsi isə bəşəriyyətə qəsddir. Ermənistanın Azərbaycan milli mədəni irsinə qarşı vandallığını məhz belə dəyərləndirmək lazımdır. Bu həm də etnik və mədəni təmizləmə, müharibə cinayətləridir. Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirilən mədəni soyqırımı tək Azərbaycan mədəniyyətinə deyil,həmçinin dünya mədəniyyəti abidələrinə qarşı edilən hücumlardır.Bu cəhdin səbəbi Qarabağda azərbaycanlı əhalinin əsrlərlə yaşamasına dəlalət edən izləri itirmək, azərbaycanlıların mədəni kimliyini yox etməkdir.

1990-cı illərin əvvəllərinə olan statistikaya əsasən, işğal edilmiş ərazilərimizdə 2625 abidə qeydə alınmışdı. Onlardan 11-i beynəlxalq əhəmiyyətli, 240-ı ölkə əhəmiyyətli və 455-i yerli əhəmiyyətli olmaqla ümumilikdə 706-sı dövlət tərəfindən mühafizə edilirdi. Həmçinin yüzlərlə

mədəniyyət müəssisəsi, o cümlədən 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, o cümlədən Füzuli rayonu ərazisində dünyanın ən qədim yaşayış məskənlərindən biri – Azıx mağarası, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu erməni vandalizminin qurbanına çevrilib.[2] XX əsrin əvvəllərində tarixi Azərbaycan torpağı olan İrəvan quberniyası ərazisində 300 məscid qeydə alındığı halda, bu gün Ermənistan ərazisində - İrəvan şəhərində yalnız bir məscid – Göy məscid qismən salamat qalıb ki, bununla da erməni tərəfi beynəlxalq ictimaiyyət qarşısında gözdən pərdə asmaq istəyir. Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə muzeyləri tabeliyində olan əlyazmalar və digər dəyərli eksponatlar da yox edilib və ya da ki onlar oğurlanaraq qara bazarlarda satışa çıxarılıb. Bundan başqa Azərbaycanın xalçaçılıq sənətinin dəyərli nümunələri talan edilib. Mədəni irsin hədəfə alınması isə müharibə cinayətidir. Ermənistan 27 ildən çoxdur ki, Azərbaycanın işğal olunmuş ərazilərində mədəni və tarixi irsin xarakterini sistematik və qəsdən məhv edib dəyişdirir. Bu, ATƏT-in 2005 və 2010-cu illərdə işğal olunmuş ərazilərə dair faktaraşdırıcı missiyaları tərəfindən sənədləşdirilib. Bundan əlavə, beynəlxalq medianın peyk şəkilləri və hesabatları da bu qanunazidd hərəkətlərin beynəlxalq humanitar hüquqa, o cümlədən 1954-cü il üçün UNESCO-nun Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında Haaqa Konvensiyasına və onun iki protokoluna zidd olduğunu göstərir.[4]

Belə ki, erməni təcavüzkarları ələ keçirdikləri ərazilərdə 12 muzeyi və 6 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət etmiş və yandırmışlar. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan olunmuş, 44 məbəd və 9 məscid təhqir edilmişdir. Dağıdılan və yandırılan 927 kitabxanada 4 milyon 6 yüz min kitab və misilsiz əlyazma nümunələri məhv edilmişdir. Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində ölkəyə dəymiş ziyan təxminən 500 milyard ABŞ dollarından çoxdur. Ermənistan ərazisində azərbaycanlılara məxsus 223

qəbiristanlıq, 49 məscid, 68 tarixi-memarlıq abidəsi tədricən erməni vandalları tərəfindən səssizsəmirsiz dağıdılır. Lakin mövcud ilk mənbələr və ayrı-ayrı müəlliflərin əsərlərində əksini tapan məlumatlar onu göstərir ki, erməni vandalları azərbaycanlılara məxsus maddi-mədəniyyət nümunələrinin izlərini silməyə çalışsalar da, onları öz adlarına çıxmağa çalışsalar da tarixin yaddaşından onları silmək mümkün deyildir". Əlbəttə, tarixi yaddaşımızı silmək erməni vandallarına qismət olmadı və əksinə, işğaldan azad olunan torpaqlarımızda yenidən tarixi izlərimizi bərpa etməyə ruhlanlandırdı. Azərbaycanın işğal edilmiş ərazilərində 400-dən çox tarixi abidə olub ki, onların yarısı erməni vandalizmi nəticəsində dağıdılıb, yarısı isə ermənliləşdirilib. Laçın rayonunun işğalından sonra Laçın şəhərində, Cicimli, Güləbird, Zeyvə, Malıbəy, Soltanlar, Seyidlər, Kosalar və digər kəndlərdə 40-a yaxın heyvan fiqurları, üzərində yazılar və rəsmlər olan 35-dən artıq sal daşlar, qəbirüstü daşlar dağıdılmış, baxımsız vəziyyətə salınmış, bəziləri isə bu ərazidən daşınıb. Sarı Aşıq türbəsi, Şeyxəhməd, Soltan baba məbədləri, Dəmirovlu pir məbədi və digər neçə-neçə abidələr dağıdılıb. Laçın Tarix-Diyarşünaslıq Muzeyində, Şəkil Qalereyasında, bölgənin gerçək tarixini əks etdirən mənbə və abidələr məhv edilmiş, qiymətli eksponatlar talanmış, satılmış və sıradan çıxarılıb. Ermənilər tərəfindən "erməniləşdirilməyə" məruz qalan alban xristian abidələri sırasında Laçın rayonunun Kosalar kəndi yaxınlığında yerləşən Ağoğlan məbədinin (IV əsr) adı xüsusi qeyd edilməlidir. Erməni vandalizminin üzərində dəyişikliklər apardığı ən mühüm abidələrdən biri isə Kəlbəcər rayonunun Vəngli kəndində yerləşən Gəncəsər monastrı (XIII əsr) olmuşdur. Xristian alban türkü Həsən Cəlalın hökmranlığı dövründə inşa edilmiş monastrın daxilində işğaldan sonra boyama işləri aparılmış, ermənicə yazılar həkk olunmuşdur. Abidənin xarici divarlarındakı alban izlərinin silinməsi üçün isə onun üzəri daş piltələrlə örtülmüşdür.[3]

Bu və ya digər faktlara diqqət salarkən, onu da qeyd etmək yerinə düşər ki, keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək Muzeyi şəhərin bombardmanı zamanı yerlə yeksan edilmiş, dünya şöhrətli Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin 13 minədək, Laçın Tarix-Diyarşünaslıq Muzeyinin 5 mindən çox qiymətli və nadir əşyası Ermənistana

daşınmışdır. Şuşanın zəbt edilməsi nəticəsində mənəviyyatımıza olduqca ağır zərbə endirilmişdir. Təkcə Şuşa şəhərində 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi dağıdılmış, viran edilmişdir. Şuşa şəhərinin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi Şuşa filialının, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək əşyası, professional Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun 300-dən çox əşyası qarət olunmuşdur. Azərbaycan vokal sənətimizin əsasını qoymuş böyük müğənni Bülbülün, görkəmli musiqiçi və rəssam Mir Mövsüm Nəvvabın, Qubadlı Tarix-Diyarşünaslıq Muzeyinin, Zəngilan Tarix-Diyarşünaslıq Muzeyinin fondları erməni təcavüzkarlarının əlinə keçibdir. O cümlədən, görkəmli Azərbaycan musiqiçisi Qurban Pirimovun Ağdam rayonundakı xatirə muzeyi, Cəbrayıl, Füzuli, Xocalı rayonlarının tarix-diyarşünaslıq muzeyləri də dağıdılmışdır.[1] II Vətən müharibəsi dövründə münaqişə zonasından təxminən 80 kilometr uzaqda yerləşən, Azərbaycanın ikinci ən böyük şəhəri və qədim mədəniyyət mərkəzi olan Gəncəyə raket hücum nəticəsində nəinki dinc insanlar ölüb və yaralanıb, həm də tarixi tikililərə ziyan dəyib. XIX əsrdə tikilmiş Gəncə gimnaziyası, IX əsrin İmamzadə məscidi, XIX əsr Aleksandr Nevski Rus Pravoslav kilsəsi kimi digər abidələr də Ermənistanın raket hücumları nəticəsində zərər görüb. Təbbi ki,hər bir xalqa məxsus tarixi maddi və mənəvi abidələr yaddaşın yarandığı, yaşandığı, toplandığı və saxlanıldığı obyektlərdir. Eyni zamanda xalq yaddaşının, xalq özünüdərkinin, xalq müdrikliyinin daşıyıcısıdır və onun bu xeyirxah tərbiyəvi potensialı insanda Vətən hissini oyadır, insanın öz əcdadlarına, irsinə olan məhəbbətini gücləndirir. Ümumiyyətlə,mədəni-tarixi irs sosial dəyərdir və nəsildən-nəslə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Elə bu səbəblə mənfur qonşularımız işğal etdikləri torpaqlarımızda maddi və mənəvi dəyərlərimizi yerlə-yeksan etməklə milli kimliyimizi unutdurmağa çalışırlar.

**Ədəbiyyat:**

1. Nəzakət Ələddinqızı. Azərbaycanın yüzlərlə tarixi-dini abidələri erməni vandalizmi nəticəsində məhv edilib: Erməni işğalçılarının bərbar hərəkətləri "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" Haaqa Konvensiyasına ziddir. Səs.- 2011.- 21 may.- S.
2. Səbuhi MƏMMƏDOV,Ermənilərin xroniki xəstəliyi: tarixi yaddaşımızı oğurlamaq mərəzi. Xalq qəzeti.- 2020.- 1 noyabr.- № 227.- S.
3. https://science.gov.az/az/news/open/14856
4. http://mct.gov.az/az/umumi-xeberler/13291

**Fəl.f.d., dos. Səfərova Nazilə Xasay qızı**

**Azərbaycan Dillər Universiteti**

**Fəlsəfə və ictimai elmlər**

## İkinci Qarabağ Vətən Müharibəsində hakimiyyət və xalq mənafelərinin uzlaşması

Açar sözlər: hakimiyyət, mənafe, xalq, nəzarət

Ключевые слова: власть, интерес, народ, контроль

Key words: dominion, interest, people, control

Hər hansı bir xalqın formalaşmasının bir çox əlamətləri vardır. Məsələn, nəsillərarası varislik, dil birliyi, ümumi mədəniyyət və ənənələr, ümumi mentalitet, tarixən ümumi taleyə malik olmaq və s. Onların içərisində başlıca yeri tarixən ümumi taleyə məxsus olmaq tutur. Ona görə ki, hər hansı bir xalqın formalaşmasının ilkin şərti eyni bir əraziyə və dövlətə, yəni hakimiyyətə malik vətəndaşların mövcudluğudur, Hətta, xalqın müəyyən tarixi səbəblərlə bağlı səpələnməsinə (yəhudi, erməni) və yaxud da uzun müddət bölünmüş halda yaşaması (Koreya xalqı, cənubda və şimalda yaşayan azərbaycanlılar) onun nümayəndələrinin tarixi tale ümumiliyini inkar etmir. Bu baxımdan da məhz ərazi və hakimiyyət birliyinin zəruriliyi özünü bir daha büruzə verir. Təsadüfi deyildir ki, sosial məkan anlayışının sosioloji tədqiqi XX əsrin nailiyyətidir. Bununla əlaqədar müasir elmi ədəbiyyatda P.Burdje, M.Fukonun, Qiddensin, Xabermasın və başqalarının yaradıcılığında hakimiyyət məsələsi sosial, yaxud da siyasi məkan anlayışları ilə əlaqəli şəkildə araşdırılmışdır. Sosial

məkan terminini ilk dəfə elmə Pitarim Sorokin özünün «Sosial və mədəni mobillik» əsərində gətirmişdir. O, bu anlayışı sosial stratifikasiya və sosial mobillik konsepsiyasını araşdırarkən işlətmişdir. P.Sorokinə görə, hər iki anlayış fərdlərin, yaxud qrupların müəyyən vəziyyətini və həmin vəziyyətin müəyyən sosial məkanda dəyişməsini xarakterizə edir. Geniş mənada sosial məkan dedikdə yer kürəsində əhalinin məskunlaşması anlaşılır. Lakin əslində isə sosial məkan ideyası hər bir cəmiyyətdə insanların münasibətlərinin iyerarxiyalaşmasında, yəni «yuxarıların» və «aşağıların» mövcudluğundan meydana gəlmişdir [1, s. 337-338].

İnsanların müəyyən sosial məkanda məskunlaşması və birgə fəaliyyəti hakimiyyətin yaranmasına səbəb olmuşdur. Yəni hakimiyyət bəşər cəmiyyəti ilə eyni vaxtda meydana gəlmiş və onunla paralel inkişaf etmişdir. Ona görə də alman sosioloqu M.Veber hər bir ictimai-iqtisadi formasiyanın xarakterinə uyğun olaraq hakimiyyətin tiplərini təsnif etmişdir.

Ənənəvi hakimiyyətin başlıca xüsusiyyəti ondan ibarətdir ki, burada hökmdar hakimiyyətinin mütləq hədləri ənənələrlə müyyən olunur, bu isə öz növbəsində onun özbaşınalığını məhdudlaşdırır.

Hakimiyyətin digər tipini M.Veber «xarizmatizm» adlandırmışdır. Bunun başlıca fərqi kütlə ilə lider arasında yaranan xüsusi münasibətlər sistemindədir. Belə ki, öz sosial-iqtisadi vəziyyətindən narazı olan kütlə özünün yaxşı həyatla bağlı fikir və arzularını müəyyən şəxsiyyətin, özü də kütlənin şüurunda fövqəltəbii, qeyri-adi gücə malik şəxsiyyətin varlığından asılı olduğunu hesab edir.

Hakimiyyətin başqa bir tipi isə rasional-leqal hakimiyyətdir. Bu hakimiyyət tipinin əsasında hüquqi institutların məcmusu və dövlətlə

vətəndaş arasında qarşılıqlı əlaqələr barədə inkişaf etmiş təsəvvürlər sistemi durur. Yəni rasional-leqal hakimiyyətdən o zaman danışmaq olar ki, orada hüquq qaydalarının ədalətli olmasına olan inam əsasında onlara əməl edilir və onlar reallaşdırılır [1, s. 35-36].

Bu və ya digər hakimiyyət forması müəyyən qüvvələr, yəni onun subyektləri tərəfindən həyata keçirilir. Hakimiyyətin subyekti, qruplar, siyasi təşkilatlar, ayrı-ayrı liderlər və bütövlükdə xalqdır. Onlar arasında sosial-siyasi, mənəvi-mədəni, ailə-məişət, dini və s. kimi münasibətlər mövcuddur. Bu münasibətləri tənzimləmək və onlardan istifadə etmək hər bir hakimiyyətin əvəzedilməz funksiyasıdır. Ona görə də, hakimiyyət konstruktiv vasitələr işləyib hazırlayır. Belə vasitələrdən biri «xalqın mənafeləri»dir. Siyasi mənafe – cəmiyyətdəki bütün ümummilli, sosial-siyasi, iqtisadi, sinfi, mənəvi məqsədləri mərkəzləşdirib sintez halında ifadə edir. Odur ki, siyasi mənafe cəmiyyətdəki bütün ziddiyyətlərin, toqquşma və konfliktlərin əsasında durur. Həmin hadisələrdən hər bir sinif, sosial təbəqə, qrup öz siyasi mənafeyinə uyğun şəkildə iştirak edir və sosial-siyasi mövqe tutur. Deməli, hadisələrə öz siyasi baxışı formalaşır.

Siyasi praktika göstərir ki, hər bir siyasi aksiya, hərəkat, yaxud sktruktur öz hərəkətlərini xalq mənafelərinin təmsilçisi kimi çıxış etməyin köməkliyi ilə legitimləşdirməyə (latın dilində «qanunauyğun», «qanuni», «düzgün» mənasını verir), qanuniləşdirməyə cəhd göstərir. Buna misal olaraq 15 iyul 2020-ci il tarixində Bakıda və onun müxtəlif şəhər və rayonlarında da altı gün davam edən Tovuz əməliyyatındakı uğruna görə Azərbaycan Ordusunu dəstəkləyən aksiya keçirilmişdir. Bu aksiya xalqın, dövlətin və ordunun monolit birliyini, yəni mənafelərinin uzlaşmasını

ifadə edir [2].

Lakin «hakimiyyət və xalq» probleminə münasibətdə iki fərqli yanaşma mühafizəkarlar («maarifçi monarx») və radikal inqilabi ideologiyaya görə, xalq öz mənafelərini anlamır, yalnız onların maraqlarını dövlət daha yaxşı başa düşür. Bu fikirlər tarixin müxtəlif dövrlərində qeyri-demokratik rejimli idarəetmə formalarında öz təsdiqini tapmışdır. Məsələn, keçmiş sovetlər məkanında stalinizm siyasi sistemi üçün hakimiyyətə kor-koranə inam insanların mövqeyi üçün xarakterik bir xüsusiyyət olmuşdur. Ancaq demokratik rejimli ölkələrdə isə hakimiyyət və xalq mənafelərinə münasibət yuxarıda deyilənlərin tam əksinədir. Əsas ideya bundan ibarətdir ki, xalq öz mənafelərini onun təmsilçilərindən, xüsusilə hakimiyyətə gələnlərdən yaxşı dərk edir. Bununla əlaqədar M.Veberin belə bir fikrini xatırladaq ki, hər bir hakimiyyət qəbul olunmuş qanunçuluğa əsaslanır və legitimlik bu hakimiyyətin fəaliyyətini təmin edən mexanizmlərdən biridir. Əgər cəmiyyətdə baş verən böhrandan, idarəçilik və hökmranlıq formalarının dəyişməsindən söhbət gedərsə, deməli, legitimlik də böhran keçirər, bunlar bir-birindən ayrılmazdır. Ümumiyyətlə, hökmranlıq və tabeçilik məsələlərinin qarşılıqlı təsirindən danışarkən üstünlük həmişə hakimiyyət strukturlarına tabeçiliyə, onu müdafiəyə və qəbul olunması mexanizminin təmin olunmasına verilir [1, s. 40-41].

Digər mühüm problem sosial nəzarət konsepsiyasının işlənib hazırlanmasıdır, həmin konsepsiya qanuna riayət edən davranışa şərait yaratmaq və bu davranışın daşıyıcılarına ən müxtəlif sanksiyalar (icazə, qanunun yerinə yetirilməsini təmin edən şərt) tətbiq etmək prinsipinə əsaslanmalıdır. Yalnız belə halda mövcud siyasi sistemin legitim fəaliyyəti

və vətəndaşların rifahını yüksəldən və maraqlarını ifadə edən hakimiyyətlə xalqın mənafelərinin uzlaşması mümkündür.

**Ədəbiyyat:**


1. Dayızadə H., Əliyev Q. Konfliktologiyaya giriş. Bakı: “Təbib”, 1998.
2. whttps://az.m.wikipedia.org>wiki
3. Крапивенский С. Социальная философия. М., 1998

*Soltanzadə Aygün*
*Azərbaycan Dillər Universiteti*

# II QARABAĞ MÜHARİBƏSİNDƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN DƏSTƏYİ

**Açar sözlər:** Azərbaycan, II Qarabağ Müharibəsi, Müsəlman ölkələri

**Ключевые слова**: Азербайджан, Вторая Карабахская Война, Мусульманские страны

**Key words**: Azerbaijan, The Second Karabakh War, Muslim countries

Sentyabrın 27-dən başlayan və 44 gün davam edən II Qarabağ müharibəsində Türkiyə ilk gündən açıq şəkildə Azərbaycana tərəfdar olduğunu göstərdi. Xarici işlər naziri Mövlud Çavuoğlu həm masada, həm də meydanda Azərbaycanın yanında olduqlarını söylədi. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan prezidenti İlham Əliyevlə də görüşündə Türkiyənin Azərbaycanın yanında olduğunu söylədi. Türkiyə Böyük Millət Məclisinin Baş Məclisində AK Partiya, CHP, MHP və İyi Partiyası Parlament qrupları "Ermənistanın Azərbaycana hücumunu pisləyirik" adlı birgə bəyanatla çıxış etdilər. Digər müsəlman ölkələrinin hökumətləri də Dağlıq Qarabağ münaqişəsində bəyanatlar verdi.

Toqquşmalar başladıqdan sonra İslamabad rəhbərliyi Azərbaycana hərtərəfli dəstəyini təklif etdi və Pakistanın Azərbaycanın tərəfində olduğu bildirildi. Pakistan hökumətinin verdiyi açıqlamada, "Pakistan qardaş ölkə Azərbaycanın yanında dayanır və özünümüdafiə hüququnu dəstəkləyir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının səs çoxluğu ilə qəbul etdiyi

bir neçə qətnaməsinə uyğun olaraq Azərbaycanın Dağlıq Qarabağ mövzusunda mövqeyini dəstəkləyirik. " ifadələr daxil edildi. [4]

Bosniya və Herseqovina Prezident Şurasının prezidenti Sefik Dzaferoviç və ölkənin ən böyük Bosniya partiyası olan Demokratik Fəaliyyət Partiyasının (SDA) sədri Bakir İzetbegoviç Azərbaycana dəstək mesajı göndərdilər. Sarayevo Dzaferoviç, Azərbaycan Prezidenti İlham Əliyevə mesajında Bosniya və Herseqovinanın Azərbaycanın ərazi bütövlüyünə hörmət etdiyini vurğuladı və sülh yolu ilə həll olunmasını arzuladı. Ermənistanın Dağlıq Qarabağdakı hücumlarını qınadığını qeyd edən Dzaferoviç, Bosniya və Herseqovina ilə Azərbaycanın çox yaxşı və dostluq münasibətləri olan iki ölkə olduğunu bildirdi. Bakir İzetbegovic, Ermənistanla Azərbaycan arasında baş verən hadisələrdən narahatlığını ifadə edərək, "Beynəlxalq hüquqa görə, Dağlıq Qarabağ Azərbaycana məxsusdur. Ermənistanın mülki əhalini hədəf alan hücumları qəbuledilməzdir" dedi. Bosniya və Herseqovinanın 1990-cı illərdə Azərbaycanın bu gün yaşadıqları ilə üzləşdiyini deyən İzetbegoviç, "Azərbaycanın ərazi bütövlüyünü qorumaq hüququna malikdir. Beynəlxalq təşkilatlar Ermənistanın etdiklərinə son qoymaq məcburiyyətindədir" dedi. Beynəlxalq ictimaiyyətin Ermənistanın qanunsuz hərəkətləri ilə bağlı hər hansı bir qərarsız və qərəzsiz yanaşmasının münaqişələrin davam etməsinə dəstək verəcəyini qeyd edən İzetbeqoviç, Azərbaycan rəhbərliyinə dəstək verməyin vacib olduğunu vurğuladı. [3]

Əfqanıstan Xarici İşlər Nazirliyi, Azərbaycan hökuməti və xalqının Dağlıq Qarabağın işğaldan azad edilməsi səylərini

dəstəklədiklərini açıqladı. Dağlıq Qarabağ bölgəsində Ermənistanla Azərbaycan arasında davam edən şiddətli toqquşmalardan narahatlıq duyduqlarını, bu sahədə Azərbaycanın bir hissəsi olan Dağlıq Qarabağı tanıdıqlarını ifadə edən bəyanatda, Əfqanıstanın Dağlıq Qarabağın işğaldan azad edilməsini istədiyi qeyd edildi. Bəyanatda Dağlıq Qarabağda uzun müddətdir davam edən böhranın sülh yolu ilə həll etməyə çağırdı. [1]

Şimali Kipr Türk Respublikasının baş naziri Ersin Tatar açıqlamalar verdi. Facebook-da edilən açıqlamada, Ermənistanın qardaş Azərbaycana qarşı hücumlarını şiddətlə qınadıqlarını və şəhidlərə Allahdan rəhmət dilədiklərini və yaralıların tezliklə sağalmasını arzuladıqlarını çatdırdılar. Azərbaycanın heç vaxt tək olmadığını, Ermənistanın və onu hücuma təhrik edənlərin arzularına çatmayacaqlarını ifadə etdilər. [4]

Malayziya rəhbərliyi sentyabrın 27-də baş verən toqquşmalardan sonra açıqlama verməyib, lakin iyul ayında Ermənistanla Azərbaycan arasında yaşanan qarşıdurmadan sonra Malayziya Parlamenti, Malayziya-Azərbaycan Parlament Dostluq Qrupunun sədri Rozman İşli yazılı açıqlama verib və açıqlamasında Ermənistanın Tovuz bölgəsindəki Azərbaycan mövqelərinə 12 iyul tarixli hücumlarını qınadığını və "Malayziyanın Azərbaycan Respublikasının suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü dəstəkləyir " bildirdi . [6]

İslam Əməkdaşlıq Təşkilatı Azərbaycan qüvvələrinə qarşı dəfələrlə törədilən təxribatları və Azərbaycana məxsus bəzi ərazilərdə mülki vətəndaşların tələf olması ilə nəticələnən hücumları pislədi və Ermənistan qüvvələrinin başladığı hücumları dərin narahatlıqla izlədiyini ifadə edərək, Azərbaycanla həmrəy olduğunu bildirdi. Eyni zamanda,

Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini xatırladaraq, İƏT erməni qüvvələrinin Azərbaycan torpaqlarından tam və qeyd-şərtsiz çıxarılmasını, iki ölkə arasındakı münaqişədə Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət çərçivəsində siyasi həll yolu ilə dialoqun qəbul edilməsini tələbi çağırışını etdi. [5]

Səudiyyə Ərəbistanının verdiyi açıqlamada Ermənistanla Azərbaycan arasındakı münaqişənin sülh yolu ilə həllinə çağırış edilib. Səudiyyə Ərəbistanı Krallığı Ermənistan və Azərbaycan arasındakı vəziyyətlə bağlı inkişaflarını böyük narahatlıqla izlədiyini bildirib. Açıqlamada isə BMT  Təhlükəsizlik Şurasının müvafiq qərarlarının əsas götürülməsi istənildi. BMT Təhlükəsizlik Şurası 4 ayrı qətnaməsində Ermənistanı işğalçı kimi tanıyır, Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu vurğulayır və Ermənistanın bu torpaqları tərk etməsini tələb edir. [6]

Qazaxıstan Xarici İşlər Nazirliyi Dağlıq Qarabağda münaqişələr başlayandan dərhal sonra açıqlama verib, Azərbaycan və Ermənistanı gərginliyi azaltmağa və danışıqlara başlamağa çağırıb. Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağda yaşanan gərginlikdən narahat olduğunu bildirən Nazirliyin açıqlamasında, Azərbaycan və Ermənistanı sabitliyi təmin etmək üçün bütün tədbirləri görməyə, güc tətbiqini dayandırmağa və danışıqlara başlamağa çağırdıqlarını ifadə etmişdi. [4]

Misir xarici işlər nazirinin müavini səfir Bədr Əbdül-Ati Azərbaycanla Ermənistan arasındakı münaqişələr və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı açıqlama verib. Bədr Əbdül-Ati, Misirin Azərbaycan-

Ermənistan sərhədində baş verən hadisələrdən narahat olduğunu və BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini bildirdi. Xarici işlər nazirinin müavini həmçinin Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatının üzvü olan Misirin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını və problemlərin silahla deyil, sülh danışıqları yolu ilə həll edilməsinin daha məqsədəuyğun olduğunu bildirdi. [7]

İkinci Qarabağ müharibəsində Azərbaycan işğal altındakı 7 rayonu və yüksək mənəvi dəyərə malik olan Şuşanı xilas etməklə həm 30 illik sürgünə son qoydu, həm də bu sürgünün vurduğu mənəvi ziyanı ödədi. Azərbaycan xalqı artıq 30 il əvvəl tərk etdiyi evlərinə qayıtmaq imkanına malikdir. Azərbaycan həm də Cənubi Qafqazda iqtisadi, hərbi və siyasi baxımdan ən güclü dövlət olduğunu sübut etdi.

**İstifadə edilən ədəbiyyat siyahısı:**

1. Afganistan'dan Azerbaycan'a destek mesajı https://www.trthaber.com/haber/dunya/afganistandan-azerbaycana-destek-mesaji-519309.html
2. Azerbaycan'a hangi ülkeler destek veriyor? https://www.habernediyor.com/dunya/azerbaycana-hangi-ulkeler-destek-veriyor-h46779.html
3. Boşnak liderlerden Azerbaycan'a destek. https://www.aa.com.tr/tr/dunya/bosnak-liderlerden-azerbaycana-destek/1988424#
4. Dağlık Karabağ: Müslüman ülkeler nasıl bir tutum sergiledi? https://tr.euronews.com/2020/10/01/dagl-k-karabag-musluman-ulkeler-nas-l-bir-tutum-sergiledi
5. İslam İşbirliği Teşkilatı'ndan Ermenistan'a kınama https://www.mepanews.com/islam-isbirligi-teskilatindan-ermenistana-kinama-40007h.htm

6. Malezya'dan Azerbaycan'a destek açıklaması: "Mutlak destekle yanındayız" https://www.takvim.com.tr/dunya/2020/07/27/malezyadan-azerbaycana-destek-aciklamasi- mutlak-destekle-yanindayiz
7. Mısır'dan Azerbaycan'a Karabağ desteği! https://www.karadenizgazete.com.tr/dunya/misirdan-azerbaycana-karabag-destegi/283219

*Шахгусейнбекова Лейла Ариф*
*Азербайджанский Университет Языков*

# ВОЙНА В КАРАБАХЕ: ИНТЕРЕСЫ РОССИИ КАК РЕГИОНАЛЬНОГО АРБИТРА

Açar sözlər: Russiya, Qarabağ, müharibə, Cənubi Qavqaz
Ключевые слова: Россия, Карабах, война, Южный Кавказ
Key words: Russia, Karabakh, war, South Caucasus

Война осенью 2020 года кардинально изменила динамику конфликта, которую принято было считать «замороженным» между Азербайджаном и Арменией. Обьектом конфликта является Нагорный Карабах который является исконно историческими землями Азербайджана. Несмотря на правовое признание международного сообщества этих земель принадлежащим Азербайджану, на протяжения более десятилетий находилось под оккупацией Армении.

Как и любая война она имеет свои последствия и итоги которая стоила десятков жизни военного контингента для обеих сторон. Политическое значение войны принято рассматривать как начало хаоса и разногласий между правительством и народом в Армении полное противоположность имело место в Азербайджане где народ и глава государство выступали как единое целое.

Конфликт находиться в непосредственном интересе региональных стран таких как Россия, Турция и Иран так как входит в сферу их регионального влияния и геополитического баланса.

Особо хотелось отметить роль России в этой войне так как учитывая многолетнее сосуществования в рамках Советского Союза, непосредственную вовлеченность в 90 годах в конфликт, а так же как член Минской группы.

Официально Россия заняла позицию нейтралитета осенью 2020 года. В начале октября 2020 года пресс секретарь президента Дмитрий Песков отметил что Россия как член ОДКБ не несет никакие обязанности по Карабаху так как в договоре оговорено взаимную помощь на территории стран членов. А Карабах является международной признанной частью Азербайджана. Иллюзии Армении вовлечь Россию в войну которая не затрагивает ее национальных интересов полностью уничтожилось благодаря правильно выработанной политики и администрации российской стороны.

Официально Россия с первых дней эскалации призывала стороны к переговорам и перемирию. Так же настаивая на переговорах с турецкой стороной как региональным партнером. Спустя несколько дней президент России Владимир Путин отметил что «долгосрочное урегулирование в поиске баланса интересов, который устраивал бы обе стороны .... У каждого своя правда. Простых решений не бывает, так как узел завязан очень сложным способом»[1].

Девятого ноября 2020, во многих средствах массовой информации передавалось что президент Азербайджана Ильхам Алиев и премьер министр Армении Николь Пашинян при соучастии

президента России Владимира Путина подписали перемирие или своего рода мирный договор [2].

Реализация в полном обьеме соглашения от 9 ноября обеспечит и расширит мирное сосуществование в регионе сохраняя безопасность в пределах Карабаха. Одним из основных пунктов соглашения в котором Россия была в значительной степени заинтересована стало развертывание в зоне конфликта российских войск в качестве миротворческого контингента.

Согласно соглашению от 9 ноября 2020 года, Россия, как сообщается, направила в зону конфликта не менее 1960 солдат, 90 бронетранспортеров и 380 автомобилей и специального оборудования в составе миротворческого контингента.

Россия размещает наблюдательные посты вдоль линии прекращения огня  для наблюдения за перемирием, обеспечения безопасности жителей и обеспечения безопасности транзита между Арменией и  Карабахом.

Соглашение так же предусматривает создание миротворческого центра в Азербайджане (за пределами зоны конфликта) для наблюдения за соблюдением режима прекращения огня; Согласно сообщениям, центр будет укомплектован российскими и турецкими силами [3].

Кроме того, пограничные войска Федеральной службы безопасности России (ФСБ) должны гарантировать свободное передвижение на освобожденных территориях.

При посредничестве военного контингента России стороны конфликта также осуществляют обмен пленными как часть послевоенного урегулирование.

Местные и региональные последствия войны осенью 2020 года продолжают разворачиваться в некоторых аспектах. В Армении, в процессе шести недельной войны, возможно впервые осознали что Россия как и любое правовое государство будет действовать в рамках национальных интересов, а не в роли опекуна. Это открыто было заявлено в официальных речах президента России и его администрации. В Азербайджане правительство рассматривает партнерство с Россией как неотъемлемую часть своей региональной безопасности и сотрудничество о чем не раз высказывала и российская сторона.

Однако война хотя не решила некоторых нюансов, но перевернула давние и неэффективные рамки урегулирования конфликта Минской группой ОБСЕ. Война привела к политическим беспорядкам в Армении и укрепила правительство Азербайджана. Участие России в ходе переговоров и подписание договора о прекращении войны еще раз подчеркнуло позиции России в регионе, ее интересы и позиции по обеспечению безопасности, а также приоритеты сотрудничества.

## Использованная литература

1. (TASS Russian NewsAgency(TASS),“‘BalanceofInterests’:Putin’sFormulaforSettlingNagorno-Karabakh Conflict,” October 29, 2020. )
2. (Theagreementisavailable atPresidentofRussia, “StatementbythePresidentoftheRepublicofAzerbaijan,the Prime Minister of the Republic of Armenia and the President of the Russian Federation,” November 10, 2020. Prior to this agreement, three other cease-fire efforts had been attempted, including one on October 25 via U.S. mediation. NailiaBagirovaandNvardHovhannisyan,“U.S.BackedTruceCrumbles asNagorno-KarabakhFightingResumes,” Reuters, October 26, 2020. )
3. Suzan Fraser,“TurkishParliamentApprovesPeacekeepersforAzerbaijan,” AssociatedPress,November17,2020.

Шаймерден Газиз Иксангалиулы

Костанайский региональный университет

**АРХИТЕКТУРА ТЮРКСКОГО МИРА**

Вечной и светлой памяти шахидов,
погибших за освобождение Карабаха, посвящается.

Ключевые слова: **глобализация, интеграция, тюркский мир, цивилизация**.

Казахстан в настоящее время испытывает мощный прессинг в виде идеологического, информационного, экономического и политического давления, в первую очередь со стороны нашего северного соседа. Говорить о каком-либо серьезном информационном и идеологическом влиянии Запада или Востока (в лице Китая) на казахстанское общество не приходится, поскольку подавляющее большинство граждан РК не владеет английским и тем более китайским языками. Зато русским языком владеют практически все граждане Казахстана.

Судьбоносные вопросы будущего Астаны как одного из локомотивов ЦАР будут зависеть во многом от влияния внешних факторов. Их условно можно разбить на несколько векторов. Российский, китайский, тюркский, западноевропейский, американский и исламский. Рожденный творческой фантазией З. Бжезинского термин «многовекторность внешней политики» достаточно успешно реализовывался Акордой до недавнего времени, пока не дал ощутимый крен в сторону российского направления.

На этом фоне прошедшая 15 марта 2018 года в Астане Рабочая (консультативная) встреча глав государств Центральной Азии (Туркмения была представлена председателем Меджлиса А. Нурбердыевой) свидетельствует о возрождении регионального, центрально-азиатского вектора многостороннего взаимодействия. Как говорил М.С. Горбачев – процесс пошел.

Так или иначе, но фактор тюркской идентичности, который, как считает Г. Телебаев, является базовым [1, с. 52] и фактор принадлежности к единой мусульманской умме все-таки сыграли свою роль. В Центральной Азии отныне складывается новая реальность. Как считает, М-А. Сыдыкназаров, Центральная Азия теперь сама должна конструировать свою новую региональную идентичность. До этого ее конструировали извне [2].

Волею исторической судьбы Казахстан оказался на перекрестке цивилизаций. В этих условиях есть угроза, безусловно, включения Казахстана в орбиту той или иной державы. Но какова степень реальности этой угрозы? Так ли она неминуема. Официальная власть, как представляется, надежды возлагает на применяемую ей в отношениях с другими странами политику многовекторного равновесия, которая в последние годы дала чрезмерный крен в сторону России. Как считает Д. Сатпаев, интерес Казахстана в том, что мы не должны идти в фарватере какого-то крупного геополитического игрока, нам не нужен «старший брат» — ни в лице России, ни в лице иного государства [3].

Тогда как Казахстан больше азиатская, чем евразийская страна, Казахстан – это часть тюркского мира и часть исламского мира. И это наша суть, наша судьба и наше предопределение.

Региональная кооперация государств ЦАР вкупе с экономическим взаимодействием с Турцией и Азербайджаном может в перспективе составить реальную альтернативу ТС и ЕАЭС. Энергетические проекты с участием Азербайджана и стран ЦАР, которые обеспечивают поступление энергоресурсов в Турцию и далее на Запад могут стать основой энергетической безопасности Европы и содействовать экономическому развитию региона. Эти проекты вызывают серьезное беспокойство нашего северного соседа, который считает их конкурентами и угрозой для его господства на мировом рынке углеводородов.

Параллельно с экономической интеграцией странам тюркского мира необходима консолидация военно-политическая. Тем более, что по многим вопросам международной повестки, таким как Сирия и проблемы Ближнего Востока, Афганистан, Нагорный Карабах, Кипр и другим у стран ЦАР, Турции и Азербайджана наблюдается единая позиция.

Следует признать, что реализация проекта создания «армии Турана» - это дело отдаленной перспективы. Россия и Китай будут всячески препятствовать этому проекту, который может серьезно подорвать их влияние в регионе Центральной Азии. Пока остается формат двустороннего сотрудничества тюркских государств ЦАР с Турцией. Успехи военно-политического взаимодействия Турции и

Азербайджана могут стать в будущем фундаментом проекта «армии Турана» [4].

Следующий и один из важнейших аспектов тюркской интеграции – это вопросы единого алфавита и единого языка. Вариантов их решения предлагается множество. Нам представляется наиболее убедительной концепция усредненного языка – ортатюрк, предложенная Б.Р. Каримовым. По его мнению, «язык ортатюрк будет близкородственным языком для большинства тюркских языков. Его можно будет изучать дополнительно к изучению родного тюркского языка. Каждая тюркская нация сможет сама выбрать формы, методы и уровень изучения языка ортатюрк, исходя из своих национальных и государственных интересов. Язык ортатюрк может стать добровольным языком межнационального общения, накопления информации общетюркского и мирового значения в сообществе тюркских наций [5].

Тюркское единство – **это вопрос выживания тюркской цивилизации**. Только так и не иначе. Конкуренция в современном мире становится все более ожесточенной. Чтобы не остаться на задворках мировой истории, тюркским государствам Центральной Азии жизненно необходима модернизация во всех сферах жизни. В мировой экономике необходимо найти и прочно занять свою нишу. В геополитической архитектуре мира необходимо занять позицию, с которой бы считалось международное сообщество.

**Литература:**

1. Телебаев Г.Т. Тюркская идентичность казахов // Идентичность и единство: казахстанский путь и модель Н.А. Назарбаева: сборник тезисов Международной научно-практической

конференции. Астана, 28 ноября 2017 года. – Астана: Қазақстан Республикасының Тұғыш Президенті – Елбасының кітапханасы, 2017. – 124 б.,

2. Сыдыкназаров М-А. Центральная Азия сама должна спокойно сконструировать свою новую региональную идентичность. Пока ее конструировали извне [Электронный ресурс]/Режим доступа http://respub.kg/2018/04/05/centralnaya-aziya-sama-dolzhna-spokojno-skonstruirovat-svoyu-novuyu-regionalnuyu-identichnost-poka-ee-konstruirovali-izvne/ (5 апреля 2018)

**3**. Сатпаев Д. Казахстан загнал себя в ловушку, выход из которой может стоить очень дорого [Электронный ресурс] / Режим доступа https://zonakz.net/2018/04/17/dosym-satpaev-kazaxstan-zagnal-sebya-v-lovushku-vyxod-iz-kotoroj-mozhet-stoit-ochen-dorogo/?utm_campaign=redtram&utm_content=406450431&utm_term=377151&utm_source=Redtram (19 апреля 2018)

4. Насретдинов Х. Есть ли перспективы у «Великого Турана». «Великий Туран»: перспективы объединенной тюркской армии [Электронный ресурс] / Режим доступа https://islam.kz/ru/news/v-mire/est-li-perspektivy-u-velikogo-turana-velikii-turan-perspektivy-obedinennoi-tyurkskoi-armii-4623/?utm_referrer=https%3A%2F%2Fzen.yandex.com#gsc.tab=0

5. Ойкуменическая концепция нации, усредненные языки и пути укрепления сотрудничества в Евразийском пространстве // Межэтнические взаимоотношения – гарантия развития евразийских идей. Материалы международной научно-практической конференции при ЮКГУ им. М.Ауэзова. Шымкент, 2007.с.65-72., О языке «ортатюрк». – Доклад на V-Курултае Всемирной Ассамблеи Тюркских народов. 3-6 ноября 2007 г. Шымкент. // Султанмурат Е., Мухаметдинов Р., Каримов Б. Тюркский пояс стабильности. Алматы, 2008. с. 38-41., Проблема языка межтюркского межнационального общения. – Доклад на XI съезде Дружбы, братства и сотрудничества тюркских государств и организаций. 17-19 ноября 2007 г. Баку. // Султанмурат Е., Мухаметдинов Р., Каримов Б. Тюркский пояс стабильности. Алматы, 2008. с. 41-46.

Şahmuradov Aqil Şövkət oğlu
Azərbaycan Dillər Universiteti

## "QIRX DÖRD GÜNLÜK MÜHARİBƏ" DÖVRÜNDƏ RUSİYANIN MÖVQEYİ HAQQINDA

**Açar sözlər:** Qarabağ, atəşkəs, işğalçı, vasitəçilik, KTMT

**Keywords:** Karabakh, ceasefire, occupier, mediation, CSTO

**Ключевые слова:** Карабах, прекращение огня, оккупант, посредничество, ОДКБ

2020-ci il sentyabrın 27-dən noyabrın 10-na qədər davam edən "Qırx dörd günlük" müharibə dövründə hadisələr yalnız döyüş meydanında deyil, həmçinin diplomatiya sahəsində, regional və beynəlxalq səviyyəli müxtəlif platformalarda da cərəyan edirdi. Beynəlxalq hüququn Azərbaycanın tərəfində olmasına baxmayaraq, onun öz ərazi bütövlüyünü bərpa etmək məqsədilə işğalçı Ermənistana qarşı apardığı müharibəyə xarici dövlətlərin reaksiyası birmənalı olmamış və bu məsələnin elmi tədqiqat obyektinə çevrilməsi Azərbaycanın xarici siyasətinin perspektivlərini müəyyənləşdirmək baxımından xüsusi əhəmiyyət kəsb edir.

Ərazi bütövlüyü beynəlxalq birlik tərəfindən tanınan və torpaqlarının bir hissəsi 30 ildən artıq bir müddətdə işğal altında qalan Azərbaycanı, ATƏT-in nəticəsiz fəaliyyətlə məşğul olan Minsk qrupunun həmsədr ölkələrindən biri, Ermənistana təsir göstərmək üçün geniş imkanlara malik olan, Ermənistan-Azərbaycan münaqişəsini dinc

vasitələrlə tənzimləmək məqsədilə bir neçə dəfə vasitəçilik missiyası ilə çıxış edən Rusiya ilə çoxəsrlik və çoxşaxəli əlaqələr bağlayır. Bu səbəbdən də, Rusiyanın “Qırx dörd günlük” müharibəyə reaksiyası və müharibə dövründə davranışı diqqəti cəlb edən məsələlərdəndir.

Müharibə dövründə rəsmi Moskvanın sərgilədiyi mövqeni birmənalı qiymətləndirmək mümkün deyildir. Azərbaycan ordusunun işğalçılara qarşı öz torpaqlarında həyata keçirdiyi əks-hücum əməliyyatları və Ermənistanın KTMT-ni müharibəyə cəlb etmək cəhdləri ilə bağlı Kremldən yayılan bəyanatlar və fikirlər Rusiyanın neytral mövqe tutduğunu söyləməyə müəyyən əsas versə də, işğal etdiyi Azərbaycan torpaqlarını hər vasitə ilə öz nəzarətində saxlamağa çalışan, Azərbaycanın cəbhəətrafı zonada yerləşən Gəncə, Tərtər, Bərdə və digər şəhərlərinə raket zərbələri endirən və bununla da dinc əhaliyə qarşı terror aktları törədən Ermənistan ilə hərbi-texniki əməkdaşlığı leqal və qeyri-leqal yollarla davam etdirməsi bu ölkənin heç də tam neytral olmadığı qənaətinə gəlməyə imkan verir.

Rusiya tərəfdən müharibəyə ilk rəsmi reaksiya bu ölkənin Xarici İşlər Nazirliyi tərəfindən verilmişdir. Sentyabrın 27-də Rusiya Xarici İşlər naziri S. Lavrov Azərbaycan və Ermənistanın Xarici İşlər nazirləri C. Bayramov və Z. Mnatsakanyanla, həmçinin türkiyəli həmkarı M. Çavuşoğlu ilə telefon danışığı zamanı Ermənistan və Azərbaycan arasındakı münaqişənin gərginləşməsindən narahatlığını ifadə etmiş və atəşkəsin bərpa olunmasının vacibliyini vurğulamışdır (1). Rusiya Xarici İşlər naziri sonrakı günlərdə də Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri ilə ayrı-ayrılıqda əlaqə saxlamış və bu zaman, münaqişənin

tənzimlənməsi ilə bağlı təxminən 30 il davam edən nəticəsiz danışıqlar prosesində iştirak edən Rusiyanın mövqeyi, mahiyyət etibarı ilə, dəyişməz qalmışdı, yəni S. Lavrov hərbi əməliyyatları dayandırmaq üçün vasitəçilik təşəbbüsü ilə çıxış etsə də, təcavüzkar ölkə ilə təcavüzə məruz qalan ölkə arasında fərq qoymamışdı və belə şəraitdə Rusiyanın vasitəçiliyi müharibədən əvvəlki status-kvonun bərpasına və imitasiya xarakterli danışıqların davam etməsinə xidmət edə bilərdi. Təcavüzkarın adı ilə çağrılmaması, işğal etdiyi Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmaq tələbinin Ermənistanın qarşısında qoyulmaması səbəbindən, oktyabrın 10-da Moskvada Azərbaycan və Ermənistan arasında Rusiyanın vasitəçiliyi ilə əldə olunan və humanitar xarakter daşıyan atəşkəs haqqında razılaşma (2, s. 2555) məhz Yerevanın işğalçılıq siyasətindən imtina etməməsi nəticəsində pozulmuşdu.

Hərbi əməliyyatların gündən-günə genişləndiyi və insan itkilərinin artdığı bir şəraitdə Rusiya Prezidenti V. Putinin hadisələrə münasibəti də kifayət qədər maraq doğuran məsələlərdəndir. Müharibə başlayandan sonra Azərbaycan və Rusiya prezidentləri arasında ilk təmas oktyabrın 7-də, İ. Əliyevin V. Putini ad günü münasibəti ilə təbrik etmək məqsədilə onunla telefon əlaqəsi saxladığı zaman baş vermişdi. Bu vaxta qədər Ermənistan və Rusiya prezidentləri arasında, N. Paşinyanın təşəbbüsü ilə 4 dəfə telefon əlaqəsi saxlanılmışdı (3). Oktyabrın 22-də, müharibə başlayandan 26 gün sonra, “Valday” klubunun iclasında iştirak edən V. Putin problemlə bağlı, Kremlin Ermənistan-Azərbaycan münaqişəsinə yanaşmasına aydınlıq gətirmək baxımından əhəmiyyətli olan, obyektiv və subyektiv məqamları özündə ehtiva edən fikirlərini açıq şəkildə ifadə etmişdi. Qeyd etmək lazımdır ki, Rusiya Prezidenti iclasda etdiyi

məruzəsində Ermənistan-Azərbaycan müharibəsini diqqətdən kənarda saxlamış, bu məsələ barədə fikirlərini ona ünvanlanan sualı cavablandırarkən bəyan etmişdir (4). V. Putinin çıxışında iki məqam diqqəti xüsusi olaraq cəlb edir. Birincisi, onun “Azərbaycan ərazisinin əhəmiyyətli bir hissəsinin itirildiyi vəziyyət əbədi davam edə bilməz” fikri Ermənistan tərəfindən işğal olunmuş ərazilərin Azərbaycana məxsusluğunun, yəni Azərbaycanın ərazi bütövlüyünün Rusiya tərəfindən etiraf edildiyi anlamına gəlir. İkincisi, Rusiya Prezidenti Azərbaycana qarşı ərazi iddiaları irəli sürən işğalçı Ermənistanı məsuliyyətdən kənarda saxlamağa, Cənubi Qafqazın iki respublikası arasındakı münaqişəni Azərbaycan ərazisində yaşayan “əzilmiş” ermənilərin mübarizəsi kimi təqdim etməyə çalışır. O, “... bu münaqişə sadəcə dövlətlərarası münaqişə və ərazi uğrunda mübarizə kimi başlamamışdır, o, etnik qarşıdurma nəticəsində başlamışdır. Bu da, təəsüf ki, faktdır ki, Sumqayıtda, sonra isə Dağlıq Qarabağda erməni xalqına qarşı amansız cinayətlər törədilmişdir.” deyərək, hadisələrin mahiyyətini təhrif etmiş, istər Ermənistan ərazisində, istərsə də Azərbaycanın Dağlıq Qarabağ regionunda etnik təmizləməyə və soyqrımına məruz qalan yüz minlərlə azərbaycanlının faciəli taleyini, Sumqayıt hadisələrinin törədilməsində SSRİ xüsusi xidmət orqanlarının və erməni təxribatçıların rolunu, Ermənistanın həyata keçirdiyi separatizm və dövlət terrorizmi siyasətini diqqətdən kənarda saxlamışdır.

Müharibə dövründə Ermənistan KTMT-ni Azərbaycana qarşı hərbi əməliyyatlara cəlb etmək üçün cəhdlər etmiş və hər dəfə Rusiyanın etirazı ilə qarşılaşmışdır. Kremlin mətbuat katibi Dmitri Peskov bu məsələ ilə bağlı ölkəsinin mövqeyini ifadə edərkən açıq şəkildə bildirmişdi ki,

“KTMT üzrə öhdəliklər Qarabağa şamil edilmir” (2, s. 2710). Bnunla yanaşı, hərbi əməliyyatlar meydanından kənarda olan Azərbaycan şəhərlərinin KTMT-nin üzvü olan Ermənistan ərazisindən atılan “Elbrus” raketləri, Rusiyanın daxili istifadəsi üçün nəzərdə tutulan “İsgəndər-M” raketi ilə atəşə tutulmasına Rusiyanın laqeyd qalması müəyyən suallar yaradır.

“Qırx dörd günlük” müharibə dövründə Rusiya müxtəlif yollarla Ermənistana hərbi-texniki yardım göstərməkdə davam edirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın Rai-1 televiziya kanalına verdiyi müsahibədə bildirmişdi ki, “Gümrüdəki bazada Rusiyanın 5 minlik qoşunu var və bizdə olan məlumata görə oradan vaxtaşırı olaraq Ermənistan silahlı qüvvələrinə təchizat göndərilir” (2, s. 1819).

Bütün qeyd olunanlar müharibə zamanı Rusiyanın tam neytral mövqedə olmadığını sübut edir.

**Ədəbiyyat**

1.Дунаевский И. Карабах под огнем. Азербайджан и Армения ввели военное положение. Российская газета – Федеральный выпуск. № 217 (8271), 27.09.2020

2. Son hadisələrin xronikası. (2020-ci il sentyabrın 27-dən Azərbaycanın işğal olunmuş ərazilərində aparılan əks-hücum əməliyyatları ilə bağlı mühüm hadisələr) // http://files.preslib.az › site › qarabag › xronika_az

3. Путин и Алиев впервые с начала боевых действий обсудили Карабах. // https://www.kommersant.ru/doc/4521127#id1960278

4. Заседание дискуссионного клуба «Валдай». // http://kremlin.ru/

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
ADU
Docendo discimus
Öyrədərək öyrənirəm

Gülnarə Rafael qızı Şirəliyeva
A.A.Bakıxanov adına Tarix institutu

# İKİNCİ VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ İSLAM ÖLKƏLƏRİ İLƏ MÜNASİBƏTLƏRİ

İkinci Vətən müharibəsinin başlandığı ilk andan Türkiyə və Pakistan Azərbaycanın işğal olunmuş ərazilərinin qaytarılması uğrunda haqlı mübarizəsini müadafiə etdiklərini durmadan söyləyir, ölkələrarası əlaqələri daha da möhkəmləndiridilər. Hər ki ölkə bütün beynəlxalq forumlarda münaqişəyə Azərbaycan baxışını önə çəkir, Azərbayanın ərazi bütövlüyünün vacibliyini vurğulayırdı [2]. Ankara və İslamabad Bakı ilə eyni mövqeyi nümayiş etdirərək Ermənistanın təcavüzkarlığına son qoyulana qədər bu ölkə ilə münasibətlərdə embarqo tətbiqinə tərəfdar çıxırdılar. Məhz Ankaranın siyasi dəstəyi Azərbaycanla Ermənistan arasındakı hərbi münaqişəyə üçüncü ölkənin qoşulmasına imkan vermədi [8].

Birinci Vətən müharibəsi dövründə Azərbaycan demək olar ki, bir sıra səbəblər üzündən beynəlxalq təcrid olunmuş durumda idi. Rusiya və ABŞ regionda ermənipərəst siyasət yeridir [3, s. 103-109], əhalisinin böyük hissəsi şiə məzhəbinə aid olan İranın siyasi davranışı da onlardan fərqlənmirdi. 1991-ci ildə Azərbaycan müstəqilliyini elan etdikdən sonra İran hakim dairələri “şiə qardaşlarını” suverenlik münasibəti ilə təbrik etdilər, eyni zamanda şimal bölgələrə nəzarəti gücləndirdilər [5, s.188-203]. Azərbaycanlıların yaxınlaşmasına imkan verməmək üçün

İran hakim dairələri ölkənin şimalında Azərbaycan səfirliyinin açılmasına uzun zaman icazə vermirdi. İran, Azərbaycanın onun başlıca düşməni ABŞ –la əlaqələrinə də sevinmir, eyni zamanda Azərbaycan – Türkiyə münasibətləri (həm də Türkiyənin NATO üzvü olması) İranı narahat edirdi [9, s.98-119].

İkinci vətən müharibəsi başlananda hərbi münaqişə bu bölgədə tarixən xüsusi maraqları olan ölkələr— Rusiya, Türkiyə və İran tərəfindən diqqətlə izlənilirdi. İran, Azərbaycan və Ermənistanın qonşusu olaraq hərbi münaqişənin həll edilməsində vasitəçiliyini təklif edərkən yalnız hərbi əməliyyatların İran bölgələrinə zərər yetirəcəyini düşünmürdü. İranın əsas qorxusu Bakının siyasi, iqtisadi və  hərbi gücünün artması ilə daha çox əlaqəli idi. Münaqişənin İran cəmiyyətinə nüfuz etməsi burada yaşayan azərbaycanlıların və ermənilərin də münasibətlərinə ciddi mənfi təsir edəcəkdi. Xatırladaq ki, İrandakı erməni diasporu təqribən 100 000 nəfərə yaxındırsa, azərbaycanlılar İran əhalisinin təqribən 42% -ə qədərini təşkil edirlər və ən nüfuslu milli azlıq hesab olunurlar. Azərbaycanlılar ölkənin mühüm bazarı sayılan Tehran bazarının böyük hissəsinə də nəzarəti ələ alıblar, hətta İranın dini lideri Əli Hamenei ata tərəfdən azərbaycanlıdır. Hərbi münaqişənin başlamasından bir müddət sonra –oktyabrın 9-da Hameneinin dörd nümayəndəsi “Qarabağ, şübhəsiz Azərbayana aiddir”bəyanatını elan etdi [4;7]. Unutmayaq ki, bu zaman İranın qərbində erməni quldurlarının niyyətlərinə qarşı nəhəng mitinglər təşkil edən azərbaycanlıların fəallığı da nəticəsiz qalmamışdı. İranın hərbi münaqişənin başlamasından dərhal sonra deyi, gözləmə mövqeyində duraraq Azərbaycanın üstünlüyünü

açıq hissə etdikdən sonra bəyanat verməsi də hiyləgər siyasətinin bir parçasıdır. Halbuki, İƏT-nın konfranslarında Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxlanılması, bir milyondan çox insanın yurdundan köçkün düşməsi məsələləri dəfələrlə müzakirə olunmuş və İran da həmin qətnamələri imzalamışdır.

Təəsüflə qeyd etmək istərdik ki, Azərbaycanın haqq səsinə açıq dəstək verməkdən çəkinən müsəlman ölkələri də az olmadı. Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasını, erməni təcavüzkarların işğzlçı planlarını qınayan İsrail, Böyük Britaniya, İtaliya, Gürcüstan, Ukrayna, Kolumbiya, Bosniya və Hersoqovina kimi ölkələrədən fərqli Mərkəzi Asiya ölkələri gözlənilən müsəlman həmrəyliliyini nümayiş etdirməkdən ehtiyatlandılar. Ən yaxşı halda bu ölkələr hərbi əməliyyatların dayandırılmasına çağırış edir, danışıqlara başlanılması təkliflərini irəli sürürdülər. 11 noyabr bəyanatında Tacikistanın Xarici İşlər Nazirliyi "Dağlıq Qarabağ probleminin siyasi-diplomatik metodlarla, beynəlxalq hüququn prinsip və normalarına uyğun sülh yolu ilə həllinin müstəsna əhəmiyyətini" qeyd etdi. Bənzər bəyanatlarla Qırğızıstan, Qazaxıstan və Özbəkistan da çıxış etdi.

Sentyabrın 27-də başlayaraq noyabrın 10-dək davam edən hərbi münaqişə zamanı regionun ölkələri faktiki olaraq neytral mövqedən çıxış edir, münaqişə iştirakçılarını təmkinli olmağa çağırırdılar. Sentyabrın 19-da Qırğızıstan XİN tərəflərə müraciət edərək 5 may 1994-cü il tarixli Bişkek protokolu əsasında yardım göstərməyə hazır olduğunu bildirdi. Hesab olunur ki, məhz bu protokol 90-cı illərdə atəşkəslə nəticələnmişdi. Siyasi ekspert Əjdər Kurtov göstərir ki, bu ölkələr çoxvektorluq siyasəti səbəbindən Dağlıq Qarabağ münaqişəsinə münasibətdə aydın mövqeyə

malik deyillər. Onun fikirlərinə əsasən, bu ölkələr əvvəlki dövrlərdə eyni zamanda Çin, Rusiya, Türkiyə və Qərb ölkələri ilə münasibətlər qurmuşlar. Həmin səbədən də konkret mövqe nümayiş etdirmək onlara sərf etmir [6]. Qazaxıstan, Qırğızıstan və Tacikistan Ermənistanın da daxil olduğu və Rusiyanın rəhbərlik edərək öz siyasətini qəbul etdirdiyi hərbi-siyasi təşkilata—KTMT-yə (Kollektiv Təhlükəsizlk Müqaviləsi Təşkilatı) daxildirlər. Digər tərəfdən isə Qazaxıstan, Qırğızıstan Azərbaycan və Türkiyənin də daxil olduğu Türk Şurasının üzvüdürlər.

Hərbi toqquşmaların başladığı ilk gündən Azərbaycana açıq dəstək verən müsəlman ölkələrindən biri Əfqanıstan İslam Respublikası oldu. Əfqanıstan İslam Respublikasının Milli Şurasının Ali Palatası 28 sentyabr 2021-ci il tarixində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi barədə qətnamə qəbul etdi, Ermənistanın Azərbaycana hücumunu qınadığını bəyan etdi.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Ali katibi Bağdad Amrayev 29 sentyabr 2020-ci il tarixində Azərbaycanın işğal olunmuş ərazilərində hərbi əməliyyatlarla bağlı son dərəcə narahatlığını bildirərək, Azərbaycanın ərazi bütövllüyü və beynəlxalq miqyasda qəbul olunan sərhədlərinin toxunulmazlığının müdafiəsinə çağırış etdi [1]. Şura sədrinin Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikası ərazisindən dərhal, şərtsiz və təmamilə çıxarılmasını tələb etməsi, əslində Şura üzvü olan bütün ölkələrin Azərbaycanın haqq işinə səs verməsi demək idi.

Açar sözlər: islam ölkələri, Qarabağ münaqişəsi, ermənistan - azərbaycan müharibəsi, Türk Şurası, beynəlxaq münasibətlər

Ключевые слова: исламские страны, Карабахский конфликт, армяно-азербайджанская война, Тюркский Совет, международные отношения

Key words: Islamic countries, the Karabakh conflict, the Armenian-Azerbaijani war, the Turkish Council, international relations

## İstifadə olunmuş ədəbiyyat

1. Türk Şurası Qarabağdakı vəziyyətlə bağlı bəyanat yaydı. https://report.az/qarabag/turk-surasi-qarabagdaki-veziyyetle-bagli-beyanat-yaydi/— müraciət tarixi 01.07.21

2. Veliyev C. Azerbaycan-Türkiye Stratejik ortaklığı, 2020, Ötüken neşriyyat

3. Аласов И. Ф. Политика России по Нагорному Карабаху (2015-2016 гг.) //Вестник социально-политических наук. 2016. № 15. С. 103-109

4. В Иране сообщили о поддержке Азербайджана в конфликте с Арменией. https://lenta.ru/news/2020/10/09/friends_like_these/ — müraciət tarixi 25.06.21

5. Дунаева Е. В. Иран и интеграционные процессы в Евразии // Труды Института востоковедения РАН. 2017. № 5. С. 188-203

6. Как отреагировали страны Центральной Азии на войну в Карабахе и каковы будут ее последствия. https://rus.ozodi.org/a/30956162.html— müraciət tarixi 25.06.21

7. Не будем равнодушны. На чьей стороне Иран в Карабахском конфликте. http://interfax.az/view/819242— müraciət tarixi 28.06.21

8. Политическая поддержка Анкары предотвратила вмешательство третьих сил в карабахский конфликт-президент Азербайджана. http://interfax.az/view/819242— müraciət tarixi 25.06.21

9. Шабельникова О. В. Основные приоритеты внешней политики Азербайджанской Республики: 1991-2015 гг. / Внешняя политика новых независимых государств: Сборник. Под ред. Б.А. Шмелёва. М.: ИЭ РАН, 2015. С. 96-128

Shirinzada Lala Arif
ADA University

# THE AZERBAIJANI ARMY IS THE SUPPORT OF THE STATE, PLACE OF TRUST AND PRIDE FOR THE NATION

***Key words:*** *Azerbaijan, II Karabakh War, proud army*
***Açar sözlər:*** *Azərbaycan, II Qarabağ müharibəsi, məğrur ordu*
***Ключевые слова:*** *Азербайджан, вторая Карабахская война, гордая армия*

The army, one of the attributes of statehood, has always been respected as an integral part of society. At the heart of the military-public relationship is love of statehood and loyalty to the state. The people believe in the army, the army trusts the people. The army building, founded in 1993 under the leadership of great leader Heydar Aliyev, has today entered a new qualitative stage in accordance with the dynamic development of our country. The Azerbaijani public saw a clear confirmation of this last year in II Karabakh War and grand military parade marking the victory of Azerbaijani Armed Forces. The parade was attended by servicemen representing different types of troops, modern military equipment, high pilot skills demonstrated by our military aircraft, which aroused pride and pride in everyone who loves his homeland. Everyone was once again convinced that Azerbaijan has a strong, powerful, and modern army

capable of responding to the enemy at any time, and in its military arsenal there is the most modern equipment used by the armies of the world's leading countries. There, we remember Heydar Aliyev’s statements, he once stated that “Azerbaijani army is strong. The strength of our army is growing day by day. Our country has a bright future. The Azerbaijani people, the Azerbaijani state will definitely liberate the occupied territories. We shall release, we! We want to resolve this peacefully. We have made great efforts in this regard and will continue to do so. But our efforts will not be endless. We will make every effort to resolve the issue peacefully. If this is not possible, our dear officers, our dear Armed Forces, you must be ready every day for the liberation of our lands! Our lands will be free, our army will develop, the economy of our republic will grow, and in the coming years Azerbaijan will embark on a great path of development. You can be sure of that!”

It is known that in the twentieth century, Azerbaijan twice gained state independence. In 1918, when our people escaped from the bondage of Russian imperialism and established the Azerbaijan Democratic Republic, we did not have an army. Therefore, one of the first measures taken by the people leading the Azerbaijan Democratic Republic in the direction of state building was the formation of the armed forces of the independent state. At a time when time was short and the enemy was very close, full of contradictions and changes, army building processes began and a number of accomplishments were achieved in a short time: Baku was liberated from Armenian-Dashnak occupation, successful operations were carried out against Armenian gangs in Karabakh. Unfortunately, the

Azerbaijan Democratic Republic survived only 23 months, and this short period of time disallowed building a high level of army building. Nevertheless, although still in its infancy, the Azerbaijani Army responded to the enemy to the end [3].

While there is no obstacle to public control over the army in Azerbaijan, unfortunately, there are attempts to misinform the public about our armed forces and to overshadow the successful results. If we think about it, we can see that the attacks on several fronts in our country coincide with the attacks on the army. The organizers of this attempt are fighting against our statehood, independence and Azerbaijanism [1]. Despite the fact that information about the army is as open as possible to the public, some people still try to distort enough information. The army is a large organization; dozens, hundreds, thousands of soldiers serve in one unit. Of course, military life and relations between soldiers are determined by military regulations. But even in the most advanced armies, certain problems can occur, and such cases occur regularly. Those who want to overshadow our achievements in military construction exaggerate the events that have taken place or express their intention to cover and comment on an issue from a completely different angle. In foreign countries, as a rule, information about the army is provided at the official level. Deliberate exaggeration and misinterpretation of this information is not allowed. As for the coverage of issues considered a military secret, a criminal case is opened. In our country, they spread information almost to the place, purpose, character, names, and positions of commanders of military units. To prevent all this, the level of responsibility provided by law should be tightened. Because we are talking about statehood; shaking

the army is to shake ourselves, Azerbaijan. The army is one of the concepts that cannot be criticized. It can only be treated with respect and strengthened by love. Respecting the army means serving the strengthening of our statehood [2].

Today, Azerbaijan also has the weapons owned by the world's most militarily developed countries. As a result, the Armed Forces of Azerbaijan, which currently has the most powerful army in the South Caucasus, are at the forefront of the CIS in terms of combat readiness. According to the reports of international rating agencies, our Armed Forces are among the strongest armies in the world, rebuilt and equipped in accordance with modern standards. In general, Azerbaijan and Armenia have long been compared in terms of military capabilities. The opinion of international organizations specializing in this field has always been that the Azerbaijani Army is far ahead of Armenia in terms of strength. It is gratifying that Azerbaijan has formed a well-developed military-industrial complex. Our republic is the only country in the South Caucasus that has the ability to supply its army with military equipment and ammunition at the expense of domestic resources. Various types of military equipment, armored vehicles, unmanned aerial vehicles, small arms are produced at local enterprises.

The Azerbaijani Army wrote new history of its state in 2020. The people of Azerbaijan are living the most glorious moments since the historical justice is being restored the expense of the strength of our army. The brave Azerbaijani Army returns all the lands to their owners. The whole world should know that Karabakh is our eternal land, the heart of

Azerbaijan. The people of Azerbaijan have lived, created, built in these lands for centuries. People of Azerbaijan are incredibly enthusiastic, and they are extremely proud of the victory of the Azerbaijani Army. Evaluating the heroism and victory of our brave sons as a celebration of the successful policy pursued by the President of Azerbaijan, Commander-in-Chief of the Armed Forces Ilham Aliyev, he expressed confidence that our liberated lands will soon be reconstructed and refugees and IDPs will return to their native lands. Karabakh will come back to life!

**Bibliography**


1. Abdulla Qurbani. *Heydər Əliyev və Azərbaycan ordusu*, Bakı, Əbilov, Zeynalov və oğulları, 2002
2. Səlimbəyli Şöhrət. *Azərbaycan tarixinin zəfər salnaməsi,* Bakı, Avropa nəşriyyatı, 2020
3. Süleymanov Mehman. *Azərbaycan Ordusu: 1918-1920*, Bakı, Hərbi Nəşriyyat, 1998

Şıxəliyeva Əminə
Azərbaycan Dillər Universiteti

# ERMƏNILƏRIN AZƏRBAYCANIN MADDI-MƏDƏNI IRSINI “ÖZÜNÜNKÜLƏŞDIRMƏK” SIYASƏTI

Açar sözlər: Qarabağ müharibəsi, maddi-mədəni irs, vandalizm
Ключевые слова: Карабахская война, материальное и культурное наследие, вандализм
Key words: Karabakh War, material and cultural heritage, vandalism

Çar Rusiyası tərəfindən Azərbaycan xanlıqlarının işğalı və torpaqlarımıza ermənilərin köçürülməsi ilə birlikdə başlayan proseslər nəticəsində xalqımız qətliamlara məruz qalmış, maddi-mənəvi zərər çəkmişdir. Bu dövrlərdən başlayaraq davam edən erməni təcavüzü yalnız torpaqlarımıza iddialar irəli sürməklə qalmamış, eyni zamanda mədəni irsimizi də mənimsəyərək özününküləşdirməyə çalışmışdır.

Müharibədən əvvəlki dövrlərdə və eyni zamanda müharibə dövründə də maddi-mədəniyyət nümunələrimizin məhv edilməsi Ermənistanın təcavüzkar siyasətinin əsas istiqamətini təşkil etmişdir. Erməni təcavüzü nəticəsində xalqımıza dəymiş mənəvi-psixoloji zərərdən başqa, iqtisadiyyata dəyən ziyan ilkin hesablamalara əsasən 300 milyard ABŞ dollarından daha çox olmuşdur [1].

UNESCO-nun sənədlərinə əsasən Ermənistanın işğal etdiyi ərazilərdə 738 abidə, 83500-dən çox eksponatı ilə 28 muzey, 4 şəkil qalareyası, 14 memorial kompleks və 1107 mədəni abidə mövcud olmuşdur. Ölkə əhəmiyyətli memarlıq abidələrinə VI əsrə aid Alban Ağoğlan monastrını, XIV əsrə aid Laçında Malik Əjdər türbəsini, Xocavənddə orta əsrlərə aid Alban məbədlərini, Kəlbəcərdə XIII-XIV əsrlərə aid Lex qalasını, Cəbrayılda XVII əsrə aid məscid kompleksini, Şuşada XVIII-XIX əsrlərə aid Yuxarı Gövhərağa, Aşağı Gövhərağa və Saatlı məscidləri, Ağdam şəhərindəkia XIX əsrə aid məscidi, Fizulidə Neolit dövrünə aid yaşayış məskənlərini və s. göstərmək mümkündür. Zəngin memarlıq və arxeoloji abidələri ilə yanaşı, Qarabağ Xurşudbanu Natəvan, Mir Möhsün Nəvvab, Üzeyir bəy Hacıbəyov və Bülbül kimi məşhurların yurdudur [5].

Ermənistan işğal dövründə demək olar ki, bu abidələrin hamısı məhv edilmişdir. İkinci Qarabağ müharibəsi nəticəsində işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa işlərində indiyə qədər 400-dən çox məhv edilmiş abidə aşkarlanmışdır. Erməni vandalları tərəfindən bu ərazilərdəki mədəni-mənəvi irsimiz talan edilmiş, təhqir edilmiş və ya dəyişdirilmişdir. Bir tarixi olmayan və yalanlar üzərində özlərinə mədəniyyət yaratmağa çalışan ermənilər bizim ərazilərimizin adlarını dəyişdirməyə, abilərimizi məhv edərək bizim o torpaqlardakı izimizi silməyə, keçmişimizi məhv etməyə çalışmışdır.

Azərbaycan Xarici İşlər Nazirliyinin 18 aprel “Beynəlxalq tarixi abidələr və yerlər günü” ilə bağlı açıqlamasında işğaldan azad olunmuş ərailərdə 22-dən çox muzey və muzey filialının 100.000-dən çox eksponatla birlikdə məhv edildiyi açıqlanmışdır. XİN-nin bəyanatında

Kəlbəcər rayonunda yerləşən XIII əsrə aid Xudavəng monastrının arxeoloji əsərləri və qədim əlyazmalarının Ermənistana aparılması faktı əksini tapmışdır. O cümlədən, Ağdam rayonunun Şahbulaq qalası yaxınlığında qanunsuz arxeoloji araşdırmalar aparılmış və tapılan eksponatlar qeyri-qanuni yollarla Ermənistana aparılmışdır. Bundan başqa qədim insan məskənlərindən hesab olunan Azıx mağarasında da qanunsuz arxeoloji qazıntılar aparıldığı qeyd olunub. Bu mağaradan qanunsuz qazıntılar nəticəsində əldə edilən materiallar Ermənistana və digər Qərb ölkələrinə aparılaraq, sözdə “erməni xalqının əcdadlarının izləri” olaraq sərgilənmişdir [7].

Vətən müharibəsi nəticəsində torpaqlarımızın azad edilməsi öz növbəsində bu ərazilərdə həyata keçirilən vəhşilikləri göz qabağına qoydu. İşğaldan azad olunan ərazilər ilk baxışda sanki filmlərdəki nüvə fəlakəti nəticəsində tərk edilmiş əraziləri xatırladırdı. Elə bu səbəbdəndir ki, Ağdam xarici jurnalistlər tərəfindən “XXI əsrin Xiroşiması” və “Qafqazın Xiroşiması” olaraq adlandırıldı [7].

Erməni vandalizminin ən böyük sübutu dini abidələrə qarşı edilən hörmətsizliklər idi. Azərbaycan xalqının müqəddəs saydığı məscidlər Ermənistanın işğalı altında olarkən donuz və inək saxlamaq üçün tövlələrə çevrilmişdi. Eyni zamanda məscidlərin divarlarına eybəcər şəkillər çəkilmişdir ki, bu da öz növbəsində erməni vandalizmini açıq şəkildə göstərirdi.

Erməni vandalizminin ən son nümunəsi olaraq 2020-ci ilin noyabr ayında Kəlbəcərdə yaşanan hadisələri göstərə bilərik. Bütün dünyanın gözləri qarşısında ermənilər bu ərazini Azərbaycan qoşunlarına təhvil

vermədən əvvəl evləri yandırdılar, meşələri qırdılar və hətta tarixi abidələrimizdən olan Xudavəng monastrı da daxil olmaqla bir çox abidələri talan etdilər. Monastrdakı zəngələrə və daşlara qədər oğurlayıb aparan ermənilər bunu "müsəlmanlara heç nə buraxmamaq" üçün etdiklərini etiraf edirdilər. Azərbaycan XİN tərəfindən bu hallar UNESCO standartlarının, 1954-cü il Haaqa Konvensiyası və iki protokolun, eyni zamanda 1970-ci il Konvensiyasının pozulması olaraq qeydə alınmışdır [7].

Şanlı ordumuz erməni işğalçılarının 30 ilə yaxın bir müddətdir ki, tapdaq altında saxladığı Qarabağımızı qaytardı. Azərbaycan xalqı işğaldan azad etdiyi şəhər və kəndlərimizi, tarixi-mədəni abidələrimizi bərpa edəcək, Qarabağın yaralarını sarıyacaq.

**İstifadə edilmiş ədəbiyyatın siyahısı:**

1. Erməni vandalizmi: Əsirlikdə olan Azərbaycan abidələri https://armenianvandalism. preslib. az/azgeneral.html

2. Habibbeyli A. Ermenilerin tarihi gerçekleri tahrif edilmelerinin gerçek nedenleri. 06.06.2018 http://newtimes.az/tr/politics/5669/

3. Karabağda ermeni vandalizmi devam edir! 01.11.2019 https://yesiligdir.com/haber/detay/25388

4. Tarixi-dini abidələrimizə qarşı erməni vandalizmi. 09.10.2020https://www.azerbaijan-news.az/ view -200203/ tarixi-dini-abidelerimize-qarsi-ermeni-vandalizmi

5. Cultural heritage http://www.unesco.az/files/image/files/Destruction of Azerbaijani_cultural_heritage.pdf

6. İnformation by Azerbaijan to the study on intentional destruction of cultural heritage https://www.ohchr.org/Documents/Issues/CulturalRights/DestructionHeritage/States/Azerbaijan. pdf

7. Mehdiyev M. Unprecedented Vandalism: Armenia destroyed over 400 Azerbaijani cultural and Religious monuments in Karabakh region. April 22, 2021 https://www. ohchr.org/ Documents/Issues/CulturalRights/DestructionHeritage/ States/Azerbaijan. pdf

**Фидан Ахмед кызы Талыблы**
**Бакинский государственный университет**

# РОЛЬ СРЕДСТВ МАССОВОЙ ИНФОРМАЦИИ В КОНТЕКСТЕ ОСВЕЩЕНИЯ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЫ

*Açar sözlər:Qarabağ, xəbər, media, münaqişə*
*Ключевые слова: Карабах, новость, медиа, конфликт.*
*Keyword: Karabakh, news, media, conflict.*

Во время вооруженных конфликтов, либо международных, либо внутренних, роль средств массовой информации приобретает особенное значение. Освещение конфликтов всегда было сложным заданием для журналистов, поскольку требовало особенных подходов, специальной подготовки, кроме профессионализма, еще и гуманности. СМИ как «четвертая ветвь власти» занимает особое место в ходе военного положения.

Следует отметить военные действия в Карабахе, которые вновь обострились 27 сентября 2020 года, когда бои между армянскими и азербайджанскими силами продолжались на нескольких участках фронта. В ходе войны, а также до сегодняшнего дня как национальная медиа, так и ведущие СМИ мира отводили важное место освещению II Карабахской Войны. Одним из стран которое уделяло особое внимание освещению II Карабахской Войны была Великобритания. Неоднократно СМИ этой страны в достоверной и объективной форме публиковали статьи. При этом следует указать публикации канала BBC Великобритании, который

неоднократно готовил репортажи о военном положении. К примеру, ведущий Рос Аткинс на передаче подготовленной 1 октября 2020 года, не смотря на настаивание США, России и Франции говорил о прекращении Карабахского конфликта, и о преобразовании данного конфликта в региональный [1].

В то же время, следует отметить статью под названием Нагорный Карабах: Армяно-Азербайджанская «информационная война», подготовленную со стороны членов группы мониторинга Джон Хоран и Армен Шахбазяном. В целом пишется что, из-за сложности доступа к действительной информации, обращались к новостям, видеоматериалам из социальной сети, и это приводило к распространению ложной информации. Один из таких видео материалов был распространен в Твиттере, где показывалось как якобы иранцы наблюдают за Армяно-Азербайджанским конфликтом. Однако было выявлено, что это был военный день в России в 2019 году и пользователь просил прощение за это [2]. Это говорит о том, что в СМИ широко распространялись дезинформации об Отечественной Войне в Азербайджане, и для предотвращения этого роль национальных журналистов неоценима.

В итоге 44-дневной контрнаступательной войны Армения, попавшая в безысходное положение на фоне провалов на фронте, была вынуждена подписать соглашение с Азербайджаном о полном прекращении военных действий и выводе армянских сил с оккупированных земель. Об этом была опубликована статья под названием «Мирное соглашение по Нагорному Карабаху меняет

региональную геополитику» на сайте The Guardian. В ней говорится о прекращении огня в Нагорном Карабахе при посредничестве России, которая расширяет возможности Москвы и Анкары в качестве новых правителей на Южном Кавказе, а также устанавливает гарантию безопасности между Арменией и Азербайджаном. Как и в конфликтах в Ливии и Сирии, Россия и Турция снова оказались на стороне противоборствующих сторон и использовали свое влияние для заключения мирных соглашений, гарантирующих их собственное влияние [3].

В конфликтных ситуациях роль средств массовой информации имеет решающее значение для предоставления общественности полной, правдивой и непредвзятой информации. Надлежащие подходы и методы журналистики, связанные с освещением конфликтов, позволяют средствам массовой информации предоставлять общественности более полную, объективную и достоверную информацию о конфликтах [4].

**Литература**

1. Avoiding war in the Armenia-Azerbaijan conflict [Электронный ресурс] // URL:https://www.bbc.com/news/av/world-europe-54333089
2. Nagorno-Karabakh: The Armenian-Azeri 'information wars' [Электронный ресурс] // URL:https://www.bbc.com/news/world-europe-54614392
3. Nagorno-Karabakh peace deal reshapes regional geopolitics [Электронный ресурс] //

URL:https://www.theguardian.com/world/2020/nov/10/nagorno-karabakh-peace-deal-turkey-russia-reshapes-regional-geopolitics

4. Журналистика в условиях конфликта: передовой опыт и рекомендации [Электронный ресурс] // URL:https://www.osce.org/files/f/documents/1/9/260646.pdf

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
ADU
Docendo discimus
Öyrədərək öyrənirəm
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

*Tajdehibonab Mehparə*
*Azərbaycan Dillər Universiteti*

**MÜASİR DÖVRDƏ DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏRƏ "TARİXİ YADDAŞ" AMİLİNİN TƏSİRİ (AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİNİN KOMPORATİV TƏHLİLİ ƏSASINDA)**

**Açar sözlər:** "tarixi yaddaş", beynəlxalq maraqlar, Azərbaycan, Rusiya, Ermənistan

**Ключевые слова**: "Историческая память", международные интересы, Азербайджан, Россия, Армения

**Key words:** "historical memory", international interests, Azerbaijan, Russia, Armenia

Müasir dövrdə dövlətlər arasında mövcud münasibətlərə və bu münasibətlərin perspektivinə təsir edən ən önəmli amillərdən biri də "tarixi yaddaş" amilidir. Elmi ədəbiyyatda "tarixi yaddaş" anlayışının 30-dan artıq açılımları var və onları təhlil edərək belə bir nəticəyə gəlmək olar ki, "tarixi yaddaş" tarixi təcrübə əsasında formalaşan keçmiş haqqında təsəvvürlər kompleksidir, keçmişin spesifik şəkildə qavranılması, şüurda, zehində hansı şəkildə əks olunmasıdır, fərdin, sosial qrupun və bütövlükdə cəmiyyətin özünü eyniləşdirməsinin vacib elementlərindən biridir [10, s.10].

Müasir dövrdə dövlətlərin daxili və xarici siyasətinə, siyasi liderlərin qəbul etdiyi qərarlara "tarixi yaddaş" amilinin təsiri şübhəsizdir [1,s.9-10]. Tarixi yaddaş həmçinin dövlətlərarası, xalqlararası

münasibətlərin perspektivlərinə, gələcəyinə də önəmli təsir göstərməkdədir. Hər bir dövlətin, hər bir millətin öz maraqlar sistemi var və tarix boyu bu maraqlar toqquşmuş, eyni zamanda bu xalqların, dövlətlərin özünəməxsus “tarixi yaddaşı”nın formalaşmasına və bəzi hallarda onların toqquşmasına gətirmişdir. Bunu müasir dövrdə Rusiya-Azərbaycan münasibətlərində açıq aydın müşahidə etmək olar.

Müqayisə üçün Rusiya-Azərbaycan münasibətlərinin seçilməsi təsadüfi deyildir. Rusiyadan baxdıqda cənubda yerləşən Azərbaycan tarixən Rusiya ilə uzun dövr qarşılıqlı münasibətlərdə olmuşlar və olmaqda davam edirlər. Azərbaycanın Rusiya ilə münasibətlər tarixində bir çox məqamlar vardır ki, bu da hər iki dövlətin və xalqın tarixi yaddaşında özünəməxsus izlər buraxmış, xüsusi yanaşma formalaşdırmış, müasir dövrdə Azərbaycanın xarici siyasət prioritetlərinə əhəmiyyətli təsir göstərmişdir.

Rusiya-Azərbaycan arasındakı münasibətlər uzun tarixi bir dövrü əhatə etməklə, həm də qeyri-stabilliyi və mürəkkəbliyi ilə xarakterizə olunur.

Rusiya-Azərbaycan münasibətlərinin tarixini araşdırdıqda aşağıdakı dövrləri qeydə almaq olar: 1) Azərbaycan dövlətlərinin şərqi slavyanlarla və Rus dövləti ilə epizodik münasibətləri dövrü (X-XVII əsrlər); 2) Rusiyanın Azərbaycanı işğal etmək planlarının yaranması və hərbi təcavüz aktlarının həyata keçirilməsi (XVIII əsrin əvvəllərindən-1796-cı, ilədək); 3) Çar Rusiyasının Şimali Azərbaycanı işğal etməsi və müstəmləkə dövrü (XIX əsrin əvvəllərindən 1918-ci ilədək); 4) Azərbaycan Xalq Cümhuriyyətinin Rusiya ərazisində yaranan dövlətlərlə

əlaqələri dövrü (1918-1920); 5) Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən işğalı və Azərbaycan Sovet rejimi dövründə (1920-1991); 6) SSRİ-nin dağılması, müstəqil Azərbaycanın Rusiya Federasiyası ilə əlaqələri dövrü (1991-2021).

Son dövr - sosialist sisteminin və SSRİ-nin iflasından sonrakı müstəqillik illərini əhatə edir. Bu dövr M.S.Qorbaçovun SSRİ-yə rəhbərliyi illəri, yəni "yenidənqurma" dövrü ilə başlayır və qeyd edək ki, Azərbaycanda M.S.Qorbaçovun "yenidənqurma" siyasəti volyuntarist, ədalətsiz, erməni faşizminin təşviqinə, Azərbaycanın ərazi bütövlüyünə yönəlik anti-humanist, avantürist siyasət kimi lənətlənmişdir.

Rusiya siyasi dairələrində və ümumiyyətlə Rusiya cəmiyyətində də SSRİ kimi nəhəng dövlətin dağılmasına, Rusiyanın dünya siyasətində çəkisinin azalmasına, ölkənin ağır iqtisadi, siyasi, mədəni böhran girdabına qərq olmasına səbəb olan "yenidənqurma"ya münasibət mənfidir. 2005-ci ilin fevralın 25-də Rusiya prezidenti V.V.Putin Federal yığıncağa müraciətində SSRİ-nin dağılmasını "Rusiya xalqı üçün əsrin böyük geosiyasi fəlakəti" və "əsl faciəsi" kimi qiymətləndirmişdir [7].

Azərbaycan-Rusiya münasibətləri tarixində tarixi yaddaş baxımından Rusiya ictimai şüurunda Azərbaycan haqqında mənfi fikir formalaşdıracaq bir hadisə olmamışdır. Azərbaycan dövlətləri heç vaxt Rusiya dövlətinə qarşı müharibə aparmamışdır, əksinə, XVIII əsrin I rübündən Azərbaycan Rusiyanın təcavüz obyektinə çevrilmiş, sonralar Şimali Azərbaycan Rusiya imperiyasına birləşdirilmişdir. Sovet dönəmində eynilə Azərbaycan SSRİ-ni neft və kənd təsərrüfatı məhsulları ilə təmin edən əsas region idi. SSRİ-nin II Dünya müharibəsində qələbəsi Bakı nefti olmadan mümkün olmazdı. Bir sözlə, təqribən 180 il ərzində

Azərbaycan çar Rusiyası və Sovet Rusiyası dövrlərində müstəmləkə və yarımmüstəmləkə vəziyyətində qalmış, Rusiya Azərbaycanın təbii sərvətlərindən, insan resusrslarından bəhrələnmiş, onu özünün xammal bazasına çevirmişdir.

Çar Rusiyasının və SSRİ-nin Azərbaycana qarşı yürütdüyü ədalətsiz siyasət və bununla əlaqəli baş verən hadisələrin nəticəsi olaraq, tarixi məsələlərlə bağlı Azərbaycan ictimaiyyətinin tarixi yaddaşında çar Rusiyası və Sovet rejimi haqqında bəzi mənfi fikirlər formalaşmışdır ki, onlardan ən çox müzakirə olunanı aşağıdakılardır: 1) Azərbaycanın tarixi ərazilərinin parçalanması məhz çar Rusiyasının təcavüzü nəticəsində baş verdi, Azərbaycan dövlətçiliyi məhv edildi, torpaqlarımız pərən-pərən salındı; 2) 1918-1920-ci illərdə fəaliyyət göstərən müstəqil Azərbaycan Cümhuriyyəti 1920-ci ilin aprelində bolşevik Rusiyası tərəfindən məhv edildi; 3) Çar Rusiyasının Azərbaycanda köçürmə siyasəti, xüsusən də ermənilərin Azərbaycanda yerləşdirilməsi sonrakı dövrlərdə xalqımıza qarşı soyqrımlara və qanlı müharibələrə səbəb oldu; 4) Sovet hakimiyyəti illərində Azərbaycan xalqına qarşı repressiyalar törədildi, milli ziyalı təbəqəsi məhv edildi; 5) XX əsrin sonlarında azadlıq mübarizəsinə qalxan Azərbaycan xalqına qarşı 1990-cı ilin 20 Yanvarında qətliam törədildi. 1992-ci il fevralın 25-də Azərbaycanlılara qarşı törədilən Xocalı soyqırımında əsas günahkarlardan biri də Moskva tərəfindən idarə olunan 366-cı motoatıcı alay olmuşdur; 6) SSRİ dağıldıqdan sonra Azərbaycan Rusiyaya qarşı mehriban qonşuluq və strateji əməkdaşlıq siyasəti yürütməsinə baxmayaraq, Rusiya Azərbaycanla əməkdaşlığı

genişləndirməklə yanaşı, ikili siyasət yeridərək daim işğalçı Ermənistanı da siyasi, iqtisadi, xüsusən də hərbi cəhətdən dəstəkləmişdir.

2020-ci ilin 27 sentyabrında Ermənistanın hücumuna qarşı Azərbaycan Qarabağda əks hərbi əməliyyatlara başladı və başlanan Vətən savaşı Azərbaycan Ordusunun qələbəsi, Ermənistanın darmadağın olması ilə bitdi.

Uzun illərboyu xalqımız bu tarixi ədalətin təntənəsini gözləyirdi. 44 günlük Vətən müharibəsi və tarixi qələbəmiz Azərbaycan xalqının nəyə qadir olduğunu göstərdi. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnamə təxminən 28 il idi ki, kağız üzərində qalmışdı. Nəhayət, Azərbaycan bu tarixi ədaləti təkbaşına bərpa etdi! Azərbaycanın bir dövlət kimi potensialını nümayiş etdirdi. Bunu düşmən də, onun havadarları da gördü. Ən önəmli məqam isə ondan ibarətdir ki, dünya bu müharibənin gedişində Azərbaycanı yenidən kəşf etdi, ölkəmiz haqqında, onun malik olduğu güc barədə beynəlxalq birlikdə dəqiq təsəvvür formalaşdı. Azərbaycan təkcə döyüş meydanında deyil, həm də diplomatiya sahəsində qalib gəldi. Azərbaycan xalqının bu tarixi qələbəsi ilə erməni lobbisinin onilliklərboyu formalaşdırdığı güclü anti-Azərbaycan informasiya məkanı darmadağın edildi [12].

44 günlük Vətən müharibəsi dövründə Azərbaycan-Rusiya münasibətləri yeni mərhələyə qədəm qoydu. Belə ki, müharibə dövründə Rusiya tərəfi əvvəlki illərlərdən fərqli siyasət yeridərək Azərbaycanın öz ərazi bütövlüyü uğrunda mübarizə apardığını və Azərbaycanın haqq işinə əngəl olmaq iqtidarında olmadığını bəyan etdi. Bu Azərbaycan Respublikasına müsbət bir jestdir. Rusiya tərəfi də yaxşı anlayır ki, əgər əksi olarsa, onda Rusiya strateji tərəfdaş kimi Azərbaycanı birdəfəlik

itirməklə üz-üzə qalar. Son illər Rusiyanın qonşuları – Baltikyanı respublikalar, Polşa, Ukrayna, Moldova, Gürcüstana qarşı apardığı siyasət yalnız Rusiyanın bu bölgələrdə beynəlxalq nüfuzunun aşağı düşməsi, adı çəkilən dövlətlərin ictimai şüurunda Rusiya haqqında neqativ fikirlərin formalaşması ilə nəticələnmişdir.

Ümid edək ki, Rusiyanın Qarabağ savaşı zamanı Azərbaycana qarşı səliqəli davranışı müvəqqəti, taktiki xarakter daşımayacaqdır. Rusiya müharibə sonrası sülh prosesində də beynəlxalq hüquqa əsaslanan mövqe tutmaqda davam edərsə, Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə hörmətlə yanaşarsa, bu öncəki tarixi dövrlərdə Rusiyanı idarə etmiş müxtəlif siyasi rejimlərdən zərbələr almış Azərbaycan cəmiyyətinin, xalqının tarixi yaddaşındakı mənfi təsəvvürləri unutdurar, müasir Rusiya haqqında yeni, müsbət streotiplərin yaranmasına gətirər.

**İstifadə edilən ədəbiyyat siyahısı:**

1. Ассман А. Длинная тень прошлого: Мемориальная культура и историческая политика / Алейда Ассман; пер. с нем. Бориса Хлебникова. — М.: Новое литературное обозрение, 2014, 328 с.
2. Базилевич К.В.. Из истории морских походов в VII – XII вв. // htth:flot.com/ history/io01 htm.
3. Выступление на государственном приеме, посвященном Дню народного единства / В. В. Путин // Президент России. 04.11.2006. URL:http://www.kremlin. ru/transcripts/23882 (müraciət tarixi 04.07.2018).
4. Глинка С. Описание переселения армян аддербиджанских в пределы России. М.: 1831, 144 с. / Перепечатка: Баку, «Элм», 1996, 142 с.

5. Греков Б.Д. Киевская Русь. Отв. ред.Л.В.Черепнин, ред., А.Ц.Мерзон. –Л.:1953, 569 с..

6. Краткая история СССР с древнейших времен до Великой Окябрской Социалистической революции. В двух частях. Часть первая. Издание второе, переработанное. Ленинград, Издательства «Наука», 1972, 439 с.

7. Послание Федеральному Собранию / В. В. Путин // Президент России. 25.02.2005.URL:http://archive.kremlin.ru/appears/2005/04/25/1223_type63372type63374type82634_87049.shtml (müraciət tarixi 03.07.2018).

8. Стенограмма заседания 15 декабря 2004 г., № 69 (783) // Государственная Дума. Официальный сайт, «База данных стенограммы заседания Государственной Думы» (Москва), 2004-2015. (http://transcript.duma.gov.ru/node/1173/. (müraciət tarixi 01.07. 2018)

9. Стенограмма заседания 03 ноября 2006 г., N 190 (904) // Государственная Дума.URL:http://transcript.duma.gov.ru/node/819/ (müraciət tarixi 14.07.2018).)

10. Репина Л.П. Культурная память и проблемы историописания (историографические заметки). Препринт WP6/2003/07 — М.: ГУ ВШЭ, 2003, 44 с.

11. Ağasiyev İkram XVIII əsrin sonu – XX əsrin əvvəllərində almanların Qafqazda məskunlaşması. Bakı: “Təhsil”, 2009, 304 s.;

12. http://ikisahil.com/post/189050-44-gunluk-muharibe-ve-tarixi-qelebe

***Verdiyeva Ülviyyə Məhəmmədəli qızı***

***Mingəçevir Dövlət Universiteti***

# AZƏRBAYCANIN İNCİSİ - QARABAĞ

Açar sözlər: Tarixi, abidə, erməni vandalizmi, muzey eksponatları

Ключевые слова: история, памятник, армянский вандализм, музейные экспонаты

Keywords: History, monument, Armenian vandalism, museum exhibits

Tarixi maddi və mənəvi abidələr yaddaşın yarandığı, yaşandığı, toplandığı və saxlanıldığı obyektlərdir. Bu abidələr, sadəcə, tarixi yaddaş, mədəni yaddaş obyektləri deyil. Tarixi mədəniyyət abidələrinin böyük mənəvi-psixoloji əhəmiyyəti var. Tarixi abidələr xalq müdrikliyinin daşıyıcısıdır və insanın öz əcdadlarına, irsinə, öz köklərinə olan məhəbbətini gücləndirir. Yaddaşını itirmiş insan artıq insan deyil. Buna görə də hər bir xalq maddi və mənəvi dəyərlərin qorunmasına ciddi fikir verir, tarixi yaddaşın silinməsinə qarşı yönələn istənilən fəaliyyətin qarşısını almağa çalışır [2, s.6].

Dağlıq Qarabağ bütün tarixi dövrlərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olmuşdur. XX əsrin sonlarında Ermənistanın tôrətdiyi pozuculuq fəaliyyəti, münaqişə və müharibə Azarbaycanın Qarabağ bölgəsində maddi mədəniyyət abidələrinin taleyini təhlükə altında qoydu. Müharibə ərəfəsində abidələrin qeydinə qalmağa imkan belə olmadı. Muzey

eksponatlarının və kitabxanaların köçürülməsinə imkan verilmədi. Davam edan vandalizm Azarbaycanın əsrlərlə qoruyub saxladığı tarixi abidələrin çoxunu məhv etdi [1, s.37].

Ermənistanın Qarabağa ərazi iddialarının tarixi kökləri, onun təcavüzkar mahiyyəti, Ermənistanın Azərbaycana qarşı müharibəsinin işğalçı xarakteri "böyük Ermənistan" yaratmaq xülyasının nəticəsidir. Buna görə də, Qarabağ problemi və erməni məsələsi tarixən mövcud olmuşdur. Azərbaycan ərazilərinin işğalı prosesi və zəbt olunmuş Azərbaycan torpaqlarında qurulmuş işğalçı rejimin fəaliyyəti nəticəsində dövlətimizə külli miqdarda ziyan dəymişdir.

Ermənilər 30 il işğal altında olan ərazilərimizdə yüzlərlə tarixi-dini abidəni məhv ediblər.

Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrinin dağıdılması və qəsdən korlanması “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında”1954-cü il Haaqa Konvensiyasına,
"Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, “Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” YUNESKO-nun 1972-ci il konvensiyasına ziddir.
Hərbi təcavüz nəticəsində, işğal olunmuş ərazilərdə ilk insan məskənlərin dən olan məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hərbi məqsədlərlə istifadə edilərək, qəsdən dağıdılıb. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məzarüstü abidələr, məscidlər,

məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və s. məhv edilib. Şuşa tarixi memarlıq qoruğunun ərazisində işğalçı vandallar Aşağı və Yu xarı Gövhərağa, Köçərli, Mərdinli, cümə məscidlərini, dahi bəstəkar Üzeyir Hacıbəyovun, professional vokal sənətinin banisi Bülbülün ev muzeylərini, Xurşud Banu Natəvanın saray kompleksini,Zöhrabbəyovları n malikanələrini, şair,rəssam, alim Mir Mövsüm Nəvvabın evini,ümumiy yətlə, qoruq şəhərin Şərq memarlığı xüsusiyyətlərini əks etdirən milli üslubda inşa edilmiş əksər yaşayış evlərini məhv ediblər.

Qarabağ ərazisində olan qədim qəbiristanlığı, böyük Azərbaycan şair, Qarabağ xanının vəziri M.P.Vaqifin türbəsini, Ağdamda Pənah xanın imarətini,Cümə məscidini,
Laçın rayonunda Həmzə Sultan və Soltan Əhməd saraylarını, məscidləri, ziyarətgah və ibadətgahları, daş heykəlləri, qədim qəbirləri, kurqanları, tarixi abidə olan yaşayış binalarını dağıtmış, daşınması mümkün olan maddi mədəniyyət abidələrini Ermənistana aparmışlar [4, s 11.].

İşğal edilən Azərbaycan ərazilərdəki inzibati yaşayış məskənlərindən yüz mindən çox muzey eksponatı, o cümlədən bədii yazı nümunələri, bədii toxuculuq sənəti və məişət əşyaları, xalçalar, sənət əsərləri, rəsmi dövlət sənədləri, xəritələr və fotolentlər, pul əskinasları, qədim silahlar və ovçuluq ləvazimatları qarət edilərək Ermənistana aparılmışdır. [5].

Erməni vəhşiləri Azərbaycanın mədəni həyatına böyük zərbə vurmuşlar. Onlar işğal olunmuş ərazidə 500 tarix-memarlıq abidəsinə və 100-dən artıq arxeoloji abidəyə, 9 tarixi saraya, 22 muzeyin 40 min

eksponatına, 4 şəkil qalereyasına və fondlarda olan 40 mindən artıq qiymətli əşyalara barbarcasına yanaşmışlar [3].

Dəyərini müəyyən etmək mümkün olmayan daşınmaz tarix və mədəniyyət abidələrindən başqa, respublikamıza dəymiş ümumi zərərin məbləği 23 trilyon 680 milyon manat və ya 6 milyard 71 milyon ABŞ dolları təşkil edir [3, s.11].

İşğal altında qalan ərazilərimizdəki tarixi abidələrə siklop tipli memarlıq abidələri, daş üzərində oymalar, antik qalalar, at-qoç fiqurları, körpülər, məscidlər, türbələr, su dəyirmanları, kahalar və s. daxildir. Ermənistan Respublikası 1992-1993-cü illərdə Azərbaycan ərazilərini işğal etdikdən sonra qeyri-qanuni olaraq Azərbaycanın daşınmaz tarix və mdəniyyət abidələrinin memarlıq quruluşunda və interyerində də dəyişikliklər etmiş, divar yazılarını korlamış, abidələrin divarları üzərində olan çoxlu sayda daş yazıları, eləcə də alban dövrünə məxsus bir çox bədii üslubda işlənmiş ornament və simvolları tamamilə silmiş, onlardan bir çoxunun isə formalarını dəyişdirərək tanınmaz hala salmışlar. Bu ərazilərdə ermənilər qanunsuz arxeoloji qazıntılar aparır, xaraba qalmış kəndlərdə kilsələr tikir, toponimləri dəyişdirir, Azərbaycanın maddi-mədəniyyət nümunələrini mənimsəyib, əraziləri erməniləşdirməklə məşğul olurdular.

Tarixi yaddaşımızı silmək erməni vandallarına qismət olmadı və əksinə, işğaldan azad olunan torpaqlarımızda yenidən tarixi izlərimizi bərpa etməyə ruhlanlandırdı, səfərbər etdi. Şübhə yoxdur ki, işğaldan azad olunmuş torpaqlarımızda Azərbaycan xalqının tarixi abidələri yenidən bərpa olunacaq, bəşəriyyətin ixtiyarına veriləcək. Prezident İlham

Əliyevin dediyi kimi, işğaldan azad olunmuş şəhərlərimizi yenidən abadlaşdıracağıq, o kəndlərə qayıdacağıq: “Biz öz torpaqlarımızı yenidən abad, müasir şəhərə çevirəcəyik. Bu torpaqlara yenidən həyat qayıdacaq” [2, s.6].

**Ədəbiyyat siyahısı**


1. Hacıyev Q. Qarabağın maddi və mənəvi mədəniyyəti, Bakı, 2010
2. “Xalq” qəz., 1 noyabr 2020, № 227
3. “Respublika” qəz., 23 fevral 2014
4. “Səs” qəz., 21 may 2011
5. http://huquq.org.az/az/publication/damage-to-the-historical-and-cultural-monuments-in-the-occupied-territories-of-azerbaijan/

**Kəmalə Xəlilqızı Yusifova**
**AzərbaycanDillərUniversiteti**

# QARABAĞDA AQROTURİZM: İMKANLAR VƏ PERSPEKTİVLƏR

**Açarsözlər:** aqroturizm, inkişafpespektivləri,sosial-iqtisadiinkişaf,stratejiplanlaşdırma.

**Ключевые слова:**агротуризм, перспективы развития,социально-экономическое развитие,стратегическое планирование.

**Key words:**agritourism, development prospects, socio-economic development, strategic planning.

Azərbaycanın qəti qələbəsi ilə başa çatmış Vətən Müharibəsi Qarabağın yenidən qurulması kimi böyük vəzifələri gündəmə gətirmişdir.

Hər kəsin iştirak etmək istədiyi bu işdə strateji planlaşdırma, imkanların qiymətləndirilməsi, onların reallaşdırılması böyük perspektivlər vəd edir. Lakin postkonflikt dövrünün öz tələbləri vardır. Onlara riayət edilməsi nəinki gələcəyin, həmçinin, bu günün sərt reallıqlarını, iqtisadi və sosial inkişaf prioritetlərini nəzərə almağı tələb edir. Bu baxımdan azad edilmiş ərazilərdə aqroturizmin inkişaf perspektivlərinin araşdırılması aktual hesab edilən məsələlərdəndir.

Ali dövlət rəhbərliyi səviyyəsində Qarabağın dünya üçün nümunə olacaq birbölgəyə çevrilməsi barədə bəyanat, nəinki ölkə vətəndaşlarının, habelə yaxın və uzaq xaricdə yaşayan həmvətənlərin işgüzar fəallığını

təşviq edir. Azərbaycanın iqtisadi qüdrəti və əsaslandırılmış bərpa siyasəti Qarabağın yenidən qurulmasına əminlik yaradır. Eyni zamanda, dost ölkələrin bu işdə iştirakı da təşviq edilir.

Qarabağın dirçəlməsində ora qayıdacaq insanlar əsas rol oynayacaqdır. Kənd ərazilərinin bərpası və kənd təsərrüfatının inkişafı aparıcı istiqamətdir. Aqroturizm xidmətləri öz xərcini daha tez çıxardacaq və kənd yerlərində məşğulluğa müsbət təsir edəcəkdir.

Yüksək texnoloji layihələrin poliqonu olacaq Qarabağda təbiətin əvvəlki vəziyyətinin və gözəlliyinin qaytarılması vəzifəsi də durur. Çünki Ermənistan üç onillikdə həmin ərazilərdə həm də ekoloji terror həyata keçirmişdir. Qeyd olunan və bir sıra məsələlərin həllində turizmin, o cümlədən,aqroturizmin böyük rol oynayacağı, ölkə başçısı tərəfindən bəyan edilmişdir. Mütəxəssis araşdırmalarının nəticələri işğaldan azad edilmiş ərazilərdə aqroturizm imkanlarına nikbin baxmaq üçün kifayət qədər əsas verir.

Azərbaycanın bir çox yerlərindən fərqli olaraq, Qarabağ bölgəsi qışı və yayı mülayim olan yaşıllıqlarla zəngin bir məkandır. Bu cür bənzərsiz təbii-iqlim xüsusiyyətləri bölgədə aqroturizmin və kənd-yaşıl turizmin inkişafı deməkdir.

Aqroturizm (kənd turizmi) turizmin mühüm növü və böyük sosial-iqtisadi, ekoloji və bir sıra digər aspektlərdə böyük əhəmiyyətə malik fəaliyyətlər kompleksidir. Bu sahənin dinamik və dayanıqlı inkişafı isə kənd yerlərinin sosial-iqtisadi inkişafının təmin edilməsi, tarazlı regional inkişafa dəstək verilməsi istiqamətində görülən tədbirlərlə bilavasitə əlaqədardır. Kənd ərazilərində qeyri-aqrar fəaliyyət sahələrində işgüzar

fəallığın təşviqi, qabaqcıl təcrübədən göründüyükimi nəinki həmin ərazilərin, habelə aqrar sahənin inkişafında hərəkətverici amil rolunda çıxış edə bilər.

Qarabağda iqtisadi fəallığın dəstəklənməsi baxımından aqroturizmin roluna münasibət bildirmək üçün, aparılmış tədqiqatların nəticələrinə nəzər salmaq kifayətdir. Bu baxımdan, xarici iqtisadi və turizm ədəbiyyatında geniş yayılmış aşağıdakı mövqe ilə razılaşmağı məqsədəuyğun hesab edirik. "Turizm, xüsusilə kənd turizmi kənd rayonlarının inkişafı üçün vacib vasitədir, resursdur. Kənd turizmi, bazarların qloballaşması şəraitində rəqabətə dözməyən kiçik fermer təsərrüfatlarına inkişaf imkanları verir".

Aqroturizm işğaldan azad edilmiş kənd ərazilərinin idarə edilməsində mühüm amil kimi çıxış etmək iqtidarındadır. İnkişaf etmiş ölkələrdə (İtaliya, Fransa, İspaniya) kifayət qədər böyük regionların sosial-iqtisadi inkişafında aqroturizmin oynadığı rol buna əyani sübut ola bilər. İlk növbədə bu haqqında danışılan regionlara əlavə maliyyə vəsaitləri axını sayəsində artan işgüzar fəallıq sayəsində baş verir. Digər, heç də az əhəmiyyətli olmayan səbəb aqroturizmin daha da şaxələndirilməsi üçün əlverişli şərait yaradan kənd təsərrüfatının çoxfunksiyalılığı amilidir.

Qarabağda kənd təsərrüfatının çoxfunksiyalılığı, özünü daha əyani şəkildə göstəcəkdir. Burada istehsal, turizm, xalq sənətkarlığı, maddi və mənəvi irsin bərpası, işğalçılar tərəfindən tamamilə dağıdılmış kənd ərazilərininin bərpası, infrastrukturun yaradılması proseslərini müşayiət edəcəkdir. Dövlətin həyata keçirdiyi kompleks tədbirlərin gedişi də turistlər, o cümlədən, həmin ərazidəki aqroturistlər üçün maraqlı olacaqdır.

Vətən müharibəsində əldə edilmiş qələbə sayəsində Qarabağın böyük təbii ehtiyatlarının və milli-mədəni sərvətlərimizin bərpası və turizm dövriyyəsinə cəlb edilməsi imkanı yaratmışdır. Bundan sonra, Azərbaycanda böyüyən gənc nəsil, habelə xarici turistlər 30 illik işğal dövründə ermənilərin Qarabağda törətdiyi vəhşiliklərin şahidi olmalıdırlar. Bunun üçün Qarabağda “qara turizm” inkişaf etdirilməlidir. Məlumat üçün bildirək ki, “qara turizm” qismən yeni fəaliyyət növüdür. O dövlətin həyatında faciəli hadisələrlə əlaqədardır. Bu turizm fəaliyyəti Qarabağda erməni vəhşiliyi barədə həqiqətləri dünyaya çatdırmaq vasitəsi olmalı, açıq səma altında muzeylər yaradılmalı, sənədli filmlər nümayiş etdirilməlidir”[3].

Kənd təsərrüfatı istehsalçıları üçün aqroturizmin fəaliyyət sahəsi kimi rəqabət üstünlüyü məsələsi demək olar ki, araşdırılmamışdır. Belə tədqiqatlar fermer təsərrüfatı üçün alternativ və rəqabət qabiliyyətli fəaliyyət kimi aqroturizmin imkanlarını aşkar etməli və qiymətləndirməlidir.Belə tədqiqatların nəticəsi biomüxtəlifliyin təmin olunması və ənənəvi kənd mənzərəsinin qorunması halında turistin tələbatının ödənilməsinin və ya fermer fəaliyyətinin rəqabətüstülüyündə ərazi amilinin rolu barədə bilikləri artırmaqdan ibarət olacaqdır[4].

Doğrudan da biomüxtəliflik amilinə lazımi diqqət verilməsi Qarabağda aqroturizmin inkişafına və aqrar sahənin rəqabət qabiliyyətinin yüksəldilməsi perspektivlərini genişləndirəcəkdir.

Nəhayət onu qeyd edək ki, Qarabağda aqroturizmin inkişafının təşviqi, bu bölgədə urbanizasiya proseslərinin arzuolunmaz tempinin qarşısını ala bilər. Bu isə həyati əhəmiyyətli məsələdir. Qarabağın dinamik

və dayanıqlı inkişafı, həm də tarazlı inkişaf meyarları üzrə nəinki ölkə regionları, habelə dünya üçün nümunə olmalıdır.

## ƏDƏBİYYAT


**1.** Карабах можно превратить в крупнейшее туристическоенаправление на Кавказе//https:// www.trend.az/business/tourism/3376498.html.

**2.**Ə.Cabbarov.İşğal sonrası Qarabağ iqtisadiyyatı və turizmin inkişafı//www.serqqapisi.az/index.php/humanitar/m-d-niyy-t/28655-ishghal-sonras-garabagh-igtisadiyyat-vae-turizmin-inkishaf.html.

**3.**Университет Пурдью, США. Материалы исследовательскойпрограммы. Discoveypark. discoverypark. e-enterprise. purdue.edu .

**4.**https://az.sputniknews.ru/economy/20201201/425328503/turisticheskij-potencial-karabah- vojna.html

**Yusifova Mətanət Rizvan qızı**
**Mingəçevir Dövlət Universiteti**

# VƏTƏN MÜHARİBƏSİNDƏ HƏRBİ TƏCHİZATIN MÜQAYİSƏLİ TƏHLİLİ

**Açar sözlər:** Azərbaycan Ordusu, Şuşa, hərbi əməliyyat, qələbə, pilotsuz uçuş aparatları.

**Ключевые слова:** Азербайджанская Армия, Шуша, военные действия, победа, беспилотные дроны.

**Keywords:** Azerbaijani army, Shusha, military actions, victory, unmanned drones

Azərbaycan Ordusunun Qarabağda 44 gün davam edən hərbi əməliyyatlarının zəfərlə başa çatması xarici ekspertlər üçün çox gözlənilməz oldu. Belə ki, onların fikrincə, müharibənin əvvəlində qarşı-qarşıya duran tərəflərin hərbi qüvvəsi təqribən bərabər idi. Ona görə xarici ekspertlər Azərbaycanın kəskin döyüş səhnələrində çox da irəliləyə bilməyəcəyindən əmin idilər. Müharibə qurtardıqdan sonra hərbi ekspertlər Azərbaycanın hərbi qüvvələrinin döyüşlərdə qazandığı qələbələri və erməni tərəfin məğlubiyyət səbəblərini təhlil edirlər və belə qənaətə gəlirlər ki, 2020-ci il sentyabrın axırı-oktyabrın əvvəllərində, hərbi əməliyyatların ilk mərhələsində Şuşanın Azərbaycan Ordusu tərəfindən azad olunması və Ermənistanın faktiki olaraq sülhə məcbur edilməsi mümkün görünmürdü. Siyasətçilər də inanırdılar ki, təzəcə başlayan hərbi əməliyyatlar tezliklə əvvəllər olduğu kimi Azərbaycanın maksimum bir neçə vacib strateji yüksəkliyi və işğal altında olan kəndlərdən bəzilərini azad etməsilə başa çatacaqdır.

Ermənistanın İctimai radiosunun sabiq başçısı Mark Qriqoryan Şuşa şəhərinin alınması haqda danışarkən şəhərin xüsusi əhəmiyyəti haqda belə deyir: “Şuşa Qarabağın ürəyi, açarı və simvoludur. Bu şəhər regionun paytaxtı sayılan Xankəndidən cəmi bir neçə kilometr aralıdadır və ən əsası odur ki, Qarabağı Ermənistanla bağlayan yol məhz Şuşadan keçir. Bu şəhər bütün Qarabağın mərkəzidir, Xankəndi şəhərinə də buradan nəzarət edilir: birinci Qarabağ müharibəsindəki kimi. Bu müharibədə fərq yalnız qoşunların silah-sursatla təchizatında idi” [2].

1994-cü ildə atəşkəs imzalandıqdan sonra keçən 30 ilə yaxın bir müddətdə Dağlıq Qarabağ münaqişəsi dondurulmuş vəziyyətdə qalırdı. Lakin siyasi cəhətdən dondurulsa da, cəbhə xəttində azərbaycan oğulları yenə də canlarından keçirdi, yenə şəhidlərimiz olurdu. Tərəflər danışıqlar zamanı münaqişəni dinc yolla nizamlamaqdan danışırdılar, eyni zamanda hər iki tərəf müharibəni də istisna hesab etmirdi. Bu isə o demək idi ki, hərbi güc bərpa olunurdu, müharibəyə hazırlıq gedirdi. Maraqlıdır ki, ermənilərin verdiyi statistikada XX əsrin axırlarında alınan silah-sursat haqqında dəqiq məlumat demək olar ki, yoxdur. Ona görə də tərəflərin hərbi potensialını qiymətləndirmək mümkün deyil, lakin 2000-ci illərdə tərəflərin silahlanması barədə mənbələrin verdiyi məlumata görə Azərbaycan bu işdə daha fəal olmuşdur. Təbii ki, bu da neftdən gələn gəlirin sayəsində mümkün idi. Rusiyanın məşhur politoloqu V.Kaşin göstərir ki, 2014-cü ildə Azərbaycanın hərbi xərcləri ÜDM-un 5,1 %-ni, Ermənistanın hərbi xərcləri isə ÜDM-un 4,29% təşkil etmişdir. Bu dövrdə Azərbaycanın hərbi büdcəsi 3-5 dəfə Ermənistanın hərbi büdcəsindən artıq olmuşdur. Hətta bəzən Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütöv dövlət büdcəsindən də çox olurdu [3]. 2010-cu illərin II yarısında

Azərbaycan silah-sursat alınmasını azaltdı, ekspertlərin fikrincə, bu onunla əlaqədar idi ki, artıq hərbi qüvvələr kifayət qədər silahla təchiz edilmişdi.

Müharibə başlamazdan bir il əvvəl Azərbaycan Türkiyədən silah alınması prosesini sürətləndirdi. O dövrdə Reyter agentliyinin verdiyi məlumata görə bu ölkədən silah alınması 6 dəfə artdı, o cümlədən 2020-ci ilin avqust ayında 36 mln dollar, sentyabr ayında isə 77 mln dollar həcmində olmuşdur. Qarabağ müharibəsində müvəffəqiyyətlə istifadə olunan "Bayraktar" pilotsuz təyyarələrini də Bakı, məhz, 2020-ci ildə əldə etmişdi. Azərbaycan İsraildən və Rusiyadan da xeyli silah idxalını reallaşdırmışdı [1].

Ekspertlər etiraf edir ki, Azərbaycan hərbi xərclərini planlaşdırılmış və düşünülmüş şəkildə reallaşdırması ilə fərqlənirdi. Hökumət külli miqdarda vəsaiti hərbi işdə yeni tendensiyaları və Yaxın Şərqdəki döyüş təcrübəsini diqqətlə öyrənməklə xərcləyirdi. Qarabağ müharibəsinə də, nəinki hərbi aspektdən, həm də siyasi, iqtisadi və təbliğat cəhətdən güclü və nümunəvi hazırlıq aparılmışdı.

2010-cu illərin ortalarında Ermənistanda da silahlanma prosesi gedirdi. Dünya problemləri üzrə Stokholm Beynəlxalq Tədqiqat İnstitutunun verdiyi məlumata əsasən 2014-2019-cu illərdə burada hərbi idxalın həcmi 2009-2014-cü illərə nisbətən 3,5 dəfə artmışdı. Məlumatda qeyd olunur ki, nəzərə alınmalıdır ki, 2014-2015-ci illərdə bu ölkə ümumiyyətlə silah-sursat idxal etməmişdi [2].

Erməni ekspertlər bəzi silahların idxalını tənqid edərək deyirdilər ki, 2019-cu ildə Rusiyadan gətirilən 4 ədəd Su-30SM ağır qırıcıları həm çox

qiymətli (bahalı), həm də Qarabağdakı hərbi səhnə üçün artıq olduğuna görə mənasız idi. Onların fikrincə, döyüşlər də göstərdi ki, bu təyyarələr HHM qurğuları kimi effektli deyildi. Bundan əlavə Ermənistanın İordaniyadan aldığı "Osa AK" zenit-raket kompleksi də hərbi ekspertlərin mənfi rəyinə tuş gəldi, belə ki, onlar üçüncü ölkə sayılan bir dövlətdən alınan köhnəlmiş qurğulardansa, Rusiyadan müasir zenit-raket komplekslərinin idxalını üstün hesab edirlər.

V.Kaşin ermənilərin məğlub olma səbəbi kimi Azərbaycandakı qədər təbii ehtiyatlarının olmamasını göstərir. O, erməni döyüşçülərinin və şəxsi heyətin mənəvi-psixoloji keyfiyyətlərinin yüksək olmasından danışır, sübut etməyə çalışır ki, onlar müdafiəni çox yaxşı təşkil etmişdilər. Yəni Kaşin müharibədə məğlubiyyətin bütün məsuliyyətinin hakimiyyətin üzərinə düşdüyünü israr edir. Halbuki Azərbaycanın igid döyüşçülərinin hücuma keçdiyini görən erməni əsgərlərinin silahı, ağır texnikanı döyüş meydanında qoyub qaçması haqda saysız-hesabsız faktlar göstərmək olar.

Hər iki dövlət müharibədən əvvəl, 29 iyul-10 avqust tarixlərində hərbi təlimlər keçirirdi: Azərbaycan-Türkiyə ilə, Ermənistan isə Rusiya ilə. Təlimdən sonra Gəncədə türk qırıcılarının saxlandığını iddia edən ermənilər Su-25 təyyarəsini də onların məhv etdiyini sübut etməyə çalışırdılar. Hərçənd ki, bu fakt heç bir mənbədə öz təsdiqini tapmadı. Lakin sputnikdən çəkilmiş və sonradan amerikalı jurnalist Kristian Tribertin öz tvitterində dərc etdiyi bir fotoda Gəncədə yerləşdirilmiş türk qırıcıları əks olunmuşdur. Elə müharibənin gedişində Azərbaycan Gəncədəki uçuş meydançasında Türkiyəyə məxsus qırıcıların yerləşdirildiyini, lakin hərbi əməliyyatlarda onlardan istifadə olunmadığını bildirdi. Ümumiyyətlə, həm ermənilərin, həm də

Azərbaycan tərəfin kifayət qədər hərbi helikopteri, təyyarəsi və s. olmasına baxmayaraq, bu müharibədə onlardan istifadə olunmadı. Ekspertlərin rəyinə görə, bunun səbəbi o idi ki, tərəflər bir-birinin güclü HHM qurğularının olduğunu bilirdi.

Erməni və rus internet saytları bu müharibədə Azərbaycan Ordusunun qələbəsinə lazımi və layiq olduğu səviyyədə yanaşmırlar, bu da təəccüblü deyil. Onlar “uğurlu hərbi əməliyyatlar planlı və güclü hazırlığın nəticəsi idimi, yoxsa, əsas rolu yaranmış vəziyyətdən düzgün çıxış yolu tapan hərbiçilər oynayırdımı”- bunu müəyyən etməyin çətin olduğunu qeyd edirlər. Rusiyaanın hərbi eksperti Viktor Muraxovskiyə görə Azərbaycan müharibəyə cəbhə boyu geniş miqyaslı kəşfiyyatla başlamışdı. Hərbi əməliyyatların gedişatı zamanı əvvəlcə düşmənin zəif müdafiə olunan yerlərini müəyyənləşdirib cəbhə boyu ermənilərin müdafiə xəttini yarmış, sonra isə irəliləyərək əməliyyatları uğurla başa çatdırmışdı. Bu, Azərbaycanın müharibə dövründə olan strategiya və taktikasının əsası idi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Bayramov V. Azərbaycan Ordusu 44 günlük müharibədə qələbə əldə etdi. https://xalqqazeti.com/az/news/63147
2. Дмитрий Кузнец. Шестинедельная война в Карабахе. https// www.bbc.com./russian/news-54370498
3. Кашин В.Б. Россия в глобальной политике. https://www.bbc.com

Юсифзаде Аида Мамед кызы
Азербайджанский Университет Языков

## «PAX CAUCASIA» КАК НОВАЯ ГЕОПОЛИТИЧЕСКАЯ РЕАЛЬНОСТЬ: КОММУНИКАЦИОННЫЕ ВОЗМОЖНОСТИ И ПРОБЛЕМЫ

**Ключевые слова:** транспортные коммуникации, инклюзивный проект, Pax Caucasia.

Сокрушительная победа Азербайджана во второй Карабахской войне параллельно с освобождением оккупированных Арменией территорий, разблокировала все экономические и транспортные коммуникации Южного Кавказа и ознаменовала начало новой истории для региона, который на протяжении почти трёх десятков лет страдал от армянского вандализма.

Заявление Президента Турции Реджеп Тайип Эрдогана о проекте «платформа шестистороннего сотрудничества»: Азербайджана, Турции, России, Ирана, Грузии и при желании – Еревана, Армении, было целенаправленно на развитие и превращение региона Южного Кавказа в ведущий хаб взаимосвязанных географических и геополитических зон - Центральной Азии и Европы [7]. Реализация данного инклюзивного проекта обусловливает создание Pax Caucasia. Однако на призыв о сотрудничестве во имя мира, необходима адекватная реакция Армении. Только так можно навсегда «перевернуть страницу вражды» в регионе. Этот посыл озвучил Президент Азербайджана Ильхам Алиев на пресс-конференции

